Crossref ÜZVÜ

ISSN: 2664-4975
E-ISSN: 3006-0346

# GEOSTRATEGİYA

2023
№6 (78)

BAKI-2023

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Aleksandr Puxkal (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Əlimusa İbrahimov (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***“GEOSTRATEGİYA”*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların
***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

Member of Crossref

ISSN: 2664-4975
E-ISSN: 3006-0346

# GEOSTRATEGY

2023
№6 (78)

BAKU-2023

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Alimusa Ibrahimov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***“GEOSTRATEGY”*** journal is included in the list of periodicals recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan to publish the main results of the dissertations of the Republic of Azerbaijan on ***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The international socio-political, scientific-theoretical journal is published six times a year.

# Siyasi elmlər

UOT 327; 930.22
DOI:10.30546/3006-0346.2023.6.78.5

## TÜRKİYƏNİN MÜASİR YAXIN VƏ ORTA ŞƏRQ SİYASƏTİ VƏ "STRATEJİ DƏRİNLİK" KONSEPSİYASI

**SULTAN ZAHİDOV**
*Bakı Dövlət Universitetinin Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının dissertantı*
*E-mail: sultanzahidov@gmail.com*

Türkiyədə 2002-ci il seçkilərindən sonra hakimiyyətə gələn Ədalət və İnkişaf Partiyası (AKP) hökuməti keçmiş baş nazir Əhməd Davudoğlunun "Strateji dərinlik" konsepsiyasından qidalanan "Yeni Osmanlıçılıq" ideyalarını rəhbər tutaraq Balkanlar, Qafqaz və Orta Şərq regionlarına yönəlik daha fəal xarici siyasət yürütməyə meyil göstərmiş və beləcə Türkiyənin bəhs olunan regionlarda nüfuz dairəsi daha da artmışdır. Bir çox tədqiqatçılara görə, Türkiyənin AKP dönəmində, xüsusən "Ərəb baharı"nda qədərki xarici siyasətinin əsasını məhz Davudoğlunun "Strateji dərinlik" konsepsiyası təşkil etmişdir.

Qeyd etmək lazımdır ki, AKP dönəmində Türkiyənin xarici siyasət kursu əsaslı transformasiyaya məruz qalmış və bu transformasiya Türkiyənin əvvəlki özünütəcrid siyasəti, yəni "izolyasionizm"-dən, bəzi araşdırmaçıların təbirincə desək, "Yeni Osmanlıçılıq" adlandırılan daha proaktiv xarici siyasətə keçidini təcəssüm etdirir. Bu transformasiyanın baş memarı isə 2003-2009-cu illərdə baş nazir Rəcəb Tayyib Ərdoğanın xarici siyasət məsələləri üzrə məsləhətçisi, 2009-2014-cü illərdə Türkiyənin xarici işlər naziri və son olaraq 2014-2016-cı illərdə Türkiyənin baş naziri vəzifəsini daşımış Əhməd Davudoğludur [8, s. 440]. Davudoğlunun fikirləri bu günə kimi Türkiyənin akademik və siyasət dairələrində geniş müzakirələrə və mübahisələrə səbəb olmaqla bərabər Türkiyənin 21-ci əsrin başlanğıcındakı xarici siyasət kursunun müəyyənləşməsi və istiqamətlənməsində başlıca rol oynamışdır. Onun 2001-ci ildə ərsəyə gətirdiyi "Strateji dərinlik: Türkiyənin beynəlxalq arenadakı yeri" adlı kitabındakı tezislər Türkiyənin xarici siyasətinə yeni baxış bucağı və elementlər gətirməklə bərabər, ölkənin gələcək 10 il üçün geosiyasi, geoiqtisadi və geomədəni istiqamətlərinin əsasını formalaşdırmışdır. Məqalədə "Strateji dərinlik" konsepsiyasının əsas müddəaları və onların Türkiyənin müasir Yaxın və Orta Şərq siyasətini hansı formada şəkilləndirməsi, o cümlədən Türkiyənin, ələlxsüs, "Ərəb baharı"ndan sonra bu konsepsiyadan imtinasının səbəbləri araşdırılmış, "Strateji dərinlik"dən Türkiyənin hazırki Yaxın və Orta Şərq siyasəti xəttinə keçidin başlıca aspektləri təhlil edilmişdir.

"Strateji dərinlik" əsərində Davudoğlu qeyd edir ki, Türkiyənin coğrafi mövqeyi və tarixi dərinliyi onu regional və qlobal səviyyədə baş verən dinamik proseslərdə daha fəal iştirak etməsini zəruri edir. 20-ci əsrin əvvəlində Osmanlı tarixi mirasından bir millət-dövlət olaraq çıxan Türkiyə Cümhuriyyəti əsrin sonlarında bu mirasın geomədəni və geosiyasi öhdəlikləri ilə təkrar üzləşmək məcburiyyətində qalmışdır. Türkiyə xarici siyasətinə yeni üfüqlər və imkanlar qazandıran bu öhdəliklər gələcək dönəmdə türk strateji zehniyyəti və kimliyinin yenidən şəkilləndirilməsində ən ümdə ünsürləri qismində yer alacaqdır [4, s.23]. Əgər 19-cu əsrin Osmanlı İmperiyasının regional miqyasda kifayət qədər nüfuzlu ola bilməməsinin səbəbi dövlətin həmin vaxt zəifləməsi və əsasən status-kvonu və öz hüdudlarının qorunması ilə bağlı olmuşdursa da, 20-ci əsrin Türkiyə Cümhuriyyətinin öz coğrafiyasında lazımı təsir imkanlarına malik ola bilməməsinin səbəbləri, ilk növbədə, həmin vaxt yeni yaranmış Cümhuriyyətin "Kamalizm" doktrinasına söykənən siyasət yürütməsi idi. Kamalizm doktrinasının fundamental prinsipləri Osmanlı keçmişini tərk etməkdən və dinin dövlət siyasətində rolunun heçə endirilməsindən ibarətdir. Bu doktrinanın başlıca qayələrindən biri həm də müasirləşmə və qərbləşmədir [5, s. 49]. "Yurdda sülh, cahanda sülh" şüarını rəhbər tutan bu doktrina daha çox izolyasionizm və ya özünütəcrid siyasətinə üstünlük vermiş və beləcə Türkiyənin xarici siyasətdə daha fəal kurs sərgiləməsinə və regiondakı nüfuzunu artırmasına mane olmuşdur. Həqiqətən də, həmin dönəmdə 30-cu illərdə Hatayın ələ keçirilməsini nəzərə almasaq Türkiyənin Yaxın və Orta Şərq regionunda ciddi fəaliyyətini qeyd edə bilmərik, çünki doktrinanın əsasında Türkiyənin, ilk növbədə, öz daxili məsələlərinə və daxili sabitliyə yönəlik siyasət yürütməsi dayanırdı. Kama-

lizm konsepsiyasına görə, Türkiyə siyasətində milli ordunun roluna kifayət qədər böyük önəm verilirdi. Fikrimizi əsaslandırmaq üçün Türkiyədə baş verən 1960 və 1980-ci illərdəki hərbi çevrilişləri misal çəkə bilərik. Hər iki çevrilişdən sonra Milli Təhlükəsizlik Şurasının Türkiyənin həm daxili, həm də xarici siyasətindəki rolu kifayət qədər artmışdı [1, s.18].

"Soyuq müharibə" dövründə də Türkiyə öncəki xəttini davam etdirərək xarici siyasətini daha çox izolyasionizm və qərb yönümlülüyə bağlamışdı. ABŞ və Sovet İttifaqının ikiqütblü dünyada bir-birinə qarşı rəqabət apardığı dövrdə Türkiyə, bir NATO üzvü kimi qərb ölkələrinin yanında yer almaqla bərabər, bir çox hallarda Yaxın və Orta Şərq regionundakı hadisələrə birbaşa müdaxilə etməyərək ABŞ və İsrailin mövqeyini dəstəkləməklə kifayətlənməli olurdu. Bu cür siyasətin fonunda da bir zamanlar öz əraziləri olan regionda Türkiyənin təsir mexanizmləri xeyli azalmışdı. Bunun səbəblərini aşağıdakı faktorlarla əlaqələndirmək olar:

1. İkiqütblü dünyada Sovet İttifaqı-ABŞ rəqabətinin üçüncü ölkəyə söz sahibi olmaq üçün hər hansı bir imkan buraxmaması

2. Türkiyənin "Kamalizm" doktrinasına sadiqliyi. Əsas qayələrindən biri “Yurdda sülh, cahanda sülh” olan bu doktrina Türkiyəni əsasən daxili məsələlərin həllinə yönəldirdi.

3. İsraillə isti münasibətlər. 1949-cu ildə İsraili dövlət olaraq tanıyan ilk müsəlman ölkə olan Türkiyə 1958-ci il “Periferik paktı” ilə bu münasibətləri daha da inkişaf etdirmiş və bununla regionun, əlǝlxsüs ərəb ölkələri arasındakı nüfuzunu xeyli aşağı salmışdı [2, s.10].

Davudoğluya görə məhz bu cür qeyri-fəal xarici siyasət və sadəcə 50 illik tarixə sahib İsrailə dəstək strategiyası nəticəsində bütün Orta Şərqi 500 il nəzarətdə saxlayan Türkiyə Osmanlı mirasına lazımınca sahib çıxmayaraq regionla dini, mədəni, etnik bağlarını kəsmiş və beləcə regiona yadlaşmaq xəttinə üstünlük vermişdir [4, s.57].

Ötən əsrin 80-ci illərində Türkiyənin daxili siyasətində baş verən başlıca dəyişikliklər ölkənin xarici siyasətinə də təsir göstərməyə başladı. Ələlxsüs Turqut Özalın dönəmində baş tutan siyasi, iqtisadi və sosial islahatlar Türkiyədə demokratiyanın möhkəmlənməsinə səbəb olmuş, ölkənin müasir iqtisadi inkişafının təməlini qoymuşdur. Həmin dönəm Avropa Birliyi ilə müəyyən problemlər yaşayan Türkiyə Yaxın və Orta Şərq regionuna istiqamət almış və nəticədə bir çox türk iş adamları İran, İraq, Liviya və Səudiyyə Ərəbistanı kimi ölkələrdə iqtisadi-sosial layihələr həyata keçirməyə başlamışlar. Beləliklə cümhuriyyət tarixində ilk dəfə Türkiyə iqtisadiyyatı Yaxın və Orta Şərq regionundan asılı duruma düşmüş oldu. Demokratik islahatlar fonunda kürdlərə və digər etnik qruplara müəyyən azadlıqların verilməsi Türkiyədə kimlik transformasiyasının baş tutmasına səbəb olan amillər sırasındadır. Məhz bu dönəmlərdə Türkiyənin siyasi-iqtisadi intellektual dairələrində “Yeni Osmanlıçılıq” konsepsiyası formalaşmağa başladı. “Strateji dərinlik” kitabında Əhməd Davudoğlu “Yeni Osmanlıçılığı” belə izah edir: “1815-ci il Vyana konqresi ilə yaranan yeni dünya düzənində yer almaq istəyən Osmanlı imperiyası yeni beynəlxalq konyunktur və daxili siyasi mədəniyyət arasında balans yaratmaq məqsədi ilə müxtəlif islahatlara əl atdı. Daxili siyasətdə bölünməyin qarşısını almaq məqsədi ilə yeni bir kimlik yaratmağa çalışan Osmanlı imperiyası, xarici siyasətdə də artan dəyərlərə uyğun bir siyasət yürütməyə başladı” [4, s.85].

Daha sonra Turqut Özalın Türkiyəsi ilə bəhs olunan dönəmin Osmanlı siyasəti arasında paralellər aparan Davudoğlu Özal hökümətinin də 1987-1993-cü illər aralığında bəlli islahatlar apardığını qeyd edir. Bu zaman Davudoğlu Tənzimat dönəmi Osmanlısı ilə Özal Türkiyəsinin siyasəti arasında beş ümumi ünsürü önə çəkir:

1. Dövlətin beynəlxalq konyunktura uyğunlaşmaq üçün yenidən formalaşdırılması

2. Dövləti təhdid edən millətçi ünsürləri aradan qaldırmaq üçün yeni bir siyasi kimliyin və mədəniyyətin formalaşdırılması

3. Qərb dəyərləri ilə ənənəvi dəyərlərin sintezini özündə əks etdirən yeni bir mövqeyin mənimsənilməsi

4. Osmanlının 1815-ci ildən sonrakı Avropa sisteminə, Türkiyənin isə "Soyuq müharibə"dən sonrakı dönəmdə Avropa Birliyinə inteqrasiya olmaq cəhdləri

5. 1815-ci ildən sonrakı dönəmdə Avropada hegemon qüvvə sayılan Böyük Britaniya ilə "soyuq müharibə"dən sonra isə ABŞ-la strateji müttəfiqliyin möhkəmləndirilməsi.

Davudoğlu “Strateji dərinlik” əsərində Türkiyənin tarixi mirasdan və coğrafi mövqeyindən maksimum yararlanmalı olduğunu və izolyasionizm siyasətini tərk etməli olduğunu qeyd edir. Türkiyənin coğrafi dərinliyini təhlil edən Davudoğlu ölkənin ətrafındakı regionu 3 hissəyə bölür:

1. Balkanlar, Qafqaz və Orta Şərqi əhatə edən Quru Hövzəsi.

2. Qara dəniz, boğazlar, Egey dənizi, Mərmərə, Aralıq dənizinin şərqi, Qırmızı dəniz və Xəzər dənizinin daxil olduğu Dəniz Hövzəsi

3. Avropa, Şimali Afrika, Şərqi və Orta Asiyadan ibarət Qitə Hövzəsi

Onun fikrincə, Türkiyə özünə qapanma siyasətini tərk edərək bir zamanlar əksər hissələri Osmanlının tərkibində olan bu hövzələrdəki dövlətlərlə yaxın münasibətlər yaratmalıdır. Türkiyə bu regionlarda öz nüfuzunu bərpa etmək üçün yeni kimliyə dayanan çoxölçülü xarici siyasət həyata keçirməlidir. Bu yeni kimlik özündə demokratiya və qərb dəyərlərini, islamı, mədəni və etnik ünsürləri birləşdirir. Yəni, bu o deməkdir ki, Türkiyə Orta Asiya və Qafqaz regionu münasibətləri etnik və mədəni ünsürlərə, Orta Şərq dövlətləri ilə münasibətləri dini ünsürlərə və Balkanlara münasibətləri Qərb dəyərlərinə əsaslanan siyasətlə inkişaf etdirmək iqtidarındadır və Türkiyə bu imkanlardan yararlanaraq bəhs olunan dövlətlərə açılmaq siyasətini həyata keçirməlidir. Davudoğlu "Strateji dərinlik" kitabında yazır: "Dünyanın şimal-cənub və şərq-qərb istiqamətindəki ən strateji mövqeyin mərkəzi xətti üzərində yerləşən Türkiyənin içinə qapanması coğrafi baxımdan mümkün deyildir" [4, s. 556].

"Soyuq müharibə"nin sonu və Sovet İttifaqının dağılması bu konsepsiyanın əhəmiyyətini daha da artırdı, çünki regionda kommunizm-kapitalizm rəqabətinə son qoyulmuş və bununla da Türkiyənin dini, tarixi, mədəni əlaqələrə dayanaraq regionda öz təsir dairəsini artırmasına yaşıl işıq yandırılmış olurdu. Bütün bu hadisələrin fonunda 1990-cı illərdə Türkiyədə kamalist sistemi transformasiyaya uğramış və artıq Körfəz müharibəsindən sonra Türkiyə Yaxın və Orta Şərqdə daha fəal rol oynamağa başlamışdı. Tədqiqatçı Filip Robinsin təbirincə desək, Körfəz müharibəsindən sonra Türkiyənin regional qüvvə kimi əhəmiyyəti artmışdı [7, s.65].

Davudoğlu qeyd edir ki, 90-cı illərdə də Türkiyə xarici siyasəti ritmik və harmonik özəlliklərdən uzaq bir görüntü sərgiləmiş, xarici siyasət prioritetlərindəki ani dəyişikliklər strateji davamlılığı ciddi şəkildə zədələmişdir. Həmin dönəmdə Türkiyənin xarici əlaqələrində davamlı olan yeganə ünsür xarici işlər nazirlərinin davamlı şəkildə dəyişməsi idi [4, s.47]. Nəticə etibarı ilə xarici siyasət kursunda sıx-sıx baş verən dəyişikliklər Türkiyənin uzunmüddətli strategiya mənimsəməsinə və beləcə bir zamanlar Osmanlı coğrafiyasını təşkil edən regionlarda söz sahibi olmasına maneçilik törətmişdir.

"Strateji dərinlik" konsepsiyasına görə, Türkiyənin strateji dərinliyi ona çoxölçülü xarici siyasət yürütmək və beləcə qlobal siyasətdə mərkəzi mövqeyə malik olmaq imkanı yaradır. Məhz bu səbəbdən Türkiyə regional müstəvidə nüfuz sahibi olmaqla kifayətlənməməli, mərkəzi dövlətin daşımış olduğu fərqli regionlardakı öhdəliklərini yerinə yetirməlidir. Türkiyə Orta Şərq, Qafqaz, Mərkəzi Asiya, Aralıq dənizi, Körfəz və Qara dəniz dövlətidir və bütün bu regionlarda nüfuz sahibi olmaq imkanına malikdir. Bu məqsədlərə çatmaq üçün Türkiyə öz "yumşaq güc" potensialından istifadə etməli, xarici siyasətin iqtisadi, mədəni, dini və milli aspektlərini işə salmaqla fərqli regionlarda nüfuz dairəsini artırmalıdır. Türkiyənin qlobal strateji ambisiyalarını yerinə yetirə bilməsi üçün iki şərtin təmin olunması zəruridir. Birincisi, daxili siyasətdə Türkiyə demokratikləşməni dəstəkləməli, islamçılarla dünyəvi qüvvələri barışdırmalı və kürd məsələsini həll etməlidir. İkincisi, beynəlxalq siyasətdə bütün ikitərəfli problemlərini həll etməli və qonşularla olan münasibətlərini yaxşılaşdırmalıdır [11].

Ədalət və İnkişaf Partiyası hakimiyyətə gəldikdən sonra Türkiyənin xarici siyasətdə bu alətlərdən istifadə edərək Yaxın və Orta Şərq regionunda möhkəmlənməyə çalışması özünü çox gözlətmədi. Bu mənada Türkiyənin ilk addımlarından biri kimi ABŞ-in İraq siyasətinə qarşı çıxması və regiona BMT-nin icazəsi olmadan qüvvə göndərilməsini pisləməsi oldu. Bütün bunların fonunda 62 minlik ABŞ əsgərinin 6 ay müddətində Türkiyədə yerləşməsini nəzərdə tutan 1 Mart qətnaməsinin 2003-cü ildə Türkiyə Böyük Millət Məclisindən keçməməsi ABŞ-la münasibətlərdə müəyyən soyuqluq yaratsa da, region xalqları, ələlxsüs İraq ictimaiyyəti önündə Türkiyəyə müsbət xallar gətirdi [3, s.628]. Sonrakı dönəmlərdə İraqdakı yerli dini, etnik qruplarla yaxın əlaqələr saxlayan, İraqdakı türkmənlərin haqqını müdafiə edən Türkiyə müxtəlif sahələrdə çalışan iş adamları vasitəsilə ölkədə bir çox investisiya layihələri həyata keçirərək buradakı təsir dairəsini artırmağa müyəssər olmuşdu.

Türkiyənin regionda fəallıq göstərdiyi digər məsələ İsrail-Fələstin münaqişəsi oldu. Bu münaqişə bir çox müsəlman ölkələrində olduğu kimi, Türkiyə cəmiyyətində də kifayət qədər həssas izlərə malik-

dir. Məsələn, 2000-ci ildə baş tutan səsverməyə görə, ölkə əhalisinin 60 faizi hökumətdən Fələstin məsələsində Türkiyənin daha aktiv rol oynamasını istəmişdi, çünki Fələstinin Türkiyə ilə dərin dini, mədəni, tarixi bağlılığı var. Bütün bunların fonunda Ərdoğan hökuməti dəfələrlə İsrailin təcavüzkar siyasətini pisləmiş və dünya ictimaiyyətini bu münaqişənin həllinə cəlb etməyə çalışmışdı. Türkiyə soyuq müharibə dövründə də müəyyən zamanlarda İsrailin siyasətini tənqid etsə də, o dönəmin geosiyasi şərtləri və ələlxsüs ABŞ-la yaxın müttəfiqlik səbəbindən İsrailə qarşı kəskin mövqe nümayiş etdirə bilmirdi. Türkiyənin Fələstin məsələsinə ciddi yanaşmasını sübut edən faktlardan biri də, onun bir bölməsi Fələstində yerləşən Fələstin İqtisadi Sosial Əməkdaşlıq İdarəsini yaratması oldu. 2005-ci ildə İsrail Qəzzadan çıxdıqdan sonra Fələstinə iqtisadi yardımlar göstərən Türkiyə, münaqişənin həllində vasitəçi ola biləcəyini də dəfələrlə qeyd etmişdi. Sonradan Suriya və İsrail arasında da vasitəçilik missiyasını həyata keçirən Türkiyə 2008-ci il Qəzza hücumlarından sonra bu missiyanı dayandırmalı olmuşdu. Bu hücumlardan sonra Ərdoğan hökuməti İsrail baş naziri Ehud Olmertlə ünsiyyəti kəsmiş və İsrailin əməliyyatlarını "İnsanlığa qarşı cinayət" adlandırmışdı. Ərdoğanı hiddətləndirən əsas məqamlardan biri də, baş nazir Ehud Olmertin əməliyyatlardan beş gün öncə Türkiyədə olması və Ərdoğana hər hansı bir əməliyyata başlamayacağını söz verməsi olmuşdu. Ərdoğanın 2009-cu ildəki məşhur Davos çıxışı və 2010-cu il məlum "Mavi Mərmərə" hadisəsi iki ölkə arasındakı münasibətlərdəki gərginliyin artmasına səbəb olsa da, eyni zamanda Türkiyənin ərəb dünyasında nüfuzunun artması ilə nəticələndi. Tədqiqatçı Bülənt Arasın "Türkiyə və Böyük Orta Şərq" əsərində qeyd etdiyi kimi, Türkiyənin Yaxın və Orta Şərq regionundan kənarda qalmasının əsas səbəbi onun ABŞ və İsrail yönümlü siyasəti olub. İndiki halda bu siyasi kursun dəyişməsi Türkiyənin ərəb dünyasında populyarlığının artması ilə nəticələnməli idi [1, s.27].

AKP-nin hakimiyyəti dönəmində Türkiyə "qonşularla sıfır problem" konsepsiyası çərçivəsində qonşularla, o cümlədən Suriya ilə münasibətləri düzəltməyə meyilli siyasət yürütməyə başladı. Bu yaxınlaşmanın əyani sübutu kimi 2007-ci ildə imzalanan ikitərəfli azad ticarət sazişini və 2009-cu il ölkələr arasındakı viza rejimini ləğv edən sazişi misal göstərmək olar. Nəticədə 2006-2010-cı illər arasında Türkiyədən Suriyaya ixracat 3 dəfə artmış və Suriya Türkiyənin regiondakı ən böyük ticari tərəfdaşlarından birinə çevrilmişdi.

"Strateji dərinlik" konsepsiyası Türkiyə siyasəti üçün 5 alət təklif edir. Birincisi, təhlükəsizlik və azadlıq arasında tarazlığın təmin edilməsi. Bu tezisə əsasən Türkiyə qonşu dövlətlərdə nüfuz sahibi ola bilmək üçün demokratik və təhlükəsiz olmalıdır. İkincisi, qonşularla sıfır problem diplomatiyası, yəni ki, Orta Şərq, Balkanlar və Qafqaz regionlarındakı dövlətlərlə Türkiyənin bütün problemlərinin həll olunmasını nəzərdə tutur. Üçüncüsü, digər regionlardakı dövlətlərlə, o cümlədən Latın Amerikası, Afrika, Avropa və Asiya dövlətləri ilə sıx əməkdaşlıq əlaqələrinə daxil olmanı özündə ehtiva edir. Dördüncüsü, ritmik diplomatiya, yəni, Türkiyənin beynəlxalq təşkilatlar və digər platformalar vasitəsilə beynəlxalq arenada daha fəal olması, beynəlxalq təşəbbüslər həyata keçirməsidir. Beşincisi isə Türkiyənin fərqli regionlarda dini, mədəni, iqtisadi, etnik rıçaqlarını işə salaraq çoxölçülü xarici siyasət tətbiq etməsi vasitəsilə həmin regionlarda öz nüfuzunu artırmasıdır [10].

Türkiyənin strateji dərinliyə əsaslanan xarici siyasəti 2010-2011-ci illərdə baş verən "Ərəb baharı"na kimi müəyyən uğurlu nəticələr hasil etsə də, həmin tarixdən sonra Orta Şərqdə baş verən dinamik hadisələr fonunda Türkiyə xarici siyasət kursunda müəyyən dəyişikliklər etməli olmuşdur. Siyasi araşdırmaçı Tarık Oğuzlunun təbirincə desək, həmin vaxta qədər Türkiyənin yürütdüyü xarici siyasət kursu istər İsrail-Fələstin məsələsinin həllində, istər Suriya və İraq ilə münasibətlərdə, istərsə də Livanda siyasi stabilliyin təmin olunması məsələsində Türkiyəyə önəmli xallar gətirmişdir [9]. Bununla belə, 2010-cu ildə baş verən "Ərəb baharı" və ondan sonrakı hadisələr Türkiyənin "Yeni Osmanlıçılıq" siyasətinə yenidən nəzər salmağı vadar etdi. Regionda mövcud olan hazırkı geosiyasi mənzərəyə nəzər salsaq, görərik ki, Türkiyənin Misir, Səudiyyə Ərəbistanı, Suriya, Liviya, İran və körfəz dövlətləri (Qətər xaric) kimi regional dövlətlərlə, o cümlədən regionda marağı olan Rusiya və ABŞ-la ziddiyyətləri mövcuddur. Bu durum Strateji dərinliyə əsaslanan Yeni Osmanlıçılığın bir o qədər də uğurlu nəticə vermədiyini göstərmiş olur. Belə ki, bu siyasətin əsas hədəfi regional dövlətlərlə münasibətləri inkişaf etdirərək regionda Türkiyənin nüfuzunu artırmaqdı, lakin gözlənilən nəticə əldə olunmadığından və yeni təhdidlərin yaranması səbəbindən Türkiyə "Yeni

Osmanlıçılıq"dan əsasən öz milli təhlükəsizlik maraqlarının təmininə yönəlmiş "Realpolitik" siyasətə keçməli oldu.

Türkiyənin "Strateji dərinlik" konsepsiyasından imtina edərək "Sərt güc" mexanizmlərinə müraciət etməsini aşağıdakı xarici və daxili faktorlarla izah etmək olar:

Xarici faktorlar:

• "Ərəb baharı"ndan sonra bölgədə cərəyan edən vətəndaş müharibələri fonunda bölgədaxili proseslərin dinamikasında dəyişikliklər;

• Regionda İŞİD, PYD/YPG və digər terror qruplaşmalarının fəallaşması;

• Regionun, ümumiyyətlə, geosiyasi və geoiqtisadi cəhətdən Türkiyə üçün mühum əhəmiyyət kəsb etməsi;

• ABŞ, Rusiya və Çin kimi qlobal güclərin bölgədə fəallaşması və öz maraqlarını təmin etməyə çalışmaları;

• İran, İsrail, Misir və Səudiyyə Ərəbistanı kimi regional güclərlə Türkiyənin maraqlarının toqquşması.

Daxili faktorlar:

• Suriya münaqişəsi fonunda ölkəyə axan milyonlarla qaçqın Türkiyənin sosial-iqtisadi durumuna mənfi təsir göstərdi;

• Türkiyənin Suriyada İŞİD və PYD-YPG kimi qruplaşmalarla mübarizəsi fonunda ölkə daxilində ard-arda baş verən terror aktları dövlətin təhlükəsizliyinə böyük zərbələr vurdu;

• AKP daxilində Ərdoğan-Davudoğlu arasında ziddiyyətlər sonuncunun istefa verməsi ilə nəticələndi;

• 2016-cı ilin 15 iyulunda Türkiyədə çevriliş cəhdi ölkədəki siyasi, sosial-iqtisadi həyatı iflic vəziyyətinə qoydu.

Türkiyəli mütəxəssis Hasan Kösebalabanın da qeyd etdiyi kimi, "Qonşularla sıfır problem" ideyası "Ərəb baharı"na kimi Türkiyədə müvəffəqiyyətlə tətbiq olundu. Türkiyə bu ərəfədə İran və Suriya ilə, o cümlədən Balkan dövlətləri ilə münasibətlərini daha da inkişaf etdirdi [6, s.366]. Bundan sonrakı proseslər isə əks effekt verərək Türkiyənin region dövlətləri ilə münasibətlərində mənfi dinamikaya səbəb oldu. 2016-ci ilin 15 iyulunda baş verən qiyama cəhd isə nəinki Türkiyənin daxili siyasətində, eyni zamanda xarici siyasətində də böyük dəyişikliklər yaradan faktorlardan biri oldu. Əvvəllər demokratiyanı yaymaqla, iqtisadi layihələrlə, regiondakı problemlərinin həllində aktiv iştirak etməklə bölgədə nüfuz sahibi olmağı hədəf alan Türkiyə bu siyasi kursdan imtina edərək, ilk növbəti öz təhlükəsizliyinin qeydinə qalmaq məqsədilə yenidən öz daxilindəki problemlərin həllinə yönəlik siyasət yürütməyə başladı.

Nəticə olaraq qeyd etmək lazımdır ki, Türkiyənin AKP dönəmində "Ərəb baharı"na qədərki Yaxın və Orta Şərq siyasəti əsasən Əhməd Davudoğlunun irəli sürdüyü "Strateji dərinlik" konsepsiyasına və bu konsepsiyanın təmin etdiyi alətlərə dayanırdı. Bu konsepsiyaya görə Türkiyənin coğrafi və tarixi dərinliyi "Soyuq müharibə"dən sonra beynəlxalq münasibətlərdə yaranan yeni dinamizm fonunda Türkiyənin daha fəal xarici siyasət yürütməsini zəruri edirdi. Konsepsiya Türkiyə xarici siyasətini "Qonşularla sıfır problem", ritmik və proaktiv çoxölçülü siyasət kimi alətlərlə təmin etməklə bərabər, Türkiyənin bu yolla Yaxın və Orta Şərq, Balkanlar, Qafqaz və Mərkəzi Asiya regionlarında öz nüfuzunu artıra biləcəyini öngörürdü. "Yumşaq güc" mexanizmlərinə əsaslanan bu siyasətin əsasında demokratiya, etnik və mədəni dəyərlər və dini bağlar vasitəsilə Türkiyənin həmin bölgələrdə öz nüfuzunu artıracağı proqnozlaşdırılırdı. Strateji dərinliyə əsaslanan xarici siyasət müəyyən zaman kəsiyində Türkiyənin Orta Şərq regionunda nüfuzuna müsbət təsir etsə də, "Ərəb baharı"ndan sonrakı hadisələr fonunda regionda cərəyan edən hadisələr, regional və böyük güclərin geosiyasi mübarizəsi fonunda "Qonşularla sıfır problem" diplomatiyasının iflasa uğraması və terror təhdidi səbəbindən Türkiyə öz milli təhlükəsizlik maraqlarını təmin etmək üçün bu siyasət kursundan vaz keçərək sərt güc mexanizmlərinə və Realpolitik siyasətin elementlərinə baş vurmalı olmuşdur. Davudoğlunun təbirincə desək, "Strateji dərinlik" tezisinə əsaslanan xarici siyasət kursu Türkiyəni 2023-cü ildə qonşularla heç bir problemi olmayan və dünyanın ən güclü on iqtisadiyyatından biri olan Avropa Birliyi ölkəsinə çevirməli olduğu halda Türkiyənin 2023-cü ildə bu strateji hədəflərdən heç birinə nail ola bilmədiyini qeyd etməliyik. Bununla belə, qeyd olunmalıdır ki, Türkiyə xarici siyasətində son illərdə baş verən bu transformasiya regional geosiyasi reallıqlar və Türkiyənin milli maraqları zərurətindən doğur və Türkiyənin Orta Şərq regionunda söz sahibi olan bir güc olması gerçəkliyini dəyişdirməmişdir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Aras Bülent. Turkey and the Greater Middle East: Istanbul, Tasam Publications, 2004, 172 s*
2. *Arbell Dan. The US-Turkey –Israel Triangle. Washington: Brookings Institution press, 2014, 54 s*
3. *Arı T.A. Geçmişten Günümüze ORTA DOĞU: Siyaset, Savaş ve Diplomasi. İstanbul: ALFA Basım Yayım Dağıtım Ltd.Şti, 2004, 876 s*
4. *Davutoğlu A.M. Stratejik Derinlik: İstanbul, Küre Yayınları, 2001, 584 s.*
5. *Görgen, Ahmet. The Development of Civil Society and the Women's Rights Movements in Türkiye. Zeynep B. Dalaman and Suat Dönmez (eds.): Women in a Global World, Edition III: Empowerment and Challenges. Pp. 47-54. London: Transnational Press london. ISBN: 9781801352185, 2023*
6. *Kösebalaban H. Türk Dış Politikası, Ankara: BigBang Yayınları, 2014, 432 s.*
7. *Robins Philip. Turkey and the Middle East. London: The Royal institute of International Affairs and Pinter Publishers, 1991, 130 s.*
8. *Yeşiltaş M. "Turkey's Quest for a 'New International Order': The Discourse of Civilization and the Politics of Restoration", Perceptions, Vol. XIX Issue 4 (2014), pp. 43-76.*
9. *https://orsam.org.tr//d_hbanaliz/5tarik_9.pdf*
10. *https://cejiss.org/images/issue_articles/2018-volume-12-issue-3/02-lami.pdf*
11. *https://www.academia.edu/3477050/The_Davutoglu_doctrine_and_Turkish_foreign_policy*


## XÜLASƏ


Türkiyənin AKP dönəmində "Ərəb baharı"na qədərki Yaxın və Orta Şərq siyasəti əsasən Əhməd Davudoğlunun irəli sürdüyü "Strateji dərinlik" konsepsiyasına və bu konsepsiyanın təmin etdiyi alətlərə dayanırdı. Bu konsepsiyaya görə, Türkiyənin coğrafi və tarixi dərinliyi "Soyuq müharibə"dən sonra beynəlxalq münasibətlərdə yaranan yeni dinamizm fonunda Türkiyənin daha fəal xarici siyasət yürütməsini zəruri edirdi. Konsepsiya Türkiyə xarici siyasətini "Qonşularla sıfır problem", ritmik və proaktiv çoxölçülü siyasət kimi alətlərlə təmin etməklə bərabər, Türkiyənin bu yolla Yaxın və Orta Şərq, Balkanlar, Qafqaz və Mərkəzi Asiya regionlarında öz nüfuzunu artıra biləcəyini öngörürdü. "Yumşaq güc" mexanizmlərinə əsaslanan bu siyasətin əsasında demokratiya, etnik və mədəni dəyərlər və dini bağlar vasitəsilə Türkiyənin həmin bölgələrdə öz nüfuzunu artıracağı proqnozlaşdırılırdı. Strateji dərinliyə əsaslanan xarici siyasət müəyyən zaman kəsiyində Türkiyənin Orta Şərq regionunda nüfuzuna müsbət təsir etsə də, "Ərəb baharı"ndan sonrakı proseslər nəticəsində regionda cərəyan edən hadisələr, regional və böyük güclərin geosiyasi mübarizəsi fonunda "Qonşularla sıfır problem" diplomatiyasının iflasa uğraması və terror təhdidi səbəbindən Türkiyə öz milli təhlükəsizlik maraqlarını təmin etmək üçün bu siyasət kursunu tərk edərək sərt güc mexanizmlərinə və Realpolitik siyasətin elementlərinə baş vurmalı olmuşdur. Məqalədə "Strateji dərinlik" konsepsiyasının əsas müddəaları və onların Türkiyənin müasir Yaxın və Orta Şərq siyasətini hansı formada şəkilləndirməsi, o cümlədən Türkiyənin "Ərəb baharı"ndan sonra bu konsepsiyadan imtinasının səbəbləri araşdırılmış, "Strateji dərinlik"dən Türkiyənin hazırki Yaxın və Orta Şərq siyasəti xəttinə keçidin başlıca aspektləri təhlil edilmişdir.



**Açar sözlər:** *Strateji dərinlik, Yaxın və Orta Şərq, Yeni Osmanlıçılıq, realpolitik, yumşaq güc, sərt güc, "Qonşularla sıfır problem" siyasəti, ritmik diplomatiya.*


## РЕЗЮМЕ


В период правления ПСР политика Турции на Ближнем и Ближнем Востоке до «арабской весны» в основном основывалась на концепции «стратегической глубины», выдвинутой Ахметом Давутоглу, и инструментах, предоставляемых этой концепцией. Согласно этой концепции, географическая и историческая глубина Турции обусловила необходимость проведения Турцией более активной внешней политики на фоне нового динамизма, возникшего в международных отношениях после «холодной войны». Концепция предусматривала, что Турция может увеличить свое влияние в регионах Ближнего и Среднего Востока, Балкан, Кавказа и Центральной Азии, обеспечивая при этом внешнюю политику Турции такими инструментами, как «нулевые проблемы с соседями», ритмичная и активная многомерная политика. На основе этой политики, основанной на механизмах мягкой силы, прогнозировалось, что Турция увеличит свое влияние в этих регионах посредством демократии, этнических и культурных ценностей и религиозных связей. Хотя внешняя политика, основанная на стратегической глубине, в течение определенно-

го периода времени оказывала положительное влияние на влияние Турции в ближневосточном регионе, из-за событий, разворачивающихся в регионе после «арабской весны», краха дипломатии «нулевых проблем с соседями» и угроза терроризма на фоне геополитической борьбы региональных и великих держав, чтобы обеспечить интересы безопасности, ему пришлось отказаться от этого политического курса и прибегнуть к механизмам жесткой силы и элементам Реалполитики. В статье анализируются основные положения концепции «стратегической глубины» и то, как они формируют современную ближневосточную политику Турции, в том числе причины отказа Турции от этой концепции, особенно после «арабской весны», включая основные аспекты перехода от «стратегической глубины» к современной ближневосточной политике Турции.

**Ключевые слова:** *Стратегическая глубина, Ближний и Средний Восток, неоосманизм, реалполитик, мягкая сила, жесткая сила, Политика «Нулевых проблем с соседями», ритмичная дипломатия.*

**SUMMARY**

During the AKP period, Turkey's policy in the Near and Middle East before the Arab Spring was mainly based on the concept of "Strategic depth" put forward by Ahmet Davutoğlu and the tools provided by this concept. According to this concept, Turkey's geographic and historical depth made it necessary for Turkey to pursue a more active foreign policy against the backdrop of the new dynamism that emerged in international relations after the Cold War. The concept envisaged that Turkey could increase its influence in the regions of the Near and Middle East, the Balkans, the Caucasus and Central Asia, while providing Turkish foreign policy with tools such as "zero problems with neighbors", a rhythmic and proactive multidimensional policy. Based on these policies and soft power mechanisms, Turkey was predicted to increase its influence in these regions through democracy, ethnic and cultural values, and religious ties. Although a foreign policy based on the Strategic depth has had a positive impact on Turkey's influence in the Middle East region over a period of time, due to the events unfolding in the region after the Arab Spring, the collapse of "zero problems with neighbors" diplomacy and the threat of terrorism against the background of the geopolitical struggle of regional and great powers, in order to ensure security interests, he had to abandon this political course and resort to the mechanisms of hard power and elements of "Realpolitik". The article analyzes the main arguments of the concept of "Strategic depth" and how they shaped Turkey's modern Middle East policy, as well as the reasons for Turkey's abandonment of this concept, especially after the Arab Spring, including the main aspects of the transition from the "Strategic depth" to the modern Middle East policy of Turkey which is based on mainly "Realpolitik".

**Key words:** *Strategic depth, Near and Middle East, Neo-Ottomanism, Realpolitik, Soft power, Hard power, "Zero problems with neighbors" policy, Rhythmic diplomacy.*

UOT 32
DOI:10.30546/3006-0346.2023.6.78.12

# LOBBİZM VƏ ONUN SİYASİ PROSESLƏRDƏ YERİ VƏ ROLU

**AYGÜN MUSAYEVA**
*Bakı Dövlət Universiteti,*
*Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi,*
*Politologiya və sosiologiya kafedrasının dissertantı*

*E-mail: aygunnmusayeva@gmail.com*

Lobbi termini hərfi mənada dəhliz, kluar deməkdir. Siyasi terminologiyaya ilk dəfə ABŞ-da XIX əsrin əvvəllərində daxil olmuşdur. Bəzi mənbələrə əsasən (lobbi agent formasında) bu termin ilk dəfə 1829-cu ildə meydana çıxmış və ilk dövrlərdə bu termin vasitəsilə Olbani şəhərinin hökumət binalarının koridorlarında Nyu-York ştatının vəzifəli şəxsləri ilə görüş və tanışlıq axtaran adamlara işarə etmişlər. Sonralar bu termin ölkə paytaxtına köç edərək jurnalistlər tərəfindən hal-hazırki vəziyyətdə qısaldılmış və XIX əsrin 30-cu illərində Vaşinqtonda geniş vüsət almışdır. Elə o zamandan başlayaraq lobbi lobbist, lobbizm terminləri Amerika siyasi leksikonunda ən çox işlədilən terminə çevrilmişdir. Keçən əsrin sonunda (XIX əsr) kapitalizmin inkişafı ilə əlaqədar cəmiyyətin fəaliyyətinin bütün sahələrində dövlət müdaxiləsininin rolu günü-gündən artırdı. Bununla əlaqədar cəmiyyətin qanunvericilik və amirlik fəaliyyətinin təsir və nüfuzu da güclənir [2 s, 8]. Bütün sosial qruplar bu təsiri öz üzərində hiss edirdilər. Elə məhz bununla əlaqədar bu qruplar öz maraq və məqsədlərinin təmin edilməsi, onların həyata keçirilməsi üçün daim dövlət hakimiyyət orqanlarına müraciət etməli olurdular. Bu dövrdə həmin qrupların daimi maraqlarını ifadə edən assosiyaların, sahibkarlar ittifaqlarının yaranması lobbi termininə onun hal-hazırkı mənasının, yəni daima müəyyən qrupların maraqları nöqteyi-nəzərindən çıxış edən adamların təşkilatı mənasını aldı. Elə o zamandan konkret situasiyalarda bu termin müəyyən məzmunlarda müxtəlif cür səslənir. Məsələn: dəmir yol lobbisi, neft lobbisi, şəkər lobbisi, həmkarlar lobbisi kimi sözlər indi də səslənməkdədir. XIX əsrin sonlarında Amerika siyasi elmində maraq-mənafe qrupları nəzəriyyəsi meydana çıxdı və o zamandan başlayaraq lobbi termini həmin teminlərlə bərabər işlədilməyə başlanıldı. Amerika siyasi fikrinə əsasən lobbi termininin 3 əsas mənası vardır:

1. Daha geniş mənada bu termin təzyiq qrupların termini ilə eyni mənada işlənilməməlidir.

2. Nisbətən dar mənada o adamı lobbist hesab etmək olar ki, o pul hesabına digər adamın və ya qrupun mənafeyi naminə konqress üzvlərinə birbaşa müraciət etməklə qanunvericilik prosesinə təsir etməyə çalışır.

3. Daha dar mənada o adamı lobbist adlandırmaq olar ki, o öz fəaliyyətini qanuni qeydiyyatdan keçirir [1 s, 34].

Amerika tədqiqatçıları Adrian və Pressin fikrincə lobbist ictimai siyasətə təsir göstərmək istəyən mənafe qruplarının agent və nümayəndəsidir. Buraya həmçinin müxtəlif hökumət dairələrində səlahiyyət axtaran biznesmenləri, öz şəxsi məqsədlərinin güdən jurnalistləri, konqresmenlə tanışlıq axtaran bütün adamları aid etmək olar. Müasir Amerikan siyasi elmində dövlət hakimiyyət aparatına təzyiq göstərən şəxslərin və qrupların daimi fəaliyyətləri ilə məhdudlaşdırılmır. Sözün geniş mənasında lobbizm anlayışını konqress və icra orqanlarına təsir göstərən barədə ehamlara belə aid etmək olar. Lobbizmə həmçinin bu fəaliyyət çərçəvəsində braşuraların çap edilməsini və televizordakı çıxışılarını da aid etmək olar. Elə buna görə də lobbizm kimi həmçinin bu fəaliyyətə qoşularaq konqresə məktublar göndərən sıravi müəllifləri həmçinin də konqresin fəaiyyətinə təsir göstərmək istəyən korporasiya prezidentini də aid etmək olar. Lobbizmin klassik forması şəxsi görüşlər vasitəsilə qanunvericiyə bilvasitə təsir göstərməklə əlaqədardır. Bu cür lobbizmi bir başa lobbizm adlandırırlar. Qeyd etmək lazımdır ki, ABŞ hətta ali məhkəmənin xüsusi qərarı da lobbizmi hüquqi cəhətdən əsaslandırmış və ona ayrıca tərif də verilmişdir. Bu qərarda qeyd edilir ki, lobbizm kimi yanlız bir başa lobbizm tanınır. Lakin kütləvi informasiya vasitələrinin yüksək inkişaf etməsi ilə əlaqədar olaraq lobbizm öz fəaliyyətdə artıq dolayı təsirlərdən də istifadə etməyə başlayır. Məs: konqresmenə təsir göstərən məqsədilə lobbist artıq onunla şəxsi tanışlıq axtarmayıb televiziya və qəzet vasitəsilə də ona təsir göstərə bilər, müraciət edə bilər. Lobbi fəaliyyətinin mənafe qruplarının ifadəçisi kimi çıxış edir. Adrian və Press yazırdı: “mənafe qrupları ümumi vərdişlər qaydalar əsasında toplanmış adamların yığıncaqlarıdır. Həmin qrup üzvləri cəmiyyətin digər qrupları arasında öz qaydalarını və davranışlarını yaymaq, genişləndirmək məqsədi ilə tələblər irəli sürürlər”. Lobbizmdən danışarkən eyni zamanda təzyiq qruplarından danışmaq da lazım gə-

lir. Bununla əlaqədar lobbizmin icra strukturunu elə bir struktur kimi müəyyən etmək olar ki, müəyyən dövlət hakimiyyət orqanları ilə lobbi münasibətləri daim yeganə və əsas funksiyaları daşımalı olurlar. Bu halda bu struktura, təzyiq qrupları formasında çıxış edən, təşkilatların xüsusi bölmələri, eləcə də təzyiq qruplarının daimi və mütəmadi surətdə müraciət etdikləri və lobbi xidmətləri olan müvafiq müstəqil təşkilatlar daxildir [3 s, 29].

Lobbizmin əsas tədqiqatçılarından biri amerikalı alim L.Milbertin fikrincə, əksər adamlar, yəqin ki, lobbi karyerası barədə heç fikirləşmir. Lakin onların keçmiş fəaliyyətləri, onların əksəriyyət üçün lobbi sahəsinə də qoşulmağa münbit şərait yaradaraq ilk addım rolunu oynayır. Adətən lobbi fəaliyyətinə o adamlar can atır ki, onlar əvvəllər ya siyasətlə məşğul olmuşlar, ya da ki, konqresdə məmur kimi xidmət göstərmişlər. Lobbi vəzifəsinə ən az can atanlar isə biznes sahəsinin adamlarıdır.

Milbert belə bir populyar fikri də təkzib edir ki, əksər lobbistlər məhz keçmiş konqress üzvləridir.

Keçirdiyi sorğulara əsaslanaraq o qeyd edir ki, lobbi kadrlarının əsas mənbəyi qanunverici və icra orqanlarının keçmiş məmurlardan ibarətdir. Bununla əlaqədar, o belə bir faktı da qeyd edir ki, icra orqanları, qanunvericilik orqanlarından daha çox lobbist hazırlayır. Dediklərini isə aşağıdakı səbəblərlə əlaqələndirir:

1) icra orqanlarında əldə edilmiş təcrübə heç də Kapitoliyada əldə edilmişlərdən geri qalmır.

2) qanunverici orqanlarında olduğu kimi, icra orqanları da lobbizmin obyektini təşkil edir. Eyni zamanda icra orqanları daha genişşaxəli aparata malik olduqları üçün onların lobbi kontingentinin potensialı da böyükdür.

3) icra orqanlarının məmurlarını qanunvericilik prosesinə təsirdə özləri iştirak etdikləri üçün onların fəaliyyətlərini müşahidə edən maraqlanan təşkilatlar üçün lobbistlərin 60%-nin konqresdə iş təcrübəsi olmuşdur.

Onun fikrincə, hüquqşünas peşəsi-lobbi kadrlarının əsas mənbəyini təşkil etməsinə baxmayaraq bu fəaliyyət sahəsində əsas yeri tutmur.

Əvvəllər siyasi partiya fəaliyyəti ilə məşğul olan şəxsləri nadir hallarda lobbist vəzifəsinə dəvət edirdilər. Çünki əksər hallarda onların lazımi təcrübələri olmur və bəzən də partiya mənsubiyyəti onlara mane olur.

Ümumiyyətlə isə partiyalılıq lobbi fəaliyyətində bir o qədər də əsas rol oynamır və lobbistlərin partiya fəallıqları çox da yüksək deyildir.

Lobbistlərin professional hazırlıqları üçün işverənlər lobbistlərdən aşağıdakıları tələb edir:

4 əsas sahədə bilik və təcrübənin olması

1) qanunvericilik və siyasi prosesdə

2) hüquqşünaslıqda

3) iş verən adamı maraqlandıran xüsusi suallarda

4) ictimaiyyətlə münasibətdə, yəni təbliğat fəaliyyətində

Bütün bunlara əlavə olaraq lobbist lazımi tanışlıqlara malik olmalı, lazımi əlaqələri qurmağı, münasibətlər yaratmağı, yaxşı çıxış etməyi bacarmalıdır.

Əgər Milbert qeyd edirdisə ki, biznes adamları və korporasiyalar lobbiləşməyə daha az can atırlar, ondan fərqli olaraq son dövrün tədqiqatçıları biznesmenlərin və iri sahibkarlarını bu fəaliyyətə geniş surətdə daxil olmalarını qeyd edirlər.

Məsələn, hələ 1972-ci ildə “Biznes uik” jurnalında “Nə üçün korporasiyalara lobbistlər lazımdır?” başlığı altında dərc edilmiş məqalədə də bu məsələyə toxunulmuşdur. Məqalədə qeyd edilirdi ki, hazırda qanunverici orqanları kompaniyalara güclü təsir göstərdiklərindən həmin kompaniyaların ali rəhbərliyi açıq surətdə öz mənafe və hüquqlarının müdafiəsi naminə hökumətin siyasətinə təsir göstərəcəklərini bəyan edirlər.

Əvvəllər bəzi korporasiyalar - lobbiləşmə imkanları olduqları halda ona üstünlük vermirdilərsə, hal-hazırda bütün korporasiyalar lobbiləşməyə meyillidirlər. Korporasiyaların fəaliyyət sahələri son dərəcədə genişləndiyindən, bəzi hallarda onlar öz problemlərindən daha çox sosial xarakterli problemlərlə məşğul olurlar. Məs: ətraf mühitin çirkləndirilməsinin əleyhdarları bəzi hallarda həmin müəssisələrin fəhlələri ilə birləşərək qanunvericilik orqanlarına və hökumət məmurlarına təsir göstərməyə başlayırlar. Bəzi hallarda bu təsirlərin nəticələri müsbət xarakter daşıyır. Cavab reaksiyası kimi korporasiyalar da lobbi mexanizmlərini gücləndirməyə başlayırlar.

Hökumət biznes sahəsinə daha çox müdaxilə etdiyindən ali rəhbərlərin qayğıları bir qədər də çoxalır və lobbizm rəhbərlərin əsas məqsəd və vəzifələrindən birinə çevrilir. Müxtəlif qruplar tərəfindən göstərilən təzyiqlərə məruz qalmamaq üçün sahibkarlar öz lobbi nümayəndəliklərini yaratmalı olurlar.

Amerika Universitetinin sahibkarlığı öyrənmə mərkəzinin direktoru C.Conson lobbi nümayəndələrinin yerinə yetirdikləri funksiyaları 4 əsas kateqoriyaya ayırır:

I və ən mühüm funksiya informasiyanın toplanmasından ibarətdir.

Korporasiyaların Vaşinqton nümayənləri və informasiyalarla təmin edir. Adətən lobbistlər özləri, hansı informasiyanın faydalı olacağını ayırd edirlər. Bu funksiya çərçivəsində lobbist öz fəaliyyətini aşağıdakı istiqamətdə qurur:

A) konqress və icra orqanları tərəfindən nəzərdən keçirilən qanun layihələri barədə korporasiyaya məlumat verir.

B) konqresdə nəzərdən keçirilmiş qanunların və hökumət sənədlərinin surətlərini korporasiyadakı lazımi şəxslərə göndərir.

V) hökumət idarələrindəki personal, konqress üzvlərinin və komissiyalarda iştirak edən adamlar haqqında informasiyalar toplayır və onların siyahılarını hazırlayır.

Q) korporasiyanın şöbələri olan dairədən seçilmiş konqresmenlərin siyahısını tutur.

D) korporasiyanın siyasəti, onun strukturu oradakı məsul şəxslər haqqında-informasiya bülleteni hazırlayır və konqresdə lazımi adamlara çatdırır.

II funksiya xarici istehlakçıları informasiya ilə təmin etməkdən ibarətdir.

Əksər Vaşinqton nümayəndəlikləri hökumət orqanlarını da məlumatlandırmalı olur. Bu məlumatların əsas hissəsi korporasiyanın fəaliyyəti, onun məhsulları, imkanları və müəyyən problemlərə qarşı münasibətləri ilə əlaqədar olur. Vaşinqton nümayəndəsindən onun səlahiyyəti çərçivəsində hər hansı bir məsələ haqqında məlumat ola bilər.

III funksiya qanunvericilik və icra orqanları ilə əlaqələr qurmaqdan ibarətdir. D.Consonun fikrincə, əsl lobbizm elə budur. Burada ən əsas və mühüm məsələ onunla əlaqədardır ki, lobbist kimə müraciət etməyi, kiminlə lazımi əlaqəyə girməyi əvvəlcədən bilməlidir.

Əgər hər hansı bir konkret məsələyə dair korporasiyadan mütəxəssis tələb edilirsə, lobbist kimdən istifadə etməyi müəyyən edir və ona konqresdə çıxış etməyə köməklik göstərir, çıxış hazırlayır. Lobbist həmçinin konqresdə baş verən siyasi struktur dəyişikliklərini də diqqət mərkəzində saxlamalıdır.

IV funksiya korporasiyanın məhsulunun hökumətə satılmasından ibarətdir:

Əvvəllər lobbi fəaliyyəti ilə bilavasitə məşğul olmuş keçmiş məktəb müəllimi, sonralar həmkarlar işçisi, daha sonralar isə nümayəndələr palatasının üzvü Endryu Baymiller öz işi barəsində belə söyləyirdi:

"Lobbi fəaliyyətinin bir tərəfi həqiqətən də çox ağır işlə əlaqədardır. Lobbist konqresin bütün üzvlərini tanımalı, onların nəyi xoşlayıb nəyi xoşlamadıqlarını aydınlaşdırmalı, onların dostları və düşmənləri, qanunlar barədə məlumatlı olmalı, qanunlar barədə nə lazımsa onu bilməli, hər bir ştatdan olan nümayəndəyə təsir göstərməyi bacarmalıdır. Bu fəaliyyətin digər tərəfi qanunvericilərlə yaxşı münasibətdə olmaqdan, onların rəğbətini qazanmaqdan ibarətdir".

Lobbi fəaliyyətinin həyata keçirilməsi, metod və formaları rəngarəng xarakter daşıyır. Lobbi fəaliyyətinin tədqiqi ilə yaxından məşğul olan L.Milbert bununla əlaqədar xüsusi sorğu da keçirmişdir. Milbert sosioloji anketlərin köməyi ilə öz respondentlərinə aşağıdakı metodların səmərəliliyini qiymətləndirməyi təklif edir:

1. şəxsi arqumentlərin təklif edilməsi
2. tədqiqatların nəticələrinin təqdim edilməsi
3. konqresin komissiyalarındakı müzakirələrində çıxış edilməsi;
4. lobbistin nüfuzlu seçicilərlə əlaqəsi vasitəsi ilə qanunvericiyə təsir göstərilməsi
5. qanunvericiyə onun yaxın və şəxsi dostları vasitəsi ilə təsir göstərməsi
6. qanunvericinin şənliklərə və əyləncələrə dəvət edilməsi
7. seçki kampaniyalarına pulların sərf edilməsi
8. siyasi kampaniyaların keçirilməsində iştirak etməsi
9. seçicilər tərəfindən məktub və teleqram kampaniyalarının təşkil edilməsi
10. qanunvericinin seçki dairəsində onun səsvermələrinin nəticələrinin yayılması
11. təbliğat kampaniyalarının təşkil edilməsi
12. birbaşa rüşvətlərin verilməsi
13. bir neçə təşkilatın birləşmiş lobbiləşməsi

Lobbizmin tədqiqi ilə əlaqədar bir həqiqəti də qeyd etmək lazımdır ki, həqiqətən də seçki prosesi çox baha tədbirdir. Heç də bütün varlı namizədlər öz kampaniyalarını maliyyələşdirmək iqtidarında deyillər. Elə məhz ona görə də onlardan hər biri kənarda "gəlir mənbəyi axtarmalı olur, şəxsi adamlara və təşkilatlara müracət edirlər. Həmin adamların mənsub olduqları partiyaların kassa imkanları onların maliyyə tələblərini ödəmədiyi üçün onlar məcburiyyət qarşısında əlavə mənbələr axtarıb tapırlar. Beləliklə də, hər hansı bir təşkilat və ya şəxs namizədin seçki kampaniyasını maliyyələşdirməklə, onun gələcək davranışını əvvəlcədən müəyyən etmiş olur. Lakin seçki kampaniyalarını və namizədlərin qanunvericilik orqanlarına seçilməsini yalnız pula, nüfuzla da müəyyən etmək də təhrif olardı [4 s, 56].

Milbertin fikrincə, əksər təşkilatlar, pullarını partiya komitələrinin kassalarına deyil, bilavasitə müəyyən namizədin özlərinə verməyə üstünlük verirlər. Bu

halda lobbistin xidmətlərinə böyük ehtiyac duyulur. Çünki məhz lobbist konqresin işini müşahidə etmək, ayrı-ayrı qanunvericilərin davranışlarını görmək, onların maliyyə imkanlarını və baxışlarını bilmək imkanına malikdir. Bütün bunları bildiyindən lobbist mütəmadi olaraq öz təşkilatına yaxınlaşan seçkilər barəsində məlumat verir və hansı namizədin tərəfdarlığa layiq olduğunu qeyd edir [5 s, 70].

Dövlət hüququ üzrə məşhur mütəxəssis olan amerikalı Robert Lorq öz əsərlərindən birində lobbistin müəyyən qanunvericilik layihəsini necə ustalıqla iflasa uğratmasının mərhələlərini qeyd edir. Bu mərhələlər aşağıdakılardan ibarətdir:

1) əgər öz məzmununa görə onun layihəsi bir və ya bir neçə daimi komissiyada müzakirə olunmalıdırsa, onda lobbist nümayəndələr palatasının spikerlərini dilə tutaraq çalışmalıdır ki, qanun lahiyəsi məhz o komissiyaya daxil olsun ki, orada onun "müsbət" həlli üçün imkanlar daha azdır. Əgər bu alınmazsa,

2) onda komissiya sədrini əmin etməyə və dilə tutmağa çalışmalıdır ki, o əlinin altında olan layihəni iflasa uğratsın, keçirməsin (bunun üçün onun əlində müxtəlif vasitələr ola bilər. Məs, o elə qrafik tuta bilər ki, komissiya üzvləri digər komissiyalarda olduqlarından həmin komissiyadakı müzakirələrdə iştirak edə bilməsinlər. Əgər sədr razılaşmazsa onda,

3) komissiya üzvlərinin əksəriyyətini dilə tutub onları əmin etmək lazımdır ki, onlar qanunu ya iflasa uğratsınlar, ya da ki, çoxlu sayda düzəliş etməklə onun əsas məzmununu heçə endirsinlər. Əgər bu da alınmazsa, onda

4) prosedura komissiyasını inandırmaq və dilə tutmaq lazımdır ki, onları həmin sənədi palatanın plenar iclasına ya buraxmasınlar, ya da ki onun məzmununu dəyişsinlər. Burada bir şey alınmazsa, onda

5) öz məqsədlərini əldə etmək üçün palatanın komissiyasına müraciət etsin. Burada da razılıq əldə edilməzsə, onda

6) nümayəndələr palatasını inandırmaq lazımdır ki, plenar iclasda onlar qanunu ya rədd etsinlər, ya da ki onun məzmununu bir qədər yumşaltsınlar, bu da alınmasa,

7) və sənəd gəlib senata çıxarsa onda lobbist 1,2,3,6 mərhələlərdə etdiklərini təkrar etməlidir. (4-5 senatda yoxdur). Əgər qanun layihəsi hər iki palata tərəfindən müəyyən ziddiyyətlərlə qəbul edilərsə və kompromiss variantı işlənib hazırlamaq üçün razılıq komissiyasına göndərilərsə (7-10)

8) onda öz məqsədini əldə etmək üçün bu komissiyadakıları inandırmaq lazımdır. Burada da bir şey alınmırsa, onda

9) prezidenti inandırmaq lazımdır ki, sənədə veto qoysun

10) Konqresi isə həmin vetoya tərəfdar çıxmağa inandırmaq lazımdır [6 s, 16].

Sonunda bu 13 mərhələ bir növ 2 dəfə artmış olur. Bu da onunla əlaqədardır ki, Konqresdə proqramlar adətən bir qanun layihəsi ilə qeyd edilir.

Beləliklə, proqramın iflası ilə əlaqədar apardığı işi lobbist onun maliyyələşdirilməsi ilə əlaqədar aparmalı olur. Təcrübəli lobbistlər bu siyahıya daha çox mərhələlər əlavə edə bilərlər:

Yuxarıda göstərilən mərhələlərdən istifadə etmək üçün gərək qanunvericiliyin bütün sahələrini yaxşı biləsən. Elə məhz buna görə də:

Əksər lobbistlər-konqresin geniş üzvləri və əməkdaşları icra hakimiyyəti orqalarının keçmiş məsul şəxsləri və məmurlardır. Buna görə də, heç şübhəsiz ki, əksər lobbistlər qarşılarına qoyduqları məqsədləri bir növ başqa qapı döymədən məhz evin içində əldə edirlər. Təcrübəli lobbist öz əlaqə və nüfuzundan istifadə etməklə istəklərinə nail olurlar.

Qanunları yaxşı bilmək yolu ilə təsir göstərmək qabiliyyəti lobbistlərin yeganə istedadları demək deyildir. Əksər amerikalı müəlliflərin fikrincə, informasiya da lobbistin istifadə etdiyi ən səmərəli silahdır.

Politoloq Edvard Şneynerin fikrincə, konqresmenlər alim deyil, siyasətçi olduqlarından konqresin informasiya xidmətlərindən aldıqları informasiyanı ən obyektiv, yaxşı və steril informasiya hesab edirlər. Şneyner qeyd edir ki, informasiyanın az olması siyasəti üçün problem deyildir. Konqresin mükəmməl informasiya sistemi olduğundan o qanunvericiləri daimi informasiyalarla təmin edir. Həmin informasiya sistemlərinə konqresdən kənar mənbələri də icra hakimiyyəti orqanlarını və lobbist təşkilatları da aid etmək olar.

Müəyyən bir qanun layihəsini keçirmədən də onu iflasa uğratmaq lobbistin fəaliyyətinin əsasını təşkil edir. Lakin bu işi yerinə yetirməklə bərabər, o, digər vəzifələri də yerinə yetirməli olur. Lobbist mətbuatda rəsmi mənbələrdən və şəxsi əlaqələrindən hakimiyyət orqanları, onların fəaliyyəti, ayrı-ayrı qulluqçuları barədə məlumat toplayır, onları saf-çürük edərək müştərilərinə çatdırır.

Əksər lobbistlər ölkəni səyahətə çıxaraq iş görəcəkləri konqresmenin seçiciləri ilə görüşürlər. Buna baxmayaraq, Milbert tərəfindən aparılmış sorğuların nəticəsinə görə, rəyi soruşulan lobbistlərin 70%-dən çoxu əsas vaxtlarını öz ofislərində keçirərək məruzələr, hesabatlar və digər sənədləri, mətbuatdakı materialları oxumaqla məşğul olur, ya da ki, özləri

konqresdəki müzakirələr üçün hesabatlar və məruzələr hazırlayır, mətbuat üçün məqalə hazırlayırlar.

Beləliklə, qeyd etmək lazımdır ki, lobbist geniş və spesifik informasiyaya malik olur. Əlindəki informasiya vasitəsi ilə o, qanunvericiyə müxtəlif metodlarla təsir göstərə bilər.

Amerikalı tədqiqatçılar belə bir faktı da haqlı olaraq qeyd edirlər ki, təkcə lobbistlər qanunvericilərin marağında deyil, əksinə qanunvericilər lobbistlərə ehtiyac duyurlar.

Əksər hallarda konqresmenlər özləri bəzi informasiya xidmətləri ilə əlaqədar lobbistlərə müraciət edirlər.

Adətən onlar müəyyən bir informasiyanı hamıdan qabaq almağa can atırlar ki, konqresmen müəyyən bir qanun layihəsini müzakirəyə çıxarırsa, əslində güclü arqumentlər olsun.

Bəzi hallarda da qanunverici lobbistə müəyyən bir sənədi keçirmək (əgər onun dairəsinin xeyrinədirsə, ya da ki, iflasa uğratmağa çalışması ilə) müraciət edir. Əgər ona kömək edərsə, onda həmin konqresmenin nüfuzunun öz dairəsində artmasına şərait yaradır.

Lobbistlər konqresmenlərə qanun layihələrinin hazırlanmasında, seçicilərin məktublarına cavab verməkdə, hesabatlar hazırlamaqda kömək edirlər. Bəzən onlar dost konqresmeni çıxışlarla, informasiyalarla təmin edir. Onları dairələrindəki problemlərlə tanış edir. Bəzi lobbistlərin ofisləri bəzi konqresmenlərin ofislərinə əlavədir.

Lobbizmi - əsasən hakimiyyət strukturuna bir başa və dolayısı ilə müxtəlif vasitələrlə təsir göstərmək və müəyyən məqsədləri əldə etmək kimi müəyyən etmək olar. Bu tərifi nəzərdən keçirərkən 3 şeyi dəqiqləşdirmək lazımdır:

Birinci strukturlar dedikdə, müəyyən vəzifələr tutan və qərarlar qəbul edən konkret adamları başa düşmək lazımdır. Belə struktur kimi həm bir nəfər, həm də bir neçə nəfər çıxış edə bilər. Məsələn, bir məsələ deputatlardan asılı ola bilər, digər isə icra hakimiyyətinin başçısından

İkincisi, hər bir məsələnin həll edilməsi həm müsbət, həm də mənfi xarakter daşıya bilər. Elə məhz buna görə də lobbizm öz fəaliyyətində həm pozitiv, həm də neqativ hallara əsaslanır.

Üçüncüsü, lobbizmin yanlız vəzifəli şəxslərin maddi stimullaşdırılması kimi nəzərdən keçirmək düzgün olmazdı (Baxmayaraq ki, bu vasitə lobbizmin əsas alətlərindən biri kimi çıxış edir).

Birbaşa təsirlərindən başqa, yəni qərar qəbul edən şəxsləri birbaşa yolla ələ almaq mümkün olmadıqda dolayı təsirlərindən də, yəni vəzifəli şəxsləri məcbur etmək yollardan istifadə edirlər. Dolayı təsir vasitələrindən biri kimi-şantaj çıxış edir [7 s, 16].

Bütövlükdə lobbizmin cəmiyyətin müəyyən inkişaf səviyyəsinə xas olan qarşıya qoyulmuş məqsədlərin həyata keçirilməsi üçün təbii bir proses kimi qiymətləndirmək olar. Cəmiyyət nə qədər yüksək inkişaf etmişsə, lobbi sistemi də bir o qədər mükəmməl inkişaf edər, daha da professional xarakter daşıyar.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Abbasbəyli A. N. Dünya siyasəti. Bakı: Nurlar, 2011, 257 s*

*2. Сергунин А.А. Регулирование лоббизма в США. М., 2016*

*3. Alllan J. Cigler. Interest Group politics. W., 2008.*

*4. Cigler A.J.& Looms B.A. Interest Group Politics. W., 2016*

*5. International Encyclopedia of Commonications. New-York.,2016*

*6. Ornstein N.J& Elder S. Interest Groups, Lobbying and Policymaking. W., 1978*

*7. Our American government. Washington: US GPO, 2013, 65 p.*

**XÜLASƏ:**

Müasir beynəlxalq münasibətlərdə dövlətə paralel olaraq yeni aktorlar xüsusi olaraq fəallaşmaqdadır. Yeni aktorların fəallaşması dövlətlərin xarici siyasət qərarlarının qəbul olunmasına təsir edir, hətta bir çox hallarda dövləti özlərindən asılı vəziyyə salır. Belə yeni aktorlar sırasında transmilli şirkətləri, qeyri-hökumət təşkilatlarını, ictimai hərəkatları, milli-azadlıq hərəkatlarını eləcə də lobbilərin fəaliyyətini qeyde də bilərik. Xüsusilə, beynəlxalq münasibətlər sisteminin aparıcı dövlətlərində lobbiçiliyin genişlənməsi müşahidə olunmaqdadır.

Müasir proseslər beynəlxalq səviyyədə inkişaf etmiş institutların tətbiqi zəruriyyətini yaratmışdır. Belə institutlardan biri də lobbizm və ya lobbi institutudur. Lobbi artıq dünyanın bir çox ölkələrində açıq fəaliyyət göstərir, eyni zamanda bir çox ölkələrdə öz hüquqi tənzimini də tapmışdır. Belə ki, lobbi institutunun geniş fəaliyyət göstərdiyi, uzunmüddətli tarixə malik olduğu ABŞ-la bərabər, Avropa, Amerika və digər qitələrdə yerləşən ölkələrdə də lobbi fəaliyyəti qanuniləşdirilib və ya bu istiqamətdə konkret işlər görülməkdədir. Dünya dövlətlərində qanunvericiliklə təsbit olunmuş lobbizm praktikası göstərir ki, bu institut, adətən, milli iqtisadiyyatın inkişafı, yeni- yeni sahələrin stimullaşdırılması, iq-

tisadiyyatın ayrı- ayrı sahələrinin, yerli və ya beynəlxalq biznes strukturlarının, milli azlıqların, sosial qrupların maraqlarının qorunması, onların inkişafının təmin olunması istiqamətində fəaliyyətində pozitiv təsir imkanına malik olur.

**Açar sözlər:** *lobbizm, lobbi nümayəndələri, lobbizmin funksiyaları*

## ЛОББИЗМ, ЕГО МЕСТО И РОЛЬ В ПОЛИТИЧЕСКИХ ПРОЦЕССАХ

### РЕЗЮМЕ:

В современных международных отношениях параллельно с государством появляются новые акторы. Активизация новых акторов влияет на принятие внешнеполитических решений государств, а во многих случаях даже ставит государство в зависимость от них. Среди таких новых акторов можно упомянуть транснациональные компании, неправительственные организации, общественные движения, национально-освободительные движения, а также деятельность лоббистов. В частности, расширение лоббизма наблюдается в ведущих государствах системы международных отношений.

Современные процессы создали необходимость применения институтов, разработанных на международном уровне. Одним из таких институтов является лоббистский или лоббистский институт. Лобби уже открыто действует во многих странах мира и в то же время во многих странах оно нашло свое правовое регулирование. Так, лоббистская деятельность легализована или проводятся конкретные работы в этом направлении в странах, расположенных в Европе, Америке и на других континентах, а также в США, где институт лоббирования действует широко и имеет давнюю историю. Установленная законодательством стран мира практика лоббирования показывает, что этот институт обычно способствует развитию национальной экономики, стимулированию новых сфер, защите интересов отдельных сфер экономики, местных или международных бизнес-структур. национальные меньшинства и социальные группы и обеспечение их развития имеет возможность оказывать положительное влияние в своей деятельности.

**Ключевые слова:** *лоббирование, представители лобби, функции лоббирования.*

## LOBBYING, ITS PLACE AND ROLE IN POLITICAL PROCESSES

### SUMMARY:

In modern international relations, new actors appear in parallel with the state. The activation of new actors influences the adoption of foreign policy decisions by states, and in many cases even makes the state dependent on them. Among these new actors we can mention multinational companies, non-governmental organizations, social movements, national liberation movements, as well as the activities of lobbyists. In particular, the expansion of lobbying is observed in the leading states of the system of international relations.

Modern processes have created the need to apply institutions developed at the international level. One such institution is the lobbying or lobbying institute. The lobby is already openly operating in many countries of the world and at the same time in many countries it has found its legal regulation. Thus, lobbying activities have been legalized or specific work is being carried out in this direction in countries located in Europe, America and other continents, as well as in the USA, where the institution of lobbying operates widely and has a long history.

The lobbying practice established by the legislation of countries around the world shows that this institution usually contributes to the development of the national economy, stimulation of new areas, protection of the interests of certain sectors of the economy, local or international business structures. national minorities and social groups and ensuring their development have the opportunity to have a positive impact in their activities.

**Key words:** *lobbying, lobby representatives, lobbying functions*

UOT 327; 930.22.
DOI:10.30546/3006-0346.2023.6.78.18

# MÜASİR DÖVRDƏ CƏNUBİ QAFQAZDA GEOSİYASİ KONFİQURASİYA: POLİTOLOJİ TƏHLİL

**FATİMƏ ABDULLAYEVA**
*Bakı Dövlət Universitetinin dissertantı*
*E-mail: mammadzade91@gmail.com*

Xəzər və Qara dənizlər arasında yerləşən, tarixən də, müasir dövrdə də böyük kommunikasiya xətlərinin üzərində, kontinentlərin qovşağında, Türkiyə, Rusiya və İran kimi region dövlətlərinin maraqlarının kəsişmə xəttində olan Cənubi Qafqaz müasir beynəlxalq münasibətlər sisteminə əsaslı təsir göstərən, yeni geosiyasi reallıqlar yaradan strateji coğrafi mövqeyə malikdir. Regionun belə geosiyasi özəlliyi onu Şərq-Qərb və Şimal-Cənub dəhlizinə çevirmişdir. XX əsrin sonlarında dünyada başlanan "böyük oyunların" mərkəzində olan bu region böyük güclərin sınaq meydanına çevrilmişdir.

Gürcüstan Prezidenti S.Zurabişvili 2022-ci il iyunun 16-da IX Qlobal Bakı Forumunda çıxışında "Cənubi Qafqaz ölkələri arasında əməkdaşlığın yeni mərhələyə yüksəldilməsi üçün biz forma və üsullar tapmalıyıq, çünki bu strateji region yalnız sülh və sabitlik məkanına çevriləcəyi halda transformasiya və inkişafa nail ola bilər. Cənubi Qafqaz ən mərkəzi məkandır, bizim vəzifəmiz bu bölgəyə tarixi və gələcək rolunu qaytarmaqdan ibarətdir" [20] – deməklə regionda gedən geosiyasi mübarizəni qabardaraq region ölkələrinə çağırış etmişdi.

Politoloji təhlil göstərir ki, 2020-2022-ci illərdə regionda baş verənlər Cənubi Qafqazın geosiyasi vəziyyətinə əsaslı dəyişikliklər etmiş, yeni qüvvələr balansını yaratmışdır. Əgər 2008-ci ilin avqustunda baş vermiş Rusiya-Gürcüstan müharibəsi regionun Rusiyanın nüfuz dairəsinə daxil olduğunu göstərirdisə, 44 günlük müharibə və "sülhməramlı" adlandırılan qüvvələrin Xankəndiyə yerləşdirilməsi Rusiyanın regiondakı mövqelərinin daha da möhkəmləndiyini əks etdirirdi. Yaranmış vəziyyət ilk növbədə ABŞ, Fransa və İrandan Cənubi Qafqaz siyasətinə ciddi düzəlişlər etməyi tələb edirdi. Əks halda onların regionda öz nüfuzlarını qoruması böyük risk altında qalmış olurdu.

II Qarabağ müharibəsi nəticəsində regionda təkcə Rusiyanın və Türkiyənin maraqları təsbit olunmadı, həm də bir daha təsdiq olundu ki, Cənubi Qafqazda geosiyasi sabitliyin təminatçısı Türkiyə-Azərbaycan əməkdaşlığıdır. Bu iki dövlət beynəlxalq hüquq normaları çərçivəsində regionda sülh, barış, əməkdaşlıq və inkişafın tərəfdarı kimi çıxış edirdilər. Bu səbəbdən də Türkiyə ilə Azərbaycan arasında əməkdaşlığın daha da dərinləşəcəyini və genişlənəcəyi birmənalıdır ki, bunu baş verməkdə olan sonrakı hadisələr göstərdi.

Hələ 2010-cu il sentyabrın 15-də Bakıda Azərbaycanla Türkiyə arasında iki ölkənin prezidentləri İ. Əliyev və A.Gül arasında imzalanmış Strateji Əməkdaşlıq Sazişinə əsasən iki ölkədən hər hansı birinə qarşı hərbi hücum və ya hücum vəziyyəti olardısa hücuma uğramayan ölkə "bütün imkanlarını istifadə edərək" hücuma uğrayan ölkəni dəstəkləyəcəyi öhdəliyi götürmüşdü. Saziş 2010-cu il dekabrın 21-də Milli Məclis tərəfindən, 2011-ci il fevralın 2-də isə Türkiyə TBMM tərəfindən təsdiq edilmişdi [19].

Sazişə əsasən Əməkdaşlıq Şurasının yaradılmasına dair Bəyannamənin imzalanması mərasimində çıxış edən Prezident İ.Əliyev onun hər iki ölkə üçün əhəmiyyətinə diqqət yetirərək göstərirdi ki, "Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması sadəcə adi bir müqavilə, saziş deyildir, bu bizə imkan verəcəkdir ki, gələcəkdə bütün sahələrdə fəaliyyətimizi birlikdə quraq, əlaqələndirilmiş şəkildə aparaq və bütün sahələrdə daha böyük nəticələrə çataq. Bu saziş bütün sahələri əhatə edir – siyasi əlaqələri, hansılar ki, bu gün ən yüksək zirvədədir. Ticarət əlaqələri, qarşılıqlı sərmayə qoyuluşu, enerji, neft-qaz sahələrindəki əməkdaşlıq, nəqliyyat, dəmir yolu layihələri, mədəniyyət, humanitar sahələr – yəni elə bir sahə yoxdur ki, bu sazişdən kənarda qalsın. Bu bizə imkan verəcəkdir ki, Türkiyə ilə Azərbaycanın əlaqələri bundan sonra da uğurla, sürətlə və daha mütəşəkkil qaydada irəliyə getsin və xalqlarımız daha da birləşsin və daha da sıx əməkdaşlıq etsin" [5].

44 günlük müharibə nəticəsində Cənubi Qafqazda yaranmış yeni geosiyasi vəziyyət milli diplomatiyamızın onilliklər boyu məqsədyönlü şəkildə həyata keçirdiyi və keçirməkdə olduğu siyasətin nəticəsi idi. Belə ki, Azərbaycan Prezidenti H.Əliyevin ABŞ-a 1997-ci ilin 25 iyul – 5 avqustunda ilk rəsmi səfəri nəinki ABŞ, Avropa və Rusiya mətbuatında, habelə Türkiyənin kütləvi informasiya vasitələrində də diqqətlə izlənilmiş və yüksək qiymətləndirilmişdi. "Milliyyət" qəzetinin həmin günlərdə dərc etdiyi ya-

zıda göstərilirdi ki, Ağ Ev "Heydər Əliyevin Qarabağ siyasətinə yaşıl işıq yandırdı" və bu ilin içərisində bu problemə son qoyacağına söz verdi [4]. Həmin qəzetdə gedən başqa bir yazıda qeyd edilirdi ki, "amerikalılar son beş ildə azərbaycanlıları incidən siyasətlərini dəyişdirir və Heydər Əliyevi başlarının tacı edirlər..."

Qəzet yazırdı ki, "Amerika strateji kursunu Bakıya tərəf döndərir. Amerika birdən-birə Azərbaycanın nəinki iş, hətta strateji partnyoru olur [3]."

ABŞ-da çıxan "Nyu-York Tayms" qəzeti Azərbaycan Prezidentinin Vaşinqton səfərini "Azərbaycanın zəfər səfəri" adlandıraraq 1997-ci il 18 avqust tarixli nömrəsində gedən məqalədə H.Əliyevin ABŞ-da qarşılanmasından yazırdı: "Prezident Klinton Əliyevə bir qəhrəmana layiq münasibət nümayiş etdirdi". Yazıda bu səfər ABŞ-ın Cənubi Qafqaz siyasətini yeniləyən və istiqamətləri dəyişən bir səfər kimi qiymətləndirilirdi [8].

Türkiyənin "Sabah" qəzeti ABŞ Prezidenti Bill Klintonun Heydər Əliyevlə apardığı danışıqlarda ölkədəki demokratik və iqtisadi islahatlarla bağlı məlumatları heyranlıqla dinlədiyindən xəbər verir və Amerika prezidentinin Azərbaycanı hər zaman dəstəkləyəcəyi haqqında verdiyi sözdən bəhs edərək yazırdı ki, "erməni lobbisinin bütün maneələrinə baxmayaraq, Heydər Əliyev Bill Klintonla görüşdü və onun hərtərəfli dəstəyini qazandı. Bu, erməniləri çaş-baş saldı" [7]. "Sabah" qəzetində həmin günlərdə gedən başqa bir yazıda isə ABŞ-ın Cənubi Qafqaz siyasətinin dəyişməsinə səbəb olan amillər şərh edilir və göstərilirdi ki, ABŞ-da "Heydər Əliyev çox az dünya liderinə nəsib olan kral kimi qarşılanmış" və səfərin gedişində elə tarixi sənədlər imzalanmışdı ki, Azərbaycan bunun xeyrini və əhəmiyyətini çox sonralar dərk edəcəkdir [8].

Əsrlərin qovşağında milli və xarici mətbuatda gedən materialların təhlili göstərir ki, ABŞ-ın Qafqaz və Mərkəzi Asiya siyasətində Azərbaycana xüsusilə ciddi diqqət verilirdi. Belə ki, Azərbaycan Prezidenti H.Əliyevin ABŞ-a 1997-ci il rəsmi səfəri ərəfəsində, bilavasitə onun rəhbərliyi altında formalaşdırılmış balans siyasəti "Mərkəzi Asiya və Qafqaz bölgəsində ABŞ siyasətinin əsas prinsipləri" adlanan strateji kursla səsləşirdi ki, bu Ümummilli Liderin dünya siyasətinin axarını necə dəqiqliklə obyektiv qiymətləndirdiyinin sübutudur. Reallıq ondan ibarətdir ki, tarix boyu Cənubi Qafqaz və Mərkəzi Asiya regionu bölgədə marağı olan ayrı-ayrı dövlətlərin hərb və siyasət meydanı olmuşdur. Keçən əsrin 90-cı illərinin sonlarında Rusiyanın nüfuzu altında olan Cənubi Qafqazda geosiyasi mənzərə 44 günlük Vətən müharibəsi nəticəsində əsaslı şəkildə dəyişdi. Bu dəyişiklik ilk növbədə Rusiyanın regiondakı mövqelərini NATO blokunun üzvü olan Türkiyə ilə bölüşməsini əks etdirirdi.

Xəzər hövzəsinin enerji resurslarının Avropanın enerji təchizatında və beynəlxalq münasibətlərdə yeri, rolu və əhəmiyyəti dünyanın bütün informasiya vasitələrinin, transmilli şirkətlərin və diplomatiyanın gündəmindədir. Dünyada enerji daşıyıcılarının qiymətlərinin "oynaması" və artan dinamikası fonunda bütün enerji rayonlarında təhlükəli "oyunlar" gedirdi ki, Xəzər hövzəsi bu sırada istisna təşkil etmirdi. Bu baxımdan İngiltərənin "The Daily Star" xəbər saytının 13 noyabr 2007-ci il tarixli nömrəsində gedən yazıda neftin artan qiymətlərinin dünyada güc balansının dramatik yerdəyişməsinə səbəb olması elmi-politoloji baxımdan təhlil edilirdi. Yazının müəllifi qeyd edirdi ki, "2007-ci ilin oktyabr ayından bəri xam neftin bir barelinin qiymətinin 30 doll. artması ABŞ və Avropanın gündəlik neft məsrəflərini ayrı-ayrılıqda 300 milyon dollardan çox artırmışdır. Bu minvalla Orta Asiya ixracatçıları gündəlik 500 milyon dollardan artıq gəlir əldə etmiş olurdular. Bütün bunlar əks-sədası sonra çıxacaq böyük siyasi və iqtisadi hadisələrin başlanğıcıdır. Səudiyyə Ərəbistanının neftdən gəliri 2000-ci ildə 60 milyard dollardan 2007-ci ildə 152 milyard dollara yüksəlmişdi. 1998-ci ildə iflasa uğrayan Rusiya neft gəlirinin hesabına 434 milyard dollar ehtiyyat yarada bilmişdi" [8] ki, bunun siyasi tərəfləri xüsusi təhlil tələb edir. Rusiya və Səudiyyə Ərəbistanının neft gəlirləri digər imperialist dövlətlərində ciddi şəkildə narahatlıq yaradırdı. Təsadüfi deyildi ki, Amerika imperializmi Rusiya, Çin, Səudiyyə Ərəbistanı, İran və bir sıra ərəb dövlətlərinin neft gəlirlərinə nəzarəti ələ keçirmək üçün müxtəlif layihələrlə çıxış etməyə başlamışdı, bunlar "yeni böyük oyunların" müjdəçiləri idi.

Rusiya Yaxın Şərqdə hərbi-siyasi mübarizənin gedişində qazandığı mövqeləri saxlamaq xatirinə ya ümumiyyətlə, ya da müəyyən bir dövr üçün Cənubi Qafqazda Türkiyəyə güzəştə getməli olmuşdur. Bu məsələdə Türkiyənin Cənubi Qafqazda mövqe qazanmasına israrlı olması da özünəməxsus rol oynamışdır. Bir qədər əvvələ aid milli politoloji fikrə görə, Qərb ölkələri Türkiyə və Rusiya arasında hərbi toqquşmanın baş verməsini istəmir (yəqin ki, müəyyən bir dövr üçün-müəl.) və bunu konkret arqu-

mentlərlə bağlayır. Belə ki, Rusiya ilə münaqişə baş verəcəyi təqdirdə "Qərb NATO blokunun üzvü olan Türkiyəni 5-ci maddəyə əsasən müdafiə etmək məcburiyyətində qalacaqdır, belədə isə üçüncü dünya müharibəsi təhlükəsi yarana bilər" [14].

"Həftə içi" qəzeti yazırdı ki, ABŞ-ın Yaxın Şərqdən çəkilməsi 2015-ci ilin payızında Rusiya qırıcısının Türkiyə sərhəddində vurulmasına və iki ölkə arasında əlaqələrin müvəqqəti olaraq kəsilməsinə gətirib çıxardı, ancaq Qərb öz istəyinə çata bilmədi, çünki 2016-cı ilin iyununda baş verənlər Qərbin planlarını pozdu. Baş verənlərdən sonra Türkiyə Yaxın Şərq və Cənubi Qafqaz regionlarında müstəqil geosiyasi aktora çevrildi [17], öz təhlükəsizliyini təmin etmək üçün Rusiyadan bir neçə kompleks S-400 raketləri aldı, belə vəziyyət Rusiya-Türkiyə münasibətlərinin xüsusilə istiləşməsində, ABŞ-la Türkiyə arasında münasibətlərin soyuqlaşmasında özünü göstərdi. ABŞ-ın cavab sanksiyaları isə elə ABŞ üçün mənfi nəticələrə gətirib çıxardı [18]. Türkiyənin Yaxın Şərq və Cənubi Qafqazda belə möhkəmlənməsi Türkiyə-Rusiya əməkdaşlığına stimul verən faktorlardır. Türkiyənin 44 günlük müharibə ərəfəsində Azərbaycanın hərbi-siyasi potensialının möhkəmləndirilməsinə cavab olaraq Rusiyanın Ermənistanda 102-ci bazasını gücləndirməsi müşahidə olunmağa başlasa da, Rusiyanın regionda status-kvonun saxlanmasında maraqlı olması əslində Azərbaycanı elə də təmin etmirdi ki, bunu sonralar baş verən hadisələr açıq şəkildə göstərdi. Laçın dəhlizinə yerləşdirilmiş sülhməramlı qüvvələr Xankəndi ermənilərinin təhlükəsizliyini qorumaq adı altında Rusiyanın Azərbaycanda hərbi bazası rolunu oynayırdı.

Cənubi Qafqazın təhlükəsizlik modeli ilə bağlı hələ keçən əsrin 90-cı illərinin ikinci yarısından etibarən müxtəlif layihələr gündəmə gəlmişdi ki, belə layihələrin təşəbbüsçüsü kimi ilk növbədə Azərbaycan və Türkiyə çıxış edirdilər. Azərbaycanlı müəlliflərdən C.Eyvazov Qərb müəlliflərinin problemlə bağlı münasibətindən çıxış edərək yazırdı ki, həm Cənubi, həm də Şimali Qafqaza böyük təhlükəsizlik kompleksinin hissələri kimi baxıla bilər ki, bu kompleks Azərbaycan, Ermənistan, Gürcüstan, Rusiyanın bir hissəsi və Şimali Qafqazı əhatə etməklə bölgənin gələcəyində həlledici rol oynamaqda davam edəcəkdir. Çünki Qafqaz təhlükəsizlik kompleksinə malik regiondur. Bu, o deməkdir ki, bölgə ölkələrinin hər birinin ayrılıqda milli təhlükəsizliyi real olaraq regiondaxili və regionətrafı ölkələrin milli təhlükəsizliyinə ekvivalentdir [22]. Rusiyanın regionda belə möhkəmlənməsi Qərbdə ciddi qıcıq yaradırdı.

Təsadüfi deyildi ki, ABŞ Dövlət katibinin Avropa və Avrasiya işləri üzrə köməkçisinin müavini Corc Kent bu formata ABŞ-ın Cənubi Qafqazdan kənarlaşdırılması kimi baxdığını açıq şəkildə bildirərək qeyd edirdi ki, bu regionda təhlükəsizliyin təmin edilməsi üçün ən yaxşı razılaşmalar bundan ötrü yaradılmış ATƏT vasitəsi ilə həll olunmalıdır (çünki ABŞ bu təşkilatın üzvü kimi onun qərarlarına təsir etmək imkanlarına sahibdir – müəl.), "Rusiya, Türkiyə və İranın təklif etdiyi 3+3 regional platforması bu ölkələrin regionda təsirini artırmaq üçün yeni dinamikadır..." ABŞ rəsmisi Gürcüstanın bu formata qoşulmaq istəməməsinin səbəblərinə də aydınlıq gətirərək bildirmişdi ki, "gürcülər ərazilərinin 20 faizini işğal etmiş və öz öhdəliklərini yerinə yetirməkdən imtina edən Rusiya ilə danışıqlar masasının arxasına oturmaq istəmirlər" [1].

II Qarabağ müharibəsindən sonra yaranmış reallığa uyğun olaraq Türkiyənin Prezidenti R.T.Ərdoğan «altılıq platforması» təklifi ilə çıxış etdi. Bu təşəbbüsə ilk dəstək verən region ölkəsi isə Azərbaycan oldu. Tezliklə geosiyasi maraqlardan çıxış edən Rusiya da bu təşəbbüsü dəstəklədi. Rusiyanın xarici işlər naziri S.Lavrov iranlı həmkarı Hüseyn Əmir Abdullahianla Moskvada keçirilən mətbuat konfransında bildirmişdi ki, bölgədə "3+3" formatının yaradılması imkanları müzakirə olunur ki, bu formatda Azərbaycan, Ermənistan, Gürcüstan, İran, Rusiya və Türkiyə təmsil olunacaqlar. Başlıca məqsəd qarşılıqlı inama və etibara əsaslanmaqla əməkdaşlığı genişləndirmək, təqdim edilən formatda nəqliyyat və kommunikasiyaların açılmasına nail olmaq, bütün region ölkələri, xalqlarını faydalanacağı əlaqələri inkişaf etdirməkdir [21].

Qeyd edək ki, region ölkələrindən İran hələ XX əsrin 90-cı illərinin ortalarından Qərbin və İsrail dövlətinin Xəzər hövzəsinə daxil olmasını əngəlləmək üçün "3+3" formatında əməkdaşlıq edilməsinə çağırsa da, sonradan baş verənlərin təsiri altında həmin format bir müddət unuduldu. Həmin formatda əməkdaşlığın vacibliyi II Qarabağ müharibəsindən sonra yaranmış yeni reallıqlara uyğun olaraq yeni məzmunda Türkiyə və Azərbaycan tərəfindən gündəmə gətirildi. Həmin təklif bölgə ölkələrinin daxil olacağı "3+3" əməkdaşlıq platformasının (regiondaxili: Azərbaycan, Gürcüstan və Ermənistan; regionxarici: Rusiya, Türkiyə və İran) yaradılmasını nəzərdə tuturdu. Lakin Gürcüstanın Ru-

siyanın iştirak etdiyi bu platformadan imtina etməsi "5+1" formatının ərsəyə gəlməsinə səbəb oldu. Bununla belə, həmin formata daxil olan İranın ziddiyyətli mövqeyi, Ermənistanın yanında olması və Azərbaycana qərəzli münasibəti belə formatda əməkdaşlığın perspektivlərinə kölgə salırdı. Baxmayaraq ki, Azərbaycan Baş nazirinin müavini Ş.Mustafayev iqtisadi əlaqələrin inkişaf etdirilməsi üçün Prezident İ.Əliyevin tapşırığı ilə dəfələrlə İrana səfərlər etmiş, Azərbaycan Müdafiə Nazirliyi hər şeyi öz gözləri ilə görmələri üçün 2022-ci ilin avqust ayında İran Silahlı Qüvvələrinin nümayəndə heyətinin işğaldan azad olunmuş ərazilərə səfərini həyata keçirmişdi. Hazırda dünya yeni geosiyasi vəziyyətin formalaşdığı dövrdə yaşayır, dünyanın təhlükəsizlik arxitekturası yenidən qurulur. İran dövləti də yaxın gələcəkdəki qlobal sistemdə özlərinə güclü mövqe tutmaq istəyindədir, halbuki görünən odur ki, həmin məqsədə çatmaq üçün Azərbaycanla əməkdaşlığın əvəzinə Tehran səhv yoldadır [12].

Cənubi Qafqazda yaranmış yeni geosiyasi vəziyyət regional və regionətrafı dövlətlərdən sıx əməkdaşlıq tələb edir. "3+3" formatında əməkdaşlığın əhəmiyyətini vurğulayan Prezident İ.Əliyev deyirdi ki, "İndi bölgədə nəqliyyat-kommunikasiya sahəsində böyük layihələr müzakirə edilir. Burada əlbəttə ki, Horadiz-Zəngilan dəmir yolu, ondan sonra Zəngilan-Naxçıvan dəmir yolu, Naxçıvan-Türkiyə dəmir yolu layihələri prioritet təşkil edir və digər layihələr də, həmçinin. Çünki hesab edirəm ki, müharibədən sonra yaranmış vəziyyət bölgə ölkələri üçün yeni imkanlar açır. Azərbaycan bu sahədə əməkdaşlığa hazırdır və bu işə öz töhfəsini verməkdədir. Mənim tərəfimdən göstəriş verildi ki, Horadiz-Ağbənd dəmir yolunun layihələndirilməsinə başlansın. Artıq start verildi və digər layihələr də, həmçinin. Burada ən müasir texnologiyalar tətbiq edilməlidir ki, Azərbaycan bu sahədə də daim liderliyi öz əlində saxlaya bilsin" [9].

Türkiyəli müəlliflərdən hərbi-siyasi ekspert Coşqun Başbuğ 44 günlük müharibədən sonra regionda yaranmış geosiyasi konfiqurasiyanın təhlilini verir və region ölkələrinin hər birinin, o cümlədən də İranın davranışını qiymətləndirərək yazırdı: İran regionun aktiv ölkələrindən biridir. Yəni bölgədə baş verən siyasi, hərbi proseslərdə lazımi diqqət tələb edən ölkədir. Ancaq bütün bunlara rəğmən İran Türkiyə və Azərbaycanın göstərdiyi dəstəyə layiq olmayan fikirlər səsləndirməkdədir. Hesab edirəm ki, İranın bu bəyanatları həm siyasi, həm də hərbi xarakter daşıyır. Nəzərə almaq lazımdır ki, Azərbaycanın 30 illik haqq davası olan Vətən müharibəsində İran, həm İslam dövləti, əhalisinin yarısından çoxu Azərbaycan türkləri, həm də qonşu dövlət olmasına rəğmən Azərbaycanın əleyhinə mövqe nümayiş etdirdi [11].

Hazırda dünyada və regionda yaranmış geosiyasi situasiya milli KİV-lə yanaşı, müxtəlif xarici xəbər kanallarının, habelə analitik yazıların mövzusudur. Ciddi şəkildə müzakirə edilən mövzuların içərisində İran və Rusiya ilə bağlı müzakirələr, ilk növbədə, bu ölkələrdə baş verməkdə olanlarla bağlıdır. Milli.az axar.az-a istinadən bildirirdi ki, İran üzrə ekspert Kərim Əsgəriyə görə, Tehran heç vaxt Bakının dost münasibətlərinə adekvat cavab verməyib, belə ki,"1991-ci ildən sonra İran heç vaxt Azərbaycanın öz müstəqilliyini bərpa etməsini, güclənməsini qəbul etməyib, hətta müharibə dövründə dolayı yolla Ermənistanın yanında olub və işğal yolu ilə Azərbaycanın sərhədlərinin dəyişdirilməsi cəhdinə 30 il boyunca etirazını bildirməyib". Müəllif xüsusi olaraq qeyd edirdi ki, II Qarabağ müharibəsində "Azərbaycanın işğal altında qalan ərazilərinin böyük bir qismini, xüsusilə İranla sərhəd əraziləri azad etməsi İranı narahat etdi. Çünki Tehran Qarabağın işğaldan qurtarılması, Azərbaycanın probleminin həllini istəməyib. Azərbaycanın qələbəsi İranı öz siyasətinə yenidən baxmağa məcbur etdi. Prezident və Ali Baş Komandan İlham Əliyev də işğaldan azad olunan İran sərhədindəki rayonlara səfəri zamanı iki ölkə sərhədini "dostluq sərhədi" adlandırıb. Lakin Tehranın ölkə başçısının bu çağırışına, verdiyi mesaja cavabı adekvat olmayıb. Hətta müharibə dövründə və sonra İran sərhədə öz ordu bölmələrini göndərdi, təlimlər keçirdi, Azərbaycanı hədələdi və s. 30 ilə yaxın müddətdə Ermənistana təzyiq üçün sərhəddə təlim keçirməyən İran "müsəlman qardaşım" dediyi Azərbaycana qarşı "əzələ nümayişi" etməyə başlamışdı" [12].

Analitik yazıda İranın Azərbaycanın ərazi bütövlüyünə qarşı etdiyi hörmətsizliyin son təzahürü kimi 12-14 sentyabr tarixlərindəki (2022-ci ildə - müəl.) təxribat zamanı da İranın sərhəddə öz ordu birləşmələrini göndərməsi, İsraillə əlaqələri və s. məsələlər tənqid edilir və bütün bunların səbəblərinə konkret məsələlərlə aydınlıq gətirilirdi. "İranın narahatlığının üç əsas səbəbi var. Bunlar, Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə quru əlaqəsinin bərpa olunması, Türkiyənin sözügedən dəhliz vasitəsilə türk dünyası ilə quru əlaqəsinin yaranması və orada yaşayan soydaşlarımızdır" [12].

ABŞ-ın nüfuzlu mətbuat orqanlarından "Frontpage Magazine" jurnalında nəşr edilmiş "Qafqazda Rusiyaya əlvida?" sərlövhəli məqalədə regionda geosiyasi dəyişikliklər təhlil edilir və Rusiyanın burada mövqelərini saxlamaq üçün sülhməramlılarının erməni separatçılarına dəstək verməklə Üçtərəfli bəyanatın maddələrinin yerinə yetirmədiyinə diqqət yönəldilir. Məqalədə Azərbaycan tərəfinin Rusiya sülhməramlılarının fəaliyyətinə etiraz olaraq Rusiya XİN-ə səkkiz dəfə memorandum ünvanladığı və Rusiyanın nə Qarabağda fəaliyyət göstərən erməni silahlı birləşmələrinin qarşısını almağa, nə də Rusiya sülhməramlılarının yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntıların Ermənistan tərəfindən qeyri-qanuni istismarına son qoymağa müvəffəq olmadığı qeyd edilməklə bu prosesdə erməni iş adamları ilə yanaşı, Rusiya sülhməramlılarının komandanı general Volkovun da iştirak etdiyi göstərilirdi. Müəllif Azərbaycanın təbii sərvətlərinin, o cümlədən qızıl və digər faydalı qazıntıların qanunsuz istismarında İranın da iştirakını əks etdirən sübutları ortaya qoyur, əraziyə 14 İran vətəndaşının gəlişini təşkil etməklə İranın bölgə siyasətinin gizlinlərini açıb göstərirdi. Tezliklə məlum oldu ki, 14 nəfərdən 12-si xeyli sayda erməni icmasının yaşadığı İranın cənub-qərbində yerləşən Xuzistanın İzhe şəhərindəndir [2]. Rusiya-Ukrayna müharibəsinin getdiyi, İranda iğtişaşların xüsusilə genişləndiyi dövrdə Qarabağda qeyd edilən vəziyyət Rusiya sülhməramlılarının fəaliyyət perspektivlərinə yaxşı heç nə vəd etmirdi.

Cənubi Qafqazda cərəyan etməkdə olan proseslərin təhlili göstərir ki, regionda vəziyyət günü-gündən daha gərgin xarakter almağa başlayır. Rusiyanın Qərblə bölgədə mövqe uğrunda soyuq savaşı regionun təhlükəsizliyi və sabitliyinə ciddi təhdidlər yaratmaqdadır. 44 günlük müharibədən sonra regiondan kənarda qalmış ABŞ və Fransanın öz maraqlarını təmin etmək uğrunda mübarizəyə başlaması Rusiya ilə toqquşma riskini gündəmə gətirir. Azərbaycan beynəlxalq hüquq öhdəliklərinə əməl etsə də, eyni konstruktiv mövqeyi nə Ermənistan, nə Rusiya, nə də Qərbin ermənipərəst dairələri sərgiləmirlər. Yaranmış vəziyyət Azərbaycan Prezidenti İ.Əliyevin dediyi kimi, regionu yenidən 44 günlük müharibə dövrünə çəkə bilər [16].

Beynəlxalq aləmdə yeni dünya düzəninin yaranmaqda olduğu dövrdə Cənub Qafqazda vəziyyətin belə gərginləşməsi Rusiyanı, Türkiyəni və İranı "3+3" formatı çərçivəsində daha ciddi şəkildə tədbirlər görməyə vadar edirdi. Xüsusilə İran əvvəllərdə olduğu kimi, belə hesab edirdi ki, "3+3" formatı onun rəqiblərinin, ilk növbədə ABŞ-ın, İngiltərənin, Fransanın və İsrailin regiondakı rolunu azaldacaq və əksinə, burada İran və Moskvanın mövqeyini xeyli gücləndirəcəkdir. Bundan əlavə, platforma İrana və Türkiyəyə danışıqlar prosesində daha üstün mövqe sərgiləməyə imkan verirdi. Gürcüstan regional əməkdaşlığa Rusiyasız, Bakı-Tbilisi-İrəvan üçlü formatında mövqe sərgiləyirdi [21].

Hazırda Rusiya və İranda baş verənlər fonunda regionda geosiyasi mübarizənin yeni konturları cızılmaqdadır. Yaranmış vəziyyətdən çıxış edən İranın xarici işlər naziri Ə.Abdullahiyan qeyd edirdi ki, İran Türkiyənin də daxil olduğu və regionun problemlərini aradan qaldırmaq üçün təklif olunmuş "3+3" formatına qoşulmaqla bağlı keçirilən görüşlər və aparılan müzakirələri güclü bir şəkildə dəstəkləyir. "İran bölgənin problemlərinin bölgə içində aradan qaldırılacağına inanır və buna görə də Türkiyənin də daxil olduğu "3+3" formatını güclü bir şəkildə dəstəkləyirik" [10]. Analoji mövqeyi İran Silahlı Qüvvələrinin Baş Qərargahı da sərgiləmişdi. Baş Qərargah rəisi M.Baqeri xüsusi olaraq vurğulayırdı ki, İran heç vaxt öz ərazisindən Azərbaycan əleyhinə istifadə olunmasına icazə verməyəcəkdir. İran rəsmisinə görə, region dövlətləri aralarındakı problemləri həll etmək imkanlarına malik olduqları üçün Azərbaycan Prezidenti İ.Əliyevin "3+3" formatında əməkdaşlıq layihəsi dəstəklənməli və inkişaf etdirilməlidir [6].

Cənubi Qafqazda regional əməkdaşlığa münasibətdə İranın mövqeyinin belə dəyişməsi, Azərbaycan, Rusiya və Türkiyənin "3+3" formatında əməkdaşlığa hazır olması, Gürcüstanın isə Bakı və İrəvanla birbaşa təmaslara meyilli olması qeyd edilən formatda fəaliyyəti mümkün edirdi. Problem yalnız Ermənistanın "ikibaşlı oyunlarında" idi. Belə ki, "3+3" formatında Gürcüstan istisna olmaqla Cənubi Qafqazda sülh və sabitlik platformasında ilk görüş 2021-ci il dekabrın 10-da Moskvada keçirilmişdi [23]. Xarici işlər nazirləri müavinlərinin iştirak etdiyi bu görüş müzakirəyə çıxarılan məsələlər baxımından regionun perspektivləri üçün əhəmiyyətli idi. Lakin 2022-ci il dekabrın 23-də həmin formatda Moskvada keçirilən ikinci görüşdə Ermənistanın iştirak etməkdən imtina etməsi, Fransa Prezidenti Makronun Azərbaycanın ünvanına ittihamları regional əməkdaşlığa Ermənistanın hansı şəkildə münasibət göstərdiyinin təzahürü idi [13]. Ermənistanın himayədarlarını hansı tezliklə əvəzləmə-

sindən asılı olmayaraq Cənubi Qafqazda sülhün, təhlükəsizliyin və sabitliyin qarantı kimi Azərbaycan və Türkiyə çıxış etməkdədirlər.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. ABŞ Cənubi Qafqazda 3+3 platforma təklifinə münasibət bildirdi/ 2021, 14 mart/https://toplum.tv/sosial/abs-cenubi-qafqazda-3-3-platforma-teklifine-munasibet-bildirdi*

*2. ABŞ mətbuatı Qarabağdakı Rusiya sülhməramlılarının özbaşınalığından yazıb/2022, 20 dekabr/ https://azsiyaset.com/siyaset/12339-ABSh-metbuati-Qarabagdaki-Rusiya-sulhmeramlilarinin-ozbashinaligindan-yazib.html*

*3. Amerikanın Qafqaziya siyasetini deyişen sefer. Milliyyet qəz., 1997, 1 avqust*

*4. Azerbaycan Prezidenti Haydar Əliyevin Vaşinqton seferi ... zefer seferi. Milliyyet qəz., 1997, 1 avqust*

*5. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Strateji Əməkdaşlıq Sazişi imzalanmışdır. Azərbaycan qəz., 2010, 15 sentyabr*

*6. Baş Qərargah rəisi: "İran hər zaman Azərbaycanın yanında olacaq" 26.01.2022 [13:49] https://www.yeniazerbaycan.com/xeberlenti_e65305_az.html*

*7. Dünyanın diqqəttində olan səfər…Ermənilər peşmanlıq içinde. Sabah qəz., 1997, 6 avqust*

*8. Heydər Əliyevin Vaşinqton səfərinin pərdəarxası görünənləri çox əhəmiyyətlidir… Sabah qəz., 1997, 1 avqust*

*9. İlham Əliyevin zəfər salnaməsi. Azərbaycan qəz., 2021, 5 noyabr*

*10. İran da "3+3" formatına qoşulduğunu açıqladı: "Türkiyənin daxil olduğu platformanı dəstəkləyirik" /2021, 6 noyabr/ https://jamaz.info/x%C9%99b%C9%99rl%C9%99r/manset/iran-da-33-formatina-qosul dugunu-aciqladi-turkiy%C9%99nin-daxil-oldugu-platformani-d%C9 % 99st%C9%99 kl%C9% 99yirik/*

*11. "İran əməkdaşlıq təklifimizə cavab vermədi" - Coşkun Başbuğ 14 oktyabr, 2021 11:5/https:// azsiyaset.com/siyaset/6493-Iran-emekdashliq-teklifimize-cavab-vermedi-Coshkun-Bashbug.html*

*12. İranın Bakını hədəfləməsinin üç səbəbi / 2022, 25 sentyabr/ https://news.milli.az/ politics/1073752.html*

*13. Kreml "MƏXFİ" adamı ilə Bakını TƏHDİD EDİR: Qarabağda TƏHLÜKƏLİ OYUN BAŞLADI/2022, 24 dekabr / https://news.milli.az/politics/1093933.html*

*14. Qərb Türkiyə və Rusiya arasında hərbi toqquşmanın baş verməsini istəmir, Xalq cəbhəsi qəz., 2015, 25 dekabr// https://www.xalqcebhesi.az/news/world/12240.html*

*15. Prezident Heydər Əliyevin Vaşinqton səfəri xarici mətbuatın diqqətindədir. Ayna qəz., 1997, 18 avqust*

*16. Prezident İlham Əliyev: "Sentyabr əməliyyatı bizi gələcəkdə böyük problemlərdən sığortalayacaq"/https://oxu.az/politics/677347*

*17. Rusiyanın və Qərbin Yaxın Şərq ssenarisi. Həftə içi qəz., 2016, 18 iyun*

*18. S-400: Türkiye'nin Rusya'dan satın aldığı, ABD'yle krize yol açan füze savunma sistemi. BBC NEWS Türkce, 2021, 27 eylul*

*19. Türkiyə-Azərbaycan Strateji Əməkdaşlıq Sazişi/https://az.wikipedia.org/wiki/T%C 3%BC rkiy% C 9% 99-Az%C9%99rbaycan_Strateji_ %C6%8Fm%C9%99kda% C5%9Fl%C4%B1 q_Sazi%C 5%9Fi*

*20. Zurabişvili: "Cənubi Qafqaz ölkələri arasında əməkdaşlıq yeni mərhələyə yüksəldilməlidir"https://ordu.az/az/news/223767/zurabisvili-cenubi-qafqaz-olkeleri-arasinda-emekdasliq-yeni-merheleye-yukseldilmelidir*

*21. Дипломаты формата 3+3 осудили противодействие общим вызовом в регионе/ https://tass.ru/politika/13171839*

*22. Джаннатхан Эйвазов. Державы и регионы: системный анализ безопасности постсоветского пространства. Стокгольм: Издательский дом CA&CC Press®, 2015. – 320 с. 33*

*23. Закавказская платформа Ердогана… /https://eadaily.com/ru/news/2021/12/09/zakavkazskaya-platforma-yrdogana-moskva- primet-pervoe-zasedanie-v-formate-3-3*

*24. ABŞ Rusiyanın enerji layihəsini tənqid edir // Washington-Post, november 13, 2008*


## XÜLASƏ:


Müasir beynəlxalq münasibətlərin mərkəzində olan regionlardan biri kimi Cənubi Qafqaz geosiyasi mövqeyi, zəngin enerji resurslarına malik olması və beynəlxalq kommunikasiya xətlərinin kəsişmə xəttində yerləşməsi ilə seçilir. Minilliklərin qovşağında bu region ətrafında başlanan "böyük oyunlar" region xalqlarına fəlakətlər gətirdi, etnosiyasi münaqişələr seperatçı qurumların yaradılmasına gətirib çıxardı ki, bununla da Azərbaycan və Gürcüstan respublikalarının ərazi bütövlüyü pozuldu. Lakin 44 günlük

Vətən müharibəsinin gedişində Azərbaycan əraziləri işğaldan azad edildi ki, nəticədə regionda yeni geosiyasi vəziyyət yarandı. Və bu zaman Azərbaycanın xeyrinə işləyir və belə vəziyyət regionda geosiyasi mənzərəyə əsaslı şəkildə təsir göstərməkdədir.

**Açar sözlər:** *Cənubi Qafqaz, Azərbaycan, Türkiyə, İran, İ.Əliyev, R.T.Ərdoğan, "3+3" formatı, geosiyasət, enerji amili, 44 günlük müharibə, diplomatiya, mətbuat, müasir dövr.*

**Fatima Abdullayeva**
**PhD in the Department of International relations**
**Baku State University**

**Geopolitical configuration in the South Caucasus in modern era: political analysis**

**SUMMARY:**
As one of the regions at the center of modern international relations, the South Caucasus is distinguished by its geopolitical position, rich energy resources, and location at the intersection of international communication lines. The "big games" that began around this region at the turn of the millennium brought disasters to the peoples of the region, secessionist ethno-political conflicts led to the creation of separate institutions, which violated the territorial integrity of the republics of Azerbaijan and Georgia. However, during the 44-day Patriotic War, the territories of Azerbaijan were liberated from occupation, which resulted in a new geopolitical situation in the region. This time works in favor of Azerbaijan, and such a situation has a substantial impact on the geopolitical landscape in the region.

**Keywords:** *South Caucasus, Azerbaijan, Turkey, Iran, I. Aliyev, R.T. Erdogan, "3+3" format, geopolitics, energy factor, 44-day war, diplomacy, press, modern era.*

**Фатима Абдуллаева**
**Бакинский Государственный Университет, диссертант**

**Геополитическая конфигурация на Южном Кавказе в новейшее время: политический анализ**

**РЕЗЮМЕ:**
Как один из регионов, находящихся в центре современных международных отношений, Южный Кавказ отличается своим геополитическим положением, богатыми энергетическими ресурсами, расположением на пересечении международных коммуникаций. «Большие игры», начавшиеся вокруг этого региона на рубеже тысячелетий, принесли народам региона катастрофы, сепаратистские этнополитические конфликты привели к созданию отдельных институтов, что нарушило территориальную целостность республик Азербайджана и Грузии. . Однако в ходе 44-дневной Отечественной войны территории Азербайджана были освобождены от оккупации, что привело к новой геополитической ситуации в регионе. И на данный момент это работает в пользу Азербайджана, и такая ситуация оказывает существенное влияние на геополитическую картину в регионе.

**Ключевые слова:** *Южный Кавказ, Азербайджан, Турция, Иран, И. Алиев, Р.Т. Эрдоган, формат «3+3», геополитика, энергетический фактор, 44-дневная война, дипломатия, пресса, современная эпоха.*

UOT 327;930.22
DOI:10.30546/3006-0346.2023.6.78.25

# TÜRKİYƏNİN XƏZƏR REGİONUNDA SİYASİ MARAQLARI

**LƏMAN QOCAYEVA**
*Azərbaycan Turizm və Menecment Universiteti, doktorant*
*E-mail: leman.suleymanli.88@mail.ru*

Müasir dünyada bəzən geoiqtisadiyyat geosiyasəti geridə qoyaraq inkişafın əsas xəttində geostrategiya ilə birləşir. Və əksinə, geoiqtisadi məsələlər iqtisadi mexanizmlərin köməyi ilə həll oluna bilmədikdə, geosiyasi amillər ön plana çıxır.Bəzən iqtisadi sahənin özü siyasi sahəyə nisbətdə daha çevik olur. Dünya xəritəsində istehsal münasibətlərinin milli dövlət sərhədlərindən kənara çıxması ilə siyasi xəritədə görünməyən geoiqtisadi sərhədlər yaranır ki, bunlar da bir neçə ölkədən ibarət sistem yaradaraq dövlətlər sırasında yeni "oyunçular" kimi formalaşırlar. Xəzər hövzəsinə marağı olan yeni aktor sayının artması ilə regionda qeyd olunan iki-üç dövlət sisteminin yaranmasını buna misal göstərmək olar. Xəzər ətrafındakı 5 dövlətdə 250 mln. əhali yaşayır. Xəzərin karbohidrogen ehtiyatlarla yanaşı,zəngin bioresursları da vardır. Məsələn, dünya qara kürü ehtiyatlarının 90%-i Xəzərdə yerləşir. Beynəlxalq hüququn ekologiyalaşmasının təsiri nəticəsində bioloji resursların qorunması vacib məsələyə çevrilib. XX əsrin sonu XXI əsrin əvvəllərində Xəzər hövzəsi ölkələri birinci dəfə dünya iqtisadi münasibətləri sisteminə öz ahəngi ilə yaxınlaşaraq beynəlxalq maliyyə və iqtisadi təşkilatlarda təmsil olunmaq imkanı əldə etdilər. Dünyada enerji resurslarına tələbatın artması, Yaxın Şərq ölkələrində yaşanan qeyri-stabil siyasi vəziyyət Xəzər hövzəsinin beynəlxalq münasibətlər sistemində rolunu daha da artırdı. Amerikanın Nikson İnstitutunun "Energetik superkubok" kitabında qeyd olunduğu kimi,"Volqa çayının mənşəyindən Omana kimi olan ərazi strateji enerji ellipsi adlanır".Müəlliflərin fikrincə, bu ellipsin enerji perspektivliyi ondan ibarətdir ki, o, İranın və bütün Yaxın Şərqin neft yataqlarını özündə ehtiva etməklə dünyanın kəşf olunmuş neft ehtiyatlarının üçdə ikisini, qaz ehtiyatlarının isə 40%-ni özündə cəmləşdirir."Deməli, Xəzər hövzəsi ilə Fars körfəzinə vahid bir konstruksiya kimi baxmaq olar" [7, s.93-94].

Cənubi Qafqaz və Xəzər regionunda öz geosiyasi və geoiqtisadi mövqeyi ilə tanınan və regiona xüsusi marağı olan dövlətlərdən biri Türkiyədir.Türkiyə yerləşdiyi məkana yaxın və uzaq olan regional və qeyri-regional bütün dövlətlərlə hər zaman düşünülmüş ardıcıl dostluq siyasəti yürütməyə çalışmış və ətraf dövlətlərlə bağlı hər cür problemlərin həll olunmasından kənarda qalmamışdır. Məsələn, tərkibində Əfqanıstan, İran, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Pakistan, Türkiyə, Özbəkistan olan İqtisadi Əməkdaşlıq Təşkilatını (İƏT) buna misal göstərmək olar.

Sirr deyil ki, Xəzər dənizi regionunun zəngin yanacaq ehtiyatlarının təsbit edilərək işlənməsi Fars körfəzi ölkələrinin, habelə Rusiyanın maraqlarına ziddir. Xəzərin hüquqi statusunun müəyyən olunması zamanı Xəzəryanı dövlətlər arasında baş verən qarşıdurmada bu özünü çox aydın şəkildə göstərdi. Başlanğıc mərhələdə Rusiya, Türkmənistan və İran eyni mövqedə, Azərbaycan və Qazaxıstan isə digər mövqedə dayanmaqla fikir ayrılığı nümayiş etdirdilər. 2007-ci ilin proqnozlarına görə, Azərbaycanda 7 milyard barrel, Qazaxıstanda 30 milyard barrel, Türkmənistanda 600 milyon barrel, İranda 136 milyard barrel, Səudiyyə Ərəbistanında 262 milyard barrel neft ehtiyatları var. Yaxın zamanlarda Xəzər hövzəsi Yaxın Şərq neftinə ciddi rəqabət göstərə bilməyəcək. Dünya neft ehtiyatlarının 11%-i, qaz resurslarının 18%-i İrandadır. Bununla yanaşı, ölkə tarixən Avropa ilə Asiyanı birləşdirən quru və dəniz yollarını nəzarətdə saxlayan bir məntəqədə yerləşir. İran ərazisindən Xəzər nefti Sakit okean vasitəsi ilə Cənub-Şərqi Asiyaya daşına bilərdi. Amma ABŞ məlum səbəblərdən bu addımın əleyhinədir.

Xəzərin hüquqi statusunun müəyyən olunması Azərbaycan dövləti üçün taleyüklü məsələlərdən biri olmuşdur. Çünki sözügedən statusun Azərbaycanın dövlət maraqlarına uyğun şəkildə müəyyən olunması gələcəkdə irihəcmli enerji layihələrinin gerçəkləşməsi üçün münbit şərait demək idi. Azərbaycanın gerçəkləşdirdiyi mühüm layihələrdə onun tərəfdaşı və enerji resurslarının təhlükəsiz şəkildə Avropa bazarına çıxmasına şərait yaradan əsas tranzit ölkə Türkiyədir. Bu isə Türkiyənin Orta Asiyada, Cənubi Qafqaz və Xəzər regionunda nüfuzunu artırmaqdadır.

Hesablamalara görə, infrastrukturun yaradılması, neftçıxarma və tranzit işlərinə əlavə 200 milyard dollar qoyulsaydı, XXI əsrin ikinci onilliyinin ortalarına Xəzərin neft-qaz hasilatı Rusiya ilə bərabərləşər və hətta onu keçərdi. Türkmənistanın qaz ehtiyatları (35-40 trilyon $m^3$) 26%-lə dünya ehtiyatları arasında ilk yerlərdə sıralanır [4,s.32].

ABŞ ordusu kollecinin professoru S.Blenk qeyd edirdi ki, Mərkəzi Asiya və Xəzər hövzəsinin enerjidaşıyıcıları uğrunda mübarizədə ABŞ və Rusiya kompaniyalarından başqa Hindistan, Çin kompaniyaları da fəallıq göstərir. ABŞ dünyanın hər yerində yeni alternativ neft yataqlarına maraq göstərir. Qazaxıstanın Kaşaqan, Azərbaycanın Tengiz meqastrukturları Amerikanın neftə olan ehtiyaclarının 15%-i deməkdir. Amerika ekspertlərinin birgə rəyinə görə vaxt gələcək Azərbaycan, Qazaxıstan, Türkmənistan OPEK-ə ciddi müqavimət göstərə biləcək. 90-cı illərin ortalarında D.Beyker vurğulayırdı ki, sənaye dünyası üçün Xəzər nefti Fars körfəzi nefti kimi əhəmiyyət daşıya bilər. 2010-cu ildə Şimal dənizində neft istehsalı azaldı və Xəzər nefti Avropa üçün ciddi əhəmiyyət daşımağa başladı. "Ərəb baharı" Qərbin zamanında düzgün addım atdığını göstərdi. Dünya Xəzər hövzəsini neft-qaz məkanı kimi kəşf etdi və nəqliyyat-kommunikasiya dəhlizi haqda düşünməyə başladı.

Z. Bjezinski "Böyük Şahmat Taxtası" əsərində qeyd edir ki, "Tarixdə ilk dəfə olaraq qeyri-avropa ölkəsi Avrasiyada münasibətlərin əsas münsifi olmaqla yanaşı, həm də dünyanın birinci güclü dövləti rolunadək qalxdı"[2,s.56-59].

Şübhəsiz, qeyd olunan fikir Türkiyə dövlətinə ünvanlanır. Cənubi Qafqaz və Xəzər regionunda cərəyan edən hadisələrə, beynəlxalq münasibətlərə Rusiya və ABŞ-dan sonra təsir gücünə malik digər dövlət Türkiyədir. Qafqaz, Mərkəzi Asiya və Xəzər hövzəsi regionunun ən qədim geosiyasi aktorlarından olan Türkiyə regiondakı mövqeyini günü-gündən möhkəmləndirməkdədir. Sovet İttifaqı dövründə bölgədəki prosesləri yalnız öz maraqları deyil, həm də NATO-nun mənafeyi prizmasından izləyən Türkiyə, hazırda NATO maraqlarının müdafiəçisi rolundan bir qədər uzaqlaşaraq öz geosiyasi mənafelərinə diqqət yetirməyə başlamışdır. Qərbin təzyiqlərinə baxmayaraq, Türkiyənin hələ də Ermənistanla münasibətlər qurmaması da bu müstəqil siyasətin göstəricisidir. Bununla yanaşı, ABŞ-ın Cənubi Qafqaz, Xəzər və Mərkəzi Asiyada fəallaşması və bölgədə hərbi iştiraka nail olması Türkiyənin maraqlarına cavab verir. Çünki Ankara ABŞ-ın bu geosiyasi məkandakı maraqlarının reallaşması yolunda əsas müttəfiq rolunda iştirakında iddialıdır. Doğrudur, Qərbdə Türkiyəyə münasibət birmənalı deyil. Amma bu ölkənin mühüm dəniz yollarına nəzarət etməsi, Rusiyanın Qafqazdakı təsirini azaltması və radikal islam fundamentalizminin qarşısında sipər rolunu oynaması Ankaranın Qərb üçün əvəzedilməz müttəfiq kimi qalmasını şərtləndirir. Politoloq Z.Bjezinski bildirir ki, "Türkiyə Rusiyanın cənub sərhədlərində Almaniyanın ABŞ üçün vaxtilə Orta və Şərqi Avropada oynadığı rolu oynamalıdır" [ 2, s.65].

Türkiyənin Qafqaz regionundakı önəmli mövqeyi aşağıdakı faktorlarla əsaslandırılır:

- Türkiyə Qara dəniz regionunda vəziyyətin sabit qalmasında mühüm rol oynayır;
- Aralıq dənizindən Qara dənizə keçidləri nəzarətdə saxlayır;
- Rusiyanın Qafqazdakı mövqelərinin güclənməsinə imkan vermir;
- İslam fundamentalizminə qarşı sipər rolunu oynayır;
- NATO-nun cənubdakı dayağıdır və s. [3, s.123].

Məlumdur ki, enerji resurslarının əldə olunması qədər onların təhlükəsiz təminatla dünya bazarlarına çatdırılması da prioritet məsələlərdəndir. Məhz Xəzərin hüquqi statusunun müəyyən olunmasında Xəzərətrafı dövlətlər arasında mübahisəyə səbəb olan məsələlərdən biri enerji resurslarını daşıyacaq tranzit yolların müəyyən olunması olmuşdur. Xəzər dənizi hövzəsi kimi zəngin enerji qaynaqlarına sahib bir ərazidə sahilyanı dövlətlərin ən böyük çətinlikləri geniş bir quru ərazisinə sıxışıb qalmaları, xarici dünya ilə birbaşa təmasın olmaması olmuşdur. Bu səbəbdən, region dövlətləri tranzit yolu təmin edəcək dövlətlərlə yaxınlaşma və onların torpaqlarından keçiriləcək boru xətləri üçün maliyyə vəsaiti tapmaq və ya xarici neft şirkətləri ilə ortaqlıqlar qurmaq məcburiyyətində qalmışdılar.

Türkiyəni Xəzər regionu ölkələri ilə tarixi, iqtisadi, dini-mədəni bağlar bağlayır. Xüsusilə, Sovetlər Birliyinin dağılmasından sonra Türkiyə region dövlətləri ilə olan əlaqələri daha da fəallaşdırmağa çalışmışdır. Hazırda Türkiyə tərəfdaş bir enerji idxalçısı olmaqla, ən əhəmiyyətli neft və qaz qaynaqlarına sahib Xəzər regionu ilə Avropa və digər idxalçılar arasında təbii bir körpü vəzifəsini icra etməkdədir. Türkiyənin keçmiş xarici işlər naziri Əhməd Davud-

oğluna görə "Xəzər Hövzəsində Türkiyənin irəli sürdüyü taktikalar bölgə dövlətlərinin Rusiyaya qarşı siyasətini pilləli olaraq gücləndirməsi və Xəzər-Qara dəniz əlaqəsinin bu respublikalar üzərindən reallaşmasının təmin edilməsi və İran ilə Türkiyə ideoloji gərginliklərə son verərək iqtisadi əməkdaşlığı möhkəmləndirmək yolu ilə Rusiyanın bölgə üzərindəki təsirini tarazlaşdırmağa çalışmaqdır"[1, s.108].

Bundan başqa, Türkiyə ABŞ-ın Qafqazdakı mövqelərinin möhkəmlənməsində də mühüm rol oynayır. Vaşinqton təhlükəsizlik və enerji sahəsində öz regional siyasətini Türkiyə vasitəsilə həyata keçirir. ABŞ-ın regiondakı hərbi və enerji layihələri Ankaranın iştirakı ilə reallaşır. Gürcüstan silahlı qüvvələri əsasən Türkiyənin yardımı əsasında formalaşdırılır. Lakin qeyd edək ki, Türkiyənin Cənubi Qafqaz və Xəzər regionunda geosiyasi perspektivliyində Azərbaycanın rolu danılmazdır. Azərbaycanla Türkiyə bütün məsələlərdə tərəfdaşdırlar. Məlumdur ki, bu iki dövlət bölgədə birgə iqtisadi, enerji və nəqliyyat layihələrini reallaşdırır, beynəlxalq təşkilatlarda eyni mövqedən çıxış edirlər. BTC, Bakı-Tbilisi-Ərzurum, TRASEKA, Bakı-Tbilisi-Qars dəmiryolu, TANAP və digər layihələr Türkiyənin bölgədəki mövqelərini xeyli möhkəmləndirmişdir. Çünki qeyd olunan qlobal layihələrdə Türkiyə mühüm tranzit ölkə funksiyasını yerinə yetirir. Bu isə şübhəsiz, regionda aparıcı dövlət statusunu qazanmaq deməkdir.

Ekspert rəylərinə görə, Türkiyə bütün dünyaya özünün regional bir güc olduğunu sübut edərsə, Orta Asiya və Qafqaz ölkələri ilə yüksək səviyyədə siyasi, iqtisadi və mədəni əlaqələr qurub, hətta bunları bir sıra müqavilələrlə həyata keçirərsə, bu, Türkiyənin mövcud xarici siyasətiylə ziddiyyət təşkil etməz, əksinə,dəstəkləyici bir faktor olar. Turkiyə bazar iqtisadiyyatına sahib demokratik bir ölkə olaraq Qərb yönümlü bir görünüşə malikdir. Qafqaz və Orta Asiya ölkələri ilə edəcəyi bir inteqrasiya bu coğrafiyanı da Qərbə apara bilərsə, o halda Türkiyə həqiqətən vasitəçi bir dövlət imicini formalaşdıra bilər. Bu da Türkiyənin Avropa və ABŞ ilə əlaqələrinə müsbət yönümdə təsir edər.

Orta Asiya və Qafqaz bölgəsi ölkələri ilə Türkiyənin siyasi və iqtisadi əlaqələri keçən əsrin 90-cı illərindən başlayaraq xüsusi əhəmiyyət daşımağa başlamışdır. "Avrasiya adı verilən bölgənin iki xüsusiyyəti bölgə dövlətləriylə əlaqəni zəruri hala gətirmişdir. Bunlardan biri bölgədə yaşayan ölkələrin çoxusunun müsəlman və türk olması, ikincisi isə bölgədə potensialı olan tək demokratik və müsəlman ölkənin Türkiyə olmasıdır" [5, s.206].

Türkiyə geosiyasi baxımdan dünyanın "heartland"i və ya "zone pivot"u olmağa davam edən, zəngin neft və təbii qaz qaynaqlarına sahib olan Xəzər regionunda mövqeyini möhkəmlətmək üçün xarici siyasətinə düşünülmüş və balanslı istiqamət verməyə çalışır. Bu məqsədlə, ilk mərhələdə "regional siyasətlər" yaradılmışdır.

Digər bir regional qurum İqtisadi Əməkdaşlıq Təşkilatıdır. 1997-ci ildə Türkiyə-İran-Pakistan arasında qurulan İnkişaf üçün Regional Təşkilatının varisidir. Bu, müstəqilliklərini qazanan beş Türk respublikası və Tacikistan-Əfqanıstanın da iştirakı ilə 300 milyon insanın yaşadığı geniş bir sahəni əhatə edən bir təşkilat olmuşdur. "Təşkilat geniş mənada iqtisadi sahədə ortaq fəaliyyətlərin hədəfindədir" [ 6, s.133].

Xəzər hövzəsi Türkiyə-Amerika əlaqələri üçün bir əməkdaşlıq sahəsi olduğu halda, ümumi xüsusiyyəti "iqtisadi əməkdaşlıq və siyasi rəqabət" olan Türkiyə-Rusiya münasibətlərində, xüsusilə, enerji nəql xətləri mövzusunda rəqabətin ən sıx yaşandığı bölgə olmuşdur.Türkiyə region ölkələriylə hərbi əməkdaşlığı inkişaf etdirməyə çalışdığı halda, Qafqaz Sabitlik Paktı kimi cəhdlərə də liderlik etməkdədir. NATO-nun üzrə Sülh Naminə Tərəfdaşlıq layihəsi, Türkiyənin NATO üzvü olması bölgə ölkələriylə əlaqələrini inkişaf etdirməsini və təsirli bir aktor olmasında əhəmiyyətli bir vasitədir. Lakin Türkiyənin Xəzər bölgəsi ilə əlaqədar inkişaf etdirdiyi siyasəti qüvvədə saxlaması və regionda fəaliyyəti artırmasının qarşısında bir sıra maneələr var. Maneələrdən biri Rusiyanın region üzərindəki hakimiyyətinin sona çatmasına baxmayaraq, onun hegemonluq təsiri regionda hələ də davam etməkdədir. "Əhali və iqtisadi baxımdan daha inkişaf etmiş olması, bölgə dövlətlərinin liderləri ilə keçmişə söykənən əlaqələri, təbii qaz və neft nəqliyyat xətlərində suverenliyi, regional etnik problemlərə nəzarət etmə gücü (Cənubi Osetiya, Dağlıq Qarabağ, Abxaziya), yeni müstəqil dövlətlərdəki rus azlıqları Rusiyanın Türkiyəyə qarşı üstünlük mövqeyini dəstəkləyən əsas səbəblərdir" [8, s.79-80].

2008-ci ilin avqustunda yaşanan Gürcüstan müharibəsi Rusiyanın üstünlüyü ilə nəticələnmiş olsa da, Türk Boğazlarından NATO gəmilərinin Qara dənizə girməsi Türkiyənin mövqeyinin əhəmiyyətini bir daha sübut etmişdir. Digər tərəfdən, Türkiyənin

Ermənistan ilə əlaqələri normallaşdırması istiqamətində atdığı addımlar Rusiya tərəfindən müsbət qiymətləndirilmiş və Qara dənizdə sabitliyin təmin edilməsi məqsədiylə QDİƏT nəzdində başladılan BLACKSEAFOR (Qara dəniz yardımçı dəniz qüvvələri) əhəmiyyətli bir cəhd olaraq görülür.

Türkiyənin fəaliyyətini artırmasının önündəki bir başqa maneə isə Rusiya və İran ilə rəqabət etmək məcburiyyətində qalmasıdır. Həm Rusiya, həm də İran Türkiyənin Qafqaz-Xəzər regionunda artan nüfuzundan narahatdırlar. Rusiya hərbi, siyasi və iqtisadi cəhətdən üstünlükləri ilə bölgədə hökmranlığını əldən vermək istəmir. Eyni zamanda, Rusiya Türkiyə vasitəsilə region dövlətlərinin Qərblə yaxınlaşmasını istəmir. İran isə ABŞ-ın regiona nüfuz etməsi üçün Türkiyənin əsas bir vasitə olduğunu düşünür və bu səbəbdən, Türkiyənin Xəzər hövzəsində artan nüfuzu İranı çox narahat edir.

Türkiyə Rusiyanın Qafqazdakı və Orta Asiyadakı təsir sahəsi siyasətindən və dövlətlərin daxili işlərinə müdaxilə etməsindən narahatdır. Lakin Rusiyadan təbii qaza görə asılılıq və bağlanmış müqavilələr Türkiyənin Rusiya əleyhinə siyasət aparmasına mane olur. Əslində, Türkiyə Avropa ilə Rusiya arasındakı enerji rəqabətinin mərkəzində iştirak edir. Xəzər regionunun və Orta Asiyanın enerji ehtiyatlarını Avropaya nəql edən əsas tranzit ölkənin Türkiyə olması onun siyasi nüfuzunu xeyli artırır. Bununla yanaşı, Xəzər bölgəsi dövlətləri üçün Türkiyənin Qərblə əlaqələrinin inkişaf etməsi onların Rusiyanın təzyiqindən xilas olmaları və Qərb bazarlarına inteqrasiya etmələri baxımından olduqca böyük əhəmiyyət kəsb edir.

**Açar sözlər:** *Türkiyə, geosiyasət, iqtisadi və hərbi potensial, insan faktoru, regional güc.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Abdullayev M.İ. Azərbaycan-Türkiyə əlaqələri. B.:Mütərcim,1998. – 112 s.*

*2. Бжезинский, З. Великая шахматная доска: господство Америки и его геостратегические императивы, New York : Basic books, October 1997, Пер. с. англ. О. Ю. Уральской. М. : Международные отношения, 1998. 102 с.*

*3. Гурьев А.А. Региональный аспект национальной безопасности Турции. Москва, 2006. с.11-17.*

*4. Bilge strateji Jeopolitik, Ekonomi-Politik ve Sosyo-Kültürel Araştırmalar Dergisi. Cilt 1, Sayı 2, Bahar 2010.*

*5. Cafer Tayyar Sadıklar. 2000 Yıllar, Ankara 1999. Cilt 1, Sayı 1 s. 171-181. www.https://dergipark.org.tr/tr/pub/gaziunversitesi...*

*6. Çengiz Çandar. Değişmekte olan dünyada Türkiyenin Bağımsızlık kazanan Yeni Türk Cumhiruyetlerle İlişkileri. Bağlam Yayınları, İstanbul 1994. s. 133-138.*

*7. Kamer Kasım. Soğuk Savaş sonrası Kafkasya, Usak Yayınları,Ankara 2009.292s.*

*8. Adam Balcer. "The Future of Turkish-Russian Relations: A Strategic perspective", Spring 2009. Turkish Policy Quarterly. Volume 8 Number 1. p.77-86.*

## РЕЗЮМЕ:

В статье рассматривается роль Турецкой Республики в международной системе. Для этого его геополитическая ситуация, экономический потенциал и реформы в этой области, военная мощь оцениваются. Как известно, Турция, расположенная на пересечении Азии, Африки и Европы, с Босфором и Дарданеллами, в окружении Средиземного, Черноморского и Эгейского морей, имеет стратегически выгодное положение. Он расположен между Ближнем Востоке богатыми природными ресурсами и Европе, которые нуждаются в этих ресурсах, и имеет транзитное значение для транспортировки этих ресурсов в Европу. Кроме того, экономическое развитие в Турции привело к усилению его роли на международной арене. В целом укрепление роли Турции в региональных и международных системах обусловлено несколькими причинами: 1) его возросшая экономическая мощь; 2) основные изменения во внешней политике Турции; 3) геостратегическое положение. Благоприятное геостратегическое положение Турции, ее расположение на ключевых энергетических и торговых маршрутах увеличивает его влияние и репутацию. Правда, Турецкая Республика активно участвует в международных процессах и может влиять на них. Но мы не можем признать его силой, способной внести изменения в мировой порядок и управлять процессами на международной арене.

**Ключевые слова:** *Турция, геополитика, экономический и военный потенциал,человеческий фактор, региональная мощь.*

**SUMMARY:**

The article depicts the role of the Republic of Turkey in the international system. For this, its geopolitical situation, economic potential and the reforms implemented in this field, the military strength are valued in the article. As we know, Turkey, located at the intersection of Asia, Africa and Europe, surrounded by the Mediterranean, Black Sea and Aegean seas, with the straits of Bosphorus and Dardanelles, has a strategically favorable position. It is located between Middle East rich with natural resources and Europe which needs these resources, and has the transit importance in the transportation of these resources to Europe. Also, the economic development in Turkey caused to the strengthening of its role in the international arena. In general, the strengthening of Turkey's role in the regional and international systems is due to several reasons: 1) its increased economic power; 2) major changes in Turkey's foreign policy; 3) geostrategic position. The favorable geostrategic position of Turkey, its location on the key energy and trade routes increases its influence and reputation. It is true that, today the Republic of Turkey is actively involved in international processes and has the potential to influence them. But we cannot accept it as a force capable of making changes in the world order and managing processes in the international arena.

**Key words:** *Turkey, geopolitics, economic and military potential, human factor, regional power.*

UOT 32
DOI:10.30546/3006-0346.2023.6.78.30

# DONORLUQ MÜNASİBƏTLƏRİ SİSTEMİNƏ MÜQAYİSƏLİ BAXIŞ

**CEYHUN ƏHMƏDOV**
*Bakı Dövlət Universitetnin dissertantı*

*E-mail: ceyhun.mirzeyev@gmail.com*

Yaşamaq hüququnun məzmununda donorluğun rolu onun məqsədləri – həyat qurtarmaq və insanların sağlamlığını bərpa etməklə müəyyənləşir. Donor materiallarından istifadə etməklə tətbiq olunan bir çox yeni müalicə metodları ya insan həyatının xilasına, ya da onun yaranmasına (məsələn, süni mayalanma metodları) istiqamətlənmişdir. Bəşəriyyətin inkişafında həqiqi universal dəyərlər kimi dərk olunan bütün qeyri - maddi xarakterli dəyərlər içərisində insan hüquq və azadlıqları ilk yerlərdən birini tutur. Sivilizasiyanın inkişafı ilə formalaşmış insan hüquqları son nəticədə özünün müasir forma və anlamını tapmışdır. Müasir sivilizasiyanın fundamental dəyərləri kimi insan hüquqları və azadlıqları XXI əsrin beynəlxalq münasibətlərində də mühüm əhəmiyyət kəsb edəcəkdir. 2000-ci ilin sentyabrında Minilliyin Sammitində iştirak edən dövlət və hökumət başçıları bu barədə əminlik ifadə etmişlər. İnsan hüquqlarına hörmət prinsipi beynəlxalq hüququn əsas prinsiplərindən biridir.Azərbaycan Respublikasının Konstitusiyası da İnsan, onun hüquq və azadlıqlarını ən ali dəyərlər kimi təsbit edir (1,s.11).

Donorluğun yaşamaq hüququnun məzmunundakı rolunu aydınlaşdırmaq üçün qanunvericiliyi hüquqşünaslar, tibb sahəsinin alimləri, filosof və din xadimlərinin fikirləri nöqteyi-nəzərindən də analiz etmək olar.

Donorluq yaşamaq hüququnun məzmununa aşağıdakı elementləri daxil edir:

- donorun öz orqanizmi və onun hissələrindən müalicə məqsədilə istifadə hüququ (bu hüquq mövcud qanunvericiliklə əhəmiyyətli dərəcədə məhdudlaşdı-rılmış¬dır);
- resipiyentin donor orqan və toxumasının köçürülməsindən imtina etmək hüququ (həyatına son qoyulma təhlükəsi olsa belə);
- donorun həyatına istənilən qeyri-qanuni qəsddən, məcburi donorluğa cəlb edilməkdən qorunmaq hüququ.

Donorluq fəaliyyətində əsas subyektlər olan donor və resipiyentlə yanaşı, donor və resipiyentin qanuni təmsilçiləri, tibb işçiləri, tibb müəssisələri və sosial siyasəti vətəndaşlarının sağlamlığının qorunmasına, donorluğun yayılmasına, donorluq hüququnun reallaşmasının təmin edilməsinə yönəlməli olan dövlət iştirak edir (12,s.32).

Qanun həm canlı, həm də cansız vəziyyətlərdə hüquqi tənzimlənmə ilə alınan orqan və toxumaların transplantasiyasına imkan verir. Transplantasiya haqqında qanun canlı insandan orqan və toxumaların alınmasını ciddi nizam – intizamla tənzimləyir (12, 11). Vəfat edəndən orqan və ya toxuma alınması o zaman mümkündür ki, həmin adamın ölüm faktı (beynin tam ölümü) həkim-mütəxəssislər tərəfindən təsdiq edilir. Transplantasiya məqsədilə insanın ölümündən sonra ondan orqan və toxumanın alınmasına dair iradənin ifadəsi məsələsi dünyanın bütün ölkələrində 2 yolla həll olunur:

1) "tələb olunan" razılığın fiksasiya edilməsi – Şimali Amerika modeli, donorun özünün həyatda olarkən orqan və ya toxumasının götürülməsinə verdiyi razılıq və ya onun ölümündən sonra qohumlarının razılığının mövcudluğunun vacibliyini nəzərdə tutur. Belə sistemə ABŞ, İsveç, Portuqaliya, Danimarka, Almaniya, Avstraliya, Kanada və s. istinad edirlər.

2) "razılıq prezumpsiyası"ndan istifadə - fransız modeli, burada şəxsin özünün həyatda olarkən və ya (ölümündən sonra) qohumlarının meyitin orqan və toxumalarının götürülməsinə dair razılıq verməməsi haqqında müraciətin vacibliyi əsasdır. Bu sistemdən Rusuya, Avstriya, İtaliya, Çexiya, Belçika, İspaniya, Fransa, Finlandiya, Norveç, Polşa və s. ölkələr istifadə edir.

Donorun səlahiyyəti donorluğun növündən asılıdır. Orqan və toxuma donoru onun həyatda olduğu müddətdə sağlamlığına bərpa olunmayan zərər vurmadan və ya ölümündən sonra öz orqan və toxumalarını vermək üçün şüurlu şəkildə qərar qəbul etmək hüququna malikdir. "Soyuq müharibə" dövründə Şərqlə Qərb arasındakı münasibətlərdə ənənəvi tabu kimi çıxış edən insan hüquqları Helsinki Yekun aktının nəticəsi olaraq qanuni dialoq predmetinə çevrildi. Beynəlxalq münasibətlərin "insan meyarı"nı da ehtiva etməli, daha doğrusu, konkret insanlar arasında münasibətlər səviyyəsində fayda verməli olduğu ideyasından çıxış edərək insan hüquqları sahəsində

öhdəliklər bütün iştirakçı dövlətləri təbii olaraq narahat edən bir məsələyə çevrildi və bundan sonra müstəsna olaraq bəzi dövlətlərin daxili işlərinə aid olan məsələlər sırasından çıxarıldı (8,12). Müasir cəmiyyətdə bir sıra güclü dövlətlərin ideoloji rəhbərləri tarixi faktları məqsədəyönlü olaraq, saxtalaşdıraraq dünyada təhlükəli bir mənzərə yaratmışdılar. Demək olar ki, bu gün bəşəriyyət sonu görünməyən konfliktlər, ziddiyyətlər içində yaşayaraq humanitar sivilizasiya dəyərlərin həyat praktikasına yolunu kəsir. Qloballaşan dünyada iqtisadi və sosial-siyasi proseslər, baş verən köklü dəyişikliklər müasir cəmiyyətdə ziddiyyətlərin dərinləşməsinə və radikal dəyişikliklərə gətirib çıxartmışdı.Dünyada yaranan təhlükəli vəziyyətlə bağlı alman filosofu Y.Habermasın xəbərdarlığı düşündürücüdür. O qeyd edir ki, əgər biz destruktiv hadisələrin dağıntısı altında qalmaq istəmiriksə, modern dövlətin yaşam tərzində sosial-demokratik quruluşu və insan haqları kimi dəyərləri qorumalı və yaşatmalıyıq (3,s. 3-4).

Sonsuzluğu müalicə etmək üçün öz orqanizminin bir hissəsini verən donorlar dünyaya gələcək uşaqla bağlı öz üzərilərinə valideynlik vəzifəsi götürmürlər. Köməkçi reproduktiv texnologiya metodlarının tətbiqi nəticəsində uşaq dünyaya gəldiyi halda qeyd kitabında bu işə razılıq verən ər-arvad yazılı şəkildə imza atırlar. Onlar donorun şəxsiyyətini müəyyənləşdirməməklə bağlı, eyni zamanda da donor həm resipiyentin, həm də uşağın kimliyini müəyyənləşdirməməklə bağlı öhdəlik götürürlər. Donorun surroqat ana vəzifəsinə cəlb olunması isə valideynlik hüququnun verilməsinin xüsusi qaydası ilə nəzərdən keçirilir. Rusiyada orqan transplantasiyası digər ölkələrə nisbətən dəfələrlə az həyata keçirilir [6]. Buna səbəb qanunvericiliyin inkişaf etməməsi, potensial donorlar və ya onların qohumları ilə kifayət qədər iş aparılmaması və vətəndaşların transplantasiya məsələlərində zəif məlumatlı olmalarıdır (donor olmaq istəklərini ifadə etmək və öz orqanlarını başqalarını xilas etmək hüququnu izah etmək baxımından).

Məsələn, qohumlardan birinin (valideyn) razılığının alınması və digər yaxın qohumların (digər valideynin) orqanlarını bağışlamaqdan imtina etməsi ilə bağlı problemlər qalır (7.33). Ölüm xəstəliyi ilə əlaqəli boşluqlar, bəzi dərmanlar qəbul etmə (məsələn, sedativlər, beyin ölümü faktını təyin orqanında çürümə səbəbiylə əvvəl uzun müddətə zədələnmişdir) tam doldurulma edilmişdir. Orqan toplanması ilə bağlı qərarın verildiyi vaxt artıq transplantasiya üçün yararsız hala gəlir).

Bir çox ölkələrdə qeydiyyatdan keçmiş könüllü donorların məlumat bankları çoxdan yaradılıb və onların sayı ildən-ilə artır. Mümkündür ki, Rusiyada donorların sayını artırmaq üçün mexanizmlər var: əlavə şərait və təminatlar yaratmaq, icazələrin verilməsi müqabilində razılığın alınması (məsələn, sürücülük vəsiqəsi alarkən), donorlar olduqda qanun səviyyəsində üstünlüklərin müəyyən edilməsi. orqan transplantasiyası lazımdır və təbii ki, elm o qədər sürətlə inkişaf edir ki, böyüyən tamhüquqlu orqanlar bir gün əvəzolunmaz ola bilər. Vətəndaşın hüquqi zəmanəti problemi bütün dövrlərəd aktual olan məsələlərdəndir. Donorluq sahəsində təcrübələrin reallaşması prosesində insan hüquq və azadlıqları xüsusi diqqəti çəkir. Belə hüquqi zəmanətlərin təkmilləşdirilməsi qanunvericilik sahəsində davamlı yenilikləri tələb edir. Əgər pasiyent azyaşlıdırsa, tibbi müdaxiləni həyata keçirmək üçün onun qanuni təmsilçisinin (adətən bu, valideyn olur) icazəsi alınmalıdır. Belə bir əxlaqi norma da mövcuddur ki, əgər həkim diaqnoz və ya proqnoz haqqında olan informasiyanın həqiqiliyinin pasiyentə zərər vuracağından əmindirsə, o zaman həqiqəti xəstədən gizlətmək haqqına sahibdir. Əgər tibbi yardım fövqəladə situasiyada göstərilirsə və xəstəyə informasiya vermək üçün vaxt yoxdursa, bu zaman təxirə salınmış məlumatlandırma norması tətbiq edilir (7.55.).Vətəndaş iradəsi və hüququ zəmanəti müasir dövrdə yeni təkmilləşmə istiqamətlərini də zəruri edir. Təbii ki, vətəndaş hüquqlarının təkmilləşdirilməsi etik amilləri də zəruri edir.

Etik münasibətlərdə mübahisəli məsələlərdən biri də "plasebo" adlanan normadır. Bu norma pasiyentlərə (təcrübə edilənlərə) tibbi preparat adı altında zərərsiz, lakin eyni zamanda faydasız maddələr verilir. Belə hesab olunur ki, plasebonun tətbiqi sayı heç də az olmayan hallarda pasiyentə psixoloji təsir göstərərək müsbət nəticələr əldə etməyə imkan verir. Biotibbi tədqiqatlarda plasebonun tətbiqi eksperimentin şəffaf aparılması tələbinə əsaslanır: əgər bir qrup təcrübə edilən preparat, digəri isə faydasız və zərərsiz maddələr qəbul edirsə və bu zaman nə təcrübə olunanlar, nə də təcrübə edənlərin özləri kimin hansı qrupa daxil olduğunu bilmirlərsə, onda nəticələrin təhrif olunması istisna olunur. Lakin buradakı saxta dərman qəbul edən xəstələr birbaşa aldadıldığı üçün bu metod əxlaqi cəhətdən şübhəli

hesab olunur və onun tətbiqinə yalnız ciddi istisna hallarında icazə verilir.

Məlumatlandırılmış razılıq qaydası kimi muxtariyyətə hörmət prinsipi bioetika üzrə bir çox maddələrdə və transplantasiya haqqında Əlavə Protokolda öz əksini tapır. Belə ki, Konvensiyanın transplantasiya məqsədilə canlı donorlardan orqan və toxumaların əldə olunmasına həsr edilmiş VI fəslinin 19-cu maddəsinin 2-ci bəndində qeyd edilir ki, donorun razılığı spesifik olaraq ya yazılı formada, ya da müvafiq rəsmi instansiyalar qarşısında olmalıdır. Bununla yanaşı, 20-ci maddədə razılıq vermək iqtidarında olmayan şəxsdən orqan və ya toxumanın əldə edilməsi qadağan olunur (12.4).

Transplantasiya haqqında Əlavə Protokola gəldikdə isə muxtariyyətə hörmət prinsipi orada qeyd edilmiş bir sıra normalara əsaslanır. Protokolun məqsədlərinin göstərildiyi 1 nömrəli maddədə deyilir: "Protokol tərəfləri insanın ləyaqət və fərdi bütövlüyünü qoruyur və hər kəsin istisnasız olaraq insan orqan və toxumalarının transplantasiyası ilə bağlı şəxsiyyət toxunulmazlığı və digər hüquq və azadlıqlarının qorunmasına təminat verir" (8.s.11). Ləyaqət və fərdi bütövlüyün qorunması şəxsiyyət toxunulmazlığına bərabərdir – bütün bunlara muxtariyyətə hörmət prinsipinin konkretləşməsi kimi baxmaq olar.

Donor və resipiyentin məlumatlandırılması və razılıq əldə olunmasının müxtəlif aspektləri Protokolun 5-ci (resipiyent üçün məlumat), 12-ci (donor üçün məlumat), 13-cü (canlı donorun razılığı), 14-cü (orqan və ya toxuma götürülməsi üçün razılıq verə bilmək iqtidarında olmayan şəxslərin müdafiəsi), 17-ci (vəfat etmiş donordan orqan və ya toxumanın götürülməsi üçün razılıq və icazə) maddələrində əks olunur. Protokolun 23-cü maddəsi məxfilik, yəni donor və resipiyentin şəxsi məlumatlarının qorunması probleminə həsr olunmuşdur. Şəxsi məlumatların qorunması fərdin muxtariyyətinə hörmət prinsipinin əsas aspektlərindən biridir.

Zərər vurmamaq prinsipinin tarixi çox qədim dövrlərə, məşhur qədim yunan həkimi Hippokratın zamanına gedib çıxır. Hippokrat andında belə bir norma var: "hər hansı bir zərər vurmaqdan və ədalətsizlikdən çəkinmək". Ümumiyyətlə, bu prinsip pasiyentə zərər vurmağı istisna etmir, bu cür zərərin vacib olan hallarda və mümkün qədər az olmasını nəzərdə tutur.

Əslində həkimlə ünsiyyət özündə pasiyent üçün müxtəlif formalarda zərər vurmağı əks etdirir. Bu zərərin xüsusi növləri pasiyentin məlumatlandırılması ilə bağlıdır. Bura pasiyentdən informasiyanın gizlədilməsi daxildir, ya ona yalan məlumat verilməsi ya da onun haqqındakı bu informasiyanın 3-cü şəxslərə verilməsi – bütün bunlar mənəvi (əxlaqi) zərərin formalarıdır.

Həkim nöqteyi-nəzərindən analiz edilərsə, pasiyentə vurulan zərərin səbəbləri kimi aşağıdakıları göstərmək olar: həkimin fəaliyyətsizliyi, yardım etməməsi; pis niyyətdən irəli gələn zərər; düzgün olmayan qeyri-peşəkar hərəkətlər nəticəsində və nəhayət, müəyyən situasiya şəraitində obyektiv olaraq vacib hərəkətlər nəticəsində baş verən zərər. Sonuncudan başqa digər sadalanan zərər növləri "zərər vermə" prinsipinə ziddir.

Zərər verməmək prinsipi transplantasiya haqqında Protokolun bir çox normalarının əsasında dayanır.

Həkimin pasiyentə qarşı münasibəti təkcə zərər verməməklə məhdudlaşmamalıdır (2.s.26). Həkim pasiyentə vurula biləcək zərərin qarşısını almaq və ya artıq baş vermiş zərəri minimuma endirmək istiqamətində aktiv fəaliyyət göstərməlidir. Pasiyentlə qarşılıqlı fəaliyyətdə həkim peşəkar kimi çıxış edir, bu isə o deməkdir ki, o, pasiyentdə olmayan bilik və bacarıqlara malikdir.

Həkimin peşəkar ustalığı təkcə onun avtoritetini təmin etmir, həm də onun üzərinə mənəvi-əxlaqi öhdəliklər də qoyur. Bu öhdəliklər arasında ən vacibi pasiyentin xeyrinə olan hərəkətləri bütün imkanlar daxilində yerinə yetirməsidir. Bir çox hallarda donor orqanının köçürülməsi resipiyentin həyatının xilasının yeganə yolu kimi çıxış edir (7). Bununla da transplantasiya sferasında resipiyent orqan köçürülməsi zamanı təkcə həkim və digər iştirakçılardan deyil, həm də donordan xeyirxahlıq görür. Bununla yanaşı, canlı donordan orqan və toxumanın alınmasına həsr olunmuş transplantasiya haqqında Əlavə Protokolun III fəsil 9-cu maddəsində xüsusilə vurğulanır ki, bu orqanın alınmasının əsasında resipiyent üçün fayda, həmçinin, ölü donordan orqan alınması və digər alternativ müalicə metodlarının mümkün olmaması dayanır. Beləliklə də resipiyent üçün donordan fayda almağın şərtini canlı donora vurulan ziyanın minimuma endirilməsi təşkil edir. Protokolun 10-13-cü maddələri də analoji istiqaməti əks etdirir.

**Acar sözlər:** *donor, hüquq, pasiyent, transplantasiya, etika, inkişaf.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. "Azərbaycan" qəzeti 02 fevral 2017-ci il, № 23, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №1 , maddə 1*

*2.Obika M, Shinji T, Fujioka S, Terada R, Ryuko H, Lwin AA, et al. Hepatitis B virus DNA in liver tissue and risk for hepatocarcinogenesis in patients with hepatitis C virus-related chronic liver disease. A prospective study. Intervirology. 2008;51:59-68*

*3. Intensivist-led management of braindead donors is associated with an increase in organ recovery for transplantation / K. Singbart, R. Murugan, A.M. Kaynar, et al. // Am. J. Transplant. 2008. – Vol.11, N.7. – P.1517–1521.*

*4. Organ donation for transplantation: improving donor identification and consent rates for deceased organ donation / National Institute for Health and Clinical Excellence. – 2011. – Режим доступа: http://guidance.nice.org.uk/CG135*

*5. Interim Results of a National Test of the Rapid Assessment of Hospital Procurement Barriers in Donation (RAPiD) / H.M. Traino, G.P. Adolod, T. Shafer, L.A. Siminoff // Am. J. Transplant. – 2012. – Vol. 12, N.11. – P.3094–3103.*

*6. Посмертное донорство: Национальные клинические рекомендации. 2013. – Режим доступа: http://transpl. ru/images/cms/data/pdf/ nacional_nye_ klinicheskie_rekomendacii_posmertnoe_ donorstvo_organov.pdf (In Russian).*

*7. Журавель, С.В. Проблема системного кандидоза после трансплантации солидных органов. Обзор литературы / С.В. Журавель, А.О. Чугунов, Т.В. Черненькая // Трансплантология. – 2012. – № 3. – С.42–48.*

*8. Transmission of Elizabethkingia meningoseptica (formerly Chryseobacterium meningosepticum) to tissueallograft recipients: a report of two cases / E.J. Cartwright, R.M. Prabhu, C.E. Zinderman, et al. // J. Bone Joint Surg. Am.- 2010. – Vol. 92, N.6. – P.1501– 1506.*

*9. Eastlund, T. Infectious disease transmission through cell, tissue, and organ transplantation: reducing the risk through donor selection / T. Eastlund // Cell. Transplant. – 1995. – Vol. 4, N.5. – P. 455–477.*

*10. Greenwald, M.A. Infectious Disease Transmission during Organ and Tissue Transplantation / M.A. Greenwald, M.J. Kuehnert, J.A. Fishman // Emerg. Infect. Dis. – 2012. – Vol. 18, N.8. – P.e1.*

*11. Donor-derived disease transmission events in the United States: data reviewed by the OPTN/ UNOS Disease Transmission Advisory Committee / M.G. Ison, J. Hager, E. Blumberg, et al. // Am. J. Transplant. – 2009. – Vol. 9, N.8. – P. 1929–1935.*

*12. Mortality associated with carbapenem-resistant Klebsiella pneumoniae infections in liver transplant recipients / J.S. Kalpoe, E. Sonnenberg, S.H. Factor, et al // Liver Transpl. – 2012. – Vol. 18, N.4. – P. 468–474.*

**Ceyhun Ahmadov**

**A comparative overview of the donor relations system**

## SUMMARY

The article systematically analyzes donation relations. Donor and recipient, issues of modern development of donation are considered scientifically and methodologically. The opportunities created for donation in the field of legislation are also examined, as well as the nature of the donor's relations and behavior in accordance with certain special circumstances. Ethical issues such as professionalism, respect for the other party and respect for the rights of the other party are also brought to the attention.

**Keywords:** *donor, law, patient, transplantation, ethics, development.*

**Джейхун Ахмедов**

**Сравнительный обзор системы отношений с донорами**

## РЕЗЮМЕ

В статье систематически анализируются дарственные отношения. Научно и методологически рассмотрены донор и реципиент, вопросы современного развития донорства. Также рассматриваются возможности, создаваемые для дарения в сфере законодательства, а также характер отношений и поведения дарителя в соответствии с некоторыми особыми обстоятельствами. Этические вопросы, такие как профессионализм, уважение к другой стороне и уважение прав донора, другая сторона также доводится до сведения.

**Ключевые слова:** *донор, закон, пациент, трансплантация, этика, развитие.*

UOT 327; 339.9
DOI:10.30546/3006-0346.2023.6.78.34

# "XƏZƏR-AVROPA İTTİFAQI ENERJİ DƏHLİZİ"-NİN YARANMASINDA AZƏRBAYCANIN YAŞIL ENERJİ RESURSLARININ ROLU VƏ POTENSİAL ƏHƏMİYYƏTİ

**XƏTAİ MƏMMƏDLİ**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı*
*E-mail: xetaimemmedli@gmail.com*

## Giriş

Təbii qaz və neft ehtiyatlarından istifadə və ixrac edən, eləcə də təbii qaz və neftin nəqlini və tranzitini sürətlə inkişaf etdirmək imkanlarına malik olan Azərbaycanın enerji sənayesi ölkənin əsas hərəkətverici qüvvələrindən biridir və bundan sonra da olacaqdır. Azərbaycan bir əsrdən çoxdur ki, neft ixracında əhəmiyyətli rola malikdir. Neft ixracında böyük layihələr icra olunmuş və bu layihələr Azərbaycan neftinin dünya bazarına çıxarılmasında əsas tranzitlərə çevrilmişdir. 1994-cü il sentyabrın 20-də Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın çiçəklənməsində və keçid dövrünü başa vurmasında əhəmiyyətinə görə ən mühüm müqavilələrdən biri - Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" neft yataqlarının və "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş - "Əsrin müqaviləsi" imzalanıb. Hesablamalara əsasən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsində çıxarıla bilən neft ehtiyatı 1.072 milyard ton həcmində müəyyən edilib. "Əsrin müqaviləsi" çərçivəsində Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərlərinin istifadəyə verilməsi ilə Azərbaycan Avropanın enerji xəritəsinin formalaşmasında öz yerini tutmağa başlamışdır.

Dünyanın ən zəngin qaz yataqlarından biri olan "Şahdəniz", sonradan kəşf edilən "Ümid" və "Abşeron" yataqlarının Azərbaycanın böyük qaz ehtiyatlarına sahib olduğunu təsdiq edib. Bununla da, Azərbaycanın təbii resurslar tarixində yeni bir səhifə açılıb. 2011-ci ildə Azərbaycan və Avropa Komissiyası arasında Cənub Qaz Dəhlizi layihəsi üzrə Birgə Bəyannamə imzalanıb. TAP və TANAP layihələri icra olunmuş və bu layihələr sayəsində "Şahdəniz" yatağını İtaliyanın cənubuna birləşdirməklə "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşmasına imkan verib və nəticədə Azərbaycanın zəngin qaz ehtiyatlarının Türkiyə və Avropa bazarlarına qısa və təhlükəsiz yolla, şaxələndirilmiş formada çatdırılmasına nail olunub.

Bərpa olunan mənbələrdən elektrik enerjisi istehsalına gəldikdə, xüsusilə yaşıl enerji sahəsində Azərbaycanın böyük potensialı var. Azərbaycan əlverişli coğrafi mövqeyi, günəş və külək ehtiyatlarının bolluğu səbəbindən əhəmiyyətli miqdarda yaşıl enerji istehsal edə bilər. Azərbaycan artıq bu zəngin potensialın reallaşdırılması mərhələsindədir. 2020-ci ildə 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunan ərazilərin böyük yaşıl enerjisi potensialı var. Təbii qaz nəqlini və təsdiqlənmiş qaz ehtiyatlarını artırmaq planları Azərbaycanın yaşıl enerji sənayesində daha böyük rol oynamasında vacib faktorlardandır. Bununla, Azərbaycan Avropanın karbon emissiyalarını azaltmaq və daha ekoloji cəhətdən təmiz enerji mənbələrinə keçmək, enerji idxalının şaxələndirilməsi ilə enerji təhlükəsizliyinin təmin edilməsi kimi planlarının reallaşmasında əhəmiyyətli iştirakçılardan biridir.

## I Azərbaycanın yaşıl enerji potensialı və bu istiqamətdə

Ənənəvi enerji mənbələrinin tədricən tükənməsi və onlardan istifadə zamanı ətraf mühitə vurulan ziyanı nəzərə alaraq, dünyanın inkişaf etmiş ölkələri bərpa olunan enerji mənbələrindən istifadəni günü-gündən artırırlar. Dünyada yaşıl enerjiyə olan tələbatın artması fonunda Azərbaycanda da bərpa olunan enerjinin istehsalı və ixracı vacib mövzulardan biridir. Azərbaycanın zəngin bərpa olunan enerji potensialı yaşıl enerjinin istehsalına zəmin yaradır.

Dünyada olduğu kimi, Azərbaycan da təbii iqlim şəraitinə uyğun olaraq günəş və külək enerjisi istehsal etməyə, SES-lərin enerjisinin imkanlarından yararlanmağa çalışır. Məhz yaşıl energetika sahəsinin ölkəmizdə inkişafı məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 2004-cü il 21 oktyabr tarixli Sərəncamına əsasən "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Bu dövlət proqramının tədbirləri planı 2004-2013-cü illəri əhatə etmişdir. Azərbaycan Respublikasının Prezidenti 2011-ci il 29 dekabr tarixli Sərəncamı ilə 2012-2020-ci illəri əhatə edən bərpa olunan enerji potensialından istifadəyə dair Dövlət Strategiyasının layihəsi hazırlanmışdır. 2012-ci ildə təsdiqlənən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da yaşıl enerji mənbələrindən

istifadənin sürətləndirilməsi məqsədilə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi, institusional mühitin inkişaf etdirilməsi, elmi-texniki potensialın gücləndirilməsi, mütəxəssis hazırlığının davam etdirilməsi və enerji istehlakçılarının maarifləndirilməsi istiqamətində işlərin aparılması planlaşdırılmışdır.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" isə ölkədə enerjidən səmərəli istifadə edilməsi və yeni dayanıqlı enerji mənbələrinə üstünlük verilməsini hədəfləyir. Bu konsepsiyada indiki və gələcək nəsillərin tələbatını dolğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi, elmi-texniki potensiala əsaslanmaqla iqtisadiyyatın bütün sahələrində alternativ və bərpa olunan enerji mənbələrinin ilkin istehlakda payı artırılmaqla iqlim dəyişikliklərinə təsirin azaldılması, ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə edilməsi göstərilmişdir.

Bundan başqa, alternativ enerji mənbələrindən istifadənin inkişaf etdirilməsi sahəsində institusional islahatlar aparılmış və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 16 iyul tarixli Fərmanına əsasən Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi yaradılmışdır.

Hazırda Azərbaycanın sosial-iqtisadi inkişaf prioritetlərindən biri olan "yaşıl artım"-a nail olmaq istiqamətində 2030-cu ilə qədər elektrik enerjisinin istehsalında bərpa olunan enerji payının 30%-ə çatdırılması hədəflənmişdir.




2023-cü ilin birinci rübündə Azərbaycanın ümumi elektrik enerjisi istehsalı 13907.9 mln kVt təşkil etmişdir. Qrafikdən də göründüyü kimi, 2023-cü ilin birinci rübündə SES-lərdən 891.0 mln kVt, KES-lərdən 31,7 mln kVt, GES-lərdən 32,3 mln kVt, BMTZ-lərdən 126,8 mln kVt elektrik enerjisi əldə olunmuşdur. Su da daxil olmaqla bərpa olunan enerji mənbələrindən 1081.8 mln kVt-saat elektrik enerjisi istehsal edilib. Bu da ümumi enerji istehsalının təqribən 8 faizini təşkil edir. 2023-cü ildə Azərbaycanda ötən ilin eyni dövrü ilə müqayisədə elektrik enerjisinin istehsalı 2,8 % artaraq 13 907,9 mln. kVt-saat təşkil edib, ixrac 1265,2 mln mln. kVt-saat, idxal isə 137,5 mln. kVt-saat səviyyəsində olub.




Bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdən biri olan Azərbaycanın bərpa olunan enerji mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır. Bərpa olunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt, o cümlədən, külək enerjisi üzrə 3 000 MVt, günəş enerjisi üzrə 23 000 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir. Azərbaycanın bir çox rayonlarında, xüsusən də Abşeron yarımadasında, Xəzər dənizi sahili zolağında külək enerjisi qurğularının böyük perspektivi vardır. Azərbaycanın qərbində Gəncə-Daşkəsən zonasında və Naxçıvan MR-in Şərur-Culfa ərazisində küləyin orta illik sürəti 3-5 m/san. Olduğu üçün bu regionlarda orta güclü külək elektrik stansiyalarının qurulması məqsədəuyğundur. Həmçinin işğaldan azad olunan Qarabağ və

Şərqi Zəngəzurda da külək enerjisi potensialı müşahidə olunur. Külək enerjisi ilə müqayisədə ölkənin bütün ərazisində mövcud olan günəş enerjisi potensialı da bərpa olunan enerji mənblərinin potensialında əhəmiyyətli rola malikdir.

Azərbaycanın elektrik stansiyalarının, o cümlədən iri su elektrik stansiyalarının gücü 1312 MVt və ya ölkənin 7954 MVt olan ümumi elektrik istehsal gücünün 16,5%-ni təşkil edir.

Hidroenerji gücü 1159.2 MVt (30 ədəd stansiya, 20-i kiçik su elektrik stansiyası), külək enerjisi gücü 66.1 MVt (8 stansiya, 2-i hibrid), bioenerji gücü 37.7 MVt (2 stansiya, 1-i hibrid), günəş enerjisi gücü 51.9 MVt (12 stansiya, 2-i hibrid) təşkil edir. İki hibrid elektrik stansiyasında (Qobustan və Culfa) ümumi gücü 2,81 MVt olan külək, 3,8 MVt günəş və 0,7 MVt bioenerji olan qurğular quraşdırılmışdır. Naxçıvan Muxtar Respublikasında 39 MVt gücündə günəş elektrik stansiyaları fəaliyyət göstərir. İri su elektrik stansiyaları istisna olmaqla, bərpa olunan enerji mənbələrinin quraşdırılmış gücü 2022-ci ildə 201,4 MVt və ya elektrik enerjisi istehsalının ümumi gücünün 2,5%-ni təşkil etmişdir.

2022-ci ildə respublikada 28,9 milyard kilovatsaat elektrik enerjisi istehsal edilmişdir. Nəzərdən keçirilən dövrdə SES-lərdə istehsal olunan elektrik enerjisinin həcmi 1595,7 milyon kilovatsaat, digər mənbələrdən (KES, QES və BMTYZ) isə 349,5 milyon kilovatsaat təşkil etmişdir. külək elektrik stansiyalarında isə il ərzində kVt·st olmuşdur. 83,3 mln. 60,9 milyon kilovatsaat olan Günəş Elektrik Stansiyaları. enerji, bərk məişət tullantılarının yandırılması zavodunda 205,3 mln. kilovatsaat elektrik enerjisi istehsal edilmişdir. İstehsal olunan ümumi elektrik enerjisinin təxminən 7 faizi bərpa olunan enerji mənbələrindən əldə edilmişdir.

Azərbaycanın ümumi su ehtiyatlarının hər il 2,56 milyard $m^3$ və ya onun 25%-ə yaxını işğaldan azad edilən ərazilərin payına düşür. Xüsusilə qeyd etmək lazımdır ki, işğaldan azad edilən ərazilərin günəş enerjisi layihələrinə ev sahibliyi etmək potensialı yüksəkdir. Naxçıvan MR-də aşkar edilən günəş radiasiyasından sonra Zəngilan, Cəbrayıl, Qubadlı və Füzuli respublikada ikinci ən yaxşı günəş radiasiyasına malikdir. İlkin araşdırmalara görə, relyef, iqlim, şəbəkəyə yaxınlıq, enerji istehsal gücü, nəqliyyat infrastrukturu və digər texniki aspektlərin müqayisəsi nəticəsində Cəbrayıl və Zəngilan rayonları günəş enerjisi layihələri üçün məqsədəuyğun hesab edilmişdir. İlkin araşdırmalar əsasında müəyyən edilib ki, işğaldan azad edilən ərazilərdə, xüsusilə Laçın və Kəlbəcərin dağlıq ərazilərində əlverişli külək potensialı var. Azad edilən ərazilərdə geotermal enerji mənbələrinin mövcudluğu ilə bağlı əvvəllər də müvafiq elmi araşdırmalar aparılıb. Geotermal enerjinin əsas istifadə istiqamətləri elektrik enerjisinin istehsalı (temperatur və boşalma uyğun olmaq şərti ilə), istilik enerjisinin təchizatı, turizm və balneologiyadır. İlkin təhlillərə görə, Kiçik Qafqazın dağlıq bölgəsi geotermal mənbələrə malikdir (4000–5000 $m^3$/gün, 30–74°C). İlkin müşahidələr göstərir ki, bu potensialdan müvafiq olaraq balneoloji və istilik məqsədləri üçün istifadə etmək daha məqsədəuyğundur.

**II Xəzər-Avropa İttifaqı enerji dəhlizi**

Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolu durmadan artır. Ölkə təbii qaz ixracını artırmaq üçün Avropanın istəklərini qəbul edərək, Rusiya qazının tədarükünə uyğun alternativ təklif edib. Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Kadri Simson Azərbaycanın Avropaya ixracını artıraraq diversifikasiya səylərinə daha da töhfə verəcəyinə ümid etdiyini bildirib. Yaşıl hidrogenin ixracı və Xəzər regionunda külək enerjisi layihələrinin inkişafı ilə bağlı müzakirələr aparılmaqla Azərbaycanın yaşıl enerji potensialı avropalı tərəfdaşların da diqqətini çəkib. Bu təşəbbüslər Avropanın karbon emissiyalarının azaldılması və daha təmiz enerji mənbələrinə keçid məqsədinə uyğundur.

“Xəzər-Avropa İttifaqı enerji dəhlizi” layihəsi 2022-ci ilin dekabrında Buxarestdə təsdiq edildi. Qara dəniz enerji sualtı kabeli kimi tanınan bu layihə Avropanı etibarlı enerji mənbələri ilə təmin etmək niyyətindədir. Layihəni dəstəkləmək üçün Buxarestdə Avropa Komissiyası, Azərbaycan, Rumıniya, Macarıstan və Gürcüstanın iştirak etdiyi Strateji Tərəfdaşlıq Sazişi imzalanıb. Hazırda inkişaf mərhələsində olan layihənin enerji mənbələrini şaxələndirmək və Rusiyadan asılılığı azaltmaqla Avropanın enerji təhlükəsizliyini gücləndirəcəyi gözlənilir. Layihənin əsas məqsədi Gürcüstan və Azərbaycan ərazisindən keçməklə Rumıniyaya sualtı elektrik kabellərinin göndərilməsidir. İlkin büdcəsi 2,3 milyard ABŞ dolları olan layihənin 2029-cu ilə qədər istifadəyə veriləcəyi proqnozlaşdırılır. 1000 MVt gücündə və 1195 km uzunluğunda olan kabel Azərbaycandan Avropaya əhəmiyyətli miqdarda bərpa olunan enerjinin ötürülməsinə imkan verəcək. Layihə Avropanın enerji keçidi məqsədlərinə nail olmaq, dayanıqlı və təhlükəsiz enerji təchizatını təmin etmək istiqamətində mühüm addım kimi qiymətləndirilir.




Uğurlu siyasət, düzgün strategiya və zəngin bərpa olunan enerji potensialı Azərbaycanın "Xəzər-Avropa İttifaqı enerji dəhlizi" layihəsinin reallaşmasında vacib rol oynamasına zəmin yaratmışdır. Azərbaycanda bərpa olunan mənbələrdən enerjinin əldə olunması istiqamətində son illərdə vacib addımlar atılmış, xarici ölkələr və şirkətlərlə müqavilələr bağlanmış, böyük investiyalar cəlb edilmişdir. Bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalı potensialı qiymətləndirilir və bu potensialı maksimum dərəcədə artırmaq üçün nə edilməli olduğunu müəyyən etmək üçün müxtəlif layihələr həyata keçirilir. Bərpa olunan enerji mənbələri üçün ən böyük potensiala malik regionların müəyyən edilməsi və sıralanması prosesində səkkiz sahə seçilib. Seçilmiş və prioritetləşdirilmiş bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik ərazilərdə hərrac vasitəsilə investisiya qoyuluşu istiqamətində işlər davam etdirilir. Hazırda Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) ilə "Azərbaycanda bərpa olunan enerji hərraclarının keçirilməsinə dəstək" layihəsi həyata keçirilir.

1000 MVt gücündə dənizaltı elektrik kabeli əhəmiyyətli miqdarda elektrik enerjisini ötürmək potensialına malikdir. O, Avropada enerji mənbələrinin şaxələndirilməsinə töhfə verə və ümumi enerji kompleksində "yaşıl" elektrik enerjisinin payını artıra bilər. Bununla belə, səmərəli potensial müxtəlif amillərdən, o cümlədən Azərbaycanda bərpa olunan enerji istehsalının mövcudluğundan, ötürülmənin səmərəliliyindən və qəbul edən ölkələrin infrastruktur imkanlarından asılı olacaq.

Azərbaycanla Səudiyyə Ərəbistanının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri arasında bərpa olunan enerji üzrə pilot layihələrin həyata keçirilməsi üzrə müqavilələr imzalanmışdır. Müqavilələrə uyğun olaraq "ACWA Power" şirkəti ilə 240 MVt gücündə külək, "Masdar" şirkəti ilə isə 230 MVt gücündə günəş elektrik stansiyalarının tikintisi nəzərdə tutulmuşdur. Bundan başqa, xarici investisiyaların cəlb edilməsi istiqamətində Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyası ilə "Azərbaycanda dənizdə külək enerjisinin inkişafı üzrə yol xəritəsi"nin hazırlanması üzrə əməkdaşlıq edilir. Azərbaycanla BƏƏ-nin "Masdar" şirkəti arasında imzalanmış "Azərbaycan Respublikasında quruda sənaye miqyaslı 1 QVt gücündə günəş və 1 QVt gücündə külək enerjisi layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra Müqaviləsi" və "Dənizdə 2 QVt gücündə inteqrasiya edilmiş külək və yaşıl hidrogen layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra Müqaviləsi" müqavilələri yaşıl enerjinin əldə olunması istiqamətində vacib müqavilələrdəndir.

Azərbaycan və Avstraliyanın Fortescue Future Industries (FFI) şirkəti arasında Azərbaycanda bərpa olunan enerji layihələri və "yaşıl hidrogen"in potensialının öyrənilməsi və inkişafı üzrə birgə əməkdaşlığa dair Çərçivə Müqaviləsi imzalanmışdır. Müqavilə Azərbaycanda bərpa olunan enerji və "yaşıl hidrogen"in istehsalı üzrə ümumi gücü 12 QVt-dək layihələrin araşdırılması və reallaşdırılmasını nəzərdə tutur. Bundan başqa, Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası Nazirlərin 9-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası Nazirlərin 1-ci iclası çərçivəsində Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti arasında "Dənizdə 1,5 QVt-dək külək layihəsinin həyata keçirilməsinə dair İcra Müqaviləsi", "Quruda 1 QVt külək stansiyasının yaradılmasına dair İcra Müqaviləsi" və "Azərbaycan Respublikasında enerji saxlanc sistemlərinin inkişaf etdirilməsinə dair Anlaşma Memorandumu" imzalanıb. "Maire Tecnimont", Çinin "China Gezhouba Group Overseas Investment", "Nobel Energy Management", "TotalEnergies" şirkətləri ilə Azərbaycan arasında alternativ mənbələrdən enerji əldə edilməsi istiqamətində müxtəlif ölçülü müqavilələr imzalanmışdır.

## Nəticə

Öz vəsaiti və cəlb etdiyi xarici investisiyalar sayəsində bərpa olunan enerjinin əldə olunmasını ön planda tutan Azərbaycanın "Xəzər-Avropa İttifaqı enerji dəhlizi" layihəsinin reallaşmasındakı rolu vacibdir. Bağlanan müqavilələr, yeni yaşıl enerji stansiyalarının açılması, yaşıl iqtisadiyyatda artım və s. qısa zamanda bu layihənin böyük hissəsinin həyata keçirilməsinə gətirib çıxacaqdır.

Azərbaycanın yaşıl enerji sektorunun gələcəyi ümidvericidir. Ölkənin yaşıl enerji potensialını genişləndirmək istiqamətində gördüyü işlər, Avropanın bərpa olunan enerjiyə artan tələbi birlikdə əməkdaşlıq və tərəfdaşlıq üçün imkanlar yaradır. Azərbaycanın külək enerjisi, günəş enerjisi və yaşıl hidrogeni inkişaf etdirmək potensialı Avropanın enerji təhlükəsizliyi və davamlılıq məqsədlərinə töhfə verə bilər. Xəzər-Avropa İttifaqı enerji dəhlizi tam fəaliyyətə başladıqdan sonra bərpa olunan enerjinin Azərbaycandan Avropaya ötürülməsinin asanlaşdırılmasında mühüm rol oynayacaq. Qlobal enerji mənzərəsi inkişaf etməyə davam etdikcə, Azərbaycanın yaşıl enerji resursları Avropanın enerji bazarının gələcəyinin formalaşmasında getdikcə daha mühüm rol oynayacaq.

Xəzər-Avropa İttifaqı enerji dəhlizinin yaradılması və Azərbaycanın yaşıl enerji resursları Avropanın enerji bazarını transformasiya etmək potensialına malikdir. Azərbaycanın təbii qaz ixracını artırmaq və yaşıl enerji sektorunu genişləndirmək üçün həyata keçirdiyi işlər Avropanın enerji mənbələrinin şaxələndirilməsi və Rusiyadan asılılığının azaldılması məqsədlərinə uyğundur. Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında strateji tərəfdaşlıq enerji təhlükəsizliyini artırmaq, bərpa olunan enerjini təşviq etmək və Avropanın enerji keçidini dəstəkləmək məqsədi daşıyır. Dünya iqlim dəyişikliyi və geosiyasi qeyri-müəyyənliklərlə üzləşdiyi bir vaxtda Azərbaycanın yaşıl enerji resursları Avropa üçün davamlı və təhlükəsiz enerji həlli təklif edir. Azərbaycan bərpa olunan enerji potensialından istifadə etməklə Avropa üçün daha yaşıl və daha davamlı enerji gələcəyinə töhfə vermək iqtidarındadır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Şahbazov, P.O. Azərbaycan energetikasının yeni dövrü Qarabağ və Şərqi Zəngəzurdan başlayır. "Respublika" qəzeti, 20 oktyabr 2021-ci il. № 226 (7122). Səh.5-6.*

*2. Cəlilov, M.F. Alternativ Regenerativ Enerji Sistemləri. Dərslik. 2009. Səh.82-104. Abdullayev K.M., Məmmədov R.K., Lətifov Y.I.. Enerji ehtiyatları, elektrik enerjisi istehsalı və ətraf mühit. 2-ci cild, Bakı, «Zaman-3»,2007, 408 s.*

*3. Bayar, Y., & Gavriletea, M. D. (2019). Energy efficiency, renewable energy, economic growth: evidence from emerging market economies. Quality & Quantity, 53(4), 2221-2234.*

*4. Al-Mulali, U., Ozturk, I., ve Lea, H.H. (2015). The influence of economic growth,urbanization, trade openness, financial development, and renewable energyon pollution in Europe. Nat. Hazards, 79, 621- 644.Qurbanov, İ. Hazar havzasında stratejik oyunlar: hükuki statü sorunu ve uluslararası enerji politiği. TURAN-SAM dergisi. Sonbahar 2011. Cilt: 3. Sayı:12. Səh.5-15.*

*5. Polat, B. (2018). The impact of renewable and nonrenewable energy consumption on economic growth: a dynamic panel data approach. Asia-Pacific Journal of Accounting & Economics, 1-12.*

*6. Apergis, N., Payne J.E., Menyah, K., ve Wolde-Rufael, Y. (2010). On the causal dynamics between emissions, nuclear energy, renewable energy, and economic growth. Ecological Economics, 69, 2255-2260.Yakıcı Ayan.T.,Pabuçcu.H. (2013). "Yenilenebilir Enerji Kaynakları Yatırım Projelerinin Analitik Hiyerarşi Süreci Yöntemi İle Değerlendirilmesi", Süleyman Demirel Üniversitesi. İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, Cilt:18,Sayı:3,Sayfa:89-110.*

7. Amundsen,Eirik S. Nese, Gjermund (2009), Integration of tradable green certificate markets: What can be expected? Journal of Policy Modeling, 2009, 31, 6, 903-922

8. Timmons, D., Harris, J.M., & Roach, B.(2014). The economics of renewable energy/ Global Development And Environment Institute, Tufts University, 52, 1-52.

9. Ganda, F., & Ngwakwe, C. C. (2014). Role of energy efficiency on sustainable development. Environmental Economics, 5(1), 86-99.

10. Bhattacharya, M., Churchill, S., Awaworyi, P., ve Sudharshan, R. (2017). The dynamic impact of renewable energy and institutions on economic output and $CO2$ emissions across regions. Renewable Energy, 111, 157-167.

11. Eyüboğlu K, Akdağ S, Özçelik M. (2021). Gelişmekte Olan Ülkelerde Enerji Verimliliği, Yenilenebilir Enerji Ve Ekonomik Büyüme Etkileşiminin Test Edilmesi. Tarsus Üniversitesi Uygulamalı Bilimler Fakültesi Dergisi, 1(1), 29-36.

12. Bilginoglu, M. A. (1991), Energy Problem in Emerging Countries and Alternative Energy Policies. Erciyes University Journal of Economics and Administrative Sciences, 9, pp. 122-147.

13. Uslu, K. (2004). Energy and Politics in the European Union, Marmara University. Journal of Faculty of Economics and Administrative Sciences, 19 (1), 155-172.

14. Gultekın, A.H. ve Orgun, Y. (1993). Natural Gas and Environment. Ecology Environment Magazine, 9, 37 - 41.

15. Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 29 dekabr 2012-ci il. https://president.az/articles/7022

16. Rafiqoğlu, A. Dünyada "Yaşıl enerji"yə keçid: Azərbaycanda görülən işlər və planlar. Report İnformasiya Agentliyi. 30 İyun 2021-ci il. https://report.az/energetika/dunyada-yasil-enerji-ye-kecid-azerbaycanda-gorulen-isler-ve-planlar/

17. Babayev, C. Qarabağda yaşıl enerji potensialı və görüləcək işlərin təhlili. Renewables.az İnformasiya Portalı. 3 Oktyabr 2021-ci il. https://renewables.az/news/qarabagda-yasil-enerji-potensiali-ve-gorulecek-islerin-tehlili-2021-10-03-192438

18. Hajiyev, S., Mukhigulishvili, G. Azerbaijan-Georgia Partnership as a Key for EU's Long-term Energy Security. Warsaw institute. 13 September 2023. https://warsawinstitute.org/azerbaijan-georgia-partnership-as-a-key-for-eus-long-term-energy-security/

**XÜLASƏ:**

Avropa İttifaqı daxilində enerjiyə artan tələbat yeni layihələrin başlanmasına səbəb olub. Yeni layihələrin həyata keçirilməsində Azərbaycanın Avropa üçün əhəmiyyəti sürətlə artmaqda davam edir. Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın imzaladığı strateji tərəfdaşlıq sazişi çərçivəsində həyata keçirilməsinə başlanılan "Xəzər-Avropa İttifaqı Yaşıl Enerji Dəhlizi" layihəsi Aİ-nin enerjiyə olan tələbatını qarşılamaq üçün vacib layihələrdən biridir. Bu layihənin icrası ilə Azərbaycanda bərpa olunan enerji mənbələrindən əldə olunan enerji Qara dənizin altından sualtı kabel vasitəsilə Avropaya ötürüləcək.

Avropa İttifaqı Azərbaycanın yaşıl enerji potensialını regionda əsas mənbələrdən hesab edir. "Xəzər-Avropa İttifaqı Yaşıl Enerji Dəhlizi" layihəsi həm Azərbaycan, həm də Avropa üçün böyük əhəmiyyət kəsb edir. Avropa İttifaqının enerji mənbələrinin şaxələndirilməsində və Rusiyadan enerji asılılığının azaldılmasında potensial alternativ kimi bu layihə böyük rol oynayır. Layihə enerji mənbələrinin şaxələndirilməsi ilə Avropanın enerji təhlükəsizliyinə töhfə verməklə yanaşı, həm də Aİ-nin daha təmiz və dayanıqlı enerjiyə keçidini dəstəkləyir.

Bu məqalədə "Xəzər-Avropa İttifaqı Yaşıl Enerji Dəhlizi"-nin həyata keçirilməsində Azərbaycanın yaşıl enerji resurslarının rolu və potensial əhəmiyyəti araşdırılmışdır.

**Açar sözlər:** *Yaşıl enerji, Azərbaycan, Enerji dəhlizi, Bərpa olunan enerji, Yaşıl iqtisadiyyat*

**Khatai Mammadli**
**Doctoral student of Azerbaijan State Oil and İndustry University**
**E-mail: xetaimemmedli@gmail.com**

**The role and potential importance of Azerbaijan's green energy resources in the creation of the "Caspian-European Union energy corridor".**

**SUMMARY:**

The increasing demand for energy within the European Union has led to the initiation of new projects. The importance of Azerbaijan for Europe in the implementation of new projects continues to grow rapidly. The "Caspian-European Union Green Energy Corridor" project, which was launched within the framework of the strategic partnership agreement

signed by Azerbaijan, Georgia, Romania and Hungary, is one of the important projects to meet the energy demand of the EU. With the implementation of this project, energy obtained from renewable energy sources in Azerbaijan will be transmitted to Europe through an underwater cable under the Black Sea.

The European Union considers Azerbaijan's green energy potential as one of the main sources in the region. The "Caspian-European Union Green Energy Corridor" project is of great importance for both Azerbaijan and Europe. As a potential alternative in diversifying the European Union's energy sources and reducing energy dependence on Russia, this project plays a major role. The project not only contributes to Europe's energy security by diversifying energy sources, but also supports the EU's transition to cleaner and more sustainable energy.

In this article, the role and potential importance of Azerbaijan's green energy resources in the implementation of the "Caspian-European Union Green Energy Corridor" is investigated.

**Keywords:** *Green energy, Azerbaijan, Energy corridor, Renewable energy, Green economy*

**Хатаи Мамедли**
**Докторант Азербайджанского государственного университета нефти и промышленности**
**Эл-почта: xetaimemmedli@gmail.com**

**Роль и потенциальное значение зеленых энергетических ресурсов Азербайджана в создании «энергетического коридора Каспий-Европейский Союз».**

**РЕЗЮМЕ:**

Растущий спрос на энергию в Европейском Союзе привел к инициированию новых проектов. Значимость Азербайджана для Европы в реализации новых проектов продолжает стремительно расти. Проект «Коридор зеленой энергии Каспий-Европейский Союз», запущенный в рамках соглашения о стратегическом партнерстве, подписанного Азербайджаном, Грузией, Румынией и Венгрией, является одним из важных проектов по удовлетворению энергетических потребностей ЕС. При реализации этого проекта энергия, получаемая из возобновляемых источников энергии в Азербайджане, будет передаваться в Европу по подводному кабелю под Черным морем.

Европейский Союз рассматривает потенциал зеленой энергетики Азербайджана как один из основных источников в регионе. Проект «Коридор зеленой энергии Каспий-Европейский Союз» имеет большое значение как для Азербайджана, так и для Европы. В качестве потенциальной альтернативы диверсификации источников энергии Евросоюза и снижению энергетической зависимости от России этот проект играет важную роль. Проект не только способствует энергетической безопасности Европы за счет диверсификации источников энергии, но также поддерживает переход ЕС к более чистой и устойчивой энергетике.

В данной статье исследуется роль и потенциальное значение зеленых энергетических ресурсов Азербайджана в реализации «Коридора зеленой энергии Каспий-Европейский Союз».

**Ключевые слова:** *Зеленая энергетика, Азербайджан, Энергетический коридор, Возобновляемая энергия, Зеленая экономика.*

UOT 327; 339.9
DOI:10.30546/3006-0346.2023.6.78.41

# AZƏRBAYCAN-ERMƏNİSTAN SƏRHƏDLƏRİN DELİMİTASİYASI VƏ DEMARKASİYASI PROBLEMİ VƏ ONUN HƏLLİ YOLLARI

**ÜZEYİR MUSTAFAYEV**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dissertantı*

*E-mail: u.mustafayev@konullu.az*

## Giriş

Azərbaycan və Ermənistan arasında müharibə sonrasında keçirilmiş görüşlərdə əsas müzakirə mövzularından biri sərhədlərin delimitasiya və demarkasiyası məsələsi olmuşdur. İstər Avropa İttifaqı, istərsə də Rusiyanın vasitəçiliyi ilə keçirilmiş görüşlərdə Azərbaycan dəfələrlə sərhədlərin müəyyənləşdirilməsinin zəruriliyini bəyan etmişdir. Lakin sərhədlərin müəyyənləşdirilməsi probleminin həllinə çalışmaq əvəzinə Ermənistan tərəfindən səsləndirilmiş müxtəlif tələblər bu prosesi müharibədən sonrakı 3 il ərzində yalnız gecikdirməyə xidmət etmişdir. Bütün bunlara qarşılıq olaraq Azərbaycan dəfələrlə bəyan edib ki, prosesin mümkün qədər tez başa çatdırılması naminə, sərhədlərin delimitasiya və demarkasiyası üçün heç bir ilkin şərt olmamalıdır. Bir sözlə, Azərbaycanın rəsmi mövqeyi ondan ibarətdir ki, sərhədin delimitasiya və demarkasiyası münasibətlərin normallaşması və tərəflər arasında yekun sülh sazişi üçün ilkin şərtdir. Bu məsələ Ermənistana təqdim edilmiş Azərbaycanın iki ölkə arasında əlaqələrin qurulmasının əsas prinsiplərinə dair təklifində də öz əksini tapmışdır.

## Əsas hissə

Reallıqda Qarabağ məsələsi ilə Azərbaycan-Ermənistan sərhədinin delimitasiya və demarkasiyası problemi tamamilə fərqli anlayışlardır. Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası dedikdə dövlətlər arasında dövlət sərhədinin ümumi mövqeyinin və istiqamətinin danışıqlar yolu ilə müəyyənləşdirilməsi nəzərdə tutulur. Azərbaycan-Ermənistan sərhədinin demarkasiyası isə mübahisə obyekti olan ərazidə müvəqqəti müəyyənləşdirilən xətt (zolaq) deməkdir. Demarkasiya xətti döyüşən tərəflər arasında xüsusi sazişlə müəyyənləşir.

Belə ki, Qarabağ münaqişəsi anlayışının birmənalı şəkildə aradan qaldırılmasına baxmayaraq sərhəd problemi günümüzdə davam etməkdədir. Azərbaycan tərəfindən 44 gün ərzində aparılan hərbi əməliyyatlar, Həkəri çayı üzərində sərhəd-keçid məntəqəsinin qurulması və 19-20 sentyabr tarixlərində keçirilən antiterror tədbirləri çərçivəsində Qarabağda qalan Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah olunması nəticəsində Azərbaycan həm ərazi bütövlüyünü, həm də tam suverenliyini təmin etdi. Lakin Ermənistan rəhbərliyinin qərar qəbul etməsinə təsir edən siyasi kontekstlər və Ermənistan cəmiyyətində Azərbaycanın xeyrinə ola biləcək tarixi sənədlər çərçivəsində sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı dözümlülüyün olmaması sərhəddəki vəziyyətin qeyri-müəyyən halda qalmasına səbəb olur. Başqa sözlə, sərhədlərin delimitasiya və demarkasiyası Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Qarabağdan tamamilə ayrı olaraq həll olunmalıdır ki, bununla bağlı da Ermənistan tərəfindən yalnız səsləndirilmiş fikirlər vardır. Hazırda Ermənistan tərəfi hələ də Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinə müvafiq olaraq sərhədin delimitasiya və demarkasiya məsələni təxirə salmaqla məşğuldur [2].

Azərbaycan Prezidenti İlham Əliyev siyasi müstəvidə dəfələrlə bəyan edib ki, Azərbaycan Ermənistanla Azərbaycan arasında sərhədin delimitasiyasına hazırdır. Postmüharibə dövründə Ermənistanla olan diplomatik təmasların da əsasını məhz sülh sazişi, yeni münaqişədən çəkindirmə və sərhədlərin delimitasiyası məsələləri təşkil edir. 2021-ci ilin 11 yanvar tarixində Moskva şəhərində Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin iştirakı ilə üçtərəfli formatda keçirilən görüş postmüharibə dövründə tərəflər arasında dövlət başçıları səviyyəsində ilk diplomatik təmas idi. Keçirilmiş görüş nəticəsində imzalanmış 4 bəndlik Moskva bəyanatı isə tərəflərin sülh quruculuğu sahəsində ilk sənədi hesab edilə bilər. Bəyanatın müddəaları aşağıdakılardır:

1. 2020-ci il 9 noyabr tarixli Bəyanatın 9-cu bəndinin regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı hissəsinin reallaşdırılması məqsədilə Rusiya Federasiyasının Prezidenti V.V. Putinin Azərbaycan Respublikasının, Ermənistan Respublikasının baş nazirləri müavinlərinin və Rusiya Federasiyası Hökumətinin sədr müavininin birgə

həmsədrliyi ilə üçtərəfli İşçi qrupu yaradılması barədə təklifi dəstəklənir.

2. İşçi qrupu 2021-ci il yanvarın 30-dək ilk iclasını keçirəcək, bu iclasın nəticələrinə görə Bəyanatın 9-cu bəndinin reallaşdırılmasından irəli gələn işlərin əsas istiqamətlərinin siyahısını formalaşdıracaq, prioritet qismində dəmir yolu və avtomobil yollarını müəyyən edəcək, həmçinin bundan sonra Tərəflər adlanacaq Azərbaycan Respublikası, Ermənistan Respublikası və Rusiya Federasiyası arasında razılaşma əsasında digər istiqamətləri müəyyən edəcəkdir.

3. Fəaliyyətin əsas istiqamətlərinin reallaşdırılması məqsədilə İşçi qrupunun həmsədrləri bu istiqamətlər üzrə Tərəflərin səlahiyyətli hakimiyyət orqanları və təşkilatlarının vəzifəli şəxslərindən ibarət ekspert yarımqruplarının tərkibini təsdiq edəcəklər. Ekspert yarımqrupları işçi qrupunun iclasından sonra bir ay müddətində layihələrin siyahısını təqdim edəcək, onların reallaşdırılması və Tərəflərin yüksək səviyyədə təsdiq etməsi üçün zəruri resursları və tədbirləri əsaslandıracaqlar.

4. İşçi qrupu 2021-ci il martın 1-dək Azərbaycan Respublikası və Ermənistan Respublikası ərazisindən həyata keçirilən beynəlxalq daşımaların, həmçinin Azərbaycan Respublikası və Ermənistan Respublikası tərəfindən həyata keçirilən, yerinə yetirilməsi zamanı Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazilərinin kəsişməsi tələb olunan daşımaların təşkili, yerinə yetirilməsi və təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan yeni nəqliyyat infrastrukturu obyektlərinin bərpasını və tikilməsini nəzərdə tutan tədbirlərin siyahısını və reallaşdırılması qrafikini Tərəflərin yüksək səviyyədə təsdiqləməsi üçün təqdim edəcək [6].

Bəyanatın 2-ci bəndinin icrası yəni, işçi qrupun fəaliyyəti üçün tərəflər arasında sərhədlərin müəyyənləşdirilməsi xüsusilə zəruri idi. Bu baxımdan 2021-ci ilin 26 noyabr tarixində Soçi şəhərində Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin iştirakı ilə növbəti üçtərəfli görüş baş tutdu. Məhz Soçi görüşü çərçivəsində tərəflər sərhəd məsələsinə aydınlıq gətirərək, sərhədlərin müəyyənləşdirilməsi istiqamətində fəaliyyətlərin sürətləndirilməsi barədə razılığa gəldilər. Tərəflər Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin və iqtisadi inkişafın təmin edilməsi naminə 2020-ci il 9 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatların bütün müddəalarının bundan sonra ardıcıl surətdə yerinə yetirilməsinə tərəfdar olduqlarını təsdiq etdilər. Bununla da ilk dəfə olaraq Azərbaycan və Ermənistan arasında sərhədin müəyyənləşdirilməsi işinin təşkili üçün hər iki tərəfdən sərhəd komissiyalarının yaradılması barəsində ümumi razılıq əldə olundu [5].

Soçi görüşündən sonra 12 dekabr 2021-ci il tarixində Azərbaycan və Ermənistan dövlət başçıları səviyyəsində növbəti görüş Brüsseldə keçirildi. 12 dekabr tarixində reallaşan görüşlə tərəflər arasında münasibətlərin normallaşdırılması və regionda uzunmüddətli sülhün təmin olunmasında vasitəçi qismində Avropa İttifaqı çıxış etməyə başladı. Brüssel görüşləri çoxraundlu formatda davam etdi. 2022-ci ilin fevralında Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılmasına dair aşağıdakı 5 prinsipi irəli sürdü:

1. Dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması;

2. Dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi;

3. Dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək;

4. Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması;

5. Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması [2].

İrəli sürülən 5 prinsip bundan sonrakı dövrdə Azərbaycanla Ermənistan arasında keçiriləcək olan diplomatik təmaslar, o cümlədən görüşlərin əsasını təşkil edirdi. Prinsiplərdən bir daha aydın olur ki, Azərbaycan beynəlxalq hüquqa, dövlətlərinin suverenliyinə sadiqdir və bu kontekstdə irəli sürülən prinsiplərin heç biri beynəlxalq quruluşların müvafiq normativ aktlarına zidd deyildir.

2022-ci il 22 may tarixində Brüsseldə Aİ Şurasının sədri Şarl Mişel ilə yenidən üçtərəfli görüş keçirildi. Brüsseldə keçirilən sayca üçüncü görüşdə tərəflər sərhədlərin müəyyənləşdirilməsi barəsində yekun qərara gəldiklərini elan etdilər. 2022-ci il 23 may tarixində, yəni görüşdən bir gün sonra isə həm

Azərbaycan, həm də Ermənistanda sərhədlərin delimitasiyası üzrə komissiyanın yaradılması barəsində müvafiq qərarlar imzaladılar. Beləliklə bir daha aydın oldu ki, delimitasiya və demarkasiya məsələsi əslində Brüssel görüşünün üçüncü raundunun əsas müzakirə mövzusu olub. Yeni yaradılmış sərhəd komissiyalarına rəhbərliyi Ermənistan və Azərbaycan baş nazirlərinin müavinləri Mher Qriqoryan və Şahin Mustafayev edirlər. Ölkə başçısı tərəfindən imzalanmış sərəncamla Azərbaycan tərəfindən sərhəd komissiyasının tərkibinə 22 dövlət qurumundan rəhbərlər və müavinlər daxil edildilər. Komissiyanın 9 üzvü Ermənistanla sərhəddə yerləşən rayonların icra başçılarıdır. Sərhəd komissiyaları arasında ilk görüş 24 may 2022-ci il tarixində Azərbaycan – Ermənistan şərti dövlət sərhəddində keçirilmişdir. Bu görüşdə növbəti görüşün keçirilməsi barəsində razılıq əldə olunub. Sərhəd komissiyaları daha sonra 2022-ci il 30 avqustda Moskvada, 3 noyabr 2022-ci il tarixində isə Brüsseldə görüşsələr də nəticə əldə olunmamışdır. 12 iyul 2023-cü il tarixində isə komissiya rəhbərlərinin şərti sərhəddə hələ ki sonuncu görüşü baş tutmuşdur.

Ermənistanın delimitasiya və demarkasiya ilə bağlı Rusiya vasitəsilə Azərbaycana təqdim etdiyi təklifdə iki tərəfin silahlı birləşmələrinin güzgü prinsipi ilə sərhəddən geri çəkilməsi yer alıb [3]. Bu təklifə cavab olaraq Azərbaycan tərəfi bildirib ki, prosesi mümkün qədər tez başa çatdırmaq üçün sərhədin delimitasiyası və demarkasiyası üçün heç bir ilkin şərt olmamalıdır [1]. Bir sözlə, Azərbaycanın rəsmi mövqeyi ondan ibarətdir ki, sərhədin delimitasiyası və demarkasiyası münasibətlərin normallaşması və tərəflər arasında yekun sülh sazişi üçün ilkin şərtdir.

Maraqlıdır ki, müharibə başa çatdıqdan sonra İrəvan rəsmiləri regionda, o cümlədən Ermənistan və Türkiyə arasında nəqliyyat marşrutlarının açılması ideyasını fəal dəstəkləməyə və bu mövzuda müsbət danışmağa başladılar. 2021-ci ilin yayında Ermənistanda müxalifətin tələbi ilə təşkil edilən növbədənkənar seçkilərdə yenidən Nikol Paşinyanın qələbə qazanması Ermənistan cəmiyyətindəki əhvali-ruhiyyəni və yeni tendensiyaları əks etdirir. Qarabağı işğalda saxlamaqla Ermənistan 30 il ərzində yalnız özü-özünü blokadada saxladı. Yerləşdiyi coğrafi mövqeyə baxmayaraq beynəlxalq ticarət, nəqliyyat və logistika arteriyalarının heç biri bu ərazidən keçmir. Əslində Cənubi Qafqazda kommuninikasiyaların bərpasında ən maraqlı tərəf bu səbəbdən Ermənistan olmalıdır. Kommunikasiyaların bərpası üçün yeganə tələb isə Azərbaycan-Ermənistan sərhədinin müəyyənləşdirilməsidir.

2022-ci ilin oktyabrın 6-da Çexiya Respublikasının paytaxtı Praqa şəhərində "Avropa siyasi birliyi" Zirvə Toplantısında Azərbaycan Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Fransa Prezidenti Emmanuel Makron və Ermənistan baş naziri Nikol Paşinyan arasında baş tutan dördtərəfli görüşün nəticələri Azərbaycanın növbəti diplomatik qələbəsi kimi qiymətləndirilir. Çünki bu görüşün nəticəsində Ermənistan tərəfindən Azərbaycanın ərazi bütünlüyü və suverenliyi tanınmışdır [7]. Dövlətlərin ərazi bütövlüyünün tanınması mütləq şəkildə hər hansı bəyannamə, razılaşma və ya bu xüsusda olan digər bir sənədə əsaslanmalıdır. Ermənistan və Azərbaycan bir-birinin ərazi bütünlüyü və suverenliyini 1991-ci ildə imzalanmış Alma-Ata bəyannaməsi əsasında tanıdıqlarını elan etdilər. Alma-Ata bəyannaməsi ilə yeni müstəqillik qazanmış ölkələr SSRİ dövründə keçmiş müttəfiq respublikaların inzibati sərhədlərini tanıyırlar. Bu bəyannamə əsasında Praqa görüşündə sərhədlərin tanınması əslində Ermənistanın faktiki olaraq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıdığını ifadə edir. Praqa görüşü ilə Ermənistan Azərbaycan-Ermənistan sərhədinin müəyyənləşdirilməsi üçün 2021-2022-ci illər ərzində dəfələrlə vurğulamağa çalışdığı Qarabağın statusu məsələsindən rəsmi olaraq imtina etmiş oldu. Düzdür, ölkə başçısı İlham Əliyev Qarabağın statusunun “hara getdiyini” üçtərəfli bəyanatın imzalandığı gün xalqa etmiş olduğu müraciətində bildirmişdi, amma Ermənistan rəhbərliyinin bununla barışması Praqa görüşündə baş tutdu.

Praqa görüşündən sonra diplomatik təmaslarda müəyyən problemlər yaranmışdır. Fransa Ermənistanın da istəyi ilə özünü danışıqlar prosesinə tərəf kimi əlavə etməyə cəhd edirdi. Hətta Fransanın tərəf olaraq prosesə qoşulması İrəvan tərəfindən şərt kimi irəli sürülürdü. Lakin bu addım Azərbaycan tərəfindən qəbul edilməz hesab olunurdu. Bu səbəbdən də 7 dekabr 2022-ci il tarixində Brüsseldə keçirilməsi planlaşdırılan növbəti görüş təxirə salınmışdır.

2023-cü il 14 may tarixində Brüsseldə tərəflər arasında beşinci görüş baş tutdu. Üçtərəfli görüşün nəticələrinə dair Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel mətbuata açıqlama verdi. Şarl Mişelin bəyanatında tərəflərin hansı mövzular istiqamətində müzakirələr apardığı aydın olur. Şarl Mişel bildirdi

ki, tərəflərlə sərhəd məsələlərində irəliləyişi və sərhədlərin delimitasiyası ilə bağlı atılacaq növbəti addımlar müzakirə edildi. Həmin kontekstdə liderlər sərhəd məsələləri ilə bağlı ikitərəfli görüşlərin bərpasına dair razılığa gəldilər. Liderlər 1991-ci ilin "Alma-Ata Bəyannaməsi"nə və Ermənistanın 29,800 kvadratkilometr və Azərbaycanın 86,600 kvadratkilometr ərazisinin toxunulmazlığına birmənalı sadiqliklərini təsdiq etdilər. Sərhədlərin delimitasiyasının yekunlaşdırılması danışıqlar vasitəsilə baş tutacaq. Bu göstərir ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü bu dəfə Avropa İttifaqı platformasında etiraf etmiş oldu [7].

## Nəticə

Araşdırmanın əvvəlində vurğulandığı kimi, Azərbaycan sərhədlərin delimitasiya və demarkasiyasında həm maraqlı, həm də qərarlıdır. Ermənistanla baş tutan bütün diplomatik təmaslarda Azərbaycan bu mövqeyini qəti surətdə bəyan etmişdir. Ermənistan son antiterror əməliyyatlarından sonra bir daha anlamalıdır ki, Qarabağda yaşayan erməni milliyyəti mənsubu şəxslərlə iş Praqa görüşündə rəsmi olaraq tanımış olduğu Azərbaycan Respublikasının suverenliyi çərçivəsindədir. Ermənistan tərəfindən Azərbaycana qarşı aparılan təbliğat və bilərəkdən sərhədlərin delimitasiya və demarkasiya fəaliyyətlərinin başlanmasının qarşısının alınması yalnız sülh prosesinə zərər verəcəkdir.

Azərbaycan və Ermənistan arasında, regional olaraq yanaşsaq isə Cənubi Qafqazda uzunmüddətli sülhün təmin olunması və qorunması istəyini Azərbaycan bütün diplomatik vasitələrlə dəfələrlə bəyan etmişdir. Sülhün təmin olunması üçün indiki məqamda yeganə şərt sərhədlərin müəyyənləşdirilməsi və daha sonra kommunikasiya xətlərinin açılmasıdır. Sülh müqaviləsinin imzalanması və Cənubi Qafqazda uzunmüddətli sülhün qurulması üçün sərhəd probleminin həll olunması xüsusilə labüddür. Bu xüsusda Azərbaycan müharibədən sonrakı 3 il ərzində 30 illik işğal dövrü boyunca Qarabağda Ermənistan tərəfindən bilərəkdən məhv edilmiş avtomobil və dəmiryollarını, o cümlədən digər zəruri infrastrukturu bərpa etmiş və yeniləmişdir. Bu, bir daha sübut edir ki, Azərbaycan sərhədlərin müəyyənləşdirilməsi və kommunikasiyaların bərpası üçün maraqlıdır. Ermənistan tərəfinin qeyri-adekvat addımları isə sərhəddəki vəziyyəti indiyədək problem halında saxlamışdır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. APA. 2022. Azerbaijan is ready to begin unconditional delimitation process with Armenia. February 4. https://apa.az/en/foreign-policy/azerbaijan-is-ready-to-begin-unconditional-delimitation-process-with-armenia-367615.*

*2. Ar.az. 2023, Azərbaycanın növbəti diplomatik uğuru; beşinci Brüssel görüşü…, https://a-r.az/az/article/19292*

*3. AzerTac. 2022. Foreign Ministry: Azerbaijan has announced basic principles proposed for establishment of relations with Armenia. March 14. https://azertag.az/en/xeber/Foreign_Ministry_Azerbaijan_has_announced_basic_principles_proposed_for_establishment_of_relations_with_Armenia-2052467 .*

*4. JAMNews. 2022. Armenia proposed border demarcation concept to Azerbaijan – What went wrong? January 21. https://jam-news.net/armenia-proposed-border-demarcation-concept-to-azerbaijan-what-went-wrong/.*

*5. President of the Republic of Azerbaijan. 2021. A trilateral meeting was held among Russian President Vladimir Putin, President of Azerbaijan Ilham Aliyev and Prime Minister of Armenia Nikol Pashinyan in Sochi. 26 November. https://president.az/en/articles/view/54420.*

*6. President.az. 2021 Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin bəyanatı, https://president.az/az/articles/view/50070*

*7. Science.gov.az. 2022, Praqa görüşünün nəticələri Azərbaycanın milli maraqlarına uyğundur, https://science.gov.az/az/news/open/22320*

## XÜLASƏ:

İkinci Qarabağ müharibəsinin başa çatmasına baxmayaraq, Ermənistan-Azərbaycan sərhədindəki vəziyyət gərgin formada qalmaqda davam edir. Müharibə bitən zaman imzalanmış üçtərəfli bəyanatdakı bəndlərdən biri regiondakı kommunikasiya xətlərinin bərpası məsələsinə aiddir. Təbii ki, Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiyası aparılmadan bu bəndin icrası olduqca çətindir. Sərhədlərin müəyyənləşdirilməsində ilkin addım tərəflərin bir-birlərinin suverenliklərini qarşılıqlı şəkildə tanımaları və bu məsələyə hörmətlə yanaşmalarıdır. Ermənistan tərəfindən Azərbaycanın ərazi bütövlüyünün tanınmasına baxmayaraq müxtə-

lif vaxtlarda səsləndirilmiş əsassız iddialar Azərbaycan-Ermənistan sərhəddinin müəyyənləşdirilməsi prosesini uzatmağa xidmət edir.

**Açar sözlər:** *Müstəqillik; ərazi bütövlüyü; sərhəd problemləri; delimitasiya, demarkasiya.*

**Mustafayev Uzeyir Habil**
**Public Administration under the President of Azerbaijan Republic**
**Baku, Azerbaijan**

## THE PROBLEM OF DELIMITATION AND DEMARCATION OF AZERBAIJAN-ARMENIA BORDERS AND ITS SOLUTIONS

**SUMMARY:**

Despite the end of the Second Karabakh War, the situation on the Armenian-Azerbaijani border continues to remain tense. One of the points in the tripartite declaration signed at the end of the war concerns the restoration of communication lines in the region. Of course, it is very difficult to implement this clause without the delimitation and demarcation of the borders between Azerbaijan and Armenia. The first step in determining the borders is for the parties to mutually recognize each other's sovereignty and treat this issue with respect. Despite Armenia's recognition of Azerbaijan's territorial integrity, groundless claims made at various times serve to prolong the process of determining the Azerbaijan-Armenia border. In such a case, there is a need for a detailed analysis of diplomatic contacts between Azerbaijan and Armenia, including meetings and opinions voiced by both sides on the issue of delimitation of borders.

**Keywords:** *Independence; territorial integrity; border problems; delimitation, demarcation.*

**Мустафаев Узеир Хабиль**
**Государственное управление при Президенте Азербайджанской Республики**
**Баку, Азербайджан**

## ПРОБЛЕМА РАЗДЕЛЕНИЯ И ДЕМАРКАЦИИ АЗЕРБАЙДЖАНО-АРМЯНСКОЙ ГРАНИЦЫ И ЕГО РЕШЕНИЯ

**РЕЗЮМЕ:**

Несмотря на окончание Второй Карабахской войны, ситуация на армяно-азербайджанской границе продолжает оставаться напряженной. Один из пунктов подписанной по итогам войны трехсторонней декларации касается восстановления линий связи в регионе. Конечно, реализовать этот пункт без делимитации и демаркации границ между Азербайджаном и Арменией очень сложно. Первым шагом в определении границ является взаимное признание сторонами суверенитета друг друга и уважительное отношение к этому вопросу. Несмотря на признание Арменией территориальной целостности Азербайджана, необоснованные претензии, выдвигавшиеся в разное время, служат затягиванию процесса определения азербайджано-армянской границы.

**Ключевые слова:** *Независимость; территориальная целостность; пограничные проблемы; делимитация, демаркация.*

UOT 930.2
DOI:10.30546/3006-0346.2023.6.78.46

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİ VƏ ŞİMALİ AZƏRBAYCAN İQTİSADİYYATI PROBLEMİ ÜZRƏ ƏSAS MƏNBƏLƏR

**RƏNA ƏSƏDOVA**

*Tarix üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Tarix İnstitutu,*
*Azərbaycan Universiteti,*
*ORCID: 0000-0002-0310-6201*

*E-mail: rena-beyler@gmail.com*

Birinci Dünya müharibəsinin Şimali Azərbaycan iqtisadiyyatına təsiri problemi Vətən tarixində önəmli yer tutur. Ona görə də həm Sovet dövründə, həm də müstəqilliyin bərpasından sonra bu elmi problemin müxtəlif aspektləri tədqiqat predmeti olmuşdur [1]. Həmin əsərlərdə çoxlu sayda müxtəlif xarakterli ilkin mənbələr elmi dövriyyəyə gətirilmişdir. Təqdim edilən məqalədə Birinci Dünya müharibəsinin Şimali Azərbaycan iqtisadiyyatına təsiri mövzusu üzrə mənbələri üç qrupa bölərək araşdırmaq məqsədəuyğun sayılmışdır: müxtəlif zamanlarda nəşr olunmuş sənəd topluları, arxiv fondlarında saxlanan sənədlər, dövri mətbuat materialları. Müharibə və onun sosial-iqtisadi həyatda yaratdığı dəyişikliklər haqqında tədqiqatların əsas mənbə bazasını təşkil edən bu materiallar böyük əhəmiyyətə malikdir. Bu, bir-birindən fərqli mənbələrdən götürülmüş və müxtəlif xarakterli sənəd və materialların kompleks şəkildə tədqiqata cəlb edilməsi mövzunun bütövlükdə və tam şəkildə tədqiq edilməsinə imkan verir.

Müharibənin iqtisadiyyata, döyüşən ordunun təchizatına, əhalinin həyat şəraitinə təsiri, hakimiyyət orqanlarının bununla bağlı qərar və sərəncamları haqqında olan mənbələrin əhəmiyyətli bir hissəsi müharibə dövründə və sonrakı illərdə sənəd topluları şəklində nəşr olunmuşdur. Onların içərisində Rusiya dövlətinin müharibə dövrü tələblərinə uyğun olaraq sənaye müəssisələrinin, dəmir yolu nəqliyyatının işini yenidən qurmaq, cəbhənin ehtiyaclarını ödəmək üçün əsas qərarların qəbul edildiyi "Dövlətin müdafiəsi üzrə Xüsusi Müşavirənin jurnalları" adlı üç cilddən ibarət toplular [2] xüsusilə böyük əhəmiyyətə malikdir. Bu toplularda dərc edilmiş sənəd və materiallarda həm Rusiya imperiyası miqyasında, həm də Qafqazda, o cümlədən Şimali Azərbaycanda müharibənin doğurduğu mürəkkəb problemləri həll etmək üçün ali hakimiyyət nümayəndələrinin iştirakı ilə görülən tədbirlər, xüsusən döyüşən ordunun silah, döyüş sursatı, yanacaq, paltar və s. zəruri məhsullarla təchizi, iri şəhərlərin və sənaye rayonlarının yanacaq və ərzaqla təmin olunması, dəmir yolu ilə yük daşımaların qaydaya salınması üçün atılan addımlar haqqında çox mühüm məlumatlar əks olunmuşdur.

Dövlətin müdafiəsi üzrə Xüsusi Müşavirənin jurnalları – Rusiyada Birinci Dünya müharibəsi zamanı yaradılmış ən yüksək hərbi-tənzimləyici orqanın iqtisadiyyatın səfərbər edilməsi və hərbiləşdirilməsi sahəsində verdiyi qərar və göstərişlərin əks olunduğu çox qiymətli mənbələrdir. Xüsusi Müşavirənin jurnallarının səhifələrində müharibə dövründə imperiya üçün taleyüklü məsələlərin müzakirəsi və onlarla bağlı ali hakimiyyətin verdiyi qərarlardan bəhs edilmişdir. Xüsusi Müşavirənin iclaslarında Rusiyanın hakim dairələri tərəfindən ölkənin bütün ehtiyatlarının hərbi ehtiyaclar üçün səfərbər edilməsi tədbirlərinə dair çoxlu materiallar var, onlar Rusiyanın iqtisadi vəziyyətinin ən mühüm problemlərini: sənayenin, nəqliyyatın, maliyyənin, ərzaq məsələlərinin vəziyyətini, ölkədə artan iqtisadi və siyasi böhranı əks etdirir.

Bu tipli digər çox mühüm sənədlər toplusu Rusiya hökumətinin müharibə dövründə qəbul etdiyi qərar və sərəncamların ardıcıl çap olunduğu külliyyatlardır [3]. Hökumətin hərbi səfərbərlik, cəbhəarxası işlərə müsəlman xalqların cəlb edilməsi, vergi və rüsumların artırılması haqqında rəsmi qərar və sərəncamları, digər normativ sənədləri bu külliyyatlarda cəmlənmişdir.

Rusiya imperiyası miqyasında XX əsrin əvvəlində, o cümlədən Birinci dünya müharibəsi ərəfəsində və dövründə metallurgiya və neft sənayesində inhisarçı birliklərin vəziyyətinə həsr olunmuş sənəd toplularında [4,5,6] metal və yanacaq istehsalında baş verən dəyişikliklər haqqında qiymətli məlumatlar toplanmışdır. XX əsrin ilk onilliklərində Rusiya imperiyasında metallurgiya və neft sənayesində inhisar birliklərinin fəaliyyətinə, inhisar birlikləri ilə bağlı dövlət siyasətinə, mövcud inhisar birliklərində xarici kapitalın mövqeyi və təsir gücü məsələlərinə həsr edilmiş monoqrafiya [7,8,9] və məqalələrdə

[10,11,12,13] də çoxlu sayda faktik material və statistik göstəricilər elmi dövriyyəyə gətirilmişdir.

Bu baxımdan, görkəmli Azərbaycan tarixçisi S.Əliyarovun Birinci Dünya müharibəsi dövründə Şimali Azərbaycanda neft inhisarları mövzusuna həsr olunmuş fundamental monoqrafiyası xüsusi qeyd edilməlidir. Bu əsərdə müharibə başlandıqdan sonra neft inhisarlarının fəaliyyətindəki önəmli dəyişikliklər, dövlətin neft məhsulları istehsalını tənzimləmək cəhdləri diqqətlə araşdırılmış, böyük həcmdə statistik göstəricilər tədqiqat prosesinə cəlb olunmuşdur. Gürcü alimi N.Nanitaşvilinin Cənubi Qafqazda Almaniya kapitalının təmsilçisi "Simens və Qalske" şirkətinin XIX əsrin 60-cı illərindən başlayaraq 1917-ci ilədək fəaliyyətini əks etdirən monoqrafiyası mis istehsalında Qafqaz regionunun imperiya miqyasında mövqeyini aydınlaşdırmaq baxımından statistik məlumatlarla zəngindir.

Rus sovet tədqiqatçısı V.Laverıçevin Birinci dünya müharibəsi illərində Rusiya hakimiyyət orqanlarının hərbi sənayeni tənzimləmək tədbirlərinə həsr edilmiş məqaləsi [14] də diqqətəlayiqdir. Müəllif cəbhənin ehtiyaclarını qarşılamaq üçün hərbi təyinatlı məhsullar istehsal edən müəssisələrin fəaliyyətinə dair xeyli sayda faktik materialdan yararlanmışdır. Bu məlumatlar bəhs olunan dövrdə Azərbaycanda hərbi məhsul istehsalı haqqında da müqayisəli təhlil aparmaq üçün qiymətlidir.

Birinci dünya müharibəsi ərəfəsi və dövründə Şimali Azərbaycan iqtisadiyyatında baş verən dəyişiklikləri izləmək üçün Bakı [15], Yelizavetpol (Gəncə) [16] və İrəvan [17] quberniyalarının, Dağıstan vilayətinin [18] illər üzrə şərhləri – icmalları zəngin faktik materiallara, statistik göstəricilərə malikdir. Bu materiallar müharibə illərində ayrı-ayrı taxıl bitkiləri və texniki bitkilər üzrə əkin sahələrinin, məhsul istehsalının necə dəyişməsi haqqında təsəvvür yaradır.

Cənubi Qafqaz dəmir yolları ilə yükdaşımaları haqqında nəşr olunmuş statistik toplular [19] da müharibə dövründə Cənubi Qafqazdakı, o cümlədən Azərbaycandakı dəmir yolu stansiyaları vasitəsi ilə daxil olan və ixrac edilən yüklərin miqdarının necə dəyişməsi dinamikasını izləməyə imkan vermişdir.

Birinci Dünya müharibəsi dövründə Şimali Azərbaycanın iqtisadi vəziyyəti haqqında çoxlu sayda arxiv materialları da mövcuddur. Onların içərisində Rusiya Federasiyası, Gürcüstan Respublikası və Azərbaycan Respublikası arxivlərinin fondlarında mühafizə edilən sənəd və materiallar xüsusilə mühüm əhəmiyyətə malikdir. Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin fondlarında saxlanılan sənədlər haqqında ayrıca bəhs etmək gərəkdir. Bu arxivin Qafqaz canişini dəftərxanası adlı 1 saylı [20], Bakı quberniya idarəsi adlı 44 saylı [21], Bakı qubernatorunun dəftərxanası adlı 45 saylı [22], Bakı Müvəqqəti general-qubernatorunun dəftərxanası adlı 485 saylı [23], Bakı şəhəri Ərzaq Müşavirəsi dəftərxanası adlı 512 saylı [24], Yelizavetpol (Gəncə) quberniya idarəsi adlı 61 saylı [25], Yelizavetpol (Gəncə) qubernatoru dəftərxanası adlı 62 saylı [26], Bakı-Dağıstan Üzümçülük və Şərabçılıq Komitəsi adlı 287 saylı [27], Dövlətin müdafiəsi üzrə Xüsusi Müşavirə sədrinin müvəkkili adlı 513 saylı [28] fondlarında mühafizə edilən sənədlər və materiallar müharibə dövründə Şimali Azərbaycanın iqtisadi vəziyyətini öyrənmək üçün mühüm faktlarla zəngindir. Adlarını çəkdiyimiz fondlardakı faktik məlumatlar müharibə dövründə sənaye istehsalının necə sürətlə azalmasını, kənd təsərrüfatı sahələrində dəyişiklikləri əks etdirir. Bu tip faktlar və rəqəmlər müharibə illərində iqtisadiyyatın ayrı-ayrı sahələrində vəziyyətin dolğun mənzərəsini yaratmağa imkan verir.

Qeyd etmək lazımdır ki, arxiv fondlarında əsasən müharibənin ilk iki ilinə aid statistik göstəricilər saxlanmışdır. Bunun da səbəbi quberniyalar üzrə hesabatların və şərhlərin arxivlərdə illər üzrə tam şəkildə olmamasıdır. Arxiv fondlarında mühafizə edilən qubernatorların imzaladıqları son rəsmi hesabatlar və şərhlər 1915-ci ilə aiddir. Sonrakı illər üzrə hesabatlar müharibənin son dövründə baş vermiş inqilabi dəyişikliklər, mövcud dövlət idarə strukturlarının ləğv edilməsi, anarxiya və dağıntılarla əlaqədar itirilmişdir və ya heç hazırlanmamışdır.

Mövzunun tədqiqi üçün dövri mətbuat materialları da böyük əhəmiyyətə malikdir. "Kaspiy" [29], "Bakinskie qubernskie vedomosti" [30], "Yelisavetpolskie qubernskie vedomosti" [31] qəzetlərində, "Kavkazskoye xozyaystvo" [32], "Neftyanoye delo" [33] və digər jurnallarda getmiş materiallar müharibə dövründə iqtisadi vəziyyət, ərzaq təchizatı, dəmir yolları ilə yükdaşımalardakı problemləri və s. bu kimi məsələləri araşdırmaq üçün çox gərəkli faktlarla zəngindir. Həm də arxiv fondlarında saxlanılan materallar, bir qayda olaraq, 1916-cı ilə qədərki faktları əhatə etdiyi üçün, qəzet və jurnallarda dərc edilmiş və müharibənin bütün dövrünü əhatə edən məlumatlar çox dəyərlidir.

"Qafqaz təqvimi" və digər illik məcmuələrin materialları da diqqətdə saxlanmalıdır. Doğrudur, "Qafqaz təqvimi"nin nəşri 1916-cı ildən dayandırılmışdır və sonuncu, 1917-ci il üzrə "Qafqaz təqvimi"ndəki statistik göstəricilər də 1915-ci ilin sonuna aiddir [34, 1917-ci il üçün, statistika şöbəsi]. Sovet hakimiyyətinin ilk illərində tərtib olunmuş toplulardakı statistik məlumatlar [35, 36, 37, 38, 39, 40, 41] isə tam deyildir, həm də 1916-1917-ci illərə aid statistik göstəricilər azdır və ziddiyyətlidir.

Belə obyektiv çətinliklərə baxmayaraq, müxtəlif xarakterli mənbələrin: nəşr edilmiş sənəd toplularının, arxiv fondlarındakı sənəd və materialların, tarixi ədəbiyyatdan götürülmüş faktların, dövri mətbuat materiallarının kompleks şəkildə tədqiqata cəlb edilməsi Şimali Azərbaycanda Birinci Dünya müharibəsi dövründə iqtisadiyyatda baş verən prosesləri aydınlaşdırmağa imkan verir.

**Açar sözlər:** *müharibə, Azərbaycan, iqtisadiyyat, arxiv fondları, sənəd topluları, dövri mətbuat*

## ƏDƏBİYYAT SİYAHISI:

***Azərbaycan dilində***

*1. Əsədova R.B.Birinci Dünya müharibəsinin Şimali Azərbaycan iqtisadiyyatına təsiri probleminin tarixşünaslığı // Bakı, "Tarix və onun problemləri" jurnalı, 2023, № 3, s.266-272*

***Rus dilində***

*2. Журналы Особого совещания для обсуждения и объединения мероприятий по обороне государства. 1915 год. Публикация. / Ред. кол.: Л.Г. Бескровный (гл. ред.). М.: Институт истории СССР, 1975, 626 с.; Журналы Особого совещания для обсуждения и объединения мероприятий по обороне государства (Особое совещание по обороне государства). 1915–1918 : в 3 т. Т. 3. 1917–1918 / Рос. ист. о-во, Федер. архив. агентство, Рос. гос. военно-ист. архив, Ин-т рос. истории РАН, Рос. полит. энциклопедия, сост. А. П. Корелин, А. С. Грузинов, М. К. Шацилло. — М. : Российская политическая энциклопедия (РОССПЭН), 2013.*

*3. Собрание узаконений и распоряжений правительства, издаваемое при правительствующем сенате. Отд.1, 1914-1917 гг.*

*4. Монополии в металлургической промышленности России. 1900-1917. Документы и материалы. М.-Л.: изд-во АН СССР, 1963, 665 с.*

*5. Монополистический капитал в нефтяной промышленности России. 1914-1917. Документы и материалы. Л.: Наука, 1963, 552 с.*

*6. Монополистический капитал в Северном Азербайджане. Сб. документов. Составитель, автор предисловия и примечаний доц. Э.Б.Мурадалиева. Баку, изд-во Азербайджанского Университета, 1989, 84 с.*

*7. Алияров С.С. Нефтяные монополии в Азербайджане в период первой мировой войны. Баку: издание АГУ, 1974, 231 с.*

*8. Маевский И.В. Экономика русской промышленности в условиях первой мировой войны. М., Госполитиздат, 1957, 391 с.*

*9. Наниташвили Н.Л. Германский капиталь в Закавказье. Деятельность фирмы «Сименс и Гальске»,1860-1917. Тбилиси: изд-во Тбилисского ун-та, 1982, 378 с*

*10. Монополии и иностранный капитал в России. Сб. статей. / Редакция: М.П.Вяткин (отв. ред.). М.-Л.: изд-во АН СССР, 1962, 434 с.*

*11. Монополии и экономическая политика царизма в конце XIX – начале XX в. Сб. статей. Л.: Наука, 1987, 238 с.*

*12. Монополистический капитализм в России. Сб. науч. тр. / Ред. кол.: В.И.Бовыкин (отв. ред.) и др. М.: Ин-т истории СССР, 1989, 226 с.*

*13. Первая мировая война. 1914-1918. Сборник статей. М.: Наука, 1968*

*14. Лаверычев В.Я. Из истории государственного урегулирования военной экономики России в годы первой мировой войны (1914 г. – февраль 1917 г.). // Первая мировая война. 1914-1918. Сборник статей. М.: Наука, 1968, с.211-226*

*15. Обзоры Бакинской губернии за 1900-1915 гг.*

*16. Обзоры Елисаветпольской губернии за 1900-1915 гг.*

*17. Обзоры Эриванской губернии за 1900-1915 гг.*

*18. Обзоры Дагестанской области за 1900-1915 гг.*

*19. Краткие обзоры коммерческой деятельности Закавказских железных дорог по статистическим данным о перевозках пассажиров и грузов за 1901-1916 гг. Тифлис, 1901-1918*

*20. AR DTA, f.1 – Qafqaz canişini dəftərxanası*

*21. AR DTA, f.44 – Bakı quberniya idarəsi*

*22. AR DTA, f.45 – Bakı qubernatorunun dəftərxanası*

*23. AR DTA, f.485 – Bakı Müvəqqəti general-qubernatorunun dəftərxanası*

*24. AR DTA, f.512 – Bakı şəhəri Ərzaq Müşavirəsi dəftərxanası*

*25. AR DTA, f.61 – Yelizavetpol (Gəncə) quberniya idarəsi*

*26. AR DTA, f.62 – Yelizavetpol (Gəncə) qubernatorunun dəftərxanası*

*27. AR DTA, f.287 – Bakı-Dağıstan Üzümçülük və Şərabçılıq Komitəsi*

*28. AR DTA, f.513 – Dövlətin müdafiəsi üzrə Xüsusi Müşavirə sədrinin müvəkkili*

*29. Каспий, 1914-1917 гг.*

*30. Бакинские губернские ведомости, 1914-1917 гг.*

*31. Елисаветпольские губернские ведомости, 1914-1917 гг.*

*32. Кавказское хозяйство, 1914-1917 гг.*

*33. Нефтяное дело, 1914-1917 гг.*

*34. Кавказские календари на 1914-1917 гг.*

*35. Весь Азербайджан. Адресная и справочная книга на 1924 г. Баку, 1924*

*36. Расцвет экономики Азербайджанской ССР. Баку: изд-во АН Азерб. ССР 1967, 294 с.*

*37. Россия в мировой войне 1914-1918 гг. (в цифрах). М.,1925, 264 с.*

*38. Статистический справочник по Азербайджану на 1926 г. Баку: издание Азербайджанского Центрального Статистического Управления, 1927*

*39. Статистический справочник по аграрному вопросу. / Под. ред. С.А.Клепикова и А.В.Чаянова. Вып.3. Сельское хозяйство 1918-1920 гг. М.: Новая деревня, 1923, 32 с.*

*40. Фабрично-заводская промышленность в период 1913-1918 гг. М.,1926*

*41. Экономическое положение России накануне Великой Октябрьской социалистической революции. Документы и материалы. М.-Л.: Изд-во АН СССР, 1957, Ч.1, 692 с.; Ч.2, 665 с.*


**Рена Асадова**

**ОСНОВНЫЕ ИСТОЧНИКИ ПО ПРОБЛЕМЕ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ И ЭКОНОМИКИ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА**

**РЕЗЮМЕ:**

Существуют многочисленные и разнообразные источники о влиянии Первой мировой войны на экономику Северного Азербайджана. Некоторые из них издавались сборниками еще в Советское время. Кроме того, большое количество документов и материалов с ценной информацией хранится в архивах Азербайджана, Грузии и России. Страницы периодической печати, издававшиеся во время войны, также содержат интересные сведения, отражающие экономическую ситуацию. Исследованиям этих и других первоисточников посвящена представленная статья.

**Ключевые слова:** *война, Азербайджан, экономика, архивные фонды, сборник документов, периодическая печать.*

**Rena Asadova**

**MAIN SOURCES ON THE PROBLEM OF THE FIRST WORLD WAR AND THE ECONOMY OF NORTH AZERBAIJAN**

**SUMMARY:**

There are numerous and varied sources on the impact of the First World War on the economy of Northern Azerbaijan. Some of them were published in collections back in Soviet times. In addition, a large number of documents and materials with valuable information are stored in the archives of Azerbaijan, Georgia and Russia. The pages of periodicals published during the war also contain interesting information reflecting the economic situation. The presented article is devoted to the study of these and other primary sources.

**Key words:** *war, Azerbaijan, economy, archival funds, collection of documents, periodicals.*

UOT 94
DOI:10.30546/3006-0346.2023.6.78.50

# AZƏRBAYCAN RESPUBLİKASI RUSİYA FEDERASİYASININ GEOSİYASİ SİSTEMİ ƏHATƏSİNDƏ (2003-2023)

**AYNURƏ MƏMMƏDOVA**

*Bakı Dövlət Universiteti.*
*Tarix üzrə fəlsəfə doktoru*

*E-mail: aynur_mammedova@bk.ru*

Tarixdən məlumdur ki, Azərbaycan ərazisi geostrateji əhəmiyyətinə və zəngin karbohidrogen ehtiyatlarına görə hər zaman diqqət mərkəzində olmuşdur. Bu baxımdan Azərbaycan bu gün də öz əhəmiyyətini saxlayır. Təsadüfi deyil ki, Azərbaycan Respublikası dünyanın bir çox aparıcı dövlətlərinin diqqət mərkəzindədir. Həm yerləşdiyi strateji mövqeyinə, həm də zəngin sərvətlərinə görə bir çox dövlətlərin Azərbaycanla bağlı geosiyasi maraqları toqquşur. Belə ki, Azərbaycan Avrasiyanın bir hissəsi kimi əhəmiyyətli mövqeyə malik olmaqla yanaşı, Avropa-Asiya nəqliyyat dəhlizində yerləşməsinə görə də seçilir. Həmçinin, zəngin neft və qaz ehtiyatlarına sahib olması da dünyanın aparıcı dövlətlərinin diqqətini Azərbaycana yönəldən amillər sırasındadır. Regionda marağı olan siyasi aktorlardan biri və ən əhəmiyyətlisi qonşumuz Rusiya Federasiyasıdır. Həm postsovet ölkəsi – SSRİ-nin varisi kimi, həm də regional və qlobal siyasi oyunçu kimi Rusiyanın geosiyasətində Azərbaycan mühüm əhəmiyyət kəsb edir.

Rusiyanın geosiyasi maraqlarında əsas yer tutan məsələlər içərisində Qərbin postsovet məkanında nüfuzunun güclənməsinə mane olmaq, postsovet ölkələrinin Qərbə meyillənməsinin qarşısını almaq xüsusilə əhəmiyyətli və aktualdır. Rus tədqiqatçılarının fikrincə, Rusiyanın bəzi ərazilərdə – Xəzər hövzəsi, Cənubi Qafqazdakı nüfuzunun itirilməsi bütün Avrasiyada təsir imkanlarının itirilməsi deməkdir. [3, s.227]

Rusiya XXI əsrin əvvəllərindən etibarən ənənəvi rus iddalarına qayıtdı. 2000-ci ildən etibarən V.Putinin hakimiyyətə gəlişindən sonra bir çox sahələrdə olduğu kimi xarici siyasətdə də ciddi dəyişikliklər baş verdi. Belə ki, Rusiya öz siyasətində başlıca istiqamət olaraq Avrasiyada, xüsusilə, Qafqazda öz nüfuzunu təmin etmək üçün bir sıra addımlar atdı. Bunlar içərisində əsas məsələ regionda qərbin, xüsusilə də, ABŞ-ın möhkəmlənməsinin və region dövlətlərindən biri olan Azərbaycanın qərbə inteqrasiyasına mane olmaq dayanırdı. Rusiyanın mane olmaq istədiyi və onu narahat edən məsələlər içərisində Azərbaycanın NATO ilə olan əməkdaşlığı təşkil edir. Təsadüfi deyil ki, 2012-ci ildə Rusiya Federasiyasının qəbul etdiyi Milli Təhlükəsizlik konsepsiyasında MDB dövlətlərinin NATO-ya üzvlüyünün və alyansın hərbi bazalarının bu ərazidə yerləşməsinin yolverilməz olduğu qeyd edilmişdir. NATO-nun Şərqə doğru genişlənmə siyasətini Rusiya öz milli təhlükəsizliyi üçün təhdid hesab edir [6, 95].

Rusiya milli maraqlarını təmin etmək üçün bütün vasitələrdən istifadə etməkdən çəkinmir. Onun 2008-ci ildə Gürcüstanla apardığı müharibə, 2014-cü ildə Ukrayna ilə yaşadığı hərbi-siyasi böhran və nəhayət, 2022-ci ildən başlanmış Rusiya-Ukrayna müharibəsi də buna misal ola bilər. Beynəlxalq hüquq normalarına uyğun olaraq bu dövlətlərin ərazi bütövlüyünü tanısa da, hərbi müdaxilə etdikdən sonra bundan imtina etdiyini açıq şəkildə bəyan etməkdən də çəkinməmişdir. Bundan başqa, Rusiya postsovet məkanında dövlət işlərinə müdaxilə edə bilmək üçün məxfi agenturasının fəaliyyətindən də istifadə edir. “V kolon” adlandırılan bu şəbəkə Azərbaycan ərazisində də fəaliyyət göstərir [ 5, s.63]. Qeyd edək ki, Rusiya NATO-ya alternativ kimi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) istifadə edərək, bununla postsovet dövlətlərini NATO-dan uzaq tutmağa çalışır. Lakin Azərbaycan bu təşkilatın üzvü deyil, buna səbəb Azərbaycanın milli maraqlarına zidd olması və Ermənistanın burada təmsil edilməsidir. Azərbaycanın KTMT-ə üzv olması nə siyasi, nə də hərbi baxımdan heç bir üstünlük qazandırmayacağını nəzərə alaraq, NATO ilə müəyyən tərəfdaşlıq layihələri fonunda əməkdaşlıq edir. Bu sözsüz ki, Rusiyanı qıcıqlandırır. Amma Azərbaycan heç bir hərbi bloka qoşulmayaraq, regionda öz milli təhlükəsizliyini qorumaqdadır. Bu da Qoşulmama Hərəkatında olan fəaliyyətinin genişlənməsinə şərait yaratmışdır.

Rusiyalı analitik Aleksandr Duqin qeyd edir ki, “Rusiyanın təhlükəsizlik sisteminə ən böyük təhdidlər, məhz Qafqaz istiqamətindən qaynaqlanmaqdadır”. Buna görə də regiondakı münaqişə və digər siyasi məsələlərin həllində birbaşa iştirak etmək istəyir. Xüsusilə də Azərbaycanla Ermənistan arasındakı Qarabağ münaqişəsinin həllində nə qərbin, nə də Türkiyə və İranın iştirakının tərəfdarı deyildi.

Ermənistanda baş verən siyasi hadisələr Rusiyanın ənənəvi erməniləri himayəçilik siyasətində nisbi dəyişikliyə səbəb olsa da, atdığı addımlar regionla bağlı ənənəvi siyasətindən kənara çıxmadığını göstərdi. [3, 558]

Qeyd edək ki, son illərdə Rusiya Cənubi Qafqazın lider dövləti olan Azərbaycanla əməkdaşlığa üstünlük verir. Bu əməkdaşlıqda Rusiya kimi, Azərbaycan da maraqlıdır. Azərbaycanı Qərbin təsirindən qorumağa çalışan Rusiya bir çox sahələrdə əməkdaşlığın artırılmasını və icrasına xüsusi yer verir. Azərbaycan da öz növbəsində regionun əsas aparıcı siyasi oyunçusunun maraqlarını nəzərə alaraq, milli təhlükəsizliyinin möhkəmləndirilməsi və iqtisadi-siyasi inkişaf üçün bu əməkdaşlığı gücləndirməkdə maraqlıdır. Siyasi sahədə tədqiqat aparanlar Rusiya-Azərbaycan münasibətlərinin inkişafını müxtəlif mərhələlərə bölürlər. Bunlar içərisində bəhs etdiyimiz dövrə aid olan mərhələlərə aiddir: 2001-2008-ci illər və 2008-dən bu günə kimi olan mərhələ. Əgər 2008-ci ilə kimi qarşılıqlı faydalı əməkdaşlıq və ortaq maraqların müəyyən olunması dövrü kimi xarakterizə edilirdisə, 2008-dən sonrakı illər isə strateji tərəfdaşlıq mərhələsi kimi qiymətləndirilir [1, s.174]. Bu gün Rusiya ilə əlaqələrimizin belə inkişaf etməsi H.Əliyevin hakimiyyətə gəlməsindən sonra yüksələn xətlə inkişaf etmişdir. Belə ki, 1993-cü ilə kimi münasibətlər gərgin idi, H.Əliyev hakimiyyətə gəldikdən sonra milli və müstəqil xarici siyasətin əsas prinsiplərini müəyyənləşdirdi və həyata keçirməyə başladı. Bunlardan biri də qonşularla mehriban münasibətlər və əməkdaşlığın gücləndirilməsi təşkil edirdi. H.Əliyev qonşumuz və dünyada qlobal güclərdən biri olan Rusiyanın regionda siyasi rolunu düzgün qiymətləndirdi. Nəticədə gərgin münasibətlərdən qarşılıqlı faydalı əməkdaşlığa keçid oldu. Bu gün ikitərəfli əlaqələrin strateji tərəfdaşlığa çevrilməsi də H.Əliyev siyasi kursunun məntiqi nəticəsidir.

H.Əliyev siyasi kursunun davamçısı olan Prezident İlham Əliyevin hakimiyyətə gəlişindən sonra da Rusiya-Azərbaycan münasibətləri əməkdaşlığın möhkəmləndirilməsinə yönəldilmişdir. Həm Azərbaycanın, həm Rusiyanın ortaq maraqlarına cavab verən təşəbbüskar addımlar atılmış və bir sıra sahələrdə əməkdaşlıq tədbirləri artırılmışdır. 2004-cü ildə Moskvada “Azərbaycan Respublikası və Rusiya Federasiyasının Moskva Bəyannaməsi” imzalanmışdır. Sənəddə diqqət çəkən məqamlardan biri regiondakı problemlərin nizamlanmasında Azərbaycan Respublikası, Ermənistan Respublikası, Gürcüstan və Rusiya Federasiyasının rəhbərlərinin müntəzəm görüşlərinin keçirilməsinin əhəmiyyətinin vurğulanması idi. Belə ki, Rusiya regiondakı münaqişələrin, xüsusilə də, Qarabağ münaqişəsinin həllində qərbin, eləcə də ATƏT-in rolunu əhəmiyyətsiz hesab edirdi. Rusiya Qərbi, ən əsası da ABŞ-ı regiondakı münaqişələrin tənzimlənməsində uzaq saxlamaq istəyirdi. Bu baxımdan sözügedən məsələnin bəyannamə mətnində əks edilməsinin Rusiyanın istəyi olması heç bir şübhə yaratmır. 2008-ci il iyulun 3-də Bakı şəhərində tərəflər arasında imzalanmış “Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə” münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çatmasını hüquqi baxımdan təsdiq edən sənəd hesab edilir [1,s.188]. Bu bəyannamənin əhəmiyyətli şərti də Qarabağ münaqişəsinin nizamlanmasında dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə riayət olunması və təmin edilməsinin əsas hesab edilməsi idi. Azərbaycan 2020-ci ildə apardığı haqq savaşında torpaqlarımızı düşməndən azad edərkən bu maddə Rusiyanın buna mane olmamasının hüquqi əsası kimi qiymətləndirilə bilər.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Rusiya ilə iqtisadi sahədə də əməkdaşlığa başlamışdır. Bu gün də Rusiya əsas iqtisadi tərəfdaşlardan biri kimi xüsusi rol oynayır. İqtisadi əlaqələr iqtisadiyyatın demək olar ki, bütün sahələrini əhatə edir. Təsadüfi deyil ki, Azərbaycan Rusiyanın 85 subyektindən 75-i ilə qarşılıqlı və regionlararası iqtisadi əlaqələrə sahibdir. Rusiya-Azərbaycan iqtisadi əlaqələrinin inkişafının hüquqi əsasını 2002-ci ildə bağlanmış “Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında iqtisadi əməkdaşlığın əsas prinsipləri və istiqamətləri haqqında Saziş” təşkil edir. Şübhəsiz ki, tərəflər arasında iqtisadi münasibətləri tənzimləyən yeganə sənəd bundan ibarət deyil. 2016-cı ilin məlumatlarına görə, tərəflər arasında iqtisadi əməkdaşlığı özündə ehtiva edən 45-dən çox sənəd imzalanmışdır. Bununla yanaşı, yaradılmış “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Komissiya”, “Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2020-ci ilədək iqtisadi əməkdaşlıq haqqında Proqram”, “Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq və kənd təsərrüfatı məhsullarının təchizatı üzrə İşçi Qrup”, “Azərbaycan Respublikası Energetika Nazirliyi və Rusiya Federasiyası Energetika Nazirliyi arasında İşçi Qrup” iqtisadi əməkdaşlıq münasibətlərini da-

vam etdirir [1, s.197]. Azərbaycan iqtisadiyyatında ölkəyə idxal edilən məhsulların əsas təminatçısının Rusiya olması tərəflər arasında iqtisadi əlaqələrin uğurla və sürətlə inkişaf etdiyinin bariz nümunəsidir. Lakin ekspertlər bunun siyasi baxımdan Rusiyanın maraqlarına cavab verdiyi qənaətindədirlər. Əsasən, karbohidrogen ehtiyatlarının satışına bağlı olan Azərbaycanın iqtisadi baxımdan Rusiya ilə daha çox tərəfdaş olması, lazım gəldikdə rəsmi Moskvanın Azərbaycana iqtisadi təzyiq göstərməsinə şərait yarada bilər. Bu kimi fikirlərə Rusiya mətbuatında da zaman-zaman rast gəlmək mümkündür. Lakin qeyd etmək yerinə düşərdi ki, müstəqilliyin bərpasının ilk illərindən fərqli olaraq, Azərbaycanda aparılan uğurlu islahat qeyri-neft sektorunun inkişafına yönəldilmişdir. 2004-cü ildən bu günə kimi hər 5 ildən bir regionaların inkişafı proqramlarının qəbul edilməsində də əsas məqsəd məhz qeyri-neft sektoru sahələrinin inkişafı idi. Bu da öz müsbət nəticəsini verməkdədir. Bununla da Rusiyanın Azərbaycana iqtisadi təzyiq göstərmək imkanları zəifləyir.

Qeyd edək ki, Azərbaycan regionda Rusiyanın rolunu düzgün qiymətləndirərək, öz maraqları çərçivəsində addımlar atsa da, müstəqil xarici siyasət yürüdürdü. Belə ki, regionda və Azərbaycanda geosiyasi və geoiqtisadi baxımdan Azərbaycanın əhəmiyyətinin artması və bir çox dövlətlərin maraqlarının burada kəsişməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsini şərtləndirirdi. Məhz buna görə də Azərbaycan Respublikası yaxın qonşuları ilə yanaşı, həm Qərb, həm islam dövlətləri, həm də türk dünyası ilə səmərəli əlaqələr qurdu. Bu əlaqələr bu gün də davam edir və Azərbaycanın müstəqil xarici siyasətinin əsaslarını təşkil etməkdədir.

Azərbaycan Rusiya tərəfdən KTMT, ABŞ tərəfdən NATO-ya cəlb etmək cəhdlərinə cavab olaraq 2011-ci ildə Qoşulmama Hərəkatına daxil oldu. Bununla da öz üzərinə hər hansı hərbi-siyasi bloka qoşulmamaq öhdəliyi götürdü. Bununla da regiondakı geosiyasi maraqları uğrunda mübarizə aparan və bu mübarizədə Azərbaycanı öz hərbi mövqeyinə çəkmək istəyən dövlətlərin planlarını pozmuş oldu. Nəticədə Cənubi Qafqazdakı nüfuz uğrunda mübarizədə Azərbaycanın siyasi iradəsinə təsir etmək planları iflasa uğramış oldu.

Prezident V.Putinin fərmanı ilə 2016-cı il noyabrın 30-da təsdiq olunmuş "Rusiya Federasiyasının Xarici Siyasət Konsepsiyası"nda da Azərbaycanla bağlı məsələ yer tutur. Bu da bir daha Azərbaycanın Rusiya üçün əhəmiyyətini təsdiqləyir. Sözügedən konsepsiyanın 58-ci maddəsində Ermənistan-Azərbaycan Qarabağ münaqişəsinin həllində Rusiyanın fəal rolunun vacibliyi vurğulanır. Bu sənədin 2016-cı il aprel döyüşlərindən sonra qəbul edildiyini nəzərə aldıqda, bir daha aydın olur ki, Rusiya münaqişənin həllində özündən başqa, vasitəçinin olmamasına çalışır. ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri Rusiya olsa da, təəssüf ki, bu münaqişənin həllində ATƏT-in fəaliyyətinin nəticəsi olmadı. Rusiya münaqişənin həllinin tərəflərin birbaşa və öz vasitəçiliyi ilə olan danışıqlar prosesində görür, digər vasitəçilərə ehtiyac yaranarsa, bunun region dövlətlərindən olmasını əhəmiyyətli hesab edirdi. Əslində isə buna səbəb geosiyasi maraqlarında Azərbaycanın xüsusi yer tutduğu dövlətləri buradan uzaq tutmaq istəməsi idi. Aprel döyüşlərindən sonra 2016-cı ilin may ayının 17-dəki Vyana görüşü, eyni zamanda iyunun 20-də Sankt-Peterburqda keçirilmiş Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin üçtərəfli görüşündə də Rusiyanın münaqişənin nizamlanmasında rolunun vacibliyi, bu baxımdan onun əhəmiyyətinin artmasının vurğulanması da deyilənləri bir daha sübut edir [8, s.122-123].

Prezident V.Putinin təşəbbüsçü qismində danışıqlar prosesində şəxsən iştirakı da bunun əyani göstəricisidir. 2016-cı il iyulun 1-də Rusiya Prezidenti V.Putinin Fransa Prezidenti Fransua Ollandla, ertəsi gün ABŞ-ın dövlət katibi Con Kerrinin Rusiyanın xarici işlər naziri Sergey Lavrovla, iyulun 6-da isə V.Putinin ABŞ Prezidenti Barak Obama ilə Ermənistan–Azərbaycan Qarabağ münaqişəsinin nizamlanması yollarını müzakirə etməsi, bu danışıqlarda təşəbbüskar olaraq iştirakı da yuxarıda göstərilən faktların davamıdır. Bütün bunlar bir daha Rusiyanın regionda aktiv siyasi aktor kimi fəallığını başqa bir dövlətə vermək istəməməsindən qaynaqlanır. [4, s. 164].

V.Putin münaqişə ilə bağlı verdiyi müsahibələrdə 1994-cü ilin mayında atəşkəs sazişinin imzalanmasında Rusiyanın bilavasitə iştirakını xatırladır, 2016-cı ilin aprelində baş tutan hərbi əməliyyatların dayandırılmasında həlledici rol oynadığını vurğulayırdı. Bununla da Rusiyanın bu məsələdə "açar rol" oynadığını bütün dünyaya bəyan etməyə, münaqişənin tənzimlənməsində iştirak etməkdə maraqlı dövlətlərə Rusiya kimi əhəmiyyətli rol oynaya bilməyəcəklərini göstərməyə çalışırdı.

2016-cı ilin aprel döyüşlərindən sonra keçirilən görüşlər və aparılan danışıqlardan sonra Prezident İ.Əliyevin etdiyi çıxış sanki sonrakı hadisələrin bir növ mesajı idi: "Rusiyanın və ATƏT-in Minsk Qrupunun digər həmsədrlərinin bəyan etdiyi kimi,

status-kvo qəbuledilməzdir. Biz bu bəyanatı tamamilə dəstəkləyirik. Lakin status-kvonun dəyişməsi üçün 20 ildən artıq müddətdə Azərbaycanın işğal altında olan ərazisinin işğaldan azad edilməsinə başlanmalıdır" [1, s.194].

Ermənistanda son zamanlar siyasi dinamikanın dəyişməsi də Rusiyanın geosiyasətində Azərbaycanın əhəmiyyətini artırmışdır. Ermənistan konstitusiyadakı dəyişikliklə prezident üsul idarəsindən parlament idarəçilik sisteminə keçdi. Beləliklə, 2018-ci ildə Nikol Paşinyan baş nazir postuna sahib oldu. Onun qərbə meyilli siyasət yeritməsi nəticəsində Ermənistanda anti-rus əhvali-ruhiyyəsinin formalaşması na gətirib çıxardı. Aprel döyüşündəki məğlubiyyəti özündən əvvəlki hakimiyyətin uğursuz siyasəti ilə əlaqələndirən Paşinyan hakimiyyətinin möhkəmləndirilməsi üçün bu amildən istifadə etdi. "Dağlıq Qarabağ Ermənistandır" şüarları ilə kütlənin diqqətini özünə cəlb etdi. Bu, heç də çətin olmadı, çünki 2016-cı il aprel döyüşlərində Azərbaycanın Ermənistan üzərində üstünlük qazanması ermənilər arasında hiddətə və ruh düşkünlüyünə səbəb olmuşdu. Belə bir məqamda onlar düşünürdülər ki, Paşinyan adminstrasiyası bu səhvləri aradan qaldıracaq [6, s.87].

Bütün bunların cərəyan etdiyi bir zamanda rəsmi Bakı çox gözəl başa düşürdü ki, Ermənistan Azərbaycana qarşı ərazi iddialarından diplomatik yolla güzəştə getməyəcək. Əgər məsələ sülh və danışıqlar yolu ilə həll edilsəydi, 30 il müddətinə bu münaqişənin həli nəticəsiz qalmazdı. ATƏT-in Minsk qrupunun fəaliyyəti də heç bir işə yaramırdı, beynəlxalq danışıqlara baxmayaraq, Ermənistan zaman-zaman atəşkəsi pozurdu. Belə bir məqamda münaqişənin yeganə həll variantı kimi müharibə yolu qaçılmaz oldu.

Ermənistana qalib gəlmək üçün, ilk növbədə, Azərbaycan düzgün siyasət yeridərək onun müttəfiqlərinin tərəfsizləşdirilməsi prosesinə başladı. Regionda Ermənistanı dəstəkləyənlər əsasən, Rusiya və İran idi. Onların Ermənistanı dəstəkləməkdə əsas məqsədi geosiyasi maraqlarından qaynaqlanır. Azərbaycana bu üsulla təzyiq göstərməklə, dövlətimizin Qərblə məsafəli siyasət yeritməsini təmin etmək, ən əsası isə ABŞ-NATO qüvvələrinin ölkəmizin ərazisində yerləşməsinə mane olmaq idi. Bu maraqlar - ABŞ-ın bölgəyə yerləşməsinə yol verməmək məsələsi Rusiya və İranı birləşdirən ortaq məsələ idi. Buna görə də, Azərbaycan Respublikası Rusiya və İranın ABŞ-ın sanksiyalarının altında əzilməsindən istifadə etdi, hər iki dövləti neytrallaşdırmaq üçün regionda onların bəzi geostrateji maraqlarını nəzərə almalı oldu. Bunun əsas yolu isə NATO-nun Azərbaycanda hərbi bazalarının yerləşməyəcəyinə, Azərbaycanın bu təşkilata qoşulmağa çalışmayacağına və ABŞ-ın Azərbaycan ərazisindən Rusiya və İrana qarşı plasdarm kimi istifadəsinə yol verməyəcəyinə dair təminatın verilməsi idi. Lakin bir məsələni qeyd etmək lazımdır ki, bütün göstərilən güzəştlər Azərbaycanın Qərbə inteqrasiyasına, Aİ ilə əməkdaşlığına, silahlı qüvvələrinin NATO standartlarına uyğunlaşdırılmasına, enerji resurslarının Qərb bazarlarına çıxarılmasına mane olmayacaqdı. Hadisələrin sonrakı gedişatı da bunu faktiki olaraq sübut etdi. Azərbaycan öz milli maraqlarına uyğun geosiyasi maraqları düzgün hesablayaraq, rasional siyasət yeritmiş oldu. [9, 221]

2020-ci ildə Azərbaycan işğal altında olan torpaqların azad edilməsi üçün hərbi əməliyyatlar apardı. 44 günlük Vətən müharibəsinin gedişində də Rusiya vasitəçilik missiyası ilə önə çıxmış oldu. Regionda başqa siyasi oyunçunun münasibətləri tənzimləməsinə imkan verməməyə çalışırdı. 44 günlük Vətən müharibəsinin yekununda 2020-ci il noyabrın 9-dan 10-a keçən gecə Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistan baş naziri tərəfindən Üçtərəfli Bəyanat imzalandı. Bəyanatın əsas uğurlu tərəfi Ağdam, Laçın və Kəlbəcər rayonlarının hərbi əməliyyatlar olmadan azad edilməsi idi. Bundan başqa, burada əsas məqamlardan biri Rusiyanın sülhməramlı missiyasının təşkili idi. Belə ki, Üçtərəfli Bəyanata görə regionda sülhü və sabitliyi təmin etmək üçün rus sülhməramlıları Qarabağda yerləşdirilməli idi. 5 ildən sonra vəziyyətdən asılı olaraq onların çıxarılmasına baxıla bilərdi. Bundan başqa, bu sənədin IX maddəsində qeyd edilirdi ki, qərb rayonları ilə Naxçıvan MR arasında nəqliyyat əlaqəsinin təşkili zamanı təhlükəsizlik tədbirlərini Rusiya həyata keçirəcək. Qeyd edilən xətt üzrə nəqliyyat üzərində nəzarəti Rusiyanın Federal Təhlükəsizlik xidmətinin orqanları həyata keçirəcəklər. [10]

Bir məsələni vurğulamaq lazımdır ki, Üçtərəfli bəyanat tərəflər arasında sülh müqaviləsinə gətirib çıxarmadı. Bəyanatın dördüncü maddəsinə əsasən, erməni silahlı qüvvələri Qarabağdan tamam çıxarılmalı idi. Lakin bu baş tutmadı, baxmayaraq ki, razılaşmaya əsasən rus sülhməramlılarının yerləşdirilməsi prosesi erməni silahlı birləşmələrinin çıxarılması ilə paralel şəkildə həyata keçirilməli idi.

Rusiyanın bu bəyanatın imzalanmasında bilvasitə iştirakı, sülhməramlı fəaliyyətinin təşkili kimi məsələlər bir daha regiondakı maraqlarının heç bir halda başqa bir dövlətə vermək istəməməsini bir daha göstərmiş oldu. İkinci Qarabağ müharibəsi za-

manı dost və qardaş ölkə olan Türkiyə hər zaman Azərbaycana dəstək nümayiş etdirdi. Siyasi dəstəkdən əlavə, türk istehsalı olan İHA və SİHA-lar hərbi əməliyyatların gedişi zamanı istifadə edildi. Türkiyənin bu məsələdə Azərbaycana olan dəstəyi,onun rolunun regionda güclənməsi heç də regionda marağı olan dövlətlər tərəfindən müsbət qarşılanmırdı. Lakin "bir millət, iki dövlət" şüarının faktiki tətbiqinin nümayişi olan bu dəstək dünyaya bir daha bu əməkdaşlıq və qardaşlığın möhkəmliyini və əhəmiyyətini göstərmiş oldu [8, s. 119].

Türkiyənin hərbi əməliyyatlar zamanı və ondan sonrakı hərəkətləri, xüsusən də Türkiyə hərbçilərinin Ermənistan üzərində qələbə paradında iştirakı və Bakı küçələri ilə zəfər yürüşü Azərbaycanın müəyyən dərəcədə xarici siyasətinin prioritet istiqamətini sübut etdi. Eyni zamanda, Azərbaycanın hakimiyyət dairələri Türkiyə Cümhuriyyəti ilə təmasların intensivləşməsinin və onun regional proseslərə fəal cəlb edilməsinin Azərbaycan Respublikasının mühüm tərəfdaşı olan və regionda əsas və yeganə siyasi güc olmaq istəyən Rusiya ilə ikitərəfli münasibətlərə mənfi təsir göstərə biləcəyini dərk edirdilər. Bütün bunları nəzərə alan Azərbaycan Rusiya Federasiyası ilə Türkiyə Respublikası arasında tarazlığı qoruyub saxladı. Azərbaycan Türkiyə ilə müttəfiq və qardaş ölkədir. "Bir millət, iki dövlət" anlayışı özünü bütün sahələrdə göstərir. Regionda yeganə siyasi qüvvə olmağa çalışan Rusiyanı qıcıqlandırsa da, rəsmi Moskva da öz növbəsində qərblə olan rəqabət fonunda Türkiyə ilə əməkdaşlığa üstünlük verir.

Ermənistan ənənəvi tərəfdaşları olan Rusiyanın və daha az dərəcədə İranın kömək etmək istəmədiyini gördü. Tehran səsli tənqidlər və Azərbaycanla sərhədinə qoşun yeritmək kimi simvolik jestlər etdi, Ukraynada davam edən münaqişə ilə məşğul olan Moskva isə Ermənistanın yardım müraciətini tez bir zamanda rədd etdi. Moskvanın Ermənistan qarşısında bir zamanlar sabit təhlükəsizlik öhdəliklərindən mahiyyət etibarilə imtina etməsi, Ermənistanın rədd edilməsi xüsusilə qıcıqlandırdı. Azərbaycanla həm 2021-ci ilin mayında, həm də 2022-ci ilin sentyabrında baş verən toqquşmalar zamanı Ermənistan Rusiyanın başçılıq etdiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını kollektiv müdafiə müqaviləsinə əməl etməyə və müdaxilə etməyə çağırdı. Lakin Rusiya Ermənistanı dəstəkləməkdən imtina etdi. Rəsmi İrəvan bunu mənfi qarşılasa da, bunun üçün özü şərait yaratmışdı. [11]

Paşinyanın hakimiyyətə gəlməsi və xüsusilə İkinci Qarabağ müharibəsindən sonra ABŞ və Aİ İrəvanla əlaqələri gücləndirdi. 2022-ci ildə ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosidən ibarət nümayəndə heyəti Ermənistan paytaxtına səfər etdi. O, səfər zamanı Bakını Ermənistan-Azərbaycan sərhədindəki ən böyük eskalasiyaya görə qınadı. Həmçinin, Fransa siyasətçiləri də Ermənistana səfər etdilər və prezident Makron dəfələrlə Qarabağ ermənilərinin qorunmasının vacibliyini dilə gətirərək, eyni zamanda Rusiyanı regionda sabitliyi pozmaqda ittiham etdi. Avropa İttifaqı da öz növbəsində münaqişənin həllində fəal rol oynamağa çalışırdı. Ermənistandan iki respublikanın sərhədinə Avropa humanitar missiyası göndərilməsi də bununla bağlı idi. Hər iki dəfə, 2023-cü ilin sentyabrında olduğu kimi, Moskva İrəvanı dəstəkləməkdən imtina etdi. [16]

Aİ və ABŞ ilə əməkdaşlığın genişləndirilməsinə yönəlmiş Gürcüstan və Azərbaycan siyasətindən fərqli olaraq, Ermənistanın xarici siyasəti ziddiyyətli olaraq qaldı. Bir tərəfdən Ermənistan KTMT-nin üzvü idi. Digər tərəfdən, Avropa ölkələri və ABŞ ilə münasibətləri inkişaf etdirməyə çalışdı. Nəzərə alsaq ki, Rusiya Federasiyası ilə qarşılıqlı əlaqələri daha genişdir, bu baxımdan Ermənistanın Rusiya və Qərb ziddiyyətli manevr etməsi onun Rusiya tərəfindən gözlədiyi şəkildə dəstəklənmədiyinə gətirib çıxartmış oldu.

Baş nazir Paşinyan bu yaxınlarda Ermənistanın təhlükəsizlik vəziyyətini şərh edərək, ölkəsinin Rusiyaya arxalanaraq "strateji səhvə" yol verdiyini bəyan edib. Ermənistanın ABŞ-la 2023-cü il sentyabrın 11-də başlayan "Qartal tərəfdaşı" adlı birgə hərbi təlimi İrəvanın daha etibarlı görünən Qərb dövlətləri ilə yaxınlaşmağa meyilli olduğunu vurğulayır. Əgər Rusiya və İranın yeganə Qafqaz müttəfiqi olan Ermənistan Qərbə doğru meyil edərsə, xüsusən də Gürcüstan artıq Qərb qurumları ilə dostluq əlaqələri və hərbi ittifaqları gücləndirdiyi halda, İran və Rusiya Qafqazda öz təsirlərinin kəskin şəkildə azaldığını görə bilər. Sözsüz ki, belə olan halda Ermənistanın Rusiyaya müraciətinin cavabsız qalması təbii hal hesab edilməlidir [11].

Bu geosiyasi şəraitdə Bakı üçün Qarabağ üzərində yekun və tam nəzarətin yaradılması məsələsi kifayət qədər mümkün oldu. 2023-cü il sentyabrın 19-da Azərbaycan Silahlı Qüvvələri elan edilmiş antiterror əməliyyatlarına başladı. Bir gün sonra özünü "Dağlıq Qarabağ Respublikası" adlandıran separatçı rəhbərlik güzəştə getdi və silahı yerə qoymağa razı oldu. Rusiya sülhməramlılarının iştirakı ilə razılaşdırılmış sövdələşməyə əsasən, tərəflər Ermənistanın bütün hərbi birləşmələrinin tərksilah edilməsi, silah və tex-

nikanın Azərbaycan tərəfinə verilməsi barədə razılığa gəliblər. Ertəsi gün, sentyabrın 21-də Yevlax şəhərində Milli Məclisin deputatı Ramin Məmmədovla Qarabağın erməni icmasının nümayəndələri David Melkumyan və Sergey Martirosyan arasında görüş keçirildi. İrəliləyiş olmadığı üçün davam edəcək danışıqlarda məqsəd Qarabağ ermənilərinin Azərbaycan dövlətinə yenidən inteqrasiyasıdır. Görüşün aralıq nəticəsi Bakıya Qarabağın erməni sakinlərinə humanitar yardımın (ərzaq, benzin, elektrik enerjisi) verilməsinə dair razılaşma oldu. Əslində hər şey reinteqrasiya prosesinin məntiqi yekunlaşmasına doğru gedir. Prezident İ.Əliyev ermənilərə öz vətəndaşları kimi hörmətlə yanaşacağını vəd edir [16].

Prezident V.Putin 2023-cü ilin sentyabrında Şərq İqtisadi Forumunda çıxışı zamanı Ermənistanın baş nazirinin özünün Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıdığını xatırlatdı. Həmin çıxışda V.Putin status məsələsinin həll olunduğunu da qeyd etdi. Yaranan yeni reallıq sadəcə olaraq rəsmi səviyyədə Kreml tərəfindən təsdiqləndi. Fakt budur ki, Qarabağ məsələsi Azərbaycanın daxili işidir və bunu mövcud reallıqlar çərçivəsində artıq Rusiya Federasiyası da qəbul etmişdir [10].

Vəziyyətə hərtərəfli nəzər salsaq, Moskvanın mövcud siyasi reallığı qəbul etməyinin əsas səbəbi təkcə hüquqi məsələ - Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıması deyil. Belə ki, son altı aya diqqət yetirsək, İrəvan Qərblə yaxınlaşma istiqamətində kifayət qədər cəsarətli addımlar atdığını görmüş olarıq. Ermənistan hökuməti 2023-cü il sentyabrın 1-də Rusiya prezidentinin həbsinə order verən Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunun ratifikasiya layihəsini Milli Assambleyaya göndərmişdir. Elə həmin günlərdə Paşinyan İtaliya mətbuatına müsahibə verərək, orada "Rusiyanın Cənubi Qafqazdan uzaqlığı" haqda danışmışdır. Daha sonra Paşinyanın həyat yoldaşı Anna Akopyan Kiyevdə birinci xanımlar və cənabların görüşündə iştirak etmiş və Ukraynaya humanitar yardım bağışlamışdır. Gərginliyin son akkordu 2023-cü il sentyabrın 11-20-də Ermənistanda baş tutan Amerika-Ermənistan hərbi təlimləri oldu. Nəticədə Rusiya Xarici İşlər Nazirliyi ikitərəfli münasibətlər tarixində ilk dəfə olaraq Ermənistana nota göndərdi. Belə olan halda, görünür, Moskvanın "səbr kasasını daşdıran" Ermənistan rəhbərliyinin İrəvandakı qeyri-dost hərəkətləri oldu [16].

Moskvanın təsiri Ermənistanın dəmir yolu, qaz və elektrik infrastrukturuna nüfuz edir. Bu, Rusiyanın Ermənistan torpaqlarında hərbi bazasını saxlamağa davam etməsi və Rusiyada əhəmiyyətli və nüfuzlu erməni diasporunun qalması ilə daha da ağırlaşır. Rusiyanın öz qonşularını öz növbəsində saxlamaq üçün istənilən üstünlüklərdən istifadə etməyə hazır olduğunu nəzərə alsaq, ermənilərin daha böyük muxtariyyət axtarışı uzunmüddətli, çətin və baha başa gələn cəhd ola bilər.

Türkiyə İkinci Qarabağ müharibəsi zamanı Bakıya tam siyasi və hərbi dəstək verdi. Ankaranın tədarük etdiyi pilotsuz uçuş aparatları Azərbaycan ordusunun Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan istiqamətində irəliləməsini daha effektli etdi. Müharibədən sonra Türkiyə Ağdamda Rusiya ilə birgə monitorinq mərkəzi açdı, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla İlham Əliyev müdafiə ittifaqı – Şuşa bəyannaməsi imzaladılar. Türkiyənin Cənubi Qafqazda mövqeləri güclənmiş oldu. 2023-cü ilin sentyabrında aparılan antiterror tədbirlərini dəstəkləyən Ərdoğan BMT Baş Assambleyasında Qarabağın Azərbaycan olduğunu bir daha təkrarladı. Qeyd edək ki, Türkiyənin Azərbaycanda olmasının özü NATO ölkələrini Qarabağda son hadisələrdə Ermənistana hər hansı dəstək verməkdən çəkindirdi. Bölgənin Azərbaycana tam qayıtması ilə Türkiyə müttəfiqi kimi regional və hətta qlobal səviyyədə çəkisini artırır [11].

Yuxarıda da göstərildiyi kimi, Azərbaycanın əsas dəstəkçisi kimi Bakının qələbəsi Türkiyənin Qafqazdakı təsirini getdikcə gücləndirir. Ankara ilə İrəvan arasında uzun müddətdir davam edən şaxtalı münasibətləri nəzərə alsaq, Azərbaycanın hərbi əməliyyatı öz müttəfiqinin üstünlüyünü göstərdi, eyni zamanda tarixi düşmənin təsirini azaltdı. Türkiyənin Azərbaycana sarsılmaz dəstəyi onun etibarlı müttəfiqi və tərəfdaşı kimi imicini gücləndirir və onu Mərkəzi Asiya kimi regionlarda daha böyük təsir imkanları üçün yerləşdirir. Rusiyanın Ukraynadakı hərbi uğursuzluqları və sanksiyalarla zəifləmiş iqtisadiyyatı ilə birlikdə Ermənistanı tərk etməsi ehtimalı Moskvanın keçmiş təsir dairəsində olan bir çox dövlətlər üçün uzunmüddətli tərəfdaş kimi həyat qabiliyyətinə dair ciddi suallar yaradır. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan bir çox Mərkəzi Asiya dövlətləri Rusiyanın Ermənistana xəyanəti fonunda Türkiyəyə tərəf dönməyi düşünə bilər.

Hazırda Rusiya Qarabağda və bütövlükdə Cənubi Qafqazda həlledici qüvvə olaraq qalır. Ermənistan və Qarabağ erməniləri ilə həmrəyliyin olmaması ilə bağlı ittihamlar nəzəri cəhətdən uzunmüddətli perspektivdə Moskvanın KTMT-dəki mövqeyinin zəifləməsinə səbəb ola bilər. İrəvan 102-ci hərbi bazanın

Gümrüdən çıxarılması məsələsini də qaldıra bilər. Eyni zamanda, unutmaq olmaz ki, Ermənistanın özü və şəxsən Paşinyan Qarabağdakı son hadisələrə müdaxilə etməkdən imtina etdi. Paşinyan öz növbəsində praqmatik hərəkət etdi. Axı, müdaxilə Ermənistanın özünün mümkün ərazilərinin itirilməsi ilə Azərbaycanla birbaşa müharibə demək olardı [14].

İrəvan bitərəf qaldığından Rusiyaya qarşı ittihamlar heç nəyi kökündən dəyişə bilməz. Qarabağın son itirilməsindən sonra Ermənistanın təhlükə gördüyü iki türk dövlətinin yanında özünü təhlükəsiz hiss etməsi üçün hələ də hərbi bazaya ehtiyacı var. Bundan əlavə, Ermənistan Rusiyadan yüksək maliyyə və iqtisadi asılılığını qoruyub saxlayır. Ermənistan iqtisadiyyatının bütün enerji, dəmir yolları və digər komponentləri Rusiya şirkətlərinin fəaliyyəti ilə bağlıdır ki, onu bir gecədə Qərb şirkətləri ilə əvəz etmək asan olmayacaq.

22 fevral 2022-ci il tarixli müttəfiqlik sazişi ilə gücləndirilmiş Azərbaycanla Rusiyanın tərəfdaşlığı Qarabağda antiterror əməliyyatları zamanı 5 rus sül-hməramlısının həlak olmasına baxmayaraq, sarsılmadı. Əslində sülhməramlıların həlak olmasına görə Azərbaycan rəsmi olaraq üzr istəsə də, mövcud reallıq bunun təxribat olduğunu göstərir. Azərbaycanın antiterror əməliyyatlarına görə Ermənistanın kömək üçün Rusiyaya müraciətinin cavabsız qalması onu belə addım atmağa vadar etmişdir. Beləliklə, bu məsələ Rusiyanı hiddətləndirər və Azərbaycana qarşı sərt mövqe göstərəciyini düşünən Ermənistan rəhbərliyi yanıldı [16].

Qarabağı Azərbaycanın daxili işi hesab edən Kremlin mövqeyi Əliyevin gözündə Moskvaya etibarlı qonşu və tərəfdaş kimi inamı artırır. Bundan başqa, son illər ABŞ Dövlət Departamenti və Aİ Qarabağ nizamlanmasında vasitəçi kimi fəallaşıb və bu, Rusiya XİN-i açıq şəkildə qıcıqlandırıb. Moskva bu vasitəçiliyi Rusiyanı Cənubi Qafqazdan "sıxıb çıxarmaq" cəhdi kimi qiymətləndirdi. İndi Qarabağ Azərbaycanın daxili məsələsinə çevrildiyindən NATO ölkələrinin regionda praktiki olaraq təsir imkanları məhduddur. Bu baxımdan Ermənistan istisna ola bilər. Lakin respublikanın geosiyasi mövqeyi və Bakı ilə normallaşmaması İrəvana "Qərbə üzməyə" imkan verməyəcək [16].

Qarabağdakı son hadisələrin nəticələrini ümumiləşdirərək deyə bilərik ki, ABŞ və Aİ regionda mövqeləri daha da zəiflədi və Rusiyanın mövqeyi gücləndi. Ermənistan-Azərbaycan münaqişəsinin həlli formasında qərbin sonuncu təsir imkanları öz aktuallığını itirdi. Rusiya Azərbaycanla əlaqələrini gücləndirdi və Türkiyə ilə qarşılıqlı anlaşmanı qorudu, həmçinin Ermənistanda və Qarabağda mövqeyini itirmədi. Azərbaycanın hərəkətləri İrəvanda anti-Rusiya əhvali-ruhiyyəsi doğursa da, eyni zamanda postsovet məkanında münaqişə nöqtələrindən birini aradan qaldırdı. Müvafiq olaraq, Rusiya qısa müddətdə daha çox Ukraynaya, uzunmüddətli perspektivdə isə digər xarici siyasət prioritetlərinə diqqət yetirə bilər.

Azərbaycanla Ermənistan arasında Qarabağa görə münaqişənin olmaması Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanmasını sürətləndirə, yeni infrastruktur, enerji və digər iqtisadi layihələrin əsasını qoya bilər. Qərbə başqa təchizat marşrutunun yaradılması uzunmüddətli perspektivdə Gürcüstanın rolunu zəiflədə bilər, lakin bu, şübhəsiz ki, onu aradan qaldırmayacaq. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və Bakı-Tbilisi-Ceyhan neft kəməri layihələri Azərbaycan üçün ticarət və enerji axınları üçün prioritet marşrutlar olaraq qalacaq [12].

Rusiya ilə Azərbaycan arasında mübahisəli məsələlərdən biri Xəzərin hüquqi statusu məsələsi olmuşdur. Babaları I Pyotrdan başlayaraq, Xəzər dənizində hökmranlığa can atan Rusiyanın müasir dövrdə də burada möhkəmlənmək və daha çox iqtisadi resurslardan faydalanmaq istəyi milli maraqlarına daxildir. XVIII, XIX əsrlərdə olduğu kimi, müasir dövrdə də Xəzər dənizi və ətrafı uğrunda geosiyasi maraqlar toqquşur. I Dünya müharibəsindən sonra regionda və dünyada baş verən siyasi proseslərə də yeni geosiyasi reallıqları formalaşdırdı. 1921-ci il fevral ayının 26-da bolşevik Rusiyası və İran arasında müqavilə bağlandı. Burada tərəflər arasında su sərhədi kimi Astara (Azərbaycan) və Həsənqulu (Türkmənistan) dəniz xətti müəyyənləşdirilmişdi. SSRİ və İran arasında imzalanmış növbəti sənədlərdə – "Ticarət, dənizçilik və məskunlaşma haqqında" (1935-ci il) və "Ticarət və dənizçilik haqqında" (1940-cı il) müqavilələrdə Xəzərin "Sovet-İran dənizi" olduğu, hər iki dövlətin Xəzərdə "müstəsna hüquqlarını"n olduğu əsaslandırılırdı [7, s.28].

1970-ci ildə SSRİ Xəzər dənizini müttəfiq respublikalar arasında orta xətt prinsipi üzrə sektorlara böldü. Milli sektorların bölgüsü belə idi: Rusiya (19%), Qazaxıstan (29%), Azərbaycan (21%) və Türkmənistan (16%). Lakin SSRİ-nin süqutundan sonra Xəzəryanı dövlətlər arasında fikir ayrılıqları yarandı. 1992-ci ildən etibarən keçirilən görüşlərdə Xəzərin birlikdə əməkdaşlıq çərçivəsində iqtisadi fəaliyyətin aparılması ilə bağlı təkliflər səsləndirildi.

Lakin I Pyotr kimi Xəzər dənizinə və ətraf ərazilərə ağalıq etmək istəyən varisləri bununla razılaşmadı. Burada nəinki Rusiyanın, İranın, Türkmənistanın da narazılıqları mövcud idi. Bu narazılıq və fikir ayrılıqları dərinləşərək Xəzərin hüquqi statusu adlanan qlobal bir problemə çevrildi [7, s.34].

Azərbaycan Respublikası Xəzərin hüquqi statusu məsələsinin beynəlxalq hüququn normaları – BMT-nin də 1982-ci ildə qəbul etdiyi "Dəniz hüquqları Konvensiyası" əsasında həllini nəzərdə tuturdu. Beynəlxalq hüquq və beynəlxalq təcrübə bu problemin həlli üçün kifayət qədər materiala sahib olsa da, qonşularımız geosiyasi maraqları kontekstində razılaşmırdılar. Bunun da əsas səbəbi Xəzər dənizinin mineral ehtiyatlarından istifadəsi məsələsi idi. Rusiya, o cümlədən də İran karbohidrogen ehtiyatlarının Azərbaycan tərəfindən istismar edilməsini həzm edə bilmirdi. Azərbaycandan çıxarılan neft və qazın maya dəyəri Rusiyadan çıxarılandan daha aşağı olacaq və bununla da dünya neft bazarında Rusiyanın iqtisadi gəlirlərinin zəifləməsinə gətirib çıxaracaqdı. Bunun əsas səbəblərindən biri də Rusiyanın şimalında mürəkkəb coğrafi mövqedə yerləşən karbohidrogen yataqlarının istismarının daha baha başa gəlməsi idi [14].

"Əsrin müqaviləsi" ilə qərblə qurulmuş əlaqələr, Azərbaycana xaricdən, xüsusilə də qərbdən olan investisiya axını Rusiyanı narahat etməyə bilməzdi. Sözsüz ki, regionda Qərbin möhkəmlənməsinə mane olmağa çalışan Rusiyanın milli maraqlarına ziddi idi. Lakin regionda geosiyasi maraqlara sahib olan, burada üstünlüyü əldən verməməyə çalışan Rusiya üçün problem təkcə Azərbaycanın Xəzərdən karbohidrogen ehtiyatlarından istifadə etməsi ilə bağlı deyildi. Bundan başqa, ənənvi rus siyasətinin prinsiplərinə uyğun olan Xəzərin strateji əhəmiyyəti idi. Xəzərin kiçik çaylar vasitəsilə Baltik və Qara dənizlə bağlantısının olması XVII əsrin sonlarından bu dənizlərə sahib olmağı xarici siyasətinin başlıca məqsədi hesab edən Rusiya üçün mühüm əhəmiyyət kəsb edir. Odur ki, bu məsələdə Rusiya Xəzərin bölünməsini istəmir, buna mane olmaq üçün gah Xəzərin qapalı göl olmasının beynəlxalq hüquqa zidd olduğunu, gah da Xəzərin bölünməsinin ekoloji çirklənmələrə səbəb olacağını əsas gətirirdi.

Zamanla Rusiya da mövcud reallıqla barışmaq məcburiyyətində qaldı və sərt mövqeyindən imtina edərək yeni siyasi xətt götürdü. Buna səbəb olan məsələlərdən biri də Qazaxıstan və Azərbaycanın razılığa gələrək öz sektorlarını müəyyənləşdirməsi və karbohidrogen ehtiyatlarının istismarına başlaması olmuşdu. Bununla da dünyanın böyük neft şirkətləri Azərbaycana, o cümlədən də Qazaxıstana sərmayə qoymağa başladılar. Rusiya bu baxımdan kənarda qalmaq istəmədi. Nəticədə 2003-cü ildə Azərbaycan, Rusiya və Qazaxıstan arasında aparılan danışıqlar nəticəsində Xəzərin şimal hissəsinin milli sektorlara bölünməsi ilə bağlı razılıq əldə edildi, lakin Xəzərin hüquqi statusunun qəti olaraq müəyyənləşdirilməsində digər qonşu dövlətlərin geosiyasi maraqları mane olurdu [2, s.194].

Xəzər dənizinin mühüm enerji ehtiyatlarına malik olması, Qara dənizin isə bu ehtiyatların daşınmasında tranzit üstünlüyü Rusiya kimi Qərbin də diqqətindən kənarda qalmır. Təsadüfi deyil ki, Xəzər-Qara dəniz hövzəsini Rusiya və Qərbin rəqabət meydanı hesab edirlər. Xəzər hövzəsində ABŞ-ın siyasi marağı var və bu maraqları Azərbaycana münasibətdə daha aydın hiss olunur. ABŞ Cənubi Qafqaz və Mərkəzi Asiyada həyata keçirilən strateji əhəmiyyətli layihələri dəstəkləməklə yanaşı, bu layihə və proseslərin başlıca iştirakçısına çevrilməyə də üstünlük verir. ABŞ Xəzər regionundan uzaqda yerləşsə də "Dəniz hökmranlığı" geosiyasi konsepsiyasına müvafiq olaraq buranı da öz həyati maraqlarına daxil edir, belə ki, ABŞ-ın məqsədi təkcə regionun enerji ehtiyatlarından istifadə etmək deyil, tarixi rəqibi olan Rusiyanın burada möhkəmlənməsinə mane olmaq istəyir. Bu baxımdan da Azərbaycanla əməkdaşlığa üstünlük verir.

ABŞ rəsmi nümayəndəsi Sem Braumbek ABŞ-ın siyasi, iqtisadi baxımdan regiona əhəmiyyət verdiyini qeyd edərək, Xəzərin hüquqi statusu məsələsində Azərbaycanın mövqeyinin başda ABŞ olmaqla, qərb dünyası tərəfindən dəstəkləndiyini bildirmişdir. 2001-ci ildə keçirilmiş Davos İqtisadi Forumunda ABŞ nümayəndələri Xəzər regionunun qərb üçün əhəmiyyəti və Fars körfəzinə qarşı alternativ enerji mənbəyi kimi vacibliyini qeyd etmişdilər. Burada bölgədəki ABŞ-ın maraqları hər hansı təhlükəyə məruz qalacağı təqdirdə Pentaqon tərəfindən Xəzər üzərində fırtına" adlı əməliyyatı planının da hazırlanması və zərurət yarandıqda işə salınması məsələsini də qeyd etmək yerinə düşər [7, s.88]. Bu bir daha Xəzər regionunun ABŞ üçün necə bir geosiyasi və geoiqtisadi əhəmiyyətə malik olduğunu göstərir. Xəzər bölgəsinin ABŞ üçün əhəmiyyətini göstərən daha bir fakt isə ondan ibarətdir ki, Xəzərin hüquqi statusu məsələsinin aktual olduğu bir məqamda ABŞ administrasiyasının xarici siyasətində bununla bağlı ayrıca bir istiqamət ayrılmışdır. Belə ki, prezident yanında təhlükəsizlik şurasının tərkibində regionla

bağlı xüsusi işçi qrupu formalaşdırılmış, prezident və dövlət katibinin Xəzər regionunun enerji məsələləri üzrə xüsusi müşaviri vəzifəsi də təsis edilmişdir. Sözsüz ki, ABŞ-ın burada əsas maraqları Rusiyanı qabaqlayaraq siyasi üstünlüyə nail olmaq, enerji ehtiyatlarının istismarı və onun nəqlinin həyata keçirilməsində istifadə ediləcək mühüm tranzit yollara nəzarət etmək, bununla da geosiyasi maraqlarını təmin etməkdən ibarət idi. Məhz bu amillərə görə Xəzərin hüquqi statusu məsələsində Azərbaycanı dəstəklədiyini açıq şəkildə bəyan edirdi.

ABŞ-ın regionda olan nüfuzunun güclənməsindən narahat olan Rusiya, həmçinin, Xəzərin sektoral bölgüsündə kəskin mövqe tutması ilə seçilən İran kompromisə getməyə üstünlük verdi. Məsələnin qarşılıqlı faydalı əməkdaşlıq şəritində həllinin vacibliyini vurğuladılar. Bunda da əsas məqsəd qərbin bu bölgədə artan nüfuzuna mane olmaq idi. Bu baxımdan tərəflər arasında 2014-cü ilin sentyabrında Həştərxanda keçirilmiş Xəzəryanı dövlətlərin başçılarının IV Zirvə toplantısı əhəmiyyəti ilə seçilir. Təsadüfi deyil ki, Zirvə toplantısında müzakirə edilən məsələlərdən biri də Xəzər hövzəsində NATO hərbi qüvvələrinin yerləşməsinin yolverilməzliyi ilə bağlı idi. Bunun riskli nəticələrinin ola biləcəyi qeyd edilirdi [1, s.205].

Xəzərin hüquqi statusu məsələsində və Xəzər regionunda maraqlı olan siyasi aktorlardan biri də Avropa İttifaqıdır. Avropanın enerji təminatının böyük hissəsinin Rusiya tərəfindən təmin edildiyini nəzərə aldıqda bunun səbəbləri aydın olur. Bu baxımdan Aİ Rusiyanın nə tamam məhv olmasını, zəifləməsini, nə də güclənməsini istəmir. Rusiyada yarana biləcək hər hansı problem enerji axınının dayanması ilə nəticələnə bilər ki, bu da Avropa üçün qətiyyən sərfəli deyil. Rusiya gücləndikcə isə enerji qiymətlərini artıra, bundan siyasi təzyiq aləti kimi istifadə edə bilər ki, müəyyən zamanlarda belə hallara yol vermişdir. Hər iki hal – həm Rusiya Federasiyasının zəifləməsi, həm də güclənməsi Avropa üçün sərfəli deyil [3, s.558].

Enerji təhlükəsizliyi və əldə edəcək enerjinin təhlükəsiz və Rusiyadan yan keçməklə daşınmasında maraqlı olan Aİ Cənubi Qafqaza, Xəzər bölgəsinə xüsusi maraq göstərir. Aİ-nin Şərqə doğru genişlənmə proqramlarının icrası da məhz bu məqsədə xidmət edir. Aİ 2006-cı ildə Cənubi Qafqaz ölkələri ilə Avropa Qonşuluq siyasəti çərçivəsində tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş imzalamış, Avropa Qonşuluq Siyasətinin Fəaliyyət Proqramı (European Neighbourhood Policy Action Plan) hazırlamışdır. Bütün bunlar Xəzər regionunun Avropa üçün əhəmiyyətini göstərir. Aİ-nin regionun enerji ehtiyatlarına və tranzit nəqliyyat yollarına sahib Azərbaycana diqqət yetirməsinə səbəb olur. Belə ki, Avropa dövlətləri Xəzər hövzəsinin karbohidrogen yataqlarına maneəsiz çıxış əldə etmək, enerji təminatını Azərbaycan vasitəsilə həyata keçirmək niyyətindədirlər. Bu nöqteyi-nəzərdən də Xəzərin hüquqi statusu məsələsində Azərbaycanın mövqeyini dəstəkləyir, beynəlxalq hüquq normalarına uyğun olduğunu qeyd edirdilər [11].

Rusiya ABŞ və Aİ-nin Rusiyadan yan keçən qaz kəmərləri çəkməyə çalışmasına səssiz qala bilməzdi. Belə ki, bu baş tutduğu təqdirdə Xəzər regionu və Mərkəzi Asiya Rusiyanın nüfuz dairəsindən uzaqlaşmış olacaqdı. Buna qarşı rəsmi Moskva adekvat addım atdı. 2007-ci ildə Rusiya Xəzərin şərq bölgəsində qaz kəmərlərinin diversifikasiyası üçün hərəkətə keçdi. Qazaxıstan və Türkmənistana altı günlük səfəri çərçivəsində "Rusiya istiqamətində" Xəzəryanı qaz kəmərinin tikintisi ilə bağlı razılıq əldə edildi. Qərb də öz növbəsində Azərbaycan və Türkmənistanın enerji resurslarının Avropaya çatdırılmasını təmin edəcək layihəyə - Transxəzər qaz kəmərinin tikintisinə təşəbbüs göstərdi. Lakin V. Putinin səyi nəticəsində layihənin reallaşdırılması mümkün olmadı [1, s.335].

Qeyd edək ki, Xəzər regionunda Rusiya, Qərbin maraqları olduğu kimi qardaş Türkiyənin də maraqları var. Strateji tərəfdaş və müttəfiq, dost və qardaş dövlət Türkiyə Azərbaycanın enerji ehtiyatlarının nəql edilməsində Avropa və Asiyanı birləşdirən körpü rolunu oynamaq istəyir. Bu baxımdan, ikitərəfli və çoxtərəfli bir sıra layihələrə imza atılmışdır. Azərbaycan da regionda təhlükəsizliyini təmin etmək və iqtisadi imkanlarından faydalanmaq üçün Türkiyənin bu marağının təmin edilməsində maraqlı tərəf kimi çıxış edir. Türkiyənin TANAP və "Cənub dəhlizi" kimi layihələrinin reallaşdırılmasındakı fəaliyyətini uğurlu addımlardan hesab edilməlidir [7, 138].

Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı həyata keçirilmiş ən əhəmiyyətli iş Astanada keçirilmiş görüşdə əldə edilmişdir. Belə ki, 2016-cı ildə Xəzər dənizinin hüquqi statusuna dair birgə konvensiyanın hazırlanması məsələsi vurğulanmışdır. Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov konvensiya üzərində işin 90%-nin yekunlaşdırıldığı ilə bağlı açıqlama vermişdir. Nəhayət ki, uzunsürən fikir ayrılıqları və bu məsələdə milli-geosiyasi maraqları kontekstindən çıxış edən dövlətlərin səyinə baxmayaraq, 2018-ci ildə Xəzərin hüquqi statusu ilə bağlı yekun nəticə əldə edilmiş-

dir. Belə ki, 2018-ci il avqustun 12-də Aktau şəhərində "Xəzər dənizinin hüquqi statusu haqqında" konvensiya imzalanmışdır. Bu konvensiya 2019-cu ilin fevralın 12-də Azərbaycan Prezidentinin müvafiq qərarı ilə təsdiq edilmişdir [13]. Sözügedən konvensiyada tərəflərdən başqa heç bir silahlı qüvvənin mövcud olmaması maddəsi təsbit edilmişdir. Bu da qərbin gələcəkdə Xəzər dənizində hansısa hərbi birləşmə saxlamasına, formalaşdırılmasına yönəldilmişdir. Çünki, Xəzərdəki karbohidrogen yataqlarının istismarı ilə məşğul olan qərb şirkətlərinin təhlükəsizliyinin qorunmasının vacibliyi dəfələrlə vurğulanırdı. Konvensiyaya əsasən, Xəzərə sui generis rejimi tətbiq edilirdi ki, bununla da onun nə dəniz, nə də göl olmadığı müəyyənləşdirilirdi. Bu məsələdə Xəzərin israrla dəniz deyil, göl olduğunu qəbul etdirməyə çalışan İranın planlarını puç etdi. Təsadüfi deyil ki, konvensiyanın imzalanmasından sonra İranda dövlət nümayəndələrini Xəzəri "satmaqda" ittiham edirdilər [14].

Qeyd etmək lazımdır ki, Azərbaycan sahib olduğu enerji ehtiyatlarından da xarici siyasətində uğurla istifadə edir. Bu amil dünya dövlətlərinin bir çoxunun diqqətini Azərbaycana yönəldir. Xüsusilə də, qərb dünyası Azərbaycana öz enerji təminatçısı olaraq baxır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Rusiyanın burada iqtisadi istismarı azalmış oldu. "Əsrin müqaviləsi" də bir daha bütün dünyaya Azərbaycanın öz iqtisadi imkanlarından müstəqil istifadə etməsi və qərar qəbul etməsini göstərmiş oldu. Bununla yanaşı, karbohidrogen ehtiyatları baxımından Azərbaycanın əhəmiyyətini göstərdi, enerji təminatına görə xaricdən asılı olan qərbin diqqətini bir daha bu regiona, xüsusilə də Azərbaycana yönəltmiş oldu. Enerji təminatını Rusiyanın hesabına həyata keçirən, lakin onunla rəqabətdə olan qərb dünyası üçün Azərbaycan alternativ enerji bazası rolunu oynamaqdadır. Bu nöqteyi-nəzərdən Azərbaycanın əhəmiyyətini daha da aktuallaşdıran siyasi məsələ Rusiya-Ukrayna münasibətləri oldu [12].

Bildiyimiz kimi, Avropanın qaz ehtiyatının əksəriyyətini Rusiya təmin edir. Rusiya həm də bu enerjisindən siyasi təsir vasitəsi olaraq istifadə etməkdədir. Tarixə nəzər salsaq, Rusiya satdığı enerjinin qiymətlərini qaldıraraq bundan siyasi silah kimi istifadə etməyə çalışmışdır. Buna misal olaraq, 2005 və 2006-cı illərdə qazın qiymətini kəskin qaldırmasını, 2009-cu ildə isə Ukraynaya qaz verilişini dayandırması ilə yaranmış iqtisadi-siyasi böhranı göstərmək olar. Bununla da, rəqibi olan Qərb dövlətlərini iqtisadi baxımdan özündən asılı hala salmağa və regionda öz milli maraqlarını təmin etməkdə mane ola biləcək dövlətlərin əl-qollarını bağlamış olur. 2014-cü ildə Rusiyanın Krımı ilhaq etməsinə qərbin səssiz qalması, Rusiyanın bu hərəkətinə qarşı faktiki addımlar atılmaması da bununla əlaqələndirilir. Belə bir məqamda Avropa ilə uzlaşmağın mürəkkəbliyini dərk edən Rusiya özünə yeni müttəfiqlər tapmağa çalışır. Əsas diqqətini islam, türk dünyasına, ABŞ-ın rəqibi olan Çinlə əməkdaşlığa yönəldir. Rusiya enerjisindən asılılığı azaltmaq üçün qərbin Azərbaycanın enerji ehtiyatlarına maraq göstərəcəyini düzgün qiymətləndirən rəsmi Moskva Azərbaycanla müttəfiqlik əlaqələrini genişləndirməyə üstünlük verir. Hazırda Qərb dünyası Rusiyanın Ukraynaya müdaxiləsindən sonra ona qarşı sanksiyalar tətbiq edir. Bu da etibarlı müttəfiq kimi Azərbaycanın Rusiya üçün daha da əhəmiyyətini artırır. Rusiyadan enerji baxımdan asılılığı azaltmaq və alternativ mənbə kimi Azərbaycanın əhəmiyyəti daha da artdı. Qərb enerji təhlükəsizliyinin təminatçısı kimi Azərbaycanla əlaqələrini genişləndirməyə başladı. Sözsüz ki, bu, Rusiyanın siyasi maraqlarına uyğun deyildi. Lakin Azərbaycan balanslaşdırılmış siyasət yeridərək enerji resurslarından faydalanmağı bacarır və bu baxımdan sülh və sabitlik şəraitində əməkdaşlığın tərəfdarıdır.

Regionda marağı olan və Rusiya ilə rəqabət aparan dövlətlərdən biri də ABŞ-dır. Avrasiyada müasir geosiyasi vəziyyətdə hökm sürən çoxqütblülük Rusiya və ABŞ-ın timsalında dualizmlə xarakterizə edilir. Avrasiya materiki vahid dünya hakimiyyəti nəzəriyyəsini siyasi baxımdan tətbiq edən ABŞ üçün mühüm əhəmiyyətə malikdir.

ABŞ Cənubi Qafqazda, o cümlədən də, Azərbaycanda öz geosiyasi maraqlarını təmin etmək üçün bir sıra məsələlərə üstünlük verir. Bunlar içərisində region dövlətləri – Azərbaycanla birbaşa əlaqələrin qurulması, burada Avropa dövlətlərinin uğurlu addımlarından istifadə edilməsi kimi məsələlər başlıca yer tutur. Təbii ki, ABŞ-ın xarici siyasətinin Azərbaycan istiqamətinə regionda rəqib olan dövlətlər Rusiya və İrandır. ABŞ öz siyasətini həyata keçirmək üçün Cənubi Qafqaz dövlətləri içərisində məhz Azərbaycana üstünlük verir. Təsadüfi deyil ki, ABŞ geosiyasətçisi Z.Bjezinski öz siyasi konsepsiyalarında da bunu göstərmişdir. Z.Bjezinski ABŞ-ın regionda siyasətini təmin etmək üçün başlıca və vacib addımlardan biri kimi Azərbaycanın Rusiyanın təsirindən xilas edilməsində və qərbyönümlü siyasət aparmağa sövq etməkdə görürdü. Bundan başqa, Xəzər regionunun geoiqtisadi əhəmiyyəti, Azərbaycanın enerji ehtiyatlarının qərbə ötürülməsi layihələrinin reallaşdırılma-

sı istəyi də ABŞ-ın maraqlarına daxil idi [6, 98].

Qeyd edək ki, son illərdə Rusiya ABŞ-la münasibətlərində dəyişiklik etməyə çalışırdı. Daha çox əməkdaşlıq tədbirlərinə əhəmiyyət verildiyi dövlətin 2015-ci ildə qəbul etdiyi Milli Təhlükəsizlik Strategiyasında öz əksini tapmışdı. Dünya siyasətində də maraqla qarşılanan bu müddəalar reallaşmadı. Belə ki, sənəddə göstərilirdi ki, ABŞ-Rusiya münasibətləri, hər iki ölkənin üst-üstə düşən maraqları beynəlxalq vəziyyətə ciddi təsir edir, buna görə də, Rusiya ABŞ-la tərəfdaşlığın qurulmasında maraqlıdır. Bundan başqa, bu sənəddə, həmçinin, Avroatlantik məkanında ümumi təhlükəsizliyin möhkəmləndirilməsi üçün Rusiya Federasiyası NATO ilə bərabərlik prinsipi əsas götürülməklə münasibətlərin inkişafına hazır olduğunu bəyan edirdi. Lakin bütün bunlara baxmayaraq, ənənəvi rəqabət aparan dövlətlərin bir-birinə münasibəti özünü çox gözlətmədi. Münasibətlər C.Bayden adminstrasiyasının dövründə daha da kəskinləşdi. 2021-ci ilin mart ayında C.Bayden jurnalistə verdiyi müsahibəsində V.Putini qatil adlandırandan sonra Rusiya Vaşinqtondan səfirini geri çağırdı. Daha sonra həmin ilin iyulunda Rusiyanın yeni Milli Təhlükəsizlik Strategiyası elan edildi. Burada xüsusi olaraq NATO-nun Rusiyaya yaxın ərazilərdə yerləşdirilməsi, təlimlərinin birbaşa olaraq Rusiyaya qarşı yönəldiyi qeyd edilirdi. Buna cavab olaraq, Rusiyanın bir sıra tədbirlər görəcəyi göstərilirdi. Bu tədbirlər içərisində nüvə potensialı və onun lazımi səviyyədə dəstəklənməsini nəzərdə tutan strateji çəkindirmə amili başlıca yer tuturdu. [11]

Rusiyanın bəhs etdiyimiz, hələ ki, sonuncu olan Milli Təhlükəsizlik Strategiyasında ABŞ dollarından istifadənin azaldılması Rusiya iqtisadiyyatı üçün inkişaf və təhlükəsizlik tədbiri kimi xarakterizə edilirdi. Əgər 2015-ci ildəki strategiya planı ABŞ-la əməkdaşlığın tərəfdarı və əhəmiyyəti göstərilirdisə, artıq 2021-ci ildəki sənəddə bunun əksini görmüş oluruq. Faktiki olaraq, burada ABŞ müstəqil dövlətlərin daxili siyasətinə açıq şəkildə müdaxilə edən, öz istəyini diktə edib yeritməyə çalışan təhlükəli siyasi subyekt kimi göstərilirdi. Bütün bu münasibətlər hər iki dövlətin Azərbaycanla bağlı siyasətinə də təsirsiz ötüşmürdü. Azərbaycan Respublikası da öz növbəsində regional və qlobal siyasi hadisə və prosesləri analiz edərək, öz dövlətinin təhlükəsizliyi və inkişafı üçün orta yol müəyyən etməyə çalışırdı. ABŞ və Rusiya da öz növbəsində Azərbaycanı öz tərəfinə çəkməyə, bir-birlərinin mövqeyinin burada güclənməsinə mane olmağa, bunun üçün də Azərbaycandan istifadə etməyə çalışırdılar. Bu baxımdan NATO-nun genişlənmə, xüsusilə də, postsovet məkanında aktiv fəaliyyət göstərmək istəyi də aktualdır [15].

NATO-nun qurşaq siyasəti də regionda öz nüfuzunu və varlığını təmin etməyə xidmət edir. Rusiyanın cənub sərhədlərini, eləcə də Azərbaycanı əhatə edən bu siyasət ənənəvi “Anakonda strategiyası”nın təzahür formasıdır. Bu strategiyanın mahiyyəti ondan ibarətdir ki, ABŞ və NATO məqsədlərinə mane olan və ola biləcək siyasi güclərin “bellərinə dolanıb boğmaq”dır. ABŞ xarici siyasətində iqtisadi amillər ön planda olsa da, bu amilləri mühafizə etmək adı altında hərbi-siyasi addımlar atmaqdan çəkinmir. Əslində isə, qeyd edilən iqtisadi amillər özü də siyasi məqsədə xidmət edir. ABŞ-ın Azərbaycanda olan maraqları da buna əyani sübutdur. Azərbaycanın iqtisadi resursları ABŞ-ı cəlb etsə də, regionda Rusiyanın mövqeyini zəiflətmək üçün əməkdaşlıq edə biləcək etibarlı tərəfdaş hesab edir. Bu məqsədlə də Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlıq məsələləri həmişə diqqətdə saxlanılır. [10]

44 günlük Vətən müharibəsindən sonra ABŞ-ın Azərbaycana olan diqqəti daha da artmışdır. Burada Rusiyanın rolunun güclənməsi, münaqişənin həllində əsas vasitəçi olması, sülhməramlı fəaliyyəti ABŞ-ın planlarına mane olur. Bundan başqa, Azərbaycanın torpaqlarını işğaldan azad etməsi ilə onun yeni geosiyasi imkanları artmışdır. Mühüm yeni tranzit xətləri məsələsi, xüsusilə də, aktual olan Zəngəzur dəhlizinin əhəmiyyəti və mövcud reallıqları bir çox dövlətlər kimi ABŞ-ın da diqqətinin təkrar Azərbaycana yönəlməsinə gətirib çıxartmış oldu.

Yuxarıdan göstərilən səbəblərə görə Qərb dünyası Azərbaycanla sıx əməkdaşlıq üçün müəyyən addımlar atdı. Bunlardan biri də Azərbaycan prezidenti İlham Əliyevin NATO baş katibi Stolltenberqin dəvəti ilə 2021-ci ilin dekabrında Brüsselə səfər etməsi idi. Görüş zamanı İ.Əliyev bildirib ki, Azərbaycan NATO-nun etibarlı tərəfdaşıdır və NATO müttəfiqləri, xüsusilə Türkiyə ilə sıx əlaqələr saxlayır. Bu kimi şərhlər, əlbəttə ki, NATO-nun öz periferiyası boyunca mövcudluğunu mümkün qədər məhdudlaşdırmaq istəyən Kremli qıcıqlandırır. Azərbaycan bu strategiyanın mühüm hissəsidir, çünki o, Rusiyanı Türkiyədəki NATO qüvvələrindən ayırır. Bundan başqa, son vaxtlar Moskva Qafqazda öz mövqelərini saxlamaq üçün iqtisadi əməkdaşlıq və hərbi iştirakdan (Dağlıq Qarabağda sülhməramlı əməliyyat şəklində) kombinasiyalı şəkildə istifadə edir. Lakin dərinləşən iqtisadi problemləri və digər prioritetlərin çeşidini nəzərə alsaq, Rusiyanın burada iqtisadi təsir uğrunda rəqabət aparmaq qabiliyyəti zəifləyir. Məsələn, Azərbay-

can ixracının əsasını müvafiq olaraq 30 və 18 faiz olmaqla İtaliya və Türkiyə (hər ikisi NATO ölkəsi) təşkil edir. Bakı 2020-ci ildə Qarabağ müharibəsində Azərbaycana dəstək verən Türkiyə ilə də hərbi əməkdaşlığı artırır. Bu baxımdan imzalanan "Şuşa Bəyannaməsi" hüquqi baxımdan da münasibətləri tənzimləyir və təsdiqləyir. [15]

Rusiya Qərbin Azərbaycana yaxınlaşmaq üçün atdığı addımlara mane olmağa, alternativ addımlar atmağa cəhd göstərir. Bunlardan Rusiya üçün ən əhəmiyyətli olanı Azərbaycanı Avrasiya İqtisadi Birliyində üzv olaraq görmək istəməsidir. Təsadüfi deyil ki, İ.Əliyevin NATO-nun iclasına getməsinə bir neçə gün qalmış Avrasiya İqtisadi Birliyinin tənzimləyici orqanı olan Avrasiya İqtisadi Şurasının fəxri sədri bildirib ki, Azərbaycan bu blokda müşahidəçi statusu ala bilər. İdxalın təqribən 18 faizini Rusiyadan alan Azərbaycan üçün blokun Gömrük İttifaqına qoşulması ciddi fayda verə bilər. Moskva əməkdaşlığının üstünlükləri barədə başqa yerlərdə də incə eyhamlar verib. Rusiyanın müxtəlif media nəşrləri son vaxtlar Azərbaycanla Avrasiya İqtisadi Birliyinin üzvləri arasında möhkəm əlaqələri gündəmə gətirirlər. Məsələn, Rusiyanın "Sputnik News" saytının Azərbaycandakı filialı 2021-ci ilin sonunda üzvlüyün üstünlüklərini vurğulayan məqalə dərc etmişdir. Nəşrin fikrincə, Azərbaycanın Avrasiya İqtisadi Birliyinə daxil olması ölkənin kənd təsərrüfatı və qeyri-neft sektorunun ixracını 280 milyon dollar artıracaq. O, həmçinin iddia edirdi ki, üzvlük Azərbaycanın ümumi daxili məhsulunu indiki səviyyələrlə müqayisədə 0,6 faiz artıra bilər və Azərbaycanın hər bir sakini 1013 ABŞ dolları gəlir əldə edəcək [10].

Kreml bu yaxınlarda Rusiya Federasiyası Hökumətinin Analitik Mərkəzinin 2018-ci ildə keçirdiyi sorğunu da xatırladıb ki, Azərbaycanın işgüzar dairələrinin demək olar ki, 40 faizi Avrasiya İqtisadi Birliyi ilə sıx iqtisadi əlaqələri alqışlayacaq. Kreml ümid edir ki, bu rəqəmlər iqtisadiyyatı pandemiyadan sağalmaqda olan bir ölkədə cazibədar səslənəcək. Azərbaycan pandemiyanın iqtisadi təsirlərindən qonşularına nisbətən daha az əziyyət çəksə də – əsasən enerji ixracına görə, işsizlik, yoxsulluq və mühacirət (əsasən Rusiyaya) mühüm problemlər olaraq qalır. Lakin Rusiya bilir ki, Azərbaycanı cəlb etmək üçün təkcə Avrasiya İqtisadi Birliyinin daxili bazarına arxalana bilməz, çünki blokun bəzi digər üzvlərinin də iqtisadiyyatı çətin vəziyyətdədir. Belə ki, Avrasiya İqtisadi Birliyi İranla daimi azad ticarət sazişi üzrə danışıqlar aparır. (İki tərəf 2018-ci ildə müvəqqəti ticarət sazişi imzalayıb.) Blokun Serbiya, Vyetnam və Sinqapurla da azad ticarət müqavilələri var və 2025-ci ilə qədər bu siyahıya Hindistan, İsrail və Misir də əlavə olunacaq. Bu o deməkdir ki, Azərbaycan bloka qoşulmaqla təkcə onun beş üzvünün deyil, bir sıra əlavə bazarlara çıxış əldə edəcək. Digər fayda ondan ibarətdir ki, bu, Azərbaycanın tarixi rəqibi olan Ermənistanla düşmənçiliyi ram etməyə kömək edəcək. Ermənistanın baş naziri Nikol Paşinyan ölkəsinin Azərbaycanın regional sülhə töhfə verəcəyi təqdirdə üzvlüyünə qarşı çıxmayacağını deyib. İki ölkə arasında tez-tez qarşıdurmaların yaşandığı nəzərə alınsa, açıqlama gözdən pərdə asmaqdan ibarətdir [10].

Bütün bu sadalanan, xüsusilə də, rus mətbuatında müsbət tərəfləri qabardılan amillərə baxmayaraq, Rusiyanın Azərbaycanı Avrasiya İqtisadi Birliyinə cəlb etmək yolunda maneələr var. Birincisi, üzvlük və ya hətta müşahidəçi statusunun əldə edilməsi bütün Avrasiya İqtisadi Birliyi üzvləri arasında konsensus tələb edən uzun proses ola bilər. Bloka qoşulmanın hüquqi tələblərini, eləcə də Ermənistanla davam edən gərginliyi nəzərə alsaq, danışıqlar çətinləşə bilər. Ola bilsin ki, Moskva Azərbaycanı maraqlandırmaq üçün bir müddət ona xidmət göstərməli olacaq, regiondakı rəqabəti nəzərə alsaq, bunu etmək çətindir. İkincisi, Bakı digər müttəfiqlərinin reaksiyalarını nəzərə almalıdır. Azərbaycan Avropa ölkələri və Türkiyə ilə yaxın müttəfiqləri ilə ticarətini artırır. O, tərəf tutmaqdansa, Qərblə Rusiya arasında tarazlığa üstünlük verir. Üçüncüsü, bu təşkilatın öz daxili problemləri var. Üzv dövlətlər bir sıra məsələlərdə fikir ayrılığına malikdirlər və fikir ayrılıqlarını aradan qaldırmaq üçün həmişə güzəştə getməyə hazır deyillər. O, həm də Müstəqil Dövlətlər Birliyi ilə, Rusiyanın rəhbərlik etdiyi postsovet ölkələrindən ibarət başqa bir qurumla nüfuz uğrunda yarışır. Bundan əlavə, ümumi qaz və enerji bazarının işləməsi və az inkişaf etmiş ölkələrdən daha inkişaf etmiş ölkələrə miqrasiya ilə bağlı məsələlərlə Avrasiya İqtisadi Birliyinin ümumi bazarı hələ də inkişaf etməkdədir. Moskva Bakını Avrasiya alyansına qoşulmağa sövq etmək üçün əlindən gələni edir. Azərbaycanın sözügedən Birliyə daxil olması Kremlin qələbəsi olardı. Lakin, bu, asan yol deyil, buna baxmayaraq, Moskvanın növbəti illərdə bu istiqamətdə fəaliyyətini gücləndirəcəyi istisna deyil. Bildiyimiz kimi, Rusiya Avrasiya İqtisadi Birliyini Avropa İqtisadi Birliyinə rəqib olaraq görür və ekspertlər tərəfindən bu Birliyin Avropa İqtisadi Birliyinə alternativ kimi formalaşdırıldığını qeyd edirlər. Bununla da Rusiya regionda Qərbin təsirini azaltmaq və postso-

vet ölkələrini AvrasİB-nin ali strukturu olan Gömrük İttifaqında birləşdirərək qərbə yönəlməsinin qarşısını almağa çalışır. Bundan başqa, bir məsələni xüsusilə qeyd edək ki, Gömrük İttifaqında Azərbaycan da daxil olmaqla postsovet ölkələrinin birləşdirilməsi mahiyyət etibarilə keçmiş SSRİ-nin iqtisadi sərhədlərinin bərpası deməkdir [10].

Avrasiyanın əsas və yeganə lideri olmağa çalışan Rusiya postsovet məkanına, eyni zamanda da Şərqi Avropa bölgəsinə nəzarət etmək siyasətini yürüdür. Bu gün də Rusiya NATO-nu, onun genişlənmə siyasətini milli təhlükəsizliyi üçün əsas təhdid hesab edir. Xüsusilə də, NATO-nun Şərqə doğru genişlənmə siyasəti ilə qərb hərbi-siyasi birliyinin sərhədlərinə yaxın olmasını Rusiya üçün təhlükə hesab edir. Məhz buna görə də, ətraf dövlətlərin, xüsusilə də Azərbaycanın NATO ilə əməkdaşlığına mane olmağa çalışır. Rusiya üçün keçmiş SSRİ respublikalarının NATO-ya inteqrasiyası təhlükə mənbəyidir və buna mane olmaq üçün istənilən vasitəyə, müxtəlif təzyiq alətlərindən istifadə etməyə çalışır. Rusiya Federasiyası Ukrayna, Gürcüstan, Ermənistan kimi Azərbaycanın da NATO-ya tamhüquqlu üzv dövlət kimi qəbul ola biləcəyini həzm edə bilmir və bunun qarşısını almağa çalışır.

Gürcüstan və Rusiyanın qərbə doğru yönəlməsi, NATO-ya daxil olmağa çalışaraq, bunun üçün müəyyən tədbirlər həyata keçirməsini Rusiya aqressiv qarşıladı. Bildiyimiz kimi, 2009-cu ildə Gürcüstana olan müdaxiləsi ilə buna mane oldu. Eyni aqibəti də Ukrayna yaşadı. 2014-cü ildə Krımın ilhaqının ardından, 2022-ci ildə Ukraynayla başlanan müharibə, Donetsk, Luqansk kimi münaqişəli məsələlərin formalaşdırılması bu prosesin qarşısını aldı. Hüquqi baxımdan artıq Ukrayna NATO-nun üzvü ola bilməz. Çünki, ərazisində münaqişəli ərazi olan dövlətlərin hüquqi nöqteyi-nəzərdən NATO üzvü olması mümkün deyil. Bu baxımdan Ukrayna ilə müharibə Rusiya üçün böyük itkilərə səbəb olsa da, əsas istəyinə nail oldu. Lakin Azərbaycanla məsələ bir qədər fərqlidir. Azərbaycan artıq beynəlxalq hüquq normaları ilə tanınan ərazi bütövlüyünü bərpa edib, Qarabağ münaqişəsi faktiki olaraq həll edilib. Belə bir məqamda NATO ilə olan münasibətləri Rusiyada narahatlıq doğurur. Azərbaycan Respublikası öz milli təhlükəsizliyini qorumaq və qarşılıqlı faydalı əməkdaşlıq tədbirlərinə üstünlük verir. Regionda marağı olan siyasi oyunçuların güclərinin və yeritdikləri siyasəti düzgün qiymətləndirərək balanslaşdırılmış siyasət həyata keçirir. Bununla da, öz milli təhlükəsizliyini təmin edərək, iqtisadi və geosiyasi imkanlarından istifadə edərək inkişaf etmək üçün müəyyən addımlar atır. Azərbaycan enerji ehtiyatlarında, tranzit-nəqliyyat imkanlarından regionda sülh və sabitlik şəraitində istifadə etməyə çalışır və dünyanın aparıcı dövlətlərini də qarşılıqlı, hamı üçün faydalı olan əməkdaşlığa təşviq etmək siyasəti yeridir.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) /məqalələr toplusu/. Bakı, "Poliart" MMC, 2017, 904 s.*

*2. Əliyev A. Sahilyanı dövlətlərin Xəzər siyasəti. // Tarix və onun problemləri, 1-2, 2009, s.192-201*

*3. Həsənov Ə. M. Azərbaycanın geosiyasəti. Bakı, "Zərdabi LTD" MMC, 2015, 1056 s.*

*4. Məmmədli M. M. Dünya dövlətlərinin geosiyasi maraqlarında Azərbaycanın yeri // "Bakı Universitetinin xəbərləri" jurnalı, 2008 № 1, səh.161- 169*

*5. Məmmədzadə V. M., İskəndərov X. İ. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin regional aspektləri. Bakı, "UNİCOPY", 2020, 145 s.*

*6. Nəsibov E. M. Avrasiyanın geosiyasi mühiti. ABŞ, NATO, Rusiya və Çinin qlobal və regional rəqabətləri fonunda Avrasiyanın geostrategiyasının (hərbi-coğrafi strategiyasının) formalaşması: tarix və mövcud zaman kontekstindən baxış. İnsan hüquqlarının qorunması; təhlükəsizliyin təmin olunması; geosiyasət. Bakı, "Elm və Təhsil", 2013, 124 səh.*

*7. Samedbeyli P., Kuruçim A., Hidropolitik boyutunda Azerbaycan-GürcistanTürkiye ilişkileri, Ankara, 2002. 205 s.*

*8. Аватков В.А. Основы внешнеполитического курса Азербайджанской Республики на современном этапе // Контуры глобальных трансформаций: политика, экономика, право. 2020, № 3, Т. 13, С.118-139.*

*9. Cornell, S. Small Nations and Great Powers. A Study of Ethnopolitical Conflict in the Caucasus / S. Cornell. – Surrey: Curzon Press, – 2001. – 490 p*

*10. https://geopoliticalfutures.com/russias-plan-to-woo-azerbaijan/*

*11. https://az.sputniknews.ru/20211221/chto-mozhet-poluchit-azerbaydzhan-ot-vstupleniya-v-eaes--infografika-437419571.html*

*12. https://gulfif.org/azerbaijan-control-of-nagorno-karabakh-geopolitical-implications-for-iran-russia-and-turkey/*

*13. https://e-qanun.az/framework/41551*

*14. https://www.bbc.com/azeri/region-45167460*

*15. https://bakuresearchinstitute.org/russias-newnational-security-strategy-2/*

16. https://russiancouncil.ru/analytics-and-comments/analytics/karabakh-v-sostave-azerbaydzhan-kak-izmenitsya-regionalnaya-geopolitika/

**XÜLASƏ:**

Məqalədə Azərbaycanın Rusiya Federasiyasının geosiyasətindəki əhəmiyyətindən bəhs edilir. Rusiyanın regionda əsas maraqları, xarici siyasətin Azərbaycan istiqaməti, sülhməramlı missiya kimi məsələlərə toxunulub. Azərbaycanda Rusiya ilə yanaşı, digər dövlətlərin də geosiyasi məsələləri qaldırılıb. Rusiyanın regionda rəqabəti, xüsusən də Qərblə - ABŞ və Avropa ilə rəqabəti bu illərdə baş verən siyasi hadisələr və proseslər əsasında təhlil edilib. İkinci Qarabağ müharibəsi, Qərblə rəqabət, Xəzərin hüquqi statusuna Rusiyanın münasibəti və mövqeyi, onun nəticələrinin regional proseslərə təsiri, enerji məsələsində əsas amillər və digər məsələlər təhlil edilib.

**Açar sözləri:** *Azərbaycan, Rusiya Federasiyası, geosiyasi maraqlar, İkinci Qarabağ müharibəsi, Qərb, enerji təhlükəsizliyi.*

## THE REPUBLIC OF AZERBAIJAN WITHIN THEGEOPOLITICAL SYSTEM OF THE RUSSIAN FEDERATION (2003-2023)

**PhD on history Mammadova Aynura**

**SUMMARY:**

The article talks about the importance of Azerbaijan in the geopolitics of the Russian Federation. The main interests of Russia in the region, the Azerbaijani direction of foreign policy and the peacekeeping mission were touched upon. Along with Russia, the geopolitical issues of other states of interest in Azerbaijan were included in Azerbaijan. Russia's rivalry in the region, especially its rivalry with the West – the United States and Europe, has been analyzed on the basis of political events and processes that have taken place over the years. The second Karabakh War, competition with the West, Russia's attitude and position on the legal status of the Caspian Sea, the impact of its outcome on regional processes, energy factors and other issues were analyzed.

**Key words:** *Azerbaijan, Russian Federation, geopolitical interest, Second Karabakh War, West, energy security.*

## АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА В РАМКАХ ГЕОПОЛИТИЧЕСКОЙ СИСТЕМЫ РОССИЙСКОЙ ФЕДЕРАЦИИ (2003-2023)

**Д.ф.п.и. Мамедова Айнура**

**РЕЗЮМЕ:**

В статье говорится о значении Азербайджана в геополитике Российской Федерации. Были затронуты такие вопросы, как основные интересы России в регионе, азербайджанское направление внешней политики, миротворческая миссия. Наряду с Россией в Азербайджане были затронуты геополитические вопросы других государств. Конкуренция России в регионе, особенно ее соперничество с Западом – США и Европой-была проанализирована на основе политических событий и процессов, происходивших в указанные годы. Были проанализированы вторая карабахская война, соперничество с Западом, отношение и позиция России по правовому статусу Каспия, влияние его исхода на региональные процессы, факторы в энергетическом вопросе и другие вопросы.

**Ключевые слова:** *Азербайджан, Российская Федерация, геополитический интерес, вторая Карабахская война, Запад, энергетическая безопасность.*

UOT 94(479.24)
DOI:10.30546/3006-0346.2023.6.78.64

# HEYDƏR ƏLİYEVİN BİRİNCİ PREZİDENTLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN-ABŞ MÜNASİBƏTLƏRİ VƏTƏN TARİXŞÜNASLIĞINDA

**BALAMİRZƏ MƏMMƏDLİ**
*Bakı Dövlət Universitetinin doktorantı*
*E-mail: balamirzamammadli@gmail.com*

## Giriş

Nəinki Vətən tarixşünaslığında, eləcə də xarici tarixşünaslıqda birmənalı şəkildə qeyd edilir ki, böyük dövlət xadimi Heydər Əliyevin 1993-cü ilin yayında siyasi hakimiyyətə qayıdışı müasir Azərbaycan tarixinin son dərəcə mürəkkəb bir məqamına təsadüf edir. Belə ki, həmin vaxt Azərbaycanda ictimai-siyasi, iqtisadi və mənəvi-psixoloji böhran yaranmış, ölkəmiz öz müstəqil dövlətçiliyini itirmə təhlükəsi ilə üz-üzə qalmış, ölkəni vətəndaş müharibəsinə sürükləyən güclü separatçılıq meyilləri baş qaldırmışdı. Y.Hüseynov bununla bağlı yazır: “Ermənistan-Azərbaycan Qarabağ münaqişəsinin yaratdığı çətinliklər və səriştəsiz rəhbərlər üzündən Azərbaycan parçalanmağa və müstəqilliyini itirməyə doğru sürüklənirdi” [21, s.357]. Belə bir ağır vəziyyətdə iqtidarda olan hökumət mövcud problemləri həll edə bilməyərək istefa vermiş, bununla da, Azərbaycan xalqının bütün bu təhlükələrdən qurtulmanın yeganə çıxış yolu kimi bir ümidi qalmışdı: vaxtilə 1969-1982-ci illərdə Sovet Azərbaycanına rəhbərlik edərək onu nəinki bütün Sovet İttifaqında, eləcə də dünyada layiqincə təmsil etmiş dahi lider Heydər Əliyevi yenidən hakimiyyətə dəvət etmək. Təsadüfi deyildir ki, ABŞ politoloqu Zbiqnev Bjezinski həmin vaxtlar demişdi: “Hazırda Azərbaycanı idarə edə biləcək yeganə şəxsiyyət Heydər Əliyevdir!” [22, s.6]. Beləliklə, Azərbaycan xalqının təkidli tələbi ilə və konstitusiyaya uyğun olaraq Heydər Əliyev hakimiyyətə gəldi. Elə buna görədir ki, Vətən tarixşünaslığında əksər tədqiqatçılar Heydər Əliyevin hakimiyyətə qayıdışının tarixi zərurət olması qənaətinə gəlir [23, s.222].

Vətən tarixşünaslığında əksər tədqiqatçılar qeyd edirlər ki, H.Əliyevin hakimiyyətə qayıdışı zamanı Azərbaycan-ABŞ münasibətləri daha çox anlaşılmaz xarakter kəsb edirdi [19]. Xüsusilə, 1992-ci ildə ABŞ Konqresində “Azadlığı müdafiə aktı”nın Azərbaycanın maraqlarına zidd olan 907-ci maddəsinin qəbul edilməsi ikitərəfli münasibətlərə ciddi zərbə vurmuşdu. Məhz buna görədir ki, iki ölkə arasında münasibətlərdə yeni hakimiyyətə əvvəlkindən bir sıra “mirasların” qaldığını göstərən M.Qasımlı bu barədə yazır: “Bu zaman iki ölkə arasında münasibətlərdə anlaşılmazlıq hökm sürürdü. ABŞ-da Azərbaycan haqqında belə bir mənfi fikir formalaşmışdı ki, guya Azərbaycanda ermənilər öldürülür, insan hüquqları pozulur” [24, s.165]. E.Mirbəşiroğlu həmin məqamdakı şəraiti belə xarakterizə edir: “Ümummilli Lider H.Əliyevin Azərbaycana ali hakimiyyətə qayıdışı daxili xaosun pik həddə çatması ilə yanaşı, ölkəmizin, dünyanın supergüclərinin müdhiş maraqlarının kəskin toqquşduğu, gərgin geosiyasi məkana çevrildiyi tarixi bir zamana təsadüf etmişdir” [34, s.461]. H.Əliyevin siyasi hakimiyyətə qayıdışının elə ilk vaxtlarından Azərbaycanın ABŞ ilə münasibətlərindəki anlaşılmazlıqların aradan qaldırılması, ikitərəfli əlaqələrin yüksək səviyyədə qurulması istiqamətində səylər göstərilməyə başlanıldı. Ə.Həsənovun yazdığı kimi: “1993-cü ilin iyununda Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə qayıtmasından sonra respublikamızın xarici siyasəti, o cümlədən ABŞ ilə münasibətləri yeni mərhələyə qədəm qoyaraq daha məqsədyönlü xarakter aldı, daha ardıcıl surətdə həyata keçirilməyə başlandı” [20, s.151].

## Heydər Əliyevin Azərbaycan Respublikası Prezidenti seçilməsindən sonra ABŞ ilə münasibətlərdəki ilk müsbət dəyişikliklər Vətən tarixşünaslığında

1993-cü ilin 3 oktyabrında xalqın böyük əksəriyyətinin etimadını qazanan Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi və bundan 1 həftə sonra – oktyabrın 10-da keçirilən andiçmə mərasimindəki nitqində ölkəmizin xarici siyasət konsepsiyasını açıqladı: “Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin, eyni zamanda nəyin bahasına olursa-olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq” [10, s.205-206]. Artıq 1993-cü ilin oktyabrında ABŞ-ın energetika naziri H.O’Lirinin müavini U.

Uayt Azərbaycana səfər etdi və enerji sahəsində iki ölkə arasında iqtisadi sferada, xüsusilə neft sahəsində əməkdaşlığa dair konkret məsələlər, əməkdaşlığın yolları müzakirə edildi.

1994-ci ildə tərəflərin maraqlarının dəqiqləşməsi və siyasətlərinin əsas elementlərinin aydınlaşması ilə Azərbaycan-ABŞ münasibətləri yeni mərhələyə qədəm qoydu. Həmin ilin aprelində R.Kozlariç ABŞ-ın Azərbaycandakı yeni fövqəladə və səlahiyyətli səfiri təyin edildi. 1994-cü ilin mayın 4-də Azərbaycan ABŞ Prezidenti Bill Klintonun xarici siyasət təşəbbüsü olan NATO-nun "Sülh naminə tərəfdaşlıq" (SNT) proqramına qoşuldu. S.Mustafayeva bunu ölkəmizin rəsmi Vaşinqtonla hərbi-siyasi əməkdaşlığına təkan verən amil kimi səciyyələndirir [35, s.152]. H.Əhmədova da öz elmi məqaləsində bunu təsdiq edir: "SNT proqramında iştirak Azərbaycanın NATO standartlarına yaxınlaşmasına təkan verirdi" [9, s.190]. S.Novruzov Azərbaycanın SNT proqramına qoşulmasını təhlil edərkən yazır: "Ümumilli liderimiz H.Əliyev Şimali Atlantika alyansı ilə hərbi-siyasi əlaqələrin genişləndirilməsini balanslaşdırılmış xarici siyasət doktrinasının prioritet vəzifələrindən biri kimi müəyyənləşdirərək bu istiqamətdə praktik addımların atılmasını təmin etdi. Alyansın beynəlxalq münasibətlər sistemindəki yerini və rolunu nəzərə alan ulu öndər H.Əliyev uzaqgörənliklə NATO-nun SNT proqramına qoşulması barədə qətiyyətli qərar verərək 1994-cü ilin mayın 4-də Brüsseldə təşkilatın çərçivə sazişini imzaladı" [37, s.187]. Ş.Məmmədov isə, sözügedən hadisəni Birləşmiş Ştatların Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətindəki iştirakında yeni mərhələnin başlanması kimi xarakterizə edərək yazır: "1994-cü ildən ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində iştirakında yeni mərhələ başladı. Azərbaycan NATO ilə əməkdaşlığı genişləndirmək üçün SNT layihəsinə qoşuldu" [33, s.19]. Qeyd etmək lazımdır ki, Cənubi Qafqaz regionu, o cümlədən Azərbaycan müstəqilliyin ən erkən vaxtlarından NATO-nun maraqlarında olduqca əhəmiyyətli yer tutmuşdur. A.Əzimli yazır ki, hələ 1991-ci il dekabrın 20-də NATO-nun təşəbbüsü ilə Şimali Atlantika Əməkdaşlığı Şurası (ŞAƏŞ) yaradılmış, 1992-ci ilin martında Azərbaycan onun üzvü olmuşdur [15, s.61]. Sonradan əsas məqsədi regionda sabitliyi, təhlükəsizliyi təmin etmək, münaqişələrin qarşısını almaq olan Avratlantik Əməkdaşlıq Şurası ŞAƏŞ-nı əvəz etmişdir. 1994-ci ilin mayın 12-də nəhayət ki, Birinci Qarabağ müharibəsinə və Ermənistanın təcavüzünə son qoyan atəşkəs haqqında sazişin imzalanması ABŞ tərəfindən olduqca müsbət qarşılandı və bundan təqribən 1 ay sonra, iyunun 10-da Türkiyəyə işgüzar səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin ABŞ-ın dövlət katibi U.Kristofer ilə görüşü ikitərəfli münasibətlərin strateji və taktiki aspektlərini müzakirə və müəyyən etmək nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb etdi. M.Qasımlı sözügedən görüşü "ABŞ-ın Azərbaycan siyasətinin əsas məqsəd və vəzifələrinin formalaşmağa başlaması" kimi xarakterizə edir [24, s.170].

1994-cü ilin sentyabrı iki ölkə arasında münasibətlərdə müsbətə doğru atılan növbəti mühüm addımlar ilə yadda qaldı. Belə ki, sentyabrın 3-4-də ABŞ-ın BMT-dəki daimi nümayəndəsi M.Olbrayt Bakıya səfər edərək Prezident H.Əliyev ilə görüşdü və Azərbaycan-ABŞ münasibətlərinə dair bir çox məsələlər müzakirə edildi. Burada ən çox diqqəti çəkən məqam H.Əliyevin təcavüzkar Ermənistan tərəfindən işğal edilmiş ərazilərin boşaldılmasında ABŞ-ın dəstəyini istəməsi oldu. M.Olbrayt QHT xətti ilə ABŞ tərəfindən Azərbaycana humanitar yardımlar göstərilməsininin gücləndiriləcəyini, habelə 907-ci maddənin ləğv edilməsi imkanlarının nəzərdən keçiriləcəyini bildirdi [20, s.156]. 1994-cü sentyabrında BMT Baş Assembleyasının 49-cu sessiyasında iştirak etmək üçün ABŞ-a səfər edən Prezident H.Əliyev ABŞ Prezidenti B.Klinton və BMT-nin baş katibi B.Qali ilə görüşdü ki, burada da "Ermənistanın təcavüzünə son qoymaq kimi mühüm məsələlər müzakirə edildi" [27, s.124]. Bütün bu görüşlər ikitərəfli münasibətlərin inkişafı ilə yanaşı, həm də yeni neft strategiyasının həyata keçirilməsinə öz müsbət təsirini göstərdi.

### "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycan-ABŞ münasibətləri Vətən tarixşünaslığında

1994-cü ilin sentyabrın 20-də ARDNŞ ilə 12 dövlətin neft şirkəti arasında Xəzər dənizinin Azərbaycana məxsus sektorunda neft yataqlarının birgə hasilatı və işlənməsinə dair "Əsrin müqaviləsi" imzalandı [2, s.309]. Həmin şirkətlər arasında ABŞ-ın "Amoko", "Penzoyl", "Yunokal", "Ekson" kimi iri neft şirkətləri də var idi ki, onlar İ.Məmmədov və Ç.Məmmədovun təbirincə desək, "Əsrin müqaviləsi"ndə başlıca yer tuturdular [31, s.314]. M.Mirbabayevin məlumat verdiyi kimi, müqavilənin 13 milyard ABŞ dolları həcmində qiymətləndirilməsi onun nə üçün "Əsrin müqaviləsi" adlandırılması sualına verilən cavablar-

dan biri ola bilər [44, s.257]. Elə buna görədir ki, "Əsrin müqaviləsi"nin imzalandığı gün ABŞ Prezidenti B.Klinton Prezident H.Əliyevə təbrik məktubu göndərərək bu nəhəng müqaviləni Azərbaycanın qüdrətli iqtisadi gələcəyinə doğru atılmış həlledici addım adlandırdı [24, s.172]. M.Rzayev "Əsrin müqaviləsi"-nin Azərbaycan-ABŞ münasibətlərinə təsiri ilə bağlı yazır: "Dünyanın ən qüdrətli dövləti olan ABŞ-la münasibətlərin nizama salınıb inkişaf etdirilməsində Heydər Əliyevin xidmətləri misilsizdir. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması bu yolda ən mühüm və ən başlıca amil, Azərbaycanla Qərb arasındakı münasibətlərdə yeni həm də dönüş nöqtəsi oldu" [40, s.263]. B.Bayramova "Əsrin müqaviləsi"nin imzalanmasını Azərbaycanın nüfuzlu Qərb dövlətləri ilə, ilk növbədə ABŞ-la sərfəli iqtisadi tərəfdaşlıq münasibətlərinin əsasını qoyması kimi xarakterizə edir [5, s.31]. N.Məmmədov "Əsrin müqaviləsi"nin ABŞ-Azərbaycan əlaqələrinin strateji xarakter almasında çox böyük rolunun olmasını qeyd edərək yazır: "Məhz bu müqavilədən sonra ABŞ-Azərbaycan əməkdaşlığının davamı olaraq yenidən Xəzər neftinin hasili və dünya bazarlarına nəqli ilə bağlı müxtəlif investisiya layihələri işlənib hazırlandı və müqavilələr bağlandı" [32, s.110]. E.Nəsirov bu fikri bir qədər də dəqiqləşdirir: "Əsrin müqaviləsi" sonradan 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 sazişin imzalanmasına yol açdı və ABŞ şirkətləri ("Amoko" – 17.01%, "Yunokal" – 10.0489 %, "Ekson" – 8.0006 %, "Penzoyl" – 4.8175% olmaqla) ümümilikdə 40%-lik paya sahib oldular [36, s.99]. "Əsrin müqaviləsi"ndə Qərb dövlətləri içərisində ən mühüm payın məhz ABŞ şirkətlərinə ayrılmasının səbəbini P.Darabadi G.Bayramova ilə birgə yazdığı elmi məqaləsində belə izah edir: "Azərbaycanın ABŞ şirkətlərinə belə böyük faizlə yer ayırması ölkəmizin üzləşdiyi iqtisadi və siyasi problemlərin həllində ABŞ-ın hərbi-siyasi dəstəyinə arxalanmaq istəyi ilə əlaqədar idi" [7, s.119]. Bununla yanaşı, H. Babaoğlunun öz tədqiqat əsərində yazdığı kimi: "Bu müqavilə ölkəyə miyardlarla ABŞ dolları həcmində gəlir vəd etməklə bərabər ölkə iqtisadiyyatının digər sahələrinə də güclü investisiya axınına şərait yaratmış oldu" [4, s.326].

1994-cü il sentyabrın 27-də Nyu-Yorkda ABŞ Prezidenti B.Klinton və Azərbaycan Prezidenti H.Əliyev arasında görüş baş tutdu. Həmin görüşün əhəmiyyətini Ə.Həsənov belə izah edir: "ABŞ Prezidenti Dağlıq Qarabağ problemi yaranan gündən bəri ilk dəfə olaraq bu məsələdə rəsmi Yerevanın deyil, Azərbaycanın mövqeyini müdafiə etdiyini bildirmiş və Azərbaycanın ABŞ üçün arzu edilən, əhəmiyyətli ölkə olduğunu bəyan etmişdir" [20, s.156]. H.Paşayev yazır ki, bu görüş ilə ABŞ və Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələrin ilk araşdırma mərhələsi başa çatdı [39, s.82]. Ümumilikdə, 1994-cü ildə Azərbaycanın ABŞ ilə münasibətlərinin inkişafında qazanılan nailiyyətlər, xüsusilə ABŞ rəhbərliyinin Azərbaycana münasibətinin kəskin şəkildə dəyişməsi, amerikalı siyasi xadimlərin və bütövlükdə Amerika ictimaiyyətinin ikitərəfli münasibətlərin inkişaf etdirilməsi istiqamətində konkret addımlar atmağa maraq göstərməsi Vətən tarixşünaslığındakı tədqiqat əsərlərində ümumilli lider H.Əliyevin rəhbərliyi altında 1993-cü ilin ikinci yarısından başlayaraq aparılan gərgin diplomatik işin nəticəsi hesab edilir. Ə.Həsənov bununla bağlı yazır: "Həyata keçirilən tədbirlər nəticəsində ABŞ-da erməni təbliğatı iflasa uğramağa, Dağlıq Qarabağ mifi sındırılmağa və Azərbaycan haqqında əsl həqiqətlər geniş ictimaiyyət tərəfindən dərk edilməyə başlandı" [20, s.156]. M.Qasımlı da sözügedən məsələ ilə bağlı oxşar qənaətə gəlir: "1993-1994-cü illərdə Azərbaycan diplomatiyasının səyləri nəticəsində ABŞ-da erməni təbliğatına alternativ fikir yaranmağa başladı. Ermənistan-Azərbaycan münaqişəsinin əsl mahiyyəti bilindi, ictimai rəy tədricən dəyişməyə başladı" [24, s.173].

### "Vilson düzəlişi" və "Porter əlavəsi"nin Azərbaycan-ABŞ münasibətlərinə təsiri Vətən tarixşünaslığında

1995-1996-cı illərdə Ə.Həsənovun təbirincə desək, iki ölkə arasında siyasi və iqtisadi əlaqələr yüksələn xətlə inkişaf etdi. 1995-ci ilin aprelində ABŞ-ın energetika naziri H.O'lirinin ölkəmizə səfəri zamanı Azərbaycanın beynəlxalq neft konsorsiumundakı (latınca "consortium" – ortaqlıq, cəmiyyət) payının 5%-nin ABŞ-ın "Ekson" şirkətinə ayrılması haqqında sənəd imzalandı [11, s.385]. M.Qasımlı bu hadisəni Azərbaycan-ABŞ münasibətlərdə etimadı artırmağa və inamsızlığı aradan qaldırmağa kömək edən amil kimi qiymətləndirir [24, s.174]. Bu dövrdə ABŞ tərəfindən ən azı digər Cənubi Qafqaz respublikalarına edilən yardım qədər Azərbaycana da humanitar yardım göstərilməsini təmin etmək uğrunda Azərbaycan diplomatiyasının səyləri nəhayət ki, 1996-cı ilin əvvəlində öz bəhrəsini verdi. Belə ki, həmin ilin 25-26 yanvarında konqresmen Çarlz

Vilsonun təklifi ilə Azərbaycana birbaşa humanitar yardım göstərilməsini nəzərdə tutan qanun layihəsi Nümayəndələr palatasında, daha sonra isə Senatda qəbul edildi və ABŞ Prezidenti B.Klinton tərəfindən təsdiq olundu. Z.Əliyev göstərir ki, konqresmen Ç. Vilsonun bu təşəbbüsü "Azadlıq müdafiə aktı"nın 907-ci maddəsinə edilmiş əlavə idi [14, s.124]. Bu mənada, sözügedən qanun layihəsi Vətən tarixşünaslığında bəzən "Vilson düzəlişi" kimi də qeyd olunur. "Vilson düzəlişi" əvvəllər olduğu kimi ABŞ-ın Azərbaycana yalnız QHT xətti və şəxsi xeyriyyəçi təşkilatlar vasitəsilə humanitar yardım göstərilməsinin mümkünlüyünü təsbit etsə də, burada mühüm bir fərqli məqam var idi. Həmin məqam E.Nəsirovun da yazdığı kimi belə idi: "Azərbaycan hökumətinə yardım o halda göstərilə bilər ki, Prezident müəyyən etsin ki, QHT vasitəsilə Azərbaycana göstərilən yardım qaçqınların və məcburi köçkünlərin ehtiyaclarını lazımi səviyyədə ödəmir" [36, s.46]. Göründüyü kimi, burada artıq Amerika QHT-ləri ilə yanaşı ABŞ-ın dövlət yardımından söhbət gedir. "Vilson düzəlişi" ilə ABŞ-ın Azərbaycana münasibətinin dəyişməsini Y.Babanlı belə izah edir: "Bu düzəlişə qədər Azərbaycana yalnız ABŞ-ın xeyriyyəçilik təşkilatları və hökumətlə əlaqəsi olmayan təşkilatları maddi yardım göstərə bilərdi" [3, s.152]. Bütövlükdə, sözügedən qanunun qəbul edilməsini Azərbaycan diplomatiyasının erməni lobbisi üzərində qələbəsi kimi qiymətləndirmək olar. Çünki Ə.Həsənovun yazdığı kimi: "Konqresin 1995-ci ilin mayında qəbul edə bilmədiyi "Azərbaycana birbaşa humanitar yardım göstərilməsi haqqında" qanun layihəsi məhz bu dəfə bəyənildi və erməni lobbisinin ciddi müqavimətinə baxmayaraq təsdiq edildi" [20, s.161].

Lakin ABŞ-dakı erməni lobbisi və diasporu anti-Azərbaycan fəaliyyətlərini dayandırmır, israrla ABŞ-ın Azərbaycanla münasibətlərinə ziyan vurmağa çalışırdılar. Erməni lobbisi və diasporunun növbəti kəskin təzyiqləri nəticəsində 1996-cı ilin iyununda konqresmen Con Porterin təklifi ilə Nümayəndələr palatasında ikitərəfli münasibətlərin inkişafına zərbə endirən "Porter əlavəsi" adlı yeni sənəd qəbul edildi [20, s.162]. Ayrı-ayrılıqda həm Azərbaycanın, həm də "Dağlıq Qarabağ"ın qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş əhalisinə 7:1 nisbətində yardım edilməsini nəzərdə tutan həmin sənəd Ə.Məmmədovun yazdığı kimi: guya həm Azərbaycan, həm də "Dağlıq Qarabağ" erməniləri üçün məqbul idi [30, s.291]. V.Həbiboğlunun: "Qeyri-rəsmi mənbələrdən məlumdur ki, Qarabağ probleminin həllinə "çalışan" Porterin arvadı erməni mənşəlidir" – deyə, məlumat verməsi C.Porterin nə üçün belə bir ədalətsiz sənəd hazırlaması sualına verilən cavab ola bilər [17, s.83]. Z.Əliyev göstərir ki, aşağıdakı iki cəhətinə görə "Porter əlavəsi"nin dövlətçiliyimiz əleyhinə yönəlməsi qənaətinə gəlmək olar:

1. Qarabağ Azərbaycanın tərkib hissəsi deyil, müstəqil subyekt kimi təqdim edilirdi.

2. İki müxtəlif subyektə müxtəlif yardımlar təklif olunmaqla göstərilən yardım arasında nisbət qoyulurdu [14, s.128].

Bu baxımdan, "Porter əlavəsi" məsələyə ədalətsiz yanaşma olmaqla münaqişənin həllinə kömək etmirdi və M.Qasımlının təbirincə desək, Azərbaycanın maraqlarına uyğun olmayıb onun müstəqilliyinə, suverenliyinə qarşı yönəlmişdi [25, s.62]. Elə buna görədir ki, sözügedən sənəd nəinki Azərbaycan tərəfində narazılıq doğurdu, həmçinin ABŞ-ın özündə də birmənalı qarşılanmadı. ABŞ Dövlət Departamenti 1996-cı ilin iyunun 12-də "Porter əlavəsi" ilə bağlı xüsusi bəyanat verərək qanun layihəsində göstərilən müddəaları "hazırda edilən səylərə qarşı maneə yaratmaq" cəhdi kimi qiymətləndirdi. Bəyanatda qeyd edilirdi ki, ABŞ tərəfindən Azərbaycanın 780 min nəfərədək qaçqın və məcburi köçkün statuslu vətəndaşına humanitar yardımların göstərilməsi səyləri davam etdiriləcəkdir [36, s.48-49]. İyunun 13-də Prezident H.Əliyev ABŞ-ın Azərbaycandakı səfiri ilə görüşərək ona açıq şəkildə bildirdi: "Porter düzəlişi Azərbaycana kömək əvəzinə ona zərbə vurur, onun ərazi bütövlüyünü təhlükə altına qoyur" [12, s.440-441]. Son nəticədə ABŞ obyektiv mövqe tutaraq erməni lobbisi və diasporunun əsassız iddialarını rədd etdi və ABŞ Senatında xarici dövlətlərə yardım haqqında qanun layihəsi "Porter düzəlişi" nəzərə alınmadan 1996-cı il iyulun 26-da qəbul edildi [24, s.180]. ABŞ Dövlət Departamenti 1996-cı ilin oktyabrında Dağlıq Qarabağ regionunda qondarma "prezident" seçkiləri keçiriləndə də xüsusi bəyanat verərək öz narahatlığını bildirməklə, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədi. Bu bəyanat Ə.Həsənovun yazdığı kimi: "ermənilərin güclü təsirinə baxmayaraq, ABŞ-ın Azərbaycana münasibətdə obyektiv və beynəlxalq hüquq normalarına tam uyğun olan bir mövqedə dayandığını bir daha sübut etdi" [20, s.163]. Həmin mövqe ATƏT-in Lissabon sammiti ərəfəsində – 1996-cı ilin noyabrın 6-da ABŞ Prezidenti B.Klintonun Azərbaycan Prezidenti H.Əli-

yevə göndərdiyi məktubda Azərbaycanın ərazi bütövlüyü və münaqişənin beynəlxalq hüquq normalarına əsasən həll edilməsinin ABŞ tərəfindən dəstəklənməsinin bildirilməsi ilə növbəti dəfə sərgiləndi [18, s.38]. Elə dekabrın 2-3-də keçirilən Lissabon sammiti çərçivəsində də Azərbaycan Prezidenti H.Əliyev ilə ABŞ-ın vitse-prezidenti A.Qor və dövlət katibi U.Kristofer arasında görüşlər baş tutdu ki, burada da ABŞ tərəfindən birmənalı şəkildə Azərbaycanın suverenliyinin, ərazi bütövlüyünün və müstəqilliyinin dəstəklənməsi bildirildi [24, s.183]. M.Qasımlı və E.Hüseynova yazırlar ki, sözügedən sammitdə Azərbaycan xarici işlər naziri T.Qasımovun ABŞ dövlət xadimi C.Beyker ilə görüşü zamanı da cənab Beyker Qarabağ münaqişəsi probleminə ABŞ-ın ciddi yanaşdığını və bu istiqamətdə gərəkli addımlar atacağını bildirdi [26, s.86]. Qeyd etmək lazımdır ki, məhz Lissabon sammitindən sonra Rusiya ilə yanaşı, ABŞ və Fransa nümayəndələri də ATƏT-in Minsk qrupunun həmsədrləri təyin olundular [8, s.21; 43, s.115]. 1996-cı ilin dekabrında Azərbaycan-ABŞ münasibətlərində baş verən növbəti əlamətdar hadisə Azərbaycanda “Amerika Ticarət Palatası”nın açılması oldu [13, s.162]. Ə.Həsənov bu palatanın açılmasını ABŞ-ın Azərbaycanda fəaliyyət göstərən onlarla şirkət və birliklərinin, iş adamlarının fəaliyyətinin tənzimlənməsi və vahid bir mərkəzdən onlara istiqamət verilməsi baxımından çox böyük əhəmiyyət kəsb edən hadisə kimi qiymətləndirir [20, s.168]. Beləliklə, Vətən tarixşünaslığında 1996-cı il – Azərbaycan-ABŞ münasibətlərinin tərəfdaşlıq və əməkdaşlıq istiqamətində yüksələn xətlə inkişafı ili kimi xarakterizə olunur. A.Bəşirova ümumilikdə 1994-1996-cı illəri Azərbaycanın daxil olduğu regionun ABŞ-ın milli maraqları sferasında keçməsi, ABŞ-ın bölgənin enerji ehtiyatlarına görə böyük əhəmiyyət daşımasını realizə etməsi kimi səciyyələndirir [6, s.60].

### Heydər Əliyevin ABŞ-a ilk rəsmi səfəri və ikitərəfli münasibətlərin strateji tərəfdaşlığa doğru inkişafına Vətən tarixşünaslığında münasibət

1997-ci ilin 27 iyulundan – 6 avqustunadək Azərbaycan Prezidenti H.Əliyevin ABŞ-a ilk dəfə olaraq rəsmi səfər etməsi iki ölkə arasındakı münasibətlərdə çox mühüm tarixi hadisə oldu. Vətən tarixşünaslığında sözügedən hadisə birmənalı olaraq Azərbaycan-ABŞ münasibətlərinin zirvəsi, yeni mərhələnin başlanğıcı, dönüş anı kimi xarakterizə olunur. Belə ki, Ə.Həsənov həmin hadisənin tarixi əhəmiyyəti ilə əlaqədar yazır: “Bu səfər özünün bütün əlamət və cəhətlərinə görə tarixi əhəmiyyət kəsb etmiş və Azərbaycan-ABŞ münasibətləri tarixində yeni bir mərhələnin başlanğıcını qoymuşdur” [19, s.63]. H. Paşayev bu səfəri ABŞ-Azərbaycan münasibətlərini yeni strateji səviyyəyə qaldırmağa kömək edən hadisə kimi qiymətləndirir [38, s.125]. S.Qurbanova bu səfər ilə Azərbaycan-Amerika münasibətlərində növbəti mərhələnin əsasının qoyulması qənaətinə gəlir [42, s.22]. Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin 2013-cü ildə ərsəyə gətirdiyi “30 tarixi səfər” adlı kitabda Prezident H.Əliyevin ABŞ-a ilk rəsmi səfəri müstəqil Azərbaycan tarixinin 1993-2003-cü illəri əhatə edən on illik periodu ərzində baş tutmuş ən mühüm tarixi səfərlərdən biri kimi qiymətləndirilmişdir: “Bu səfər öz əhəmiyyətinə, keçirilən görüşlərin sayı və dəyərinə, imzalanan sənədlərin vaciblik dərəcəsinə görə, tarixi hesab olunur” [1, s.229].

Azərbaycan Prezidentinin Birləşmiş Ştatlara ilk rəsmi səfərinin ən mühüm əhəmiyyəti ondan ibarət oldu ki, rəsmi Vaşinqton, daha dəqiq desək ABŞ dövlət katibinin müavinləri S.Ayzenştadt və S.Talbott 907-ci maddənin aradan qaldırılması məsələsinə münasibət bildirərkən həmin maddənin ikitərəfli münasibətlərə xələl gətirməsi və bu baxımdan nəinki Azərbaycanın, eləcə də ABŞ-ın mənafeyinə zidd olmasını qeyd edərək Klinton hökumətinin sözügedən maddəni ləğv etməyə hazır olduğunu bəyan etdilər [19, s.64]. Həmçinin, konqresmen P.Kinq 907-ci maddənin aradan qaldırılması ilə bağlı qanun layihəsi hazırlayıb Konqresə təqdim edərkən açıq şəkildə bəyan etdi: “Bizim Qafqazda hazırkı siyasətimiz ABŞ-ın milli maraqlarına düzgün xidmət etmir. Birləşmiş Ştatlar Dağlıq Qarabağ probleminin həllinə daha ədalətlə yanaşmalıdır” [20, s.172-173]. 1 avqust 1997-ci ildə “Amerika-Azərbaycan münasibətləri haqqında birgə bəyanat” imzalandı ki, bununla da M.Fətəliyev və M.Qasımlının yazdığı kimi: iki ölkə arasındakı münasibətlərin əsas strategiyası, prinsipləri, xarakteri və perspektiv istiqamətləri müəyyənləşdirildi [16, s.57]. Rəsmi səfər zamanı ABŞ hökumətinin Xəzərin enerji ehtiyatlarının dünya bazarlarına nəql edilməsinə dair mövqeyini bəyan edərkən A.Yaqubovanın qeyd etdiyi kimi, müxtəlif yolları (Bakı-Ceyhan boru kəməri, Transxəzər neft boru kəməri, Transxəzər qaz kəməri) müdafiə etməsi iqtisadi fayda baxımdan Azərbaycan üçün böyük əhəmiyyət kəsb edirdi [41, s.77]. G.Quliyeva rəsmi səfərin nəticəsini belə təhlil edir: “Səfə-

rin mühüm nəticələrindən biri də budur ki, ABŞ ictimaiyyətində Azərbaycanın milli mənafeləri barədə düzgün və obyektiv informasiya formalaşdı, Qafqaz regionunda, MDB məkanında və Azərbaycanda baş verən hadisələr və proseslər, Azərbaycan-Amerika münasibətlərinin mövcud vəziyyəti, perspektivləri və əlaqələri çətinləşdirən məsələlər, habelə Azərbaycan geosiyasətinin əsas istiqamətləri barədə lazımi təsəvvür yarandı" [28, s.88]. Bütün bu və ya digər faktlar göstərir ki, Vətən tarixşünaslığında sözügedən hadisənin tədqiqatçılar tərəfindən Azərbaycanın ABŞ ilə münasibətlərinin zirvəsi, dönüş anı kimi səciyyələndirilməsi heç də təsadüfi deyildir.

1998-ci ildən, M.Qasımlının təbirincə desək, ABŞ-ın Cənubi Qafqaz regionunda hərbi-siyasi maraqları genişlənməyə başladı [24, s.209]. 1998-ci il oktyabrın 1-dən etibarən Azərbaycan da daxil olmaqla hər üç Cənubi Qafqaz ölkəsi ABŞ-ın Avropadakı qüvvələrinin komandanlığının cavabdehlik zonasına daxil edildi ki, bu da ABŞ-ın region siyasətinin fəallaşmasından xəbər verir. Bundan başqa, Azərbaycan-ABŞ münasibətləri iqtisadi sferada da yüksələn tendensiya ilə inkişaf etməkdə idi. Bunun nəticəsidir ki, 1999-cu ilin yanvarına qədər V.Quluzadənin "Gələcəyin üfüqləri" adlı kitabında yazdığı kimi: "ABŞ neft şirkətləri Azərbaycana 1 milyard dollardan artıq investisiya qoydular" [29, s.38].

### Nəticə

Beləliklə, XX əsrin 90-cı illərində öz müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın dünyanın yeganə fövqəldövləti olan ABŞ ilə münasibətləri 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı və Azərbaycan Respublikası Prezidenti seçilməsindən sonra son dərəcə mühüm bir mərhələyə qədəm qoymuş və bu mərhələdə iki ölkə arasındakı münasibətlərdə anlaşılmazlıqdan – strateji tərəfdaşlığa istiqamətlənən böyük dönüş baş vermişdir. Həmin dönəmdə Azərbaycan-ABŞ münasibətlərinin yüksələn tendensiyası ilə inkişafı tarixi Vətən tarixşünaslığındakı çoxsaylı araşdırmalarda – monoqrafiya, dərslik, elmi məqalələrdə və s. geniş şəkildə öz əksini taparaq mühüm tədqiqat obyekti olmuşdur ki, onların müqayisəli təhlili sözügedən problemi hərtərəfli tədqiq etmək üçün qarşımızda əlverişli imkanlar açır.

### ƏDƏBİYYAT SİYAHISI:


*1. 30 tarixi səfər: Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəsmi və dövlət səfərləri (1993-2003). Bakı, "CBS", 2013, 359 s.*

*2. Abbasbəyli A. Dünya siyasəti. Bakı, "Nurlar", 2011, 584 s.*

*3. Babanlı Y. Azərbaycan Respublikasının xarici siyasəti və diaspor fəaliyyəti (1991-2011). Bakı, "Elm və təhsil", 2016, 328 s.*

*4. Babaoğlu H. Azərbaycan beynəlxalq münasibətlərin aktoru kimi (siyasi, ideoloji və diplomatik məsələlər). Bakı, "Elm", 2007, 516 s.*

*5. Bayramova B. ABŞ-Azərbaycan münasibətləri (2001-2008-ci illər). Bakı, "Sabah", 2019, 244 s.*

*6. Bəşirova A. Azərbaycan-ABŞ münasibətləri Amerika mətbuatında ("Nyu York Tayms" qəzetinin materialları əsasında: 1991-2001-ci illər). Bakı, 2007, 190 s.*

*7. Darabadi P., Bayramova G. Azərbaycan diplomatiyasının bu günü: uğurlar, perspektivlər. Tarix və onun problemləri, № 1, 2013, s.116-121.*

*8. Əhmədov E. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: nizamlanmaya dair aparılan danışıqların nəticələri. "Geostrategiya", №2 (14), 2013, s.20-24.*

*9. Əhmədova H. NATO-nun Cənubi Qafqaz strategiyası və Azərbaycan Respublikası. Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası), №4, 2015, s.189-195.*

*10. Əliyev H. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, "Azərnəşr", 1997, 612 s.*

*11. Əliyev H. Müstəqilliyimiz əbədidir. III kitab. Bakı, "Azərnəşr", 1997, 488 s.*

*12. Əliyev H. Müstəqilliyimiz əbədidir. VI kitab. Bakı, "Azərnəşr", 1998, 512 s.*

*13. Əliyev H. Müstəqilliyimiz əbədidir. VIII kitab. Bakı, "Azərnəşr", 1998, 488 s.*

*14. Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporların rolu. Bakı, "Nurlan", 2001, 150 s.*

*15. Əzimli A. Azərbaycan-NATO münasibətləri (1992-2000). Bakı, "Adiloğlu", 2001, 226 s.*

*16. Fətəliyev M., Qasımlı M. Avropa və Amerika ölkələrinin müasir tarixi. 2 hissədə. II hissə (1945-2002-ci illər). Bakı, "Adiloğlu", 2008, 343 s.*

*17. Həbiboğlu V. Heydər Əliyev və Azərbaycan diasporu. Bakı, "Qartal", 2001, 358 s.*

*18. Həsənov Ə. Azərbaycan və ATƏT. Bakı, "İşıq", 1997, 80 s.*

*19. Həsənov Ə. Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (oktyabr 1991-avqust 1997). Bakı, "Azərbaycan Universiteti", 1997, 101 s.*

*20. Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, "Azərnəşr", 1998, 315 s.*

*21. Hüseynov Y. Ümummilli lider Heydər Əliyevin gələcəyə istiqamətlənmiş siyasi doktrinası. Akademik Tarih ve Düşünce Dergisi, 10 (1), 2023, s.356-362.*

*22. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, "Təhsil", 2004, 472 s.*

*23. Xalqa bağışlanan ömür. V kitab. Bakı, "Şəms", 2004, 428 s.*

*24. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə. Bakı, "Mütərcim", 2015, 640 s.*

*25. Qasımlı M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, "Mütərcim", 1997, 124 s.*

*26. Qasımlı M., Hüseynova E. Azərbaycanın xarici işlər nazirləri. Bakı, "Adiloğlu", 2003, 112 s.*

*27. Qasımov M., Abdullayev M. Beynəlxalq münasibətlər tarixi. II hissə (XX əsr. 1946-1999-cu illər). Bakı, "Bakı Universiteti nəşriyyatı", 1999, 450 s.*

*28. Quliyeva G. Azərbaycan yeni geosiyasi münasibətlər sistemində. Siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2010, 182 s.*

*29. Quluzadə V. Gələcəyin üfüqləri. Bakı, "Azərnəşr", 1999, 288 s.*

*30. Məmmədov Ə. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (80-ci illərin sonu-1997-ci il). Bakı, "Elm", 1999, 360 s.*

*31. Məmmədov İ., Məmmədov Ç. Azərbaycan tarixi (XX əsr-XXI əsrin əvvəlləri). Bakı, "UniPrint", 2009, 326 s.*

*32. Məmmədov N. Xarici siyasətin Azərbaycan modeli. Bakı, "Çaşıoğlu", 2012, 464 s.*

*33. Məmmədov Ş. Azərbaycan Respublikasının ABŞ-la münasibətləri: siyasi təhlil. Siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis.-nın avtoreferatı. Bakı, 2018, 25 s.*

*34. Mirbəşiroğlu E. Siyasi münaqişələr: mahiyyəti, quruluşu, həlli. Bakı, "Elm", 2009, 524 s.*

*35. Mustafayeva S. ABŞ və Böyük Britaniyanın ən yeni tarixi (1918-2007-ci illər). Bakı, ADPU-nun nəşriyyatı, 2009, 349 s.*

*36. Nəsirov E. Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər). Bakı, "Qanun", 1998, 136 s.*

*37. Novruzov S. Heydər Əliyev və Azərbaycan dövlətçiliyi. Bakı, "Elm və təhsil", 2019, 272 s.*

*38. Pashayev H. Azerbaijan-US relations: from unjust sanctions to strategic partnership. Azerbaijan in global politics. Crafting foreign policy. Baku, "Azerbaijan Diplomatic Academy", 2009, pp.109-129.*

*39. Paşayev H. Yüksəkliyə doğru. Bakı, "Azərbaycan Marketinq Cəmiyyəti", 2008, 336 s.*

*40. Rzayev M. Heydər Əliyevin xarici siyasəti və Azərbaycanın beynəlxalq uğurları. Akademik Tarih ve Düşünce Dergisi, 10 (1), 2023, s.260-269.*

*41. Yaqubova A. Azərbaycanın neft diplomatiyası: əfsanələr gerçəkləşir. Bakı, "Azərnəşr", 2004, 162 s.*

*42. Гурбанова С. Гейдар Алиев и внешнеполитический курс Азербайджанской Республики. Баку, «Şərq-Qərb», 2010, 72 с.*

*43. Маммадов И., Мусаев Т. Армяно-азербайджанский конфликт: история, право, посредничество. Тула, «Гриф и К», 2006, 192 с.*

*44. Мир-Бабаев М. Краткая история Азербайджанской нефти. Баук, "Азернешр", 2009, 376 с.*

**XÜLASƏ:**

XX əsrin sonlarında yenicə müstəqilliyini bərpa etmiş Azərbaycanın dünyanın yeganə fövqəldövləti olan ABŞ ilə münasibətləri Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə böyük qayıdışı və Azərbaycan Respublikası Prezidenti seçilməsindən sonra yeni və mühüm mərhələyə qədəm qoymuşdur. Bu mühüm hadisə nəinki ABŞ ilə münasibətlərdə, bütövlükdə müstəqil Azərbaycan Respublikasının xarici siyasətində böyük dönüş nöqtəsi oldu. Azərbaycan tarixinin sözügedən mühüm periodunda – Heydər Əliyevin ilk prezidentliyi illərində Azərbaycan-ABŞ münasibətləri Vətən tarixşünaslığında müxtəlif tədqiqatçıların çoxsaylı əsərlərində geniş şəkildə öz əksini tapmışdır. Bu tədqiqat əsərlərinin müqayisəli təhlili, habelə onlar ilə xarici tarixşünaslıq əsərləri arasında paralellər aparılması, ümumiləşdirmələr əsasında yeni nəticələr çıxarılması 1993-1998-ci illərdə Azərbaycan-ABŞ münasibətlərinin mahiyyət və xarakterini dərindən və hərtərəfli öyrənməyə imkan yaradır ki, bu da iki ölkə arasındakı münasibətlərin gələcək perspektivlərini müəyyənləşdirmək baxımından da mühüm əhəmiyyət kəsb edir.

**Açar sözlər:** *Azərbaycan, ABŞ, Heydər Əliyev, xarici siyasət, Vətən tarixşünaslığı.*

**Balamirza Mammadli**

**AZERBAIJAN-US RELATIONS DURING THE FIRST PRESIDENCY OF HEYDAR ALIYEV IN DOMESTIC HISTORIOGRAPHY**

**SUMMARY:**

The relations of Azerbaijan with the world's only superpower - the United States, have entered a new and important stage after Heydar Aliyev's return to political power and his election as the President of the Republic of Azerbaijan. This important event was a turning point not only in relations with the United States, but also in the entire foreign policy of Azerbaijan. Azerbaijan-US relations during the mentioned important period of Azerbaijan's history - in years of the first presidency of Heydar Aliyev - were widely reflected in numerous works of various researchers in Azerbaijani historiography. A comparative analysis of these research works, as well as drawing parallels between them and foreign historiographical works, obtaining new conclusions based on generalizations allows for a deep and comprehensive study of the essence and character of Azerbaijan-US relations in 1993-1998. It is also important from the point of view of determining of the future prospects for relations between the two countries.

**Keywords:** *Azerbaijan, USA, Heydar Aliyev, foreign policy, domestic historiography.*

**Баламирза Мамедли**

**АЗЕРБАЙДЖАНО-АМЕРИКАНСКИЕ ОТНОШЕНИЯ В ПЕРИОД ПЕРВОГО ПРЕЗИДЕНТСТВА ГЕЙДАРА АЛИЕВА В ОТЕЧЕСТВЕННОЙ ИСТОРИОГРАФИИ**

**РЕЗЮМЕ:**

Отношения Азербайджана с единственной сверхдержавой мира – Соединенными Штатами Америки вступили в новый и важный этап после возвращения Гейдара Алиева к политической власти и его избрания Президентом Азербайджанской Республики. Это важное событие стало поворотным моментом не только в отношениях с США, но и во всей внешней политике Азербайджана. Отношения между Азербайджаном и США в указанный важный период истории Азербайджана – в годы первого президентства Гейдара Алиева нашли широкое отражение в многочисленных работах различных исследователей азербайджанской историографии. Сравнительный анализ этих исследовательских работ, а также проведение параллелей между ними и зарубежными историографическими работами, получение новых выводов основанных на обобщениях, позволяет глубоко и всесторонне изучить сущность и характер азербайджано-американских отношений в 1993-1998 годах. Это важно и с точки зрения определения дальнейших перспектив отношений между двумя странами.

**Ключевые слова:** *Азербайджан, США, Гейдар Алиев, внешняя политика, отечественная историография.*

UOT 94 (3)
DOI:10.30546/3006-0346.2023.6.78.72

# AZƏRBAYCANIN TUNC DÖVR ŞƏHƏRLƏRİNİN İNŞAAT XÜSUSİYYƏTLƏRİ

**SELCAN HƏŞİMOVA**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Qədim dövr tarixi" şöbəsinin kiçik elmi işçisi*
*E-mail: s.hashimova@history.science.az*

**Giriş**

Arxeoloji tədqiqatların nəticəsində məlum olur ki, orta tunc dövründə yaranan qala şəhərlərimizdə yaşayan əhali sosial-ictimai cəhətdən bir neçə təbəqəyə bölünmüşdür. Çox güman ki əyanlar, varlı ailələr qala şəhərlərin daxilində, əkinçilik, maldarlıq, sənətkarlıqla məşğul olan təbəqə isə qaladan kənarda yaşayırdı. Qala tipli yaşayış məskənləri planlı şəkildə inşa olunurdu. Qala divarlarının daxilində açılan binalar bir-birindən enli, dar planlı küçələrlə ayrılırdı. Bu möhtəşəm qala sədlərinin tikintisi zamanı küllü miqdarda daş materialı sərf olunurdu. İnşa zamanı bərkidici maddə kimi gil məhluldan da istifadə edilirdi. Qalaçaların inşasında iki səbəb ola bilərdi: hərbi yürüşlər zamanı müdafiə olunmaq məqsədi və təbii fəlakətlər zamanı (sel, güclü yağış) mal-qaranı qorumaq. Qala divarları boyunca hündür zirvələrdə dairəvi və düzbucaqlı formalı bürclər - gözətçi məntəqələri də tikilirdi. Təqdim olunan məqalədə Azərbaycan ərazisində mövcud olmuş ilk siklopik tikili mərkəzlərinin (qalaça) strateji əhəmiyyəti, memarlıq xüsusiyyətləri və inşaat xüsusiyyətləri təhlil edilir. Orta tunc dövrünün şəhərsalma mədəniyyətində baş verən yeniliklərdən biri məzarlıqların yaşayış yerindən kənarda salınması idi. Şəhərsalma mədəniyyətinin ilk dövründə şəhərin müdafiə divarı ilə əhatələnməsi vacib şərt olmamışdır. Məsələn, Narmerin şifer-plitəsindəki təsvirlərdən görünür ki, Misirin Yuxarı və Aşağı hissələrinin birləşdirilməsi ərəfəsində (e.ə. IV minilliyin sonu) Nilin deltasında qala divarlarına bənzər müdafiə səddi olan şəhərlər (Memfis, Abidos, Tin, Buxan) mövcud olmuşdur. Misirin ilk möhkəmləndirilmiş paytaxt şəhəri I Amenemhet tərəfindən təqribən e.ə. 2000-ci ildə Memfisin yaxınlığında salınmışdır. Azərbaycanın qədim yaşayış məntəqələrinin və şəhərlərinin meydana gəlmə səbəbləri ümumən Ön Asiyanın məskənləri ilə eynilik təşkil etsə də, inkişaf modelinə görə fərqlənirdi.

Dəmirin kəşfi və emalının texnoloji sirlərinin mənimsənilməsi cəmiyyətin ictimai həyatını köklü surətdə dəyişdirdi. Dəmirlə bağlı dövrləşmənin bütün mərhələlərini Urmiya hövzəsində (Həsənlinin V-III, Dinhətəpənin III-II, Həftəvantəpənin V-IV, Kordlartəpənin IV, Göytəpənin “B” və Əqrəbtəpənin, Yanıqtəpənin, Bəstamın eyni dövr təbəqələri) arxeoloji nümunələrlə izləmək mümkün olub [10, s.80-88]. Azərbaycanın Arazdan şimaldakı torpaqlarında da bu dövrə aid kifayət qədər abidələr tapılıb və tədqiq olunub [1, s.155-165]. Bu dövrün mühüm artefaktları nəinki dəmir filizi yataqları ilə zəngin yerlərdə (Xocalı, Gədəbəy, Naxçıvan, Talış, Muğan bölgələrində), hətta kənar ərazilərdə – Qazaxda (Sarıtəpə, Töyrətəpə, Şomutəpə, Yastıtəpə, Baba dərviş), Şəmkirdə (Seyfəli, Bitdili, Şiştəpə), Ağcabədidə (Üçtəpə), Naxçıvanda (Qızılvəng, Qızılburun, Oğlanqala), Ağdamda (Şıxbabalı), Qarabağda (Füzulidə Qarabulaq), Daşkəsəndə (Xaçbulaq), Biləsuvarda (Qaratəpə) və digər qədim yaşayış yerlərində aşkar olunub. Xocalı-Gədəbəy mədəniyyəti üçün səciyyəvi olan artefaktlar Naxçıvan diyarında da (Yurdçu, Şahtaxtı, Culfa və Qızılburun nekropolları) aşkar olunub. Xocalı-Gədəbəy mədəniyyəti abidələrinin vahid bir etnosun iqtisadi-mədəni səviyyəsinin göstəricisi olduğu şübhəsizdir.

Azərbaycanın şəhərləri, xüsusən Urmiya gölü hövzəsindəki strateji əhəmiyyətli yaşayış yerləri və qalalar bu dövrdə Elam, Aşşur və Urartu kimi güclü dövlətlərin dağıdıcı yürüşlərinin hədəfinə çevrilir, hökmdar salnamələrində və hərbi xronikalarda xatırlanmağa başlayır. E.ə. XII əsrin ikinci yarısında Aşşur dövlətinin zəifliyindən istifadə edərək Elam hökmdarı Şilhak-İnşuşinak (e.ə. 1150-1120-ci illər) Cənubi Urmiya hövzəsinə, Kiçik Zab və Diyala çaylarının yuxarı axarındakı ərazilərə irimiqyaslı hərbi yürüş təşkil edir. Onun "Qələbə stelası" üzərindəki mətnində vaxtı ilə Aşşurun nəzarəti altında olan Bit-Nappahi (“Dəmirçilər evi”), Bit-Nanqari və Şa-Nanqari (“Dülgərlər evi”) kimi sənətkarlıq mərkəzlərinin, Tintu (akkadca dimtu “gözətçi məntəqəsi), Bit-İştar (“İlahə İştarın evi”), Bit-tazak-sunkir, Bit-barbari, Bit-tamteya (akkadcadan tərcümədə “Dəniz evi”, “Liman”), İşirtu (e.ə. IX-VII əsrlərdə Manna dövlətinin paytaxtı İzirtu) və digər qala-şəhərlərin işğalından bəhs olunur [13, s.244-245]. E.ə. VI əsrin əvvəlində əsasən qutilərin məskunlaşdığı bu şəhərlər Mada imperiyasının tərkibinə qatılmışdır.

Aşşur mənbələri Son Tunc-Erkən Dəmir dövründə qutilərin qərb qolunun siyasi qurumu olan Kutmuhidə (Şərqi Anadoluda, Tur-Abdin dağı bölgəsində) qala-şəhərlərin alınmasına dair xəbərlər verilir. Onlardan Şereşe qalası e.ə. 1110-cu ildə Aşşur işğalına qarşı müqavimət göstərən tayfa birliklərinin əsas dayaq məntəqəsi idi. Bu qalada quti, muşk, babhi (hurricə "dağlı") etnik qruplarının hərbi birləşmələri I Tiqlatpalasarın ordusunun hücumunun qarşısını almağa təşəbbüs göstərmiş, lakin məğlub olmuşlar [11, s.14-15]. Qala antik dövr yunan mənbələrində Σαρεισα formasında qeydə alınıb və indiki Həsənkeyf məntəqəsindən 15 km cənub-qərbdə lokalizə olunur [14, s.303; 7, s.244]. Şereşe şəhərinin adı yerli dildə konkret tikili ilə (qala, saray, məbəd və s.) bağlı olmuşdur; Mannanın Zurz-ukka/Durd-ukka, Urartunun şərqindəki (Şimali Urmiya hövzəsi) Sanqibutu əyalətinin Surzi, Surzi-aldu ("Tanrı Haldinin evi"?) yaşayış məntəqələrinin [4, s.36, 77], eləcə də indiki Ermənistan respublikasının ərazisindəki Eneolit-Tunc dövrlərinin yaşayış yeri olan Şreş-blurun adı ilə müqayisə oluna bilər. Etimoloji baxımdan Şereşe toponimi biayni dilindəki šerši-ni "örüş", "otlaq" və ya šereše "əcdad", "baba" (yəni "qədim şəhər" mənasında) [8, s.461, 463] sözləri əsasında izah oluna bilər.

Son Tunc-Erkən Dəmir dövründə (e.ə. XV-IX əsrlər) Xocalı-Gədəbəy mədəniyyəti Azərbaycan Respublikasının qərb bölgələrinin dağlıq hissəsini bütünlüklə əhatə etmişdir. Bu mədəniyyət üçün səciyyəvi sayılan amillər sırasında iri ölçülü yaşayış məskənlərinin sayının azalması, yeni tipli müdafiə məntəqələrinin (qala və qalaçalar) inşası nəzərə çarpır. Yaşayış yerlərinin əksəriyyəti Gəncə-Qazax zonasının payına düşür: Seyfəli və Bitdili (Şəmkir rayonunda), Babadərviş, Sarıtəpə, Yastıtəpə, Nadirbəytəpəsi, Yuxarı Göyçəli və s. (Qazax rayonunda). Analoji məskənlər Mingəçevirdə, Ağcabədi rayonunda (Üçtəpə), Ağdam rayonunda (Şıxbabalı kəndində sahəsi 6 ha olan Qaratəpə), Naxçıvanda (I və II Kültəpələr) və digər yerlərdə aşkara çıxarılıb. Yaşayış məntəqələrinin çoxunun 1-1,5 ha ərazidə salınması onların müvəqqəti və ya qısamüddətli olduğundan xəbər verir. Onların bəzilərində (Babadərviş, Sarıtəpə, Töyrətəpə və s.) yanğın və dağıntılar qeydə alınıb. Hərbi qarşıdurmalar adi hal aldığından kiçikölçülü məntəqələrin də müdafiə divarı və ya istehkam qurğuları ilə əhatəyə alınması zərurətə çevrilmişdir [1, s.147-149].

Bu dövrün 1 ha sahəsi olan Sarıtəpə yaşayış yerində dini ayinlərin icrası üçün məbəd inşa edilmişdir. Məbədin otaqlarının birinin döşəməsinə 1 m hündürlüyü olan 15 küp basdırılmışdır; onlarda taxıl, üzüm və ərik tumları aşkarlanıb. Məbədin ətrafında tikilmiş evlərdən birinin uzunluğu 7,5 m, eni 5 m-dir (ümumi 37,5 $m^2$). Evin mətbəxi yaşayış hissəsindən möhrə divarla ayrılmış, dairəvi formalı gil ocaqla təchiz olunmuşdur [1, s.149-151].

Çaylı kəndi ərazisindəki Sarvantəpədə tikililər dairəvi və dördkünc formalıdır, bəzi evlər yarımqazmadır; onlarda ocaq qurğuları, irihəcmli küplər, daş alətlər, dulus sobaları, təsərrüfat quyuları, dəmir ox ucluqları və s. tapılıb. Burada yaşayış bir neçə əsr davam etsə də məskənin ölçüsü 3 ha-dan böyük deyil [12, s.240-264].

Naxçıvan şəhərindən 22 km şimal-qərbdə, Cəhriçayın sağ sahilində hündür təpə üstündə Çalxanqala qalası salınmışdır. Çalxanqala üç tərəfdən təbii müdafiə ilə əhatə olunduğundan yalnız cənub tərəfdən müdafiə divarına malikdir. Divarlarının qalınlığı 3 metrə çatan bu siklop tikili iri tayfa ittifaqlarından birinin əsas müdafiə qalası olmuşdur [6, s.189].

E.ə. II minilliyin sonlarında Ordubad rayonu ərazisində, Gilançayın mənsəbində müdafiə divarları ilə möhkəmləndirilmiş Sumbatan-Dizə şəhəri mövcud olmuşdur. Bəzi qalalar (Qazançı, Vayxır Govurqalası, Çalxanqala, Qarabağlar Govurqalası) iki cərgə daşlarla hörülüb, digər qalalar (Əznəbürd, Oğlanqala) bir cərgə 3m x 1m ölçüsündə daşlarla əhatələnib [2, s.151-153; 3, s.131-132].

E.ə. II minilliyin sonunda Azərbaycanın qərb bölgələrində Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti üçün səciyyəvi olan yeni tip tikililər (onların bəziləri yaşayış yeri olmuşdur) meydana gəlir. Yonulmamış iriölçülü daş bloklardan bərkidici məhlul olmadan yaradılan hörgüləri qədim "siklop (və ya siklopik) tikililər" adlandırırdılar, azərbaycanlılar ənənəvi olaraq bu tip tikililərə "qalaçalar" deyirlər. Mədəni təbəqələrinin qalınlığı baxımından siklop tikililəri 3 qrupa bölürlər:

a) mədəni təbəqəsinin qalınlığı 1,2-2 m olanlar; onlardan adətən yaşayış yeri kimi istifadə olunurdu,

b) mədəni təbəqəsinin qalınlığı 0,5 - 0,8 m olanlar; onlar bəzən güclü müdafiə divarı ilə əhatələnirdi,

c) mədəni təbəqəsi olmayanlar; onlar ilin müəyyən vaxtlarında mal-qaranın saxlanması məqsədilə tikilirdi [9, s.55-57].

İlkin mərhələdə qala şəhərlərin inşası iki zərurətlə bağlı olmuşdur: hərbi əməliyyatlar zamanı insan-

ların müdafiəsini təmin etmək və yaylaq maldarlığı ilə əlaqədar mal-qaranın təbii fəlakətlərdən (sel, dolu, şiddətli yağış) qorumaq. Təsadüfi deyil ki, məhz sonuncu amil Azərbaycanın qərb bölgələri üçün indi də xarakterikdir. Nəzərə almaq lazımdır ki, bu bölgə mülayim iqlim qurşağında, dəniz səviyyəsindən 600-1500 m hündürlükdə, mal-qaranı yemlə təmin edən alp çəmənliklərdə, təbii müdafiəsi olan yerlərdə inşa edilirdi. Yaşayış yeri kimi istifadə olunan qalaçalarda aparılmış arxeoloji qazıntılardan müəyyən olunub ki, onların sakinlərinin təsərrüfatında əsas məşğuliyyət sahəsini xırdabuynuzlu heyvanların saxlanması təşkil edirdi. Azərbaycanın ən qədim siklop tikilisi Qobustandakı Dairə e.ə. III minilliyin sonuna aid edilir; burada 30-40 sm-lik mədəni təbəqə aşkara çıxarılmışdır [13, s.28-30]. E.ə. II minilliyin sonunda qalaçaların inşasına ehtiyac bölgədə hərbi-siyasi vəziyyətin gərginliyi ilə bağlı olmuşdur; hər bir icma qəbilələr və tayfalararası baş verən hərbi münaqişələrdən qorunmaq üçün mümkün vasitələrdən biri kimi möhkəm tikililərin inşasında maraqlı idi. Naxçıvanın və Urmiya hövzəsinin yaşayış yerləri və qalaları e.ə. IX əsrin sonundan Urartu hökmdarlarının hərbi planlarında mühüm hədəfə çevrilir; bəzi məskənlər urartuluların yaratdıqları əyalət sisteminə qatılır, bəzilərinin sərvəti talanaraq xarabalığa çevrilir.

### Nəticə

Beləliklə, arxeoloji və yazılı ilk mənbələrin tədqiqi göstərir ki Azərbaycanda və qədim etnoslarımızın birgə məskunlaşdığı həmhüdud ərazilərdə şəhərsalma ənənələri mühüm mərhələdən keçmişdi. Minillikləri əhatə edən bu böyük tarix Azərbaycanın müxtəlif ərazilərində fərqli cəhətlərlə davam etmişdir. Neolit dövründə fərdi təsərrüfatların yaranması ilə başlayan mədəni inqilab urbanizasiya proseslərinin formalaşmasına səbəb olmuş və qala-şəhərlərinin yaranması ilə nəticələnmişdir.

### ƏDƏBİYYAT SİYAHISI:


1. *Azərbaycan tarixi 7 clddə. I cild (ən qədimdən-b.e. III əsri). Bakı: Elam, 1998. 477 s. + 4 xəritə + XXXVI tablo.*

2. *Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008. 301 s.*

3. *Əliyev V., Bağırov B. Naxçıvanın qədim qala şəhərləri. Bakı: Elm, 2012. 191s.*

4. *Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə (Tərtib və tərcümə edəni, ön sözün və şərhlərin müəllifi S.Qaşqay). Bakı: Təhsil, 2006. 147 s.*

5. *Muradova F.M. Qobustan Tunc dövründə. Bakı: Elm, 1979. 117 s.+illüstrasiyalar.*

6. *Seyidov A.Q. Naxçıvan e.ə. VII-II minilliklərdə. Bakı: Elm, 2003. 338 s.*

7. *Арутюнян Н.В. Топонимика Урарту. Ереван: Издательство АН Арм. ССР., 1985. 307 с.*

8. *Арутюнян Н.В. Корпуск урартских клинообразных надписей. Ереван: Издательство «Гитутюн» НАН РА, 2001. 542 с. 183 табл.*

9. *Пиотровский Б.Б. Развитие скотоводства в древнейшем Закавказье // СА., 1955, том 23, с.5-15.*

10. *Талаи Х. Археология и искусство Ирана в I тыс. до н.э. Москва: Вече, 2011.223 с.*

11. *Grayson A. K. The Royal Inscriptions of Mesopotamia. Assyrian Periods. Vol. 2. Assyrian Rulers of the Early First Millenium BC (1114-859 BC). University of Toronto Press, 1991, 425 p.5*

12. *Najafov Sh. N. The Khojali-Gedabey cultural cite – the Sarvantepe settlement/ Проблемы археологии Кавказа и Передней Азии. Баку, 2017, s.240-264.*

13. *Potts D.T. The archaeology of Elam. Formation and transformation of an ancient Iranian state. Cambridge Universiyu press, 1999. 480 p.*

14. *Streck M. Das Gebiet der heutigen Landschaften Armenien, Kurdistan und Westpersien nach den babylonisch-assyrischen Keilinschriften // ZA, Band XV, 1901 ss.257-382.*


### XÜLASƏ


Arxeoloji tədqiqatların nəticələri göstərir ki, orta tunc dövründə mövcud olmuş qala şəhərlərində yaşayan əhali sosial tərkib olaraq bir neçə təbəqəyə bölünürdü. Çox güman ki, varlı ailələr qala şəhərlərinin daxilində, kənd təsərrüfatı, maldarlıq, sənətkarlıqla məşğul olan əhali isə qalaların xaricində yaşayırdı. Qala şəhəri bu sxemə görə hazırlanmış bir yaşayış məskəni idi. Bir-birindən daha dar, planlı küçələrlə ayrılmış məskənlər qala divarlarının içərisində yerləşirdi. Bu möhtəşəm istehkamların inşası zamanı kifayət qədər çox daşdan istifadə edilirdi. İnşaat işləri zamanı gildən möhkəmləndirici material kimi istifadə edilirdi. Qalaların tikilməsində əsas məqsəd hərbi xarici hücumlardan müdafiə və təbii fəlakətlər zamanı heyvandarlığın qorunması (daşqın, güclü yağış) idi. Yüksək zirvələrdə dairəvi və düzbucaqlı formalı qüllələr-gözətçi məntəqələri qala divarlarını əhatə edirdi. Təqdim olunan məqalənin məqsədi Azərbay-

can ərazisində mövcud olmuş ilk siklopik tikililərin (qalaça) strateji əhəmiyyətini, memarlıq və tikinti xüsusiyyətlərini təhlil etməkdir.

**Açar sözlər:** *tunc dövrü, qala-şəhərlər, siklopik tikililər, arxeologiya.*

**SUMMARY**
**The construction features of bronze age cities in Azerbaijan**
**Hasimova S.**

The results of Archaeological investigations present that the population living in our fortress-cities, formed in the Middle Bronze Age, are socially divided into several social classes. Most likely, the gentles, wealthy families had lived within the fortress cities and the population who worked in agriculture, cattle-breeding, handicrafts lived outside the castle. A castle town was a settlement built according to the scheme. The construction separated from each other by narrower, planned streets were opened inside of the walls in the castle. During the construction of these magnificent fortifications, a large amount of stone material was consumed. Clay mortar was also used as a reinforcing material in the construction. In the construction of the fortresses, there could be two reasons: the purpose of defense during the military march and the preservation of livestock during natural disasters (flood, heavy rain). A circular and rectangular shaped towers-guard points were also constructed on high peaks along the fortress walls. The presented article aims to analyze the strategic importance, architectural, and construction features of the first cyclopic buildings (galacha) in the region of Azerbaijan.

**Key words:** *Bronze Age, castle-cities, Cyclopean buildings, archeology.*

**РЕЗЮМЕ**
**Особенности строительства городов бронзового века в Азербайджане**
**Хашимова С.**

Результаты археологических исследований показывают, что население, проживающее в наших городах-крепостях, сформировавшихся в эпоху средней бронзы, социально разделено на несколько социальных классов. Скорее всего, дворяне, зажиточные семьи жили в пределах крепостных городов, а население, работавшее в сельском хозяйстве, скотоводстве, ремеслах, проживало за пределами замка. Город-замок был поселением, построенным по этой схеме. Постройки, отделенные друг от друга более узкими, спланированными улицами, были открыты внутри стен замка. При строительстве этих великолепных укреплений было израсходовано большое количество каменного материала. Глиняный раствор также использовался в качестве армирующего материала в строительстве. При строительстве крепостей могло быть две причины: цель обороны во время военного похода и сохранение скота во время стихийных бедствий (наводнения, сильные дожди). На высоких вершинах вдоль крепостных стен также были построены круглые и прямоугольные башни-сторожевые пункты. Целью представленной статьи является анализ стратегического значения, архитектурных и строительных особенностей первых циклопических сооружений (галача) в регионе Азербайджана.

**Ключевые слова:** *Бронзовый век, города-крепости, циклопические сооружения, археология.*

UOT 94 (479.24)
DOI:10.30546/3006-0346.2023.6.78.76

# AZƏRBAYCANDA DƏMİR YOLU VƏ RABİTƏNİN İNKİŞAF TARİXİ (1969-1982)

**İLQAR ABDULLAYEV**
*Tarix üzrə fəlsəfə doktoru, Əməkdar müəllim, Bakı Dövlət Universiteti "Azərbaycan tarixi" (Humanitar fakültələr üçün) kafedrasının doktorantı*
*E-mail: ilqar.heyderoglu@mail.ru*

Xəzər və Qara dənizi birləşdirən Zaqafqaziya Dəmir Yolunun baş magistralı Batumi – Bakı – Tiflis xəttinin çəkilişi 1883-cü ildə başa çatdırıldıqdan beş il öncə 1878-ci ildə uzunluğu 20 km. olan Suraxanı – Sabunçu xəttinin inşası başlanmış və 1880-cı il yanvarın 20-də başa çatdırılmışdır. Bu tarix Azərbaycan Dəmir Yolunun yaranması günü hesab olunur. O vaxtdan ötən 143 il ərzində Azərbaycan Dəmir Yolu fədakar, zəhmətkeş AZƏRBAYCAN İNSANININ zəhməti, əziyyəti hesabına hazırda keçmiş SSRİ məkanında ən öncül və inkişaf etmiş dəmir yollarından biri hesab olunur.

Azərbaycan Dəmir Yolunun ən parlaq inkişaf dövrü Ulu Öndərimiz Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrə təsadüf edir. Belə ki, bu illərdə istehsalatda əsas fəaliyyətlə yanaşı, 14300 texniki yeniləşmə metodları tətbiq edilmiş və bunlar dəmir yolunun bütün sahələrini əhatə etmişdir [1,səh.9].

1969-cu ilə qədər olan dövrdə bütün SSRİ miqyasında dəmir yolları sistemində elektrikləşmə, müasir rabitə, və işarəvermə, elektrik dartı qüvvəsinin tətbiqi, müasir təmir bazalarının tikintisi, lokomotiv və vaqon parklarının yeniləşməsi, əlavə dəmir yolu xətlərinin çəkilişi, stansiyaların texniki inkişafı sürətlə həyata keçirilirdi. Azərbaycan Dəmir yolu isə heç də bu proseslərlə tam ayaqlaşa bilmir, ümumi inkişaf fonunda qabaqcıllar sırasına aid edilmirdi. Çünki o vaxtkı dövrdə sənayesi bir o qədər də inkişaf etməmiş Azərbaycan aqrar respublika simasında olaraq qalırdı və dəmir yolunun inkişafına da bu müstəvi üzərində baxılmalı idi.

Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi ilə hər şey kökündən dəyişildi. Belə ki, sənayenin bütün sahələrində inkişaf, çiçəklənmə adi gözlə də görünürdü. Təbiidir ki, bu inkişaf sənayenin ən aparıcı sahəsi olan dəmr yolunun inkişafında da öz inikasını tapmalı idi. Belə ki, sənaye sahəsində istehsal edilən məhsulların daşınması üçün sözsüz ki, ilk növbədə dəmir yolları şəbəkəsinin geniş miqyasda inkişafı tələb olunurdu. Buna görə də H.Əliyevin dəmir yollarına verdiyi əhəmiyyət tezliklə özünü göstərdi.

Öncə qeyd edilməlidir ki, dəmir yolları üçün ən əsaslı sayılan yol təsərrüfatının və stansiyaların inkişafı ön plana çəkildi. Bunu gündən - günə artan yük həcmi və bununla əlaqədar yolun buraxılış qabiliyyətinin gücləndirilməsi zərurəti kəskin şəkildə tələb edirdi. Qeyd etmək yerinə düşərdi ki, bu dövrdə baş yolların istismar uzunluğu 1835,3 km-dən 2117,3 km-ə, uzunluğu isə 2486,8 km-dən 2943,5 km-ə çatdırıldı. Stansiya yollarının ümumi uzunluğu 954 km.dən 1343,5 km-ə qədər artırıldı. P-43 və P-50 tipli relslərdən ibarət bu yollarda 1969-cu ildən başlayaraq 2416,8 km uzunluğunda P-65 tipli relslər qoyularaq yollar tam yeniləşdirildi. Bununla bərabər 4372 ədəd yeni yoldəyişdirici quraşdırıldı [1,səh. 20].

Yeni xətlərin çəkilişi ilə yanaşı, 3733 km yolda əsaslı, 2818 km. yolda orta təmir işləri görülmüşdür. Bu müddət ərzində 308 ədəd yeni körpü tikilmiş və bunların sayı 1939 – a çatdırılmışdır. 30 körpüdə aşırımlar dəyişdirilmişdir. Yol təsərrüfatına aid olan və Avropa Birliyi tərəfindən maliyyələşdirilən Poylu və Tovuz körpülərinin əsaslı rekonstruksiyası və yenidən tikilməsi, Avropa – Qafqaz – Asiya dəhlizinin üzərində yerləşən bu qurğuların sürətlə bərpa edilməsi də məhz Heydər Əliyevin şəxsi səyi və təşəbbüsü ilə mümkün olmuşdur.

Yol təsərrüfatında 228 saylı Kürək-çay, 260 saylı Mincevan yol – maşın stansiyalarının təşkili, Şəmkir karxanasında illik gücü 400 min m$^2$ olan səyyar daşdoğrayan çeşidləyici qurğunun (PDSU) quraşdırılması da bu dövrə aiddir.

Danışdığımız dövrdə Güzdək stansiyasında sərnişin vaqonlarının ehtiyatda saxlanılması üçün 14 yoldan ibarət park tikilmiş, yolun torpaq yatağının yuyulduğu Lənkəran- Astara, Danba –Pirallahı, Bilgəh – Yeni Suraxanı sahələrindəki 36 km. ərazidə irimiqyaslı əsaslı sahil – bərkitmə işləri aparılmışdır.

Azərbaycan Dəmir Yolunda stansiya təsərrüffatının tikintisi və inkişafı ən önəmli yer tutur. Əgər 1969-cu ilə qədər dəmir yolunda 159 stansiya vardısa, indi bunların sayı 176-ya çatdırılmışdır. Bu dövrdə 17 yeni stansiya tikilib istismara verilmişdir. Bunların sırasında Dübəndi, Şirvan, Güzdək – neftdoldurma kimi nəhəng stansiyalar və yeni xətlər təkcə dəmir yolu üçün yox, bütövlükdə respublika və Cənubi Qafqaz regionu üçün xüsusi əhəmiyyət kəsb

edən əlamətdar hadisələr kimi tarixə yazılmışdır.

1980-ci ildə H.Əliyevin şəxsi təklifi ilə Şirvan çeşidləmə stansiyasının tikintisinə başlanıldı. Bu stansiya təkcə Azərbaycanda yox, həm də o zamanlar üçün bütün SSRİ Yollar Nazirliyi səviyyəsində ən böyük çeşidləmə stansiyalarından biri oldu. O zaman SSRİ üçün son dərəcə əhəmiyyətli olan bu stansiyanın sutkada 60 cüt qatarı qəbul edib – göndərmək imkanı var idi [1,səh. 21].

Respublikanın şimal – qərb zonasında yaşayan əhalinin həyat şəraitinin yaxşılaşdırılması, həmçinin bu regionun iqtisadi inkişafında son dərəcə önəmli hadisələrdən biri olan Yevlax – Balakən dəmir yolu xəttinin 1980-ci ildən başlanan tikintisi olmuşdur.

Çətin dağlıq relyefi olan bu sahədən keçən 165 km.-lik dəmir yolu xəttinin tikintisi zamanı 6 yeni stansiya və vağzal binaları (Balakən, Zaqatala, Qax, Şəki, Səbuhi, Xanabad), yaşayış evləri, uşaq bağçası, məktəb binası inşa edilmiş və bütün tikinti işləri 1985-ci ildə başa çatdırılmışdır [1,səh.21].

Həmçinin, 1970-ci illərin sonlarında uzunluğu 26 km. olan Ağdam – Xankəndi dəmir yolu xəttinin də Ulu Öndərimizin təşəbbüsü və rəhbərliyi ilə tikilməsinə başlanılmış və 1977 – ci ildə istifadəyə verilmişdir. Bu dövrlərdə Ələt – Astara, Naxçıvan – İmişli və digər sahələrdəki stansiyalarda yoldəyişdirici və işarəvermə qurğuları tam dispetçer mərkəzləşməsinə qoşulmuşdur.

1969 – 1982-ci illər dəmir yolunda sərnişin daşınma işinin əsl inkişaf dövrü hesab olunur. Dəmir yolu stansiyalarının rekonstruksiyası və tikintisi ilə yanaşı, burada yeni müasir tipli vağzal binalarının inşası sürətlə aparılırdı. 1970 –ci illərdə Sumqayıt – şəhər, Sabunçu, Göran, Ağstafa, Şirvan, Ucar, Gəncə, Tovuz, Qazax, Kürdəmir, Baş Ələt, Poylu stansiyalarında yeni vağzal binaları məhz Ulu Öndərin şəxsi nəzarəti altında tikilmişdir [1,səh.27].

Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gələndən sonra Daşburun, Horadiz, Bərdə, Ağdam, Xankəndi stansiyalarında da müasir tipli vağzal binaları, eləcə də Culfa stansiyasında xaricdən gəlib –gedən sərnişinlər üçün yeni vağzal binası və qonaq evləri tikilib istifadəyə verilmişdir ki, bu faktlar da onun dəmir yolları şəbəkəsinin genşləndirilməsinə necə əhəmiyyət verdiyini təcəssüm etdirir. 1970-ci illərdə respublikamıza sərnişin axını güclənmişdi. Bu da şübhəsiz ki, respublikamızda o dörlərdə olan ümumi iqtisadi inkişafla bağlı idi. Ona görə də respublikamızda yeni müasir tipli vağzalın tikilməsinə ciddi ehtiyac yaranmışdı. Buna görə də 1978-ci ildə yeni Bakı sərnişin vağzalı kompleksi tikilib istifadəyə verildi.

1960-cı illərdə dəmir yolunun lokomotiv parkının imkanları olduqca aşağı səviyyədə idi. Buna görə də respublikada yüklərin əksər hissəsi Şimali Qafqaz və Zaqafqaziya dəmir yoluna (Gürcüstan) məxsus lokomotivlərlə daşınırdı. Həmin lokomotivlər Şimaldan Biləcəri stansiyasına qədər, Qərbdən isə Ucar stansiyasına qədər hərəkət edirdi [1,səh.30]. Ümumiyyətlə götürdükdə, bu dövr keçmiş SSRİ dəmir yollarında paravoz və teplovozların müasir tipli elektrovozlarla əvəz olunması illəri idi.

1969-1970-ci illərdə Bakı – Ucar sahəsi elektrikləşdirildikdən sonra Azərbaycan dəmir yolunda artan yük dövriyyəsini təmin etmək üçün artıq tələbatı ödəməyən teplovozların daha güclü lokomotovlərlə əvəz edilməsinə kəskin ehtiyac duyulurdu.

1971-ci ildə Heydər Əliyevin SSRİ hökumətinə müraciətindən sonra Azərbaycan Dəmir Yoluna 3660 Kvt və ya 5712 at gücünə malik VL8,VL10, VL 15, VL 22 seriyalı elektrovozlar gətirildi və nəticədə dəmir yolunun istismar işinin səviyyəsi, qatarların orta çəkisi və sürəti artdı. Hərəkət cədvəlinə əməl olunması təmin edildi, dəmir yolunun iqtisadi göstəriciləri yaxşılaşdı [1,səh.32].

1970-ci ildən başlayaraq şəhərətrafı elektrik qatarları müasir tələblərə cavab verən, yeni seriyalı EP2 elektrik qatarları ilə əvəz edilməyə başlandı. Yeniləşmə prosesi 1982-ci ilə qədər davam etdi. Həmin illərdə 75 seksiya EP2 seriyalı elektrik qatarı alındı.

Bu dövrdə stansiyalarda çeşidləmə işləri üçün müasir teplovozlara kəskin ehtiyac duyulurdu. Bununla əlaqədar, 1969-cu ildən başlayaraq, 1987-ci ilə qədər 1200 at gücünə malik 100-dən çox yeni TEM2 seriyalı teplovozlar alındı. Bundan başqa, Azərbaycan Dəmir Yolu daha müasir – Çexoslovakiyada istehsal olunmuş 1350 at gücündə 50 ədəd ÇME3 seriyalı teplovozlarla təmin olundu.

Azərbaycan Dəmir Yolu inkişaf etdikcə lokomotoiv parkının yeniləşməsi prosesi aydındır ki, davam etdirilirdi.

Belə ki, sonrakı illərdə İmişli –Mincivan –Culfa, Yevlax – Balakən sahələrində işlədilməsi nəzərdə tutulan 6000 və 9000 at gücünə malik 22 ədəd 2 TEİOM, 24 ədəd 3TEİOM seriyalı teplovozlar və 4600 Kvt (6256 at qüvvəsi) gücə malik olan və müasir tələblərə cavab verən 40-dan çox VLİM seriyalı elektrovozlar alındı [1,səh.33].

Yeni lokomotivlər və elektrik qatarları alındıqca, depolarda təmir texnologiyasının inkişaf etdirilməsi üçün rekonstruksiyalar aparılmış və yeni sexlər tikilib istifadəyə verilmişdir.

1978-1979-cu illərdə Biləcəri lokomotiv deposunda elektrovozların cari təmiri üçün elektrovoz sexi inşa olunmuşdu. Bu sexlər isə lokomotivlərin təmirdə boş dayanmasını azaltmaq məqsədinə xidmət edirdi.

1979-1982-ci illərdə Gəncə loko boş dayanmanı deposunda yeni elektrovoz sexi tikilib istifadəyə verilmişdir.

1979-cu ildə sutka ərzində 60 ədəd elektrovoza texniki baxış keçirməyə imkanı olan Şirvan dövriyyə deposu tikilmiş, bununla da texniki baxışda boş dayanmanın vaxtı xeyli azalmışdır.

Azərbaycan Dəmir Yolunun vaqon təsərrüfatının inkişaf illəri 1969-cu ildən sonra başlanmışdır. Belə ki, 1969-cu ilədək vaqon təsərrüfatı cəmi 2 vaqon deposu və bir yuyucu – buxarlayıcı stansiyadan ibarət ibarət olduğu halda, 1982-ci ildə artıq 9 vaqon deposu və I yuyucu – buxarlayıcı stansiya fəaliyyət göstərirdi.

Keçmiş SSRİ respublikalarının cəmi bir neçəsində konteynerlərin təmiri üzrə depo olduğu halda, 1975 –ci ildə Bakıda konteynerlərin təmiri üzrə ixtisaslaşmış müasir texnologiyalı depo tikilib istifadəyə verilmişdir. Bu deponun tikilməsi və istifadəyə verilməsi ilə cari ilin plan üzrə 10300 və əsaslı plan üzrə 3600 universal konteynerlərin təmiri üçün şərait yarandı və 35 nəfər ixtisaslı mütəxəssis işlə təmin olundu.

Azərbaycan Respublikası kənd təsərrüfatı məhsulları istehsal edən zəngin ölkə olmasına baxmayaraq, dəmir yolunda o vaxt texniki cəhətdən zəif, cəmi 37 ədəd refrijatoru istismar edən vaqon deposu fəaliyyət göstərirdi. Ələt refrijator və Gəncə vaqon depolarında yük vaqonlarının, həmçinin refrijator seksiyalarının əsaslı təmir texnologiyası tətbiq edilmişdi.

Bu depolarda vaqonların təmirinin aparılması nəticəsində 3 il ərzində 2 mln. –dan artıq Amerika dolları məbləğində vəsaitə qənaət olunmuşdur.

Azərbaycan Dövlət Dəmir Yolunun İşarəvermə və rabitə təsərrüfatı da son illər texniki tərəqqi yolu keçmişdir. Dəmir yolunun bir çox sahələrində avtoblokirovka, yoldəyişən və siqnalların elektrik mərkəzləşməsi, dispetçer mərkəzləşməsi qurğuları quraşdırılmışdır. Hal - hazırda Azərbaycan Dəmir Yolunun 2117,6 km. ərazisi işarəvermə və rabitə qurğuları ilə təchiz edilmişdir.

1971-1975-ci illərdə Azərbaycan dəmir yolu üzrə sərnişin daşınması 23%, lokomotivlərin məhsuldarlığı 25,7%, qatarların orta brutto çəkisi 8,2%, vaqonların orta gündəlik məhsuldarlığı 6,9% artmış və vaqon dövriyyəsi 3,8% qısaldılmışdır [2,səh.28].

Ümumiyyətlə götürdükdə dəmiryol nəqliyyatında yük dövriyyəsi nəzərdə tutulan 16% artıma qarşı 29%-ə çatmışdır. Dəmir yolunda əmək məhsuldarlığı planda nəzərdə tutulan 17%-ə qarşı 21% artmış və yük dövriyyəsi artımının 73%-i bu hesaba əldə edilmşdir [3,səh.68].

1960-cı illərin göstəricilərinə görə Azərbaycanda rabitənin vəziyyəti qənaətbəxş deyildi. Təkcə onu xatırlamaq kifayətdir ki, 1956-1970-ci illərdə respublikada rabitə sahəsinə kapital qoyuluşunun ümumi həcmi 69,24 mln. rubl təşkil etmişdir. 1969-cu ildə respublikada o dövrün yeni texnologiyası olan koordinat sistemli ATS-lər telefon şəbəkələrinin cəmi 0,9 %-ni təşkil edirdi [4,səh. 9]. Əgər 1966-70-ci illərdə rabitə üzrə gəlir 175 mln. rubl idisə, 1971-1975-ci illərdə bu rəqəm 269 mln. rubl olmuşdur. Respublikada, o cümlədən Bakı şəhərində rabitə sahəsində çoxlu problemlər mövcud idi və bu problemlər həll olunmur, əksinə getdikcə artır, rabitə dövrün tələblərinə cavab vermirdi. Yaşayış binaları telefonlaşdırılmadan istifadəyə verilirdi. Bakı şəhər sakinlərinin hər 100 nəfərinə orta hesabla 6 telefon düşürdü ki, bu da keçmiş Sovetlər İttifaqında ən aşağı göstərici idi.

Əsas iqtisadi göstərici sayılan tarif gəliri 41 mln. rubl, mənfəət 12 mln. rubl, əsas fondların dəyəri 60 mln. rubl idi. Rentabellik səviyyəsi 16,1 % olmuşdu. Rabitədə inkişafın zəif olması rabitəçilərin rifah halına mənfi təsir göstərirdi. Onların sosial vəziyyəti ağır - əmək hüququ az, mənzil problemi böyük idi.

Respublikada 70-80-ci illərdə bu sahənin də inkişafına xüsusi diqqət yetirilmişdir. Rabitə - telefonlaşdırma sistemi sahəsində çox ciddi tədbirlər görülmüşdür. Bu illərdə xalq təsərrüfatına və əhaliyə rabitə xidməti xeyli yüksəlmişdir. Görülən tədbirlər nəticəsində rabitə xidməti xeyli yaxşılaşmış və respublikanın şəhərlərində, rayon mərkəzlərində və kənd yerlərində telefon stansiyalarının tutumu 553 min nömrəyə çatmışdır.

Əgər 1970-ci ildə respublikada poçt, teleqraf və telefon müəssisələrinin sayı 1555 idisə, bu rəqəm 1987-ci ildə 1901olmuşdur. O cümlədən, kənd yerlərində bu rəqəm 1171 və 1429 olmuşdur. Burada qeyd etmək istərdim ki, 1987-ci il bilavasitə başlıqda qeyd edilən dövrdən bir qədər kənara çıxsa da hadisələrin inkişaf dinamikasına uyğun gəldiyinə görə bu rəqəmin də göstərilməsi məqsədəuyğun sayılmışdır.

Təkcə 1971-1975 –ci illərdə şəhər və rayon mərkəzlərində, kənd yerlərində 51000 nömrəlik avtomat telefon stansiyaları işə salınmışdır.

Rabitə xidməti hesabına dövlət büdcəsinə gələn gəlir də xeyli artmışdır. Bu da əsasən rabitə xidmətinin keyfiyyətinin getdikcə yüksəlməsi ilə bağlı idi. Rabitənin bütün növlərinin daha da inkişaf etdiril-

məsinə xüsusi diqqət yetirilmişdir. Rabitə növləri ilə xidmətlərin həcminin artırılması daim diqqət mərkəzində olmuşdur. Təkcə 1981-1985-ci illərdə əhaliyə rabitə növləri ilə xidmətlərin həcminin 1,3 dəfə artırılması, ümumu uzunluğu 600 km. olan yeni şəhərlərarası kabel xətlərinin çəkilməsi planlaşdırılmışdı. Həmçinin bu illərdə şəhərlərarası telefon kanallarının təqribən 1,7 dəfə, şəhərlərdə və kənd yerlərində telefonların sayının 1,3 dəfə artırılması nəzərdə tutulmuşdu.

Rabitə xidmətlərindən gələn gəlir 1970-ci ildə 41,3 mln. manat olmuşdusa, bu rəqəm 1985-ci ildə 119,3 mln. manata çatmışdı. Təkcə 1970-ci ildə rabitə xidməti vasitəsilə 120 mln. məktub, 547 mln. qəzet və jurnal, 1,2 mln. bağlama müxtəlif ünvanlara göndərilmişdir [5,səh. 130]. Rabitə xidmətinin bu növünə diqqətin artırılması daha böyük uğurlara gətirib çıxarmışdır.

70-80-ci illərdə telefonlaşdırma işində də xeyli işlər görülmüşdür.

1970-ci ildə respublikada ümumi telefon xəttində birləşən telefon aparatlarının sayı 185,1 min ədəd olduğu halda, bu rəqəm 1982 –ci ildə 582,9 min ədədə çatmışdı.

Qeyd edilən dövrdə şəhərlərarası telefon stansiyalarının sayı da artaraq 27-dən 670-ə çatmışdır. Rabitə sisteminin mühüm sahələrindən biri olan radioqəbuledici xidməti olmuşdur. Bu sahə respublikada daha geniş əhatə dairəsinə malikdir və həm respublikadaxili, həm də respublikadan kənarda baş verən müxtəlif səpkili hadisələr haqqında əhalinin məlumatlandırılmasında mühüm rol oynamaqdadır.

Göstərilməlidir ki, respublikanın sosial – iqtisadi həytında başlıca rol oynayan infrastruktur sahələrindən biri kimi rabitə xidməti və onun müxtəlif sahələrinin inkişafına sonrakı illərdə də mühüm əhəmiyyət verilib.

Bütün göstərilənlərlə yanaşı bu sahədə çətinliklər və nöqsanların olması da ayrıca olaraq qeyd edilməlidir.

Telekommunikasiya və rabitəyə çox böyük önəm verən Ulu Öndərimiz bu barədə deyirdi: “Telekommunikasiya, rabitə, əlaqə böyük əhəmiyyətə malik olan bir sektordur. Bu sektorda bizim nailiyyətlərimiz Azərbaycanın iqtisadi əlaqələrini, insani əlaqələrini, bütün dünya ölkələri ilə əlaqələrini və bütün Azərbaycan Respublikasının həyata keçirəcəyi siyasəti dünya miqyasında bildirməsi üçün çox əhəmiyyətlidir.” [6] H.Əliyev haqlı olaraq bildirirdi ki, müasir informasiya – kommunikasiya texnologiyaları sisteminə malik olmayan hər hansı bir dövlətin iqtisadi imkanlarından söhbət belə gedə bilməz. Ulu Öndərimiz hakimiyyətə gəldiyi elə ilk vaxtlarda, 1970-ci il iyun ayının 24-də Azərbaycan KP MK –nın bürosunda “Respublikada rabitə vasitələrinin vəziyyəti və gələcək inkişafı üzrə tədbirlər haqqında” məsələni müzakirəyə çıxardı və buradaca bu vacib məsələ haqqında xüsusi qərar qəbul edildi. Bundan sonra respublikanın hər yerində, o cümlədən paytaxt Bakı şəhərində rabitə qurğularının və avtomat telefon stansiyalarının tikintisi üçün əlverişli şərait yarandı. Xüsusi olaraq göstərilməlidir ki, görülmüş tədbirlər nəticəsində cəmi bir il ərzində Bakının telefon rabitə sisteminin ortatutumlu şəbəkə səviyyəsinə yüksəltmək üçün altırəqəmli nömrələnmə sistemi tətbiq edilərək, şəbəkədə yeni-yeni telefon stansiyalarının tikintisinə imkan yarandı. Bakıda telefon şəbəkəsinin problemlərinin həllini ən vacib məsələlərdən sayan Ulu Öndərimizin bilavasitə təşəbbüsü ilə MK və Nazirlər Soveti 1974-cü il avqustun 30-da “Bakı şəhərində telefon rabitəsinin vəziyyəti və onu sürətlə inkişaf etdirmək tədbirləri haqqında” yeni bir qərar qəbul etdi. Bu qərara əsasən Bakıda ümumi tutumu yüz altımış dörd min dörd yüz nömrəyə çatan və o dövr üçün müasir olan müxtəlif avtomat telefon stansiyalarının tikilməsi demək idi. Aydındır ki, bu qərarın qəbulu ilə rabitə sahəsində bütün problemlərin həllini gözləmək sadəlövhlük olardı. İndi bütün tikiləcək ATS binaları üçün torpaq sahəsi ayrılmalı, binalar və ATS-lər layihələşdirilməli, həmin layihələr SSRİ Plan Komitəsində təsdiq olunmalı, Moskvadan telefon stansiyaları üçün avadanlıqlar alınmalı idi. Aydındır ki, respublikamızda, eləcə də Bakı şəhərində bütün bu nəhəng işlərin görülməsin məhz Heydər Əliyevin SSRİ mərkəzi dairələrində böyük nüfuzu sayəsində mümkün olurdu. [6]

Haqqında sözügedən dövrə aid müvafiq sənədlərin tədqiqi göstərir ki, uzun müddət – eləcə də həm istehsal və həm də sosial infrastrukturun maddi – texniki bazası zəif olmuşdur. SSRİ dövründə bu sahənin inkişaf etdirilməsinə əsaslı vəsait qoyuluşu olduqca az olmuşdur. Bu sahədə də müttəfiq respublikaların, o cümlədən Azərbaycanın da hüquqları pozulurdu. Yalnız Ulu Öndərimiz Heydər Əliyevin mərkəzdə olan şəxsi nüfuzu, təsiri nəticəsində respublikamız yuxarıda göstərilən faktlardan göründüyü kimi rabitənin inkişafında xeyli uğurlara nail olmuşdur.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1.Məmmədov Z. Heydər Əliyev və Azərbaycan Dəmir yolları. Bakı., 1969; "Azərnəşr", 1999, 304 səh.*

*2. "Doqquzuncu və onuncu beşillik Sovet Azərbaycanının 60 ildə iqtisadi və sosial tərəqqisində mühüm mərhələdir" mövzusunda Beynəlxalq Elmi konfransın materialları. Bakı., 1980.*

*3.Nadirov A.A., Əbdürrəhmanov B.E., Nəbiyev N.Ə., Sənaye istehsalının ərazi üzrə təşkilinin təkmilləşdirilməsi problemləri. Bakı., 1977; "Elm", 83 səh.*

*4. Heydər Əliyev və Azərbaycan Rabitəsi. Azərbaycan Respublikası Rabitə Nazirliyi. Bakı – 2002, 224 səh.*

*5. Zeynalov İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı. XX əsrin II yarısında. Bakı., 2004, "Azərnəşr", 326 səh.*

*6. Xalq qəzeti. 1 may 2013 – cü il.*

**XÜLASƏ:**

Bu məqalədə 1969-1982-ci illərdə Azərbaycanda dəmir yolu və rabitənin inkişafından danışılır.Göstərilməlidir ki, burada ölkəmizdə 1969-cu ildən əvvəlki dövrlərdə Azərbaycanda dəmir yolu və rabitədə yaranmış nisbətən o qədər də yaxşı olmayan vəziyyətdən də bəhs olunur.

Əvvəlki dövrlərdə olmuş çatışmazlıqların aradan qaldırılması işində Heydər Əliyevin rolu və xidmətləri də burada öz əksini tapmışdır.

**Açar sözlər:** *Heydər Əliyev, Azərbaycan, dəmir yolu, rabitə, inkişaf.*

**ILQAR ABDULLAYEV,**
**Baku State University, doctoral student of the chair of Az'rbaijan History (for humanitarian fakulties), Doctor Of Philosophy in history, Honoured Teacher**

**SUMMARY:**

This article deals with the development of the railway and communication in 1969- -1982s years in Azerbaijan. It must be stated that unpleasant situation in railway and communication by 1969 has found its reflection in this article too.

Heydar Aliyevs great roles and services in doing away all these shortcomings in previous times have been mentioned in this article as well.

**Key words:** *Heydar Aliyev, Azerbaijan, a railway, communication, development.*

**ИЛЬГАР АБДУЛЛАЕВ,**
**Докторант кафедры «История Азербайджана» Бакинского Государственного Университета, доктор философии по истории, Заслуженный учитель республики.**

**РЕЗЮМЕ:**

В этой статье говориться о развитии железной дороги и связи в Азербайджане в 1969 – 82 гг. Нужно отметить, что в этой статье отмечено, что положение с железной дорогой и связью в 1969 г. было не на должном уровне.

В этой статье говориться о том, что в устранении этих недостатков, которые наблюдались в прошлых годах немаловажную роль сыграл Гейдар Алиев.

**Ключевые слова:** *Гейдар Алиев, Азербайджан, железные дорогие, связь, развитие.*

# İqtisadiyyat

UOT: 338.24.021.8
DOI:10.30546/3006-0346.2023.6.78.81

## ŞƏRQİ ZƏNGƏZURUN İQTİSADİYYAT QURUCULUĞUNUN İNKİŞAF ETDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**ŞƏFA ƏLİYEV**
*Sumqayıt Dövlət Universitetinin professoru,*
*iqtisad elmləri doktoru,*
*UNEC Qarabağ İqtisadi Araşdırmalar*
*Mərkəzinin rəhbəri*

*E-mail: shafa.aliyev@sdu.edu.az*

*ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563*

*E-mail: garabagh.iam@unec.edu.az*

Şərqi Zəngəzur iqtisadi rayonu Azərbaycanın 14 iqtisadi rayonundan biridir və özündə Cəbrayıl, Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan rayonlarını birləşdirir. İqtisadi rayonun ərazisi 7448 km²-dir. Qeyd edək ki, 1993–2020-ci illərdə Şərqi Zəngəzur iqtisadi rayonunun ərazisi Ermənistan silahlı qüvvələrinin işğalı altında idi. İkinci Qarabağ müharibəsindən sonra imzalanmış 9 noyabr 2020-ci il bəyanatından sonra tamamilə azad edilmişdir. Zəngəzur türk mənşəli toponimdir və onun adındakı "zəngi" leksik vahidi türk tayfalarına məxsusdur. 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində Qafan, Gorus, Qarakilsə, Mehri, Zəngilan, Qubadlı və Laçının bir hissəsi yer almış və artıq burada XX əsrin əvvəllərində 313 türk kəndi var idi. Yalnız gəlmələrdən ibarət iki erməni kəndi mövcud idi [1]. Zəngəzur qəzasının ərazisi 7892 km² təşkil etmişdir. Böyük Qarabağ Zəfəri nəticəsində bu ərazinin 4505,5 km² işğaldan azad olunmuşdur və bu ərazilər Zəngilan, Qubadlı və Laçın rayonlarını əhatə etmişdir. Amma təəssüf hissi ilə qeyd etmək lazımdır ki, yüz ildən çoxdur ki, Zəngəzurun qərb hissəsində olan ərazilər - Qafan şəhəri, Gorus, Qarakilsə və Mehri rayonları hələ də işğal atındadırlar. Belə ki, Azərbaycan Demokratik Respublikasını süquta uğradan və Azərbaycanı işğal edən bolşeviklərin təzyiqi nəticəsində 1920-ci il dekabr ayının 1-də qəbul etdikləri qərarla Zəngəzur Ermənistana verildi.

Dağ silsiləsi ilə əhatə olunmuş Zəngəzur qəzası isə 1861-ci ildə yaradılmışdır və bu bölgədə hazırda əvvəldə qeyd etdiyimiz kimi, Zəngəzur mahalının Azərbaycan ərazisində yerləşən, eyni zamanda Qarabağa bitişik olan rayonlar: Kəlbəcər, Qubadlı, Cəbrayıl, Laçın və Zəngilan yer alır [2]. Bu tarixi faktlar və amillər kontekstindən yanaşmaqla, regionda iqtisadi rayonlaşma prinsiplərinin müasir reallıqlara uyğunlaşdırılması və tənzimlənməsi vacib idi. Buna görə də dövlət başçısının fərmanı bu məsələləri tənzimləməklə, iqtisadi rayonların yeni bölgüsünü yaratmaqla ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılmasına, işğaldan azad olunmuş ərazilərin milli iqtisadiyyatımıza reinteqrasiyasının sürətləndirilməsinə, planlaşdırma və proqnozlaşdırma tədbirlərinin daha yüksək səviyyədə təşkilinə imkan verəcəkdir. Bundan əlavə, xarici investisiyaların daha intensiv cəlb olunmasında, daxili investisiyaların məqsədli və səmərəli şəkildə yönəldilməsində, yeni maliyyə mənbələrinin yaradılmasında, əlavə dəyərin strukturunun diversifikasiyalaşdırılmasında yeni iqtisadi rayonların rolu və əhəmiyyəti artacaqdır.

İndiki şəraitdə - Şərqi Zəngəzur iqtisadi rayonunun yeni bölgü əsasında müəyyənləşdirilən ərazisində müxtəlif iqtisadiyyat sahələrinin, o cümlədən sənaye, turizm, kənd təsərrüfatı və aqrar sektorun, ilk növbədə, bitkiçilik və heyvandarlığın inkişaf etdirilməsi üçün böyük təbii və iqtisadi resurslar, həm də potensial vardır. Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması dünya səviyyəsində Azərbaycanın strateji rolunu birə-beş artırır, belə ki, yeni iqtisadi rayonun dirçəldilməsində strateji hədəflərin olması, Zəngəzur dəhlizi vasitəsilə türkdilli dövlətlərin inteqrasiyasının sürətləndirilməsi, Qərblə Şərq, Şimalla Cənub arasındakı yükdaşımaların intensivliyinin artırılması, beynəlxalq ticarət əməliyyatlarının genişləndirilməsi, nəqliyyat və logistika sektorunun əhəmiyyətli səviyyədə inkişaf etdirilməsi sayəsində ölkəmizin rəqabət qabiliyyətinin, həm də siyasi və iqtisadi qüdrətinin dəfələrlə artmasına real potensial formalaşacaqdır [3].

Şərqi Zəngəzur iqtisadi rayonunun təbii resursları və faydalı qazıntıları regionun iqtisadiyyat strukturunun formalaşdırılmasına imkan verir. Bu iqtisadi rayonun əlvan metallurgiyanın inkişafı üçün güclü potensialı vardır. Ərazisində qızıl, civə, xromit, mərmər, perlit, üzlük tikinti daşları, koral və s. faydalı qazıntı ehtiyatları mövcuddur.

Eyni zamanda, iqtisadi rayon coğrafi mövqeyinə və tarixi abidələrinə görə turistik əhəmiyyət kəsb

edir. Burada İstisu, Minkənd, Tutqunçay kimi mineral bulaqlar, iqlim-balneoloji şərait, dağ meşələri kurort-rekreasiya məqsədləri üçün istifadə edilə bilər. Tarixi memarlıq abidələri siyahısına Gəncəsər, Ağoğlan monastırları, Gürcülü, Məmmədbəyli türbələri, Xudafərin körpüsü və s. aiddir. Şərqi Zəngəzur iqtisadi rayonunun inkişafına yönəldiləcək resurslar bu regionda ölkəmizin qüdrətini və gücünü daha da artıracaqdır. Əksər iqtisadi rayonlarda kənd təsərrüfatı və aqrar sektorun inkişafı prioritetlik təşkil etdiyindən, yeni iqtisadi rayonlaşma bölgüsü, ilk növbədə, bu sahələrin inkişafına güclü təkan verəcəkdir. Şərqi Zəngəzur iqtisadi rayonunun yeni bölgü əsasında müəyyənləşdirilən ərazisində müxtəlif iqtisadiyyat sahələrinin, o cümlədən, sənaye, turizm, kənd təsərrüfatı və aqrar sektorun, ilk növbədə, bitkiçilik və heyvandarlığın inkişaf etdirilməsi üçün böyük təbii və iqtisadi resurslar, həm də potensial vardır.

Şərqi Zəngəzurun mühüm inzibati vahidlərindən biri olan Cəbrayıl rayonu Kiçik Qafqaz dağlarının cənub-şərqində - Araz çayının sol sahilində yerləşir. Rayon cənub tərəfdən İranla, Cənub-qərbdən Zəngilan, Qərbdən Qubadlı, Şimaldan Xocavənd, Şərqdən isə Füzuli rayonları ilə həmsərhəddir. Cəbrayıl rayonu 1930-cu il avqustun 8-də yaradılmışdır və ərazisi 1050 kv.km-dir. Bu rayonun ərazisində bir qrup sənaye əhəmiyyətli ehtiyatlar vardır [4]. Məsələn, sement istehsalı üçün qiymətli xammal mövcuddur. Həmçinin mərmər və başqa tikinti materialları ehtiyatları kifayət qədərdir. Rayonda dəmir filizi yataqları da vardır. İşğala qədər olan dövrdə rayon əhalisinin əsas məşğuliyyəti üzümçülük, heyvandarlıq, taxılçılıq və baramaçılıqla bağlı idi. Bunlarla yanaşı, rayonda tikiş, xalça, cihazqayırma sexləri və bir sıra digər sənaye obyektləri mövcud olmuşdur. Cəbrayıl rayonunun strateji rolunu artıran məqamlara da diqqət yetirmək istərdik. Belə ki, tarixi Xudafərin körpüsü yaxınlığında "Araz Vadisi İqtisadi Zonası"nın yaradılması artıq regionun cəlbediciliyindən və regionda sahibkarlığın inkişafı ilə bağlı güclü təməlin qoyulmasından xəbər verir. Burada güzəştlərin formalaşdırılması, sahibkarlara ən azından 10 il ərzində güzəştlərin verilməsi və dövlət tərəfindən müvafiq infrastrukturun yaradılması yaxın perspektivdə Cəbrayıl rayonunda müxtəlif istiqamətlər üzrə emal müəssisələrinin təşkilinə, eyni zamanda kənd təsərrüfatı və sənaye müəssisələrinin yaradılması istiqamətində ciddi addımların atılmasına imkan verəcəkdir. Bu iqtisadi zonanın ilk rezidentləri artıq qeydiyyata alınmış və fəaliyyətə başlamışlar [5].

Şərqi Zəngəzurun digər mühüm inzibati ərazisi kimi Zəngilan rayonu strateji əhəmiyyət daşıyır. Zəngilan inzibati vahid formasında 1930-cu ildən fəaliyyət göstərir və ərazisi 707 $km^2$ təşkil edir. Bu rayonun strateji əhəmiyyəti baxımından Cənubdan və Şərqdən İran, Qərbdən Ermənistanla həmsərhəd olmasıdır. Rayonun ərazisində sıldırım qayalar, gözəl təbiətə malik düzənliklər və qiymətli meşələr vardır. Resurs ehtiyatları baxımından Zəngilanda gil və əhəng ehtiyatları, Vəjnəlidə zəngin qızıl yataqları vardır. Həmçinin müalicə əhəmiyyətli bitkilər və bulaqlar diqqət çəkir. İşğal dövründə rayonun iqtisadiyyatına və infrastrukturuna xeyli ziyan dəymişdir. Erməni vandalları tərəfindən 11.000 yaşayış evi, 150 şəxsi maşın və minik avtomobilləri, 43.000 qaramal, 92.000 qoyun-keçi, 265.000 ev quşları, 1600 arı ailəsi talanmış və dağıdılmışdır. Şərqi Zəngəzurun strateji ərazi vahidlərindən biri də Laçın rayonudur. Laçın 1923-cü ildə şəhər statusunu almışdır. 1930-cu ildə isə Laçın inzibati rayonu təşkil olunduqdan sonra Laçın şəhəri onun mərkəzi statusunu daşımışdır. Laçın zirvə mənasını daşıyır və bu zirvə Qarabağ sıra dağlarının cənub-şərqindədir [6]. Laçın mərdlik, igidlik və qəhrəmanlıq dastanları ilə zəngin olan bir diyardır, məkandır. Təəssüf ki, 18 may 1992-ci ildən Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan Laçın 30 ilə yaxın dağıdılmış və viran edilmişdir, işğalçı ermənilərin tapdaqları altında qalmışdır. Müzəffər ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 2020-ci ildə torpaqlarımızı işğaldan azad etdilər və Laçın bir müddət sonra, yəni razılaşdırılımış sazişə əsasən 26 avqust 2022-ci ildə Azərbaycanın nəzarətinə keçmişdir.

İşğaldan azad olunmuş ərazilərdə ən gec bərpa və quruculuq işləri aparılan inzibati ərazilərdən biri Laçın şəhəri olmasına baxmayaraq, burada Böyük Qayıdış prosesləri sürətlə reallaşdırılmış və həyata keçirilmişdir [7]. Laçında sözün əsl mənasında həyat qaynayır və dirçəlir, Laçın şəhərinin hər qarışında onun əzəli sahiblərinin nəfəsi duyulmaqdadır. Son bir neçə ay ərzində Laçın fasiləsiz rejimdə fəaliyyət göstərən nəhəng tikinti meydançasına bənzəyir və bunlar artıq öz bəhrəsini verməkdədir. Hazırda Laçın intensiv olaraq yüksəliş dövrünü yaşamaqdadır. 2023-cü il may ayının 28-də doğma yurdlarına qayıdan laçınlılara dövlət başçısı tərəfindən evlərinin açarları təqdim olunmuşdur. Şəhər günü qeyd olunana kimi artıq minə yaxın laçınlı öz doğma şəhərində məskunlaşmışlar. 2023-cü ilin sonuna qədər isə Laçın

şəhərində 900 ailənin yaşayışı üçün mənzillər və müvafiq infrastruktur hazır olacaqdır. Əlamətdar haldır ki, bir neçə həftədən sonra yeni istismara verilmiş 1 nömrəli Laçın şəhər tam orta məktəbində dərslər başlayacaqdır və bunun üçün müasir, kreativ texnologiyalar əsaslı orta məktəb binası istismara verilmişdir. Laçın şəhərinin sosial infrastrukturu, kommunal xidmətlər sistemi və obyektləri qısa müddət ərzində formalaşdırılmışdır və hazırda şəhərdə normal yaşayışa imkan verir.

Qeyd edək ki, Laçın şəhərinin intensiv olaraq dirçəldilməsi məqsədilə bir sıra strateji obyektlər tikilməkdədir və bir-birinin ardınca analoji obyektlərin dövlət başçısının və Birinci vitse-prezidentin - iştirakı ilə açılış və yaxud təməlqoyma mərasimləri keçirilir. Avqustun 25-də Laçın sənaye zonasında mebel fabrikinin açılışı buna əyani sübutdur. Belə ki, əhalinin doğma yerlərinə qaytarılması ilə yanaşı, həm də sənaye infrastrukturu yaradılır, yeni iş yerləri ərsəyə gətirilir və ümumilikdə Laçın şəhərinin və Laçın rayonunun sosial-iqtisadi inkişafına əsaslı zəmin formalaşdırılır. Aqrar sahənin, tütünçülüyün, turizmin, xidmət sahələrinin inkişaf etdirilməsi maksimum prioritetlik təşkil edir. Laçında Beynəlxalq Hava Limanının 2025-ci ildə istismara verilməsi gözlənilir. Bu hava limanı 1800 metr dəniz səviyyəsində hündürlükdə inşa olunur və postsovet məkanında ən yüksək dağlıq ərazidə yerləşən hava limanlarından biri olacaqdır. Eyni zamanda bir neçə istiqamətdə avtomobil yolları layihələrinin reallaşdırılması, xüsusilə Kəlbəcər-Laçın avtomobil yolunun sürətli tikintisi tezliklə bu ərazilərdə sosial-iqtisadi inkişafa yeni təkan verəcəkdir. Laçın şəhərinin intensiv bərpa edilməsi və yüksək texnologiyalar əsaslı müasir şəhərə çevrilməsi ümumilikdə Laçın rayonunun daha sürətlə bərpa olunmasına, iqtisadiyyat quruculuğunun gücləndirilməsinə müsbət təsir göstərəcəkdir. Belə ki, Laçın rayonunu işğaldan azad olunmuş digər ərazilərlə birləşdirən bir neçə yol layihələrinin icra edilməsi, mürəkkəb relyefə malik olan ərazilərdə tunellərin tikilməsi, yeni yolların salınması son nəticədə regionda inteqrativ proseslərin sürətlənməsinə və müəssisələr şəbəkəsinin yaradılmasına, əhalinin məskunlaşmasına əlavə stimul yaradacaqdır. Yaxın illərdə bununla bağlı biz daha cəsarətli addımların atılmasının, əhalinin məskunlaşması baxımından daha intensiv tədbirlərin görülməsinin və Böyük Qayıdışın sürətləndirilməsinin şahidi olacağıq. Digər tərəfdən, Laçın rayonunun kənd və qəsəbələrində yaşayan insanların əzəli məşğulluq istiqamətləri bəllidir. Burada əvvəldə qeyd etdiyimiz kimi aqrar sektor, əsas etibarilə kənd təsərrüfatının bir sıra seqmentləri, o cümlədən texniki bitkilərdən olan tütünçülüyün və həmçinin heyvandarlığın inkişafı üçün güclü imkanlar vardır.

Sovetlər birliyi dönəmində Zəngəzur adının ermənilər tərəfindən xəritədən silinməsinə çalışıldı və onlar yeni rayonlar yaratmaqla Zəngəzuru unutdurmağa nail olduqlarına inanmaq istədilər. Buna görə də Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması həm də tarixi ədalətin bərpası kimi qiymətləndirilməlidir [8]. İqtisadi rayonların yeni bölgüsü Azərbaycanda iqtisadi inkişafın sistemliliyi baxımından ən doğru addımdır və bu da iqtisadi inkişafın daha qısa zamanda formalaşmasına stimul yaradacağı zərrə qədər şübhə doğurmur. Qeyd edək ki, Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması, Azərbaycanın öz əzəli torpaqlarını dirçəltmək və inkişaf etdirmək niyyətinin nə qədər güclü olduğunu ifadə edir. Cəbrayıl rayonu işğaldan azad olunmuş ərazilərin bərpası baxımından ilkə imza atmışdır. Belə ki, Cocuq Mərcanlı kəndində birinci mərhələdə 50 ev, 96 şagird yerlik məktəb, məscid, 35/10 kv-luq elektrik yarımstansiyası, hidrometereoloji stansiya, "Azəravtoyol" ASC-nin xüsusi təyinatlı yol istismar müəssisəsi və digər infrastrukturlar tikilərək istifadəyə verilmiş, kəndə asfalt örtüklü yol çəkilmişdir. Həmçinin 100 fərdi yaşayış evi, uşaq bağçası, həkim məntəqəsi, klub-icma mərkəzi, poçt, inzibati ərazi dairə üzrə nümayəndəliyin binası və s. mühüm sosial obyektlər istismara verilmişdir. Əhalinin Cocuq Mərcanlıya qayıdışı isə 30 may 2018-ci ildən başlamışdır. Zəngilanda reallaşdırılan bir sıra iri layihələr onun strateji əhəmiyyətini sürətlə yüksəltməkdədir. Qısa müddət ərzində istismara verilmiş Zəngilan Beynəlxalq Hava Limanı regionun sosial-iqtisadi inkişafını sürətləndirməklə yanaşı, regionun strateji rolunu artırmaqdadır. Dünya səviyyəli beynəlxalq hava nəqliyyatı infrastrukturunun formalaşdırılması bölgənin strateji əhəmiyyətinin əsas göstəricilərindən biri kimi baxıla bilər. Burada hava limanının olması region və ümumilikdə dünya ölkələrinin, həm də dünyanın müxtəlif yerlərində yaşayan soydaşlarımızın bu bölgəyə marağını xeyli artıra bilər. Xüsusilə, Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın bu regiona marağını yüksəldər. Eyni zamanda, ticarət iqtisadi əlaqələrin genişləndirilməsi kontekstində çevik nəqliyyat infrastrukturunun mövcudluğu investorların bölgəyə axınlarına ciddi təkan verə bilər. Digər tərəfdən, Zəngilanda Ağalı kəndləri-

nin bazasında yaradılan "ağıllı" kənd layihəsi Böyük Qayıdışın ilk uğurlu layihəsi kimi qiymətləndirilir və bu baxımdan işğaldan azad olunmuş ərazilərin dirçəldilməsində burada toplanmış təcrübə və yanaşmalar kifayət qədər səmərəli xarakter daşıya bilər.

Qubadlı rayonunun mövcud resurslarından yanaşsaq, burada bir sıra kənd təsərrüfatı fəaliyyəti istiqamətlərinin və xüsusilə, heyvandarlığın, tütünçülüyün, arıçılığın inkişaf etdirilməsi üçün güclü əsaslar vardır. Hesab edirik ki, biz sovetlər dövründən fərqli olaraq hazırda işğaldan azad olunmuş rayonların resurs potensialının yenidən qiymətləndirilməsi və onların iqtisadiyyat fəaliyyəti ilə bağlı strukturlarının formalaşdırılmasına yeni yanaşmaları təmin etməli, region üçün ənənəvi olan emal və kənd təsərrüfatı məhsulları ilə yanaşı, müasirliyi ilə fərqlənən və daha çox əlavə dəyər yaradan iqtisadiyyat sahələrinin inkişafına ciddi önəm verməliyik.

Regionun digər mühüm bir bölgəsi və rayonu olan, strateji əhəmiyyət kəsb edən Laçın rayonunun əzəli məşğulluq istiqamətləri bəllidir, burada da əsas etibarilə kənd təsərrüfatı, texniki bitkilərdən olan tütünçülüyün və heyvandarlığın inkişafı üçün ciddi imkanlar vardır. Təbii resursların bolluğu və iqlim müxtəlifliyi, heyvandarlığın inkişafından ötrü tələb olunan resurslar, otlaqlar, bütün bunlar hesab edirik ki, ölkədə heyvandarlığın inkişafında yeni imkanların formalaşdırılmasına və daha yüksək keyfiyyətli heyvandarlıq məhsullarının istehsalına şərait yarada bilər. Həm də əhalinin məşğulluğu baxımından, öz doğma yurdlarına qayıdan insanların məşğulluğu nöqteyi-nəzərindən burada iqtisadiyyat sahələrinin mümkün olan yeni formalarının yaradılması diqqət mərkəzində saxlanılmalıdır.

Kəlbəcər rayonunda da Laçın rayonunda olduğu kimi, heyvandarlığın və o cümlədən, arıçılığın və digər sahələrin inkişaf etdirilməsi üçün resurslar mövcuddur. Burada təbii resurslardan yararlanmaqla, təbiətin özəlliyi və xüsusilə turizmin inkişafı üçün həm Laçın, həm də Kəlbəcər rayonunda mövcud olan turizm-rekreasiya imkanlarının daha obyektiv olaraq dəyərləndirilməsi və geniş şəkildə xidmət sektorunun yaradılması vacibdir. Burada xidmət sektorunun yaradılması strateji əhəmiyyət kəsb edir və nəzərə alsaq ki, Laçın rayonunda Beynəlxalq Hava Limanı tikilir və 2024-cü ildə istifadəyə veriləcəkdir. Belə mürəkkəb şəraitdə aeroportun tikilməsi nəyə görə vacibdir? Ona görə ki, ölkə əhalisinin, dünya azərbaycanlılarının daha intensiv şəkildə bu ərazilərə gəlməsi, işğaldan azad olunan yerləri görməsi, Azərbaycanımızın çox füsunkar guşələrindən biri olan Laçın və Kəlbəcər rayonlarının təbii gözəlliklərini seyr və istirahət etməsi, həm də burada xidmət sahəsinin inkişaf etməsinə böyük təsir edə bilər və xidmət sahəsi regionun əsas iqtisadiyyat sahələrindən birinə çevrilər. Fikrimizcə, belə də olmalıdır, yəni burada təbiətin gözəlliyi, təmiz hava, turizm-rekreasiya imkanlarının olması demək olar ki, Laçın və Kəlbəcərin əksər kəndlərində turizm-rekreasiya müəssisələrinin, çoxsaylı sanatoriyalar və müalicə ocaqlarının yaradılmasına imkan verir. Belə bir infrastrukturun yaradılması həm də regionun inkişafına güclü təkan verə bilər. Məsələn, bu sahədə bir çox Balkan ölkələrinin və Avstriyanın, eyni zamanda Türkiyə bölgələrinin təcrübəsinə baxmaq mümkündür. Türkiyədə bir sıra bölgələrdə turizm imkanları dəyərləndirilərək, geniş infrastruktur yaradılıb və dünyanın hər yerindən turistlər böyük həvəslə ora gəlirlər və xidmət sektorunun - turizmin inkişafında Türkiyə tarixi nailiyyətlər əldə edə bilmişdir.

İstənilən bir ərazidə iqtisadiyyat quruculuğu və məskunlaşma problemlərinin həll olunması, ilk növbədə, yol layihələrinin həyata keçirilməsi və kommunikasiyaların açılması vacib şərtlərdəndir [9]. İşğaldan azad olunan ərazilərdə 17 nəqliyyat layihəsinin həyata keçirilməsi, məsələn, Əhmədbəyli-Füzuli-Şuşa zəfər yolunun - çox müasir mühəndis qurğularından ibarət olan zəfər yolunun tikintisi, eyni zamanda, Kəlbəcər və Laçın rayonlarının işğaldan azad olunmuş digər ərazilərlə birləşdirən bir neçə yol layihələrinin icra edilməsi, mürəkkəb relyefə malik olan ərazilərdə tunellərin tikilməsi, yeni yolların salınması son nəticədə regionda inteqrativ proseslərin sürətlənməsinə və müəssisələr şəbəkəsinin yaradılmasına, əhalinin məskunlaşmasına əlavə stimul yaradacaqdır. Yaxın illərdə bununla bağlı biz daha cəsarətli addımların atılmasının, əhalinin məskunlaşması baxımından daha intensiv tədbirlərin görülməsini və Böyük Qayıdışın sürətləndirilməsinin şahidi olacağıq.

Hesab edirik ki, bu layihələr içərisində ən önəmli layihələrdən biri də - Zəngəzur nəqliyyat dəhlizidir. Ümumiyyətlə, Zəngəzur nəqliyyat dəhlizi hazırda beynəlxalq səviyyədə nəqliyyat-logistika və kommunikasiyaların açılması, ölkələrin, bölgələrin, regionların, qitələrin inteqrasiyası və beynəlxalq ticarət proseslərinin intensivləşdirilməsi, alqı-satqı proseslərinin və mal axınlarının, investisiya axınlarının sürətləndirilməsi və qitələr arasında ticari-iqti-

sadi əlaqələrin yeni mərhələyə qaldırılması, bununla bağlı xərclərin optimallaşdırılması nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir və bu amillər öz növbəsində Zəngəzur qlobal nəqliyyat dəhlizinin rolunu artıran arqumentlərdəndir [10]. Müasir qlobal iqtisadi və texnoloji çağırışların sürətləndiyi bir şəraitdə bu qeyd olunanlar mühüm elementlər kimi qiymətləndirilir.

Bu amillər baxımından, Zəngəzur dəhlizinin açılması Türk dövlətləri üçün, onların iqtisadi inteqrasiyasından ötrü kifayət qədər strateji əhəmiyyət kəsb edir. Türk dövlətlərinin ümumi bazarı 1,2 trilyon dollar dəyərində qiymətləndirilir və bura dünyanın ilk 15 iqtisadiyyatı sırasında olan Türkiyə iqtisadiyyatı, Mərkəzi Asiyada kifayət qədər güclü bir iqtisadiyyata malik olan Qazaxıstan, həmçinin Özbəkistan, Türkmənistan, Qırğızıstan və Azərbaycan iqtisadiyyatları daxildir. Ümumilikdə Türkdilli dövlətlərin ərazilərində kifayət qədər resurslar, təbii ehtiyatlar, yeraltı-yerüstü sərvətlər vardır. Təbiət Türk dövlətlərinə kifayət qədər resursları bəxş etmişdir. Qazaxıstan, Özbəkistan, Azərbaycan və Türkmənistanda neft və qaz yataqları vardır. Sevindirici haldır ki, son dövrlərdə Türkiyə Qara dənizdə təbii qaz hasilatına başlamışdır. Bu təbiətin Türk dövlətlərinə bəxş etdiyi milli sərvətlərdir və hesab edirik ki, Zəngəzur qlobal nəqliyyat dəhlizinin açılması ilə Türk dövlətlərinin inteqrasiyası yeni bir müstəviyə və mərhələyə çıxacaqdır. Bu təkcə adi iqtisadi əlaqələrin genişlənməsi yox, həm də Türk dünyasının birləşməsi, Türk mədəniyyətinin, Türk adət-ənənələrinin daha çox bir-birinə yaxınlaşması, gediş-gəlişin, alqı-satqı proseslərinin intensiv baş verməsi və nəticədə Türkdilli dövlətlərin iqtisadi layihələrinin reallaşdırılmasında yeni imkanların yaradılması və iqtisadi gücünün artması potensialı formalaşacaqdır.

Digər tərəfdən, Zəngəzur qlobal nəqliyyat dəhlizinin yaranması həm də Türk dünyasının güclənməsinə, Türkdilli dövlətlərin təşkilatlanmasında yaranan yeni şəraitdə onların dünya iqtisadiyyatında və dünya siyasətində daha önəmli rol oynamasına imkan verəcəkdir. Ən əsası Türkdilli dövlətlərin iqtisadi tərəqqisinə, əhalinin yaşayış səviyyəsinin artırılmasına, iqtisadi və siyasi təhlükəsizliyinin, müdafiəsinin gücləndirilməsinə, yüksək texnologiyaların inkişafı üçün transfer mübadiləsinin intensivliyinə və Türk dünyasının dəyərlərinin qorunub saxlanılmasına, inkişaf etdirilməsinə yeni resursların cəlb edilməsinə imkan verəcəkdir və s.

## YEKUN

Müasir dövrdə Azərbaycan öz şanlı və şərəfli tarixini yaşayır. Türk dünyasının əyilmiş qamətinin qaldırılmasında, Türk qürurunun yeni bir oyanış səviyyəsinə yüksəldilməsində və işğal olunmuş ərazilərin azad edilməsində dünya səviyyəsində cəsarətli addımların atılmasında və çox gözəl pozitiv bir nümunənin formalaşdırılmasında Azərbaycan dövlətinin və Azərbaycanın rolu və tarixi xidmətləri artıq bütün dünyada qiymətləndirilməlidir. İşğaldan azad edilən ərazilərin sosial-iqtisadi reabilitasiyası, quruculuq tədbirlərinin görülməsi, infrastruktur layihələrinin reallaşdırılması, sosial və istehsal əhəmiyyətli müəssisələrin təşkili - bütün bunlar, əlbəttə, kifayət qədər vəsait və vaxt aparan, əmək sərf edilməsi lazım gələn məsələlərdəndir. Amma bütün bunların həyata keçirilməsi üçün elə məsələlər vardır ki, onlar daha çox vacibdir və strateji əhəmiyyət kəsb edir.

Beləliklə, perspektivlər də nəzərə alınmaqla, Şərqi Zəngəzurun iqtisadiyyat strukturuna növbətililəri daxil etmək olar:

- kənd təsərrüfatı sahəsi, əsasən heyvandarlıq, bitkiçilik, arıçılıq;
- tütünçülük;
- aqrar sektor və aqrar-sənaye kompleksi;
- turizm sektoru, xüsusilə turizm-rekreasiya kompleksi;
- qeyri-neftqaz sahələri, əsasən dağ-mədən sənayesi;
- informasiya-kommunikasiya texnologiyaları və “ağıllı” texnologiyalar;
- nəqliyyat-logistika sektoru və s.

**Açar sözlər:** *Azərbaycan, Şərqi Zəngəzur iqtisadi rayonu, Şərqi Zəngəzurun iqtisadiyyat quruculuğu, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Səmədzadə, Z.Ə. Qarabağ iqtisadiyyatı 100 ildə: 5 cild/ Z. Səmədzadə; [baş red. A. Səmədzadə; red. Y. Məmmədova]. Bakı: Kitab Çapı, 2022. – 856 s.*

*2. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. // Geostrategiya jurnalı, – 2021. № 04 (64), – s.67-72.*

*3. Quliyev, E.A. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu. Monoqrafiya. Kooperasiya nəşriyyatı, Bakı, 2023-320 s.*

4. Алиев, Ш., Исмаилов, Э., & Рустамова, Г. (2022). Перспективы развития Восточно-Зангезурского экономического района. Scientific Collection «InterConf», (122), 20–25. Retrieved from https://archive.interconf.center/index.php/conference-proceeding/article/view/1182.

5. Алиев, Ш., Маммадов, Э., & Ахмедова, Т. (2022). Актуальные вопросы развития предпринимательства на освобождённых от оккупации землях Азербайджана. Scientific Collection «InterConf», (122), 26–32. Retrieved from https://archive.interconf.center/index.php/conference-proceeding/article/view/1183.

6. Aliyev, S. (2023). The multiplicative impact of the development of Lachin city in the revitalization of the Eastern Zangazur economic region. Scientific Collection «InterConf», (170), 7–12. Retrieved from https://archive.interconf.center/index.php/conference-proceeding/article/view/4335.

7. Алиев, Ш. (2023). Важнейшие аспекты реализации I Государственной программы по великому возвращению на освобожденные от оккупации территории Азербайджанской Республики. Scientific Collection «InterConf», (166), 39–44. Retrieved from https://archive.interconf.center/index.php/conference-proceeding/article/view/4194.

8. Shirinzade, N., & Aliyev, S. (2023). Directions of agribusiness development in Karabakh and East Zangazur. Scientific Collection «InterConf», (178), 9–15. Retrieved from https://archive.interconf.center/index.php/conference-proceeding/article/view/4657.

9. Муталлимов, Н., Панахалиева, М., & Алиев, Ш. (2023). Мировой опыт по восстановлению постконфликтных территорий и созданию зоны зелёной энергии. Scientific Collection «InterConf», (160), 29–36. Retrieved from https://archive.interconf.center/index.php/conference-proceeding/article/view/3937.

10. Солтанов, С., Панахалиева, М., & Алиев, Ш. (2022). Роль Зангезурского коридора в усилении логистическо-транспортной инфраструктуры в регионе. Scientific Collection «InterConf», (120), 14–20. https://archive.interconf.center/index.php/conference-proceeding/article/view/1097.

**АЛИЕВ Шафа Тифлис оглы,**
***Профессор Сумгаитского Государственного Университета, д.э.н.***
***Руководитель Центра Исследования Экономики Карабаха UNEC.***
***Азербайджан, город Сумгаит, 43-й квартал, ул.Баку, 1.***
***E-mail: shafa.aliyev@sdu.edu.az***
***ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563***
***E-mail: garabagh.iam@unec.edu.az***

## Направления развития экономических преобразований Восточного Зангезура

**РЕЗЮМЕ:**

В статье исследована стратегическая значимость и развитие Восточного Зангезурского экономического района. С этой целью раскрыта ресурсный потенциал экономического района, рассмотрено историческое развитие и экономические аспекты в этом регионе. Анализирована и оценена возможность направления экономического развития отдельных административных единиц. Рассмотрены процессы интенсивного развития Джебраильского и Зангеланского района, где за последние годы строятся крупные инфраструктурные объекты и промышленные предприятия. Оценена возможность Губадлинского и Лачинского района в развитии отдельных сфер отрасли экономики, в том числе животноводства и аграрного сектора. Рассмотрены возможности социального-экономического развитие Кяльбаджарского района, который имеет сложный рельеф. В целом на основе исследовательских материалов построена структура экономического развития Восточно Зангезурского экономического района в ближайшей перспективе.

**Ключевые слова:** *Азербайджан, Восточно Зангезурский экономический район, экономические преобразования Восточного Зангезура, Джебраиль, Зангелан, Губадлы, Лачин, Кяльбаджар.*

**ALIYEV Shafa Tiflis,**
***Professor at Sumgait State University.***
***Head of the UNEC Centre for Karabakh Economic Research.***
***Azerbaijan, Sumgait 43rd Quarter, Baku str.1***
***E-mail: shafa.aliyev@sdu.edu.az***
***ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563***
***E-mail: garabagh.iam@unec.edu.az***

## Directions for the development of economic transformations in Eastern Zangezur

**SUMMARY:**

The article explores the strategic importance and development of the Eastern Zangezur economic region. For this purpose, the resource potential of the economic region is revealed; the historical development and economic aspects in this region are considered. The possibility of directing the economic development of individual administrative units is analyzed and assessed. The processes of intensive development of the Jebrail and Zangelan districts, where large infrastructure facilities and industrial enterprises have been built in recent years, are considered. The possibility of Gubadli and Lachin districts in the development of certain sectors of the economy, including livestock breeding and the agricultural sector, was assessed. The possibility of social and economic development of the Kalbajar region, which has a complex terrain, has been considered. In general, based on research materials, a structure for the economic development of the East Zangezur economic region in the near future has been built.

**Key words:** *Azerbaijan, East Zangezur economic region, economic transformations of East Zangezur, Jebrail, Zangelan, Gubadly, Lachin, Kalbajar.*

UOT 33:005
DOI:10.30546/3006-0346.2023.6.78.88

# AZƏRBAYCANIN DAŞINMAZ ƏMLAK BAZARINDA RİELTOR XİDMƏTLƏRİNİN İNFORMASİYA SİSTEMİNİN YARADILMASI

**ARİF BİNNƏTOV**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti.*
*İqtisad üzrə fəlsəfə doktoru, dosent əvəzi*
*E-mail: arif0105@mail.ru*

Son illərdə daşınmaz əmlak bazarının vahid informasiya məkanının ən fundamental elementləri, məsələn, Dövlət torpaq kadastrı, mənzil fondunun texniki uçotu və texniki inventarlaşdırılması müvəffəqiyyətlə inkişaf edir. Bu baxımdan aydın olur ki, bazar informasiya sahəsi – daşınmaz əmlak bazarında təklif və tələb, bazar qiymətləri və bazarın fəallığı, onun inkişafının proqnozlaşdırılması tendensiyaları dövlətin diqqətindən kənarda qalıbdır.

Beləliklə, Azərbaycanda bazarın informasiya bağlılığı şəraitində bəzi səviyyələrdə idarəetmənin zəifləməsi, obyektiv və həqiqi informasiyaların yığılması üçün vəsaitlərin olmaması problemin həll edilməsini çətinləşdirir.

İctimai təşkilatlar və kommersiya strukturları – daşınmaz əmlak bazarının iştirakçıları – təşəbbüskar qaydada bazarın regional və regionlararası bazasının, habelə Azərbaycanın mənzil bazarının monitorinqi, təhlili və proqnozlaşdırılması sisteminin yaradılmasının müəyyən təcrübəsini əldə etdilər. O göstərir ki, bu yolda ancaq şəxsi yığılmanın müəyyən məsələlərini, kommersiya strukturlarına təqdim edilən xalis bazar informasiyalarının sistemləşdirilməsi və istifadəsini həll etmək mümkündür. Eyni zamanda da hakimiyyət və idarəetmə orqanlarında olan informasiyalar, daşınmaz əmlak bazarının peşəkarlarına praktiki olaraq əlverişsizdir [2].

Hal – hazırda respublika səviyyəsində belə informasiya yoxdur və iqtisadi subyektlər, hakimiyyət və idarəetmə orqanları regionlar və şəhərlər üzrə mənzil bazarlarının vəziyyəti, həmin bazarlarda qiymətlərin vəziyyəti haqqında, konkret obyekt üzrə tələb və təklif, habelə bazarlarda cari və proqnozlaşdırılan tendensiyalar haqqında analitik informasiyalara malik deyillər.

Ümumi informasiya sisteminin yaradılmasının məqsədi dövlət hakimiyyəti və yerli idarə orqanlarını, kommersiya strukturlarını, əhalinin mənzil bazarında tələb və təklif haqqında bazarın vəziyyəti və inkişafı, bazarın müxtəlif seqmentlərində qiymətlərin vəziyyəti haqqında informasiyalarla vaxtında təmin etməkdir.

**Sxem 1**
**Mənzil bazarının respublika informasiya – analitik sisteminin informasiya axınlarının məcmusu.**




Ümumi informasiya sisteminin yaradılmasının məqsədi dövlət hakimiyyəti və yerli idarə orqanlarını, kommersiya strukturlarını, əhalinin mənzil bazarında tələb və təklif haqqında bazarın vəziyyəti və inkişafı, bazarın müxtəlif seqmentlərində qiymətlərin vəziyyəti haqqında informasiyalarla vaxtında təmin etməkdir.

Həmin informasiyalar məqsədli proqramların, mənzil, mühacirət, investisiya, vergi siyasətinin formalaşmasına, ipoteka kreditləşməsi sisteminin genişlənməsinə və saxlanmasına, biznesin səmərəliliyinin yüksəldilməsinə və inkişafına, mənzil sferasında təsərrüfat fəaliyyətinin digər məsələlərinin həllinə lazımdır. Mənzil bazarının respublika infor-

masiya – analitik sisteminin yaradılması üçün xarici və onunla əlaqədar informasiya axınlarına informasiya sistemi, idarələr və təşkilatlar, hüquqi və fiziki şəxslər informasiya mənbəyi tədarükçüsü rolunda çıxış edə bilərlər.[4]

Təklif edilən informasiya mənbələrinə aiddir: (sxem 1)

- mənzillərin satıcıları kimi onların sahiblərinin çıxış etmələri – fiziki və hüquqi şəxslər və onların nümayəndələri – daşınmaz əmlak agentliyi. Mənzillərin (evlərin) satıcıları sistemin girişinə təklif edilən obyektlərin siyahısını, obyektin ünvanı göstərilməklə onun keyfiyyətinin qısa xarakteristikasını verməlidirlər ( I axın);

- regionlararası bazarda mənzillərin alıcıları, o cümlədən, xüsusi şəxslər, daşınmaz əmlak agentliyi, hüquqi şəxslər (müəssisələr və təşkilatlar), idarələr. Alıcılar sistemin girişinə arzu etdikləri region (şəhəri) göstərməklə mənzillərin əldə edilməsini, yerin xarkteristikasını, keyfiyyətini və ölçüsünü, qiymətlərin nəzərdə tutulan diapazonunu verməlidirlər (II axın). Ondan əlavə,

- informasiyaların tədarükçüsünə sistemin institusional iştirakçıları, informasiya mübadiləsi və informasiyaların ötürülməsinin nizama salınması haqqında razılaşmaların bağlanması aiddir;

- daşınmaz əmlakın və sövdələrin hüquqlarının vahid dövlət reyestrindən “daşınmaz əmlakın RİAS” girişinə məlumatların iki kateqoriyası verilməlidir: sorğuya görə - satışa qoyulan obyektin hüquqi status haqqında məlumatlar (III axın) və növləri, tipləri, yeri üzrə differensiaya edilmiş regionda, şəhərdə satışların həcmi haqqında statistik məlumatlar (IV axın);

- mənzil fondunun texniki uçotu və texniki inventarlaşdırılmış dövlət sistemindən sorğuya əsasən “mənzil bazarının RİAS” girişinə satışa qoyulan yaşayış obyektinin texniki xarakteristikası, onun əmlak status haqqında məlumatlar, yaşayış və qeyri – yaşayış binaları, torpaq sahəsinin ümumi mülkiyyətində mənzilin sahibinin ümumi payı, evin və mənzillərin texniki pasportlarına uyğun digər informasiyalar verilməlidir (V axın);

- tikilən və istifadəyə verilən obyektlərin qeydiyyatından sistemin girişinə yeni tikintinin həm tikilməmiş (VI axın), həm də obyektin ünvanı və onun xarakteristikasını razılaşdırılmış siyahısı göstərilməklə isifadəyə verilmiş tikililər (VII axın) haqqında məlumatlar fasiləsiz verilməlidir;

- dövlətin torpaq kadastrında “Mənzil bazarının RİAS – nın” girişinə sorğuya əsasən əmlak hüquqlarının pay bölgüsü (VIII axın) göstərilməklə, satışa qoyulan və əmlak – torpaq kompleksinin tərkibinə daxil olan torpaq kadastr nömrəsi haqqında məlumatlar verilməlidir;

- torpaq və şəhərsalma kadastrlarının strukturuna daxil olacaq geoinformasiya sistemindən (GİS) zəruri halda “Mənzil bazarının RİAS” ərazi koordinasiya sisteminə, satışa qoyulan obyektlərin yerə uyğun planlaşdırılması mümkünlüyü ilə şəhərlərin və ərazilərin elektron kartları verilməlidir (IX axın);

- bundan əlavə “Mənzil bazarının RİAS – ı” hüquqi sistemlərin qeydiyyata alınmasının, lisenziyaların verilməsinin, internet resursların, qanunvericilik və normativ bazanın vəziyyəti haqqında kütləvi informasiya vasitələrinin, mənzil bazarının infrastrukturu, regionda ümumi iqtisadi vəziyyət haqqında məlumatlar (X axın) istifadə edilməlidir.

Istehlakçıların informasiyalarına aid olmalıdır (sxem 1):

- mənzillərin (evlərin) satıcıları kimi, (mənzilərin sahibləri də satıcılar rolunda çıxış edirlər) – fiziki və hüquqi şəxslər və ya onların nümayəndələri, daşınmaz əmlak agentliyi sistemində əvvəlcədən qeydiyyata alınmış mənzillərin satıcıları. Sistemin çıxışından mənzilin alınmasını sifarişçi həyata keçirir (XI axın);

- regionlararası bazarda mənzillərin alıcıları, o cümlədən xüsusi şəxslər, daşınmaz əmlak agentliyi, hüquqi şəxslər (müəssisələr və təşkilatlar), idarələr çıxış etməlidirlər. Sistemdə əvvəlcədən qeydə alınmış alıcılar çıxışda onları qane edən sifarişçilərə satış üçün təkliflər verməli və mənzillərin hüquqi və əmlak statusunun xarakteristikasının tam standartlaşmış seçimini, yerini, keyfiyyətini və ölşüsünü göstərməlidirlər (XII axın);

- investisiya şirkəti, kredit təşkilatları, ipoteka şirkəti və banklar, investisiya – tikinti kompleksinin təşkilatları, digər kommersiya strukturları (rieltorlar, qiymətləndirmə firmaları və onların ictimai birləşmələri, ixtisaslaşdırılmış kütləvi informasiya vasitələri (KİV), internet – resurslar (XIII axın) olmalıdır;

- məqsədli proqramı, müraciətin, investisiya siyasətinin, vergi siyasətinin işlənməsi və reallaşdırılmasına məsuliyyət daşıyan respublika orqanları; mənzil siyasətinin və ərazinin tikintisinin işlənilməsinə və reallaşdırılmasına məsuliyyət daşıyan respublika, regional, bələdiyyə orqanları müntəzəm olaraq

monitorinqin nəticəsi, daşınmaz əmlak bazarının və onun təhlilini sistemin girişindən almalıdırlar (XIV – XVIII axınlar).

"Mənzil bazarının RİAS" strukturu özünə respublika, regionlararası, regional, habelə şəhər informasiya analıtik mərkəzinin (mərkəzlərin) çoxsəviyyəli genişlənilmiş şəbəkəsini göstərilibdir. Mərkəzlərin hər biri respublika və regional (regionlararası), şəhər özünə üç əsas bloku daxil etməlidirlər.

- satışa daxil edilən obyektlərin məlumatları bazasına, mənzillərin satışı və alınmasına (multilisting) sifarişin aparılmasına isə informasiya mərkəzi məsuliyyət daşımalıdır;
- analitik mərkəzini (təhlil bloku və mənzil bazarının proqnozlaşdırılması);
- sorğu məsləhət mərkəzini (biblioteka); [3]

Şəkil 1- də istehlakçılara xaici mənbəələrdən informasiya axınları və çıxış axınları müxtəlif səviyyəli mərkəzlər arasında və onların bloklarında bölünürlər. Həmin şəkildə sistemdə informasiyaların daxili axınları da göstərilmişdir.

**Mənzil bazarının RİAS – nın mərkəzi**




**Şəkil 1. Mənzil bazarının Respublika infomasiya – analitik sisteminin strukturu.**

Müxtəlif səviyyəli blokların cəmi vertikal inteqrallaşmış yarımsistemi – "Multilistinq" və "Analitik" təşkil edir.

Mənzil obyektlərinin satışı üzrə təkilflər şəhər və ya regional məlumatlar bazasına informasiya mənbələrinə əsasən həmin şəhərdə qəbul edilən elektron, kağız növündən və ya şifahi (telefonla) daxil olmalıdırlar. Regional mərkəz obyektin hüquqi, əmlak statusu haqqında çatışmayan informasiyaları, onun texniki xarakteristikasını yerinə yetirməli, mənzil bazarında əmtəə kimi obtektin tam standartlaşdırılmış təsvirini verməli və şəhərin elektron xəritəsinə uyğunlaşdırılmalıdır və s. Dövrü olaraq (gün, həftə) regional mərkəz informasiyanı fəallaşdırmalı və onu blokun yuxarı səviyyəsinə obyektin satışı üçün sifariş növündə verməlidir – torpaq əmlakı kompleksi kimi (A axın) obyektin tam standartlaşdırılmış təsvirini. Bundan əlavə, regional mərkəz şəhərdə (regionda) yığılan və respublika mərkəzində alınan (regionlararası mənzillərin alınmasına sifarişləri) mənzillərin alınmasının sifarişlərini məlumatlar bazasına verməlidir.

Rieltor xidmətləri tərəfindən bazara xüsusi şəxslərdən və təşkilatlardan mənzillərin regionlararası alınması sifarişləri, unifikasiya edilmiş (elektron, kağız) növdə, arzu edilən əmtəənin əsas xarakteristikasını göstərən şəhəri, ölçüsünü tipini, yerini, mümkün qiymətlərin hədlərini (diapazonlarını) respublika məlumatları bazasına daxil etməlidirlər [1]. Sifarişlər fərdi və ya qrup üzrə alınacaq cari və perspektiv dövrə vətəndaşların köçürülməsi, mühacirəti, sosial təmini respublika, regional hakimiyyətlərdən, idarə və təşkilatlardan daxil ola bilərlər. Respublika mərkəzi alınan sifarişləri işləməli və potensial alıcıya variantların seçilməsi üçün göndərilməli, eyni zamanda da həmin informasiyaları regional mərkəzə (B axınına) verməlidir. Öz növbəsində də regional mərkəz həmin informasiyanı mənzillərin satıcılarının maraqlarına istifadə etməlidir – xüsusi şəxslər, daşınmaz əmlak agentliyi, rieltor xidmətlərinin tədqiq edilməsi üçün.

"Analitik" yarımsistem aşağıdakı formada fəaliyyət göstərməlidir.

Yarımsistemin regional blokuna dövri olaraq (həftə, ay) obyektlərin məlumatları bazasından və sifarişlərdən təhlil olunan dövr ərzində satışa qoyulan obyektlər haqqında ilk məlumatlar daxil olmalı və həmin dövr üçün olan tələb araşdırılmalıdır (V - axını). Informasiyaların işlənilməsi, bazarda qiymətlərin vəziyyəti müəyyənləşdirilməli, şəhərin müxtəlif rayonlarında, habelə bütün şəhər üzrə (ümumiləşdirilmiş) mənzillərin müxtəlif tiplərinin təklifləri və tələbin həcmi aparılmalıdır. Qiymətlər, mənzillərin istifadəyə verilməsi, tələb və təklif, həmçinin sövdələrin miqdarı haqqında məlumatların sistemdən kənarda olması, əvvəlcədən yığılan məlumatların istifadə edilməsi, rüb, il, bir neçə ilə həmin göstəricilərin dinamikası öyrənilməli və onların dəyişməsi qanunauyğunluğu tədqiq edilməlidir. Həmin qanunauyğunluğa əsasən və perspektiv üçün istifadəyə veriləcək mənzillərin planlaşdırılmasının sifarişləri haqqında olan məlumatlar nəzərə alınmaqla, həm-

çinin bazarın infrastrukturuna, ümumi vəziyyətinə və proqnozları (Q – axını) əsasən mənzil bazarının inkişafı proqnozu işlənməli – qısamüddətli, ortamüddətli, uzunmüddətli. Regionun şəhərin mənzil bazarının, tədqiqatının, planlaşdırılmasının tədqiqatı respublika blokuna (D – axınına) verilməli, həmçinin hakimiyyət və idarəetmə orqanlarını, sahibkarlıq strukturlarını, peşəkar təşkilatları informasiyalarla təmin etməli və tövsiyələrin işlənilməsi üçün istifadə edilməlidirlər. "Analitik" yarımsistemin respublika bloku şəhərlərin və regionların (D – axını) mənzil bazarı təhlilinin nəticəsini istifadə etməli və materialları ümumiləşdirməli və hakimiyyət orqanlarına, sahibkarlara və s. tövsiyələr hazırlamalı, onlara mənzil bazarı haqqında informasiyalar verməlidirlər. Zəruri hallarda həmin sorğuların nəticəsini regional mərkəzlərə ötürməlidirlər.

Rieltor xidmətləri bazarının regional informasiya – analitik mərkəzi regional müdiriyyətlə birlikdə müstəqil şəxs kimi ümummilli mərkəz yaratmalı, mərkəzlə sıx partnyorluq etməlidir. İlk mərhələdə əməkdaşlıqda onların maraqları mərkəz tərəfindən regional strukturun yaradılmasının maliyyələşdirilməsi növündə investisiya ilə müəyyənləşdirilməli və metodiki proqramın təmin edilməsi verilməlidir.

ABŞ-ın və İngiltərənin rieltorlərinin işlərinin təcrübəsinin öyrənilməsi göstərdi ki, həmin ölkələrdə regionlararası inter – texnologiyanın geniş inkişafı hesabına regional multilistinqlər arasındakı horizontal əlaqələr təşkil edir. [5] Azərbaycanda hələlik bunun həyata keçirilməsi çətindir. Ona görə də hazırda ikisəviyyəli və ya üçsəviyyəli informasiya sisteminin yaradılması məqsədyönlüdür, hansı ki, müxtəlif şəhərlərdə satışa çıxarılan obyektlər və potensial alıcılar haqqındakı informasiyalar respublika səviyyəsində ümummilli multilistinqdə istehlakçılar üçün əlverişli olmalıdırlar.

Rieltor xidmətləri bazarında obyektiv vəziyyəti, yeni məsələlərin və Azərbaycanın daşınmaz əmlak bazarının reallığını nəzərə alaraq rieltor xidmətləri bazarında obyektlərin təsvirinin standartlaşdırılması haqqında məsələnin baxılmasına zəruri hesab edir ki, standartlaşdırmanın son məqsədi yeni keyfiyyətli əmtəənin reallaşdırılması hesabına biznesin səmərəliliyinin yüksəltməkdir – rieltor xidmətləri bazarı haqqında informasiyaları standartlaşdırmanın hazırlanmasında aşağıdakı istiqamətlər nəzərdə tutulmalıdır:

- birinci mərhələ çərçivəsində (metodologiyanın, terminologiya standartının yaradılması – bütün maraqlı peşəkarların təsnifatlarının müzakirə edilməsi, onların təkmilləşdirilməsi, maraqlı və potensial məsələlərin standartlarının informasiya əlaqələrinin genişləndirilməsi və inkişafı imkanlarının təmin edilməsi;
- ikinci mərhələ çərçivəsində (texniki standartın yaradılması) – xarakteristikaların təsnifatlarını gələcək formalaşdırılması və obyektin təsvirinin texniki formasının yaradılması.
- üçüncü mərhələdə ümummilli multilistinq sistemin (MZS) yaradılması, birgə multilistinq sisteminin sertifikatlaşdırılması və texniki reallaşdırılmasına metodiki köməkliyin göstərilməsi.

Dediklərimizdən görünür ki, informasiya sisteminin tətbiqini, o cümlədən birgə multilistinq sistemini genişləndirmək lazımdı, çünki rieltor xidmətləri bazarının yaxşılaşdırılması və gələcək inkişafı informasiya texnologiyasının və bu sahədə mütəxəssislərin mövcudluğunun səmərəli fəaliyyətindən asılıdır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. "Rieltor fəaliyyəti haqqında" qanun layihəsi. Bakı 2013*

*2. Mehdiyev İ. Ə, Şirəliyev V. M, Məmmədova N. N. Daşınmaz əmlakın iqtisadiyyatı. Dərslik. Bakı, 2007.*

*3. Г.Ч.Попов. Основы Оценки недвижимости. Учебное пособие.М.: 2007.*

*4. Нетревоженко Т. А. Все операции с жилой недвижимостью. М. 2007.*

*5. Binnətov A.C. Tikintinin iqtisadiyyatı. Dərslik. Bakı 2023.*

## XÜLASƏ:

Rieltor cəmiyyətində ümumşəhər (regional) multilistinq sisteminin (MZS) yaradılması məqsədyönümlüdür və praktiki olaraq müzakirəyə səbəb olmalıdır. Bununla belə ümummilli MZS-nin əsas vəzifəsi regionlararası sövdələri təmin etməkdir. ABŞ-da regionlararası sövdələr bazarın əsasını təşkil edir və onların informasiya təminatı problemi internet – texnologiyanın geniş imkanı hesabına həll edilir, məlumatların regionlararası bazasının əlverişsizliyi və regionların MZS-i arasında informasiyalar horizontal dəyişir.

Xarici ölkələrin mütəxəssislərinin fikrincə, ümummilli MZS ancaq o vaxt onun yaradılması və saxlanılmasına sərf edilən vəsaitləri ödəyəcəkdir ki,

o, ən geniş informasiya – analitik sisteminin tərkibində təkcə regionlararası sövdələri yox, həm də dövlət orqanları və bazarın iqtisadi subyektlərinin iştirakı məsələlərinin müxtəlif dairəsinin həll edilməsində iştirak edəcəkdir. Belə məsələlərə hər şeydən əvvəl, monitorinq regional və ümummilli səviyyədə mənzil bazarının proqnozlaşdırılması, marketinq tədqiqatı, qiymətləndirmə fəaliyyəti və konsaltinqin təminatı aiddir. Bu ideya mənzil bazarının Respublika informasiya analitik sisteminin əsasını təşkil etməlidir.

**Açar sözlər:** *rieltor xidmətləri, daşınmaz əmlak bazarı, multilistinq sistemi, mənzil bazarı, iformasiya – analitik sistemi, informasiya axını.*

**Биннатов Ариф**
***Доктор философии по экономике, и.о. доцент***
***Азербайджанский Университет Архитектуры и Строительства***

**Создание информационной системы риэлторских услуг на рынке недвижимости Азербайджана**

**РЕЗЮМЕ:**

Создание общегородской (региональной) мультилистинговой системы (МЛС) в риэлторском сообществе является целесообразным и должно стать предметом практического обсуждения. Однако основной задачей национального МЗС является обеспечение межрегиональной торговли. В США межрегиональная торговля является основой рынка, и проблема их информационного обеспечения решается за счет широкой доступности Интернет-технологий, неудобства межрегиональной базы данных и горизонтального обмена информацией между МЗС страны. регионы.

По мнению экспертов зарубежных стран, национальный МЗС окупит средства, затраченные на его создание и содержание, только тогда, когда в рамках крупнейшей информационно-аналитической системы будут задействованы не только межрегиональные сделки, но и государственные органы и участие хозяйствующих субъектов. рынка будут задействованы в решении широкого круга вопросов. К таким вопросам относятся, прежде всего, мониторинг, прогнозирование рынка жилья на региональном и национальном уровне, маркетинговые исследования, оценочная деятельность и предоставление консультаций. Эта идея должна лечь в основу республиканской информационно-аналитической системы рынка жилья.

**Ключевые слова:** *риэлторские услуги, рынок недвижимости, мультилистинговая система, рынок жилья, информационно-аналитическая система, информационный поток.*

**Binnetov Arif Cavad**
***Doctor of philosophy in economics, assistant professor substitute***
***Azerbaijan University of Architecture and Construction***

**Creating an information system of realtor services in the real estate market of Azerbaijan**

**SUMMARY:**

The creation of a citywide (regional) multilisting system (MLS) in the realtor community is purposeful and should be a practical discussion. However, the main task of the national MZS is to ensure interregional trade. In the United States, interregional trade is the basis of the market, and the problem of their information provision is solved due to the wide availability of Internet technology, the inconvenience of the interregional data base and the horizontal exchange of information between the MZS of the regions).

According to the experts of foreign countries, the national MZS will pay for the funds spent on its creation and maintenance only when, as part of the largest information-analytical system, not only interregional deals, but also state bodies and the participation of economic subjects of the market will be involved in solving a wide range of issues. Such matters include, above all, monitoring, forecasting of the housing market at the regional and national level, marketing research, assessment activities and provision of consulting. This idea should form the basis of the Republican information analytical system of the housing market.

**Key words:** *realtor services, real estate market, multilisting system, housing market, information-analytical system, information flow.*

UOT: 330.356:661:338.24
DOI:10.30546/3006-0346.2023.6.78.93

# NEFT-QAZ XAMMALINDAN MƏHSULDAR İSTİFADƏNİN TƏŞKİLİNDƏ NEFT-KİMYA EMAL MÜƏSSİSƏLƏRİNİN STRATEJİ ROLU

**AİDƏ BƏXTİYAROVA**

*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı*

*E-mail: aida.baxtiyarovaa1@gmail.com*

Kimya və neft-kimya sənayesi hər hansı bir dövlətin sənaye kompleksinin iqtisadi cəhətdən ən əhəmiyyətli tərkib hissələrindən biridir. Bu sənaye sahəsinin inkişafı iqtisadiyyatın bütün sahələrinin inkişafının səmərəliliyini əhəmiyyətli dərəcədə müəyyənləşdirir. Burada müxtəlif adda emal edilmiş xammallar, məhsullar hazırlanır. Hazırda qanunvericilik səviyyəsində Azərbaycan Respublikasının kimya və neft-kimya müəssisələrinin inkişafı üçün strateji proqramlar hazırlanır və tətbiq edilir. Bu strateji proqramlar kimya və neft-kimya müəssisələrinin inkişafına imkan verməlidir. Buna görə də mühüm vəzifə Azərbaycanda müasir kimya və neft-kimya müəssisələrinin inkişafının təmin edilməsi və idarə edilməsi üçün şəraitin formalaşmasına konseptual və metodoloji yanaşmaların hazırlanmasıdır.

Kimya kompleksinə daxil olan kimya və neft-kimya sənayesi əsasən neft emalı məhsulları və təbii yanan qazlar əsasında sintetik materialların və məmulatların istehsalını əhatə edən ağır sənaye sahəsidir.

Kimya və neft-kimya sənayesində istehsal olunan məhsullar texnoloji cəhətdən yaxından əlaqəli olan müəssisələr üçün əsasən xammal və reagent kimi, təsərrüfat fəaliyyətinin digər sahələrində, o cümlədən, əczaçılıqda, rezin və plastik məmulatlar istehsalında, kənd təsərrüfatında, tikintidə, maşın və avadanlıqlar istehsalında isə xammal kimi istifadə edilir [1, s.17]. Neft-kimya sənayesinin əsas obyektləri xammalın emalı və sintetik materialların və neft məhsulları istehsalı zavodlarıdır. Neft-kimya və neft emalı komplekslərinin subyektləri dedikdə, biz bu komplekslərin neftin nəqli, emalı, saxlanması ilə bilavasitə məşğul olan müəssisə və təşkilatlarını, onların birliklərini və strukturlarını əhatə edən hüquqi şəxslər sistemini başa düşürük. Bu subyektlər ekoloji və hüquqi münasibətlərin subyektləridir. Çünki onlar ətraf mühitlə də bir növ qarşılıqlı əlaqədə olurlar. Kimya və neft-kimya sənayesinin digər sahələrdən səciyyəvi xüsusiyyəti əməyin avtomatlaşdırılması və texnoloji inkişafının yüksək səviyyəsidir ki, bu da iqtisadiyyatın bütün sahələrində həmin sahə məhsullarından istifadənin intensivləşməsi ilə əlaqədardır.

Kimya və neft-kimya müəssisələri Azərbaycan iqtisadiyyatının inkişafı üçün prioritet sahələrdən biridir [2]. Bu, əlverişli şərait, nisbətən ucuz və bol xammalın, daxili istehlakın və neft-kimya məhsullarının ixracının artırılması üçün böyük potensialın olması ilə bağlıdır. Digər tərəfdən, son illərdə investisiyaların artması və bir neçə iri sənaye müəssisələrinin açılması hesabına ölkənin bu sənayesində uğurlar əldə edilmişdir.

Azərbaycan kifayət qədər xammal ehtiyatına malik olmaqla öz iqtisadiyyatının kimya və neft-kimya sənayesinin inkişafı baxımından tarixi şans əldə etmişdir. Ölkəmizdə neft və qazın inkişafı ilə eyni vaxtda neft və qaz emalı sənayesinin səmərəliliyinin təşkili məsələlərinə də baxılıb. Hələ 1938-ci ildə Sumqayıtda müxtəlif növ xammalların, o cümlədən neft və qazın emalı prosesləri nəticəsində qaz kondensatlarının emal edildiyi “Sintetik kauçuk” zavodunun tikintisinə başlanmışdır. 1945-ci ildə sənaye şəhəri və sənaye mərkəzi kimi nəzərdə tutulan Sumqayıtın ərazisində növbə ilə ağır sənaye müəssisələri, 1966-cı ildə Avropada ən böyük zavodlardan biri hesab edilən Kimya zavodu istifadəyə verilmişdir. 1981-ci ildə Sumqayıtda iri tonajlı tullantısız texnologiyaya malik, etilen və propilen kimi qiymətli neft-kimya məhsulları istehsal edən EP-300-ün tikintisinə başlanılıb. Bu nəhəng kompleks respublikanın Dövlət Neft Şirkətinin (SOCAR) neft emalı zavodlarından boru kəməri ilə gələn səmt fraksiyaları, kondensatlar, digər maye qazlar və s. nəzərə alınmaqla ölkənin karbohidrogen xammalının, neft emalı və qaz zavodlarının emalı üçün nəzərdə tutulmuşdur. Hazırda SOCAR-ın neft-kimya müəssisələrində kifayət qədər yüksək keyfiyyətə malik müxtəlif çeşidli, ixracyönümlü kimya məhsulları istehsal olunur. Belə məhsullar arasında yüksək sıxlıqlı polietilen, etilen, propilen, piroliz qatranı, texniki və mütləq izopropil spirti, butilen-butadien fraksiyaları və s. göstərmək olar [3, s.706].

Azərbaycanda kimya sənayesinin inkişafının neft-qaz sənayesi ilə sıx əlaqədə inkişafı nəzərdə tutulur və bu “Neft-qaz sənayesinin (o cümlədən kimya

məhsullarının) inkişafına dair Strateji Yol Xəritəsində də öz əksini tapıb [4]. "Hazırda bu strategiya həyata keçirilir və əsas diqqət ixracyönümlü, müasir texnologiyalardan ibarət sənaye müəssisələrinin tikilib istifadəyə verilməsinə yönəlib. Strateji yol xəritəsi çərçivəsində kimya və neft-kimya sənayesində yüksək texnologiyaların ölkəmizə transferi üçün daha əlverişli şərait yaradılır. Digər tərəfdən, Azərbaycanda bu sənayenin böyük texnoloji imkanlarından səmərəli istifadə problemlərini həll etmək lazımdır. Texnoloji imkanlardan maksimum istifadə məhsuldarlığın, rentabelliyin artırılmasına, daha geniş çeşiddə və həcmdə daha çox ixracyönümlü məhsul istehsal etməyə imkan yaradar. Bu problemlər uzun illərdir müzakirə olunur və bir çox iri obyektlər hələ də layihə gücündən aşağı işləyir [5, s.111].

Azərbaycanda kimya və neft-kimya sənayesinin mövcud vəziyyətini öyrənmək üçün bəzi iqtisadi göstəricilərin təhlili böyük maraq doğurur.

**Cədvəl 1**
**Kimya və neft-kimya müəssisələri üzrə bəzi iqtisadi göstəricilər**

| Göstəricilər | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən emal sənaye müəssisələrin sayı | 1778 | 1775 | 1826 | 2034 | 2330 | 2515 |
| Neft istehsalı ilə məşğul olan müəssisələrin sayı | 3 | 3 | 4 | 7 | 8 | 9 |
| Kimya sənayesi məhsulları istehsalı ilə məşğul olan müəssisələrin sayı | 69 | 75 | 81 | 93 | 99 | 110 |
| Emal sənaye məhsulunun həcmi, milyon manat | 7880.4 | 8899.5 | 9723.5 | 10465.4 | 11793,8 | 11848,3 |
| Neft istehsalı ilə məşğul olan müəssisələr üzrə | 2473,6 | 2472,8 | 2555,7 | 2830,2 | 2918,1 | 2726,6 |
| Kimya sənayesi | 353,2 | 374,2 | 513,9 | 528,0 | 599,6 | 662,8 |
| Sənaye məhsulunun ümumi həcmində emal sənayesinin payı, faizlə | 29.9 | 27.6 | 24.4 | 21.9 | 25,1 | 31,8 |
| Neft istehsalı ilə məşğul olan müəssisələr | 9,4 | 7,7 | 6,4 | 5,9 | 6,2 | 7,3 |
| Kimya sənayesi | 1,3 | 1,1 | 1,3 | 1,1 | 1,3 | 1,8 |

**Mənbə:** *ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.*

Cədvəl 1-dən göründüyü kimi, 2020-ci ildə ölkə üzrə emal sənaye müəssisələrinin sayı 2515 olmuşdur ki, bunun da 4,7%-i kimya və neft-kimya müəssisələridir. Emal sənayesində istehsal olunan məhsulun həcmi 11848,3 milyon manat olmuşdur ki, bunun da 2726,6 milyon manatı və yaxud 23,0%-i neft emalı müəssisələrinin, 31,8 milyon manatı və yaxud 5,6%-i kimya sənayesinin payına düşür [6]. Tədqiq olunan dövrlər ərzində kimya və neft-kimya müəssisələrinin sayının, istehsal həcminin davamlı artdığını görmək olur.

Bütövlükdə ölkə sektorunun və onun sənayesinin rəqabət qabiliyyəti əmək ehtiyatlarının keyfiyyəti, istehsal, ali təhsil müəssisələri və elmi-tədqiqat institutları arasında əlaqələrin möhkəmliyi, yeni texnologiyaların tətbiqi və mənimsənilməsi qabiliyyəti kimi amillərdən asılıdır [7, s.126]. Rəqabət təhlili müəssisələrə müxtəlif iqtisadi proseslərdə rəqiblərin davranışlarını qabaqcadan görməyə və onların təhlilinin nəticələrindən öz işlərində istifadə etməyə kömək edir. Beləliklə, rəqiblərin davranışının hərtərəfli öyrənilməsi və onların qiymətləndirilməsi bazarda səmərəli fəaliyyət üçün vacib şərtlərdir.

Ölkəmizdə rəqabətqabiliyyətli sənayelər arasında məhz kimya və neft-kimya sənayesi mühüm yer tutur ki, bu da rəqabət üstünlükləri olan sənaye sahələrinə aiddir və Azərbaycan ixracatının əsas hissəsini təşkil edir. Neft-kimya müəssisələrinin rəqabətqabiliyyətlilik səviyyəsinin qiymətləndirilməsi iki qrup göstərici ilə əlaqələndirilir: 1. Maliyyə-iqtisadi vəziyyətin göstəriciləri - gəlir, istehsalın maya dəyəri, mənfəət, məhsulun rentabelliyi. 2. İstehsal və texnoloji səviyyənin göstəriciləri - neft emalının dərinliyi, təkrar proseslərin və ilkin neft emalı aqreqatlarının faktiki yükünün nisbəti. Bu göstəricilər şirkətin maliyyə-iqtisadi vəziyyətini və neftin emalı dərəcəsini nəzərə almağa imkan verir. Lakin eyni zamanda, müəssisənin istehsal imkanlarının qiymətləndirilməsi ilə bağlı mühüm aspektlər qiymətləndirilmir [8, s.265]

Kimya və neft-kimya müəssisələrində istehsal imkanları onun rəqabətqabiliyyətlilik səviyyəsinin mühüm xarakteristikasıdır. İstehsalın həcmi müəssisənin məhsullarına olan tələbatdan, güclərin miqyasından və onlardan istifadənin mümkün səviyyəsindən asılıdır. Buna görə də, neft-kimya müəssisələrinin istehsal imkanları onun rəqabət qabiliyyəti səviyyəsinin mühüm xarakteristikasıdır. Buna əsaslanaraq, rəqabətqabiliyyətliliyin qiymətləndirilməsi üzrə mövcud metodologiyaya onların istehsal sahəsində imkanlarını nəzərə alan göstəricilər də əlavə edilməlidir. Hesab edirik ki, bu qrupa aşağıdakı göstəricilər daxil edilməlidir: istehsal güclərinin orta illik dəyəri, istehsal güclərindən istifadə əmsalı, istehsal mərhələləri üzrə istehsal güclərinin mütənasiblik (balans) əmsalı. Beləliklə, kimya və neft-kimya müəssisələrinin rəqabətqabiliyyətlilik səviyyəsinin qiymətləndirilməsi üçün göstəriciləri üç qrupa bölmək olar: 1. Müəssisənin maliyyə-iqtisadi vəziyyətinin göstəriciləri. 2. İstehsal və texnoloji səviyyə göstəriciləri. 3. Müəssisənin istehsal imkanlarının göstəriciləri.

Kimya və neft-kimya sənayesində əsas məsələlərdən biri istehsal güclərinin hesablanmasıdır. İstehsal

güclərinin hesablanması bir sıra üsullarla aparılır. Həmin üsullarla istehsal güclərinin hesablanmasını müəyyən edən əsas elementlər bunlardır: məhsulların nomenklaturası və çeşidi; avadanlığın istismarı vaxtı fondu; texnoloji avadanlığın məhsuldarlığı; aparıcı avadanlıqların seçimi. İstehsal güclərinin dəyərini təyin edən bu elementlərin hər birini ayrı-ayrılıqda nəzərdən keçirək. 1. Məhsulların nomenklaturası və çeşidi. Kimya və neft-kimya sənayesində istehsal güclərinin hesablanması bu istehsalın yaradılması üçün nəzərdə tutulmuş məhsulların layihə nomenklaturasına və çeşidinə uyğun olaraq həyata keçirilir. Fikrimizcə, məhsulun layihə nomenklaturası və çeşidi üzrə hesablanmış istehsal gücü müəssisənin məhsul istehsal etmək qabiliyyətini düzgün əks etdirmir. Bu, onunla bağlıdır ki, bu sənaye sahəsi müəyyən növ məhsullara olan mövcud ehtiyaclar nəzərə alınmaqla layihələndirilir. 2. Avadanlığın istismar müddətinin fondu. İstehsal güclərin hesablanmasında nəzərə alınan vaxt fondunu seçərkən yalnız avadanlığın istismar vaxtının normativ təqvim fondundan çıxış etməsi lazımdır. 3. Texnoloji avadanlıqların məhsuldarlığı. Kimya və neft-kimya sənayesində istehsal gücü əsasən texnoloji avadanlıqların göstəriciləri ilə müəyyən edilir. Hazırda kimya və kimya müəssisələri sənaye məhsulun əsas hissəsini istehsal edən iritutumlu sənaye sahələrinin əhəmiyyətli hissəsi ilə xarakterizə olunur. Həmçinin, bu sənayenin əsas texnoloji avadanlıqları müəyyən xüsusiyyətlərə malikdir: avadanlıqlar texnoloji xətlərə birləşdirilir ki, bunlara bütün qurğular, aqreqatlar, maşınlar, kommunikasiyalar, cihaz və avtomatlaşdırma vasitələri daxildir; zəruri məhsulların əldə edilməsi yalnız avadanlığın istismarının bütün texnoloji parametrlərinə ciddi riayət etməklə mümkündür; avadanlığın işləmə qabiliyyətinin saxlanması profilaktik texniki xidmət sistemində nəzərdə tutulmuş bütün tədbirlərin qeyd-şərtsiz həyata keçirilməlidir - profilaktik yoxlamalar, texniki xidmət, avadanlıqların kiçik, orta və əsaslı təmiri; əsas texnoloji avadanlıqlara xidmət göstərən işçilərin ixtisas səviyyəsinə yüksək tələblər qoyulur. 4. Aparıcı avadanlıqların seçimi. Avadanlıq seçimi texnoloji prosesin bütün mərhələlərində avadanlıqların mütənasibliyini təmin etmək üçün ilkin şərtləri yaradan bu istehsalın xüsusiyyətlərini müəyyən edən mərhələdən başlayır. Nəticə etibarilə, kimya və neft-kimya istehsalında aparıcı avadanlığın seçilməsi məsələsi artıq onun layihələndirilməsi mərhələsində həll olunur [9, s.339]. Sahədə istifadə olunan avadanlıqlar əsasən kimyəvi, elektrokimyəvi və ya digər texnoloji proseslərin baş verdiyi əsas texnoloji aparatlar, hazırlıq proseslərinin aparıldığı avadanlıqlar, xammal və materialların daşınması üçün istifadə olunan köməkçi avadanlıqlar və digər növ avadanlıqlardır. Müəssisədə tullantıların emalı üçün lazımi avadanlıq və ya tullantıların emalı üçün tələb olunan əlavə xammal növləri olmaya bilər. Bu baxımdan, tullantısız və az tullantılı texnologiyaların inkişafı sahəsində problemlərin həlli çox vaxt ikinci dərəcəli xammaldan istifadəni gündəmə gətirir [10, s.73]

The main purpose of the research is to identify and explain the world significance of the Chinese way in the conditions of globalisation. The research work is carried out on the basis of such methods as scientific abstraction, system analysis, logical generalisation. The result of the research is the Chinese way is an organic combination of market and socialist economic management. The practical significance of the study lies in the fact that the Chinese model enriches the social practice of mankind, refutes the myth that the Western experience is the only correct one, and is relevant for developing countries. The scientific novelty and originality of the study lies in the fact that based on the analysis of publications in the field, the experience of China's economic development is studied and the connotations of the Chinese model are explained.

Keywords: globalisation, Chinese model, Beijing consensus, Chinese way, international rules.

**Jiayi Huang**
***doktorant, UNEC***
***JiayiHuang0103@gmail.com***

## QLOBALLAŞMA ŞƏRAİTİNDƏ "ÇİN YOLU" NUN QLOBAL ƏHƏMİYYƏTİ

**XÜLASƏ:**

Tədqiqatın əsas məqsədi qloballaşma şəraitində Çin yolunun qlobal əhəmiyyətini müəyyənləşdirmək və izah etməkdir. Tədqiqat işləri elmi abstraksiya, sistem təhlili, məntiqi ümumiləşdirmə kimi metodlar əsasında aparılmışdır. Tədqiqatın nəticəsi Çin yolu bazar və sosialist idarəetmənin üzvi birləşməsidir. Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, Çin modeli bəşəriyyətin sosial təcrübəsini zənginləşdirir, Qərb təcrübəsinin yeganə düzgün və inkişaf etməkdə olan ölkələr üçün aktual olduğu mifini təkzib edir. Tədqiqatın elmi yeniliyi və orijinallığı ondan ibarətdir ki, bu sahədəki nəşrlərin təhlili əsasında Çinin iqtisadi inkişaf təcrübəsi öyrənilmiş və Çin modelinin mənaları izah edilmişdir.

**Açar sözlər:** *qloballaşma, Çin modeli, Pekin konsensusu, Çin Yolu, beynəlxalq qaydalar.*

UOT: 338.45:338.312
DOI:10.30546/3006-0346.2023.6.78.109

# SYSTEMATIC REVIEW: THE IMPACT OF TOTAL QUALITY MANAGEMENT ON GOLD MINING INDUSTRY PERFORMANCE IN SUDAN

**ALI AHMED SULIMAN ELMAHDI**
*PhD Student of Azerbaijan State University of Economics (UNEC)*
*E-mail: ali-ahmed@unec.edu.az*

Traditional management was more concerned with the organization's internal workings and focused on producing high-quality products and services. İnstead of that specialize in the way to manufacture a product or service, total quality management focuses on a way to please the client. The assignment of quality responsibility to management is one among the elemental contrasts between total quality management and traditional management approaches. TQM entails efforts the least bit levels of a corporation to "create and maintain a climate during which employees continually improve their capacity to supply on-demand products and services." While there is no universally accepted approach, TQM operations often rely largely on quality control tools and techniques that have already been created. Total Quality Management (TQM) is a strategy used by businesses to improve internal operations and boost customer satisfaction. Manufacturing, banking, and finance, and medical are all examples. All personnel are involved in achieving common objectives. On a regular basis, assess the efficiency of the team members(Nicolas Nicolaou and George Kentas, 2017). You'll have to replace him if he can't keep up with the pace or give consistent quality. During the late 1980s and early 1990s, TQM drew a lot of attention before being eclipsed by ISO 9000, Lean manufacturing, and Six Sigma(Sabet, Adams and Yazdani, 2016). While there is no universally accepted approach, TQM operations often rely largely on quality control tools and techniques that have already been created. Total Quality Management (TQM) is a management concept designed to improve the quality of production and systems through time in order to meet the expectations of customers. TQM is a management method based on basic concepts and principles that encapsulate how a company should operate and, as a result, contribute to high levels of performance.(García-Alcaraz et al., 2019,Bigliardi and Galati, 2014),Vukomanovic, Radujkovic and Nahod, 2014) The TQM specifies the educational component's company strategy. Initiatives, approaches, and modes of education, as well as information technology and professional development, help improve the quality of instructional goals and the educational system as a whole. Aspects of the PDC are connected to the "Plan-Do-Check-Action" cycle (Larina, 2015).

They also established a high-quality assurance benchmark and ensured accurate measurement, analysis, knowledge management, and retention. As a results of using the whole quality management approach, the ultimate output would be a high-quality workforce operation and continual improvement. As seen below in (figure 1) TQM seven categories.

Several studies have stated the application of total quality management (TQM) in their empirical studies ;some example a study conducted in Portugal, TQM implementation in Portuguese Higher Education Institutions(Antunes et al., 2018) and (Fitriani, 2019) This is where TQM, which values performance and consistency, can be used in the realm of education to deliver the highest quality education possible in the

**Figure 1. TQM Seven Categories**



classroom. According to Lau, Tang and Li, (2015) Despite the fact that many of these improvement recommendations were implemented within ten years of the report's release, there is a paucity of literature documenting these accomplishments and the extent of TQM implementation. As stated by Nawelwa, Sichinsambwe and Mwanza, (2015)There is a scarcity of literature that documents accomplishments and the amount of TQM application in education. In other words, collaboration and teamwork are critical. Everyone is a client and a supplier in a TQM business; this perplexing idea underlines "the systematic structure of the activity in which all are involved." The key elements of TQM in secondary schools were discovered through research. The research focused on the principles 2, 6, 7, 10, 13, and 14 of Deming's 14 fundamental principles, which were amended by Lockwood (1992). The "Four Pillars of Total Quality Management" are well-suited to these six ideas. Synergistic relationships, constant improvement, and self-evaluation are the four pillars(Kaiseroglou and Sfakianaki, 2020). Management, teachers as employers, students as employees and customers, and learning information as a product are all explored in this study. As stated in (Nawelwa, Sichinsambwe and Mwanza, 2015) The 14 points of Deming's theory that can be applied to find improvement opportunities are:(1) Maintain a consistent goal of improvement. (2) Both management and employees must adopt the new mentality. (3) Instead of relying on quality inspection, include it into the product and process. (4) To minimize variance in raw materials and supply, choose high-quality suppliers over low-cost ones. (5) Continuously improve all aspects of planning, manufacturing, and service to eliminate variation. (6) Provide on-the-job training. If employees aren't professionally trained, they won't all work in the same way, resulting in variety. (7) Implement leadership rather than monitoring to motivate workers to do a better job rather than just fulfil targets. (8) Get rid of the dread. Fear, according to Deming, is counterproductive in the long run since it stops people from acting in the organization's best interests. (10) Get rid of slogans. It is not humans who make the majority of errors. It's the procedures they're following. Harassing employees while failing to improve the methods they utilize is ineffective. (11) Replace management goals with production goals to discourage the delivery of low-quality goods. (12) Remove obstacles to employee pleasure, such as annual appraisals. (13) Encourage everyone to enhance themselves through education and self-improvement. (14) Everyone, especially top management, is responsible for continuous quality and productivity development.

According to Awwad and Mashagba, (2014) TQM is a management concept and practice that strives to maximize the effectiveness of an organization's human and material resources in order to achieve its goals. Many organizations hold organizational development programs such as seminars, workshops, and conferences to raise quality awareness and modify employees' attitudes about TQM. TQM is a modern management method developed by Edwards Deming and used by enterprises to improve management performance. The methodologies of total quality management (TQM) and their applications in the renewable energy sector are the focus of this research. We begin with a summary of Edwards Deming's conceptual model, noting major stages in its development as described in the literature.(Busu, 2019) On the other hand, L.K. Ejionueme, (2015)also explained the process in their study stating that Total quality management can be thought of as an administrative tool. Based on their reference to (Ojo 2006), it is a customer-focused, facts-based, team-driven, and seminar-led management style that aims to provide satisfaction in the achievement of corporate goals. This ideology also provides a framework for incorporating a variety of good educational trends, such as teamwork, site-based management, cooperative learning, and outcomes-based education. Total quality management is a systematic method to education improvement, according to Deming (2004). TQM highlights teacher competency, creativity, commitment, teamwork, effective communication, and how educational administrators are required to lead in order to reach the full potential of all educational employees (Okorie and Uche, 2004). In conclusion, TQM has been incorporated into Deming's mode and can be applied to any functioning organisation as stated in the literature. Evaluation of available research, comprising W. Edward Deming's publications, from the internet and other sources: fourteen quality assurance principles(-Billah and Karim, 2021)

In this comprehensive literature review, several studies have emphasized the importance of TQM in their study. Nicolas Nicolaou and George Kentas, (2017)The study's major findings imply that by

implementing both TQM and JIT production techniques, flexibility performance may be improved, and TQM should be viewed as the platform for maximizing the influence of JIT production on flexibility performance. A study conducted in India by (Sinha, Garg and Dhall, 2016) TQM principles such as "Process Approach," "Mutually Beneficial Supplier Relationship," and "Factual Approach to Decision-Making" (TQM) have a favourable impact on the performance of Indian auto component SMEs, according to the study. (Alanazi, 2020) In their research, they discovered that primary TQM variables and strategy have a mediating role in the relationship between supportive TQM factors and organizational outcomes: The MBNQA model was used to make an empirical assessment. Primary variables and strategy alter the link between supportive factors and outcomes, whereas supportive aspects boost primary factors. The results support the MBNQA model's systems-based approach. Another study conducted in Turkey by Sadikoglu and Olcay, (2014)The findings revealed that the main challenges those Turkish businesses confront are a lack of staff involvement, employee knowledge and dedication, an inadequate firm structure, and a lack of resources. Firms should continue to use TQM across all factors in order to increase performance. Sari and Firdaus, (2018) The application of TQM has a substantial impact on competitive advantage. Similarly, a competitive edge has a major impact on the company's performance. Permana, Purba and Rizkiyah, (2021)

This is a review of 25 related publications discovered in several database such as Google Scholar, Elsevier, ScienceDirect. Directory of Open Access Journals (DOAJ) and PubMed databases.

**Procedure and Process**

**Figure 2. Systematic Review Procedure for TQM**




The finding of the systematic review is presented in table 1 below.

**Table 1**
**TQM Systematic review findings**

| TQM | Findings |
|---|---|
| **Quality Leadership Commitment Control Apply Strategy Customer focus Communication Cooperation knowledge management** | Customers' requirements define quality |
| | Quality improvement is a direct responsibility of top management. |
| | Thorough assessment and enhancement of operational activities leads to increased quality. |
| | Quality improvement is a continuous process that takes place throughout the company. |
| | organizations dedicated with resolving rapid operational concerns |
| **Continuous improvement** | Long organization transformation is the responsibility of established cross-functional teams. |

A word that was first accustomed describe a managerial strategy to improving quality. TQM may be a management technique that focuses on customer satisfaction as the way of achieving long-term success. During the late 1980s and early 1990s, TQM drew many attentions before being eclipsed by ISO 9000, Lean manufacturing, and 6 Sigma. there is no universally accepted approach, however efforts typically rely significantly on control technologies that have already been established. The human aspect, it's visiting be said, plays a serious influence in TQM. Everyone's contribution to the attainment of 1 goal is exceptionally significant and beneficial, leading to their adoption of TQM. A management approach of an organisation centred on quality, supported the participation of all its members and aiming at future success through customer satisfaction and benefits to any or all or any members of the organisation and society. Total Quality Management is also a technique for continuously improving performance at every level, and everyone told areas of responsibility.one ideal is that the Sadikoglu and Olcay study in Turkey (2014). the foremost issues that Turkish enterprises confront are a scarcity of employee involvement, employee knowledge and dedication, and an insufficient organizational structure. TQM implementation has a considerable influence on performance, based on the studies. As shown in a study conducted in India, TQM themes such as "Strategic Process," "Improved Supplier Partnership," and "Truthful Methodology to Decision-Making" (TQM) have a favourable impact on the development of Indian auto sector SMEs.

(Sinha, Garg, and Dhall, 2016). The article looks at the foremost QMPs which is able to affect the performance of SMEs within the Indian automotive component industry. These are other studies that have also supported the findings of this current review manuscript (Mehralian et al., 2016) if social responsibility toward stakeholders is entrenched in operational routines and procedures, managers can deepen their relationships with stakeholders and, as a result, increase organizational performance. This proposed framework would assist firms in implementing TQM efficiently in their organizations while taking into consideration both internal and external organizational aspects. The findings raise previous research that has revealed mixed results when it involves the direct link between social responsibility and organizational success (Nasim, 2018).

## Recommendation

It is recommended that the procedures utilized during this study be applied to other sectors of the identical segment or new segments within the longer term to contribute to more relevant studies within the world. This review study describes and recommend total quality management (TQM) for the gold mining sector in Sudan, additionally because the key components of total quality management.

## REFERENCES:


1. *Alanazi, M. H. (2020) 'The mediating role of primary TQM factors and strategy in the relationship between supportive TQM factors and organisational results: An empirical assessment using the MBNQA model', Cogent Business and Management. Cogent OA. doi: 10.1080/23311975.2020.1771074.*

2. *Antunes, M. G. et al. (2018) 'Total Quality Management Implementation in Portuguese Higher Education Institutions'. MDPI AG, p. 1342. doi: 10.3390/proceedings2211342.*

3. *Awwad, I. and Mashagba, S. (2014) 'The Impact Of Total Quality Management ( TQM ) On The Efficiency Of Academic Performance - Empirical Study - The Higher Education Sector – The University Of Jordan', International Journal of Scientific & Technology Research, 3(4), pp. 358–364. Available at: http://citeseerx.ist.psu.edu/viewdoc/download?doi=10.1.1.446.3953&rep=rep1&type=pdf (Accessed: 25 March 2022).*

4. *Bigliardi, B. and Galati, F. (2014) 'The implementation of TQM in R&D environments', Journal of Technology Management and Innovation. Universidad Alberto Hurtado, 9(2), pp. 157–171. doi: 10.4067/S0718-27242014000200012.*

5. *Billah, M. and Karim, R. (2021) 'Implementation of Total Quality Management In Education', International Journal of Scientific and Research Publications (IJSRP), 11(2), pp. 259–267. doi: 10.29322/ijsrp.11.02.2021.p11031.*

6. *Busu, M. (2019) 'Applications of TQM processes to increase the management performance of enterprises in the Romanian Renewable Energy Sector', Processes, 7(10). doi: 10.3390/pr7100685.*

7. *Fitriani, F. (2019) 'PERSIAPAN TOTAL QUALITY MANAGEMENT (TQM)', Adaara: Jurnal Manajemen Pendidikan Islam. Institut Agama Islam Negeri Bone, 9(2), pp. 908–919. doi: 10.35673/ajmpi.v9i2.426.*

8. *García-Alcaraz, J. L. et al. (2019) 'Human resource abilities and skills in TQM for sustainable enterprises', Sustainability (Switzerland). MDPI, 11(22). doi: 10.3390/su11226488.*

9. *Kaiseroglou, N. and Sfakianaki, E. (2020) 'A review of total quality management applications in schools', International Journal of Management in Education, 14(2), p. 121. doi: 10.1504/ijmie.2020.10026012.*

10. *L.K. Ejionueme (2015) 'Application of Total Quality Management (TQM) in Secondary School Administration in Umuahia Education Zone', Journal of Education and Practice, 27(1), pp. 3–16. doi: 10.18421/IJQR11.01-01.*

11. *Larina, L. N. (2015) 'Practical Application of Total Quality Management System to Education of International Students', Procedia - Social and Behavioral Sciences, 215, pp. 9–13. doi: 10.1016/j.sbspro.2015.11.566.*

12. *Lau, A. W. T., Tang, S. L. and Li, Y. S. (2015) 'The level of TQM application by construction contractors in Hong Kong', International Journal of Quality and Reliability Management, 32(8), pp. 830–862. doi: 10.1108/IJQRM-07-2013-0123.*

13. *Mehralian, G. et al. (2016) 'The effects of corporate social responsibility on organizational performance in the Iranian pharmaceutical industry: The mediating role of TQM', Journal of Cleaner Production, 135, pp. 689–698. doi: 10.1016/j.jclepro.2016.06.116.*

14. *Nasim, K. (2018) 'Role of internal and exter-*

*nal organizational factors in TQM implementation: A systematic literature review and theoretical framework', International Journal of Quality and Reliability Management. Emerald Group Publishing Ltd., 35(5), pp. 1014–1033. doi: 10.1108/IJQRM-10-2016-0180.*

*15. Nawelwa, J., Sichinsambwe, C. and Mwanza, B. G. (2015) 'An analysis of total quality management (TQM) practices in Zambian secondary schools a survey of Lusaka district', TQM Journal, pp. 716–731. doi: 10.1108/TQM-06-2015-0080.*

*16. Nicolas Nicolaou and George Kentas (2017) 'Total Quality Management Implementation Failure Reasons in Healthcare Sector', J. of Health Science. David Publishing Company, 5(2). doi: 10.17265/2328-7136/2017.02.007.*

*17. Permana, A., Purba, H. H. and Rizkiyah, N. D. (2021) 'A systematic literature review of total quality management (TQM) implementation in the organization', International Journal of Production Management and Engineering. Universidad Politecnica de Valencia., pp. 25–36. doi: 10.4995/IJPME.2021.13765.*

*18. Sabet, E., Adams, E. and Yazdani, B. (2016) 'Quality management in heavy duty manufacturing industry: TQM vs. Six Sigma', Total Quality Management and Business Excellence. Routledge, 27(1–2), pp. 215–225. doi: 10.1080/14783363.2014.972626.*

*19. Sadikoglu, E. and Olcay, H. (2014) 'The effects of total quality management practices on performance and the reasons of and the barriers to TQM practices in turkey', Advances in Decision Sciences. Hindawi Publishing Corporation. doi: 10.1155/2014/537605.*

*20. Sari, R. P. and Firdaus, A. (2018) 'The Impact of Total Quality Management Implementation on Small and Medium Manufacturing Companies', Esensi: Jurnal Bisnis dan Manajemen. LP2M Universitas Islam Negeri (UIN) Syarif Hidayatullah Jakarta, 8(1). doi: 10.15408/ess.v8i1.5852.*

*21. Sinha, N., Garg, A. K. and Dhall, N. (2016) 'Effect of TQM principles on performance of Indian SMEs: The case of automotive supply chain', TQM Journal, 28(3), pp. 338–359. doi: 10.1108/TQM-10-2014-0086.*

*22. Vukomanovic, M., Radujkovic, M. and Nahod, M. M. (2014) 'EFQM excellence model as the TQM model of the construction industry of southeastern Europe', Journal of Civil Engineering and Management. Taylor and Francis, 20(1), pp. 70–81. doi: 10.3846/13923730.2013.843582.*

**ALI AHMED Suliman Elmahdi**
***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) doktorantı,***
***AZ 1001, İstiqlaliyyət küçəsi 6, Bakı, Azərbaycan***
***Email: ali-ahmed@unec.edu.az***

**XÜLASƏ:**

Sistematik idarə: Sudanda qızıl hasilatı sənayesində məhsuldarlığın artırılmasına ümumi keyfiyyəti idarəetmə sisteminin təsiri

Ümumi keyfiyyətin idarə edilməsi metodologiyalarının meydana çıxması ilə müəssisələr məhsuldarlığın yüksəldilməsi prinsiplərini TQM tələbləri ilə birləşdirməyə başladılar. Sudanın qızıl hasilatı sektorunu narahat edən cari problemin potensial həlli ümumi keyfiyyətin idarə edilməsidir (TQM). Bu araşdırmanın məqsədi ümumi keyfiyyət idarəetməsini və onun əsas elementlərini, tətbiqlərini və Sudan qızıl hasilatı biznesinə təsirini təsvir etmək və nümayiş etdirməkdir. Biz ümumi keyfiyyətin idarə edilməsinin (TQM) təşkilati fəaliyyətə təsiri ilə bağlı tədqiqatı hərtərəfli nəzərdən keçirdik. Ümumi keyfiyyət menecmenti keyfiyyətə nəzarət sisteminin və sənayedə güclü liderliyin tətbiqi ilə yüksək keyfiyyətli fəaliyyət konsepsiyalarını yaradacaq və həyata keçirəcəkdir. Liderlər başa düşürlər ki, məhsuldarlığın artması müştəri məmnuniyyətinin artması və xərclərin azalması ilə əlaqələndirilir. Tədqiqat icmalına görə, modelin əhəmiyyəti ondan ibarətdir ki, onu istənilən biznes və ya təşkilata tətbiq etmək mümkündür. Ümumi Keyfiyyət İdarəetmə keyfiyyətə nəzarət sistemi və güclü sənaye rəhbərliyinin yaradılması vasitəsilə yüksək keyfiyyətli performans modellərinin işlənib hazırlanmasına və həyata keçirilməsinə imkan verəcəkdir. Hərtərəfli keyfiyyət idarəetmə sistemi Sudanın qızıl hasilatı sənayesinə fayda verəcək. Bu layihə yüksək səviyyəli performans konsepsiyalarını praktikada tətbiq edəcək. Bu araşdırma araşdırması Sudan qızıl mədən sənayesi üçün ümumi keyfiyyətin idarə edilməsi (TQM) təcrübələrini və TQM-nin əsas elementlərini təsvir edir və təklif edir.

**Açar sözlər:** *öhdəlik, nəzarət, idarəetmə, keyfiyyət liderliyi, strategiya*

**АЛИ АХМЕД Сулиман Эльмахди**
*Докторант Азербайджанского Государственного Экономического Университета (UNEC)*
*AZ 1001, İstiqlaliyyət küçəsi 6, Баку, Азербайджан*
*Email: ali-ahmed@unec.edu.az*

## РЕЗЮМЕ:

Систематический обзор: влияние полного управления качеством на результативность золотодобывающей промышленности в Судане

С появлением методологий тотального управления качеством предприятия начали объединять принципы повышения производительности с требованиями тотальное управление качеством (TQM). Потенциальным решением текущей проблемы, от которой страдает суданский золотодобывающий сектор, является TQM. Из-за низкого качества методов управления и лидерства, которые влияют на организационную деятельность в суданской золотодобывающей промышленности. Целью данного обзорного исследования является описание и демонстрация общего управления качеством, а также его основных элементов, применений и влияния на суданский золотодобывающий бизнес. Мы провели тщательный анализ исследования влияния всеобщего управления качеством на эффективность работы организации. Тотальное управление качеством позволит создать и реализовать концепции высококачественной деятельности за счет внедрения системы контроля качества и сильного лидерства в отрасли. Руководители осознают, что повышение производительности коррелирует с повышением удовлетворенности клиентов и снижением расходов. Согласно обзору исследования, значимость модели заключается в том, что ее можно применить к любому бизнесу или организации. Выводы статьи. Тотальное управление качеством позволит разработать и внедрить модели высококачественной деятельности за счет создания системы контроля качества и сильного лидерства в отрасли. Комплексная система управления качеством будет полезна для золотодобывающей промышленности Судана. Этот проект позволит реализовать на практике высококлассные концепции производительности. В этом обзорном исследовании излагаются и предлагаются всеобщие методы управления качеством для суданской золотодобывающей промышленности, а также основные элементы TQM.

**Ключевые слова:** *приверженность, контроль, менеджмент, лидерство в области качества, стратегия.*

UOT: 339.74
DOI:10.30546/3006-0346.2023.6.78.115

# MONETAR SİYASƏTİN QİYMƏTLİ KAĞIZLAR BAZARINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ

**FƏXRİ SƏTTƏROV**

*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı*

*E-mail: fakhrisattarov@gmail.com*

Maliyyə bazarı ənənəvi olaraq mövcud olan və yeni yaranan maliyyə institutlarının infrastrukturunu təşkil edən xüsusi, spesifik fəaliyyət sahəsidir. Bu qurumlar maliyyə alətləri üzrə əməliyyatlar vasitəsilə maliyyə xidmətləri göstərirlər. Bu zaman maliyyə xidmətləri bazarında maliyyə resurslarının alıcı və satıcılarının mövcudluğundan danışmaq olar ki, bunun da mahiyyəti təsərrüfat subyektləri arasında maliyyə resurslarının hərəkətinin təşkilinin konkret formalarını əks etdirir. Maliyyə bazarı çoxlu müxtəlif elementləri özündə birləşdirən mürəkkəb bir obyektdir. Maliyyə bazarı firmaların və şəxslərin səhmlər, istiqrazlar və ya fyuçers müqavilələri kimi müəyyən bir məhsulu satmaq və ya almaq üçün müqavilə bağladıqları yerdir. Alıcılar ən aşağı qiymətə almağa, satıcılar isə ən yüksək qiymətə satmağa meyillidirlər. Nə almaq və ya satmaq istədiyinizdən asılı olaraq bir neçə fərqli maliyyə bazarı var, lakin onların hamısı peşəkar insanlar tərəfindən idarə olunur və tənzimlənir [1, s.106]. Maliyyə bazarında, bir qayda olaraq, aşağıdakı seqmentlər fərqləndirilir: pul, qiymətli kağızlar, kapital, qiymətli metallar, sığorta və valyuta bazarları. Qiymətli kağızlar şəklində müxtəlif maliyyə alətləri maliyyə bazarının bütün sahələrinə xidmət edir, odur ki, qiymətli kağızlar bazarı (QKB) eyni zamanda pul, kapital və törəmə alətlər bazarının bir hissəsidir.

QKB - qiymətli kağızların buraxılması və tədavülü prosesində sərbəst kapitaldan istifadə edilməsi nəticəsində təsərrüfat subyektləri arasında formalaşan iqtisadi münasibətlər sistemidir. Maliyyə bazarının əsas hissəsini məhz QKB təşkil edir. Maliyyə bazarının səmərəli fəaliyyət göstərən əsas elementlərindən hesab olunan QKB, maliyyə resurslarının iqtisadiyyatın müxtəlif sahələrinə operativ axınını təmin edən və investisiyaları stimullaşdıran sahədir. Belə bir bazarın olması bütün ölkələr üçün böyük önəm daşıyır. QKB dövlət büdcəsi və bank sistemi kimi iqtisadiyyatın maliyyələşdirilməsinin alternativ mənbələrindəndir. Bu bazar növü müxtəlif amillərdən asılı olaraq fəal şəkildə əmtəə və pul dövriyyəsinə xidmət edir [2, s.180].

QKB-nin iqtisadi kateqoriya kimi anlayışı birmənalı deyil və elmi müzakirə predmetidir. Elmi məktəblərin nümayəndələrinin bu tərifə yanaşmalarını təhlil edək. Birinci yanaşmaya görə, QKB-ni pul resurslarının mübadiləsinin xüsusi mexanizmi ilə xarakterizə olunan daha böyük bazarın seqmenti kimi müəyyən etmək olar. QKB maliyyə bazarının pul resurslarının mübadiləsini həyata keçirən və bu resursların nisbi qiymətlərinin formalaşmasında iştirak edən seqmentidir. Bu bazarda mübadilə mexanizminin özəlliyi bu mübadiləni təmin edən əsas müqavilənin, yəni qiymətli kağızın özəllikləri ilə bağlıdır. İkinci yanaşmaya görə, QKB-ni müəyyən alətlərin formalaşması və istifadəsi prosesləri zamanı yaranan pul münasibətlərinin məcmusu kimi nəzərdən keçirmək olar: QKB, satınalma yolu ilə vəsaitlərin yığılmasını, yenidən bölüşdürülməsini və investisiya edilməsini təmin edən pul münasibətləridir. Üçüncü yanaşmaya görə, QKB, cari (ədalətli) tarazlıq qiyməti müəyyənləşdirmək və investisiya gəliri əldə etmək məqsədi ilə onun iştirakçıları arasında qiymətli kağızların, habelə törəmə maliyyə alətlərinin buraxılması və onların dövriyyəsi ilə əlaqəli olan iqtisadi münasibətlərin məcmusudur.

Hazırda maliyyə bazarının tərkib hissələrindən ən əsası hesab olunan QKB-nin rolu və əhəmiyyəti dəfələrlə artır. Bu tendensiya bazar münasibətlərinin əhəmiyyətli transformasiyası ilə əlaqələndirilir. Rəqəmsallaşmanın inkişafı qlobal maliyyə platformalarında müxtəlif əməliyyatları uzaqdan reallaşdırmağa imkan verir ki, belə vəziyyət pərakəndə investorların sayının xeyli artmasına səbəb ola bilir. QKB-ni nəzəri-metodoloji baxımdan xarakterizə etmək olar. Bu, onun fəaliyyət göstərməsi, maliyyə bazarının struktur elementləri sistemində rolu və yeri üçün müəyyən şərtlər qoyur. Bu halda əmanətlərin investisiyaya çevrilməsi QKB-nin fəaliyyətinin təbii nəticəsidir. Odur ki, QKB-nin əsas məqsədi əmanətlərin investisiyaya çevrilməsi mexanizmi vasitəsilə müvəqqəti boş pul vəsaitlərini toplamaqdan və onu iqtisadiyyatın perspektivli sahələrinin inkişafına yönəltməkdən ibarətdir. Bazar münasibətləri inkişaf

etmiş istənilən cəmiyyətdə QKB-nin ən önəmli vəzifəsi budur. Müxtəlif iqtisadi ədəbiyyatlarda QKB-nin məqsədi müxtəlif bazar iştirakçıları ilə qiymətli kağızlarla əməliyyatlar aparmaqla maliyyə resurslarını toplamaq və onların yenidən bölüşdürülməsi imkanlarını təmin etmək kimi göstərilir [3, s.36].

Dövlət tərəfindən dövriyyəyə buraxılan qiymətli kağızların hərəkəti müxtəlif sahələrə və bütövlükdə iqtisadiyyata təsir göstərir. Qiymətli kağızları təkcə büdcəyə və ya ayrı-ayrı layihələrə vəsait cəlb etmək baxımından deyil, habelə pul kütləsini tənzimləmək və ölkənin maliyyə problemlərini həll etmək məqsədilə buraxılır [4, s.4]. Hazırda qiymətli kağızlar ödəniş və kredit vasitəsinə çevrilmək qabiliyyətinə malik çevik maliyyə alətləridir. QKB-nin bir qrup növləri vardır: 1. Əsasını pul seqmenti təşkil edən qısamüddətli likvid qiymətli kağızlar bazarı. 2. Əsasını kapitalın maliyyələşdirilməsi təşkil edən əmlak hüquqları bazarı. 3. Əsasını borc maliyyələşdirməsi təşkil edən borc öhdəlikləri bazarı [5, s.95]. Ümumiyyətlə, QKB müasir maliyyə sisteminin tərkib hissəsidir və ölkənin uzunmüddətli iqtisadi inkişafı imkanlarını müəyyən edən investisiyaların cəlb edilməsi problemlərini həll etməlidir. Başqa sözlə, QKB maliyyə bazarının tərkib hissəsi kimi, milli maliyyə sisteminin struktur xüsusiyyətləri ilə müəyyən edilmiş miqyasda əmanətlərin investisiyalara çevrilməsi mexanizminin işləməsini təmin edir. QKB, investisiya məqsədləri üçün maliyyə resurslarının cəlb edilməsi, iqtisadiyyatın modernləşdirilməsi, habelə istehsalın artımının stimullaşdırılması üçün əsas mexanizmlərdən biri kimi çıxış edir.

QKB iqtisadiyyat üçün bir sıra mühüm funksiyaları yerinə yetirir: bütün növ kapitala maliyyə resurslarının cəlb edilməsi məqsədilə alət rolunu oynayır; müəssisələrin mülkiyyətinin yenidən qurulmasına və onların bazar dəyərinin qiymətləndirilməsinə köməklik göstərir; risk sığortası ilə bağlı problemləri həll edir; istiqrazların buraxılması zamanı dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi funksiyasını yerinə yetirir və dövlət borcunun idarə olunmasına kömək edir. QKB-nin bir sıra funksiyaları da var: 1. Stimullaşdırıcı funksiya – hüquqi və fiziki şəxslərin bazar iştirakçısına çevrilməsinə həvəsləndirilməsi. 2. Nəzarət funksiyası - bütün bazar iştirakçılarına nəzarət. 3. Uçot funksiyası - bütün növ qiymətli kağızların, iştirakçıların, habelə əməliyyatların xüsusi registrlərdə uçotunun aparılması. 4. Tənzimləmə funksiyası - normativ hüquqi aktların köməyi ilə birja əməliyyatlarının tənzimlənməsi [6]. Tənzimləmə funksiyası əsasən dövlət tərəfindən reallaşdırılır. Tənzimləmə fond bazarları iştirakçılarının fəaliyyətini tənzimləyən müxtəlif normativ hüquqi aktların buraxılması yolu ilə reallaşdırılır. QKB-də tənzimləmə funksiyası təsərrüfat subyektlərinin davranışını tənzimləməyə və iştirakçıların maraqları balansını saxlamağa imkan verən qaydalar sisteminin yaradılması ilə reallaşdırılır. Təcrübədə dövlət tənzimlənməsinin 2 növü mövcuddur: a) Birbaşa tənzimləmə, normativ hüquqi aktlar vasitəsilə bazar iştirakçılarına müəyyən tələblərin müəyyən edilməsindən, bu tələblərin yerinə yetirilməsinə nəzarətdən ibarətdir. b) Müxtəlif iqtisadi vasitələri özündə cəmləşdirən dolayı tənzimləmə, məsələn, monetar siyasətdə, vergi sistemlərində dəyişikliklər və s. 5. Yığım funksiyası ondan ibarətdir ki, müxtəlif təsərrüfat subyektlərinin müvəqqəti sərbəst vəsaitləri daha sonra investisiya resursları kimi istifadə etmək məqsədilə qiymətli kağızların buraxılması yolu ilə toplanır. 6. Bölüşdürmə funksiyası müxtəlif mənbələrdən maliyyə resurslarının daimi hərəkətinin təmin edilməsində ifadə olunur. Nağd pul vəsaitləri müəssisələr, rayonlar və sənayelər arasında bölüşdürülür, daha az işgüzar aktivliyə malik olan, sərmayənin gəlirliliyi aşağı olan sahələrdən daha çox işgüzar aktivlik olan, investisiyanın gəlirliliyi yüksək olan sahələrə keçir. 7. QKB-nin investisiya funksiyası ondan ibarətdir ki, bəzi təsərrüfat subyektlərinin müvəqqəti sərbəst vəsaitləri qiymətli kağızlara investisiya qoymaqla digər təsərrüfat subyektlərinə borc verilir. Beləliklə, vəsaitlər istehsal dövrünə cəlb olunur və qiymətli kağızlar üzrə gəlirlərin ödənilməsi mənbəyi olan əlavə dəyər şəklində geri qaytarılır. 8. QKB-nin informasiya funksiyası ondan ibarətdir ki, bazarda informasiyanın ötürülməsi üçün müxtəlif iştirakçıları, kanalları, metod və texnologiyaları birləşdirən informasiyanın açıqlanması sistemi yaradılır. Beləliklə, iştirakçılar maliyyə aktivlərinə investisiya qoymaq barədə qərar qəbul edərkən onların davranışlarına təsir edən bazarda mövcud vəziyyət haqqında məlumat alırlar. 9. QKB-də hüquqların yenidən bölüşdürülməsi funksiyası səhmdarın biznesin idarə edilməsində iştirakına imkan verən pay qiymətli kağızları ilə əməliyyatlar vasitəsilə reallaşdırılır. 10. Riskin yenidən bölüşdürülməsi funksiyası QKB-nin iştirakçılarının müxtəlif törəmə maliyyə alətləri (forvard, fyuçers, opsion və svop müqavilələri) ilə əməliyyatlar aparmaq imkanının olmasında özünü göstərir ki,

bu da qeyri-müəyyənliklə bağlı riskləri azaldır. 11. QKB-də borcun likvidliyinin artırılması funksiyası onunla ifadə olunur ki, qiymətli kağızlar şəklində olan borc öhdəlikləri (istiqrazlar, veksellər və s.) adi bank krediti müqavilələrinə nisbətən daha likviddir [7, s. 79]. Bütün qeyd olunan funksiyalar ölkə iqtisadiyyatının uğurlu inkişafı üçün əsasdır. Belə ki, QKB bir çox mühüm funksiyaları yerinə yetirir və iqtisadiyyatda önəmli rollardan birini oynayır, çünki burada balanslaşdırılmış və səmərəli iqtisadi artıma kömək edən proseslər baş verir.

QKB-nin əsas iqtisadi funksiyalarına iqtisadi ədəbiyyatlarda müxtəlif yanaşmalar mövcuddur. Məsələn, bəzi ədəbiyyatlarda QKB-nin əsas funksiyaları kimi müvəqqəti boş pul vəsaitlərinin yığılmasına kömək edilməsi, maliyyə axınlarının tənzimlənməsi, mülkiyyət hüquqlarının yenidən bölüşdürülməsinin təmin edilməsini, dövlət borcuna xidmət göstərilməsini və s. ayırd edirlər. Bəzi ədəbiyyatlarda isə QKB-nin bölgü, tənzimləmə, maliyyə risklərinin sığortası, informasiya, qiymət və s. funksiyaları göstərilir [8, s.167]. QKB-nin əsas vəzifəsi, əsasən bunlardan ibarətdir: investisiya resurslarının sektorlararası daha çevik yenidən bölüşdürülməsinin mümkünlüyünün təmin edilməsi; xarici və milli investisiyaların maksimum mümkün axınının təmin edilməsi; yığımın stimullaşdırılması üçün əlverişli şəraitin formalaşdırılması, habelə əhalinin əmanətlərinin investisiyalara çevrilməsi. QKB müxtəlif institutların, mexanizmlərin və vasitələrin köməyi ilə maraqlı təsərrüfat subyektləri ilə iqtisadi əlaqələr qurmaq yolu ilə iqtisadiyyata investisiyaları cəlb edir [9, s. 134].

QKB-nin yerinə yetirdiyi vəzifələrin əsası, öncə, sektorlararası investisiya resurslarının yenidən bölüşdürülməsini təmin etmək, habelə investisiyaların maksimum mümkün axınını təmin etməkdir. İqtisadiyyatın ölkə daxilində və xaricdən maliyyələşdirilməsi, qənaətlərin investisiyalara çevrilməsi üçün lazımlı şərtlərin formalaşmasıdır. O, maliyyə resurslarının cəlb edilməsi mənbəyi kimi investisiya mühitini inkişaf etdirir. QKB-nin inkişafı fond bazarının bütün iştirakçıları üçün sivil təşkilati-hüquqi fəaliyyət formalarının yaradılması zərurəti ilə bağlıdır [10, s. 345].

Monetar siyasətin reallaşdırılması zamanı əldə edilən məqsədləri bir neçə kriteriyaya görə təsnif etmək olar. Strateji məqsədlər monetar siyasətin əsas, uzunmüddətli hədəfləridir. Strategiya məqsədlərin seçilməsini, onların parametrlərinin müəyyənləşdirilməsini, məqsədlərin iyerarxiyasının qurulmasını nəzərdə tutur. Strateji məqsədlər bazar iqtisadiyyatı olan bütün dövlətlərə xas olan makroiqtisadi inkişafın qlobal məqsədləridir. Bir qayda olaraq, bunlar uzun müddət üçün nəzərdə tutulmuş strateji məqsədlərdir. Bu məqsədlərə inflyasiyanın aşağı səviyyəsinin və qiymət sabitliyinin qorunması, maksimum məşğulluğun təmin edilməsi, istehsal həcminin artırılması, tədiyyə balansının tarazlaşdırılması daxildir.

Azərbaycanın monetar siyasəti onun iqtisadiyyatının və QKB-nin böyüməsini və təkmilləşməsini davam etdirməsi ilə xarakterizə edilə bilər. Dünya təcrübəsində monetar siyasət ənənəvi olaraq dövlətin iqtisadi sferaya təsirinin əsas alətlərindən biri kimi qeyd olunur. Davam edən əlaqələndirilmiş və balanslaşdırılmış monetar siyasət iqtisadiyyatın idarə edilməsində ən vacib aspektdir, bütün iqtisadi sistemin sabitliyi və inkişafı çox vaxt ondan asılıdır.

Monetar siyasətin məzmunu məsələlərinin nəzəri və metodoloji tədqiqatları bu iqtisadi kateqoriyanın çoxşaxəliliyini və müxtəlifliyini üzə çıxarmışdır. Bütün yuxarıda deyilənləri ümumiləşdirərək monetar siyasətin aşağıdakı tərifini formalaşdırmaq olar: “Monetar siyasət - pul dövriyyəsinin və pul kütləsinin tənzimlənməsi üçün xüsusi maliyyə-kredit institutlarının vasitəçiliyi ilə dövlətin iqtisadi strategiyasıdır ki, həmin strategiya sosial inkişafın hər bir konkret mərhələsində ən yaxşı müsbət iqtisadi və sosial nəticəyə nail olmaq, həmçinin inflyasiyaya nəzarət etmək, iqtisadi artım üçün şərait yaratmaq və xarici iqtisadi mühiti formalaşdırmaq məqsədi daşıyır” [11, s.179].

Monetar siyasətin əsas elementləri bunlardır: məqsədi, subyektləri, obyektləri, metodları, alətləri və mexanizmi. Monetar siyasətə daxil olan müəyyənedici elementlər onun obyektləridir. Monetar siyasətin iqtisadi əsaslarının spesifik xüsusiyyətləri onun obyektlərinin xüsusiyyətlərindən irəli gəlir. Əksər tədqiqatçıların fikrincə, tənzimləmə obyektləri pul tələbi və təklifidir. Təsir obyektlərinə bütün reproduktiv proses daxildir.

Pul tələbinin dəyəri, eləcə də onların təklifi müxtəlif amillərdən asılıdır ki, bu da bu dəyəri dəqiq proqnozlaşdırmaq imkanında özünü göstərir və onlar kifayət qədər dəqiq ölçülə bilər. Monetar siyasəti bilavasitə reallaşdıran qurumlarla birlikdə onun subyektlərinə bu siyasətin reallaşdırılmasında dolayısı ilə iştirak edən orqanlar da aid edilə bilər. Mərkəzi Bank monetar siyasətə əlində olan mexanizm və

alətlərdən istifadə etməklə təsir göstərir. Digər tərəfdən, gündəlik monetar siyasətin həyata keçirildiyi üsullar inflyasiyanın hədəflənməsi, məzənnənin sabitləşdirilməsi və s. formasında taktiki məqsədlərlə müəyyənləşdirilir.

## YEKUN

Yaxın perspektivdə Azərbaycanda monetar siyasətin təkmilləşdirilməsi və bununla bağlı tənzimləyici tədbirlərin görülməsi, monetar siyasətin qiymətli kağızlar bazarına təsirinin obyektiv olaraq qiymətləndirilməsi üçün bir qrup amillərə və məsələlərə daha çox diqqət yetirilməlidir:

- QKB bank sektoruna alternativ kimi çıxış edir və təkcə müəssisənin deyil, bütövlükdə iqtisadiyyatın kapitalının ilkin yığılmasında önəmli rol oynayır;
- Əhalinin əmanətləri və müvəqqəti azad maliyyə resursları uğrunda mübarizəyə girən QKB müasir şəraitdə bank sisteminə rəqibdir;
- QKB dövlətin maliyyə resurslarının yenidən bölüşdürülməsində önəmli rol oynadığından və bazar iqtisadiyyatının uğurlu inkişafı üçün də zəruri olduğundan bu sahədə effektiv monetar siyasətin reallaşdırılması vacibdir;
- Məhz buna görə QKB-nin formalaşdırılması, inkişafı və tənzimlənməsi getdikcə daha çox hökumətin monetar siyasəti qarşısında duran daim prioritet vəzifə olmalıdır və s.

**Açar sözlər:** *Azərbaycan, Mərkəzi Bank, monetar siyasət, qiymətli kağızlar bazarı, qiymətləndirmə, nəzəri yanaşmalar, metodoloji aspektlər.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Яйылов, А. Особенности финансового рынка и рынка ценных бумаг / А. Яйылов, С. Меретгелдиева, М. Сапарлыева // Вестник науки. – 2022. – Т. 4, № 12(57). – С. 104-107.*

*2. Valehli R. Azərbaycanda qiymətli kağizlar bazarı: problemlər və inkişaf yolları. "İqtisadiyyat və idarəetmə" ixtisasları üzrə magistrantların Beynəlxalq elmi konfransı, Xülasələr, Bakı, 2019, 418 s.*

*3. Məmmədova N.A. Azərbaycanda qiymətli kağızlar bazarı və onun inkişaf perspektivləri. Audit 2021, 4 (34), s.35-46.*

*4. Axundov F.T. Azərbaycan Respublikası dövlət qiymətli kağızlar bazarının modelləşdirilməsi. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2021, 24 s.*

*5. Айзетуллова, Д.И. Современное развитие рынка ценных бумаг как рынка услуг / Д.И.Айзетуллова, Е.В.Бабкина // Вестник науки. – 2018. – Т. 3, № 9(9). – С. 95-96.*

*6. Демченко, О.С. Регулирование рынка ценных бумаг: нововведения / О.С. Демченко, Е.А. Ходяков, С.Е.Шпирук // Вектор экономики. – 2019. – № 6(36). – С. 127.*

*7. Бырко, М.И. Теоретические подходы к сущности и функциям рынка ценных бумаг как сегмента финансового рынка / М.И.Бырко, Т.В.Решетникова // Молодежь и XXI век - 2022: Материалы 12-й Международной молодежной научной конференции. В 4-х томах, Курск, 17–18 февраля 2022. – С. 77-80.*

*8. İbrahimov E.Ə. Davamli iqtisadi inkişaf şəraitində dövlətin maliyyə siyasətinin prioritet istiqamətləri. AMEA İqtisadiyyat İnstitutunun 60 illik Yubileyinə həsr olunmuş "İqtisadi artım və ictimai rifah" mövzusunda Beynəlxalq elmi-praktiki Konfransın materialları, Bakı, 2018, s.165-171.*

*9. Горловская И.Г. Рынок ценных бумаг как рынок услуг // Вестник Омского университета. Серия «Экономика». – 2009. - №1. – С. 134-137.*

*10. Грехнева, Л. С. Понятие, сущность и механизм организации деятельности на рынке ценных бумаг / Л.С.Грехнева // Академическая публицистика. – 2019. – № 5. – С. 345-349.*

*11. Коноплева, Ю.А. Теоретические подходы к трактовке понятия единой государственной денежно-кредитной политики / Ю.А. Коноплева, Д.М. Анимукова // Проблемы развития экономических систем: вызовы современности: Материалы III Международной научно-практической конференции, Тамбов, 08–09 ноября 2018. – С. 174-179.*

**ФАХРИ САТТАРОВ,**
***докторант Азербайджанского Государственного Университета Нефти и Промышленности***
***E-mail: fakhrisattarov@gmail.com***

## ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ОЦЕНКИ ВЛИЯНИЯ МОНЕТАРНОЙ ПОЛИТИКИ НА РЫНОК ЦЕННЫХ БУМАГ

**РЕЗЮМЕ:**

В статье исследованы теоретико-методологические аспекты оценки влияния монетарной политики на рынок ценных бумаг. С этой целью раскрыта сущность проблем формирования и развития рынка ценных бумаг. Анализирована особенность монетарной политики страны в условиях глубокой трансформации мирового рынка финансов. Рассмотрены важнейшие аспекты и проблемы эффективной организации монетарной политики страны с целью усиления финансовой стабильности. Отмечена необходимость интенсификации развития рынка ценных бумаг с целью обеспечения совершенствования действующих механизмов на данном рынке. Подготовлен ряд рекомендаций и предложений по совершенствованию влияния монетарной политики страны на рынок финансовых бумаг с целью его объективной оценки.

**Ключевые слова:** *Азербайджан, Центральный Банк, монетарная политика, рынок ценных бумаг, оценка теоретических подходов, методологические аспекты.*

**FAKHRI SATTAROV,**
**doctoral student of Azerbaijan State Oil and Industry University**
**E-mail: fakhrisattarov@gmail.com**

## Theoretical and methodological aspects of assessing the impact of monetary policy on the securities market

**SUMMARY:**

The article investigates theoretical and methodological aspects of assessing the impact of monetary policy on the securities market. For this purpose the essence of the problems of formation and development of the securities market is revealed. The peculiarity of monetary policy of the country in the conditions of deep transformation of the world finance market is analyzed. The most important aspects and problems of effective organization of the monetary policy of the country in order to strengthen financial stability are considered. The necessity to intensify the development of the securities market in order to ensure the improvement of the existing mechanisms in this market has been noted. A number of recommendations and proposals on improvement of influence of monetary policy of the country on the financial securities market for the purpose of its objective estimation have been prepared.

**Keywords:** *Azerbaijan, Central Bank, monetary policy, securities market, assessment of theoretical approaches, methodological aspects.*

UOT: 339.74
DOI:10.30546/3006-0346.2023.6.78.120

# AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK TƏNZİMLƏNMƏSİNDƏ GÖMRÜK REJİMLƏRİNİN TƏTBİQİNİN MÖVCUD VƏZİYYƏTİ

**FƏRİD BABAYEV**
*Bakı Dövlət Universiteti*
*Dünya İqtisadiyyatı kafedrası.*
*İqtisad üzrə fəlsəfə doktoru*
*E-mail: faridier17@gmail.com*

**NURAY ORUCOVA**
*Bakı Dövlət Universiteti*
*Dünya İqtisadiyyatı kafedrası,*
*magistr*
*E-mail: nurayorujova691@gmail.com*

## Giriş

Bildiyimiz kimi gömrük rejimi xarici iqtisadi əlaqələrin inkişafına, dövlət təsirinin həyata keçirildiyi gömrük tənzimlənməsi vasitələrinə kompleks şəkildə kömək edən xüsusi tədbirlər sistemi və metodların məcmusudur. Deməli, gömrük rejimi gömrük məqsədləri üçün gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələrinin statusunu təyin edən qaydaların məcmusudur. Hazırda Gömrük Məcəlləsinə əsasən 15 gömrük rejiminin tətbiqi mövcuddur.

Azərbaycan Respublikasının gömrük ərazisinin sərhədləri, eləcə də sərbəst gömrük ərazilərinin və sərbəst saxlanc anbarlarının hüdudları ölkəmizin gömrük sərhədi adlandırılır. Azərbaycan Respublikasının ərazisinə əmtəələrin və nəqliyyat vasitələrinin qanunvericiliyin tələblərinə uyğun olan qaydalara əsasən gətirilməsi yaxud müvafiq ərazidən çıxarılması istiqamətində reallaşdırılan əməliyyatlar gömrük sərhədindən keçirilmə adlanır. Gömrük orqanlarının müvafiq standartlara uyğun davranması və vəzifələrini yerinə yetirməsi əsasən gömrük rejimlərini əhatə edir. Azərbaycan Respublikasının 1991-ci ildə müstəqillik əldə etdiyi dövrdən başlayaraq gömrük ekspertiziyasında yerli gömrük avadanlıqlarından, cihaz rekvizitləri ilə təmin olunması laboratoriyaların açılması ilə bağlı olan həyata keçirilmiş bir sıra məsələlər barədə məlumatlar açıqlanmışdır. Azərbaycan iqtisadiyyatının inkişaf etməsi məqsədi ilə istənilən metodun həyata keçirilməsi ölkədə yaranan iqtisadi proseslərin dərindən araşdırılmasını, maliyyə tənzimləyicilərinin istifadəsi ilə iqtisadi inkişafın aspektlərinin araşdırılmasını, genişmiqyaslı prosesdə fasiləsizliyin təmin edilməsini tələb edir. Belə olan halda ölkədə gömrük və vergi sistemlərinin doğru tənzimlənməsi mühüm rola malikdir.

## Əsas hissə

Gömrük rejimləri və onların həyata keçirilmə metodları müxtəlif xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətləri onların tələblərinin yerinə yetirilməsi, müvafiq qanunvericiliyə uyğun tədbirlərin görülməsində öz əksini tapır. Azərbaycan Respublikasında mövcud olan gömrük rejimlərini şərti qaydada bəzi müxtəlif qruplarda birləşdirə bilərik. Əmtəələr, onları sərhəddən keçirənlərin tam formada sərəncamına daxil olur, daha doğrusu həmin gömrük rejimləri öz xarakterinə görə yekunlaşmış qəbul edilir. Mövcud gömrük rejimləri beynəlxalq, ticarət və sənaye daşımaların inkişafina xidmət göstərir. Bildiyimiz kimi, Azərbaycan hazırki dövrdə ticarət əməliyyatlarının intensiv şəkildə həyata keçirilməsi istiqamətində ciddi tədbirlər həyata keçirir. Son dövrlərin iqtisadi situasiyası deməyə əsas verir ki, beynəlxalq ticarət ölkə iqtisadiyyatının davamlı və dayanıqlı inkişafi üçün əsas şərtdir. Bu baxımdan daxili istehsal mühitinin səmərəliliyinin artırılması istiqamətində dövlət siyasətinin həyata keçirilməsi, sənayenin stimullaşdırılması ilə bağlı dövlət siyasəti ticarət əməliyyatlarının məntiqli nəticələnməsi üçün xidmət göstərir. Qeyd etmək lazımdır ki, müvafiq gömrük rejimləri mükəmməl təşkil edilmiş iqtisadi siyasətin inkişafina yalnız təkan verə bilər. Azərbaycanda sənayenin inkişafı ilə bağlı həyata keçirilən dövlət tədbirləri, Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinin Prezident tərəfindən imzalanması, “Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlər almasına, ixracla əlaqədar tədqiqat və təkmilləşdirmə proqramları, eləcə də layihələrinə sərf edilən vəsaitlərin dövlət büdcəsindən ödənilən hissəsinin müəyyən edilməsi

və ödənilməsi mexanizminin tənzimlənməsi Qaydası" kimi əhəmiyyətli addımlar gömrük orqanları üzərinə əlavə məsuliyyət qoyur. Gömrük rejimlərinin qanunvericiliyin tələblərini tam olaraq yerinə yetirməsi yuxarıda qeyd etdiyimiz kimi, ticarət, sənaye və nəqliyyat əməliyyatlarının intensivliyini artıraraq, iqtisadi rentabelliyi təmin edəcəkdir [6.s120]. Gömrük tarif tənzimlənməsi dünya ölkələri və eyni zamanda da vətənimiz Azərbaycanın iqtisadi inkişafının müəyyənləşdirilməsində əsas məsələ hesab olunur. Gömrük tənzinlənməsi gömrük rejimlərinin və gömrük ekspertizasının nəticəsində həyata keçirilir.

Gömrük rejimləri ilə yanaşı gömrük ekspertizası da tənzimlənmədə böyük rola malikdir. Ekspertiza (fransızca espertise, latınca espertus - təcrübəli) - mütəxəssis-ekspert tərəfindən elmi, texniki, iqtisadi, ticarət və başqa sahələrdə həlli xüsusi bilik tələb edən, hər hansı bir məsələnin tədqiq və müayinə edilib, həmin məsələyə əsaslandırılmış rəy verilməsidir. Ekspertizanın aparılması mütəxəssis-ekspertlərə həvalə olunur. Ekspert-mütəxəssis, maraqlı tərəflərdən asılı olmayan aparıcı və neytral bir şəxs olmalıdır. Ekspertiza aparan zaman ekspertlər obyektivlik, səlahiyyətlilik, müstəqillik, işlərə sistemli yanaşma, səmərəlilik, istehlakçılar və ətraf mühit üçün malların təhlükəsizliyi prinsiplərinə əməl etməlidirlər. Gömrük işi məsələləri isə fiskal, nəzarət, iqtisadi, hüquq-mühafizə, statistik və müdafiə xarakterli olur. Əlbəttə ki, göstərilən məsələlərin həlli müxtəlif xarakterli ekspertizaların həyata keçirilməsini tələb edir. Əsaslandırılmış ekspertizaların təyin edilməsi üçün isə gömrük orqanı əməkdaşları müvafiq ekspertizaların keçirilməsinin nəzəri və praktiki əsaslarını bilməlidir. Məsələn, onun predmetini,obyektinin tədqiqi metodlarını, imkanlarını və s. Gömrük ekspertizası ekspertizanın xüsusi sinfinə aid edilir. Belə ki, o özünün xüsusi xarakterli əlamətlərinə malikdir. Yəni onun öz xüsusi predmeti, vəzifələri obyektləri, tədqiqat metodları var. Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə əsasən, gömrük tənzimlənməsinin məqsədləri üçün aşağıda sadalanan gömrük rejimlərinin müxtəlif növləri tətbiq edilir: sərbəst dövriyyə üçün buraxılış; təkrar idxal; tranzit; gömrük anbarı; rüsumsuz ticarət mağazası; gömrük ərazisində emal; gömrük nəzarəti altında emal; müvəqqəti idxal (ixrac); sərbəst gömrük zonası; gömrük ərazisindən kənarda emal; ixrac; təkrar ixrac; məhv etmə; dövlətin xeyrinə maldan imtina. [1.s17]. Ümumiyyətlə götürdükdə bazar iqtisadiyyatına keçid üçün səmərəli və uzunmüddətli strategiya olmalı, yəni struktur dəyişiklikləri, uzunmüddətli və gəlirli sənaye qoyuluşu, yəni sərmayedarların cəlb olunması, özəlləsdirmə sabitlik və s. şəkildə olmalıdır. Gömrük ekspertizasının aparılması gömrük nəzarətinin mühüm qolu kimi Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyi və mənafeyinin qorunması, gömrük işinin təşkili sahəsində hüquqi pozulma hallarının aşkar olunması, profilaktikası və aradan qaldırılması, qaçaqmalçılığın qarşısının alınması qaçaqmalçılığın ləğvi, istehlakçı hüquqların qorunması, daxili istehsalçıların hüquq və iqtisadi mənafelərinin müdafiəsi və s kimi məsələlərin həlli prosesində rolu əvəz olunmaz olaraq qalmaqdadır. [2.s89]

Gömrük ekspertizası əmtəənin gömrük dəyərinin təyin olunması malın, mənşə ölkəsinin təyin olunması, malların eyniləşdirilməsinin, malların tərkibi, fiziki kimyəvi strukturunun təyin olunması, malların çeşid və növünün təyin istehlak hallarının narkotik maddələr, güclü təsirli zərərli maddələr qrupuna mənsubiyyət təmin olunması və s kimi məsələlərin müəyyənləşdirilməsi məqsədilə aparılır.

Gömrük ekspertizasının aparılmasının səmərəli təşkilinin iqtisadiyyatımızın inkişafında oynadığı mühüm rolunu müəyyən etmək tədqiqatın vacibliyini üzə çıxarır.

Gömrük sisteminin qanunverici bazasının və təşkilati strukturunun təkmilləşdirilməsi istiqamətində müəyyən etmək, Azərbaycan iqtisadiyyatının inkişafına gömrük ekspertizasının səmərəli təşkilinə təsirini təhlil etmək, yaxın gələcəkdə sahənin təkmilləşdirilməsi məqsədilə elmi-təkliflər hazırlamaq, gömrük ekspertizasının təşkilinin təkmilləşdirilməsi istiqamətində dünya təcrübəsinin tətbiqi və mərkəzi gömrük laboratoriyalarının əhəmiyyətini müəyyənləşdirmək üçün əsas prioritet sahələri aşkara çıxarılır. [3.s126]

İstehlak bazarında malların rəqabətə davamlı olması meydana çıxması və ümumiyyətlə bazar münasibətlərinin yaranması, malların kommersiya obyekti olmaqla daha dərindən müayinə edilməsi zərurəti yaradılır. Buna görədə hazırki zamanda malların gömrük espertizası vacib əhəmiyyət kəsb edir. Mal ekspertizasının məqsədi ekspert tərəfindən malların əsas xüsusiyyətlərinin o cümlədən, onlarda mal dövriyyəsi zamanı əmələ gələn dəyişikliklərin qiymətləndirilməsi və axrıncı nəticə kimi, müstəqil səlahiyyətli rəylərin verilməsidir. Mal ekspertizasının əsas obyektlərini istehlak malları təşkil edir.[4.s 98]

Istehlak malları – istehsalçıya realizə olunan və onun şəxsi məqsədləri üçün müxtəlif istehlakçılarda eyni məqsəd üçün istifadə oluna bilər. İstehlak malları bazarının nəzəri – metodoloji əsaslarının tətbiqi göstərir ki, o, mürəkkəb bir iqtisadi kateqoriyadır və bütövlükdə əmtəə bazarı göstərir ki, o mürəkkəb bir kateqoriyadır və bütövlükdə əmtəə bazarı sistemində aparıcı yer tutur.

Əmtəə bazarının əsas qanunları, qanunauyğunluqları və prinsipləri bir tərəfdən təkamülə istehlak malları bazarında özündə dərin iz buraxır, digər tərəfdən isə qeyri - ərzaq malları bazarı özünəməxsus xarakterik xüsusiyyətlərə və cəhdlərə malikdir. [5 s78]

Ümumiyyətlə, gömrük rejimlərinin özünəməxsus cəhətləri onların mahiyyətinə nəzər yetirərkən üzə çıxır. Bütün gömrük rejimləri, eləcə də gömrük ekspertizası Azərbaycan Respublikasında iqtisadi inkişafin yüksəlməsinə, ticarət əlaqələrinin intensivləşməsinə xidmət edir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Gömrük Məcəlləsi. Qanun Nəşriyyatı, 263 s., Bakı 2023.*

*2. Ş. Şəkərəliyev – "Azərbaycan iqtisadiyyatı reallıqlar və perspektivlər", Turxan nəşriyyatı, 536 s., Bakı 2016.*

*3. C.Q. Nuriyev "Gömrük hüququ". Bakı 2002, "Təfəkkür" nəşriyyatı, 235 s.*

*4. R.E Heydərov "Gömrük işinin təşkili". Bakı 2004, Azərnəşr, 496 s.*

*5. E. A Quliyev. İ.İ Mehrəliyəv "Gömrük işinin təşkili". Bakı 2012, Azərnəşr, 372 s.*

*6. A.Ş Şəkərəliyev. A.Ə Əliyev "Dünya iqtisadiyyatı müasir dövrün problemləri". Bakı 2003, "Bakı Universiteti" nəşriyyatı, 455 s.*

## XÜLASƏ:

Məqalədə xarici ticarətdə əsas məsələ kimi gömrük tarif tənzimlənməsi və gömrük rejimləri araşdırılmışdır. Gömrük tarif tənzimlənməsində xarici ticarətin fəaliyyəti istehsalın stimullaşdırılmasından və gömrük rejimlərinin tətbiqindən asılıdır.Məqalədə gömrük rejimləri, onun tənzimlənməsi, ekspertizanın aparılması mütəxəssisləri, aidiyyatı qurum və təşkilatlarla müqavilələrin bağlanması araşdırılmışdır.

**Açar sözləri:** *gömrük, rejim, tarif, ekspertiza, tarif tənzimlənməsi, qanunvericilik.*

**Доц. Бабаев Фарид Фикрет**
**магистрант Нурай Нуру кызы Оруджева**
**Бакинский государственный университет**
**Кафедра «Мировая Экономика»**

## Современное состояние применения таможенных режимов в таможенном регулировании Азербайджанской Республики

## РЕЗЮМЕ:

В статье рассматриваются таможенно-тарифное регулирование и таможенные режимы как основной вопрос внешней торговли. Деятельность внешней торговли по таможенно-тарифному регулированию зависит от стимулирования производства и применения таможенных режимов.В статье рассматриваются таможенные режимы, их регулирование, заключение договоров с экспертами-экспертами, соответствующими учреждениями и организациями.

**Ключевые слова:** *таможня, режим, тариф, экспертиза, тарифное регулирование, законодательство.*

**Doc. Babayev Farid Fikrat oglu**
**undergraduate Orujova Nuray Nuru qizi**
**Baku State University**
**Department of "World Economy"**

## The current state of application of customs regimes in the customs regulation of the Republic of Azerbaijan

## RESUME:

The article examines customs tariff regulation and customs regimes as the main issue in foreign trade. The activity of foreign trade in customs tariff regulation depends on the stimulation of production and the application of customs regimes. The article examines the customs regimes, its regulation, the conclusion of contracts with expertise experts, relevant institutions and organizations.

**Key words:** *customs, regime, tariff, examination, tariff regulation, legislation.*

UOT 33:005
DOI:10.30546/3006-0346.2023.6.78.123

# RƏQƏMSAL İQTİSADİYYATA KEÇİDİN ÖZƏLLİKLƏRİ VƏ DETERMİNANTLARI

**TOĞRUL HACIYEV**
*Bakı Dövlət Universitetinin doktorantı*
*Email: toghrulhajiyevv@gmail.com*
*Orcid: 0000-0001-9929-3357*

Rəqəmsallaşdırma əl ilə yaradılan məlumatların kompüter mühitində 0 və 1 rəqəmlərinə və ya A və B hərflərinə çevrilməsini müəyyənləşdirir ki, bu məlumatlar kompüter tərəfindən başa düşülsün və istifadə olunsun (Cambridge Dictionary, 2015). Zamanla texnologiyadakı irəliləyişlər rəqəmsallaşmanı fərqli bir ölçüyə gətirdi və şəkillər, video, səs, mətn və s. hər növ məlumatların rəqəmsal mühitə ötürülməsini təmin etdi (Tapscott D. 1998: s.44). Başqa sözlə, rəqəmsallaşdırma məlumat istehsal edən, işləyən, paylaşan və ötürən İKT-nin cəmiyyəti təşkil edən qərar qəbul etmə mexanizmləri ilə qəbul edildiyi zaman baş verəcək dəyişikliklərə aiddir. Bəzi mənbələrdə rəqəmləşdirmə anlayışı əvəzinə rəqəmsallaşdırma anlayışına üstünlük verildiyi müşahidə edilmişdir.

Karakaş rəqəmsallaşdırmanı rəqəmləşdirmə anlayışı üzərində "analoq materialın kompüterdə saxlanması üçün rəqəmsal formata çevrilməsi prosesi" olaraq təyin etmişdir. Bununla birlikdə, bu tədqiqatda mövzu ilə bütövlüyü təmin etmək üçün rəqəmsallaşdırma konsepsiyasına üstünlük verilib [1].

Rəqəmsallaşma İKT adlanan telekommunikasiya şəbəkələrinin, (mobil və sabit genişzolaqlı) kompüter texnologiyalarının (kompüterlər, simsiz qurğular və planşetlər) və proqram təminatlarının (maşın öyrənməsi və süni intellekt) geniş yayılmasından asılıdır. Rəqəmsallaşma əsri XX əsrdə müasir mənada proqramlaşdırıla bilən və İKT sahəsindəki inkişafdan asılı olaraq indiki formasını almış ilk kompüterin ixtirası ilə başladı. Bu çərçivədə XXI əsrin ən inkişaf etməkdə olan sahələrindən biri olan İKT, rəqəmsal məlumatların istehsalında mühüm rol oynamağa başladı və cəmiyyətlərin biliklərinin artmasına səbəb oldu. Bu artan informasiya yığımı internet texnologiyaları vasitəsi ilə daha geniş kütlələrə çatmaqla dünya miqyasında rəqəmsallaşma fenomeninin ortaya çıxmasına təkan verdi [2].

**Şəkil 1. Rəqəmsal Texnologiyalar**




**Mənbə:** *[2]*

Dünya İqtisadi Forumuna (2016) görə rəqəmsal çevrilmənin yaxın 10 ildə sosial-iqtisadi baxımdan 100 trilyon dollar dəyərində olması gözlənilir. Bundan əlavə, McKinsey Qlobal İnstitutunun (2015) yayımladığı başqa bir hesabata görə, rəqəmsal çevrilmənin təməl daşı olan əşyaların interneti texnologiyasının dəyərinin 2025-ci ilədək hər il təxminən 4-11 trilyon dollar aralığına çatacağı təxmin edilir.

İKT sahəsindəki inkişaf istehlakçı ilə istehsalçı arasındakı əlaqəni dəyişdirərək istehlakçı tələblərində fərqliliklərə səbəb oldu. Xüsusilə, informasiya və internet şəbəkələri sayəsində istehlakçılar dünyanın bir nöqtəsindən digər nöqtəsinə sifariş verə və bununla da tələblərini təsirli və sürətli bir şəkildə əldə edə bilərlər [2]. XXI əsr dünyasında rəqəmsal inkişaf və artan qloballaşma ticarətin inkişafında əhəmiyyətli rol oynadı. Bu inkişaf məhsulların telekommunikasiya şəbəkələrinə, reklam və marketinqə, satışa və paylanmaya əsaslanan rəqəmsal mühitlərdə

istehsal olunduğu və rəqəmsal ödəmə sistemlərinin formalaşmasında təsirli olduğu elektron ticarət sisteminin əhəmiyyətini artırdı.

İlk dəfə 1850-ci ildə American Express Buffalo tərəfindən hazırlanan və sürətli ödəmə tapşırıqları verən bir sistemlə ortaya çıxan rəqəmsal ödəmə sistemləri, 1958-ci ildə VISA-nın mənşəyinə əsaslanan Bank Americard tərəfindən təqdim olunan ilk kredit kartı ilə əsas inkişafını göstərdi (Zengin B., ve Güngördü A. 2013: s. 132). Bununla birlikdə, internet texnologiyalarının geniş yayılması, elektron ticarətdəki inkişaf və rəqəmsal texnologiyaların maliyyə sektoruna keçməsi də rəqəmsal ödəmə sistemlərinin inkişafına kömək etmişdir. Rəqəmsal ödəmə sistemlərinin konsepsiyası, onlayn mobil ödənişlərə və blok zəncirlər kimi paylanmış mühasibat texnologiyalarına əsaslanan sistemlərin, həmçinin ödəmə əməliyyatları zamanı bank və kredit kartlarının istifadəsini nəzərdə tutur [3].

Rəqəmsal ödəmə sistemlərinin çətiri altında elektron ödəmə (e-ödəmə) sistemləri, mobil ödəmə sistemləri, P2P ödəmə sistemləri və rəqəmsal cüzdanlar mövcuddur. Buna görə, elektron ödəmə konsepsiyası ilə, onlayn mağazaların sayının artması nəticəsində tələb olunan və təşəbbüs, işlənmə və elektron qaydada toplanan bütün ödənişlər müəyyənləşdirilir. Elektron ödəmə əməliyyatı borcludan kreditora müəyyən miqdarda pul köçürməsini həyata keçirir. Mobil ödəmə sistemləri e-ödəmə əməliyyatlarının alt kateqoriyası kimi qəbul edilir. Bu kontekstdə mobil ödəmə sistemləri, mobil cihazlar vasitəsilə ödəniş əməliyyatlarının başlanmasına və təsdiqlənməsinə əsaslanan mal və xidmətlərə qarşı pul köçürmələri olaraq təyin edilir. Özəldən-özələ ödəmələr (ailə üzvləri və dostları arasında) və ya P2P ödəmə üsulları rəqəmsal ödənişlərin alt kateqoriyalarıdır. Bir bank hesabına pul köçürməsi vaxt apararkən, P2P ödənişləri anında əməliyyatın həyata keçirilməsini təmin edir. Digər tərəfdən elektron cüzdan və rəqəmsal cüzdan terminləri şəxsiyyət vəsiqəsi, sürücülük vəsiqəsi və s. şəxsiyyət məlumatlarının saxlanması, nağd ödənişlərin və avtobus biletlərinin asanlaşdırılması və s. fiziki cüzdanın yerinə yetirdiyi vəzifələrin rəqəmsal saxlanmasına aiddir [3].

Rəqəmsal ödəmə sistemləri sayəsində banklar, əmanətçilər və şirkətlər ödəmə əməliyyatları ilə əlaqəli maliyyə və qeyri-maliyyə xərclərindən xilas olurlar. Ödəniş əməliyyatları ilə bağlı qeydlərin aparılması, təhlükəsizliyin təmin edilməsi, gecikmiş ödəmə əməliyyatları səbəbindən yarana biləcək problemlərin qarşısını almaq, ödəmə əməliyyatlarında şəffaflığın təmin edilməsi, çatdırılma zamanı ödəmələrin edilməməsi riskinin aradan qaldırılması rəqəmsal ödəmə sistemlərinin geniş yayılmasında təsirli olan digər amillərdir. Bu şəkildə ödəmə əməliyyatları daha təsirli və daha sürətli həyata keçirilir, əməliyyat xərcləri azalır və məhsuldarlıq artır [2].

İnformasiya texnologiyalarındakı inkişaf və ticarətin tədricən internet mühitinə keçməsi yeni elektron ödəmə alətlərinin inkişafını zərurətə çevirdi və bunu mümkün etdi.

Bu vasitələrin əsasları; çox məqsədli, əvvəlcədən ödənişli kartlar (“elektron cüzdan” və ya “dəyər yüklənmiş kartlar”) və əvvəlcədən ödənişli proqram məhsulları (rəqəmsal nağd pul).

Kart əsaslı məhsullar banknot və sikkələrin əvəzi olaraq hazırlanmışdır və kiçikhəcmli, üz-üzə, pərakəndə ödəmələri asanlaşdırmaq üçün hazırlanmışdır. Bunlar - çeklər, kredit və ya bank kartları kimi ənənəvi pərakəndə ödəmə vasitələrini əvəzləmək əvəzinə tamamlamaq üçün hazırlanmışdır. Eynilə, şəbəkə və ya proqram əsaslı məhsullar, internet kimi rabitə şəbəkələrində kiçik ödəmələri asanlaşdırmaq üçün kredit kartlarını əvəz etmək məqsədilə hazırlanmışdır. Buna görə, elektron pul, çoxməqsədli istifadə üçün müştəriyə məxsus bir cihaza yüklənmiş bir dəyər və ya kompüter şəbəkəsini istifadə edərək əvvəlcədən ödənilmiş bir məhsul (elektron cüzdan) və əvvəlcədən ödənişli proqram məhsulları (rəqəmsal pul) olaraq təyin edilə bilər [6]. Kart əsaslı məhsullarda əvvəlcədən ödənilmiş dəyər plastik karta (ağıllı kart) yerləşdirilmiş mikroprosessor çipinə yüklənir. Digər tərəfdən, şəbəkə əsaslı məhsullar, “dəyəri” yükləmək üçün standart bir kompüterə quraşdırılmış xüsusi proqramdan istifadə edirlər. Cihaza yükləmə dəyəri bir bankomatdan pul çəkməyə bənzəyir və məhsul satıcının elektron cihazına dəyər köçürülməsi yolu ilə hər hansı bir alış-veriş etmək üçün istifadə olunur.

Elektron pul cihazına yüklənmiş vəsaitlərin dəyərini əks etdirməyin iki əsas yolu vardır: (1) hər bir əməliyyatın sonunda müəyyən bir məbləğin yüklənərək yeniləndiyi “balansa əsaslanan” və hər biri elektron banknotlar sabit bir dəyər və seriya nömrəsi ilə bir cihazdan digərinə köçürülür. Nağd və digər kağız əsaslı vasitələrdə tətbiq olunan fiziki təhlükəsizlik xüsusiyyətləri əvəzinə, məlumatların bütövlüyünü və təhlükəsizliyini qorumaq və göndərilən me-

sajların və cihazların doğruluğunu yoxlamaq üçün kriptoqrafiyadan geniş istifadə olunur [8].

Rəqəmsal imzalar bəzi e-pul məhsullarında təhlükəsizlik vasitəsi olaraq istifadə olunan kriptoqrafiya tətbiqlərindən biridir. Bəzi elektron pul məhsulları verən qurumun və ya mərkəzi bir bərabərləşdirmə sisteminin müdaxiləsinə ehtiyac olmadan ödəmələrə icazə verilir.

Ümumi təyinatlı, "ağıllı kart" texnologiyasından istifadə edərək hər hansı məbləğ yüklənmiş kartlar üzərində pilot layihə tətbiqetmələrinin nəticələri göstərir ki, bu kartlar indiyədək daha çox avtomat, ictimai nəqliyyat sistemi və parkomat kimi ənənəvi elektron ödəmələrdə istifadə olunur. Açıq kompüter şəbəkələrində əməliyyatların satın alınması üçün hazırlanmış elektron pul məhsulları, xüsusən də az miqdarda malların və xidmətlərin İnternet vasitəsilə alınması üçün istifadə olunur. Bundan əlavə, kompüter şəbəkəsində bəzi çoxməqsədli, əvvəlcədən ödənişli kartlarla ödənişlər edilə bilər. Kompüter şəbəkələri vasitəsilə həyata keçirilən elektron ticarətdə artım olduğu təqdirdə, bu, elektron pulun böyüməsini təşviq edə bilər.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Əliyev A.G. (2013), Cəmiyyətin və iqtisadiyyatın informasiyalaşdırılması problemləri. Bakı: Elm, 460 s.*

*2. Əliyeva AS, Abbasova VA, Tusai AA İnternet bankçılığının yenilikçi xüsusiyyətləri texnologiya. "Korporativ idarəetmə və iqtisadiyyatın yenilikçi inkişafı" mövzusunda beynəlxalq konfrans. AMEA Elmi İnnovasiyalar Mərkəzi. Bakı-2011, 31 mart. S. 177-180.*

*3. Rüstəmov T.H., Tağıyev X.R., Mahmudov R.M., Quliyev S.R. (2016), Birbaşa debetləşmə aləti, tətbiqi mexanizmi və xüsusiyyətləri, ölkəmizdə tətbiqi üzrə mövcud vəziyyətin təhlili // Qafqaz Universitetinin Jurnalı, № 2, səh.155-166.*

*4. Tağıyev X.R. (2013), Azərbaycanda elektron bankçılıq xidmətləri - mövcud vəziyyət və inkişaf perspektivləri // Azərbaycanın Vergi Jurnalı, № 3. səh.179-194.*

*5. Malaquias, R. F. and Hwang, Y. (2016). An empirical study on trust in mobile banking: A developing country perspective. Computers in Human Behavior, 54, 453-461.*

*6. Pickens, M., Porteouz, D. and Rothman, S. (2021). Scenarios for Branchless Banking in 2020?. CGAP&DFID, No: 57.*

*7. Shaikh, A. A. and Karjaluoto, H. (2015). Mobile banking adoption: A literature review. Telematics and Informatics, 32(1), 129-142.*

*8. Van der Boor, P. Oliveira, P. and Veloso, F. (2019). Users as innovators in developing countries: The global sources of innovation and diffusion in mobile banking services. Research Policy, 43(9), 1594- 1607.*


## XÜLASƏ:


XX əsr beynəlxalq ticarətdəki məhdudiyyətlərin çox aşağı səviyyələrə endiyi, qlobal bazarların inteqrasiyasının dərinləşdiyi və sosial-iqtisadi və mədəni fəaliyyətlərin ölkələrin sərhədlərini aşdığı bir qloballaşma dövrü gətirdi. Bu müddətdə qloballaşma prosesini sürətləndirən amillər olaraq informasiya və texnologiya gündəmə gəldi. İnformasiya və kommunikasiya texnologiyalarındakı inkişaf, davamlı dəyişiklik və təkamülün qaçılmaz olduğu bir cəmiyyət quruluşu olan informasiya cəmiyyətinə keçid təmin edildi. İnsanlar bütün dünyada baş verənlərdən getdikcə daha çox xəbərdar olur və insanlar arasında artan qarşılıqlı əlaqə yeniliklərə uyğunlaşma müddətini də qısaldır. İnformasiya texnologiyalarındakı inkişafa paralel olaraq, ödəmə alətləri də inkişaf edir və şaxələnir, üstəlik bu inkişaf çox sürətlə baş verir. Erkən sivilizasiya dövründən XX əsrə qədər olan ödəmə alətlərinin təkamülü min illərə yayılsa da, XX əsrdə və sonrasında daha qısa müddətdə daha böyük inkişafın yaşanması və yeniliklər insanların gündəlik həyatına daha sürətli daxil olması müşahidə edilməkdədir.



**Açar sözlər:** *Rəqəmsallaşma, sivilizasiya, texnologiya*



**Hajiyev Togrul**
***Doctoral student of Baku State University***
***Email: toghrulhajiyevv@gmail.com***
***Orcid: 0000-0001-9929-3357***


## CHARACTERISTICS AND DETERMINANTS OF TRANSITION TO DIGITAL ECONOMY

## SUMMARY:


The 20th century ushered in an era of globalization in which restrictions on international trade were reduced to very low levels, the integration of global markets deepened, and socio-economic and cultu-

ral activities crossed national borders. In this period, information and technology came to the fore as factors that accelerate the process of globalization. The transition to the information society, which is a social structure in which the development, continuous change and evolution in information and communication technologies is inevitable, was ensured. People are becoming more and more aware of what is happening around the world, and the increased interaction between people also shortens the time to adapt to innovations. In parallel with the development in information technology, payment instruments are also developing and diversifying, and this development is happening very fast. Although the evolution of payment instruments from the period of early civilization to the 20th century spans thousands of years, it is observed that in the 20th century and later, greater development is experienced and innovations enter people's daily life faster.

**Keywords:** *Digitization, civilization, technology*

**Гаджиев Тогрул Сабутай**
***Докторант Бакинского Государственного Университета***
***Электронная почта: toghrulhajievv@gmail.com***
***Орхидея: 0000-0001-9929-3357***

## ХАРАКТЕРИСТИКИ И ДЕТЕРМИНАНТЫ ПЕРЕХОДА К ЦИФРОВОЙ ЭКОНОМИКЕ

### РЕЗЮМЕ:

XX век ознаменовал эпоху глобализации, когда ограничения на международную торговлю были снижены до очень низкого уровня, интеграция глобальных рынков углубилась, а социально-экономическая и культурная деятельность вышла за национальные границы. В этот период информация и технологии вышли на первый план как факторы, ускоряющие процесс глобализации. Обеспечен переход к информационному обществу, которое представляет собой социальную структуру, в которой неизбежно развитие, постоянное изменение и эволюция информационных и коммуникационных технологий. Люди становятся все более осведомлены о том, что происходит во всем мире, а усиление взаимодействия между людьми также сокращает время адаптации к инновациям. Параллельно с развитием информационных технологий платежные инструменты также развиваются и диверсифицируются, и это развитие происходит очень быстро. Хотя эволюция платежных инструментов от периода ранней цивилизации до 20-го века охватывает тысячи лет, замечено, что в 20-м веке и позже происходит большее развитие, и инновации быстрее входят в повседневную жизнь людей.

**Ключевые слова:** *Цифровизация, цивилизация, технологии.*

UOT 331
DOI:10.30546/3006-0346.2023.6.78.127

# MÜƏSSİSƏNİN İNSAN KAPİTALINA İNVESTİSİYASININ TƏHLİLİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**NƏRMİN İSAYEVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADSU), doktorant*
*E-mail: mustafazadanarmin@gmail.com*

İqtisadiyyatda insanın rolu kəskin şəkildə artmışdır, çünki istehsal sahəsində intellektual əmək lider mövqe tutur. Bu, ilk növbədə, elmi-texniki inqilab nəticəsində cəmiyyətin təcili olaraq yüksəkixtisaslı işçi qüvvəsinə ehtiyac duyması ilə bağlıdır.

Hazırda əksər inkişaf etmiş ölkələrdə işçi qüvvəsinin keyfiyyətinin yüksəldilməsi və idarəetmə sahəsində mütəxəssislərin hazırlanması üçün proqramlar hazırlanır və həyata keçirilir. Yüksəkixtisaslı işçilər əmək bazarında sabitliyin və sosial təminatın rəhnidir, çünki bu işçilər daha mobildir, yəni onlar tez və müstəqil şəkildə iş tapa bilirlər.

İnsan kapitalı insanın iş prosesində istifadə edə biləcəyi fiziki bacarıqların, habelə əqli və intellektual qabiliyyətlərin məcmusudur. Buna görə də insanlar hər bir müəssisənin mühüm strateji resursudur. Bu resurs dəyərin yaradılması və rəqabət üstünlüyünün mənbəyidir. İnsan kapitalı intellektual kapitalın mühüm komponentlərindən biri kimi çıxış edir və işçilərin və müəssisə rəhbərlərinin bilik, bacarıq, yaradıcı təcrübələrini özündə cəmləşdirir, həmçinin müəssisədə inkişaf proseslərini idarə edən mexanizmdir. Bunlar həm də işçinin özünün xüsusiyyətləridir (səriştə, zəka, yaradıcılıq), onun öyrənmə qabiliyyəti və hərəkət etmək və biliyi paylaşmaq motivasiyasıdır.

İnsan kapitalı hər bir insanda mövcud olan və onun istehsal və ya istehlak məqsədləri üçün istifadə edə biləcəyi bilik və bacarıqlar ehtiyatı kimi başa düşülür.

İnsan kapitalının formalaşması, insanın fəaliyyətinə investisiya etməklə onun məhsuldarlıq qabiliyyətinin inkişaf etdirilməsi prosesidir. Buna görə də insan kapitalına investisiyalar bir insana onun gəlirinin və əmək məhsuldarlığının artmasına təsir edən hər hansı investisiyalardır [1].

Bu gün tamamilə bütün ölkələrdə insan kapitalına investisiyanın ən vacib komponenti iş yerində təlim xərcləridir. Hər bir təlim layihəsində biliklərin böyük hissəsi müstəqil hazırlıq və öyrənmə nəticəsində əldə edilir. Bu xüsusilə tədqiqatçılar, müəllimlər, mühəndislər, kompüter mütəxəssislərinin və s. peşələrinə aiddir. Bu peşə sahibləri peşəkar ədəbiyyatı fərdi şəkildə öyrənmək və istifadə etməklə öz ixtisaslarını daim yeniləməyə və təkmilləşdirməyə məcbur olurlar.

İnsanın əsas investoru dövlətdir. Bu, təhsilə, tibbi xidmətə investisiya etmək, perspektivli gəncləri həvəsləndirmək yolu ilə həyata keçirilir. Bütün bunlar əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, yüksək mədəniyyətli cəmiyyətin formalaşmasına yönəlmiş tədbirlərdir.

Həvəsləndirici tədbirlərin köməyi ilə dövlət insan kapitalının maliyyələşdirilməsinə özəl vəsaitləri cəlb edir. Birincisi, vergilər və subsidiyalar sistemi vasitəsilə investorların gəlirlərinə təsir göstərir. İkincisi, hökumət investisiya üçün istifadə olunan resursların qiymətlərini tənzimləməklə investisiyaların qiymətlərini tənzimləyə bilir [2].

Son zamanlar ayrı-ayrı müəssisələr üçün insan kapitalının əhəmiyyəti getdikcə artmışdır. Çünki onlar öz işçilərinin peşəkar və savadlı mütəxəssis olması, eyni zamanda istehsal sahəsində cari tələbatının ödənilməsində maraqlıdırlar. Bununla belə, onların fəaliyyəti praqmatik xarakter daşıyır, çünki insana yatırılan bütün investisiya yalnız ondan gəlir əldə etmək mümkün olduğu müddətdə baş verir.

İstehsal sahəsində daimi inkişaf biliklərin yenilənməsi ilə bağlı əhəmiyyətli xərclər tələb edir. Müəssisələr işçilərinə investisiya etməklə onların əmək məhsuldarlığını artırır və özünün rəqabət qabiliyyətini gücləndirir. İşçilərə yatırılan investisiyalara daxildir:

1. İxtisas hazırlığına və təkmilləşdirməyə yatırılan vəsaitlər;
2. Sağlamlığın yaxşılaşdırılması üçün profilaktik tədbirlərə yatırılan vəsaitlər;
3. İş həyatının keyfiyyətinin yaxşılaşdırılmasına yatırılan vəsaitlər.

Yuxarıda göstərilən investisiyalar məhsuldar fəaliyyət üçün münasib şərait yaradır. İnsan kapitalına investisiyaların özəlliyi ondan ibarətdir ki, fərdin bilik və təcrübəsinin artması insanlarda təcəssüm olunan kapitalın məhsuldarlığının artmasına dərhal kömək etmir. İstənilən investisiya kimi insan kapitalına ayrılan investisiya da səmərəli olmalıdır.

İnsana investisiya yatırmaq həmişə investorun müəyyən bir müddətdən sonra fayda alacağını nəzərdə tutur. İşçilər üçün bu əməkhaqqının artırılması və iş şəraitinin yaxşılaşdırılması deməkdir. İşəgötürənlər üçün isə bu əmək məhsuldarlığının və bazarda rəqabət qabiliyyətinin artmasıdır [3].

Hazırda istehsal sahəsi elm və texnikanın inkişafı ilə əlaqədar olaraq daim modernləşdirilir, ona görə də bazarda rəqabətədavamlı olmaq üçün işçilərin bilik səviyyəsini operativ şəkildə yüksəltmək lazımdır.

İnvestisiyaların rentabelliyini qiymətləndirmək üçün onların təmin etdiyi bir sıra üstünlüklərə diqqət yetirilməlidir:

1. İşçilərin ixtisasartırmasına yatırılan investisiyalar əmək məhsuldarlığının artmasına kömək edir, yəni istehsal xərclərini azaldır və müəssisənin rəqabət qabiliyyətini artırır ki, bu da sonradan bu investisiyalara ayrılan xərcləri ödəyir.

2. Səhiyyə sektoruna investisiyalar xəstələnmə hallarını azaldır, buna görə də xəstəlik məzuniyyətində olan işçilərin sayı azalır. Həmçinin bu investisiyaların nəticəsi işçilərin ömrünün artmasına səbəb olmalıdır, çünki işləyən əhali arasında ölüm halları hələ də yüksəkdir və işçilərin ömür uzunluğu nə qədər çoxdursa, müəssisə onlardan bir o qədər çox gəlir əldə edə bilər [4].

Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi də prioritet məsələlərdən biridir. Belə ki, müasir dövrdə ölkələrin ÜDM-in 90 faizə qədəri kiçik və orta müəssisələr tərəfindən formalaşdırılır. Bu da həmin sahəyə xüsusi diqqət yetirilməsini zəruri edir. Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi məqsədilə dünyanın bir çox ölkələrində hələ orta məktəb səviyyəsində şagirdlərə sahibkarlıq icbari fənn kimi keçilir. Bu cür ölkələrə misal olaraq, Finlandiya, Polşa və Avstriya göstərilə bilər. Bu ölkələrin nümunələrindən istifadə edərək ölkəmizdə də sahibkarlığın orta və ya orta ixtisas təhsili müəssisələrində könüllü və ya icbari fənn kimi tədris olunması şagirdlərə hələ uşaq yaşlarından biznes təfəkkürünün aşılanmasına və gələcəkdə bu sahədə ciddi inkişafa səbəb ola bilər.

Azərbaycanda insan kapitalının inkişafı dövlətin iqtisadi inkişaf siyasətinin prioritetləri arasında yer alır. 2012-ci ildə Prezident İlham Əliyevin fərmanı ilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası təsdiq edilmişdir. Konsepsiyanın hazırlanmasında əsas məqsəd ölkədə iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafını təmin etmək, əhalinin sosial rifahını yüksəltmək, cəmiyyətin bütün istiqamətlərdə tərəqqisini sürətləndirməklə inkişafın keyfiyyətcə yeni modelini formalaşdırmaqdır. Konsepsiyada insan kapitalının inkişaf etdirilməsi mərkəzi mövqe tutur. Dövlət büdcəsindən elm, təhsil, səhiyyə, sosial müdafiə, mədəniyyət və idman xərclərinə ayrılan vəsait 2012-ci ildə 4325,4 milyon manat təşkil etmişdir ki, bu da ötən ilin göstəricisindən 10,8 faiz artıqdır. Bütün bunlar Azərbaycanda bu istiqamətdə kifayət qədər ciddi fəaliyyət göstərildiyini bir daha sübut edir. Bunun nəticəsində Azərbaycan artıq özünə dünyada iqtisadi cəhətdən sürətlə inkişaf edən ölkələr arasında xüsusi yer qazanmışdır. Yuxarıda qeyd etdiklərimizə əsasən demək olar ki, Azərbaycanda artıq "neft kapitalının insan kapitalına çevrilməsi" istiqamətində kifayət qədər əhəmiyyətli tədbirlər görülmüşdür ki, bunun nəticələri də özünü göstərməkdədir. Lakin bu sahənin tam inkişafını təmin etmək üçün hələ bir sıra tədbirlərin görülməsinə ehtiyac var. Bu da Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçiriləcəkdir.

Azərbaycanda İnsan Kapitalı Fondunun yaradılmasının zəruriliyi ilə bağlı fikirlər son dövrlərdə çox səsləndirilmişdir. Belə bir fondun yaradılması bu sahənin kompleks olaraq inkişafına şərait yaradacaq. Lakin yarıözəl əsasda fəaliyyət göstərən Qətər Fondundan fərqli olaraq, Azərbaycanda yaradılacaq İnsan Kapitalı Fondunun tamamilə dövlət mülkiyyətində olması daha məqsədəuyğundur. Çünki bu sahənin dövlətin tam nəzarətində olması etibarlılıq baxımından həm əhalinin, həm də xarici investorların maraqlarına uyğun olacaq. Bundan başqa, fondun fəaliyyəti çərçivəsində insan kapitalı sahəsinin klasterləşdirilməsi də mühüm əhəmiyyətə malikdir. İqtisadiyyatın bütün sahələrində olduğu kimi, təhsil və elm mərkəzlərinin də bir ərazidə cəmlənməsi bu sahələrin səmərəliliyinin artmasına səbəb olur. Azərbaycanda Təhsil şəhəri, Elm və Texnologiya Parkı misalında bu cür klasterləşdirmənin həyata keçirilməsi mümkündür. Dünyanın əksər inkişaf etmiş ölkələrində təhsil müəssisələri ətrafında universitet şəhərcikləri yaradılır və burada müxtəlif kitabxanalar, tədqiqat mərkəzləri, laboratoriyalar və s. yerləşir. Lakin Azərbaycanda bu təcrübə hələ mənimsənilməmişdir və əksər universitetlər əsasən paytaxtda yerləşən bir neçə tədris korpusundan ibarətdir.

Beləliklə, müəssisənin insan kapitalına yatırdığı investisiyalar müəssisənin inkişafında xüsusi rol oynayır və bu investisiyalara ehtiyacı və onların miq-

darını düzgün qiymətləndirilməklə müəssisə istehsal prosesini səmərəli təşkil edə və maksimum mənfəət əldə edə bilər.

### ƏDƏBİYYAT SİYAHISI:


*1. Капелюшников Р.И. Трансформация человеческого капитала в российском обществе. - М.: Фонд «Либеральная миссия», 2010. - С. 24.*

*2. Комарова А.С. Роль человеческого капитала в производительности труда в России / А. С. Комарова // Известия ТГУ. Экономические и юридические науки. - 2013. - №5. - С. 163.*

*3. Горбачев В.П. Современные проблемы инвестиций в человеческий капитал / В.П. Горбачев // Власть. - 2013. - №1. - С. 55.*

*4. Васильева А.Н. Управление эффективностью развития человеческого капитала организации / А.Н. Васильева // Управление развитием персонала. - 2011. - №1. - С. 11.*


### XÜLASƏ:


Müasir dövrdə iqtisadiyyatın ən aktual problemlərindən biri biliyin, bacarığın rolunun artması və iqtisadi yüksəlişin təmin edilməsində onun ən mühüm əhəmiyyətli resurslardan birinə, yəni intellektual kapitala çevrilməsidir. Məqalə cəmiyyətdə insan kapitalının əhəmiyyətinə, eləcə də müəssisənin insan kapitalına ayırdığı investisiyalara həsr edilmişdir. Xüsusilə, müəssisənin inkişaf dərəcəsini müəyyən etmək üçün investisiya mənbələri nəzərdən keçirilmiş və insan kapitalının inkişaf istiqamətləri barəsində tövsiyələr verilmişdir.



**Açar sözlər:** *işçi qüvvəsi, mütəxəssis, insan kapitalı, müəssisənin investisiyaları, investisiya potensialı*


## АНАЛИЗ ИНВЕСТИЦИЙ ПРЕДПРИЯТИЯ В ЧЕЛОВЕЧЕСКИЙ КАПИТАЛ

### РЕЗЮМЕ:


Одной из наиболее актуальных проблем экономики в современную эпоху является повышение роли знаний и навыков в обеспечении экономического роста и их трансформация в один из важнейших ресурсов – интеллектуальный капитал. Статья посвящена значению человеческого капитала в обществе, а также инвестициям, выделяемым предприятием в человеческий капитал. В частности, с целью определения степени развития предприятия были рассмотрены источники инвестирования и даны рекомендации по направлениям развития человеческого капитала.



**Ключевые слова:** *рабочая сила, специалист, человеческий капитал, инвестиции предприятия, инвестиционный потенциал*


## ANALYSIS OF ENTERPRISE INVESTMENTS IN HUMAN CAPITAL

### SUMMARY:


One of the most pressing problems of the economy in the modern era is increasing the role of knowledge and skills in ensuring economic growth and their transformation into one of the most important resources - intellectual capital. The article is devoted to the importance of human capital in society, as well as the investments allocated by the enterprise in human capital. In particular, in order to determine the degree of development of the enterprise, sources of investment were considered and recommendations were given on areas of human capital development.



**Keywords:** *work force, specialist, human capital, company investments, investment potential*

UOT 330.341.4:339.13; 330.341.44; 338.33; 334.012; 334.7
DOI:10.30546/3006-0346.2023.6.78.130

# MALİYYƏ ANALİZİNİN ƏHƏMİYYƏTİ VƏ MÜASİR SAHİBKARLIQ İQTİSADİYYATININ APARICI QÜVVƏSİ KİMİ

**DİLQƏM MİRƏLİYEV**

*Your Fianance MMC-nin təsisçisi və direktoru*

*E-mail: dmiraliyev@gmail.com*

Latın sözü olan "Maliyyə" termini "finis"dən yaranmış, "son, axırıncı, finiş" mənalarını verən bu sözdən, sonralar "finansia" sözü əmələ gəlmişdir [5, s.10]. XIII-XV əsrlərdə Avropa ölkələrinin ticarət məntəqələrində bu söz "pul ödəməsi" mənasında işlədilir və ticarət subyektləri arasında istənilən pul münasibətlərini ifadə edirdi. XVI əsrdən etibarən Avropa ölkələrindən olan Fransada bu termin ictimai gəlir və xərclərin məcmusu mənasında istifadə edilməyə başlanmışdı. Qısa müddət sonra isə "publik finansia", yəni "ictimai maliyyə" termini olaraq daha geniş yayıldı. V.İ.Dal bu termini "dövlətin gəlir və xərclərinə aidiyyatı olan hər şeyin məcmusu" kimi izah etmişdir [1, s.17].

Gündəlik həyatda maliyyə münasibətləri pul münasibətləri sayılsa da, istənilən pul münasibətləri maliyyə münasibətləri hesab oluna bilməz. Çünki maliyyə münasibətlərinin mövcudluğu əmtəə-pul münasibətləri ilə əlaqədardır. Orta əsrlərdə mövcud olan Azərbaycan feodal dövlətləri də pul ödəmələrindən geniş istifadə etmişlər. Orta əsrlərdə mövcud olan dövlətlərin maliyyəsi dövlət ilə əhali arasındakı münasibətlər sistemini əhatə edirdi ki, onun köməyi ilə dövlət əhalidən müxtəlif vergilər almaq yolu ilə natural və pul fondlarını təşkil edirdi. İqtisadi kateqoriya olan maliyyə münasibətləri dövlət quruluşu və əmtəə-pul münasibətlərinin inkişafı, cəmiyyətdə pul vəsaitlərinin bölgüsü və təkrar bölgüsü nəticəsində əmələ gəlmişdir. İqtisadiyyatın inkişafı və dövlətin qüdrəti maliyyənin həcmindən və düzgün istifadəsindən asılı olduğu üçün o, dövlətin qan-damar sistemi hesab olunur. Maliyyə, dövlətin sosial-iqtisadi siyasətinin həyata keçirilməsində mühüm rol oynayan amillərdən biridir.

Bildiyimiz kimi, hər bir dövlətin iqtisadi qüdrəti onun maliyyə vəsaitinin həcmi ilə ölçülür. Maliyyə vəsaitinin həcmi isə, əsasən maddi istehsal sahəsindən, yəni istehsalın inkişafından və əmək məhsuldarlığından asılıdır. Maliyyə, ümumiləşdirici iqtisadi termin olaraq pul vəsaitlərinin, maliyyə resurslarının yaranması, hərəkəti, bölgüsü və yenidən bölgüsü və istifadə edilməsi prosesində dövlət, regionlar, təsərrüfat subyektləri arasında qarşılıqlı hesablaşmalar, pul tədavülü vasitəsilə meydana çıxan iqtisadi münasibətlərin məcmusudur.

Maliyyə ÜDM-də istehlak fondu ilə yığım fondu arasında optimal proporsiyanın yaradılmasında əsas vasitədir. Dövlətin daxili və xarici vəziyyətindən asılı olaraq, bu proporsiyalar daim təkmilləşdirilməlidir. Bu isə, maliyyə sistemi vasitəsi ilə həyata keçirilir. ÜDM-nin bölgüsü də maliyyə vasitəsilə baş verir və qeyri-istehsal sahəsində çalışanlar, ÜDM-nin bölgüsündə ondan pay ala bilmirlər. Lakin onun yenidən bölgüsü prosesində (dövlət büdcəsi vasitəsilə), bu sahələrdə işləyənlər milli gəlirdən pay alırlar.

Hər bir ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayan maliyyənin öz funksiyaları vardır və onlar, bu gün də ən çox müzakirə olunan məsələlərdəndir. Ümumiyyətlə, mahiyyət hər hansı bir predmetin çoxsaylı xüsusiyyətlərini özündə birləşdirən daxili məzmundursa, funksiya isə, obyektin xarici, yaxud zahiri cəhətlərini özündə əks etdirir [6, s.504; 1, s.18-19].

Maliyyənin funksiyaları (bölgü və nəzər funksiyaları) haqqında məlumat verən bir çox müəlliflər onu fərqli mənalarda izah etməyə çalışmışlar. Bu müəlliflərdən bir olan V.M.Rodionov belə yazır: "Maliyyənin funksiyaları-onların sayı və məzmunu, bu iqtisadi kateqoriyanın mahiyyəti və onun spesifik ictimai təyinatı baxımından düzgün həll edilə bilər. Bölgü münasibətlərinin xüsusi sahəsi olan maliyyənin mahiyyəti, ilk öncə, bölgü funksiyası vasitəsilə həyata keçirilir. Məhz bu funksiya vasitəsilə maliyyənin ictimai təyinatı-hər bir təsərrüfat subyektinin məqsədli təyinatı olan və pul fondları formasında istifadə edilən maliyyə resursları ilə təmin edilməsi həyata keçirilir. Maliyyənin bölgü prosesindəki xüsusiyyətlərini "siqnallaşdıran" digər funksiyası isə nəzarət funksiyasıdır" [7, s.22-23; 1, s.19). Bəzi müəlliflərə görə, maliyyəni digər iqtisadi kateqoriyalardan fərqləndirmək üçün, ancaq ona xas olan spesifik xüsusiyyətləri müəyyən etmək lazımdır. Əslində bölgü və nəzarət bir çox iqtisadi kateqoriyalar üçün səciyyəvi haldır. "İqtisadi kateqoriyaların rolu onun funksiyalarından çox ge-

nişdir. Bəzən bu kateqoriyalara, onların gerçəklikdəki fəaliyyətinə uyğun gəlməyən funksiyalarını da aid edirlər. Bu ondan irəli gəlir ki, dövlət tərəfindən təşkil edilən istənilən iqtisadi münasibətlər həm də idarəetmə funksiyasına malikdirlər. Nəzarət əslində idarəetmə funksiyasının tərkib hissəsidir" [8, s.10]. E.Voznesenski və B. Sabantiyə görə maliyyənin dövlət fondlarının yaradılması və dövlətin öz funksiyalarının yerinə yetirməsi üçün bu fondlardan istifadə etməsi kimi iki funksiyası vardır. M.Romanovski qeyd edir ki, "pul vahidlərinin yaradılması və istifadəsində (mərkəzi və qeyri-mərkəzi formada) heç bir iqtisadi kateqoriya maliyyə kateqoriyası kimi geniş səlahiyyətlərə malik deyildir. Maliyyə pul vəsaitlərinin hərəkəti, pul fondlarının yaradılması və inkişafında nəzarət funksiyasını həyata keçirir" [9, s.16; 1, s.20].

İqtisadi subyektlərin gəlirlərinin formalaşması metodlarından asılı olaraq maliyyə sistemini mərkəzləşdirilmiş maliyyələrə (açıq maliyyələrə) və mərkəzləşdirilməmiş maliyyələrə (təşkilatların maliyyələri və ev təsərrüfatlarının maliyyələri) bölmək olar. Pul münasibətlərinin təşkilati forması kimi maliyyə sistemi maliyyə resurslarının formalaşmasını və istifadəsini təmin edən bir-biri ilə qarşılıqlı əlaqədə olan üç: təsərrüfatçılıq subyektlərinin, əhalinin, dövlət və yerli idarəetmə orqanlarının altsisteminə bölünür. Hər bir ayrıca sistemdə maliyyə resurslarının yaranması və istifadəsinin spesifik forma və metodları istifadə edilir. Onlardan hər biri xüsusi funksional təyinata və müvafiq maliyyə mexanizminə malikdir. Azərbaycanın maliyyə sisteminin tərkibi sferalar, altsistemlər və həlqələr üzrə təsnifatı aşağıdakı kimi verilmişdir: Maliyyə sisteminin əsası qeyri-mərkəzləşdirilmiş maliyyələr sayılır, çünki məhz bu sferada dövlətin maliyyə resurslarının üstün payı formalaşır. Bu resursların bir hissəsi maliyyə hüququ normalarına uyğun olaraq bütün səviyyələrdə büdcə gəlirlərinə və büdcədənkənar fondlara yenidən bölüşdürülür. Bu zaman göstərilən vəsaitlərin xeyli hissəsi gələcəkdə büdcə təşkilatlarının; subvensiya şəklində kommersiya təşkilatlarının maliyyələşdirilməsinə yönəldilir, eləcə də sosial transfertlər (pensiya, yardım, təqaüd və s.) formasında əhaliyə qaytarılır [10, s.16; 1, s.24].

Qeyri-mərkəzləşdirilmiş maliyyələr arasında əsas yeri kommersiya təşkilatlarının maliyyələrinə aiddir. Burada maddi nemətlər yaradılır, əmtəələr istehsal olunur, xidmətlər göstərilir, cəmiyyətin başlıca istehsal və sosial inkişaf mənbəyi sayılan mənfəət formalaşır. İnkişaf etmiş dünya ölkələrinin qeyri-mərkəzləşdirilmiş maliyyələr sistemində və bütövlükdə maliyyə sistemində maliyyə vasitəçilərinin maliyyələri xüsusi əhəmiyyət kəsb edir. Maliyyə vasitəçilərinə müvəqqəti sərbəst pul vəsaitlərinə malik şəxslərlə pul vəsaitlərinə ehtiyacı olan şəxslər arasında qarşılıqlı fəaliyyətin təşkilində ixtisaslaşan firmalar daxildir. İnkişaf etmiş dünya ölkələrində maliyyə sisteminin bu həlqəsində hər şeydən əvvəl investisiya məqsədləri üçün istifadə edilən nəhəng maliyyə resursları təmərküzləşmişdir [1, s.24].

Maliyyə vasitəçilərinin tiplərinin müxtəlifliyinə baxmayaraq, onlar aşağıdakı ümumi funksiyanı: maliyyə resurslarının səmərəli yerləşməsini onların son istehlakçılarına uyğun təmin etməklə müxtəlif "maliyyə məhsullarını" əldə etmək və satmaqla yerinə yetirirlər. Ev təsərrüfatlarının maliyyələri həm vergi tədiyələri vasitəsilə mərkəzləşdirilmiş maliyyələrin formalaşmasında, həm də ölkənin tədiyə qabiliyyətli tələbinin formalaşmasında əhəmiyyətli rol oynayır. Əhalinin gəlirləri nə qədər çox olarsa, onun müxtəlif növ maddi və qeyri-maddi nemətlərə tələbi bir o qədər yüksək olar və iqtisadiyyatın, sosial sferanın inkişafı üçün böyük imkanlar yaranar. Qeyri-kommersiya təşkilatlarının maliyyələri gəlirlərin formalaşması, onların istifadə olunması qaydası, əmlaka sahibolma və s. ilə əlaqədar öz spesfik xüsusiyyətlərinə malikdir.

Maliyyə münasibətlərinin tarixi xarakteri göstərir ki, istənilən tarixi mərhələdə hər bir dövlət, öz funksiyalarını yerinə yetirmək üçün lazımi fondları yaratmalı və istifadə etməlidir. Həmin fondların yaradılmasının metod və formaları bir-birindən əsaslı surətdə fərqlənə bilər. Fondların yaranma mənbələri isə həmişə məhdud olmuşdur. İndiyə qədər heç bir dövlət quruluşu öz ehtiyaclarını tam ödəmək üçün bütün gəlir mənbələrini aşkar etmək imkanına malik olmamışdır. Burada söhbət gəlirin əldə edilmə formasından deyil, obyektdən tutumlardan gedir. Belə obyektlər timsalında gəlir və mülkiyyət çıxış etmişdir [1, s.25].

1918-ci ildə yaradılan Azərbaycan Demokratik Cümhuriyyətinin iqtisadi siyasətində ən mühüm istiqamətlərindən biri maliyyə-vergi və valyuta siyasəti olmuşdur. Müstəqil dövlətin maliyyə, vergi, bank-kredit sistemini yaratmaq üçün 82-dən çox qanun layihəsi işlənib parlamentə təqdim olunmuş və onların əksəriyyəti qısa müddətdə qəbul olunmuşdu. Bu dövrdə dövlətin maliyyə siyasətinin əsas məqsədi - dövlətin pul tədavülünü qaydaya salmaq-

dan ibarət idi. Bunun üçün xəzinəyə müəyyən rüsum keçirmək şərtilə (ixrac olunan xammal dəyərinin 25%-i) xammal ixracına icazə verilməsinə dair Qanun (11 dekabr 1919) qəbul edilmiş, ölkə xaricinə gizli yolla platin, qızıl və gümüş aparılmasına dair məsuliyyət məsələsinə baxılmış, daxili bazarı tənzimləmək məqsədilə, Azərbaycandan kənara göndərilən əmtəələr üçün yeni müvəqqəti gömrük tariflərinin tətbiq edilməsi haqqında Qanun (9 fevral 1920) təsdiq olunmuş, çevik maliyyə-vergi siyasəti yeridilmiş, xaricdən ölkəyə gömrüksüz gətirilən malların siyahısı (bu siyahıya 200-dən çox məhsulun adı daxil edilmişdir) müəyyənləşdirilmiş və digər işlər görülmüşdür [1, s.28].

Azərbaycanın, 70 il ərzində tərkibində olduğu sosializm sistemi üçün səciyyəvi olan ümumdövlət maliyyəsi-dövlət büdcəsi, dövlət kreditini, dövlət sosial, əmlak və şəxsi sığortaları özündə birləşdirmişdir. Xalq təsərrüfatı sahələrinin maliyyəsinin tərkibinə isə, dövlət, kooperativ müəssisə və təşkilatlarının maliyyəsi daxil olmuşdur. Dövlət müəssisələrinin və onların yuxarı orqanlarının maliyyəsi isə dövlət maliyyəsini təşkil etmişdir.

1991-ci ildə öz müstəqilliyini elan edən Azərbaycanın bazar iqtisadiyyatına keçid şəraitində, yeni maliyyə siyasətini yürütməsi və maliyyə münasibətlərinin yenidən qurulması obyektiv zərurətə çevrilmişdir. Bu gün dövlətin maliyyə sistemi - mərkəzləşdirilmiş pul resursları fondlarının yaradılması, bölgüsü və istifadəsi üzrə yaranan iqtisadi münasibətlər sistemidir. Azərbaycan Respublikasının dövlət maliyyə siyasəti dövlət və hökumət xərclərini tənzimləyir və fiskal tədbirləri həyata keçirir. Fiskal siyasət-dövlətin, büdcə vəsaitinin yaranması və istifadəsi ilə bağlı yeritdiyi maliyyə tədbirləri sistemidir. Bazar iqtisadi münasibətlərində maliyyə siyasəti dövlətin iqtisadi siyasətinin əsas tərkib hissələrindən biridir. Onun əsas prinsipləri dövlət siyasətinin əsas prinsipləri ilə uzlaşmalıdır. Maliyyə siyasəti iqtisadi maraqların təmin edilməsində çox mühüm rol oynayır. Ümumi halda, dövlətin maliyyə siyasəti dövlətin öz funksiyalarını yerinə yetirməsi üçün maliyyə resurslarının səfərbər edilməsi, onların bölgüsü və yenidən bölgüsü, vahid iqtisadi sistemdə istifadə edilməsi, lazımi iqtisadi səmərənin əldə edilməsi və bununla da cəmiyyətdə iqtisadi sabitlik və artıma yönəlmiş tədbirlərin məcmusudur [5, s.58-62; 1, s.29].

Maliyyə siyasəti-dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissələrindən biri olduğu üçün, onun mühüm tərkib hissələri olan maliyyə strategiyası və maliyyə taktikasını bir-birindən fərqləndirmək lazımdır. Maliyyə strategiyası - maliyyə siyasətinin, perspektiv və daha böyük miqyaslı məsələlərinin həllini nəzərdə tutan uzunmüddətli kursdur. Onun işlənib hazırlanması prosesində maliyyənin əsas inkişaf istiqamətləri proqnozlaşdırılır, istifadə yolları və maliyyə münasibətlərinin təşkili prinsipləri müəyyən edilir. Maliyyə siyasəti sahəsində uzunmüddətli məqsədlərin seçilməsi və məqsədli proqramların tərtib edilməsi, sosial-iqtisadi inkişafın başlıca istiqamətlərində maliyyə resurslarının cəmlənməsi üçün zəruridir.

Maliyyə taktikası - çevik maliyyə resurslarının toplanması və maliyyə əlaqələrinin təşkilinin vaxtında tənzimlənməsi yolu ilə, müəyyən (konkret) vaxtda cəmiyyət qarşısında duran məsələlərin həllinə yönəlmişdir. Maliyyənin həm strategiya, həm də taktikası qarşılıqlı surətdə əlaqəlidir. Maliyyə taktikası, cəmiyyətin sosial-iqtisadi inkişafının əsas cəhətlərini və problemlərinin aşkara çıxarılması nəticəsində, müəyyən və konkret vaxt ərzində, az məsrəf və itkilər hesabına nəzərdə tutulmuş məsələlərin həllinə şərait yaradır.

Maliyyə siyasətinin uğurla həyata keçirilməsi üçün maliyyə mexanizmindən istifadə edilir. Maliyyə mexanizmi - maliyyə funksiyalarının praktiki surətdə həyata keçirilməsinin təzahür forması olub, maliyyə sistemi subyektlərinin obyektə təsir vasitəsidir. Onu həm də, dövlətin istifadə etdiyi maliyyənin müxtəlif forma və metodlarının məcmusu kimi də qəbul etmək olar.

Maliyyə mexanizminin əsas elementlərinə - dövlətin gəlir və xərclərinin müəyyən edilməsi, büdcə sisteminin təşkili zamanı istifadə olunan maliyyə resursları və onların yaradılmasının forma və metodları, həmçinin bu sahəyə aid qanunverici norma və normativlər daxildir. Bu mexanizmi, dövlətin maliyyə siyasətinin müxtəlif forma və metodlarının məcmusu kimi də qəbul etmək olar. Maliyyə mexanizminin elementləri çox zəngindir.

Dövlət iqtisadi siyasətinin əsas istiqamətlərinə, həmçinin maliyyənin inkişaf qanunauyğunluqlarına əsaslanaraq, məcmu ictimai məhsulun və yeni yaradılmış gəlirin bölgüsü metodlarını, pul yığımı formalarını, maliyyə resurslarının istifadə istiqamətlərini müəyyən edir. Maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsində maliyyə münasibətlərinin müxtəlif forma və metodlarının düzgün istifadəsinə nəzarət, onların təşkili üsullarının düzgün proqnoz-

laşdırılması, planlaşdırılması və normativlərin tətbiqini zəruri edir.

Beləliklə, maliyyə mexanizmi - maliyyə siyasətinin daha dinamik hissəsidir. O, ölkənin sosial-iqtisadi həyatında baş verən cari dəyişiklikləri operativ əks etdirir. Maliyyə siyasətinin məzmunu yalnız konkret şəraitlə deyil, həm də mövcud iqtisadi münasibətlərin xarakteri və tipi ilə müəyyən edilir. Bu isə öz növbəsində dövlətin iqtisadi siyasətinin konseptual istiqamətlərini müəyyən edir. Tarixən dövlətin maliyyə siyasəti aşağıdakı 3 tipdə formalaşmışdır: klassik, tənzimləyici, plan-direktiv [1, s.30-31].

Dövlətin maliyyə siyasəti sahəsindəki fəaliyyəti müəyyən olunmuş qayda və normalara uyğun həyata keçirilir. Düzgün maliyyə siyasətinin həyata keçirilməsində hüquqi normaların tətbiqi mühüm rola malikdir. Hüquqi normalara əməl edilməsi vahid maliyyə siyasətinin həyata keçirilməsi və bu sahədə ciddi maliyyə intizamının qorunmasını təmin edir. Maliyyə hüququ- maliyyə siyasətinin təşkili və həyata keçirilməsində mühüm üsullardan biri olub, iqtisadi inkişafa mühüm təsir göstərir.

Bu gün inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin tarixi təcrübəsi digər vacib məsələyə diqqət çəkir. Sağlam ictimai maliyyələr və dayanıqlı valyuta özəl maliyyə institutlarının inkişafında önəmli determinantlardı [4, s.28]. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə maliyyə təşkilatları bankları, sığorta təşkilatlarını, pensiya fondlarını, müxtəlif investisiya sxemlərini, qoruyucu bankları, kredit birləşmələrini, qiymətli kağızlar bazarını əhatə edir.İnkişaf emtəkdə olan ölkələrdə yerli nüfuzla və qrup normalarla formalaşmış xüsusi kreditləşmə vacib rol oynayır. Bununla əlaqədar uzunmüddətli bank kreditləşməsinin iqtisadi artıma təsiri,maliyyə vasitəçilərinin fəaliyyətlərinin institutsional təminatı sahəsində sualların araşdırılması xüsusi əhəmiyyət kəsb edəcək.Yeni texnologiyaların yaradılması ilə birgə kapital qoyuluşu,əhalinin təhsil səviyyəsinin artırılması,əməyin beynəlxalq bölgüsü də daxil olmaqla dayanıqlı iqtisadi artımın vacib faktorlarındandır. İnvestisiyalaşma proseslərinin analizi zamanı birinci planda kapital qoyuluşunun maliyyələşməsi problemlərinin qaçılmaz olduğu görünür. Təsəvvür etmək üçün Solou-Suenin və Romerin geniş yayılmış iqtisadi artım modellərini yada salmaq olar [3, s.3, 79; 1, s.34-35]. Kapital qoyuluşlarının maliyyələşməsinin müəyyən formaları tarixən formalaşmışdır.

Həyata keçirilmiş tədqiqatlar maliyyə sisteminin strukturunun adıçəkilən sektorların inkişaf tempinə təsirini müəyyən etmədi və göstərdi ki, sənayenin iqtisadi inkişafı üçün hüquqi və maliyyə sistemlərinin bütövlükdə ümumi inkişaf səviyyəsi prinsipial əhəmiyyət kəsb edir. Bu cür uyğunluqlar ayrı-ayrı firmalar səviyyəsində də əldə edilmişdir. Beləliklə, maliyyə sisteminin inkişaf səviyyəsi və iqtisadi artımın qarşılıqlı əlaqəsi ilə bağlı sualların araşdırılması əsas müddəaları formlaşdırmağa imkan verir:

- İqtisadi artım templəri ilə əlaqəli olan maliyyə sisteminin həcm və effektivliyi;
- Bütövlükdə nəzərdən keçirilən maliyyə sistemi iqtisadi artımın faktorudur;
- Maliyyə sisteminin bank və bazar yönümlü sektorlarına bölünməsi heç də həmişə yerinə düşmür;
- İnkişaf etməkdə olan ölkələrdə iqtisadi artım kapitalın yığımı nəticəsində, inkişaf etmiş ölkələrdə isə istehsal faktorlarının effektivliyi nəicəsində baş verir;
- İnkişaf etməkdə olan ölkələrdə iqtisadi artımın kanalı banklardan, inkişaf etmiş ölkələrdə isə bazardan asılıdır [1, s.38-39].

Beləliklə, bazar yönümlü sistemlər şəxsi hüquqların və müqavilələrin güclü hüquqi mühafizəsi şəraitində uğurla fəaliyyət göstərir, keçid iqtisadiyyatlı ölkələrdə hüquq sistemləri effektiv fəaliyyət göstərmirlər. Razılaşmalara tam nəzarət etmək üçün müqavilələrdə bütün detalları nəzərdən keçirmək çətin məsələdir və adi hüquq ənənələrinə malik ölkələrdə məhkəmə müqavilənin hərfini deyil, məğzini izləməyə çalışırsa, o zaman bu ənənələrə malik olmayan ölkələrdə ancaq güclü banklar müqavilə münasibətlərinin mühafizəsini artırmağa qadirdirlər. Müştəriləri informasiyanın açıqlanmasına və kreditin qaytarılmasına məcbur etməklə onlar sənaye inkişafını asanlaşdırırlar. Deməli, bazar yönümlü sistemlər bank yönümlü sistemlərə nisbətən kapitalın yeni innovativ firmaların xeyrinə bölüşdürülməsinə az effektivlidirlər. Azərbaycan iqtisadiyyatının mövcud institusional mühitində perspektiv araşdırma proqramı ənənəvi, ciddi, deduktiv maliyyə ənənələri ilə, həmçinin institusional analizin metodlarını da özünə daxil etməlidir, hansı ki, xüsusi diqqəti mövcud bacarığa maliyyə sisteminin tətbiqinin spesifik problemlərin aşkara çıxarılması, fövqəladə iqtisadiyyatın sosial-iqtisadi dəyişikliklərinin təsadüfi olmadığını əsaslandırmağı əhatə edir.

**Açar sözlər:** *maliyyə, maliyyə analizi, davamlı inkişaf, sahibkarlıq, iqtisadiyyat, istehlak fondu.*

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Abdullayeva A. Milli iqtisadiyyatda iqtisadi artımla maliyyə sisteminin qarşılıqlı əlaqəsinin təmin olunmasının nəzəri-metodoloji əsasları" mövzusunda magistr işi, Bakı: 2016.*

2. *Azərbaycan iqtisadiyyatı" (Dərslik) Bakı: 1993.*

3. *Barro R, Salai-Martin X. Economic Growth, McGraw-Hill, Inc., 1992.*

4. *Sylla R. Financial Systems and Economic Modernization: A New Historical Perspective. – New York University. Processed., 2000.*

5. *Брайчева Т.В. Государственные финансы. СПб: Питер, 2001, 288 с.*

6. *Финансово-кредитный словарь" (в 3-их томах), Москва 1994, 1996,1998.*

7. *Финансы", Учебник / (под редакций В. М. Родионовой), Москва 1999.*

8. *"Финансы", Учебник / (под редакций Л. А. Дробизикой), Москва 2000.*

9. *Романовский М.В, и др. Основы теории и практики государственных финансов. М.; Изд. "Экономика и финансы", 686 с.*

10. *Забородина В.В. Финансы. М., 1998. 278 с.*


**Миралиев Дильгам**

### Значение финансового анализа и современного предпринимательства как движущей силы экономики


**РЕЗЮМЕ:**

Взаимодействие финансовой системы с экономическим ростом привлекло внимание экономистов еще 100 лет назад. Однако в этот период исследование проблемы носило отнюдь не регулярный характер: несмотря на то, что исследования по теме публиковались лишь в последние 30 лет, интерес к теме не ослабевает, поэтому данное направление экономической анализ можно охарактеризовать как динамично развивающийся и перспективный.

Однако идей и единых мнений в рамках рассматриваемого вопроса в экономической теории не так много, что является характерной чертой развивающейся науки. Консенсус участвует во взаимодействии финансовой системы и экономического роста. Приобретение большого количества статической информации о развитии финансовой системы и экономических методов привело к отходу от чисто теоретических моделей, качественного историко-экономического анализа и увеличению количества эмпирических исследований.


**Ключевые слова:** *финансы, финансовый анализ, устойчивое развитие, предпринимательство, экономика, потребительский фонд.*

**Miraliyev Dilgam**

### The importance of financial analysis and modern entrepreneurship as a driving force in the economy


**SUMMARY:**

The interaction of the financial system with economic growth attracted the attention of economists even 100 years ago. However, during this period, the investigation of the problem was not at all regular: despite the fact that the research on the topic was published only in the last 30 years, the interest in the topic does not weaken, therefore, this direction of economic analysis can be characterized as dynamically developing and perspective.

However, there are not so many ideas and common opinions within the framework of the issue under consideration in economic theory, which is a characteristic feature of developing science. Consensus is involved in the interaction between the financial system and economic growth. The acquisition of a large amount of static information about the development of the financial system and economic methods led to a departure from purely theoretical models, qualitative historical-economic analysis and an increase in the number of empirical studies.


**Key words:** *finance, financial analysis, sustainable development, entrepreneurship, economy, consumer fund.*

UOT 005-027.21
DOI:10.30546/3006-0346.2023.6.78.135

# MENECMENTDƏ STRATEGİYANIN REALLAŞDIRILMASININ PLANLAŞDIRILMASI VƏ ONUN QİYMƏTLƏNDİRİLMƏSİ

**RAHİBƏ ƏBDÜLHƏSƏNOVA**
*Naxçıvan Dövlət Universiteti,*
*"Beynəlxalq ticarət və menecment" kafedrasının müəllimi*
*E-mail: abdulhasanovarahiba@gmail.com*

## Giriş

B.V. İsmayılovun "Strateji planlaşdırma" adlı dərs vəsaitində qeyd edilir ki, Strateji idarəetmə strategiyanın işlənib-hazırlanması və reallaşdırılması üzrə təşkilatın fəaliyyətləri ardıcıllığını müəyyən edən prosesi əks etdirir [1, s.17]. Strateji idarəetmə menecerlərin təşkilatları üçün daha yaxşı performans və rəqabət üstünlüyünə nail olmaq üçün həyata keçirə biləcəkləri strategiyaların müəyyən edilməsi və təsviri ilə bağlıdır. Strateji menecment həm də menecerin qəbul etdiyi və firmanın fəaliyyətinin nəticəsini müəyyənləşdirən qərarlar və hərəkətlər toplusu kimi müəyyən edilə bilər.

Menecer düzgün qərarlar qəbul etmək üçün ümumi və rəqabətli təşkilat mühiti haqqında hərtərəfli biliyə və təhlilə malik olmalıdır. İdarəetmədə planlaşdırma, şirkətin liderlik komandasının məqsədləri yaratması və bu məqsədlərə çatmaq üçün izləyə biləcəkləri addımları təsvir etməsidir. Planlaşdırma prosesi şirkətin resurslarının və maliyyəsinin təhlilini, bazar tendensiyalarının tədqiqini və ya risk təhlillərinin aparılmasını əhatə edə bilər. Şirkətlər məqsədlərinə çatmaq üçün riayət edə biləcəkləri mərhələlər və son tarixlər daxil olmaqla ətraflı fəaliyyət planı yarada bilər. Onlar həmçinin potensial problemləri qabaqcadan görə bilər və baş verərsə, bu problemləri minimuma endirmək və ya aradan qaldırmaq üçün həllər hazırlaya bilərlər [1].

Rəsmi və qeyri-rəsmi planlaşdırmanın iki ümumi növü var. Qeyri-rəsmi planlaşdırma adətən işçilərin növbəti həftələr ərzində çalışa biləcəkləri qısamüddətli məqsədləri müzakirə etmək üçün görüşləri əhatə edir. Formal planlaşdırma adətən idarə heyətinin işçilərin ardıcıl olaraq çalışa biləcəkləri konkret qısamüddətli və uzunmüddətli məqsədləri müzakirə etməsini və yazmasını əhatə edir [2].

## Əsas hissə

### Strategiyanın reallaşdırılması prosesinin əsas idarəetmə təşkilediciləri




**Sxem-1**

Strateji menecmentin SWOT analizi. SWOT güclü tərəflər, zəif tərəflər, imkanlar və təhdidlərin qısaldılmasıdır. Tərifinə görə, Güclü tərəflər (S) və Zəif tərəflər (W) sizin müəyyən ölçüdə nəzarət etdiyiniz daxili amillər hesab olunur. Həmçinin, tərifinə görə, Fürsətlər (O) və Təhdidlər (T) üzərində heç bir nəzarəti olmayan xarici amillər hesab olunur [3].

SWOT Təhlili biznesin və onun ətraf mühitinin ümumi strateji mövqeyinin auditi və təhlili üçün ən məşhur vasitədir. Onun əsas məqsədi təşkilatın resurslarını və imkanlarını firmanın fəaliyyət göstərdiyi mühitin tələblərinə ən yaxşı şəkildə uyğunlaşdıracaq firmaya xüsusi biznes modelini yaradacaq strategiyaları müəyyən etməkdir.

Başqa sözlə, o, daxili potensialı və məhdudiyyətləri və xarici mühitdən gələn ehtimal imkanları və təhdidləri qiymətləndirmək üçün əsasdır. Müvəffəqiyyətə təsir edən şirkət daxilində və xaricində bütün müsbət və mənfi amilləri nəzərdən keçirir. Firmanın fəaliyyət göstərdiyi mühitin ardıcıl öyrənilməsi dəyişən tendensiyaların proqnozlaşdırılmasına kömək edir və həmçinin onları təşkilatın qərar qəbul etmə prosesinə daxil etməyə kömək edir. Dörd

amilin (güclü tərəflər, zəif tərəflər, imkanlar və təhlükələr) icmalı aşağıda verilmişdir:

Güclü tərəflər - Güclü tərəflər təşkilatın missiyasını yerinə yetirməyə imkan verən keyfiyyətlərdir. Bunlar davamlı uğur əldə etmək və davam etdirmək üçün əsasdır.

Güclər maddi və ya qeyri-maddi ola bilər. Bunlar sizin yaxşı bildiyiniz və ya təcrübəniz, işçilərinizin sahib olduğu xüsusiyyətlər və keyfiyyətlər (fərdi və komanda şəklində) və təşkilatınıza ardıcıllıq verən fərqli xüsusiyyətlərdir. Güclü tərəflər təşkilatın faydalı tərəfləri və ya insan səriştələri, proses imkanları, maliyyə resursları, məhsul və xidmətlər, müştərilərin xoş niyyəti və marka sədaqətini ehtiva edən təşkilatın imkanlarıdır. Təşkilatın güclü tərəflərinə misal olaraq nəhəng maliyyə resursları, geniş məhsul xətti, borcun olmaması, sadiq işçilər və s.

Zəif tərəflər - Zəif tərəflər missiyamızı yerinə yetirməyimizə və bütün potensialımıza çatmağımıza mane olan keyfiyyətlərdir. Bu zəifliklər təşkilatın uğuruna və böyüməsinə təsirini pisləşdirir. Zəif tərəflər, cavab verməli olduqlarını düşündüyümüz standartlara cavab verməyən amillərdir. Təşkilatın zəif tərəfləri köhnəlmiş maşın, qeyri-kafi tədqiqat və inkişaf imkanları, dar məhsul çeşidi, zəif qərar qəbulu və s. ola bilər. Zəif cəhətləri idarə etmək olar. Onları minimuma endirmək və aradan qaldırmaq lazımdır. Məsələn - köhnəlmiş texnikanı aradan qaldırmaq üçün yeni texnika almaq olar. Təşkilati zəifliklərin digər nümunələri böyük borclar, yüksək işçi dövriyyəsi, mürəkkəb qərar qəbuletmə prosesi, dar məhsul çeşidi, böyük xammal itkisi və s.

İmkanlar - İmkanlar təşkilatımızın fəaliyyət göstərdiyi mühit tərəfindən təqdim olunur. Bunlar təşkilatın daha çox qazanc əldə etməsinə imkan verən strategiyaları planlaşdırmaq və həyata keçirmək üçün öz mühitindəki şərtlərdən faydalana bildiyi zaman yaranır. Təşkilatlar imkanlardan istifadə etməklə rəqabət üstünlüyü əldə edə bilər [8].

Təhdidlər-Xarici mühitdəki şərtlər təşkilatın biznesinin etibarlılığını və gəlirliliyini təhlükə altına qoyduğu zaman təhlükə yaranır. Onlar zəif tərəflərlə əlaqəli olduqda zəifliyi artırırlar. Təhdidlər idarə olunmazdır. Təhdid gəldiyi zaman sabitlik və sağ qalma təhlükə altında ola bilər. Təhdidlərə misal olaraq

- işçilər arasında iğtişaşlar; daim dəyişən texnologiya;

- həddindən artıq gücə, qiymət müharibələrinə və sənaye mənfəətinin azalmasına gətirib çıxaran artan rəqabət və s. Bütün bu kimi proseslər təhdidlərin mövcud olmasına zəmin yaradır. Ona görə də ümumi işlənmə metodologiyasına əsaslanaraq münaqişələrin azlığına və yeni mübahisələrin az təzahürünə şərait yaransa, təhdidlər bir o qədər az meydana çıxa bilər. Bu cür şəraitdə effektiv planlaşdırma menecerlərə idarəetmə prosesində bütün digər fəaliyyətləri yerinə yetirməkdə mütləq kömək ola bilər. O, gözlənilən nəticəyə nail olmaq üçün fəaliyyətin uğuru üçün möhkəm təməl kimi işləyəcək. Bundan əlavə, uğurlu planlaşdırma təşkilatın rəqabətlə daha yaxşı qarşılaşmasına və sənayedə rəqabət üstünlüyü əldə etməyə kömək edəcəkdir [4].

**Menecmentin formalaşmasının SWOT analizi**




**Sxem-2**

SWOT-təhlili nədir sualını aşağıdakı kimi cavablandırmaq olar:

• SWOT-təhlil metodu strateji menecmentin universal metodikasıdır;

• SWOT-təhlilin hədəfi istənilən məhsul, firma, təhsil müəssisəsi, zavod, mağaza, ölkə və hətta insan ola bilər.

**SWOT-təhlilin aşağıdakı növləri mövcuddur:**

- şirkətin (firmanın) və ya istehsal müəssisəsinin fəaliyyətinin SWOT-təhlili;

- dövlət və qeyri-kommersiya təşkilatın SWOT-təhlili;

- təhsil müəssisəsinin fəaliyyətinin SWOT-təhlili;

- müəyyən ərazinin (ölkə, iqtisadi rayon, ayrıca inzibati rayon, şəhər) SWOT-təhlili.

SWOT təhlili aşağıdakı şəkildə strateji planlaşdırmada kömək edir:

*- Strateji planlaşdırma üçün məlumat mənbəyidir;*
*- Təşkilatın güclü tərəflərini yaradır;*
*- Onun zəif tərəflərini geri qaytarır;*
*- Fürsətlərə cavabını maksimum dərəcədə artırır;*
*- Təşkilatın təhdidlərini dəf edir;*
*- Bu, şirkətin əsas səlahiyyətlərini müəyyən etməyə kömək edir;*
*- Strateji planlaşdırma məqsədlərini təyin etməyə kömək edir;*
*- Keçmişi, indiki və gələcəyi bilməkdə kömək edir ki, keçmiş və cari məlumatlardan istifadə edərək gələcək planlar həyata keçirilə bilməyə şərait yaradır [7].*

**İdarəetmədə hər hansı bir təşkilatın məqsədli vəziyyətinin müəyyənləşdirilməsinə yanaşmaların qısa xarakteristikası**

**Cədvəl 1.**

| Ad | Qısa xarakteristikası |
|---|---|
| K.Endryusun yanaşması | Təşkilatın hazırkı vəziyyətinin onun daxili potensialının və xarici mühitin inkişaf meylinə uyğunlaşdırmaq vasitəsilə təşkilatın gələcək vəziyyətinin müəyyən edilməsi |
| M.Porterin yanaşması | Sahədə rəqabətin təhlili nəticəsində təşkilatın məqsədli vəziyyətinin müəyyən edilməsi. Bu zaman gələcək vəziyyət sahədə təşkilatın rəqib mövqeləri ilə əlaqələndirilir |
| Bennis və Neymusun yanaşması | Lider öz təşkilatının məqsədli vəziyyətini görməyi bacarmalıdır |
| K.Praalad və Q.Xmelin yanaşması | Təşkilatın məqsədli vəziyyəti fərqli qabiliyyətin təzahür etdiyi vəziyyət kimi |
| Səmərəli inkrimentalizm | Təşkilatın məqsədli vəziyyəti təşkilati böhranın imtina olunması kimi |
| Liderin arxasınca qaçmaq | Təşkilatın məqsədli vəziyyəti sahə liderinin vəziyyəti kimi |

Yuxarıdakı cədvəldən göründüyü kimi, M.Porterin yanaşması sahənin mövcud vəziyyətinin təhlili nəticəsinə əsaslanmağa imkan verir, hansı ki, müəssisənin biznes fəaliyyəti həyata keçirilir və onun gələcək vəziyyətinin əsasını müəyyən edir. M.Porterin yanaşması K.Endryusun ideyasının özünəməxsus inkişaf etdirilməsidir. Burada həmçinin mahiyyətcə söhbət müəssisənin daxili vəziyyəti ilə xarici mühitin dəyişilməsi arasında ən yaxşı uyğunlaşmanın müəyyənləşdirilməsindən gedir. Ümumiyyətlə bu kimi yanaşmalar idarəetmədə öz mühüm aktuallığı ilə əhəmiyyət kəsb edir [5].

**Strategiyanın reallaşdırılmasının planlaşdırma modellərinin qısa xarakteristikası**

**Cədvəl-2**

| Ad | Qısa xarakteristikası |
|---|---|
| "Bazarın – bazarda payın artması tempi" tipli model (BCG modeli) | Təşkilatın vəziyyəti bazarda fəaliyyət göstərən bütün qalan təşkilatlarla nisbətən mövqeləşir |
| "Bazarın (sahənin) cəlbediciliyi – şirkətin rəqabət qabiliyyəti" tipli model (GE/Mckinsey, Shell/ DPM) modeli | Təşkilatın vəziyyəti bazarda onun güclü tərəflərinin nisbi qiymətləndirilməsini həmin bazarın perspektivinin nisbi qiymətləndirilməsi ilə əlaqələndirmək yolu ilə mövqeləşir |
| "Bazarın (məhsulun həyat tsiklinin) təkamül mərhələsi – şirkətin rəqib vəziyyəti" tipli model (Xofer-Şendel, ADL modeli) | Təşkilatın vəziyyəti bazarın təkamül mərhələsindən (yaxud məhsulun həyat tsikli mərhələsindən) asılı olaraq rəqiblərə nisbətən onun mövqeyinin qiymətləndirilməsi nəticəsində müəyyən edilir |

**Nəticə**

Yuxarıdakı cədvəllərdən göründüyü kimi, idarəetmədə hər-hansı bir təşkilatın məqsədli vəziyyətinin müəyyənləşdirilməsinə yanaşmaların qısa xarakteristikasında M.Porterin [6] yanaşması sahənin mövcud vəziyyətinin təhlili nəticəsinə əsaslanmağa imkan verir.Strategiyanın reallaşdırılmasının planlaşdırma modellərinin qısa xarakteristikasında isə GE/Mckinsey [5] modelinin başlıca xüsusiyyəti ondan ibarətdir ki, onda ilk dəfə biznes növlərinin müqayisəsi üçün təkcə fiziki amillərə (satışın həcmi, mənfəət, investisiya verimi və s.) deyil, həm də bazar payının, texnologiyanın dəyişilməsi, kadr təminatı kimi biznesin subyektiv xarakteristikasına baxılır. Bu modelin əsas məziyyətlərindən biri müxtəlif amillərin bu və ya digər biznes növü, yaxud sahə üçün vacibliyindən asılı olaraq müxtəlif çəki əmsalları verə bilməsidir ki, bu da hər bir biznes növünü daha dəqiq qiymətləndirməyə imkan verir. Yerli ədəbiyyatlarda menecmentdə strategiyanın reallaşdırılmasının planlaşdırılması və onun qiymətləndirilməsi məsələləri günümüzdə, demək olar ki, yetərincə tədqiq olunmamışdır. Gələcəkdə tədqiqatçı alimlərdən xarici əsərlərə istinad olunaraq bu sahə üzrə daha fundamental araşdırmaların aparılmasına və müqayisəli təhlillərin verilməsini, həmçinin, bu sahə üzrə mövcud olan problemlərin göstərilərək həll yollarının qeyd edilməsini məqsədəuyğun hesab edirik.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. İsmayılov, B.V. Strateji menecment.- Dərs vəsaiti. Bakı, "Təhsil",- 2018.-296 s.*
*2. Quliyev, T.Ə. Menecmentin (idarəetmənin) izahlı lüğəti.-Bakı, 2001.- 78 s.*
*3. Tağıyev, T.T. Menecment: mühazirələr kursu. Bakı, 2006.-162 s.*

*4. Блажевич, А.А. Стратегический менеджмент. УФА-2005. – 113 с.*

*5. Герчикова, И.Н. Менеджмент. 4-е. издание. Юнити, Москва – 2006. -830 с.*

*6. Стратегический менеджмент. Под. редакцией Петрова. СПб., 2006. – 496 с.*

*7. Jeseviciute-Ufartiene, L. "Organization self-development based on mind activity expansion in management," Management Theory and Studies for Rural Business and Infrastructure Development. Research Papers,-2010, vol. 5, no. 24, pp. 55-62.*

*8. Sarason, Y., Tegarden, F. "The erosion of the competitive advantage of strategic planning," Journal of Business and Management,-2003, vol. 9, no. 1, pp. 1-21.*

**XÜLASƏ:**

Menecment müasir dövrdə mühüm əhəmiyyətə malik olan fəaliyyət sahələrindən biridir. Menecmentdə strategiya anlayışı, onun planlaşdırılması və qiymətləndirilməsi yerli və xarici müəlliflərin əsərlərinə istinad olunaraq şərh edilmişdir. Məqalədə həmçinin strategiyanın reallaşdırılması prosesinin əsas idarəetmə təşkilediciləri, strateji menecmentin SWOT analizi, idarəetmədə hər hansı bir təşkilatın məqsədli vəziyyətinin müəyyənləşdirilməsinə yanaşmaların və strategiyanın reallaşdırılmasının planlaşdırma modellərinin qısa xarakteristikası cədvəl və sxemlər əsasında izah edilmişdir.

**Açar sözlər:** *Strateji menecment, SWOT analiz, reallaşdırma, planlaşdırma, qiymətləndirmə, idarəetmənin metodologiyası*

**Abdulhasanova Rahiba Zeynal**
***Nakhchivan State University***
***Teacher of the "International trade and management" department***

**Planning the implementation of the strategy in management and its evaluation**

**SUMMARY:**

Management is one of the important fields of activity in modern times. The concept of strategy in management, its planning and evaluation was interpreted with reference to the works of local and foreign authors. The article also explains the main management organizers of the strategy implementation process, SWOT analysis of strategic management, approaches to determining the target situation of any organization in management, and a brief description of strategy implementation planning models based on tables and schemes.

**Keywords:** Strategic management, SWOT analysis, implementation, planning, evaluation, management methodology.

**Абдулхасанова Рахиба**
***Нахчыванский Государственный Университет***
***Преподаватель кафедры «Международная торговля и менеджмент»***

**Планирование и оценка реализации стратегии в управлении**

**РЕЗЮМЕ:**

Менеджмент является одной из важных сфер деятельности в наше время. Понятие стратегии в менеджменте, ее планирование и оценка интерпретировались на основе работ отечественных и зарубежных авторов. Также в статье раскрыты основные управленческие организаторы процесса реализации стратегии, SWOT-анализ стратегического управления, подходы к определению целевой ситуации любой организации в управлении, а также дано краткое описание моделей планирования реализации стратегии на основе таблиц и схем.

**Ключевые слова:** *Стратегический менеджмент, SWOT-анализ, реализация, планирование, оценка, методология управления.*

UOT 339.9
DOI:10.30546/3006-0346.2023.6.78.139

# AZƏRBAYCANIN İDXAL-İXRAC ƏMƏLİYYATLARINDA ELEKTRON TİCARƏTİN MÜASİR VƏZİYYƏTİ

**AYŞƏN HÜSEYNOVA**
*Bakı Dövlət Universitetinin magistrantı*
*E-mail: aysan7557@gmail.com*

## Giriş

1969-cu ildə Arpanet (ing. – Advanced Research Projects Agency Network) kompüter şəbəkə sisteminin yaradılması elektron məlumat mübadiləsini mümkün etdi. Məhdud səviyyədə olan elektron vasitələrin köməyi ilə 1970-ci illərin sonlarından etibarən kataloqlardan satışlar həyata keçirildi. İnternet-şəbəkə sisteminin dünya üzrə yayılması ilə virtual məkanda elektron ticarətin inkişafı və geniş auditoriyaya çatdırılması üçün tədricən şərait yarandı [1, s.141].

Elektron ticarət və nağdsız hesablaşmalar bu gün rəqəmsallaşan dünyanın gündəmindəki ən vacib iki mövzudur. Dünyanın "Walmart", "Amazon", "Ebay" kimi ən böyük elektron ticarət bazarlarının əksəriyyəti böyük əhalisi və yüksək alıcılıq qabiliyyəti olan ölkələrin payına düşür.

## Elektron ticarət nədir?

İnternetin ən böyük üstünlüklərindən biri və geniş ictimaiyyətin qəbul etdiyi anlayış olan "Elektron ticarət" gündəlik həyatımıza kök salmış və rəqəmsal dünya ilə birlikdə sürətlə yayılmışdır. İstifadəçilər müxtəlif ərazilərdən zaman məhdudiyyəti olmadan əlçatan və rahat şəraitdə alış-veriş etmək imkanına sahib olur. Elektron ticarət dedikdə, informasiya sistemləri vasitəsilə məhsulların alqı-satqısını həyata keçirmək, bu sahədə müştərilərə xidmət göstərmək, bir sözlə onlayn və ya offlayn əməliyyatlar nəzərdə tutulur. Elektron ticarət müasir və rahat kommunikasiyalar yaratmağa qadir açıq şəbəkə sisteminin mövcudluğuna, sürətli elektron ödəniş sistemlərindən istifadəyə, optimal gömrük tənzimlənməsinə və s. əsaslanır.

Elektron kommersiya aşağıdakı növlərə əsasən müxtəlif istiqamətlərdə inkişaf edir:

1. B2B (Business-to-business) – hüquqi şəxslər arasında informasiya və iqtisadi münasibətləri müəyyən edən elektron ticarət sistemidir. B2B modelində satış zamanı potensial müştəriləri müəyyən etmək daha asandır. Çünki şirkətlər və təşkilatlar haqqında informasiya bazası daha sistemli formada olur. Azərbaycanda www.b2b.az elektron ticarət portalı İqtisadiyyat Nazirliyi tərəfindən sahibkarların xüsusilə kənd təsərrüfatı məhsulları istehsalçılarının bazara sərbəst çıxışına, işgüzar əlaqələrin genişləndirilməsinə və elektron satınalmanın təşkilinə dəstək məqsədilə yaradılmışdır. Portaldakı xidmətlərdən bütün sahibkarlar yararlana bilər. Azərbaycanın ilk elektron ticarət portalı olan www.b2b.az saytında istifadəçilərə məlumat dəstəyi göstərmək məqsədilə portalda təhlil və informasiya tipli resurslar yerləşdirilmişdir [2].
2. B2C (Business-to-Consumer) – modeli mal və xidmətlərin son istifadəçilərinə fokuslanmış elektron biznes modelidir. Bu ticarət növündə ən çox yayılmış ünsiyyət vasitəsi İnternet-mağazadır.
3. B2G (Business-to-Government). Elektron ticarətin bu növü dövlət və biznesmen arasında həyata keçirilir. Bu sistemdən istifadə edən dövlət idarələri açıq bazarda ehtiyac duyduqları məhsulları əldə edirlər.
4. C2C (Consumer-to-Consumer) – sonuncu istehsalçı ilə sonuncu istehlakçı arasında qarşılıqlı əlaqə üçün istifadə olunur. E-bay platformasını C2C modelinə misal göstərmək olar.

## Azərbaycanda elektron ticarətin inkişaf dinamikası

"Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanunu 2005-ci il may ayının 10-da qəbul edilmişdir. Bu Qanun Azərbaycan Respublikasında elektron ticarət formasının həyata keçirilməsinin hüquqi əsaslarını, iştirakçıların hüquq və vəzifələrini, tərəflərin məsuliyyətini müəyyən edir. "Elektron ticarət haqqında" AR-nın Qanununda dəyişiklik edilməsi haqqında ölkə Prezidenti 2016-cı il 16 dekabrda fərman imzalamışdır. Elektron ticarətin iştirakçıları bu fəaliyyət zamanı iştirak edən satıcı (malları satan və xidmətləri göstərən), alıcı (malları sifariş edən) və elektron sənəd dövriyyəsi vasitəçisi (alıcı və satıcı arasında elektron sənəd dövriyyəsi xidmətlərini göstərən) kimi çıxış edən hüquqi və fiziki şəxslərdir [2,3].

Azərbaycanda elektron ticarət fəaliyyətini həyata

keçirmək üçün bir neçə yollar mövcuddur. Bunlardan biri də yaradılmış portallardır ki, onlar da fəaliyyət sferasına görə ödəmə və satış qruplarına bölünür:

**Onlayn məhsul satışı portalları:**

• **Ofisait.com** – istifadəçilərə əsasən ofis ləvazimatları və məktəbli əşyaları təklif edir.

• **Premiumoutlet.az** – ayaqqabı, geyim, aksesuarların ticarəti ilə məşğuldur.

• **Shop.az** – portal mənsub olduğu müəssisələrin satışını həyata keçirmir, ayrı-ayrı satıcıların məhsullarını bir ünvanda birləşdirir.

**Onlayn ödəmə portalları:**

• **Hesab.az** – Onlayn ödəmə sistemi kimi portal daxili bazarda görkəmli mövqeyə malik olmaqla yanaşı, istifadəçilərə dövlət ödənişləri, kredit ödənişləri, kommunal ödənişlər kimi xidmətlər təklif edir.

• **Million.az** – bu saytın istifadəçiləri müxtəlif ödəniş üsulları da daxil olmaqla 500-dən çox fərqli xidmət seçimlərindən birini seçə bilərlər. Bundan əlavə, "Million" mobil tətbiqi hazırlanaraq istifadəçilərin ixtiyarına verilmişdir.

• **Portmanat.az** – digərlərindən fərqli olaraq, bu sayt otellər, turizm, taksi kimi geniş ödəmə xidmətləri təklif edir.

Qeyd edək ki, Azərbaycanda 2021-ci ildə debet və kredit kartları ilə 11 milyard 172 milyon manat nağdsız ödəniş həyata keçirilib. Bu, 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 82,7% çoxdur. Bu nağdsız ödənişlərin 37 milyon manatı ATM-lər, 3 milyard 926 milyon manatı POS-terminallar, 7 milyard 208 milyon manatı isə elektron ticarət vasitəsilə həyata keçirilib [5].

**Qrafik 1. Azərbaycanda elektron ticarətin həcmi (milyon manatla)**




## Elektron ticarətdə gömrük prosedurları

Azərbaycanın elektron ticarətində idxal-ixrac əməliyyatları zamanı gömrük orqanlarının fəaliyyəti xüsusi yer tutur. Gömrük fəaliyyəti ticarətin yaranması və tənzimlənməsi məsələləri ilə ayrılmaz şəkildə bağlıdır. İndiki mərhələdə respublika ərazisində fəaliyyət göstərən gömrük idarələrini vahid avtomatlaşdırılmış informasiya sistemi birləşdirir. Dövlət Gömrük Komitəsi bu istiqamətdə davamlı fəaliyyət göstərir, hansı ki, ticarətdə kağız kargüzarlığını tam və ya qismən aradan qaldıraraq rəsmiləri və vətəndaş təmasını minimuma endirir. DGK tərəfindən 2011-ci ildə "VAİS-Kargüzarlıq" avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqi bu istiqamətdə vacib addım idi. Əhaliyə daha keyfiyyətli xidmət göstərmək, "elektron hökumət" təşəbbüsünü dəstəkləmək, beynəlxalq ticarət zamanı idxal-ixrac prosesini asanlaşdırmaq məqsədilə DGK tərəfindən mühüm təkmilləşdirmələr həyata keçirilib.

Müasir mərhələdə ticarətin sürətli şəkildə həyata keçirilməsi, prosesin şəffaflığının təmin olunması, "kölgə iqtisadiyyatı" nın aradan qaldırılması və vaxt itkisinin qarşısının alınması üçün "Sadələşdirilmiş Bəyannamə - Elektron Ticarət" layihəsi tətbiq olunur. Layihənin mobil və veb versiyaları mütəxəssislər tərəfindən təşkil olunub. Elektron xidmət beynəlxalq poçt göndərişləri və ya daşıyıcı şirkət vasitəsilə xaricdən mal gətirən fiziki şəxslərə gömrük orqanına gəlmədən bütün gömrük əməliyyatlarını həyata keçirməyi əlçatan edir. Bu zaman sifariş veriləcək bağlamaların gömrük orqanlarına bəyan edilməsi üçün "Sadələşdirilmiş Bəyannamə - Elektron Ticarət" tətbiqindən istifadə edilməsi tələb olunur.

Gömrük orqanlarında tətbiq olunan yeni elektron xidmətlər siyahısına "Elektron hesab səhifəsi"nin yaradılması daxildir. Şəxsi hesab vərəqəsi elektron xidməti idxal-ixrac prosedurları zamanı gömrük bəyannamələri və hesablamaların, gömrük və digər ödənişlərin uçotunun vahid platforma üzərindən reallaşdırılmasına imkan verir. Pilot variantda istifadəyə verilən bu xidmət biznes fəaliyyətinin daha səmərəli və çevik şəkildə təşkili, maliyyə uçot sisteminin düzgün tərtib edilməsi baxımından xüsusi önəm daşıyır [6].

**İdxal rüsumları:** Məhsul sahibi və ya gömrük agenti biznes məqsədləri üçün gətirilən malları gömrük orqanlarına bəyan etmək üçün "Asan İmza"dan istifadə etməlidir. Gömrük orqanlarına təqdim edilən məhsulun mal nomenklaturasına (HS) uyğun olaraq

məhsulun faktura dəyəri və daşınma xərcləri uçota alınmaqla aşağıdakı ödənişlər tətbiq edilir:

• **İdxal gömrük rüsumu:** Nazirlər Kabinetinin 500 nömrəli qərarına uyğun olaraq 0, 5% və ya 15%;

• **Əlavə dəyər vergisi:** Vergi Məcəlləsinə uyğun olaraq 0 və ya 18%;

• **Aksiz vergisi:** "Aksizlər haqqında qanuna" uyğun olaraq zəruri məhsullarda;

• **Gömrük yığımı:** "Gömrük yığımlarının məbləğləri"nin təsdiq edilməsi barədə Qərara uyğun olaraq (Cədvəl 1);

• **Elektron xidmət haqqı:** 35,4 AZN (bəyannamə haqqı).

**Cədvəl 1. Məhsulun gömrük dəyərinə uyğun olaraq gömrük yığımı**

| № | Məhsulun gömrük dəyəri | Gömrük yığımının miqdarı |
|---|---|---|
| 1 | 1000 AZN-dək | 15 AZN |
| 2 | 1000 – 10 000 AZN | 60 AZN |
| 3 | 10 000 – 50 000 AZN | 120 AZN |
| 4 | 50 000 – 100 000 AZN | 200 AZN |
| 5 | 100 000– 500 000 AZN | 300 AZN |
| 6 | 500 000– 1 000 000 AZN | 600 AZN |
| 7 | 1 000 000 AZN-dən yuxarı | 1000 AZN |

**İxrac rüsumları:**

• **İxrac gömrük rüsumu:** Yalnız Nazirlər Kabinetinin 500 nömrəli qərarına uyğun olaraq bəzi məhsullarda;

• **Gömrük yığımı:** "Gömrük yığımlarının məbləğləri"nin təsdiq edilməsi barədə Qərara uyğun olaraq;

• **Elektron xidmət haqqı:** 35,4 AZN (bəyannamə haqqı) [6, s.174-175]

## Nəticə

Elektron ticarətin həcminin internet istifadəsinin qlobal artımı ilə tandemdə sürətlə artması və ticarətin ümumi həcmindəki payının hər gün artması danılmazdır. İnformasiya və kommunikasiya texnologiyaları sahəsində böyük irəliləyiş sayəsində elektron ticarət son on ildə strateji əhəmiyyət kəsb etmişdir.

Zaman keçdikcə elektron ticarət inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına fərqli təsir göstərəcəkdir. İnkişaf etmiş ölkələrin infrastrukturu və ixtisaslı işçi qüvvəsi olduğundan, elektron ticarətin nəticələri müsbət olacaqdır. Beləliklə, Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə infrastrukturun və təlim keçmiş işçilərin kifayət qədər olmaması onların iqtisadi inkişaf qabiliyyətinə mane olur. Dövlət qurumlarında bu istiqamət üzrə görülən işlər əlaqələndirilməli və özəl sektorla əməkdaşlıq aparılmalıdır. Həmçinin, hökumət e-ticarət sektorunun inkişafını ləngidən vergi strukturuna qarşı tədbir kimi həvəsləndirici kampaniyalar və güzəştlər təşkil edə bilər. Bunun üçün zamanla ayaqlaşmalı və elektron ticarət bacarıqlarını inkişaf etdirmək lazımdır.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Umarova N. İqtisadiyyatda innovativ texnologiyalar. Dərs vəsaiti. – Bakı: - 2021. - 210 s.*

*2. http://export.az/index.php?lang=az*

*3. "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının qanunu. İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri, 10 may 2005-ci il, № 908-IIQ*

*4. "Elektron ticarət haqqında Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli Qanunu, № 460-VQD*

*5. Azərbaycanda e-ticarətin həcmi rekorda çatıb – Qrafik.*

*https://marja.az/82425/azerbaycanda-e-ticaretin-hecmi-rekorda-catib-qrafik*

*6. https://www.e-gov.az/az/services.*

*7. V.Qasımlı, M.Talıbova, G.Quliyeva, A.Müseyıbov, F.Mirzəyev, A.Qədəşov, G.Əhmədova. "Rəqəmsal iqtisadiyyat" Bakı, "Azprint" nəşriyyatı – 2023. - 262 s.*


## XÜLASƏ


Məqalədə Azərbaycan Respublikasında elektron ticarətin inkişafındakı mövcud tendensiyalar və onun perspektivləri müzakirə olunur.Azərbaycanın ticarət potensialını əhəmiyyətli dərəcədə artırmaq və bu prosesi sadələşdirmək məqsədilə müəyyən strategiyalar həyata keçirilir. Bu istiqamətdə yaradılmış elektron ticarət portalları, onlayn mağazalar və idxal-ixrac əməliyyatlarında istifadə edilən digər elektron xidmətlər ticarət fəaliyyətinin inkişafını təmin etmək üçün nəzərdə tutulmuşdur.

Məqalədə Dövlət Gömrük Komitəsinin elektron ticarətdə idxal-ixrac əməliyyatları zamanı rolu xüsusi olaraq vurğulanır. Burada xarici ticarətin əsas göstəricisi olan malların idxal və ixracının müasir dövrün tələblərinə uyğun olaraq inkişaf etdirilməsi şərh olunur.

**Açar sözlər:** *elektron ticarət, idxal-ixrac münasibətləri, DGK, biznes, elektron ticarət portalı*

**АЙШАН ГУСЕЙНОВА**
***Магистрант Бакинского Государственного Университета***
***Электронная почта: aysan7557@gmail.com***

## ТЕКУЩЕЕ СОСТОЯНИЕ ЭЛЕКТРОННОЙ КОММЕРЦИИ В ИМПОРТНО-ЭКСПОРТНЫХ ОПЕРАЦИЯХ АЗЕРБАЙДЖАНА

**РЕЗЮМЕ:**

В статье обсуждаются текущие тенденции и перспективы развития электронной торговли в Азербайджанской Республике. С целью значительного увеличения торгового потенциала Азербайджана и упрощения этого процесса реализуются определенные стратегии. Созданные в этом направлении порталы электронной коммерции, интернет-магазины и другие электронные сервисы, используемые в импортно-экспортных операциях, предназначены для обеспечения развития торговой деятельности.

В статье особо подчеркивается роль Государственного таможенного комитета при осуществлении импортно-экспортных операций в электронной торговле. Здесь трактуется развитие импорта и экспорта товаров, являющихся основным показателем внешней торговли, в соответствии с требованиями современности.

**Ключевые слова:** *электронная коммерция, импортно-экспортные отношения, DGK, бизнес, портал электронной коммерции.*

**AYSHAN HUSEYNOVA**
***Master student of Baku State University***
***E-mail: aysan775@gmail.com***

## THE CURRENT STATE OF E-COMMERCE IN AZERBAIJAN'S IMPORT-EXPORT OPERATIONS

**SUMMARY:**

The article discusses the current trends in the development of electron commerce in the Respublic of Azerbaijan and its prospects. Certain strategies are being implemented in order to significantly increase the trade potential of Azerbaijan and simplify this process. E-commerce portals, online stores and other electronic services used in import-export operations created in this direction are designed to ensure the development of trade activities.

In the article, the role of the State Customs Committee during import-export operations in electronic commerce is specially emphasized. Here, the development of import and export of goods, which is the main indicator of foreign trade, in accordance with the requirements of the modern era is explained.

**Keywords:** *e-commerce, import-export relations, DGK, business, e-commerce portal.*

UOT 336; 336.11
DOI:10.30546/3006-0346.2023.6.78.143

# MƏHSUL VƏ XİDMƏT BAZARINDA İQTİSADİ KONYUNKTURA VƏ QİYMƏTİN YARADILMASI XÜSUSİYYƏTLƏRİ

**NURANƏ ƏHƏDOVA**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın XV-XVIII əsrlər tarixi" şöbəsinin böyük laborantı*

*E-mail: nurana.ahadova85@mail.ru*

Məqalədə qarşıya qoyulan əsas məqsəd bazar iqtisadiyyatı modeli seçmiş ölkələrdə iqtisadi inkişafda mühüm rol oynayan sahibkarlıq fəaliyyəti ilə bağlı dünya ölkələrinin və Azərbaycanın sahibkarlıq fəaliyyətini dəstəkləyən dövlət siyasətləri və proqramlarının araşdırılmasından ibarətdir. Dünya təcrübələrini nəzərə alsaq sahibkarlıq fəaliyyətinin inkişaf strategiyalarında getdikcə daha çox yer tutduğunu görə bilərik. Bunun səbəbi də, sahibkarlığın ölkə iqtisadiyyatının inkişafında böyük rola sahib olmasından irəli gəlir. Sahibkarlığın rifahın və sosial ədalətin vacib bir komponenti olması bütün dünyada qəbul olunmuşdur. Sahibkarlıq yeni müəssisələrin yaranmasına, yeniliklərə, məhsuldarlığa və böyüməyə töhfə verməklə bir çox iqtisadi fayda yaradır. Bu səbəbdən əksər hökumətlər sahibkarlığın təşviqinə üstünlük verirlər. Bu kontekstdə sahibkarlıq fəaliyyətinin ümumiyyətlə iki kateqoriyada əhatə olunduğu görülür: makro (rəqabət siyasəti, immiqrasiya siyasəti, vergi siyasəti, tənzimləmə bazası) və mikro (təhsil, məlumat, məsləhət, mübadilə proqramları, maliyyəyə çıxışın asanlaşdırılması). Bundan əlavə, ölkələrdə sahibkarlığın formalaşdırılmasından məsul olan orqanlar iki fərqli yanaşmada iki əsas istiqamətdə hərəkət edirlər. Birinci istiqamətin iki yanaşmasından biri sahibkarlığı, digəri isə KOS-ləri dəstəkləməkdir. İkinci istiqamət üzrə yanaşmanın birincisi sahibkarlıq və KOS-lərdəki maneələri azaltmaq, digəri isə intensiv dəstək verməkdir. Yeni müəssisələrin yaradılmasını asanlaşdırmaq və sahibkarların böyüməsinə və inkişafına imkan verən bir mühit hazırlamaq üçün müdaxilənin üç sahəsi müəyyən edilmişdir:

1. Yeni müəssisələrin yaradılması və müəssisələrin böyüməsinə imkan yaradan sahibkarlıq təlimi;
2. Sahibkarların cücərərək böyüyə biləcəyi mühit yaratmaq, struktur maneələri aradan qaldırmaq və sahibkarları fəaliyyət müddətinin hər mərhələsində dəstəkləmək;
3. Sahibkarlıq mədəniyyətini inkişaf etdirmək [7, s.156-167].

Sahibkarlığın müsbət bir imicə sahib olmasını təmin etmək üçün təyin olunmuş mütəxəssislər qrupunun hazırladığı hesabatda üzv ölkələrdə sahibkarları mediada daha real və müsbət cəhətlərlə tanıtmaq, media mükafatları vermək, sahibkarlıq səfirləri şəbəkəsinin yaradılması və tanıtım kampaniyalarının təşkil edilməsi tövsiyə edilir [7, s.156-157; 6,]. Həmçinin ali təhsildə sahibkarlıq təhsilinin tələbələrin əsas səriştəsini artırdığı, tələbələrin biznes qurmaq niyyətlərini gücləndirdiyi və iş qabiliyyətlərini artırdığı bildirilir [7, s.156-167].

Komissiyanın gənc sahibkarlığın inkişafı proqramlarından biri olan "Gənc Sahibkarlar üçün Erasmus" Proqramı, bir işə başlamaq istəyən və ya yeni bir iş yaratmış gənc sahibkarların öz ölkələrindən başqa bir ölkədə təcrübəli sahibkarlarla yanaşı təcrübə keçməsini, bu sayədə gənc sahibkarların bu sahədə təcrübəsini artırmasını və ölkələrarası ortaqlıqlar qurulmasını hədəfləyir. Avropa səvviyəsində sahibkarlığın dövlət qurum və təşkilatlarının dəstəyi və təşviqi ilə inkişafını ifadə edən Avropa Sahibkarlığı Təşviq Mükafatları, müəssisələri və sahibkarları ən uğurlu şəkildə təmsil edənləri müəyyənləşdirmək, ən yaxşı sahibkarlıq təcrübələrini və siyasətlərini nümayiş etdirmək, sahibkarlığın əlavə dəyər üzərində olan payını artırmaq və potensial sahibkarları cəsarətləndirmək məqsədi daşıyır [7, s.156-167].

Avropa Komissiyası, üzv ölkələrlə birlikdə müxtəlif sahibkarlıq fəaliyyətlərini inkişaf etdirərək qadın sahibkarlığı qarşısındakı maneələri aradan qaldırmağa çalışır. Bu məqsədlə Qadın Sahibkarlar üçün Konsaltinq Şəbəkəsi, Qadın Sahibkar Könüllülər Şəbəkəsi, Avropa Qadın Sahibkarlığının Təşviqi Şəbəkəsi - WES və Qadın Sahibkarlıq Portalı yaradılmışdır. Məqsəd qadın sahibkarlara işlərinin qurulması, inkişafı və böyüməsi dövründə məsləhət və dəstək, ölkələrdəki yaxşı təcrübə nümunələrini bölüşmək və ortaq layihələr həyata keçirmək hədəflərdəndir [7, s.156-167].

Avropa Birliyi 2014-2020 dövrü üçün KOS-ləri maraqlandıran iki yeni proqram yaratdı. Sahibkarlıq və İnnovasiya Proqramı (EIP), Çərçivə Proqramı (FP-Çərçivə Proqramı) və Rəqabətlilik və İnno-

vasiya Çərçivə Proqramının Avropa İnnovasiya və Texnologiya İnstitutu (EİT) (CIP-Rəqabətlilik və İnnovasiya Çərçivə Proqramı). Horizon 2020, Avropa İnnovasiya və Texnologiya İnstitutunu bir dam altında birləşdirərək yaradıldı.

Horizon 2020, AB-də araşdırma və inkişaf etdirmə tədbirləri çərçivəsində həyata keçirilən fəaliyyətlərin təsirini artırmaq məqsədilə birlik çərçivəsində həyata keçirilən bütün tədqiqat və yenilik proqramlarını 2014-2020-ci illər üçün inteqrasiya edilmiş bir sistem altında toplamağı hədəfləyir [7, s.156-167].

KOS-lər, qlobal iqtisadi böhrandan sonra AB iqtisadiyyatının canlandırılması üçün hazırlanmış Avropa 2020 Strategiyasının hədəflərinə çatmaqda çox vacib bir rola sahibdirlər. Bu çərçivədə Avropa Birliyi tərəfindən 2014-2020-ci illər üçün sahibkarlıq subyektlərini, xüsusilə də KOS-ləri dəstəkləmək üçün "Müəssisələr və KOS-lərin Rəqabət Proqramı" (COSME) hazırlanmışdır. Proqram 2007-2013-cü illər arasında həyata keçirilmiş Rəqabətlilik və İnnovasiya Proqramının (CIP) alt tərkib hissəsi olan Sahibkarlıq və İnnovasiya Proqramını (Entrepreneurship and Innovation Programme – EIP ) əvəz etmişdir [7, s.156-167; 8].

KOS-lərə xüsusi diqqətlə hazırlanan COSME proqramının büdcəsi, KOS-lərin maliyyəyə çıxışını artırmaq, bazarlara çıxışlarını yaxşılaşdırmaq, əhatə dairəsi şərtlərini inkişaf etdirmək və sahibkarlığı təşviq etmək məqsədilə 7 il üçün 2.3 milyard avro təyin edilmişdi.

Sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatında həlledici rol oynayır. Bazar iqtisadiyyatı modelini tətbiq edən ölkələrdə sahibkarlıq fəaliyyətinin genişlənməsi, yeni sahibkarların yaranması üçün geniş imkanlar mövcud olmalıdır. Azərbaycanda sahibkarlığın inkişafının dəstəklənməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun və 2002-ci il 17 avqust tarixli fərmanları ilə müvafiq olaraq "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı (1997-2000-ci illər)" və "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" qəbul edilərək icra edilmişdir. Qəbul olunmuş dövlət proqramlarının sahibkarlığın inkişafında xüsusi rolu olmuş, kiçik və orta sahibkarlığın inkişafı üzrə dövlət tədbirlərini dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirmişdir. Bu dövlət proqramları çərçivəsində sahibkarlara dövlət maliyyə köməyi sistemi formalaşdırılmış, iqtisadiyyatın və sahibkarlığın tənzimlənməsi sahəsində mühüm tədbirlər həyata keçirilmişdir. İnfrastrukturun formalaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılmış, sahibkarlara zəruri texniki yardım (məsləhət, informasiya və s. xidmətlər) göstərən strukturlar formalaşmış, vergi yükünün azaldılması istiqamətində dövlət səviyyəsində müəyyən addımlar atılmışdır [7, s.156-167]. Həmçinin, cəmiyyətdə sahibkarlığa dəstək əhval-ruhiyyəsinin artırılmasına təkan vermək məqsədilə dövlət başçısı tərəfindən 2016-cı il Azərbaycanda "Sahibkarlar Günü" kimi təsis edilmişdir.

Eyni zamanda, sahibkarlıq sahəsində aparılan yoxlamaların 2 il müddətinə dayandırılması, fəaliyyətləri üçün lisenziya və icazələrin sayının və ödənilən rüsumların məbləğlərinin dəfələrlə azaldılması, icazələrin verilməsi prosedurlarının sadələşdirilməsi, o cümlədən bu sahədə elektron portalın yaradılması üzrə işlər davam etdirilmişdir. Sahibkarların hüquqlarının qorunması ilə bağlı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" ölkə başçısının 3 aprel 2019-cu il tarixdə qüvvəyə minmiş fərmanında sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək nəzərdə tutulmuşdur.

Ölkəmizdə investisiyaların təşviqinin artırılması məqsədilə 7 il müddətində vergi və gömrük güzəştlərinin verilməsi, idxal-ixrac əməliyyatları zamanı gömrük prosedurlarının sadələşdirilməsi məqsədilə elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi, tələb olunan sənədlərin və prosedurların sayının minimuma endirilməsi, malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sistemlərinin yaradılması üçün tədbirlər görülmüşdür. Bütün bu işlərlə yanaşı dövlət satınalmalarında təkmilləşdirmələrin aparılması, dövlət orqanlarında sahibkarların müraciətlərinin birbaşa cavablandırılmasını həyata keçirən, məlumatlandırma və məsləhət xidmətləri göstərən çağrı mərkəzlərinin yaradılması və s. işlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli 1138 nömrəli Fərmanına əsasən milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə 12 strateji yol xəritəsi təsdiq olunmuşdur. Həmin sektorlara neft və qaz sənayesi, kənd təsərrüfatı, kiçik və orta sahibkarlıq, ağır sənaye və maşınqayırma, ixtisaslaşmış turizm, logistika və ticarət, mənzil təminatı, peşə təhsili və təlimi, maliyyə xidmətləri,

telekommunikasiya və informasiya texnologiyaları və kommunal xidmətlər aiddir [7, s.156-167].

Təsdiq olunmuş sənədlərdən biri olan "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə ölkədə kiçik və orta sahibkarlığın (KOS) vəziyyəti təhlil edilir, xüsusilə bu sahədə görülmüş işlər, həyata keçirilmiş islahatlar, mövcud statistika barədə ətraflı məlumat verilir. Həmin yol xəritəsində 2020-ci ilədək strateji, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış əhatə edilir.

Ölkədə KOS-un inkişafı ilə əlaqədar Strateji Yol Xəritəsində biznes mühitinin və tənzimləyici bazanın daha da yaxşılaşdırılması, maliyyələşmə resurslarına sərfəli və səmərəli çıxışın təmin edilməsi, regional bazarlarda keyfiyyətli məhsul və xidmətlər təklifinin artırılması, innovasiyalar təşviq etməklə bu sahə ilə bağlı araşdırma və inkişaf fəaliyyətinin gücləndirilməsi strateji hədəf kimi müəyyənləşdirilmişdir.

Müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün təxminən 700 milyon manat investisiya tələb olunur ki, nəticədə 2020-ci ildə iqtisadiyyatda təxminən 1 milyard 260 milyon manat əlavə dəyərin və 34240 yeni iş yerinin yaradılması gözlənilir [7, s.156-167; 1].

Sənəddə KOS sahəsində prioritetlər müəyyən edilmiş və ÜDM-də payının 15 faizə çatdırılması, məşğulluqda payının 20 faizə qədər artırılması, ölkənin qeyri-neft ixracında payının 10 faizə çatdırılması, 2020-ci ildə real ÜDM-in 1 milyard 260 milyon manat artması və 34240 yeni iş yerinin yaradılması proqnozlaşdırılmışdır. KOS sahəsində siyasət və tənzimləmə fəaliyyətlərinin bir-birindən ayrılmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yaradılmışdır. Dövlət başçısının 26 iyun 2018-ci il tarixli Fərmanı ilə Agentliyin Nizamnaməsi və strukturu təsdiq edilib. Agentlik publik hüquqi şəxsdir və İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərir.

Agentliyin məqsədi KOS-lərin fəaliyyətinin tənzimlənməsində iştirak etmək, bu sahədə beynəlxalq təcrübədə geniş tətbiq olunan və müasir tələblərə cavab verən çevik idarəetmə sisteminin və səmərəli əlaqələndirmə mexanizminin tətbiqi yolu ilə KOB subyektlərinin ölkə iqtisadiyyatında rolunu möhkəmləndirmək, xüsusi çəkisini və rəqabət qabiliyyətini artırmaq, maliyyə resurslarına çıxış imkanlarını genişləndirmək və onlara institusional dəstək mexanizmlərini təkmilləşdirmək, dövlət və özəl qurumlarının bu sahədə fəaliyyətini əlaqələndirmək, regionlarda sahibkarlığın inkişafına əlverişli şərait yaradılması, bu sahəyə yerli və xarici investisiyaların cəlb edilməsinə nail olmaqdır [7, s.156-167].

Həmçinin yol xəritəsinin tətbiqi ilə əlaqədar ölkədə maliyyə vəsaitlərinə çıxış imkanlarını, kreditlərə təminat verilməsi mexanizmlərini yeni iqtisadi əsaslarla daha da təkmilləşdirmək, bu sahədə göstərilən xidmətlərin səviyyəsinin artırılması, əhalinin rifahının yüksəldilməsi, sosial müdafiəsi və layiqli həyat səviyyəsinin təmin edilməsi ilə bağlı həyata keçirilən tədbirlərin səmərəliliyini daha da yüksəltmək və sistemliliyini təmin etmək məqsədilə "Azərbaycan İpoteka Fondu" və "Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyətlərinin birləşdirilərək yenidən təşkili yolu ilə "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu" qeyri-kommersiya hüquqi şəxsi yaradılmışdır [7, s.156-167].

Fondun Nizamnaməsinə əsasən aşağıdakı vəzifələri yerinə yetirir:

- ipoteka, o cümlədən güzəştli ipoteka kreditləşməsini həyata keçirir;
- ipoteka kreditləri, o cümlədən sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlər üzrə təminatlar verir;
- yaşayış sahələrini alır və satmaq öhdəliyi ilə kirayəyə verir;
- "Elektron ipoteka və kredit zəmanət" sistemini təşkil edir və onun fəaliyyətini təmin edir;
- kreditlərin anderraytinqinə və vəsaitdən təyinatına uyğun istifadəyə nəzarəti, habelə bank tərəfindən kredit reytinqi modelinin tətbiqini yoxlamaq məqsədilə qanunla müəyyən olunmuş qaydada sahibkarlıq subyektlərində monitorinqlərin aparılmasını həyata keçirir;
- istiqrazlar emissiya edir, həmçinin ipoteka kreditləşməsi sahəsində likvidliyin təmin olunması, Fondun fəaliyyətinin inkişaf etdirilməsi, səmərəliliyinin və etibarlılığının yüksəldilməsi üçün digər formada investisiyaların cəlb olunması üzrə fəaliyyəti həyata keçirir;
- ipoteka kreditləşməsi məsələləri üzrə məsləhət, informasiya xidmətləri və digər xidmətlər, habelə ipoteka kreditlərinin verilməsində iştirak edən banklar, sığortaçılar və qiymətləndiricilər üçün tədris proqramları həyata keçirir;
- sahibkarlara borcların idarə edilməsi, risklərin qiymətləndirilməsi və idarə olunması sahəsində məsləhət xidmətləri göstərir [7, s.156-167].

İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına müvəkkil kredit təşkilatları tərəfindən kiçikhəcmli kreditlər 5000 manatdan 50000 manatadək (3 ilədək), ortahəcmli kreditlər 50001 manatdan 1000000 manatadək (5 ilədək), böyükhəcmli kreditlər isə 1000001 manatdan 10000000 manatadək (10 ilədək) verilir. Müddətin ilk 1/2 dövrünü güzəşt müddəti əhatə edir. Fondun kreditlərinin illik faiz dərəcəsi 1 faiz, müvəkkil kredit təşkilatlarının tətbiq etdikləri illik faiz dərəcəsi isə 4 faizdən artıq olmamaq şərti ilə, ümumilikdə güzəştli kreditlərin illik faiz dərəcəsi 5 faizədək müəyyən edilir [7, s.156-167; 1].

"Qeyri-neft ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə faktiki ixrac olunmuş malın ixrac gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3 faizi baza olmaqla (məhsulların növündən asılı olaraq ixrac təşviqinin baza məbləğinə əmsallar tətbiq edilməklə) ixrac təşviqi ödənilir.

Vətəndaşların sosial-iqtisadi inkişafda fəal iştirakını təmin etmək, ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, əhalinin məşğulluğunun artırılması sahəsində əlavə imkanlar yaratmaq, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq məqsədi ilə dövlət başçısının 23 sentyabr 2016-cı il tarixli Fərmanına əsasən Masallı, Balakən və Quba rayonlarında "ABAD" (Ailə Biznesinə Asan Dəstək) mərkəzləri yaradılmışdır [7, s.156-167].

Ölkəmizdə innovativ sahibkarlığın inkişafı məqsədilə Azərbaycan Respublikası Vergi Məcəlləsinə edilmiş müvafiq dəyişikliyə əsasən olan fərdi sahibkar və hüquqi şəxs kimi fəaliyyət göstərən mikro və ya kiçik sahibkarlıq subyektlərinin startap layihələri "Startap" şəhadətnaməsi aldığı tarixdən bu fəaliyyətindən əldə etdikləri gəlirin 3 il müddətində gəlir və mənfəət vergisindən azad edilmişdir.

Sahibkarlıq fəaliyyəti ölkənin iqtisadi inkişafına müxtəlif şəkillərdə təsir edir. Dünya səviyyəsində aparılan araşdırmalara görə istehsalat sənayesindəki sahibkarlıq müəssisələrinin iqtisadi inkişafa olan qatqısının böyük olduğu qeyd edilməkdədir. Yeni sahibkarlıq subyektlərinin fəaliyyətə başlaması yeni ideyalara sahib insanlar arasında sahibkarlıq fəaliyyətinə marağı artıraraq, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən insanların sayını artırır. Bu səbəbdən də inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə hökumətlər sahibkarlığı təşviq edən siyasətlər tətbiq edərək, sahibkarlığı inkişafın ən vacib amillərindən hesab edirlər [7, s.156-167].

Sahibkarlığın inkişafı üçün fikrimizcə, bir çox müsbət addımlar atılmışdır. Bunlarla yanaşı, sahibkarlığın təşviqi və inkişafı üçün aşağıdakı məsələlərə də diqqət yetirilməsi öz müsbət təsirini göstərə bilər:

- Vergi siyasətində ölkəmiz sahibkarlıq fəaliyyətinin inkişafı üçün vergi siyasətində müsbət dəyişikliklər edilmişdir. Fikrimizcə, vergi dərəcələrinin yumşaldılmasına hələ də ehtiyac var;
- Son dövrlərdə sahibkarların maliyyə imkanlarına asanlıqla çıxışını təmin etmək üçün bir sıra müsbət addımlar atılmışdır. Buna misal olaraq Azərbaycan Kredit bürosu və Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun təsis edilməsini qeyd edə bilərik. Lakin, yüksək kredit dərəcələri səbəbindən bu imkanlardan yararlanmaq bəzən mümkünsüz olur. Yeni yaradılan sahibkarlıq subyektləri üçün aşağı kredit dərəcələri olan maliyyə mənbələri yalnız Sahibkarlığın İnkişafı Fondunun təqdim etdiyi vəsaitlərdir. Bu vəsaitlərdə sahibkarların ucuz maliyyə mənbələri əldə etməsi üçün kifayət etmir. Bunun üçün bank olan və olmayan kredit təşkilatlarının da öz kredit dərəcələrində yumşalmalar etməklə qoşulmaları müsbət fayda göstərə bilər;
- Hüquq və məhkəmə sistemində islahatlara getmək və bu sahədə boşluqları, mübahisələri aradan qaldırmaq üçün ölkə başçımız tərəfindən fərmanlar imzalanmışdır. Bununla yanaşı, bu sahəyə dövlət nəzarəti gücləndirilməlidir. Çünki ölkə iqtisadiyyatına yatırım etmək istəyən xarici və yerli investorların ilk başda önəm verdikləri yatırım etmək istədikləri ölkələrdə öz hüquqlarını qoruya biləcəkləri işlək hüquq və məhkəmə sisteminin mövcud olmasıdır. Sahibkarların öz hüquqlarını qoruya bilməsi və neqativ halların baş verməməsi üçün qanunun aliliyinin qorunması üçün güclü dövlət nəzarəti bu halların qarşısını ala bilər;
- Elm və texnologiya əsrində yaşadığımız dövrdə bir çox ölkələr kimi İnnovativ sahibkarlığın inkişafına diqqətin artırılması və dünya ölkələrinin təcrübəsindən istifadə edilməsi məqsədəuyğun olardı;
- Unversitetlərdə təlim və tədris prosesində tələbələrdə sahibkarlıq düşüncəsinin və mədəniyyətinin formalaşdırılması üçün hər cür tədbirlər görülməsi lazımdır. Bununla da, yenilikçi ruhlu və düşüncəli gənc sahibkarların yetişdirilməsi mümkün olardı;
- Sahibkarları mediada daha real və müsbət cəhətlərlə tanıtmaq, media mükafatları vermək sahibkarlığa marağı artıra bilər;
- Ölkəmizdə bəzi iqtisadi fəaliyyət sahələri istehsal prosesi üçün yerli ehtiyatlar kifayət etmədiyi üçün xammalı digər ölkələrdən idxal edir. Buna görə

də, məhsulların qiymətinin istehlakçılar üçün ucuz və uyğun olması məqsədilə gömrük sisteminə nəzarət gücləndirilməli və rüsumlarda yumşaldılmalara gedilməlidir. Çünki məhsulun maya dəyərinə təsir edən idxal olunan xammalın yüksək olması, əlbəttə, sonda məhsulun qiymətinə də təsir edir;

- Ölkə rəhbəri tərəfindən inhisarçılıq hallarının aradan qaldırılması üçün "Antiinhisar fəaliyyəti haqqında" qanun imzalanmışdır. Azərbaycanda bu sahəyə nəzarəti İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti aparır. Azad rəqabət mühitinin yaradılmasına səylər göstərilsə də, müvafiq orqan tərəfindən dövlət nəzarəti gücləndirilməlidir. Çünki inhisarçılıq yeni iş yerlərinin yaradılmasına maneələr yaradır ki, buna görə də biznes yaratmaq istəyi olan investorların yatırım etməməsinə və digər ölkələrə üz tutaraq yatırım etmələrinə səbəb olur. Bu da, xaricə valyuta axınına səbəb olur. Ölkəmizdə hələ də bəzi sahələrdə inhisarçılıq meyilləri özünü göstərir;

- Sahibkarlığın inkişafı üçün bir sıra aktlar, qanunlar, sərəncamlar və dövlət proqramları imzalansa da bu sənədlərin və ayrılmış maliyyə mənbələrinin istiqaməti üzrə sərf edilib, həyata keçirilməsinə güclü dövlət nəzarətinin olması vacibdir. Əks halda, bu hüquqi sənədlər yalnız kağız üzərində qalmış hesab edilə bilər.

Müasir dövrdə iqtisadi inkişafın yüksəlməsində Mərkəzi Bankın başlıca vəzifələrindən biri dövlətin inkişaf strategiyasına uyğun olaraq əsas rol oynamasından ibarətdir. Davamlı inkişafın təmin edilməsi iqtisadi göstəricilərin səviyyəsindən və zəruri parametrlərin reallaşmasından ibarətdir. Müasir dövrdə ölkədə iqtisadi inkişaf əsas amillərdən biri hesab olunur. Bu baxımdan makroiqtisadi göstəricilərin davamlı olaraq inkişaf etdirilməsi istiqamətində əsaslı tədbirlərin vaxtlı-vaxtında yerinə yetirilməsi davamlı inkişafın da sürətlənməsinə şərait yaradacaqdır [2, s.9-18].

İqtisadiyyatın davamlı inkişafı ölkəni maddi və maliyyə resursları baxımından təmin etməklə yanaşı, mövcud və zəruri resursların da iqtisadiyyatın sektorları arasında bərabər şəkildə bölünməsində yaxından iştirak edir. Eyni zamanda vacib makroiqtisadi göstəricilərin davamlı şəkildə inkişafında yaxından iştirak edərək, gələcək üçün etibarlı baza yaradılmasına şərait yaradır. Qeyd etdiyimiz göstəricilərə sahib olmaq üçün ölkədə mütləq şəkildə sosial, iqtisadi və ekoloji istiqamətlərdə sabitlik təmin olunmalıdır ki, dinamik inkişaf da baş versin [2, s.7-18; 5, s.146].

İqtisadiyyatın davamlı şəkildə inkişaf etdirilməsində Mərkəzi Bank yaxından iştirak edir. İqtisadi inkişaf sahəsində Mərkəzi Bankın fəaliyyəti özünü qabarıq şəkildə göstərir. Bu sahədə qanunla nəzərdə tutulan, həyata keçirilən bir çox vəzifə və funksiyalar vardır ki, onlar davamlı inkişafda rol oynayan əsas amillərdən hesab olunurlar. Təbii ki, bunların da icrasında Mərkəzi Bank yaxından iştirak edir.

Azərbaycanda davamlı inkişafın aşağıdakı istiqamətləri aydın nəzərə çarpır:

1. Həyat şəraitinin yaxşılaşdırılması, yoxsulluğun azaldılması. 2. Aqrar sektorun inkişafı. 3. Demoqrafik inkişaf. 4. Sosial-iqtisadi inkişaf. 5. Mədəniyyət və turizmin inkişafı. 6. Məşğulluq. 7. Təhsil, elm və İnformasiya Kommunikasiya Texnologiyaları [4, s.12-18].

Aparılan təcrübələr və araşdırmalar sübut edir ki, ölkədə davamlı inkişafı şərtləndirən Mərkəzi Bank tərəfindən aşağıdakı əməliyyatlar ardıcıl olaraq həyata keçirilir:

1. Əsas amillərdən olan pul tədavül və dövriyyəsinin nizama salınması;

2. Milli pul vahidinin inkişaf etdirilərək möhkəmləndirilməsi;

3. Milli pul vahidinin dayanıqlığının qorunması və müdafiəsi;

4. Milli pul vahidinin kursunun təmin edilməsi (xarici valyutalar nisbətində);

5. Səmərəli şəkildə pul-kredit siyasətinin təmin edilməsi üçün bank sisteminin inkişaf etdirilməsi və s. [2, s.9-18; 3, s.78].

Qeyd etdiyimiz bu amillər davamlı iqtisadi inkişafın təmin edilməsinə və iqtisadi siyasətin reallaşmasına öz müsbət təsirini göstərməkdə davam edir. XXI əsrin əvvəllərində ölkədə neft gəlirlərinin artması, dünya üzrə ərzaq məhsullarının da bahalaşmasına gətirib çıxardı. Lakin buna baxmayaraq 2014-cü ilə qədər ölkədə məhsul bahalaşması ilə əlaqədar olaraq orta illik inflyasiya təkrəqəmli olaraq qalmaqda davam edirdi. Bu dövrdə Avropa İttifaqı dövlətlərindən fərqli olaraq, Mərkəzi Bankın həyata keçirdiyi tədbirlər nəticəsində Azərbaycanda qiymətlər indeksi aşağı olmuşdur [2, s.9-18; 3, s.78].

Nəticə olaraq deyə bilərik ki, ölkədə davamlı iqtisadi inkişafın təmin edilməsində sahibkar maliyyəsinin rolu danılmazdır. Məhz cənab Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət, Mərkəzi Bankın həyata keçirdiyi tədbirlər və sahibkar maliyyəsinin dəstəyi nəticəsində ölkə iqtisadiyyatı davamlı olaraq inkişaf etməkdədir.

**Açar sözlər:** *sahibkarlıq, maliyyə, davamlı inkişaf, istehlakın qiymətlər indeksi, məhsullar üzrə qiymət indeksi.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi, Bakı 2016.*

*2. Bağırov M. Azərbaycanda davamlı inkişafın təmin edilməsində Mərkəzi Bankın rolunun qiymətləndirilməsi. Naxçıvan, Elmi əsərlər – 2020 - № 3, s.9-18.*

*3. Bağırov M. Banklar və bank əməliyyatları (Ali məktəblər üçün dərslik). Bakı: Nurlan, 2003, 512 s.*

*4. Cəfərova E. Azərbaycanda davamlı inkişafa keçilməsinin konseptual əsasları, Mingəçevir-2015, s.12-18.*

*5. Niftəliyev N. Davamlı İnkişaf Strategiyası. "Səs" qəzeti. Bakı, 2010, 14 oktyabr.*

*6. Report of the Expert Group: Promoting Entrepreneurship on TV and other audiovisual media (2007), European Com.*

*7. Tağıyev V. Sahibkarlıq fəaliyyətinin inkişafında dövlət siyasəti istiqamətləri, Hüquq və idarətmə jurnalı.*

*8. Türkiyə girişimcilik stratejisi və eylem planı (2015-2018).*

**Нурана Ахадова**

**Значение финансов для предпринимательства**

## РЕЗЮМЕ:

Помимо описания характерных черт устойчивого развития в мире, особенно в стране, в статье раскрыта информация о его сущности и содержании. В то же время также обсуждается важность устойчивого развития. Несмотря на то, что в Азербайджане действует множество банков, наша цель в основном осветить деятельность Центрального банка, который является главным банком республики.

Потому что большую роль в этом играет политика Центробанка. Денежно-кредитная политика, курсовая и процентная политика, проводимая Центральным банком, оказывает большое влияние на экономику, и мы постарались сделать акцент на этом вопросе. В связи с этим в статье анализируется текущий индекс потребительских цен, а также индекс цен на продукты и влияние этих показателей на устойчивое развитие в Азербайджане.

**Ключевые слова:** *предпринимательство, финансы, устойчивое развитие, индекс потребительских цен, индекс цен на продукцию.*

**Nurana Ahadova**

**Importance of finance for entrepreneurship**

## SUMMARY:

In addition to describing the characteristic features of sustainable development in the world, especially in the country, the article discloses information about its essence and content. At the same time, the importance of sustainable development is also discussed. Despite the fact that many banks operate in Azerbaijan, our goal is mainly to highlight the activities of the Central bank, which is the main bank of the Republic.

Because the policy of the Central Bank plays a big role in this way. The monetary policy, exchange rate and interest rate policy implemented by the Central Bank have a great impact on the economy, and we have tried to focus on this issue. In this regard, the article analyzes the current consumer price index as well as the product price index and the impact of these indicators on sustainable development in Azerbaijan.

**Key words:** *entrepreneurship, finance, sustainable development, consumer price index, product price index.*

UOT 339.9
DOI:10.30546/3006-0346.2023.6.78.149

# ZƏNGƏZUR DƏHLİZİNİN AZƏRBAYCAN VƏ TÜRK DÜNYASI ÖLKƏLƏRİ ARASINDAKI İQTİSADİ ƏLAQƏLƏRİN İNKİŞAFINDA POTENSİAL ROLU (TÜRKİYƏ NÜMUNƏSİNDƏ)

**NURLAN ABBASOV**
*Azərbaycan Milli Elmlər Akademiyası, akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu, Mərkəzi Asiya ölkələri şöbəsinin doktorantı*

*E-mail: nabbasov1999@gmail.com*

Müasir dövrdə iqtisadiyyatın rəqabətədavamlı və effektiv olması baxımından nəqliyyat infrastrukturu vacib rol oynayır. Regional nəqliyyat qovşaqlarına inteqrasiya etmək üçün bu sektorun daima nəzarətdə saxlanılması və yeniliklərin tətbiqi əsas şərtlərdəndir. Əlverişli coğrafi mövqeyə malik olmaqla yanaşı, çoxsahəli nəqliyyat şəbəkəsinin mövcudluğu da ticari münasibətlərdə üstünlük qazanmağa yardımçı olur. Daha təhlükəsiz və fasiləsiz yükdaşımaların həyata keçirilməsi hal-hazırkı logistik tələblər sırasında birinci sıradadır. Hazırda Çindən Avropaya yük daşınmaları üçün istifadə olunan nəqliyyat marşrutlarındakı bəzi qeyri-effektiv məqamlar yeni çağırışları zəruri edir. Tarixi İpək yolunu bərpa edəcək olan Orta dəhlizdən istifadə əsas alternativ marşrut hesab edilir. Bu dəhliz üzərində yerləşən ölkələr tranzit imkanları ilə yanaşı, bir çox üstünlüklər də əldə etmiş olur.

Vətən müharibəsindəki şanlı qələbəmizdən sonra Qafqaz regionunda yeni geosiyasi reallıqlar meydana gəlmişdir. Bu reallıqlar məhz bu regionda olan ölkələr üçün deyil, həmçinin, bütün region dövlətləri və ümumən türk dünyası ölkələri üçün xüsusi önəm kəsb edir. Bu reallıqlardan başlıca diqqət çəkəni isə Azərbaycan ilə Naxçıvan Muxtar Respublikasını quru yolu ilə birləşdirəcək olan Zəngəzur dəhlizinin açılmasıdır. Tarixə nəzər yetirsək, Zəngəzur Azərbaycan və Ermənistan arasında mübahisəli ərazi elan edilir və 1920-ci ilin 30 noyabrında keçirilən iclasda verilən qərara əsasən Azərbaycandan alınaraq sovet Ermənistanına verilir. Sözügedən qərarın verilməsində bir nəfər olsa belə azərbaycanlı iştirak etməmişdir. Bu hadisədən sonra Azərbaycanın Naxçıvan, Türkiyə, eləcə də bütün türk dünyası ölkələri ilə quru yolu əlaqəsi kəsilmiş olur.

Ermənistanın məğlubiyyəti qəbul edib təslim olduğunu ifadə edən 2020-ci il 10 noyabr aktında öz əksini tapan əhəmiyyətli müddəalardan biri də məhz Zəngəzur dəhlizinin açılması ilə bağlı idi. Azərbaycandan keçməklə Rusiya və Türk dünyası ölkələrinə dəhliz vasitəsilə çıxışı əldə etməsi qardaş ölkə Türkiyə üçün də bu dəhlizi xüsusi əhəmiyyətli edən məqamlardan biridir. Bir millət, iki dövlət olaraq xarakterizə edilən Azərbaycan-Türkiyə arasındakı münasibətlər hər iki ölkə rəhbərliyinin məqsədyönlü və düzgün siyasətinin nəticəsi olaraq sürətlə inkişaf edir. İki ölkə arasındakı münasibətlər region ölkələrinin inkişafına, ümumi tərəqqisinə müsbət təsiri ilə yanaşı, türk dünyası ölkələrinin sıx şəkildə bir araya gəlməsi baxımından da əsas təkanverici qüvvə olmaqdadır. Prezident İlham Əliyev bu məsələ ilə bağlı "Türkiyə-Azərbaycan arasındakı əlaqələr türk dünyası üçün əhəmiyyətə sahibdir. Biz türk dünyasının birləşməsi, bu ölkələr arasındakı əlaqələrin inkişaf etməsi üçün birgə olaraq səylər göstəririk" deyərək öz fikirlərini bildirmişdir. Türkiyə ilə Azərbaycan arasında Şuşada müttəfiqlik münasibətləri haqqında imzalanan Şuşa Bəyannaməsi çox əhəmiyyətli bir tarixi hadisədir. Müqavilədə qeyd olunan vacib məqamlardan biri də məhz Zəngəzur dəhlizi ilə bağlıdır. Regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası və inkişafı, Türkiyə ilə Azərbaycanı, həmçinin ölkəmizin qərb regionları ilə Naxçıvanı birləşdirən koridorun açılması müqavilədə öz əksini tapan məqamlar sırasındadır. Ardınca isə Naxçıvan-Qars dəmir yolunun inşasının uğurla başa çatdırılması qardaş ölkə ilə nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafına öz töhfəsini verəcək. Belə ki, iki ölkə arasında malların kəsintisiz hərəkətinə, milli iqtisadiyyatların və ixracın diversifikasiyasına nail olunacaq [1].

Zəngəzur dəhlizi ümumi daxili məhsulu (ÜDM) 1.1 trilyon dollardan çox olan türkdilli ölkələri birləşdirəcək. Ölkəmizdən Türkiyənin Qars vilayətinə qədər uzanan Zəngəzur dəhlizi həm də Azərbaycan-Türkiyə marşrutu ilə Avropanı Çin və Mərkəzi Asiya ilə bağlayan geosiyasi proyektdir [2].

Şimal dənizi Avropa və Çin arasındakı ticarət əlaqələrinin əsas vasitəsi hesab edilirdi. Lakin 2022-ci ildə başlayan Rusiya-Ukrayna müharibəsi və Rusiyaya tətbiq edilən sanksiyaların nəticəsi olaraq Mərkəzi Asiya və Qafqazdan keçərək Çini Avropa

ilə birləşdirən Orta Dəhliz ticarət əlaqələrinin həyata keçirilməsində yeni alternativ olaraq görülür. Ölkəmizin coğrafi mövqeyinin sözügedən Şərq-Qərb ticarət yolunun üzərində yerləşməsi tranzit daşımaları nöqteyi-nəzərindən əhəmiyyətli imkanlar yaradır. Orta Dəhlizdəki strateji mövqeyimiz ölkəmizi qlobal səviyyədə daha da əhəmiyyətli edir. Azərbaycan üzərindən Avropa ilə Asiyanı birləşdirən bir çox tranzit daşıma layihələri üçün Zəngəzur dəhlizi yeni bir fürsətdir. Bu həmçinin, ölkəmizin Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirəcək. Əlverişli investisiya mühitinin yaranması, kiçik və orta sahibkarlığın inkişafı baxımından da bu dəhliz ölkə iqtisadiyyatına öz töhfəsini verə bilər. Region ölkələri arasında gərginlik azalacaq və əvəzində regionda əməkdaşlıq mühiti yaranacaq. Bu dəhlizin yaradılması ilə bağlı etirazını bildirən Ermənistanın özü üçün də bu dəhlizin önəmi çox böyükdür. Ağır sosial-iqtisadi vəziyyətdə olan və ümumi ticarət dövriyyəsinin əsas hissəsini Rusiya təşkil edən Ermənistan üçün Azərbaycan üzərindən bu ölkəyə birbaşa çıxış əldə etmək imkanı onları bu məsələ ilə bağlı bir daha düşünməyə vadar edir [3].

Zəngəzur dəhlizinin Azərbaycandan keçən hissəsində 2021-ci ilin oktyabr ayının 26-da Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməli qoyulub. Bu yol Füzuli rayonunun Əhmədbəyli kəndindən başlayır və türk dünyasını birləşdirəcək olan Zəngəzur dəhlizinin əsas qollarından biridir. Bu yolun inşasının 2024-cü ildə yekunlaşacağı gözlənilir. Bakı-Tbilisi-Qars dəmir yolu xəttindən sonra Zəngəzur dəhlizinin əsas elementlərindən olacaq olan Horadiz-Ağbənd dəmir yolu xətti ölkəmizi Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi olacaq. Tikinti işlərində Azərbaycan şirkətləri ilə yanaşı, Türkiyənin tikinti şirkətləri də yaxından iştirak edir. Bundan başqa, Zəngilan və Füzuli Hava limanlarının inşasında da birgə fəaliyyət aparılıb.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının İstanbulda keçirilən VIII Zirvə görüşündə çıxışı zamanı cənab Prezident qeyd edib ki, Özbəkistanın dövlət büdcəsinin vəsaiti hesabına Füzuli rayonunda inşa ediləcək olan böyük məktəbin layihəsi Azərbaycana təqdim edilib və 2023-cü ilin avqust ayında bu məktəbin açılış mərasimi keçirilmişdir.

Bundan başqa, Qazaxıstan tərəfindən inşa ediləcək yaradıcılıq mərkəzini də qeyd edə bilərik. Bu mərkəz Qazaxıstan tərəfindən inşa ediləcək. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) baş katibi Bağdad Amreyev Azərbaycan torpaqlarının azad edilməsinin nəqliyyat-kommunikasiya şəbəkəsinə, türkdilli ölkələr arasındakı əlaqələrin inkişafına öz töhfəsini verəcəyini qeyd edib. Baş katib Qarabağın bərpasında türkdilli ölkələrin şirkətlərinin, dövlət qurumlarının fəal iştirak edəcəyinə əminliyini dilə gətirib [4].

İşğaldan azad edilən torpaqlara istər vətəndaşların gediş-gəlişi, istərsə də yük daşınmalarının həyata keçirilməsi baxımından dəmir yolunun çox əhəmiyyətli rolu olacaq. Eyni zamanda, Naxçıvan Muxtar Respublikası ilə dəmir yolu bağlantısının qurulması ilə həm də strateji, iqtisadi və siyasi məqsədlərə nail olmaq baxımından əhəmiyyətli addım atılmış olacaq.

Qazaxıstan prezidenti Nursultan Nazarbayev tərəfindən irəli sürülən "Türk dünyasının gələcəyi – 2040" adlı sənədin hazırlanması təklifi yalnız mədəni və siyasi əlaqələrlə kifayətlənmək istəməyən türkdilli dövlətlərin, həmçinin iqtisadi əməkdaşlığın genişlənməsində də böyük maraqlarının olmasını göstərən faktlardandır. Zəngəzur dəhlizinin açılması bu təklifin uğurlu şəkildə həyata keçirilməsinə öz töhfəsini verəcək. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının qeyri-formal görüşündə çıxış edən cənab Prezident İlham Əliyev Qarabağ münaqişəsinin artıq həll olunduğunu və ölkələrimiz arasında əhəmiyyətli bağlantı imkanı təmin edən Mehri dəhlizinin açılmasının Çinin "Bir kəmər, bir yol" beynəlxalq nəqliyyat layihəsinə öz töhfəsini verəcəyini qeyd etmişdi. Nəzərə alsaq ki, Şimal dəhlizi ilə müqayisədə Orta Dəhliz orta hesabla 2500 km daha qısadır, daşınmaların Orta Dəhliz vasitəsilə həyata keçirilməsi daha asan və sərfəli olacaq. Belə ki, Çindən Trans-Sibir yolu ilə Avropaya daşınan yüklər 20 günə təyinat nöqtəsinə çatırsa, bu yüklər Orta dəhliz üzərindən 12 günə təslim edilə bilər. Çindən Avropaya dəniz yolu ilə yük daşımaları isə təxminən 36 gün vaxt tələb edir. Naxçıvana İran üzərindən nəql edilən hər min kubmetr qaz üçün tranzit haqqı olaraq Naxçıvana 15% daha az qaz verilir. Zəngəzur dəhlizinin açılması ilə bu köçürmə haqqından da azad olmaq mümkündür. Bundan başqa, həm Naxçıvana gediş-gəlişin, həm də Türkiyədən yola düşən və quru yol ilə Orta Asiyaya gedəcək olan yüklərin İran üzərindən daşınması zərurəti Zəngəzur dəhlizi sayəsində aradan qalxmış olacaq [1;5].

Hazırda Cənub-Şərqi Asiya ilə Avropa arasında ən qısa dəniz yolu olan Süveyş kanalı qlobal ticarətin təxminən 12 faizini daşıyır. Asiyadan Avropaya

və əksinə gedən gəmilər həm vaxt, həm də maddi baxımdan qənaət etmiş olurlar. Çünki Afrikanı dolanıb keçdikdə bu, əlavə olaraq 8 gün vaxt tələb edir. Göründüyü kimi, bu kanaldan istifadə etmək dünya iqtisadiyyatı üçün çox əhəmiyyət daşıyır.

2021-ci ildə “Ever Given” adlı qəzaya uğrayan nəhəng gəminin Süveyş kanalında təkzolaqlı keçidin ortasında qalması həmin marşrut üzrə gecikmələrə, daşınma xərclərinin artmasına, həmçinin, neft qiymətlərində 5%-lik artımın baş verməsinə səbəb olmuşdur və hər gün dünya iqtisadiyyatına təqribən 10 milyard dollarlıq zərər vurmuşdur. Bu kimi hallarda zərərin minimuma endirilməsi üçün nəqliyyat marşrutlarının şaxələndirilməsi əsas şərtlərdən biridir [6].

Çindən Avropaya daşınan yüklərin ölkə ərazisindən keçməsi üçün ciddi mübarizə aparan ölkələrdən biri də şimal qonşumuz olan Rusiyadır. Şimal Buzlu okeanı marşrutundan və Transsibir dəmir yolundan istifadə edilməsi təklif olunur. Transsibir dəmir yolunun bəzi hissələrində elektrik qatarlarının sürətinin aşağı olması və ilin bəzi aylarında Şimal Buzlu okeanından istifadənin mümkünsüzlüyü bu marşrutlardan il boyu davamlı istifadə imkanını məhdudlaşdırır. Qeyd olunan məsələlərə görə, bu gün Avrasiya nəqliyyat dəhlizi daha cəlbedici hesab olunur. Dünyadakı nəhəng yükdaşıma şirkətləri yüklərin daha təhlükəsiz və sürətli şəkildə çatdırılması üçün yeni marşrutlara yönəlmək istəyirlər. Naxçıvan ilə dəmir yolu əlaqəsinin bərpası ölkəmizin nəqliyyat ötürücü imkanlarını artıracaq və iqtisadi imkanlarla bərabər, siyasi dividendlər də qazandıracaq. Bakı-Tblisi-Qars marşrutu ilə müqayisədə bu marşrutun 344 km daha qısa olması daşınma xərclərinin ucuzlaşması baxımından dünya ölkələrinin də maraq dairəsindədir. Alternativ marşrutların mövcudluğu qəfil baş verən problemli məqamlarda həmin marşrut üzərində yerləşən ölkələrin iqtisadi riskini azaldır və gecikmələrin qarşısını alır [7].

Ölkələrarası iqtisadi münasibətlərin inkişafı baxımından nəqliyyat şəbəkəsinin effektiv qurulması, təhlükəsiz və fasiləsiz şəkildə yükdaşımalarının həyata keçirilməsi önəmli məqamlardan biridir. Vətən müharibəsindəki zəfərdən sonra regionda yaranan geosiyasi reallıqlar həm ölkədaxili quru əlaqələrin bərpası, həm də beynəlxalq logistika imkanlarının daha da yaxşılaşdırılması baxımından nəqliyyat-kommunikasiya layihələrinin icrasını labüd edir. Naxçıvan və qardaş Türkiyə ilə quru yolu əlaqəsini bərpa edəcək olan Zəngəzur dəhlizi həm də ölkəmizin logistik əhəmiyyətini artıracaq. Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycanın tranzit imkanları ilə yanaşı, ixrac potensialı da yüksələcək. Bundan başqa, məşğulluq səviyyəsinin də yaxşıya doğru dəyişməsi təxmin edilən əsaslı nəticələrdən biridir. Anbar təsərrüfatlarına, soyuducu anbarlara, mehmanxana, iaşə və s. sektorlarına artan tələbat bu sahələrdə inkişaf perspektivləri vəd edir. Naxçıvan-Qars dəmir yolunun yekunlaşması Muxtar Respublikanı əhəmiyyətli tranzit mərkəzinə çevirəcək və ixracın şaxələnməsində müstəsna rol oynayacaq. Mövcud Şimal və Cənub dəhlizlərindən istifadədə çətinlik yaradan qeyd olunmuş məqamlar səbəbindən Orta Dəhlizdən istifadəyə yönələn maraq kontekstində strateji mövqeyə sahib olan Zəngəzur dəhlizinin əhəmiyyəti daha da artmaqdadır. Digər nəqliyyat dəhlizləri ilə müqayisədə Çindən Avropaya yük daşınmalarında Orta Dəhliz üzərindən daha qısa məsafə qət edərək yüklərin zaman itkisi yaşamadan çatdırılması imkanı daşınma xərclərinin də xeyli azalmasına şərait yaradacaq. Azərbaycanla Naxçıvan arası daşınmaların İran üzərindən olması tranzit xərclərini də artıran məqamlardan biridir. Naxçıvanla quru sərhədin bərpa edilməsi sözügedən xərclərin azalması ilə nəticələnəcək. İnvestisiya mühitinin yaranması, sahibkarlığın inkişafı ilə yanaşı, regionda sülhün və sabitliyin bərqərar olmasında da dəhlizin xüsusi rolu olacaq. Türk dünyası ölkələrini birləşdirəcək olan Zəngəzur dəhlizi bu ölkələr arasındakı iqtisadi əlaqələrin inkişafı üçün əlverişli zəmin yaradacaq. Zəngəzur dəhlizi iqtisadi imkanlarla yanaşı, ölkəmizə siyasi dividendlər də qazandıracaq.

## ƏDƏBİYYAT SİYAHISI:

**İnternet Resursları**

*1. https://www.eurasian-research.org/publication/zengezur-koridorunun-azerbaycan-ve-bolge-icin-onemi/?lang=tr*

*2. https://vergiler.az/news/economy/12479.html*

*3. https://respublika-news.az/news/zengezur-dehlizi-orta-dehliz-boyunca-yeni-neqliyyat-infrastrukturu-formalasdiracaq*

*4. https://report.az/xarici-siyaset/bas-katib-qarabagin-berpasinda-butun-turkdilli-dovletler-hevesle-istirak-edecek/*

*5. https://azerbaijan-news.az/az/posts/detail/zengezur-dehlizi-qlobal-neqliyyat-logistik-layiheye-cevrilecek-1666903800*

6. https://report.az/analitika/suveys-kanali-evezi-ne-trans-xezer-dehlizi/
7. https://www.azerbaijan-news.az/posts/detail/zengezur-dehlizi-avrasiya-neqliyyat-marsrutunun-ehemiyyetini-daha-da-artiracaq-1615668911

**XÜLASƏ:**

Müstəqillik qazandığımız dövrdən etibarən ölkəmiz sürətli şəkildə siyasi və iqtisadi əlaqələrini inkişaf etdirərək bir çox ölkələrlə tərəfdaşlıq etmişdir. Bu ölkələrdən öndə gələnlərdən biri də hər zaman sıx əməkdaşlıq etdiyimiz tarixi dost və qardaş olan Türkiyədir.

Artıq Türkiyə ilə iqtisadi əməkdaşlığın daha da dinamik inkişafı üçün əlverişli məqam var. Zəngəzur dəhlizinin açılması ilə iki ölkə arasında quru sərhədi bərpa edilmiş olacaq və bu da, öz növbəsində iqtisadi-ticari və mədəni əlaqələrin daha da sıx olması baxımından müstəsna rol oynayacaqdır.

Məqalədə Zəngəzur dəhlizinin tarixindən, bu dəhlizin açılması istiqamətində hazırda görülməkdə olan işlərdən, dəhlizin türk dünyasına açılan qapı olması və bunun hansı iqtisadi faydaları gətirəcəyindən danışılacaq. Həmçinin Qarabağın yenidənqurma prosesində Türkiyə ilə mövcud əməkdaşlıqdan, gələcəkdə görülməsi nəzərdə tutulan birgə fəaliyyət planlarından bəhs ediləcəkdir. Çox böyük iqtisadi potensiala və təbii resurslara malik olan region ölkələri arasında əməkdaşlıq körpüsü rolunu oynayacaq olan Zəngəzur dəhlizinin ölkəmizin regional nəqliyyat şəbəkəsinə inteqrasiyasında rolu vurğulanacaq, türk dünyası ölkələri arasındakı iqtisadi əlaqələrin mövcud vəziyyəti, inkişaf istiqamətləri barədə məlumat veriləcəkdir. Zəngəzur dəhlizinin "Orta koridor", "Bir kəmər, bir yol" kimi proyektlərin əsas tərkib hissələrindən olduğu, bu layihələrin icrasında hansı rolu oynadığı və iştirakçı ölkələrin dəhlizlə bağlı mövqeyi araşdırılaraq ətraflı məlumat veriləcəkdir.

**Açar sözlər:** *Zəngəzur dəhlizi, iqtisadiyyat, nəqliyyat dəhlizi, türk dünyası, Orta Dəhliz.*

**NURLAN ABBASOV**
***Azerbaijan National Academy of Sciences, Institute of Oriental Studies named after Academician Ziya Bunyadov, doctoral student of the Department of Central Asian Countries***
***E-mail: nabbasov1999@gmail.com***

## THE POTENTIAL ROLE OF THE ZANGAZUR CORRIDOR IN THE DEVELOPMENT OF ECONOMIC RELATIONS BETWEEN AZERBAIJAN AND THE COUNTRIES OF THE TURKISH WORLD (IN THE EXAMPLE OF TURKEY)

**SUMMARY:**

Since our independence, our country has rapidly developed its political and economic relations and has partnered with many countries. One of the leading countries is Turkiye, a historical friend and brother with whom we have always cooperated closely.

There is now a favorable moment for the further dynamic development of economic cooperation with Turkiye. With the opening of the Zangazur Corridor, the land border between the two countries will be restored, and this, in turn, will play an exceptional role in terms of further strengthening economic, trade and cultural ties.

The article will talk about the history of the Zangazur Corridor, the work currently underway to open it, the fact that the corridor is a door to the Turkic world and what economic benefits it will bring. It will also discuss the current cooperation with Turkiye in the reconstruction process of Karabakh, as well as the joint action plans to be taken in the future. The role of the Zangazur corridor, which will play the role of a bridge of cooperation between the countries of the region, which has great economic potential and natural resources, in the integration of our country into the regional transport network, will be emphasized. The current state of economic relations between the countries of the Turkic world and directions for development will be provided. Zangazur corridor's being one of the main components of projects such as "Middle Corridor", "One Belt, One Road", its essential role in the implementation of these projects, and the position of the participating countries on the Corridor will be investigated and detailed information will be provided.

**Keywords:** *Zangazur Corridor, economy, transport corridor, Middle corridor, logistics.*

**НУРЛАН АББАСОВ**
***Национальная академия наук Азербайджана, Институт востоковедения имени академика Зии Буньядова, докторант кафедры стран Центральной Азии***
***E-mail: nabbasov1999@gmail.com***

# ПОТЕНЦИАЛЬНАЯ РОЛЬ ЗАНГАЗУРСКОГО КОРИДОРА В РАЗВИТИИ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ СО СТРАНАМИ ТУРЕЦКОГО МИРА (НА ПРИМЕРЕ ТУРЦИИ)

**РЕЗЮМЕ:**

С момента обретения независимости наша страна стремительно развивала свои политические и экономические отношения и установила партнерские отношения со многими странами. Одной из ведущих стран является Турция, исторический друг и брат, с которым мы всегда тесно сотрудничали.

Уже сейчас наступил благоприятный момент для дальнейшего динамичного развития экономического сотрудничества с Турцией. С открытием Зангезурского коридора сухопутная граница между двумя странами будет восстановлена, что, в свою очередь, сыграет исключительную роль с точки зрения дальнейшего укрепления экономических, торговых и культурных связей.

В статье будет рассказано об истории Зангезурского коридора, проводимых в настоящее время работах по его открытию, о том, что коридор является дверью в тюркский мир и какие экономические выгоды он принесет. В нем также будет рассказано о существующем сотрудничестве с Турцией в процессе восстановления Карабаха и планах совместных действий, которые будут предприняты в будущем. Будет подчеркнута роль Зангезурского коридора, который будет играть роль моста сотрудничества между странами региона, обладающего большим экономическим потенциалом и природными ресурсами, в интеграции нашей страны в региональную транспортную сеть. Будет представлена информация о текущем состоянии экономических отношений между странами тюркского мира и направлениях развития. Зангезурский коридор является одним из основных компонентов таких проектов, как “Срединный коридор”, ”Один пояс, один путь", будет рассмотрена роль, которую он играет в реализации этих проектов, и позиция стран-участниц по коридору, и будет предоставлена подробная информация.

**Ключевые слова:** *Зангезурский коридор, экономика, транспортный коридор, Срединный Коридор, логистика.*

UOT 332.122
DOI:10.30546/3006-0346.2023.6.78.154

# POST-KONFLİKT ƏRAZİLƏRDƏ İQTİSADİYYATIN BƏRPASI VƏ DİRÇƏLDİLMƏSİ: ÖLKƏ TƏCRÜBƏLƏRİ, AZƏRBAYCAN ÜÇÜN NÜMUNƏLƏR

**ŞAHMAR ƏKBƏRLİ**

*UNEC*
*"Nəzəri və praktiki iqtisadiyyat"*
*kafedrası, doktorant*

*E-mail: shahmarakberli@gmail.com*

## Giriş

Müharibələr bitdikdə təsirlənmiş ərazilər çox vaxt viran qalır. Bu ölkələr zəifləmiş iqtisadiyyata, məhdud maliyyə resurslarına, müharibə getmiş ərazilərdə dağılmış infrasturuktura sahib olurlar. Çoxlu sayda qaçqın, yaralı və travma qurbanı olur. Zorakı münaqişələrin iqtisadi və siyasi nəticələri də çox böyükdür.

Bu ölkələrdə sosial iqtisadi mühitin bərpası çox mühüm əhəmiyyət kəsb edən və çətin prosesdir. Tədqiqatda uğurlu iqtisadi inkişafa nail olmuş müxtəlif inkişaf etmiş ölkələrin təcrübələri nəzərdən keçirilmiş və araşdırılmışdır.

Tədqiqat münaqişədən sonra ölkələrin rastlaştlığı kütləvi işsizlik, orta və ya yüksək inflyasiya, xroniki fiskal kəsir, yüksək səviyyəli xarici və daxili borc və aşağı daxili gəlir kimi makroiqtisadi problemləri araşdırır.

Münaqişədən sonra iqtisadiyyatın bərpası münaqişənin təkrarlanmasına səbəb ola biləcək amilləri aradan qaldırmaqla davamlı iqtisadi artımın və insan inkişafının təmin edilməsi məqsədi daşıyır. Bildiyimiz kimi, Azərbaycan 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində erməni separatçıları üzərində tarixi qələbə qazanaraq işğal altında olan torpaqlarımızı düşməndən azad etdikdən sonra regionda, o cümlədən ölkəmizdə yeni hərbi, siyasi və iqtisadi reallıqlar yarandı və xüsusən sosial-iqtisadi sahələrdə həlli vacib olan məsələlər gündəmə gəldi və bu ərazilərin bərpa edilməsi çox mühüm əhəmiyyət kəsb edir.

Müxtəlif post-konflikt ölkələrində iqtisadiyyatın bərpası və dirçəldilməsi yolları.

Müharibədən sonra dövlətin özünün bərpası və reabilitasiyası prioritet məsələdir, xüsusən ona görə ki, fəaliyyət göstərən dövlət sülhün möhkəmləndirilməsi üçün vacibdir.

Müharibədən sonrakı dövrdə iqtisadiyyatın inkişafı üçün, ilk növbədə, araşdırılmalı olan məsələlər:

- Münaqişənin başvermə səbəbləri və onun həlli yolu;
- Ölkənin bütün ərazisində hərbi əməliyyatların tam (və ya yox) dayandırılması;
- Ölkənin ilkin iqtisadi şəraiti və inkişaf səviyyəsi;

Həm iqtisadiyyatın bərpası, həm də sülhün möhkəmləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edən idarəetmə və institusional ehtiyaclara aşağıdakılar daxildir:

- dövlət maliyyəsi üzərində effektiv hökumət nəzarətinin bərpası;
- nəzarət və hesabatlılıq mexanizmlərinin yenidən qurulması;
- peşəkar dövlət idarəçiliyinin yenidən yaradılması;
- təmsilçi və inklüziv siyasi mexanizmlərin və institutların yenidən qurulması.

Zorakı münaqişədən dərhal sonra ölkələrin öz əvvəlki sosial və iqtisadi vəziyyətini necə bərpa edə biləcəyi və özünü təmin edən, əhatəli böyümə üçün şərait yarada biləcəyi haqqındadır. Bunun üçün dövlət üç əsas suala cavab tapmalıdır:

■ İnkişaf prosesinin yenidən başlaması üçün hansı növ siyasətlərə ehtiyac var?

■ Milli hakimiyyət orqanları nəyə səy göstərməli və hansı tədbirləri görməlidirlər?

■ Beynəlxalq ictimaiyyət ən çox necə kömək edə bilər?

Münaqişədən sonrakı yenidənqurma və reabilitasiya səylərində əsas rol, təbii ki, dövlətə məxsusdur. O, inkişaf strategiyasını formalaşdırmalı və ona rəhbərlik etməli və baş rolda olmalıdır. Hökumət makroiqtisadi sabitliyi bərpa etmək və inflyasiyanı aşağı salmaq üçün iqtisadiyyatın bərpası və struktur düzəliş proqramları həyata keçirməlidir.

Münaqişədən sonrakı yenidənqurma və reabilitasiya səylərində əsas rol, təbii ki, dövlətə məxsusdur. O, inkişaf strategiyasını formalaşdırmalı və ona rəhbərlik etməli və baş rolda olmalıdır. Hökumət makroiqtisadi sabitliyi bərpa etmək və inflyasiyanı aşağı salmaq üçün iqtisadiyyatın bərpası və struktur düzəliş proqramları həyata keçirməlidir.

Cənubi Koreya və Yaponiya kimi inkişaf etmiş ölkələrin müharibədən sonrakı inkişafına nəzər yetirək.

**Cənubi Koreya təcrübəsi.** 1953-cü ildə həm Şi-

mali, həm də Cənubi Koreya iki milyondan çox insanın ölümünə və şəhər və qəsəbələrin xarabalığa çevrilməsinə səbəb olan üç illik dağıdıcı Koreya Müharibəsi ilə darmadağın edildi. Müharibədən əvvəl onsuz da kasıb olan bir ölkənin gələcək üçün perspektivləri yox idi. Bununla belə, münaqişədən sonrakı ilk səkkiz il ərzində Şimali Koreya müasir sənaye cəmiyyətinin əsasını qoyan yüksək səviyyədə təşkil edilmiş, məqsədyönlü hökumət altında təsirli bir bərpa həyata keçirdi. Əksinə, Cənubi Koreya bu dövrdə siyasi korrupsiya və qarışıqlıq, ləng iqtisadi artım və ABŞ-dan kütləvi yardımdan asılılıq ilə xarakterizə olunurdu.

1960-cı illərdə Parkın Prezident gəmisi altında Cənubi Koreya iqtisadiyyatın daha da böyüməsinə səbəb olan iqtisadi və sosial inkişaf planlarını işə saldı. Park Cənubi Koreyada korrupsiyanın yayılmasının qarşısını almaq üçün çox sərt bir yanaşma tətbiq etdi. O, bank səhmlərini müsadirə etməyi hədəflədi və onları idxalı əvəz edən sənayelərə sərmayə qoymağı tapşırdı. Lakin bütün bunlardan sonra da insanların, xüsusən də orta təbəqənin və aşağı təbəqənin həyatına 1970-ci illərə qədər demək olar ki, təsir edilməmişdir. İxrac təşviq mexanizminin bəzi tədbirləri arasında, qazanılan Koreya valyutasının dəyərinin iki dəfə azaldılması, ixracata vergi güzəştlərinin artırılması, güzəştli faiz dərəcələri ilə ixrac kreditlərinin, müxtəlif ixrac subsidiyalarının verilməsi və icazə sistemi olan ixrac-idxal əlaqələndirmə sisteminin tətbiqi daxil idi. Hökumət Ağır və Kimya Sənayesi idarə Komitəsini təşkil etdi və planı 1973-cü ildə təqdim etdi. Altı strateji sənaye seçildi: polad, əlvan metal, maşınqayırma, gəmiqayırma, elektronika və kimya mühəndisliyi. Park 1979-cu ildə vəfat etdi, bu dövrdə adambaşına düşən gəlir 1500 dollar civarında idi. İnsanlar üçün həyat hələ də çox çətin olsa da, şübhəsiz ki, yaxşılaşırdı. Prezidentliyi dövründə Park ABŞ-ın onlara heç bir şəkildə kömək etməyəcəyini başa düşdü və bu səbəbdən Cənubi Koreyanın Yaponiya ilə münasibətlərini bərpa etməyə başladı. Hər iki ölkə Koreyanın Cənubi Koreya iqtisadiyyatı üçün zamanın ehtiyacı olan milyonlarla dollarlıq yardım və texnologiya transferləri müqabilində Yaponiyaya qarşı bütün əvvəlki iddialarından imtina etdiyi bir razılaşma imzaladı. Bu, Cənubi Koreyanın canlandırılması və modernləşdirilməsinin başlanğıcını qeyd etmək üçün təyin edildi. Zəhmətkeş Cənubi Koreyalılar Yaponiyadan alınan texnologiyanı çox səmərəli və məhsuldar şəkildə istifadə etməyə qoydular ki, bu da Koreyada sənayenin inkişafına səbəb oldu. Cənubi Koreya öz diqqətini kiçik və orta miqyaslı sənayelərin yaradılmasına və inkişafına yönəldib. Onların bu siyasəti bütün dünyada Samsung və LG kimi brendlərin uğur qazanmasına səbəb oldu. Parkın rəhbərliyi altında Cənubi Koreya Hökuməti, əsasən ixracla dəstəklənən dövlətə yönəlmiş kapitalizm inkişaf etdirdi. Cənubi Koreya, aşağı əmək haqqı və aşağı vergi qanunları və müxtəlif ölkələri və şirkətləri Cənubi Koreyada və onunla ticarət etməyə təşviq edən ixrac tarifləri təyin etdikləri iqtisadiyyatlarına xarici investisiyaları təşviq etməli idi.

Məsələn, bank olmayan maliyyə institutlarının aktivlərinin həcmi 1997-ci ildə ÜDM-in 30,1%-dən 2010-cu ildə 94,3%-ə yüksəlmişdir. Fond bazarının kapitallaşması da ÜDM-in 91,0%-dən 246,6%-nə yüksəlmiş, dövriyyədə olan istiqrazların cəmi 20,7%-dən 57,1%-ə yüksəlmişdir. Eyni dövrdə ÜDM-in %. qabaqcıl iqtisadiyyatlarla müqayisədə hələ də nisbətən kiçik olsa da, bazar 1997-ci ildən bəri əhəmiyyətli artım əldə edib. [8]

Hazırda Cənubi Koreya Asiyanın 4-cü ən böyük və dünyanın 11-ci ən böyük iqtisadiyyatıdır. Bu, qarışıq iqtisadiyyatdır. Cənubi Koreya yalnız bir nəsil ərzində ən kasıb ölkələrdən birindən inkişaf etmiş yüksəkgəlirli ölkəyə yüksəldi ki, bu da heyrətamiz transformasiyadır. Cənubi Koreya 21-ci əsrin ortalarında hökmranlıq etdiyi hesab edilən 11 ölkədən biri hesab olunur. ÜDM-i 1.66525 trilyon (2022) təşkil edir və onun iqtisadi tendensiyası şimal istiqamətində böyüməsini göstərir və dünyanın ən inkişaf etmiş ölkələrini ötüb keçəcəyi güman edilir. Onun texnoloji inkişafının əsas səbəblərindən biri olan ciddi təhsil sisteminə malikdir. Cənubi Koreyanın, demək olar ki, heç bir təbii resursu və artan əhalisi yoxdur və buna görə də öz iqtisadi tarazlığını inkişaf etdirmək və saxlamaq üçün ixrac strategiyalarını uyğunlaşdırıb. İqtisadiyyat enerji və müvafiq emal texnologiyalarının idxalından asılıdır.

**Yaponiya təcrübəsi:** Yaponiyanın İkinci Dünya müharibəsində məğlubiyyətindən sonra qırx ildən az müddətdə böyük iqtisadi gücə çevrilmək üçün öz iqtisadiyyatını yenidən qurması müasir iqtisadi tarixdə diqqətəlayiq bir istisna olmuşdur. 1945-ci ildəki məğlubiyyətdən əvvəl Yaponiyanın bütün gücü müharibə yolu ilə güc qazanmağa sərf edilmişdi və nəticədə bu, məhvə səbəb olmuşdur. Sənaye və ticarət binalarının böyük hissəsi onlarda olan avadanlıqlarla birlikdə məhv edilmişdir. Müharibədə

istifadə edilən gücün bu cəmləşməsi səbəbindən müharibədən sağ qalan yapon xalqı xaos, aclıq və işsizliklə üzləşdi. Ölkənin yaşayış məntəqələrinin demək olar ki, dörddə biri dağıdıldığı üçün Müttəfiq İşğal Qüvvələri dağılmış ölkəni xilas etməyə gəldi. Yaponiya iqtisadiyyatı çoxsaylı problemlərlə üzləşdi. Ən problemli məsələ işsizlik idi. Hərbi qüvvələr ləğv edildikdə, 7,6 milyon əsgər var idi və hərbi istehsalın və hərbi əlaqəli digər işlərin dayandırılması daha 4 milyon insanın işsiz qalmasına səbəb oldu. Həmçinin, təxminən 1,5 milyon insan xaricdən Yaponiyaya qayıtmaq məcburiyyətində qaldı və ümumilikdə təxminən 13,1 milyon insan işsiz qaldı. Bununla belə, böyük miqyaslı işsizlik faktiki olaraq heç vaxt baş verməmişdir. Bunun səbəbi, 1947-ci ildə kənd təsərrüfatının 18 milyonluq işçi qüvvəsini mənimsəməsidir ki, bu da müharibədən əvvəlkindən təxminən 4 milyon nəfər çox idi, lakin aztəminatlı "az işsizlər" problemi uzun müddət sonra da davam etdi. Yaponiya tullantıları və fabriklərin və infrastrukturların xarabalıqları ilə qalsa da, müharibədən əvvəlki iqtisadi təcrübəsinə əsaslanaraq və dünyanın qalan hissəsindən biliklər əldə edərək iqtisadiyyatını yenidən qura bildi.

1950-ci illərin əvvəlindən 1970-ci illərin əvvəllərinə qədər Yaponiyada sürətli iqtisadi artım təkcə hökumətin xüsusi siyasəti və inqilabi hadisələrin nəticəsi deyil, həm də xalqın məcmu səyi və gərgin zəhməti nəticəsində əldə edilmişdir. Yapon xalqının özünəməxsus xüsusiyyəti və öyrənilən bacarıqları təqlid etmək və təkmilləşdirmək, sonra isə onları öz sistemlərində tətbiq etmək uğurları üçün ən vacib amil idi.

1950-1960-cı illərin ortalarında Yaponiyanın əsas xarici problemi yaranmaqda olan ticarət kəsirini necə basdırmaq idi. Bununla belə, təxminən 1960-cı illərin ortalarında problem 180 dərəcə dəyişdi – Yaponiya indi milli prioritet kimi artan ticarət profisitini azaltmalı oldu. Ticarət profisiti ABŞ-ı, xüsusən də ABŞ Konqresini və sənaye lobbilərini qəzəbləndirdiyi üçün siyasi baxımdan arzuolunmaz idi. 1980-ci illərdə Yaponiya ən böyük ticarət profisitini qeyd etməyə başladı və ABŞ hər il dünyada ən böyük ticarət kəsiri yaşadı. Bundan əlavə, Yaponiyanın profisitinin və Amerikanın kəsirinin ölçüsü oxşar idi. Yapon əmanəti Amerikanın həddindən artıq xərclərini maliyyələşdirmək üçün istifadə edildi və bu, dünya iqtisadiyyatında ən böyük maliyyə axını oldu. [9]

Yaponların iqtisadiyyatı genişləndirmək üçün özünəməxsus xüsusiyyətlərindən istifadə etdikləri amillərdən biri də xarici ölkələrdən gətirilən texnologiyalardan və texnoloji nou-haulardan təkmilləşdirmək və praktiki istifadə etmək idi. Yaponlar belə bir işi ən yaxşı bacaranlardan idilər və tez-tez Yaponiyanın özünün çox az texnologiya istehsal etdiyini iddia edirdilər. Bununla belə, Yaponiya xaricdən gətirilən çoxsaylı texnologiyaları birləşdirərək yeni texnologiya, məsələn, ucuz kütləvi istehsal sistemləri yaratmışdır. Yaponiyanın texnologiya idxalı ilə bağlı nəzərə alınmalı ən vacib məqam o idi ki, o, yalnız yerli innovasiyalarla birləşdirildiyi üçün sənaye gücünə çevrildi. Yaponiyada texnoloji təkmilləşdirmələr onun iqtisadi artımına böyük töhfə verdi, çünki bir sənayedə texnologiyaların təkmilləşdirilməsi bir çox digər sənayelərin böyüməsinə təsir etdi. Məsələn, Yaponiyanın polad sənayesi avtomobillərdə istifadə edilən xüsusi poladın keyfiyyətini uğurla yaxşılaşdırdı və hissələrin korpusunda texnoloji tərəqqi nəticəsində avtomobil sənayesi də ilk dəfə beynəlxalq bazarlarda rəqabət apara biləcək bir sənayeyə çevrildi. Gəmiqayırma sənayesində də irəliləyiş baş verdi və çoxsaylı sənayelər demək olar ki, mütənasib sürətlə inkişaf edirdi. Göründüyü kimi, texnologiyaların təkmilləşdirilməsi və modifikasiyası sənayeləri daha da məhsuldar inkişaf yollarını inkişaf etdirməyə stimullaşdırdı və bu tendensiya Yaponiya iqtisadiyyatını beynəlxalq bazarlarda rəqabətə apardı. Sürətli iqtisadi artım, ilk növbədə, yapon xalqının səyləri ilə əldə olunsa da, bu, iqtisadi siyasətin və planlaşdırmanın onun prosesində heç bir rolu olmadığı demək düzgün deyil. Siyasətlər və strategiyalar böyüməni qorumaq və davam etdirmək üçün siyasət qurucuları tərəfindən diqqətlə müəyyən edilmişdir və buna görə də Yaponiyanın siyasi sistemi də onun inkişafında böyük rol oynamışdır.

Yaponiya istehlakçı elektronikası, avtomobil istehsalı, yarımkeçiricilər istehsalı, optik liflər, optoelektronika, optik media, faks və sürət maşınları, qida və biokimyada fermentasiya prosesləri daxil olmaqla bir çox sahələrdə yüksək texnoloji inkişafa malikdir. Bununla belə, bir çox Yapon şirkətləri ABŞ, Cənubi Koreya və Çindən yaranan rəqiblərlə qarşılaşır.

Aşağıdakı cədvəldə Yaponiyada 1980-2022-ci illərdə əsas iqtisadi göstəriciləri göstərilir.

| il | ÜDM (milyard ABŞ dolları ilə) | Adam başına düşən ÜDM mlyrd | Nominal ÜDM (milyard ABŞ dolları ilə) | Adambaşına düşən nominal ÜDM (milyard ABŞ dolları ilə) | İnflyasiya % ilə | İşsizlik % ilə | Dövlət borcu (ÜDM-in %-lə) |
|---|---|---|---|---|---|---|---|
| 1980 | 1,068.1 | 9,147.0 | 1,127.9 | 9,659.0 | 7.8% | 2.0% | 47.8% |
| 1985 | 1,690.0 | 13,989.8 | 1,427.4 | 11,815.8 | 2.0% | 2.6% | 68.3% |
| 1990 | 2,506.1 | 20,302.7 | 3,196.6 | 25,896.0 | 3.1% | 2.1% | 63.0% |
| 1995 | 3,038.6 | 24,224.0 | 5,545.6 | 44,210.2 | -0.1% | 3.2% | 92.5% |
| 2000 | 3,476.3 | 27,409.2 | 4,968.4 | 39,173.0 | -0.7% | 4.7% | 135.6% |
| 2005 | 4,135.7 | 32,372.7 | 4,831.5 | 37,819.1 | -0.3% | 4.4% | 174.3% |
| 2010 | 4,534.1 | 35,535.2 | 5,759.1 | 45,135.8 | -0.7% | 5.1% | 205.7% |
| 2015 | 5,200.9 | 40,959.3 | 4,444.9 | 35,005.7 | 0.8% | 3.4% | 228.4% |
| 2020 | 5,312.3 | 42,211.7 | 5,045.1 | 40,088.6 | 0.0% | 2.8% | 254.1% |
| 2021 | 5,633.5 | 44,934.9 | 5,103.1 | 40,704.3 | -0.2% | 2.8% | 256.9% |
| 2022 | 5,973.7 | 47,844.5 | 5,383.7 | 43,118.8 | 0.5% | 2.4% | 252.3% |

2021-ci ilin sonunda Yaponiyada UDM 5,633 trilyon dollar təşkil etmişdir. Dünya ölkələri arasında ÜDM-in həcminə görə 4-cü sırada yer alır. Hazırda Yaponiyada ÜDM- in 69.47 %-ni xidmətlər, 29,2 % ni sənaye və 1.04 % kənd təsərrüfatı məhsulları təşkil edir.

**Azərbaycanda işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın dirçəldilməsi yolları**

Azərbaycan Respublikasının Ermənistanın işğalından azad edilən ərazilərinin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafının təmin olunması, orada ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu çərçivədə icra olunan layihələr həmin ərazilərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsində və iqtisadi inkişafında mühüm rol oynayacaqdır. Sözügedən ərazilərdə zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət–özəl sektor tərəfdaşlığı və ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və dayanıqlı məskunlaşmanın təmin olunması ölkənin uzunmüddətli inkişaf prioritetləri ilə vəhdətdə olan tədbirlərlə dəstəklənməlidir.[3]

Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən, imkanlarından səmərəli istifadə etməklə ağır və yüngül sənaye sahələrinin bərabər inkişafını ölkədə ümumdaxili məhsulun artırılmasında, əhalinin məşğulluğunu artırılmasında mühüm rol oynayacaq.

İşğaldan azad edilmiş torpaqların iqtisadi potensialı çoxspektrli olub, kənd təsərrüfatının, sənayenin və turizmin müxtəlif sahələrini əhatə edir. İşğaldan azad edilmiş torpaqlar üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün böyük potensiala sahibdir.

Mühüm qida məhsulları idxalı minimuma azalacaq, idxaləvəzləyici sahələr daha da inkişaf edəcək, qabaqcıl texnologiyaların tətbiqinə münbit şərait yaranacaq. İşğaldan azad olunmuş ərazilərin müqayisəli üstünlükləri əsasında 4 regional mərkəzin yaradılması nəzərdə tutulub. Ağdamda sənaye mərkəzi, Cəbrayılda logistika və ticarət mərkəzi, Şuşada mədəniyyət və turizm mərkəzi, Kəlbəcərdə hasilat və turizm mərkəzi yaradılacaq. Ağdamda yaradılacaq sənaye mərkəzində ilkin müraciətlər əsasında 33 kiçik istehsal və xidmət müəssisəsi, iri sənaye və qida sənayesi müəssisələri fəaliyyət göstərəcək.

İşğaldan azad edilmiş ərazilərə qayıdan insanların məhz təhlükəsiz yaşayışının təmin edilməsi ilə bu region ölkənin ən abad guşələrindən birinə çevriləcəkdir. Müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün dövlət-özəl tərəfdaşlığının inkişafı çərçivəsində bütün sahələrdə quruculuğa nail olmaq, ümumilikdə Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını təmin etmək mümkün olacaqdır.

İşğaldan azad edilən ərazilərimizdə əlvan metal ehtiyatlarının potensialı ölkənin dağ-mədən sənayesinin və metallurgiyanın gələcək inkişafında böyük rol oynayacaq. Sənaye əhəmiyyətli proqnoz resurslara malik çoxsaylı qızıl, gümüş, mis, civə və digər faydalı qazıntı yataqlarının istismara verilməsi azad edilmiş ərazilərimizdə sənayeni yenidən təşkil etməyə, iqtisadiyyatın əksər sahələrinin inkişafını intensivləşdirməyə, yerli əhalinin əlavə iş yerləri ilə təmin olunmasına, eləcə də bərpa olunacaq şəhər və kəndlərin inkişafına böyük ölçüdə dəstək olacaq. Həmçinin tədqiqatın digər məqsədi işğaldan azad edilmiş ərazilərə investisiyaların cəlb olunması və dövlətlə özəl sektorun birgə fəaliyyəti nəticəsində dağıdılmış ərazilərin bərpa edilməsi istiqamətlərinin araşdırılmasıdır.

İşğaldan azad olmuş ərazilərimizin sənaye potensialının iqtisadi dövriyyəyə cəlb edilməsi dağ-mədən, metallurgiya, tikinti materialları, müxtəlif istiqamətli emal sənayesi sahələrinin inkişafına imkan yaradacaqdır.

İşğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı Azərbaycan Respublikasının Prezdenti kifayət qədər işlər görmüş və sərəncamlar vermişdir. İşğaldan azad edilmiş ərazilərin inkişaf etdirilməsi ilə bağlı bir neçə elmi konfranslar keçirilmişdir.

Azərbaycan Prezidentinin rəhbərliyi ilə işğaldan azad edilən Qarabağ torpaqları iqtisadiyyatımızın daha sürətli inkişafı üçün yaxın gələcəkdə yeni potensial imkanları genişləndirəcək, Azərbaycanın iqtisadi göstəricilərinə görə regionda lider mövqeyini daha da möhkəmləndirəcək. Hazırda dövlətimizin əsas məqsədi işğaldan azad olunmuş ərazilərin tezliklə bərpası və yenidən qurulması, məcburi köçkünlərin öz yurdlarına qayıtması və məskunlaşdırılması və məşğulluğunun təmin edilməsi, ölkədə ÜDM-in artırılması, regionun iqtisadi potensialı hesabına ölkədə ümumdaxili məhsulun artırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi və həmin ərazilərin yaşıl enerji zonasına çevrilməsidir.

**Nəticə**

Dünyanın müxtəlif ölkələrində post-konflikt dövründə iqtisadiyyatın bərpa və dirçəldilməsi təcrübəsini nəzərə alaraq aşağıdakı nəticələrə gəlmək olar. Müharibə bitdikdən sonra davamlı iqtisadi inkişafa nail olmaq üçün, ilk növbədə, görüləcək iş dayanıqlı sülhə nail olmaqdır. Təbii ki, əgər münaqişə qayıdırsa, bu iqtisadi canlanma üçün təhlükə yaradır. Hal-hazırda Azərbaycan Respublikası və Ermənistan arasında sülh müqaviləsinin bağlanması üzrə intensiv danışıqlar aparılır və bu ən başlıca məsələdir.

İşğaldan əvvəlki dövrdə ÜDM-in 24%-nin bu ərazilərin payına düşdüyünü nəzərə alsaq, burda iqtisadiyyatın canlanması ÜDM-in azı 20% artıma səbəb olacaqdır.

Bu ərazilərin bərpasından sonra əkin üçün istifadə olunacaq torpaq sahəsinin 200 min hektardan çox olacağı proqnozlaşdırılır.

Ölkəmizin iqtisadi qüdrətinin artması milli iqtisadi təhlükəsizliyimizin daha əsaslı şəkildə təmin edilməsini əhəmiyyətli dərəcədə yüksəldəcək;

Azərbaycan regionun dinamik və keyfiyyətli inkişaf edən bir dövlətinə çevriləcək;

Ölkəmizdə işsizlik və yoxsulluq səviyyələri bir qədər də aşağı düşəcək

**Təkliflər:** dünyanın müxtəlif post-konflikt ölkələrinin təcrübələrində iqtisadiyyatın dirçəldilməsi yollarını nəzərə olaraq Azərbaycanın işğaldan azad edilmiş ərazilərində iqtisadiyyatın dirçəldilməsi və sənayenin inkişaf etdirilməsi üçün aşağıdakı tədbirlərin görülməsini məqsədəuyğun hesab edirəm, yuxarıda bu təkliflərin Cənubi Koreya, Yaponiya və digər ölkələrdə post-konflikt dövründə uğurlu nəticəsi olduğunu görə bilərik.

1. Davamlı sülhün təmin edilməsi hərbi xərclərin azaldılması, hərbi sanaye sahələrindən mülkü sənaye sahələrinə keçidin sürətləndirilməsi;

2. Dünyada artan ərzaq qıtlığını nəzərə alaraq zəngin münbüt torpaqlarda kənd təsərrüfatı və aqrar sənayenin inkişafına xüsusi diqqət göstərilməsi. İşğaldan əvvəlki dövrdə ölkəmizdə istehsal olunan kənd təsərrüfatı məhsullarının 35-40 faizi, kartof istehsalının 46 faizi, üzüm istehsalının 41 faizinin bu ərazilərin payına düşdüyünü nəzərə alsaq, işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsi ölkə ərazisindəki kənd təsərrüfatı məhsullarının azı 30 % artımına səbəb ola bilər.

3. Hazırda ölkəmizə yüngül sənaye məhsullarının əsas hissəsinin Türkiyə və Çindən idxal olduğunu nəzərə alsaq, ixraca və daxili tələbatı ödəməyə yönəlmiş yüngül sənaye məhsullarına əsaslanan sənayeləşmə siyasətinin qurulması və regionda bu sahələrin inkişaf etdirilməsi ÜDM-in 3 % yaxın artımına səbəb ola bilər.

4. ixracata vergi güzəştlərinin artırılması, güzəştli faiz dərəcələri ilə ixrac kreditlərinin verilməsi, müxtəlif ixrac subsidiyalarının verilməsi.

5. maşınqayırma, elektronika və kimya sənayesinin inkişaf etdirilməsi üçün xarici mütəxəssislərin cəlb edilməsi ilə yanaşı xaricdən müasir texnologiyaların cəlb edilməsi.

### ƏDƏBİYYAT SİYAHISI:


*1. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı Bakı şəhəri, 27 aprel 2021-ci il.*

*2. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi Haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmanı Bakı şəhəri, 29 yanvar 2019-cu il.*

*3. Azərbaycan Respublikası Prezidentinin sərəncamı Bakı şəhəri, 10 dekabr 2021-ci il № 3037*

*4. Mirza İbrahimov, (2021). Azad Edilmiş Ərazilərdə Bərpa Prosesinin Əsas Istiqamətləri. 2021, 9 səh.*

*5. Ziyad Səmədzadə (2009) Cənubi Koreyanın iqtisadi sıçrayışının əsasları barədə 5 səh.*

*6. Adam Thierer & Connor Haaland (2021)/. Does the U.S. Need a More Targeted Industrial Policy for High-Tech? Mercatus Center at George Mason University August 25, s 63.*

*7. Nazim Muzaffarli, Eldar Ismailov (2010). Basic Principles for the Rehabilitation of Azerbaijan's Post-Conflict Territories., s 221.*

*8. F.E. Ohiorhenuan and Frances Stewart Copyright (2008). Post-Conflict Economic Recovery Enabling Local Ingenuity John, 262.*

*9. Kenichi Ohno (2006). The Economic Development of Japan. (N. G. Studies, Ed.) Tokyo: Retrieved October 29.10.18, 2018 s245.*

*10. Rebuilding War-Torn States: The Challenge of Post-Conflict Economic Reconstruction. Oxford: Oxford University Press. del Castillo, Graciana. 2010. S 223.*


### XÜLASƏ:


Tədqiqatın məqsədi dünyanın müxtəlif inkişaf etmiş ölkələrində xüsusi ilə sənaye cəhətdən qabaqcıl ölkələrdə müharibədən sonra iqtisadiyyatın dirçəldilməsində fərqli sənaye sahələrinin rolunu və onların necə inkişaf etdirilməsi yollarının araşdırılmasıdır. Bu dövlətlərin təcrübəsinə əsaslanaraq Azərbaycanda işğaldan azad edilmiş ərazilərdə xammal potensialına uyğun olaraq bu sənaye sahələrinin yaradılıb inkişaf etdirilməsinin məqsədə uyğunlğu araşdırılmışdır.

Tədqiqat həmçinin zorakı münaqişədən dərhal sonra ölkələrin öz əvvəlki sosial və iqtisadi vəziyyətini necə bərpa edə biləcəyi, sosial infrastrukturun bərpası yolları, rifah halının müharibədən əvvəlki vəziyyətə qaytarılması, müxtəlif sənaye sahələrinin inkişaf etdirilməsi haqqındadır.

Tədqiqat münaqişədən sonra ölkələrin rastlaşdığı kütləvi işsizlik, orta və ya yüksək inflyasiya, xroniki fiskal kəsir, yüksək səviyyəli xarici və daxili borc və aşağı daxili gəlir kimi makroiqtisadi problemləri araşdırır.


**Açar sözlər:** *İşğaldan azad edilmiş ərazilər; sənaye sahələri; post-konflikt; yenidən qurma.*


**Akbarli Shahmar**
***PhD student, UNEC***
***"Theoretical and practical economy" department***
***shahmarakberli@gmail.com***


## RECOVERY AND REVIVAL OF THE ECONOMY IN POST-CONFLICT AREAS: COUNTRY EXPERIENCES, EXAMPLES FOR AZERBAIJAN

### SUMMARY:


When wars end, the affected areas are often devastated. These countries have a weakened economy, limited financial resources, and destroyed infrastructure in war-torn areas. Many refugees, wounded and victims of trauma. The economic and political consequences of violent conflicts are also enormous. Restoration of the social and economic environment in these countries is a very important and difficult process. The purpose of the study is how countries can restore their previous social and economic status immediately after a violent conflict, ways to restore social infrastructure, return the state of well-being to the pre-war state, and develop various industries.

The study focuses on economic recovery because a healthy economy is a basic requirement for human development and because broad-based economic recovery in a post-conflict context is essential to prevent the recurrence of violence.

The study examines macroeconomic policies that post-conflict countries can implement to achieve recovery. When the war ends, countries face serious

macroeconomic problems, including mass unemployment, moderate or high inflation, chronic fiscal deficits, high levels of external and internal debt, and low domestic income.

**Keywords:** *Territories liberated from occupation; industrial areas; post-conflict; reconstruction.*

**Акбарли Шахмар**
***Аспирант, UNEC***
***Кафедра «Теоретическая и практическая экономика»***
***shahmarakberli@gmail.com***

## ВОССТАНОВЛЕНИЕ И ВОЗРОЖДЕНИЕ ЭКОНОМИКИ В ПОСТКОНФЛИКТНЫХ РАЙОНАХ: ОПЫТ СТРАН, ПРИМЕРЫ ДЛЯ АЗЕРБАЙДЖАНА

**РЕЗЮМЕ:**

Когда войны заканчиваются, пострадавшие районы часто опустошаются. Эти страны имеют ослабленную экономику, ограниченные финансовые ресурсы и разрушенную инфраструктуру в охваченных войной районах. Много беженцев, раненых и пострадавших от травм. Экономические и политические последствия насильственных конфликтов также огромны. Восстановление социально-экономической среды в этих странах – очень важный и сложный процесс. Цель исследования состоит в том, как страны могут восстановить свой прежний социально-экономический статус сразу после насильственного конфликта, пути восстановления социальной инфраструктуры, возврата состояния благосостояния к довоенному состоянию, развития различных отраслей промышленности.

В исследовании основное внимание уделяется восстановлению экономики, поскольку здоровая экономика является одним из основных условий человеческого развития, а широкомасштабное восстановление экономики в постконфликтных условиях необходимо для предотвращения повторения насилия.

В исследовании рассматривается макроэкономическая политика, которую постконфликтные страны могут применять для достижения восстановления. Когда война закончится, страны столкнутся с серьезными макроэкономическими проблемами, включая массовую безработицу, умеренную или высокую инфляцию, хронический бюджетный дефицит, высокий уровень внешнего и внутреннего долга и низкий внутренний доход.

**Ключевые слова:** *Территории освобожденные от оккупации; промышленные зоны; постконфликтный период; реконструкция.*

УДК 336.74; 336.748.12
DOI:10.30546/3006-0346.2023.6.78.161

# ВАЛЮТНАЯ ПОЛИТИКА И ПРАКТИКА ПРЕОДОЛЕНИЯ ВАЛЮТНЫХ КРИЗИСОВ В АЗЕРБАЙДЖАНЕ

**ДЖАВИД САФАРОВ**
*Докторант кафедры «Мировая экономика»*
*Бакинского Государственного Университета*
*E-mail: javid.safarov@yahoo.com*

**Влияние мирового финансового кризиса на экономику Азербайджана**

В последней четверти предыдущего века мир прошел череду мировых и региональных экономических кризисов. В результате данных кризисов произошла резкая перемена финансовых средств от рынка к рынку, резкое падение котировки и валютных курсов. И главное, что они создали для многих государств серьезные трудности в экономическом развитии. Особую остроту к подобным процессам придавала стремительное распространение и глобализация процессов. Эта глобализация до сих пор стремительно развивается и набирает силу в мировом хозяйстве и в финансовом рынке [9, с. 221 - 230].

Современная мировая валютная система имеет особую характерную черту.  Это заключается в либерализации движения капиталов, преобладании доллара в международном расчете и финансовых операциях. В настоящее время, валюта становится самостоятельным средством для инвестиций в свободные средства. Это увеличило вероятность валютного кризиса. [6, p. 1–32]

В современном мире фактор финансовых рынков приобрёл огромный и динамичный потенциал воздействия. Воздействие на национальную экономическую систему отдельных государств и положение в целом мира. Сегодня в центре внимания оказались вопросы финансово-экономической стабильности. Она проявляется как в стратегическом плане, так и в обосновании экономической точки зрения государств. Они входят в ряд основных внешнеполитических и внутренних проблем. Вместе все эти факторы способны сегодня действительно влиять на существующие мировые порядки. Они способны также дезорганизовывать всю мирохозяйственную систему. Это положение дел всё больше и больше играет роль в экономике многих государств мира [2, p.745–775].

Скоротечные перемены международного финансового ресурса оказывают влияние на валютный курс. Также они оказывают влияние на фондовые рынки и на ситуацию с другими сегментами финансовых систем. Эти факторы также влияют на внешнюю торговлю, а также на положение экономики в целом. Кризисные потрясения на финансовом рынке одной страны передаются в другие и косвенно-через экономические связи и сокращение международного инвестиционного и потребительского спроса. В условиях современного кризиса рынки Германии и Франции пострадали от кризиса на мировом финансовом рынке больше из-за сокращения спроса на экспортную продукцию, нежели от убытков по ипотечным ценным бумагам. Ухудшение экономической конъюнктуры, снижение экспортной выручки и прибыли компаний незамедлительно складываются на финансовом рынке посредством сокращения капитала, инвестиций, спроса на валюту и финансовые услуги.

Несмотря на важность анализа межстрановой трансмиссии кризисных явлений, финансовый рынок, достиг такой степени глобализации и целостности, что действует как единая система. Поэтому процесс распространения кризисов настоящий момент целесообразно рассматривать прежде всего с точки зрения его сегментов. Для исследования специфики современного кризиса наиболее плодотворен системный подход к мировому финансовому рынку как в совокупности взаимосвязанных и взаимозависимых сегментов (кредитного, фондового, валютного, страхового рынков и рынка золота) обладающей свойствами целостности, иерархичности и интерактивности. Мировой финансовый рынок как система имеет собственную структуру, функции, закономерности развития и взаимоотношения с внешней средой. Процессы, происходящие на одном сегменте, влияют на деятельность остальных сегментов мирового финансового рынка [12, с. 148].

Много работ посвящено проблеме финансовой стабильности и экономического роста разных стран. Тема таких исследований актуальна в

связи с современными мировыми экономическими процессами. Некоторые страны используют различные денежные, экономические и политические инструменты для стимулирования роста своих национальных экономик после мировых экономических и финансовых кризисов. Некоторые развивающиеся страны начинают страдать от потери конкурентоспособности своей национальной продукции в результате количественного смягчения, введенного некоторыми развитыми странами, такими как, например, США и Япония, или валютных интервенций центрального банка Швейцарии с целью девальвации их национальные валюты, как это было во время кризиса 2007-2008 гг.

Практика разных стран показывает, что во время финансовых кризисов государственные заимствования у населения становятся одним из каналов удовлетворения потребностей государства в иностранной валюте, учитывая снижение суверенных рейтингов и ограниченный доступ к коммерческим внутренним и иностранным рынкам капитала. По данным Eurostat, сумма заимствований у домашних хозяйств превышала 10% ВВП в Венгрии, Португалии и Мальте и составляла более 3% ВВП на Кипре, Италии и Ирландии на конец 2018 года.

Последний глобальный финансово-экономический кризис был вызван распространением эпидемии коронавируса, сокращением совокупного предложения, эскалацией торговых войн и оттоком капитала с развивающихся рынков. Это потребовало от национальных органов макроэкономического регулирования принятия осмотрительных мер для защиты национальной экономики от дестабилизирующих внешних факторов.

Таким образом, одной из целей этой статьи является обоснование и разработка приоритетной системы стабилизационной политики и антикризисных мер по противодействию распространению внешних шоков в национальной экономике, ее стабилизация и создание условий для ее дальнейшего восстановления. и устойчивый экономический рост. Для достижения этой цели были систематизированы существующие теоретические источники и исследовательские материалы международных организаций, обобщена законодательная и нормативная база Азербайджана, а также использованы 3 статистические методы, исторический метод, анализ и обобщение. В результате были выявлены каналы воздействия внешних шоков на экономику Азербайджана, а также определены области внутренней уязвимости национальной экономики, которые могут значительно усилить негативные эффекты внешних факторов. Полученные знания стали основой для формулирования концептуальных направлений антикризисного управления и разработки системы мер по противодействию кризисным явлениям, включающей инструменты денежно-кредитной политики Центрального банка Азербайджана, структурную и масштабную политику Правительства, а также политики банковского регулирования и контроля за капиталом.

Текущая ситуация в экономике разных стран требовала энергичных действий как с точки зрения поддержки совокупного спроса и предложения с помощью денежно-кредитной и масштабной политики, так и готовности принять жесткие ограничительные меры для противодействия спекулятивным факторам или критическому ухудшению финансовой стабильности отдельные секторы. Первоочередная задача - сохранить экономический потенциал и социальный капитал и создать на их основе предпосылки для дальнейшего экономического подъема и поступательного социально-экономического развития страны. Обобщение теоретических основ антикризисного управления экономикой в условиях кризиса. экстремальные шоки, выявление зон уязвимости и каналов проникновения внешних шоков в национальную экономику позволили авторам сформулировать концептуальные положения и практические меры противодействия кризису в экономике разных стран.

Несомненно, экономика Азербайджана серьезно пострадала от COVID-19 и обвала цен на нефть. 9 апреля 2020 года 23 страны-члена ОПЕК + обсудили рецессию, вызванную распространением коронавируса и договорились сократить добычу нефти на 9,7 млн баррелей в год, начиная с 1 мая 2020 года. Целью переговоров было создание баланса между поставками и спросом на мировом рынке. Азербайджанская Республика, наряду с другими странами-членами, договорились сократить производство в соответствующих пропорциях. Таким образом, на основании международного договора, суточная добыча в Азер-

байджане не должна превышать 554 000 баррелей, в мае и июне 2020 г. 587 000 баррелей.

Согласно информации, предоставленной Министерством Экономики Азербайджанской Республики, сектор связи, а также финансовый, банковский и страховой секторы меньше пострадали от пандемии. Центральный банк Азербайджанской Республики (ЦБА) применил ряд мер по помощи финансовому сектору. Эти меры включали: соотношение требований к капиталу и риска по ипотечным кредитам; мораторий на штрафы за просрочку платежа, и штрафы по процентной ставке; гарантии на страховые взносы и приостановление проверок кредитных организаций [8, с. 554-560].

В реальном секторе Центральный банк Азербайджанской Республики подписал своп-соглашение на $ 200 млн. с Европейским банком реконструкции и развития (ЕБРР). Этот обмен сделал возможным, чтобы ЕБРР предоставил кредитную поддержку в национальной валюте местным компаниям, которые столкнулись с двойной проблемой вспышки коронавируса и шока на мировом рынке нефти.

Мировые кризисы наносят ущерб национальной экономике Азербайджана, а некоторые риски сильно усугубляют его. Влияние мировых кризисов на страну обусловливаются, главным образом, снижением цен на нефть и другие не сырьевые экспортные цены, резкими ограничениями на приток иностранных кредитов в банковскую систему, сокращением и оттока иностранной валюты. В целом почти все источники совокупного спроса сокращаются в источниках внешнего финансирования [7, с. 96-101].

Например, банки на мировых финансовых и валютных рынках в мире в 2008-2009 гг. не только потеряли способность занимать долги, но и сильно ограничили финансирование национальных компаний. Так, даже требовалось досрочное погашение некоторой суммы погашения. В этих условиях банки Азербайджана погасили кредитов на сумму 1,2 миллиарда долларов в течение одного года. Кроме того, значительно снизились денежные переводы азербайджанцев, проживающих за рубежом, на регионы Азербайджана. А это, в свою очередь, снизило социальный уровень населения тех регионов.

Мировой финансовый кризис повлиял на экономику страны из-за быстрой интеграции Азербайджана в мировую экономическую систему и широких экономических связей с развитыми и развивающимися странами. Если мы обратим внимание на общую экономику Азербайджана, то увидим, что основной причиной роста ВВП, снижения темпов инфляции, снижения уровня безработицы и увеличения темпов других позитивных экономических изменений является рост цен на нефть и добыча нефти. После мирового кризиса снижение цен на нефть в акциях создало определенные трудности для государственной экономики. Но, в дальнейшем, ситуация стабилизировалась и цены на нефть поднялись.

Последняя ситуация показала, что Азербайджан всегда готов выйти из кризиса с наименьшим ущербом. Даже если это так, текущая ситуация в стране не уменьшает потенциальное влияние кризиса. В целом считается, что кризис может оказать лишь незначительное влияние на экспортный потенциал Азербайджана. Но в то же время темпы развития экономики страны будут продолжать расти [11, стр. 330].

Ведущие мировые финансовые институты, в отличие от многих других стран, прогнозируют, что Азербайджан может даже извлечь выгоду из мирового финансового кризиса. Например, вице-президент Всемирного банка по Европе и Центральной Азии Шигео Катсо сказал, что глобальный экономический кризис не затронул Азербайджан так сильно, как это произошло в других странах, и Азербайджан менее затронут кризисом. По его словам, этот кризис может даже создать новые возможности для Азербайджана: «По мере развития ненефтяного сектора могут создаваться новые рабочие места, улучшаться бизнес-среда, конкурентоспособность и финансовое управление государством».

Одним из факторов, который играет важную роль в готовности Азербайджана противостоять глобальному финансовому кризису и минимизировать его влияние в будущем, являются валютные резервы [10, с. 27 – 35].

Благодаря успеху новой нефтяной стратегии теперь сформировалась надежная «подушка безопасности» страны. Этой «подушки» достаточно, чтобы обеспечить бюджет страны и стабильность валюты в среднесрочной перспективе [4, с. 232].

Кроме того, в отличие от многих зарубежных стран, Азербайджан подвергается воздействию кризиса на самом низком уровне, и его валютные резервы не расходуются на решение дополнительных проблем, как это было в других странах.

Конечно, Азербайджан не в полной мере способен избежать негативного влияния падения цен на нефть на экономику, как это было в 2015 году. Тем не менее, правительство продолжает работать над повышением эффективности и оптимизации государственных расходов, что показало положительные результаты по экономическим показателям за последние годы.

Долговечность Азербайджана, наряду с развивающимися секторами, такими как туризм, сельское хозяйство, транспорт и возобновляемые источники энергии, обеспечивает реальный потенциал для роста.

По нашему глубокому убеждению, экономика Азербайджана превзойдет многих своих зарубежных партнеров не только из-за собственных успехов, но и по причине крупных неудач этих самых зарубежных партнеров. Говоря иначе, манат снова «встанет на ноги». Несомненно, резкое падение цен на нефть сказалась и на экономике Азербайджана. Две последовательные девальвации национальной валюты создали определенные проблемы по исполнению доходной части бюджета, повышение цен, особенно на импортные товары, кризис банковской системы и т. д. Однако мы считаем, что у Азербайджана есть возможности преодолеть экономический кризис. [5, стр. 338] Но для этого стране необходимы коренные преобразования (от создания и внедрения систематизированной программы экономических реформ до совершенствования управленческой структуры и кадровой политики). Стране необходимы новая экономическая модель развития, совершенно иная инфраструктура прозрачных рыночных отношений, свободных от административного вмешательства и создающих надежный фундамент для экономического рывка. Проводимые правительством Азербайджанской Республики последовательные реформы по диверсификации экономики страны, развитию нефтяного, туристического, аграрного, транспортного секторов, принимаемые меры по импорта-замещению, программа по обеспечению продовольственной безопасности и другие меры призваны вывести страну из зависимости от иностранной валюты. [1, с. 352] Азербайджан имеет все возможности выйти из кризиса более сильным государством с развитой экономикой. Это косвенно подтверждает утвержденный рамочный документ Всемирного Банка (ВБ) по партнерству с Азербайджаном на период 2015–2020 гг. Документ призван регулировать операции Международного банка реконструкции и развития (МБРР), Международной финансовой корпорации (IFC) и Агентства по многосторонним инвестиционным гарантиям (MIGA) по поддержанию устойчивого и ориентированного на частный сектор развития в Азербайджане.

Таким образом, проблема валютного кризиса охватывает обширный круг вопросов: от проблемы оптимального регулирования экономики в целом до поведения индивидуумов на микроэкономическом уровне. Беглый взгляд на валютные кризисы 1990-х гг. показывает, что лучше всего их можно описать посредством моделей второго поколения. Их разработка выявила, что валютные кризисы могут произойти, даже если между внутренней экономической политикой и валютным режимом существует полная совместимость.

**РЕЗЮМЕ:**

Данная статья посвящена проблеме валютных кризисов. Данная тема всегда была большой проблемой. Это началось с момента введения денег в национальные экономики разных стран. В настоящее время финансовые рынки работают в условиях глобализации. Этот факт способствует резкому возрастанию частоты кризисов и их влияние на реальную экономику. И это, в свою очередь, вызывает среди экономистов и финансистов большой интерес к предотвращению кризиса и преодолению его последствий.

Азербайджан быстро интегрируется в мировую экономическую структуру и имеет широкие экономические связи с развитыми и слаборазвитыми странами. Вот почему глобальные финансовые кризисы всегда влияют на экономику государства. Если мы обратим внимание на общую экономику Азербайджана, то увидим, что ключевой причиной роста ВВП является сокращение безработицы, снижение уровня инфляции и повышение уровня других оптимистичных эконо-

мических событий – рост цен на нефть и нефтепереработку.

После завершения глобального кризиса можно наблюдать, что падение цен на нефть на мировых рынках создает определенные трудности для национальной экономики. В данной работе рассматривается влияние мирового финансово-экономического, а также валютного кризиса на экономику Азербайджана на макро- и микроуровне.

Последние достижения экономической теории лучше определяют механизм кризиса, и предоставляют лучшие инструменты для предотвращения кризисов, и посткризисной стабилизации. Однако, экономический и финансовый кризис, возникший из-за пандемии, заставляет ученых и специалистов находить совсем новые и неординарные пути решения данной задачи.

**Ключевые слова:** *валютные кризисы, инвестиционный спрос, конъюнктура, финансовые рынки, реальная экономика, посткризисная ситуация.*

**XÜLASƏ:**

Bu məqalə valyuta böhranları probleminə həsr olunub. Bu mövzu həmişə böyük problem olub. O, müxtəlif ölkələrin milli iqtisadiyyatlarına pulun daxil olması ilə başladı. Hazırda maliyyə bazarları qloballaşan mühitdə fəaliyyət göstərir. Bu fakt böhranların tezliyinin və onların real iqtisadiyyata təsirinin kəskin artmasına kömək edir. Bu isə, öz növbəsində, iqtisadçılar və maliyyəçilər arasında böhranın qarşısının alınmasına və onun nəticələrinin aradan qaldırılmasına böyük maraq yaradır.

Azərbaycan qlobal iqtisadi struktura sürətlə inteqrasiya edir və həm inkişaf etmiş, həm də zəif inkişaf etmiş ölkələrlə geniş iqtisadi əlaqələrə malikdir. Buna görə də qlobal maliyyə böhranları hər zaman bu ölkənin iqtisadiyyatına təsir edir. Azərbaycanın ümumi iqtisadiyyatına diqqət yetirsək, görərik ki, ÜDM-in artımının əsas səbəbi işsizliyin və inflyasiyanın azalması, habelə, neftin və neft emalı məhsullarının qiymətlərinin artması kimi nikbin proqnozlardır.

Qlobal böhran başa çatdıqdan sonra dünya bazarlarında neftin qiymətinin aşağı düşməsinin milli iqtisadiyyat üçün müəyyən çətinliklər yaratdığını müşahidə etmək olar. Bu məqalə qlobal maliyyə, iqtisadi və valyuta böhranının Azərbaycan iqtisadiyyatına makro və mikro səviyyədə təsirini araşdırır.

İqtisadi nəzəriyyədəki son inkişaflar böhran mexanizmini daha yaxşı müəyyənləşdirir və böhranın qarşısının alınması, habelə böhrandan sonrakı sabitləşmə üçün daha yaxşı alətlər təqdim edir. Lakin pandemiya ilə əlaqədar yaranmış iqtisadi və maliyyə böhranı alim və mütəxəssisləri bu problemin həlli üçün tamamilə yeni və qeyri-adi yollar tapmağa vadar edir.

**Açar sözlər:** *valyuta böhranları, investisiysa tələbatı, konyuktura, maliyyə bazarları, real iqtisadiyyat, böhrandan sonrakı vəziyyət.*

**SUMMARY:**

This article is devoted to the problem of currency crises. This topic has always been a big problem. It started with the inflow of money into the national economies of different countries. Currently, financial markets operate in a globalized environment. This fact contributes to a sharp increase in the frequency of crises and their impact on the real economy. This, in turn, creates great interest among economists and financiers in preventing the crisis and eliminating its consequences.

Azerbaijan rapidly associates to the world economic structure and wide economic connections with developed and underdeveloped countries. That’s why, global financial crises always affect the economy of the state, If we give attention to the common economy of Azerbaijan, we can observe that the key reason of GDP growth, reduce of the unemployment , the inflation rate’s descend and increase of the level of other optimistic economical developments is rising of oil prices and oil processing.

When the global crises are over, one can observe that fall in oil prices in the world markets create some hardships for national economy. In this work the impact of the global financial-economic, as wel as, the currency crises on Azerbaijani Economy on macro and micro levels.

Recent developments in economic theory better define the crisis mechanism and provide better tools for crisis prevention and post-crisis stabilization. However, the economic and financial crisis caused by the pandemic forces scientists and specialists to find completely new and unusual ways to solve this problem.

**Key words:** *currency crises, investment demand, conjecture, financial markets, real economy, post-crisis situatio.*

**ЛИТЕРАТУРА**

*1. Babayev Ə.P. "İqtisadi inkişafdan modernləşməyə doğru". Bakı -"Oğuz Eli", 2013. 12,5 ç.v*

*2. Bird A., Karolyi S. A., Ruchti T. G., Truong P.,More is less: publicizing information and market feedback, Review of Finance 25, 2021, p.745–775.*

*3. Əhmədov N.V. – "Dünya enerji trilemma indeksi üzrə beynəlxalq reqtinqlərdə Azərbaycanın mövqeyinin yaxşılaşdırılması istiqamətləri", AMEA İqtisadiyyat İnstitutu, Bakı 2021*

*4. Əliyev T.N. - Azərbaycan sənayesinin innovativ inkişafı. Monoqrafiya Moskva-Berlin, "Palmarium", 2016, 232 s.*

*5. Həsənov R. T. Azərbaycan iqtisadiyyatının islahatlaşdırılması və dünya təsərrüfat sisteminə inteqrasiyası problemləri: iqtisad e.d-ru al. dər. a. üçün təq. ed. dis.: 08.00.05. /R. T. Həsənov; İqtisadi İslahatlar Mərkəzi.-B., 2002.- 338*

*6. Itay Goldstein, Information in Financial Markets and Its Real Effects, Review of Finance, Volume 27, Issue 1, February 2023, Pages 1–32.*

*7. Kazımov. F.M., Qlobal iqtisadi böhranların müasir xüsusiyyətləri və onların aradan qaldırılmasında fiskal siyasət mexanizmlərinin rolu – AMEA. – 2015.Yanvar., s. 96-101.*

*8. Kərimov. İ.A. Beynəlxalq iqtisadiyyata qovuşmaq yolunun başlangıcı // Ulu Öndərin cəsarətli kursunun uğurları // Heydər Əliyev və Azərbaycanda İqtisadi İslahatlar: Nəticələr və Perspektivlər mövzusunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş Respublika elmi-praktiki konfransının Materialları – 2021. 6 may, s. 554-560.*

*9. Рустамбеков Г.Б., Регионы страны в механизме реализации национальных экономических интересов // Европейской Экономики, Издание Тернопольского национального экономического университета, – 2010. Том 9 (2), июнь, с. 221-230.*

*10. Рустамов Э.С. Глобальный кризис и антикризисная политика Центрального банка Азербайджана, журнал ДЕНЬГИ И КРЕДИТ • 1/2010*

*11. Zeynalov V.Z., Azərbaycanda investisiya siyasəti. Bakı, "Azərnəşr", 2012, 330 s.*

*12. А.Р. Гапсаламов, Э.М. Ахметшин, Мировая экономика и международные экономические отношения (Конспект лекций), Министерство образования и науки РФ ФГАОУ ВПО «Елабужский институт Казанского (Приволжского) федерального университета», Кафедра экономики и менеджмента, Казань 2014, с. 148,*

Fəlsəfə və Sosiologiya

UOT 1:37.016
DOI:10.30546/3006-0346.2023.6.78.167

# İNTERDİSİPLİNAR YANAŞMA PRİZMASINDA FƏNLƏR ARASINDA ƏLAQƏ: BİR SIRA EPİSTEMOLOJİ ÖZƏLLİKLƏR

**FƏRİD MAHMUDZADƏ**

*Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutu Bilik fəlsəfəsi üzrə fəlsəfə doktoru*

*E-mail: fmahmudzade@gmail.com*
*https://orcid.org/0009-0000-7384-2960*

## Giriş

Elm qədimdən insan fəaliyyətinin ən maraqlı sferalarından biri sayılır. Tarix boyu elmi fəaliyyətlə məşğul olanların cəmiyyətdə xüsusi yeri və rolu olmuşdur. Bəzən elmi çox yüksəkliklərə qaldırmışlar, tarixin müəyyən dönəmlərində isə elmlə məşğul olanları ciddi cəzalandırmışlar. Bütün hallarda elmə və elmi yaradanlara laqeyd münasibət olmamışdır. Hazırkı tarixi mərhələdə elm bəşəriyyət üçün daha aktual və bir o qədər də paradoksal dəyər statusundadır. Biz "hazırkı tarixi mərhələ" dedikdə konkret olaraq XX əsrin ikinci yarısından bu günə qədər olan dövrü nəzərdə tuturuq ki, bu da hələ başa çatmamışdır. Yəni bu ifadədə zaman-məkan kontinuumunda koqnitiv və sosial-mədəni özəlliyə sahib dinamika vardır.

Elmin tarixi rakursda bu cür təsəvvürü təsadüfi deyildir – o, elmdaxili təkamül məntiqi (biz elmi təkamüldə olan proses kimi qəbul edirik) ilə sosial-mədəni mühit arasında sıx qarşılıqlı əlaqədə təşəkkül edir, özünü bu vəhdətdə təsbit və təsdiq edir. Onu vurğulayaq ki, fərqli yanaşmalara əsaslanan başqa təsəvvürlər də mövcuddur və onların alternativliyini qəbul edirik.

Elm haqqında bu cür təsəvvürlərin işığında müasir mərhələdə disiplinlər (fənlər) arasında münasibətlərin bir sıra aspektlərinə nəzər salmağa çalışacağıq. Araşdırma epistemoloji çərçivədə aparılır. Burada "epistemologiya" anlayışı Qərb fəlsəfi-elmi təfəkküründə daha çox qəbul edilən "qnoseologiya" (idrak nəzəriyyəsi) ilə sinonim kimi dərk edilir. Lakin biz epistemoloji yanaşmanı "obyekt-intersubyekt-bilik" konsepti fonunda təsəvvür edirik. Yəni adətən epistemologiya obyekt-bilik münasibətləri əlaqəsində dərk edilir.

Biz bu ümumi sxem daxilində müasir fəlsəfi-elmi idrak üçün prinsipial əhəmiyyət kəsb edən intersubyektivliyi də bura daxil edirik. Bununla, düşünmürük ki, ənənəvi yanaşma sxemi pozulur, əksinə elmin hazırkı təkamül dinamikasının daha geniş aspektdə fəlsəfi və epistemoloji dərki üçün yeni imkanlar meydana gəlir. O cümlədən, həmin prizmada müasir interdisiplinar biliyin məzmununun struktur baxımından faktiki olaraq "multibilik" kimi mövcudluğu haqqında danışmaq imkanı yaranır [Əlibəyova, 2023, s. 6009-6015].

Ümumilikdə fənlərarası münasibətlərin iki aspektin qnoseoloji "kəsişmə sahəsi"ndə fəlsəfi araşdırılması daha dolğun mənzərə yaradır. Onlar koqnitiv (sırf idraki, elmdaxili) və sosial-mədəni aspektlərin qarşılıqlı əlaqəsi "zonası"dır. Bu məqalədə elmə sosial-mədəni mühitin faktorlarının təsirini ümumi halda diqqətə almaqla başlıca olaraq elmlərin münasibətlərinin koqnitiv aspekti araşdırılır. Əsas diqqət interdisiplinarlığa yönəldilir. Tədqiqat fənlərarası yanaşma çərçivəsində aparılır. Yəni müxtəlif elm sahələri arasında əlaqələrə xüsusi fənlərarası metodologiya tətbiq edilir.

Başlıca prinsiplər kimi qarşılıqlı əlaqələrin qeyri-xəttiliyi, mürəkkəbliyi və intersubyektivliyi götürülür.

Həmin yanaşmaya uyğun qeyri-xətti bifurkasion dinamika və intersubyektiv inteqrasiya metodlarından istifadə edilir.

Bu cür yanaşma müasir mərhələdə elmlərarası əlaqələrin fənlərarası metodologiya prizmasında dinamik mənzərəsini struktur-funksional aspektdə yaratmağa imkan verir.

## Müasir mərhələdə elmlərarası əlaqələr: ümumi təsnifat

Keçən əsrin ikinci yarısından dünyaya qarşılıqlı əlaqələrin geniş və dərin növləri prizmasında yanaşmaq fəlsəfi-elmi təfəkkür üçün çox aktuallaşdı. Tədqiqatçılar bunun başlıca səbəbini bəşər miqyasında real olaraq bütün sferalarda öncəki mərhələlərdən fərqli keyifyyətdə və formada proseslərin vüsət alması ilə izah edirlər. Obrazlı desək, dünya daha mürəkkəb, çoxlu sayda faktorların qarşılıqlı əlaqəsində formalaşan, qeyri-müəyyənlik və sürətli dinamika ilə xarakterizə olunan açıq sosiosistem kimi qəbu edilirdi. Bunun fonunda Roma Klubunun XX əsrin 80-ci illərində gəldiyi qənaətlərdən birinin "müxtəlif proseslərin yeni minilliyin astanasında dünya ictimaiyyətinin yeni növünün formalaşmasına apardığı"ndan ibarət

olması normal təsir bağışlayır. Burada “yeni dünya sistemində qeyri-müəyyənlik, öncədən proqnozlaşdırılmamaq, mürəkkəblik və s. faktorlar aparıcılıq təşkil edir” [Roma Klubu, 1997, s. 17 və 198].

Tədqiqatçılar buradan belə nəticə çıxarırdılar ki, vurğulanan tendensiya “qlobal təfəkkürü”ün formalaşmasına aparıb çıxarır. Buna uyğun olaraq da bir sıra filosoflar “qarşılıqlı əlaqələrin həqiqi universal fəlsəfəsi”ni yaratmağa çalışırdılar [bax: məs., İezuitov, 2006, s. 5-10].

Təbii ki, ümumi geniş miqyasda bəşər həyatında və kollektiv şüurda baş verən bu dəyişikliklər elmin özündə və onun haqqında fəlsəfi-elmi təsəvvürlərdə də yenilik etməli idi. Burada da əsas olaraq elmə müxtəlif elm sahələri arasında qarşılıqlı əlaqələrin prizmasından yanaşılması məntiqi idi. Bütövlükdə elmə və onun haqqında olan elmə (Science of Science) bu cür yanaşma üstünlük təşkil etməyə başladı. Filosoflar hesab edirlər ki, bu səbəbdən “müasir elmin inkişaf qanunauyğunluqları spesifik tendensiyalar kimi təzahür edir” ki, o, başlıca olaraq “XX əsrdə və XXI əsrin başlanğıcında baş verən elmi inqilablarla müəyyən olunur” [Lazar, 2017, s. 171].

Bu prosesdə digərləri ilə yanaşı, epistemoloji əhəmiyyəti olan üç istiqamət özünü göstərməyə başladı. Onlardan biri elmi idrakda baş verən sıçrayışlı dəyişikliklərin getdikcə daha geniş spektrdə ayrı-ayrı elm sahələrini əhatə etməsi idi. İkinci istiqamət bir-birindən nəzəri və metodoloji olaraq uzaq olan elm sahələri arasında belə əlaqələrin inkişaf etməsi idi. Üçüncü istiqamət isə bütün bunların təsiri altında elm siyasətinin elmi fəaliyyətin idarəedilməsi çərçivəsində daha da aktuallaşmasından ibarətdi.

Bu istiqamətlərin ümumi nəzəri və metodoloji çətirini elmin sırf koqnitiv və sosial-humanitar aspektlərinin qarşılıqlı əlaqəsində təkamül dinamikasının fəlsəfi refleksiyası təşkil edir. Onun daxilində müxtəlif disiplinlərin nəzəri-metodoloji münasibətlərinin araşdırılması, sosial-mədəni mühitdə baş verən yeniliklərin (əsasən yeni texnologiyaların) elmi biliklərin və nəzəriyyələrin formalaşmasına təsiri və elmi fəaliyyətin təşkilinin fəlsəfi və sosial-idarəetmə aspektlərində bir sıra kontekstlərdə araşdırılması aparıcı rol oynamağa başladı.

Bu məqamların hər biri ayrıca araşdırılmalıdır. Biz burada elmi fəaliyyətin təşkili məsələsinə (elm siyasəti prizmasında) toxunmadan XX əsrin ikinci yarısından bu yana elmlərarası əlaqələrin növlərinə sırf koqnitiv aspektdə baxmağa cəhd edəcəyik.

Tədqiqatçılar müasir mərhələdə elmlərarası əlaqələrin üç formasının mövcudluğunu vurğulayırlar. Onlar aşağıdakılardır:

İnterdisiplinar (fənlərarası) yanaşma: müxtəlif elm sahələri üçün meydana gələn ortaq tədqiqat sahəsində inteqrasiya tendensiyaları;

Multidisiplinar yanaşma: elm sahələrinin vahid kontekstdə konkret problemin tədqiqində birləşməsi;

Transdisiplinar yanaşma: bütün mövcud elm sahələri arasında vəhdətə və elmin sərhədlərindən kənarda olan sosial-mədəni məqamlara əsaslanan yanaşma [Petts, 2008, s. 595-600; Mokiy, Lukyanova, 2017, s. 10-12; Qurbanov, Zülfüqarov, 2018, s. 194; Mokiy, Lukyanova, 2021].

Müasir elmlərarası münasibətlərin fəlsəfi dərki kontekstində vurğulanan üç qarşılıqlı əlaqələr növünü birləşdirən ortaq parametr, tədiqatçıların fikrincə, elmlərin inteqrasiyası, biliklərin sintezi məsələsidir. Hər üç növ üçün bu məqam strateji elmi məqsəddir. Lakin konkret olaraq elmlərin inteqrasiyası və biliklərin sintezinin mexanizmi, məzmunu və reallaşma formasına gəldikdə interdisiplinarlıq, multidisiplinarlıq və transdisiplinarlıq bir-birindən fərqlənirlər. Əgər interdisiplinarlıqda inteqrasiya və sintez müxtəlif elm sahələri üçün ortaq olan qnoseoloji və metodoloji sahədə axtarılırsa, multidispilinarlıqda konkret problemin tədqiqi üçün vahid kontekst əsas təşkil edir və onun fonunda elm sahələri birləşir, transdisiplinarlıqda isə ayrıca disiplin və ya disiplinlər qrupunun qnoseoloji-metodoloji sərhədlərinin aşılması və bunun fonunda inteqrativ tendensiyaların axtarışı üstünlük təşkil edir.

Belə çıxır ki, elmlərarası münasibətlərin vurğulanan növləri müəyyən fəlsəfi kontekstdə, ümumiyyətlə, elmlərin interqasiyası və biliklərin sintezi strategiyaları kimi qəbul edilə bilərlər. Onlar bütövlükdə elmin qnoseoloji (idraki, bilik) və metodoloji (yanaşma özəlliyi və tədqiqat özəlliyi) aspektlərini əhatə edirlər. Bu zaman inteqrasiya prosesində aparıcı rolu hansı aspekt oynayır?

Bizcə, bu suala cavabı üç faktorun qarşılıqlı əlaqəsində axtarmaq elmilik baxımından daha konstruktiv olardı. Onlar problemin qoyuluşu (tədqiqat obyektinin substantiv və funksional özəllikləri), metodologiyanın konkret məzmunu və məqsədinin müəyyənləşməsi (qnoseoloji, epistemoloji parametrlərin müəyyən edilməsi) və biliklərin elmiliyinin təmini əsasında məzmunlaşması, yəni biliyin formalaşması və biliklərdən yeni biliklərin yaradılması prosesinin baxılan kontekstə uyğunlaşdırılmasıdır. Burada tədqiqat obyektinin substantiv və funksional vahid kimi təməl rol oynadığını görürük. Metodologiya və metodlar bu məqama görə seçilir.

Həmin bağlılıqda V.İ.Arşinov və V.Q.Budanov yazırlar ki, mürəkkəblikdə "təfəkkür özünə adekvat olan konseptual baxışa ehtiyac duyur" və bunun üçün uyğun "metodoloji müşaiyət" gərəkdir ki, "konseptual assamblyaj" yarana bilsin. "Konseptual assamblyaj" dedikdə, müəlliflər "prosessualıq, temporallıq, təşəkkül" terminlərində ontogenetik baxıla biləcək "heterogen qavrama-kommunikativ şəbəkə"nin formalaşmasını nəzərdə tuturlar. Bunun üçün kibersemiotik, sinergetik və kvantmexaniki konseptuallığın sintezi lazım gəldiyi tezisini irəli sürürlər. Və bütün bunların "temporal mürəkkəbliyin təşəkküldə olan turbulent axını" fonunda baş verdiyini iddia edirlər [Arşinov, Budanov, 2021, s. 67-77].

Göründüyü kimi, kifayət qədər mürəkkəb terminoloji və məntiqi idraki situasiyadır. O, tədqiqat obyektinin qeyri-xəttiliyi və açıqlığından qaynaqlanır. Buna problemin ontoloji aspekti deyə bilərik. Metodologiya, metodun seçilməsi də bu şərtlərlə sərhədlənir. Nəhayət, tədqiqat obyektinin struktur-funksional özəllikləri metodoloji özünəməxsusluqla vəhdətdə biliklərin alınması forması və yeni biliklərin mövcud olanlardan əmələ gəlməsi mexanizmlərini müəyyən edir. Lakin bu proses özü vurğulanan faktorların sıx qarşılıqlı əlaqələri fonunda baş verir və bu mənada onun özünü mürəkkəb koqnitiv təşəkkül prosesi kimi təsəvvür edə bilərik.

Belə çıxır ki, fəlsəfi araşdırmalara görə, müasir mərhələdə elmlərarası əlaqələrdə inteqrasiya tendensiyası üstünlük təşkil edir. Bu proses daha da intensivləşmiş, genişlənmiş və dərinləşməkdə davam edir. Onun fonunda da elmlər arasında münasibətlərin formalaşmasının məzmunu və elmi idraki strategiyası baxımından biliklərin sintezi problemi fundamental əhəmiyyət kəsb edir. Qeyd edilən bu iki məqamın işığında interdisiplinarlığın iki epistemoloji anlamına baxaq.

### İnterdisiplinarlığın 4 məna çaları: epistemoloji yanaşma

Yuxarıda da vurğulandığı kimi, elmlərarası əlaqələrdə aparıcı istiqamət ortaq tədqiqat sahəsində inteqrasiya tendensiyalarıdır. Konkret olaraq, müxtəlif disiplinlərin (fənlərin) münasibətləri onların ortaq qnoseoloji və metodoloji sahəsində araşdırmaların aparılmasını nəzərdə tutur. Bu növ əlaqələrdə disiplinlərin (fənlərin) inteqrasiyası üstünlük təşkil edir və ya tədqiqatda strateji elmi məqsəd kimi inteqrasiyaya nail olmaq çıxış edir. Müasir mərhələdə elmlərarası münasibətlərə biliklərin sintezi prizmasında fəlsəfi və epistemoloji yanaşma tədqiqatçıların fikrinə görə, interdisiplinarlığı iki qnoseoloji və metodoloji miqyasda - geniş və məhdud anlamlarda araşdırmağı aktuallaşdırır. Bu kontekstdə isə çoxlu sayda fəlsəfi-epistemoloji, metodoloji, biliklərin formalaşması, elmi idarəetmə, elmi nəticələrin tətbiqi və s. kimi fəlsəfi əhəmiyyəti yüksək olan problemlər meydana çıxır.

Məhz belə yanaşma çərçivəsində ümumi problem sahəsini biliklərin mürəkkəbliyi fonunda onların yuxarıda vurğuladığımız sintezi məsələsi təşkil edir. Çünki müxtəlif elm sahələrinin öz elmi dili (linqvistik özəlliyi) mövcuddur və ortaq dil sahəsində araşdırma aparmaq mürəkkəb və ziddiyyətli prosesdir. Və vəzifə yalnız ortaq dil tapmaqla məhdudlaşmır. Burada araşdırılan obyektin müxtəlif elmlərin qnoseoloji kəsişmə sahəsində müasir elmi kriteriyalara adekvat ola biləcək tərzdə tədqiqi önəm kəsb edir. Bu da fəlsəfə üçün, ümumiyyətlə, rasionallıq anlayışını yenidən və fərqli kontekstdə aktuallaşdırır.

Eyni zamanda, məsələnin bu cəhətinə biliklərin sintezi məsələsinin fəlsəfi-elmi qoyuluşu aspektində yanaşmaq konstruktiv sayıla bilər. Fikrimizi daha aydın ifadə etmək üçün hazırkı mərhələdə biliklərin sintezi problemi kontekstində mövcud olan vəziyyətin fəlsəfi refleksiyası üzərində dayanaq.

Bir neçə ən aktual istiqamətləri də fərqləndirmək olar. Bir çox əsərlərdə bunlar “şəxsiyyət – cəmiyyət”, “böhran – mədəniyyət”, “ünsiyyət – kommunikasiya” anlayışlarıdır. Onlar ünsiyyət prosesinin mürəkkəbliyi və çoxölçülülüyünün müxtəlif nöqteyi-nəzərlərdən keçirilməsi zamanı istifadə edilir: ünsiyyət problemi və müasir idrak nəzəriyyəsi; ünsiyyət probleminin Rusiya tarixində sivilizasiya və kulturoloji trayektoriyaların kəsişməsi nöqteyi-nəzərindən təhlili; mədəniyyət koordinatlarında ünsiyyət prosesi və “özününkü-yad” anlayışları; “mən” və “digəri” əlaqələrinin fəlsəfi refleksiya, psixoloji və kulturoloji təhlil nöqteyi-nəzərlərindən gözdən keçirilməsi. Qeyd etmək lazımdır ki, mənəvi və cismani strukturların vahidliyində insan subyektivliyinin tədqiqatı mövzusu insanın dəyərləri, tarixi baxımdan özünü anlaması və özünüdərkindən ayrılıqda mümkün deyildir.

Bu cəhətdən, klassik fəlsəfədə metodoloji əhəmiyyətə malik ünsiyyət məsələləri subyekt və obyektin idraki qarşılıqlı əlaqələri nöqteyi nəzərindən, dərketmə əlaqələrinin sosial-iqtisadi strukturlar ilə izahında nəzərdən keçirilirdi (marksizm); ruh komplekslərinin şüursuz olaraq aradan götürülməsi ilə (freydizm); texnika və texnologiyalar ilə (praqmatizm); ideologiya ilə (Frankfurt məktəbi, poststrukturalizm); bioloji, antropoloji, kosmoloji amillərlə (təkamül nəzəriyyəsi, fəlsəfi antropologiya). Müasir idrak fəlsəfəsi ünsiyyət problemini şüurun idraki, bütövlük, emosional, rasional və iradi komponentlərindən ibarət olan mürəkkəb çoxsəviyyəli proses kimi nəzərdən keçirir – ünsiyyət insanın mövcudluğunun və özünə güvəninin başlıca vasitəsi kimi (ekzistensionalizm, personalizm); dünyanın dərki və universal qavranılması kimi başa düşülmə (hermenevtika) [1,s.78].

## Əsas hissə

Bəzən konkret qrupda subyektiv kontaktın xarakteristikası səviyyəsində “ünsiyyət” və “kommu-

nikasiya" anlayışları sinonim kimi istifadə edilir. Qeyd etmək lazımdır ki, mədəniyyət fenomeni kimi kommunikasiyadan fərqli olaraq, ünsiyyət, birincisi, cəmiyyətin strukturlaşdırılması və təşkili mexanizmlərini açıb göstərir, ikincisi, fərdin sosiuma daxil olmasının üsul və formalarını müəyyən edir, üçüncüsü, insan-cəmiyyət sistemində əlaqələndirici halqa kimi çıxış edir. İnsanın özünü realizə etməsinin fəlsəfi, kulturoloji, sosioloji, psixolinqvistik problemlərinə həsr olunmuş tədqiqatlarda əsas yeri müxtəlif proseslərin kommunikativ xarakteristikası tutur. XX əsrin əvvəllərində elmi ədəbiyyatda peyda olmuş "kommunikasiya" termini istənilən obyektlərin əlaqə vasitəsini ifadə edirdi. Ona görə də, ilkin olaraq "kommunikasiya" tərifində diqqət bu prosesin iki və ya bir neçə subyektlərinin özünəməxsus şəkildə əlaqələnməsi və ya kontaktda olması üzərində cəmlənirdi. Daha sonralar termin kütləvi kommunikasiya vasitələri (məlumatın texniki vasitələrin köməyilə yayılması) ilə əlaqələndirilməyə başladı. Lakin tədricən "kommunikasiya" anlayışı sosial-mədəni əhəmiyyət qazandı, bir sıra yeni mənalar götürdü və insan fəaliyyətinin ünsiyyət kimi aspekti ilə əlaqəyə iddia edir. Şəxsiyyətlərarası münasibətlərin tənzimlənməsi və harmonizasiyası vasitəsi kimi xidmət edən kommunikasiya artıq ictimai əlaqələrin, bütövlükdə sosial həyatın ən mühüm komponenti kimi nəzərdən keçirilir.

Fəlsəfi fikir tarixində "kommunikasiya" anlayışının yenidən qiymətləndirilməsində əsas rol, bizim fikrimizcə, bir neçə parlaq fiqura, ilk növbədə, yalnız mədəniyyətə deyil, həm də fəlsəfəyə, sosiologiyaya toxunan böhranın səbəblərinin qiymətləndirilməsində kommunikativ yanaşmanı açıb göstərən Y. Habermasa məxsusdur. Kommunikativ rasionallıq anlayışı Habermasa cəmiyyətin müxtəlif xarakteristikalarının və vəziyyətlərinin təhlilinə inteqrasiya olunmuş yanaşma nəzəriyyəsini gerçəkləşdirməyə imkan verdi [9, s.44]. U.P. Yakobsonun əsərlərində linqvistika və semiotikanın konsentrik dairələrinin əlaqəsinin aydın şəkildə təsvir edildiyi original kommunikasiya modelinə rast gəlirik. Ona kommunikasiya haqqında özündə sosial antropologiya, sosiologiya və iqtisadiyyatı ehtiva edən ümumi elmin yaradılması ideyası məxsusdur [11,s.87].

Bununla belə, sosiomədəni kommunikasiyanın tipologiyası müxtəlif əsaslar üzrə təklif edilirdi: subyektlərin xarakterinə görə (şəxsiyyətlərarası, şəxsiyyət-qrup, qruplararası, mədəni və s.); formalara görə (verbal, qeyri-verbal, qarışıq); başvermə səviyyələrinə görə (məişət mədəniyyəti səviyyəsində, xüsusi sosiomədəni praktika sahələrində) [11, s. 31]. Y.M. Lotman və onun semiotika məktəbi yalnız "mədəniyyət" və "kommunikasiya" anlayışlarının məna aksentlərini müəyyən etməyə deyil, həm də onların üzvi əlaqəsini sübut etməyə də müvəffəq oldu. O, kommunikasiya nəzəriyyəsindən götürülmüş modellərin, terminlərin mədəniyyət sahəsinə köçürülməsi modelini təqdim etdi. Anlayışların çoxlu sayda şərhlərinin olması ilə bağlı, tərəfimizdən məqalədə istifadə edilən məna və terminologiya sırasının daha dəqiq ifadə edilməsi lazımdır.

Ünsiyyət və kommunikativ ünsiyyəti fərqləndirməklə, biz M.S. Kaqanın mövqeyi ilə razılaşmış oluruq. M.S. Kaqana görə, ünsiyyət mahiyyəti sadəcə olaraq məlumatın ötürülməsi faktından deyil, "ünsiyyətdə olan insanlar üçün ümumi olan və onların ümumiliyini doğuran yeni məlumatın yaradılmasından ibarət olan prosesdir, yəni ünsiyyət özündə "iştirakçıların ümumiliyini", kommunikasiya isə "iştirakçıların xüsusiləşdirilməsini" əks etdirir [4, s. 149–150]. Əlavə edək ki, ünsiyyət və kommunikasiya arasında dəqiq fərqləndirici xətt qoyan mühüm göstərici, bizim fikrimizcə, birincisi, insanlar arasında yalnız məlumat əlaqəsi deyil, həm də şəxsiyyət-ekzistensial əlaqənin olması, ikincisi isə onun yalnız ünsiyyətə xas olan və insanın məhz baza tələbatı – sosiuma və mədəniyyətə daxil olmaq tələbatını xarakterizə edən dialoq, poliloq, improvizasiya, şəxsiyyətlərarası münasibətlərin nüanslaşdırılması kimi keyfiyyətli xarakteristikalarıdır.

Yuxarıda ifadə edilən şəxsiyyətin baza tələbatının potensialı nə dərəcədə böyük və onun gerçəkləşməsi imkanlarının nə dərəcədə məhdud olması məsələsi son illərdə formalaşmış daha diqqətli yanaşma tələb edir. Qəlbin, ruhun yaşantılarının çoxcəhətliliyi, onların maddi qılaf (bədən) ilə əlaqəsi, bu əlaqənin müxtəlif dövrlərin mütəfəkkirləri tərəfindən öyrənilən ünsiyyət vasitəsilə ifadəsi və təzahürü problemi müasir tədqiqatçılar üçün elmi maraq kəsb edir. Ünsiyyətin fəlsəfi, ilahi, etik problemlərinin nəzərdən keçirildiyi konsepsiyalarda məqsəd və istiqamətlərin formalaşmasına əxlaqi-dəyər yanaşmasının prioriteti mövzusu getdikcə daha çox müzakirə edilməyə başlamışdır. Bu baxımdan, psixologiya və etikanın, din və fəlsəfənin əlaqəsinin, bu əlaqələrin insanın həyat fəaliyyətinin mühüm tərəfi olan şəxsiyyətlərarası ünsiyyət və qavrayış, digər insanlarla münasibətlə-

rin mürəkkəb sistemi prosesində və bu cür münasibətlərin mənəvi məzmununda gerçəkləşdirilməsinin nəzərdən keçirilməsində sistemli yanaşmaya müraciət qanunauyğundur [7,s.98].

İnsan cəmiyyətinin əxlaq kateqoriyalarının, müasir insanın ünsiyyət qurarkən əsaslandığı prinsiplərin optimal və eyni zamanda doğru tərifini axtarmaqda olan tədqiqatçılar öz cavab variantlarını təqdim etməyə çalışırdılar. Əgər XX əsrin 90-cı illərində insan şüurunun strukturuna optimal təsir üsullarının axtarışına istiqamətlənmiş tədqiqatlar, şəxsiyyətin dünyaya baxışını manipulyasiya etməyə imkan verən, onun daxili dünyasını dəyişmək üçün kommunikativ vasitələrin müəyyən edilməsi populyar idisə, bu gün insana hətta ali məqsədə tabe olan vasitə kimi yanaşmanın destruktiv olduğu açıq şəkildə qəbul edilir. B.S. Bratus bu yanaşmanı “qeyri-insani” adlandıraraq, daha əvvəllər öz mahiyyəti etibarilə dini-fəlsəfi və konkret-psixoloji səviyyələri yaxınlaşma və qarşılıqlı qəbuletmə səviyyəsinə endirməyən yanaşmaların nəzərdən keçirilməsini zəruri hesab edir.

Həqiqi əxlaqi fəlsəfə və din insanın ali başlanğıca, həyatın mənasının axtarışına şaquli meyilliliyini əks etdirir, psixologiya isə üfiqi müstəvini öyrənir və insanı zaman və məkanda konkret xadim kimi nəzərdən keçirir. Bununla əlaqədar olaraq, “fizioloji insan”, “reflektor insan”, “davranış insanı”, “instinktiv insan” deyil, “ruh” anlayışı ən mühüm olaraq götürülməlidir” [2,s.67–75.]. Qeyd edilən yanaşmanın vacibliyinə baxmayaraq, yenə də qeyd etmək lazımdır ki, müasir Rusiya mədəniyyətində Karneginin “necə” sözü ilə başlayan tezislərinin reanimasiyası müşahidə edilir, yalnız indi onlar digər verbal qılafda təqdim edilib və digər miqyaslara malikdirlər (KİV-in imkanlarını nəzərə alaraq). Lakin prosesin məna və adı əvvəlki kimi qalır – manipulyasiya. Bu anlayışa tam xarakteristikanı Y.L.Dosenko vermişdir. O, manipulyasiyanı məharətlə istifadə edildikdə digər insanda onun aktual olaraq mövcud istəkləri ilə üst-üstə düşməyən niyyətlərin gizli şəkildə oyadılmasına gətirib çıxaran psixoloji təsir forması kimi xarakterizə edir. Müəllifin obrazlı şəkildə müqayisəsinə əsasən, manipulyasiya insan şəxsiyyətinin istismarına, digər insanın “əlinə bağlanmağa”, onun tərəfindən “mənəvi cəhətdən idarə edilməyə” istiqamətlənmiş hərəkətdir.

Mühüm bir məqam ondan ibarətdir ki, şəxsiyyətin strukturuna təsir prosesində, birincisi, insan tərəfindən öz şəxsi təcrübəsində əldə etdiyi həyati mənaların, dəyərlərin üzərində diqqətin cəmlənməsi baş verir, ikincisi isə insanda sanki o öz davranışını müstəqil idarə edirmiş kimi təəssürat yaranır [3,s.76]. İ.A. İlyin (Məndən gedən ünsiyyətin fərdiləşməsi səviyyəsi), P. Florenski (Mən və Digərinin eyniliyi problemi), S.N. Bulqakov (Mənin apofatikliyi və Digərinin şübhəsizliyi), A.F. Losev (bədii üslub problemi), S.L.Frank (mən-sən münasibətinin formaları özünüdərk və sənin dərki fenomeni kimi), L.P.Karsavinin (Simfonik şəxsiyyətlərin məna aləmində “Mən və Digəri”) ünsiyyət nəzəriyyəsinin konseptual müddəalarında ünsiyyət və kommunikasiya problemlərinin tədqiqatının fəlsəfi ənənəsinin ümumi istiqaməti bizim üçün maraqlıdır. Qeyd edilən konsepsiyaların əxlaqi-fəlsəfi istiqaməti bilavasitə şəxsiyyətlərarası ünsiyyət problemi ilə bağlıdır.

Onları tezis kimi ümumiləşdirməyə və fikrimizcə, mühüm olan bir neçə xülasə formasında təqdim etməyə çalışaq:

1. Fəlsəfi konsepsiyaların əsas müddəaları “mən”in “sən” olmadan təsəvvüredilməz olduğu xristian ənənələri məcrasında formalaşdırılmışdır. Xristian şüurunda sevgi universal bir hiss kimi nəzərdən keçirilir, hər bir insan digərini sevərkən sanki onda əriyərək ona qarışır və bununla da, Mən və Digərinin əlaqəsini mühüm dərəcədə gücləndirir. Rus filosofları öz əsərlərində “Rəbbini bütün qəlbinlə sev ...”; Yanındakıları bütün dərrakənlə sev” məşhur əmrinin əsasında xristian ənənəsində formalaşan mən və sənin qarşılıqlı əlaqəsi haqqında təsəvvürləri inkişaf etdirirlər.

2. Fəlsəfi konsepsiyalarda dualizm ünsiyyət prosesinin əxlaqi əsası qismində müəyyən edilir. Bu ənənənin məcrasında mən sən olmadan təsəvvüredilməzdir, müvafiq olaraq – mən mühüm dərəcədə digərləri ilə şərtlənmişdir, lakin bu şərtlənmə S.L.Frank tərəfindən obrazlı şəkildə təsvir edildiyi kimi, kilsə əxlaqi kollektivizmində kütlə psixologiyasının üstünlük təşkil edəcəyi dərəcədə deyildir. S.L.Frankın şərhində biz mənlərin çoxluğunun xarici vəhdəti deyil, mənin ən dərin kökü və daxili daşıyıcısıdır. Frankın dünyəvi ünsiyyətə xarici və daxili aləmin dualistliyi kimi verdiyi tərifə əsasən, mən və sən arasındakı istənilən münasibət, - hansı ki, bundan kənarda insan həyatını, ümumiyyətlə, təsəvvür etmək mümkün deyil, - “dualizm” anlayışından törəmişdir [8, s. 159]. “Dualistliyi” xristianlığı sevgi dini kimi dərk etməyə imkan verən əxlaqi əsas kimi götürsək, onda rus fəlsəfəsində istənilən insan münasibətləri-

nin, o cümlədən ünsiyyətin qurulmasının əsası sevgi olmalıdır ki, bunun da əsasında müxtəlif hərəkətlər, hətta şər ilə mübarizə həyata keçirilməlidir.

3. Ünsiyyət prosesində insan öz mənəvi-ruhi dünyasının məzmunu ilə həmsöhbətinə təsir etmək bacarığına malik olduğu üçün, əksər rus filosofları hesab edirdilər ki, şəxsiyyət ünsiyyət prosesinin necə həyata keçirilməsinə görə məsuliyyət daşımalıdır. Bu prinsipin mənası İ.A. İlyinin fikirlərində aydın şəkildə əks olunmuşdur: "Mən nəyəmsə, digər qəlblərdə da onu şüurlu və şüursuz, məqsədli və məqsədsiz şəkildə artırıb çoxaldıram. İnsana "olmaq" və "əkməmək" ixtiyarı verilməmişdir, çünki o artıq öz mövcudluğu ilə "əkir" [3, s. 47]. Bu fikrin əsasında elmin insanı hərtərəfli öyrənən mühüm vəzifəsi formalaşır: insanı səthi, xoş olmayan ünsiyyətdən müdafiə edən mexanizmlərin daha dərindən əsaslandırılması.

4. Ünsiyyətin daxili və xarici ifadəliliyi aşağıdakı əlaqənin gerçəkləşməsində cəmlənmişdir: mənin biri ondan ibarətdir ki, mən "özümdə nəyi əks etdirirəm", digəri mən isə ondan ibarətdir ki, mən digərlərinin qarşısında nəyi "aşkar edirəm", həmçinin "olmaq" və "görünmək" vəziyyətlərindən ibarətdir. İ.A. İlyin bu prosesi "ruhun cismani şifrəsi" adlandırır, hansı ki, şüursuz formada təzahür edir və insanın jestlərində, baxışında və digər xarici təzahürlərində ifadə olunur. Bu vəziyyəti L.P. Karsavin daha aydın xarakterizə edir: o, şəxsiyyəti ünsiyyət prosesində hiss etmək və onu birdən, qəfildən, dərhal başa düşmək qabiliyyətini təsvir edir. Onun fikirlərində bu digər ad alır – "şəxsiyyətin xarakter cəhətdən aşkar olunması", hansına ki, tərif verilməsi və sözlə ifadə edilməsi çətindir. Onun fikrinə görə, məhz bu "aşkar edilmələrin" (baş hərəkəti, hərəkətlər, jestlər, sözlər) məcmusu diqqəti qavrayışın xüsusi səviyyəsi üzərində cəmləyir və insanın özünəməxsus ruhunun, onun şəxsiyyətinin gözlənilmədən və qəfildən dərk edilməsinə imkan verir [5, s.90]. Daxil və xarici ifadə olunmanın dili də həmçinin M.M. Baxtinin mədəniyyət fəlsəfəsində ekistensial dialoq modelində təhlil ediləcəkdir. M.M. Baxtin "öz zahiri görünüşünün təəssüratı" prosesini Mən və Digəri kateqoriyalarında və insanın daxili və xarici həyatının təriflərində təsvir etmişdir.

5. İnsanın mədəniyyətdə olmasının zəruri şərti öz "Məni" üzərində həqiqi "Mən" və saxta "Məni" müəyyən etməyə imkan verən mənəvi iş tələbatının formalaşmasıdır. Mitropolit Antoniy Surojskinin sözlərinə görə, bu məsələ xristian üçün xüsusilə vacibdir: axı şəxsiyyətlərdən hansının Allah ilə görüş üçün çıxış edəcəyinin həll edilməsi lazımdır, çünki biz özümüz olmağa o dərəcədə adət etmişik ki, şəxsiyyətlərdən hansının həqiqi mən olduğunu səmimi olaraq bilmirik. Ona görə, insan nə qədər ki, sağdır, öz daxili dünyasını qaydaya salmalıdır, yəni həyati məzmunların xaotik-təsadüfi axınına müdaxilə etməli, əşyaların ümumi mənsubluğunu təhlili etməli, dünyada öz ruhunun yerini müəyyən etməli, özünü axtarmalı, özünü və digərini hər kəsin mənəvi muxtariyyətinin etirafı əsasında başa düşməyə çalışmalıdır.

Beləliklə, ünsiyyət problemi şəxsiyyət və mədəniyyətin vəhdəti kontekstində nəzərdən keçirilir. Burada şəxsiyyət və mədəniyyət bütöv vahid kimi çıxış edir, mədəniyyət dialoqda və şəxsiyyətin varlığında gerçəkləşir, şəxsiyyət isə mədəniyyətin həyatında gerçəkləşir. Rus filosoflarının ideyaları, əsas etibarilə, formalaşmaqda olan müasir elmin – insanın mədəniyyətdə fərdi mövcudluğunun xüsusiyyətlərini xarakterizə etməyə imkan verən "şəxsiyyətin mədəni modusu" anlayışını aktuallaşdıran mədəniyyət psixologiyasının qarşısında duran problemlərin həllinə kömək edir. İnsanın mənəvi dünyasının ünsiyyət problemi kontekstində öyrənilməsi, əsas etibarilə, rus dini fəlsəfəsinin ideyalarının (mədəniyyət və şəxsiyyətin daxili dünyasının təsiri mexanizmi) aktuallığını təsdiq edir və şəxsiyyətin mənəvi dünyasının böhranının tədqiqatında psixoloji və kulturoloji yanaşmaların sintezi üçün imkanlar açır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Абишева, А.К. Проблема «Я» в философии и психологии // Философские науки. 2002. № 6. с. 90–99.*

*2. Воронкова, Л.П. Культура как предмет философского системного анализа // Наука о культуре: итоги и перспективы. Вып. 1. М., 2000. С. 18.*

*3. Ильин, И.А. Собр. соч.: Сост., вступ. ст. и ком. Ю.Т. Лисицы. М., 1993, 189 с.*

*4. Каган, М.С. Мир общения: проблемы межсубъектных отношений. М., 1988, 278 с.*

*5. Карсавин, Л.П. Философия истории. СПб., 1993, 290 с.*

*6. Лекторский, В.А. Эпистемология классическая и неклассическая. М., 2001. с. 12–19*

*7. Лучицкая, С.И. Образ Другого: опыт типологии // Вестн. российского гуманитарного научного фонда. 2000. № 1. С. 72–80.*

*8. Финько, М.В. Проблема межличностного общения и духовный кризис: культурологический анализ) известия вузов. Северо-Кавказский регион. общественные науки. № 3, 2005 г, с.130-142*

*9. Хабермас, Ю. Моральное сознание и коммуникативное действие. СПб., 2000, 290 с.*

*10. Челышева, Е.П.. Образ России: русская культура в мировом контексте / Под ред. М., 1999. с. 16–20;*

*11. Якобсон, Р. Язык в отношении с другими средствами коммуникации // Избранные работы. М., 1985, 390 с.*

**XÜLASƏ:**

Şəxsiyyətlərarası ünsiyyətin öz tarixi vardır. Müxtəlif dövrlərin bir çox mütəfəkkirləri bütövlükdə mühüm ünsiyyət problemini müəyyən edərək, onun insan həyatı, cəmiyyət, mədəniyyət üçün dəyərini və əhəmiyyətini qeyd etmişlər. Həqiqətən də, tarixi perspektivdə ünsiyyət keçmiş və indi ilə yanaşı, şüurun xüsusiyyətləri və insan cəmiyyətinin fəaliyyət qanunları, həmçinin mədəni ənənələrin spesifikası ilə gələcək də qazanır. Məqalədə kommunikasiya və müasir ruhun böhranının ümumi məsələləri araşdırılır, ünsiyyət problemi şəxsiyyət və mədəniyyətin vəhdəti kontekstində nəzərdən keçirilir.

**Açar sözlər:** *ünsiyyət, kommunikasiya, ruh, böhran, şüur.*

**Karimova Parvin Aydın**
***Khazar University, English Language and Literature Department teacher***
***pkerimova@khazar.org***

**Communication and the crisis of the modern spirit**

**SUMMARY:**

Interpersonal communication has its own history. Many thinkers of different eras identified the important problem of communication as a whole and noted its value and importance for human life, society, and culture. Indeed, in a historical perspective, communication acquires the past and the present as well as the future with the characteristics of consciousness and the laws of activity of human society, as well as with the specifics of cultural traditions. The article examines the general issues of communication and the crisis of the modern soul, the problem of communication is considered in the context of the unity of personality and culture.

**Key words:** *communication, communication, spirit, crisis, consciousness.*

**Каримова Парвина Айдын**
***Преподаватель кафедры английского языка и литературы Университета Хазар***
***pkerimova@khazar.org***

**Коммуникация и кризис современного духа**

**РЕЗЮМЕ:**

Межличностное общение имеет свою историю. Многие мыслители разных эпох выделяли важную проблему общения в целом и отмечали ее ценность и значение для жизни человека, общества и культуры. Действительно, в исторической перспективе общение обретает прошлое и настоящее, а также будущее с особенностями сознания и законами деятельности человеческого общества, а также со спецификой культурных традиций. В статье рассматриваются общие вопросы общения и кризис современной души, проблема общения рассматривается в контексте единства личности и культуры.

**Ключевые слова:** *общение, общение, дух, кризис, сознание.*

UOT 101.1:316
DOI:10.30546/3006-0346.2023.6.78.196

# POSTMÜHARİBƏ DÖVRÜNDƏ XORVATİYA MODELİNİN MODERNLƏŞMƏ PROSESİNƏ TƏSİRLƏRİ

**ZÜMRÜD HÜSEYNOVA**
*Azərbaycan Milli Elmlər Akademiyası*
*Fəlsəfə və Sosiologiya İnstitutu, doktorant*

*E-mail: zumrud.huseynova2023@gmail.com*

## Giriş

Modernləşmə cəmiyyətə aid olan istənilən sosietal sistemin strukturu, fəaliyyəti kimi işləkliliyini davam etdirən istiqamətlərdə köhnə olanı yeniləmək və ya onun müasir şəraitdə işləməsini təmin etmək prosesidir. Modernləşmə prosesi dünya müharibələrindən sonra dünyanın hər bir nöqtəsində başlandı. Fərqlilik bu prosesin inkişaf dinamikası və əhatə dairəsində idi. Bu istiqamətdə Avropa ölkələri fərqlənir. Çünki, Avropa ölkələrinin çoxusu, xüsusilə, Qərbi Avropa ölkələri postmüharibə dövründə ölkələr arasında müttəfiqlik yaratmaq ideyasını irəli sürdülər. Əslinə qaldıqda təməldə Amerika Birləşmiş Ştatları quruluşunda Avropa Birləşmiş Ştatlarının yaradılması dururdu. Bu, bütünlükdə Avropa ölkələrinin cəmiyyətin bütün istiqamətlərində vahid birliyini yaratmalı idi. Avropa İttifaqı bu birliyi qoruyub saxlamaqdadır.

İstər regional, istərsə də dünya üzrə yeniliklər çoxluqda Avropa ölkələrinə məxsusdur. Avropa ölkələrində idarəçilikdə texnologiyadan istifadə göstəricisi yüksəkdir. Burada sənayeləşmənin inkişafı, artan urbanizasiya, artan gəlir, əhalinin savadlılıq səviyyəsi, vətəndaşların siyasi iştirakının təminatı və sosial hərəkətlilik yüksək səviyyədədir. Bu amillər həm də Avropada modernləşmənin səviyyəsinə şamil edilməkdədir.

## Avropa ölkələrində modernləşmə prosesinin səciyyəvi xüsusiyyətləri

Avropa modernizmi bəşər tarixinə diqqətəlayiq fəlsəfi, sosioloji, ideoloji, texnoloji, siyasi inkişaf səviyyəsini təqdim edir. Bu inkişaf dəyişikliklər zəminində baş verir. Avropada modernləşmə prosesini tədqiq edərkən Qərbi Avropa ölkələrinə diqqət yetirməliyik. Qərbi Avropa ölkələrinin dünya ölkələri üzərində siyası, intellektual təsiri danılmaz bir faktdır. Bu ölkələrdə modernləşmə-müasirləşmə, avropalaşma kimi sözlərlə birgə istifadə olunur. Çünki, modernləşən ölkə Avropa ölkələrindəki modernləşmə prosesinin səciyyəvi xüsusiyyətlərindən yararlanır. Yəni o həm modernləşir, həm də avropalaşır, yəni regional xüsusiyyətlər kəsb edir.

Tarixi dövrə diqqət yetirsək, 16-cı əsrdən etibarən modernləşmə Qərbi Avropada daha sürətlə özünü göstərməyə başladı. Qərbi Avropadakı modernləşmə prosesi bir neçə mərhələdə həyata keçmişdir. Bunlara daxildir:

“- Manufaktura və ya erkən sənaye dövründə modernləşmə (XVI əsr və XVII əsrin ortaları);

- Sənayenin inkişafı dövründə modernləşmə (XVII əsrin sonu və XIX əsr);

- Erkən sənayeləşmə dövründən sonrakı modernləşmə, ictimai cəmiyyətin yaranması (XX əsrin birinci yarısı);

- İri sənayeləşmədən sonrakı dövrdə modernləşmə (XX əsrin ortalarından bu günədək)” [9].

Yuxarıda qeyd olunan dövrlər üzrə qruplaşdırsaq modernləşmənin səciyyəvi xüsusiyyətlərinə aiddir:

- ***Urbanizasiya*** – Danılmaz faktdır ki, nəinki Avropa ölkələrində, demək olar ki, bütün inkişaf etmiş ölkələrdə urbanizasiya siyasəti sürətlə həyata keçirilməkdədir. “Müasir urbanizasiya prosesinin 3 əsas xüsusiyyəti vardır:

1) şəhər əhalisinin artım sürətinin yüksək olması;

2) əhalinin və təsərrüfatın, əsasən, böyük şəhərlərdə cəmləşməsi;

3) şəhərlərin genişlənərək aqlomerasiyalara (meqapolis) və meqalopolislərə çevrilməsi” [4].

Urbanizasiya prosesi bir müddət müsbət qarşılansa da əhaliyə iqtisadi, sosial, psixoloji problemlər yaşatmaqdadır.

### *Sənaye inqilabı*

Avropada başlayan, sonradan bütün dünyaya yayılan bu inqilab elmi-texniki tərəqqinin yüksək nailiyyətləri, nəticələri ilə sonlandı. Modernləşmə müasirləşmə və yeniləşməni vəhdətdə tutduğuna görə fikrimcə, modernləşmə prosesinin sürətli inkişafında sənayə inqilabının rolu əhəmiyyətlidir. İfrat zənginləşmənin qarşısı alınaraq orta təbəqə bərpa edildi. Elm-texnologiyanın sürətli inkişafı IV sənaye inqilabına zəmin yaratdı. Bu inqilab digər üç inqilab kimi dağıdıcı deyil, bərpaedici, inkişafetdiriciliyi ilə seçilir. Bu inqilabda əsas cəhət həyatımızın virtuallaşması, rəqəmsallaşdırılmasıdır.

***Dünyəvi həyat*** – hazırki müasir dünyamızda dünyəvi həyat təhlükə törətmir. Çünki, dünyəvi həyatda utopik fikirlər, yanaşmalar, paradiqmalar olmur. Qeyri-dünyəvi həyat tərzində isə bu nüanslar mövcuddur. Birmənalı olaraq dünyəvi həyata qarşı utopik fikirlər, yanaşmalar, paradiqmaların olması modernləşmə prosesinə ziddir və bu prosesi ləngidir.

***Elm*** – Avropada modernləşmənin intellektual təsirinin nəticəsində elm və texnologiya inkişaf etmişdir. Dövrün tələblərinə uyğun olaraq virtuallaşan həyatda süni intellektin təsiri elmin inkişafına, elmi ixtiralara siraət etmişdir. Lakin elmdə ifrat yenilik və inkişaf bizi real, dünyəvi həyatdan uzaqlaşdırmaq təhdidi ilə üz-üzə qoya bilər.

***Milli dövlət*** – bildiyimiz kimi "Milli dövlət" ideyası ilk dəfə Avropada yaranmışdır. Milli dövlətçiliyin yaranması sinfi mübarizənin, qarşıdurmanın və münaqişələrin qarşısını kifayət qədər aldı. Hazırda dövlət quruculuğunda da modernləşmə kifayət qədər hiss olunmaqdadır.

***Bürokratiya*** – milli dövlətçilik ideyasını rəhbər tutan hakim təbəqənin cəmiyyətin təşkili və idarəsində hakimiyyət orqanlarının fəaliyyətinə əsaslanan idarəetmə formasıdır. Bürokratiya həm pozitiv, həm də neqativ mənalandırılmaya sahibdir. Belə ki, pozitiv mənada hakim təbəqədə bürokratların dövlətyönümlü fəaliyyəti nəticəsində dövlət idarəçiliyinə müsbət təsiri xarakterizə olunur. Lakin onlar səlahiyyətlərindən alət kimi istifadə edərlərsə, bu zaman bürokratik idarəçilik neqativ mənada hakim təbəqənin səmərəsizliyi ilə nəticələnəcəkdir.

**Postmüharibə dövründə uğurla sınaqdan keçən Xorvatiyanın reinteqrasiya modeli**

Bugünkü Xorvatiya 14 əsrlik tarixi dövlətçilik ənənələrinə malikdir. Bu dövr ərzində dəfələrlə münaqişəli, müharibəli dövr yaşamışdır. Lakin xorvatiyalılar mübarizədən heç bir zaman geri çəkilmədilər və bugünkü Xorvatiyanı formalaşdırdılar. Dəqiq izahat üçün qısa xronikaya nəzər salaq:

Belə ki, VII əsrdə Balkan ərazisində məskunlaşmış Xorvat xalqı 1091-ci ildə ərazisinin ekspansiyası siyasətinin kuliminasiyasına çatdı. Son Xorvatiya kralının ölümündən sonra Xorvatiya krallığı macarlar tərəfindən işğal edildi. Ardıcıl məğlubiyyətlərdən sonra xorvatlar Habsburqların hakimiyyəti altına keçdilər. 16-cı əsrdə Xorvatiyanın böyük bir hissəsi Osmanlıların əlinə keçdi. 17-ci əsrin sonuna qədər davam etmiş Müqəddəs Müttəfiqlik müharibələrində Osmanlı İmperiyası məğlub oldu.19-cu əsrdə Xorvatiya ərazisinin çox hissəsinin Avstriya-Macarıstan İmperiyasının bir hissəsinə keçməsi hadisəsi Balkan ərazisində yaşayan serblər, xorvatlar, slovenlər və bosniyalıları ciddi narahat edirdi. Buna görə də onların bir bayraq altında toplaşmaq istəyi günü-gündən güclənirdi. Yuqoslaviya hərəkatı xorvatlar arasında gücləndi. Bu hərəkatın nəticəsində Yuqoslaviya Krallığı yarandı. Bu krallıq I Dünya Müharibəsindən sonra Yuqoslaviya İttifaqı Respublikası kimi formalaşaraq 2006-cı ilə qədər mövcud olmuşdur.

Postmüharibə dövrünü keçmiş ölkələr dünyada baş verən dəyişiklikləri, tendensiyaları tətbiq edə bilmək, dünya ilə ayaqlaşa bilmək üçün alternativ formul və ya model yaradaraq öz ölkələrinə tətbiq edirlər. Buna nümunə kimi Aland adaları modeli, Xorvatiya modeli, Slovakiyanın macar azlığı, Fələstin formulunu qeyd etmək olar. Hər bir model özünəməxsusluğu ilə seçilir. Bunlardan Xorvatiya modelinə diqqət yetirək. Bu model Xorvatiyanın reinteqrasiya modelidir. Postmüharibə dövründə Xorvatiyanın iqtisadi və sosial keçid yaşadığını nəzərə alaraq bu model müharibədən sonrakı Xorvatiyanı yenidən dirçəldib inkişaf etdirmək məqsədi daşıyır. Reinteqrasiya prosesi ölkənin bütün sosietal sisteminə aid edilmişdir. Bunlara diqqət yetirək.

İlk növbədə Xorvatiyanın Müstəqillik Müharibəsinin nəticəsi ölkədə əhalinin azalmasıdır. Bu zaman köçkün və ya miqrasiyaya məruz qalan insanların yurduna qaytarılması prosesi ön plana çəkilir.

Təbii ki, hər bir müharibə yaşamış ölkədə olduğu kimi Xorvatiyada da müharibə iqtisadiyyata ciddi zərər verdi. Xorvatiyanın iqtisadiyyatı əkinçilik və sənayedən asılıdır. Paytaxt şəhəri olan Zaqreb həm də sənaye şəhəridir. Postmüharibə dövründə sənaye sürətlə inkişaf etməkdədir. Turizm, kimya sənayesi, gəmi nəqliyyatı, neft emalı əsas gəlir mənbələridirlər. "Sənaye sektorunda gəmiqayırma, qida emalı, əczaçılıq, informasiya texnologiyaları, biokimya və ağac emalı sənayesi üstünlük təşkil edir" [5]. Özəl sektorun investisiya yatırımı ölkə iqtisadiyyatının canlanmasına səbəb olur. "Xorvatiya Adriatik dənizində yerləşən bir ölkə olduğundan, limanları böyük iqtisadi və ticarət əhəmiyyətinə malikdir. Xorvatiya limanları dəniz ticarəti və turizminin mühüm hissəsi kimi ölkə iqtisadiyyatına töhfə verir. Riyeka limanı Xorvatiyanın ən böyük yük limanıdır. Kvarner körfəzində yerləşən Riyeka limanı dəniz və quru yollarının kəsişdiyi strateji mövqedədir. Neft, konteyner, ümu-

mi yük və sərnişin daşımaları kimi müxtəlif sahələrdə fəaliyyət göstərən Rijeka Limanı müasir imkanları və liman xidmətləri ilə beynəlxalq standartlara uyğun bir limandır" [5]. Xorvatiyanın xarici siyasətində əsas məqsəd ölkə iqtisadiyyatının inkişafı naminə digər ölkələrlə beynəlxalq əlaqə və münasibətlərin yaxşılaşdırılması və genişləndirilməsidir. Xorvatiyanın Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Miqrasiya Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Dünya Bankı, Ümumdünya Səhiyyə Təşkilatı, Keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalı, BMT-in İnkişaf Proqramı və UNICEF kimi beynəlxalq təşkilatlarla əlaqələri mövcuddur. "1 yanvar 2023-cü ildə Xorvatiya eyni vaxtda həm Şengen zonasına, həm də Avrozonaya qoşuldu" [5]. Xorvatiyanın xarici siyasətə yönəlmiş reinteqrasiya modelinin tətbiqində Xorvatiyanın Bosniya-Hersoqovina, Monteneqro, Serbiya və Sloveniya ilə həll olunmamış sərhəd problemlərinin olması kimi ciddi maneələri də vardır.

Coğrafi mövqeyinə görə Xorvatiya dörd fərqli mədəniyyət sahəsinin - Qərb və Şərq mədəniyyətinin təsirlərini, Mərkəzi Avropa və Aralıq dənizi mədəniyyətinin qarışımını təmsil edir. Bu, ölkənin inteqrasiya prosesinə müsbət təsir göstərir.

Ölkənin turizm sənayesindən danışsaq, müharibə nəticəsində Xorvatiyanın böyük zərərlə üzləşdiyini görərik. Halbuki dağ turizmi, dəniz turizmi, kənd turizmi əhəmiyyətli gəlir mənbəyidir. Çirklənməmiş təbiətə sahib olan Xorvatiyada turizm siyasəti iqtisadiyyatın, xüsusilə, postmüharibə dövründəki inkişaf dinamikasına təkan verdi. Çünki, Xorvatiyanın gəlirlərinin beşdə birini turizm təşkil edir və xarici ticarət borcunun ödənilməsinə yardımçı olur.

Ümumiyyətlə, Xorvatiyanın reinteqrasiya modeli uğurlu model hesab olunur. Buna görə də postmüharibə dövrünü yaşayan ölkələr bu modelin tətbiqindən yararlanaraq öz ölkələrinin inkişafına çalışırlar. Bu ölkələrdən biri də Azərbaycan Respublikasıdır.

**Postmüharibə şəraitində Azərbaycanın Xorvatiya ilə oxşarlığı və fərqliliyi**

Bütün dünya Azərbaycan Respublikasının 44 gün ərzində mükəmməl taktika və fəaliyyətlə müharibədəki qələbəsinə şahid oldu. Tarixə nəzər yetirsək, ölkəmiz 19-cu əsrdə ermənilərin inteqrasiya prosesini necə həyata keçirdiyini görərik. Milli Məclisin deputatı Bəhruz Məhərrəmov bu prosesi çox aydın və ətraflı izah etmişdir: "Qarabağ erməniləri regiona 1804-1828-ci illər arası köçürülərkən Azərbaycan cəmiyyətinin xoş niyyəti və qonaqpərvərliyi nəticəsində bu inteqrasiya heç bir əlavə tədbirlərə ehtiyac duyulmadan baş tutub. Ermənilər İran, Osmanlı və Yaxın Şərqdən Azərbaycana köçürüldükdən sonra 150 ildən artıq bir dövrdə bölgədə heç bir ayrı-seçkiliyə məruz qalmadan yaşayıblar" [8]. Xalqımızın bu humanistliyi sonda ermənilərin mənfur siyasəti ilə üzləşdi. Hər nə qədər itkilər verilsə də, sonda dünya qarşısında zəfərimizi elan etdik. Postmüharibə dövrünü yaşayan ölkəmiz demilitarizasiya, təhlükəsizlik, mülkiyyət hüquqlarının bərpası, sosial-iqtisadi, humanitar məsələlərinin həlli, azad olunmuş ərazilərdə dövlət sisteminin bərpası, yerli və erməni əhalisi arasında barışıq naminə uyğun modeldən istifadə etmək niyyətindədir. Yuxarıda sadaladığım amillərə uyğun hesab edilən Xorvatiyanın reinteqrasiya modelidir. Bu modelin tətbiq edilməsi üçün artıq "xüsusi İşçi qrupu" da yaradılmışdır. Modelin təhlili zamanı bir neçə oxşar və fərqli cəhətlər fərqinə varıldı.

**1) Oxşar cəhətlər**

Öncə qeyd edim ki, bu ilin sentyabr ayında antiterror əməliyyatı nəticəsinin yekunu kimi erməni icması ilə yerli əhalinin reinteqrasiyasını təmin etmək üçün qısa müddət ərzində vahid bir proqram hazırlandı. Bu mərhələdə Azərbaycan hökuməti postmüharibə dövrünü keçmiş ölkələri təhlil edirdi. Bu məqamda bu çətin və gərgin prosesi uğurla keçmiş və ya keçməkdə olan ölkələrin təcrübələrindən yararlanmaq niyyətində olmuşdur. Sınaqdan çıxmış bu fəaliyyət model kimi formalaşmışdır. Postmüharibə dövrünü keçən ölkələrdə iqtisadi və ya siyasi model aktual olur. Lakin Xorvatiyanın reinteqrasiya modeli uğurlu seçim oldu. Belə ki, "1990-cı illərdəki Xorvatiya İstiqlal müharibəsi kontekstində Zaqreb Hökuməti, Xorvatiyanın serblərin nəzarətində olan bölgələri - Serb Krayna Respublikası üzərində nəzarəti hərtərəfli bir yanaşma ilə bərpa etməyə çalışdı. Bu model siyasi, hüquqi və təhlükəsizlik tədbirləri, həmçinin infrastrukturun bərpası və zərər çəkmiş ərazilərdə iqtisadi inkişafın təşviqi səyləri daxil olmaqla bir neçə əsas komponentin birləşməsindən ibarətdir. Xorvatiya hökuməti zərər çəkmiş ərazilərdə mərkəzi hökumətin nəzarəti altında bir idarəetmə sistemi yaratmağa hədəfləyirdi. Bu model barışığı təşviq, köçkünlərin geri qaytarılmasını təmin etmək və mərkəzi hökumətin nəzarəti altında işləyən bir idarəetmə sistemi yaratmaq məqsədi daşıyırdı. Bu baxımdan Xorvat reinteqrasiya modeli in-

frastrukturun bərpasının, iqtisadi inkişafın təşviqinin və zərər çəkmiş ərazilərdə sosial-iqtisadi disbalansın aradan qaldırılmasının vacibliyini vurğulayır. Buraya nəqliyyat şəbəkələrinə, kommunal xidmətlərə, səhiyyəyə, təhsilə və iş təşəbbüslərinə investisiyalar daxildir. Məqsəd yaşayış şəraitini yaxşılaşdırmaq və geri dönən əhaliyə imkanlar yaratmaqla müxtəlif icmalar arasında iqtisadi inteqrasiyanı və əməkdaşlığı təşviq etməkdir. Bakının maraqlarını təmin edə biləcək bu modelin vacib elementlərindən biri siyasi və ya ərazi əvəzinə mədəni muxtariyyətdir" [6].

Müqayisə etdikdə hər iki ölkənin bu modelin tətbiqində yer alan oxşar cəhətlərə hər iki ölkənin müharibəli vəziyyətdə yaşaması, çoxsaylı əhalisinin köçkün həyatı yaşaması, ölkə iqtisadiyyatına ciddi zərərin olması, ölkənin yenidən bərpası üçün beynəlxalq təşkilatlarla, digər dünya dövlətləri ilə əlaqə və münasibətlər yaradılması aid edilə bilər.

**1) Fərqli cəhətlər**

Ölkələr arasında fərqliliklər isə cədvəl üzərində hazırlanmışdır.

| |
|---|
| **Obyekt:** Serb separatçıları – Erməni seperatçıları |
| **Tarix:** 1995- ci il - 2023-cü il |
| **Məkan:** Xorvatiya – Azərbaycan |
| **Səbəb:** Xorvatiya müharibəsi – sistematik atəşkəsin pozulması |
| **Fəaliyyət:** Etnik təmizləmə - Anti-terror əməliyyatı |
| **Dəstək ölkə:** ABŞ –Türkiyə |
| **Demilitarizasiya zonası:** xorvat polisi, BMT əsgəri – Azərbaycan polisi, sülhməramlı qüvvələr |
| **Nəticə:** "Erdut" sazişi – "----" |

## Nəticə

Azərbaycan Respublikası postmüharibə dövrünü yaşamasına baxmayaraq qısa müddət ərzində yenidən bərpa işlərində nailiyyətlər əldə etmişdir. Bu istiqamətdə Xorvatiya modelinin seçilməsi də uğurlu seçimdir. 2030-cu ilə qədər yaradılmış milli prioritetlərin bu model üzrə tətbiq edilməsi reinteqrasiya prosesinin tərkib elementi kimi sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həllində mühüm rol oynayacaqdır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Bakının Qarabağda reinteqrasiya prosesində Xorvat modeli. https://olke.az/siyaset/345367/baki-nin-qarabada-reinteqrasiya-prosesinde-xorvat-modeli-detallar/test 23.09.2023 16:41*

*2. "Bu etnik təmizləmə deyil". Bakıdakı ekspertlər antiterror əməliyyatının nəticələri haqda https://jam-news.net/az/bu-etnik-t%C9%99mizl%C9%99m%C9%99-deyil-bakidaki-ekspertl%C9%99r-antiterror-%C9%99m%C9%99liyyatinin-n%C9%99tic%C9%99l%C9%99ri-haqda/ 21.09.2023*

*3. Country Profile: Croatia https://ec.europa.eu/invest-in research/pdf/download_en/psi_countryprofile_croatia.pdf*

*4. Dünyada yaşayış məskənləri-URBANİZASİYA. https://osmanemin.wordpress.com/2021/05/26/dunyada-yasayis-m%C9%99sk%C9%99nl%C9%99ri-urbanizasiya/ May 26 2021*

*5. Hırvatistan https://tr.wikipedia.org/wiki/H%C4%B1rvatistan*

*6. Qarabağın reinteqrasiyası üçün modellər və onların müzakirəsi https://top-center.org/az/tehlil/3541/qarabagin-reinteqrasiyasi-ucun-modeller-ve-onlarin-muzakiresi 31-07-2023, 03:41*

*7. Qarabağın erməni sakinlərinin reinteqrasiya prosesi. https://respublika-news.az/news/qarabagin-ermeni-sakinlerinin-reinteqrasiya-prosesi 2023-03-30 06:40:25*

*8. "Qarabağ ermənilərinin reinteqrasiyası üçün xüsusi modellər düşünmək niyyətimiz yoxdur". https://report.az/qarabag/deputat-qarabag-ermenilerinin-reinteqrasiyasi-ucun-xususi-modeller-dusunmek-kimi-niyyetimiz-yoxdur/ 26 Avqust, 2023. 18:38*

*9. Qloballaşma, modernləşdirmə və innovasiyalı təhsil sisteminin paradiqması. https://mail.muallim.edu.az/news.php?id=12285#prettyPhoto 31 İyul 2020.*

## XÜLASƏ:

Sənaye inqilabından sonra modernləşmə prosesi sürətlə inkişaf etməkdədir. İnqilabdan sonrakı dövr ərzində dünyada zaman-zaman müharibələr baş vermişdir. Bu müharibələrin iqtisadi, sosial və s. fəsadları modernləşmə prosesinin inkişafını kifayət qədər ləngidir. Bunun üçün ölkələr bütün sistemi əhatə edən alternativ model yaratmaq təşəbbüsünü irəli sürürlər. Bu modellərdən Aland adaları və Xorvatiya modelləri, Slovakiyanın macar azlığı və Fələstin formullarını nümunə çəkmək olar. Hər bir modelin özünəməxsus müsbət və mənfi cəhətləri mövcuddur. Bu modellər dünya sınağından keçərək digər ölkələrin də istifadə

mənbəyinə çevrilə bilir. Belə ki, Azərbaycan Respublikası həyata keçirdiyi anti-terror əməliyyatından sonra Xorvatiyanın reinteqrasiya modelinin təcrübələrindən yararlanaraq vahid Bakı proqramı hazırladı. Xorvatiya modeli sosial modeldir. Çünki, görülən işlərin hər biri cəmiyyət həyatında bütün cəmiyyət üzvlərini əhatə edən bir fəaliyyət mexanizmidir. Hər nə qədər bu model müsbət qarşılansa da Azərbaycan Respublikasının siyasi fəaliyyətinin nəticələri ilə bir o qədər çuğlaşmır.

**Açar sözlər:** *sosial model, müharibə, post-müharibə, sülh, reinteqrasiya, modernləşmə, Xorvatiya, Azərbaycan.*

**ZUMRUD HUSEYNOVA**
*Doctoral student*
*ANAS, Institute of Philosophy and Sociology*

## THE EFFECTS OF THE CROATIAN MODEL ON THE MODERNIZATION PROCESS IN THE POST-WAR PERIOD

### SUMMARY*:*

The process of modernization develops rapidly after the industrial revolution. There have been wars in the world from time to time during the period after the revolution. The economic, social, etc. consequences of these wars slow down the development of the modernization process. That's why, countries take the initiative to create an alternative model that covers the entire system. Examples of these models include the Åland Islands and Croatian models, the Hungarian minority of Slovakia, and the Palestinian formulas. Each model has its own pros and cons. These models have passed the world test and can become a source of use in other countries. Thus, the Republic of Azerbaijan developed a unified Baku program, taking advantage of the experience of Croatia's reintegration model after the anti-terrorist operation. The Croatian model is a social model. Because each of the works is an activity mechanism that includes all members of the society in the life of the society. However, when this model is received positively, it does not match the results of the political activity of the Republic of Azerbaijan.

**Keywords:** *social model, war, post-war, peace, reintegration, modernization, Croatia, Azerbaijan.*

**ЗУМРУД ГУСЕЙНОВА**
*Докторант*
*НАНА, Институт философии и социологии*

## ВЛИЯНИЕ ХОРВАТСКОЙ МОДЕЛИ НА ПРОЦЕСС МОДЕРНИЗАЦИИ В ПОСЛЕВОЕННЫЙ ПЕРИОД

### РЕЗЮМЕ:

После промышленной революции процесс модернизации развивается быстрыми темпами.В послереволюционный период в мире время от времени происходили войны. Экономические, социальные и т. д. последствия этих войн тормозят развитие процесса модернизации. Для этого страны берут на себя инициативу по созданию альтернативной модели, охватывающей всю систему. Примеры этих моделей включают модели Аландских островов и Хорватии, венгерское меньшинство в Словакии и палестинские формулы. Каждая модель имеет свои плюсы и минусы. Эти модели прошли мировые испытания и могут стать источником использования в других странах. Таким образом, после антитеррористической операции Азербайджанская Республика разработала единую Бакинскую программу, воспользовавшись опытом хорватской модели реинтеграции. Хорватская модель – это социальная модель. Потому что каждое из произведений представляет собой механизм деятельности, включающий в жизнь общества всех членов общества. Однако, когда эта модель воспринимается положительно, она не соответствует результатам политической деятельности Азербайджанской Республики.

**Ключевые слова:** *социальная модель, война, послевоенный мир, реинтеграция, модернизация, Хорватия, Азербайджан.*

UOT 316
DOI:10.30546/3006-0346.2023.6.78.201

# SOSİAL TƏHLÜKƏSİZLİYİN TƏMİNATİNDA AİLƏ İNSTİTUTUNUN QORUNMASININ ƏHƏMİYYƏTİ

**AYNUR BAĞIRLI**
*Sosiologiya üzrə fəlsəfə doktoru*
*E-mail: aynur_baghirli@gmail.com*

## Giriş

Ailə cəmiyyətin özəyi, özündə müəyyən dəyərlərin nəsildən-nəsilə ötürülməsinə təsir edən sosial institutdur. Ailə eyni zamanda, kiçik sosial qrup olaraq cəmiyyətə təsiredici qüvvəyə sahibdir. Hər bir ailə özünəməxsus dəyərlər toplusu ilə cəmiyyətin struktur olaraq əsasını təşkil edir. Ailə haqqında müxtəlif təriflər verilsə də, konkret bir tərif qəbul edilməmişdir. Ümumilikdə baxsaq isə sosioloji baxımdan deyə bilərik ki, ailə müəyyən qohumluq münasibəti ilə, qan bağı ilə bir-birinə bağlı olan insanlar qrupudur. Ərəbcə kökünə baxdıqda ailə sözünün mənası dayaq deməkdir.

Ailə sosioloji, psixoloji termin, cəmiyyətdə istifadə edilən ümumişlək ifadə olmaqla yanaşı siyasi xüsusiyyət daşıyır. Belə ki, ailə münasibətlərinin tənzimlənməsində hüquqi normaların tərtibi və tətbiqi bu anlayışın siyasi mahiyyətini açır. Ailənin rifahının yaxşılaşdırılması tədbirləri genişmiqyaslı, eyni zamanda kompleks xarakter daşıyır. Burada ölkələrin sosial, siyasi, iqtisadi tədbirləri məqalədə əksini tapmışdır.

Ailə anlayışı özündə hər bir ölkənin ailə siyasəti, erkən evlilik, reproduktiv sağlamlıq, boşanma, qohum nikah, rol bölgüsündə qeyri-sabitlik kimi problemləri özündə daşıyır. Erkən evlilik, reproduktiv sağlamlıq, boşanma və qohum nikahların gətirdiyi sosial problemlər açıqlanmış, həmçinin sosial problemlərin həlli öz əksini tapmışdır.

## Cəmiyyətin özəyi olan ailə

Cəmiyyətin özəyi olan ailənin qorunması, tarixən dəyərlərin birləşdiyi ailə institutlarının gələcək nəsillərə çatdırılması, sağlam ailənin formlaşması, təbliği, gənclərin, cəmiyyətin inkişafında ailənin rolu həm də ailəni sosial təhlükəsizliyin təminatçısına çevirir. Ailə ilə bağlı aparılan siyasət dövlətlərin ailə institutlarına verdiyi önəmi ortaya çıxarır. Ailələrin qorunması üçün müxtəlif ölkələrdə müxtəlif sosial təhlükəsizlik tədbirləri həyata keçirilir. Bunlar ailənin maddi cəhətdən təminatı ilə yanaşı ailə üzvlərinin mənəvi təminatını, sağlamlığını hədəfləyən tədbirlərdir. Doğum sayının aşağı olduğu ölkələr ailəni dəstəkləyən proqramların icrasında daha maraqlıdır. Onlar ailənin nəsilartırma funkisyalarını açıq dəstəkləyir və sosial xərcləri buna yönəldərək, uşaq müavinətlərinin verilməsini təmin edir. Demoqrafiq cəhətdən stabil ölkələr isə ailə institutlarının qorunması üçün gənc ailələri dəstəkləyən proqramların icrasına daha maraqlıdır. Bu baxımdan ailə siyasətlərini müxtəlif kateqoriyalara bölmək olar. Ailənin maddi gəlirlərinin artırılmasına yönələn siyasətlər, ailə üzvlərinin təhsil baxımından inkişafını dəstəkləyən siyasətlər, həmçinin ailənin gücləndirilməsi üçün həyata keçirilən xidmətləri daxil etmək olar. Avropa ölkələrində ailə dəstəkləyici proqramlara vergi xərclərinin azaldılması da daxildir. Belə ki, işləməyən ailə üzvünə görə verginin azaldılması həyata keçirilir. Danimarkada bu sistem tətbiq edilir.

## Ailəyə yanaşma

Ailəyə yanaşmanın tarixi inkişafı nəticəsində ailə hədəfli iki model mövcuddur. Birinci model- Ailə Teoriyası, ikinci model-Ailə terapiya modeli. Ailəyə yanaşmada 3 təməl yanaşma var.

1. Funksional yanaşma;
2. Sembolik yanaşma;
3. İnkişafedici yanaşma;

Bu yanaşmalardan başqa ailə institutuna "Ümumi sistemlər nəzəriyyəsi" əsasında yanaşılmışdır. Bu nəzəriyyə əsasında ailəyə birbaşa və bilavasitə təsir edən sistemlərin ailə ilə əlaqələnməsi və təsirləşməsinə diqqət yetirilir.

Sosial sistem kimi ailə dəyərləri beş əsas sistemi özündə birləşdirir.

• Ailə üzvləri arasında bağlılıq;

Ailəni üzvlərinin hər birinin qərarları və davranışları digər üzvlərin müqəddəratına birbaşa, yaxud bilavasitə təsir edir.

• Ailə sərhədləri;

Hər bir ailənin öz sərhədləri və dəyərləri mövcuddur. Ailədəki fərdlərin seçimləri və maraqları bu sərhədlər əsasında formalaşır. Sərhədlərə uyğunlaşma fərdlərin bir-birinə bağlanması və bir qrup olaraq bir-birlərini qəbullanmasında müsbət təsir göstərir.

• Enerji təsirləşməsi;

Ailənin sərhədlərinin olmasına baxmayaraq ətraf

mühitdə baş verən bəzi hadisələr fərdlərə və ümumilikdə ailəyə təsir edə bilir. Bunu daha aydın izah etmək üçün bir neçə nümunə qeyd etmək olar: COVİD 19 pandemiyasının yayılması, iqtisadi inflyasiya və bu kimi bir çox faktları qeyd edə bilərik.

• Tarazlıqlı davranış;

Ailədə uyğunlaşmanın olmasını ifadə edən anlayışı ifadə edir. Bəzən bu davranış həddən artıq olduqda və ya olması lazım olan zamanlarda olmadıqda disfunksionallıq meydana gələ bilər.

• Hədəfi yönümlü davranış;

Ailənin müəyyən ümumi hədəfləri olması ailədə güvən, sevgi, bağlılıq hisslərinin artmasına, inkişafına şərait yaradır.

Ailə aşağıdakı xüsusiyyətlərə görə tiplərə bölünür:

• Böyüklüyünə görə:

o Mürəkkəb ailə

o Nuklear ailə

• Yerləşdiyi yerə görə:

o Şəhərdə yaşayan

o Regionlarda yaşayan

o Kənddə yaşayan

o Gecəqonduda yaşayan [ 9, s 143, 147]

**Azərbaycan hökuməti və ailə institutu**

Azərbaycan hökuməti də ailə institutunun saxlanılması, onun möhkəmləndirilməsi üçün çoxsaylı tədbirlər həyata keçirir. Gücləndirmə siyasəti daha çox uşaqların dünyaya gəlməsi zamanı reallaşan tədbirlər hesab edilə bilər. Yeni uşağın dünyaya gələn zaman anaya verilən analıq məzuniyyəti (ataya da məzuniyyətin verilməsi müzakirə edilir) verilir. Ana övladın dünyaya gəlməsindən öncə və sonrakı iki ay müddətində işdən analıq məzuniyyətinə buraxılır. Bu ananın sağlamlığı ilə yanaşı maddi cəhətdən də xərclərin qarşılanması prosesini dəstəkləyir. Ataya məzuniyyətin verilməsi məsuliyyət və rol bölgüsü baxımından çox əhəmiyyətlidir. Ailə anlayışı siyasi baxımdan mövcudluğu bir sıra sosial problemlərin mövcudluğunun açılmasına və problemlərin həllinin araşdırılmasına imkanlar açır.

Azərbaycanda ailə siyasətinin əsas istiqaməti ailələrin dağılmasının qarşısını almaq, onları böhran vəziyyətindən çıxarmaq, yaxud onların bu vəziyyətə gəlməmələri üçün sistemli tədbirlər reallaşdırmaqdır. Bu istiqamətdə ilkin addım qızların təhsildən yayınmasının qarşısının alınmasıdır. Bu, həm də qızların erkən nigaha daxil olmalarının qarşısını alır. Ailəyə mənəvi dəstək istiqamətli və yönləndirməyə xidmət edən istiqamətlərdən biri Ailə terapiyalarının aparılmasıdır. Bir çox gənc ailələrin rol bölgülərini düzgün anlaması və boşanma ilə nəticələnməyən ailə həyatı üçün ailə terapiyalarının əhəmiyyəti böyükdür. Ənənəvi Azərbaycan ailəsi müəyyən dəyişikliklərə məruz qalmadığı zamanlar bu funksiyanı daha çox ailə böyükləri icra edir, gənc ailənin özlərini təsdiq edənə qədər onlara mənəvi dəstək olurdu. Hazırda mediasiya prosesində münaqişəli ailələrlə iş aparılır. Fikrimizcə, bu prosesi evlilikdən öncə və evliliyin ilk illərində xüsusi ailə psixoloqları yaxud sosial işçilər söhbət apararaq müəyyən qədər həll edə bilər. Gənclər ailə həyatı ilə bağlı maarifləndirilməli, onun çətinlikləri və böhranlı vəziyyət şəraitində tərəflərin daha az zərər çəkməsinə ailənin möhkəmlənməsi üçün əhəmiyyətlidir.

